İCMA ƏSASLI MƏKTƏBƏQƏDƏR TƏHSİL

2023-2024

TƏRBİYƏÇİ-MÜƏLLİMLƏR ÜÇÜN

# TƏDRİS PROQRAMI

# Mündəricat


*Oktyabr | 1-ci həftə | Mövzu: "Tanış olun, bu mənəm!"* ................................ 6

1-ci gün ........ 6

2-ci gün ........ 9

3-cü gün ........ 12

4-cü gün ........ 14

*Oktyabr | 2-ci həftə | Mövzu: "Mən və mənim ailəm"* ................................ 16

1-ci gün ........ 16

2-ci gün ........ 20

3-cü gün ........ 23

4-cü gün ........ 26

*Oktyabr | 3-cü həftə | Mövzu: "Mənim ətrafım"* ................................ 28

1-ci gün ........ 28

2-ci gün ........ 31

3-cü gün ........ 34

4-cü gün ........ 37

*Oktyabr | 4-cü həftə | Mövzu: "Mənim evim"* ................................ 39

1-ci gün ........ 39

2-ci gün ........ 42

3-cü gün ........ 44

4-cü gün ........ 46

*Noyabr | 5-ci həftə | Mövzu: "Payız"* ................................ 48

1-ci gün ........ 48

2-ci gün ........ 51

3-cü gün ........ 55

4-cü gün ........ 57

*Noyabr | 6-cı həftə | Mövzu: "Yurdumuzun ağacları"* ................................ 59

1-ci gün ........ 59

2-ci gün ........ 62

3-cü gün ........ 65

4-cü gün ........ 67

*Noyabr | 7-ci həftə | Mövzu: "Meyvələr"* ................................ 69

1-ci gün ........ 69

2-ci gün ........ 71
3-cü gün ........ 73
3-cü gün ........ 76
4-cü gün ........ 78
*Noyabr | 8-ci həftə | Mövzu: “Quşlar” ........ 80*
1-ci gün ........ 80
2-ci gün ........ 83
3-cü gün ........ 86
4-cü gün ........ 89
*Dekabr | 9-cu həftə | Mövzu: “Peşələr” ........ 91*
1-ci gün ........ 91
2-ci gün ........ 95
3-cü gün ........ 98
4-cü gün ........ 101
*Dekabr | 10-cu həftə | Mövzu: “Bizim geyimimiz” ........ 103*
1-ci gün ........ 103
2-ci gün ........ 106
3-cü gün ........ 109
4-cü gün ........ 111
*Dekabr | 11-ci həftə | Mövzu: “Qışın əlamətləri” ........ 113*
1-ci gün ........ 113
2-ci gün ........ 116
3-cü gün ........ 119
4-cü gün ........ 121
*Dekabr | 12-ci həftə | Mövzu: “Yeni il gəlir!” ........ 123*
1-ci gün ........ 123
2-ci gün ........ 125
3-cü gün ........ 127
4-cü gün ........ 127
*Yanvar | 13-ci həftə | Mövzu: “Mən və sağlamlığım” ........ 128*
1-ci gün ........ 128
2-ci gün ........ 131
3-cü gün ........ 134
4-cü gün ........ 137

*Yanvar | 14-cü həftə | Mövzu: "Sağlam və qeyri-sağlam qida"* .................... 139
1-ci gün .......... 139
2-ci gün .......... 141
3-cü gün .......... 143
4-cü gün .......... 145
*Yanvar | 15-ci həftə | Mövzu: "Nəqliyyat"* .......... 147
1-ci gün .......... 147
2-ci gün .......... 150
3-cü gün .......... 152
4-cü gün .......... 154
*Yanvar | 16-cı həftə | Mövzu: "Mən piyadayam"* .......... 156
1-ci gün .......... 156
2-ci gün .......... 158
3-cü gün .......... 160
4-cü gün .......... 163
*Fevral | 17-ci həftə | Mövzu: "Ev heyvanları"* .......... 165
1-ci gün .......... 165
2-ci gün .......... 168
3-cü gün .......... 171
4-cü gün .......... 173
*Fevral | 18-ci həftə | Mövzu: "Vəhşi heyvanlar"* .......... 175
1-ci gün .......... 175
2-ci gün .......... 178
3-cü gün .......... 181
4-cü gün .......... 184
*Fevral | 19-cu həftə | Mövzu: "Heyvanlar və onların balaları"* .......... 186
1-ci gün .......... 186
2-ci gün .......... 189
3-cü gün .......... 192
4-cü gün .......... 194
*Fevral | 20-cı həftə | Mövzu: "Kim harada yaşayır"* .......... 196
1-ci gün .......... 196
2-ci gün .......... 199
3-cü gün .......... 201

4-cü gün ........ 204

*Mart | 21-ci həftə | Mövzu: "Bahar"* ........ 206

1-ci gün ........ 206

2-ci gün ........ 209

3-cü gün ........ 213

4-cü gün ........ 216

*Mart | 22-ci həftə | Mövzu: "Tərəvəzlər"* ........ 218

1-ci gün ........ 218

2-ci gün ........ 221

3-cü gün ........ 224

4-cü gün ........ 226

*Mart | 23-cü həftə | Mövzu: "Novruz  bayramı"* ........ 227

1-ci gün ........ 227

2-ci gün ........ 230

3-cü gün ........ 233

4-cü gün ........ 235

*Aprel | 24-cü həftə | Mövzu: "Həşəratlar"* ........ 236

1-ci gün ........ 236

2-ci gün ........ 240

3-cü gün ........ 243

4-cü gün ........ 245

*Aprel | 25-ci həftə | Mövzu: "Çiçəklər"* ........ 247

1-ci gün ........ 247

2-ci gün ........ 251

3-cü gün ........ 254

4-cü gün ........ 256

*Aprel | 26-cı həftə | Mövzu: "Evlər"* ........ 258

1-ci gün ........ 258

2-ci gün ........ 260

3-cü gün ........ 263

4-cü gün ........ 265

*Aprel | 27-ci həftə | Mövzu: "Ev əşyaları"* ........ 267

1-ci gün ........ 267

2-ci gün ........ 269

3-cü gün ........ 272
4-cü gün ........ 274
*May | 28-ci həftə | Mövzu: “Azərbaycanın dövlət rəmzləri” ........ 276*
1-ci gün ........ 276
2-ci gün ........ 278
3-cü gün ........ 281
4-cü gün ........ 283
*May | 29-cu həftə | Mövzu: Azərbaycan təbiəti ........ 285*
1-ci gün ........ 285
2-ci gün ........ 288
3-cü gün ........ 291
4-cü gün ........ 294
*May | 30-cu həftə | Mövzu: Azərbaycan mədəniyyəti ........ 296*
1-ci gün ........ 296
2-ci gün ........ 299
3-cü gün ........ 302
4-cü gün ........ 304
*May | 31-ci həftə | Mövzu: Biz böyüdük! ........ 306*
1-ci gün ........ 306
2-ci gün ........ 308
3-cü gün ........ 311
4-cü gün ........ 313

## Oktyabr | 1-ci həftə | Mövzu: “Tanış olun, bu mənəm!”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Məqsəd:** Uşaqları özünü təqdim etmə bacarığı ilə tanış etmək.

Öyrədən uşaqları salamlayır və onlara yastıqları götürüb dairədə oturmağı təklif edir. Özünü təqdim etdikdən sonra Öyrədən uşaqlardan özlərini təqdim etməyi xahiş edir. Daha sonra Öyrədən bir oyun oynamağı təklif edir.

**Öyrədən:** *“Uşaqlar, biz bir oyun oynayacağıq. Mən topu növbə ilə hər birinizə tərəf diyirlədəcəyəm. Topu tutan uşaq adını söyləyib topu mənə tərəf geri diyirlədəcək”.*

***Uğur göstəricisi:*** Özünü təqdim edə bilir. Qrupda uşaqların və işçi heyətinin (öyrədənin) adını bilir.

***Təqvimlə iş***

**Məqsəd:** Gündüzü təsvir etməyi və günəşli hava şəraitini adlandırmağı öyrətmək.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Günəşli hava

Öyrədən günəşli havanın rəsmini uşaqlara göstərir və onu təsvir edir ***(Əlavə 1).***

**Barmaq oyunu: “Günəş”**
Günəş oyanır, qalxır yuxarı, yuxarı, (*əllər yuxarı qaldırılır*)

Yorulanda enir aşağı, aşağı. (*əllər aşağı endirilir*)
Sevinc doludur parlaq günəşimiz, (*əllər qövsvari qarşılaşdırılaraq günəş düzəldilir*)
Şən yaşayırıq onunla biz. (*hamı əl çalır*)

***Uğur göstəricisi:*** Günəşli havanı təsvir edir (günəş parıldayır) və günəşli hava şəraitini adlandırır.

**Qeyd:** Salamlaşma lövhəsində hava durumunu göstərən rəsmləri nümayiş etdirmək lazımdır. ***(Əlavə 2).***

***Mövzuya giriş***

**Öyrədən:** *“İndi mən adınızı çəkmədən sizdən birinizi təsvir edəcəyəm. Siz isə kimdən bəhs etdiyimi tapmalısınız. (Saçı qısadır, qızdır, Ayxanın yanında əyləşib, qırmızı don geyinib). Bu kimdir?”* (qrupun bütün uşaqları bu şəkildə təsvir olunur).

**Qeyd:** Öyrədən uşaqların bilik və hazırlıq səviyyəsinə əsasən təsvirə başlayır. Məsələn: Daha geniş təsvir ilə uşağı tapmaqlarına imkan yaradıla bilər. Mavi və ya ala gözü var, ağbənizdir və ya saç rəngi açıq rəngdədir.

**Öyrədən:** *“Bu gün biz bədən üzvlərimizlə tanış olacağıq”.*

### Ətraf aləmlə tanışlıq: “Özünü dərk et” (bədən hissələri)

**Məqsəd:** Uşaqların bədən hissələri və onların təyinatı barədə biliklər vermək.

***Hissə 1. Mövzuya giriş***

**Öyrədən:**

- *“Uşaqlar, sizə görməyə, eşitməyə, tullanmağa, qaçmağa, danışmağa, yeməyə, geyinməyə nə kömək edir?* (uşaqların cavabı)

- *Siz öz köməkçilərinizi saydınız. Gəlin onların necə köməkçilər olduğu və sizə necə kömək etdikləri haqqında danışaq. Bizim gözlərimiz nə üçündür?* (uşaqların cavabı)
- *Göz görməyə kömək edir. Onları qorumaq lazımdır. Gözümüzü külək və tozdan göz qapaqları və kirpiklər qoruyur.*
- *İnsana qulaq nə üçün lazımdır? Bəli, eşitmək və qulaq asmaq üçün.*
- *Qulaqları necə qorumaq lazımdır? Bəli, çimərkən onları da yumaq lazımdır.*
- *Burnumuzla nə edirik?*
- *Burnun təmiz qalması üçün hansı əşya lazımdır?* (salfet)
- *Ağzımızda hansı köməkçilərimiz var?*
- *Dil və dişlər nəyə lazımdır? Dişlərə qulluq üçün hansı sehrli çubuq lazımdır?* (diş fırçası)
- *Daha nə lazımdır?* (diş məcunu)
- *İnsana əllər və ayaqlar nə üçün lazımdır?* (uşaqların cavabı)
- *Əsas köməkçilər bizim əllərimizdir. Əlləri nə vaxt yumaq lazımdır? Əllərinizi necə yuyursunuz? Göstərin".*

### *Hissə 2. İdman fasiləsi*

"Kim sevirsə idmanı" Musiqisi: Oktay Zülfüqarov, sözləri: Səttar Zərdablı.

*Kim sevirsə idmanı, 1, 2, 3, 4,*
*Poladdan olar canı, 1, 2, 3, 4.*
*İdmanı sevirik biz,1, 2, 3, 4,*
*Bərkiyir bədənimiz,1, 2, 3, 4.*

### *Hissə 3. Oyun: "Sözü tamamla"*

**Öyrədən:** *"Mən hərəkəti deyirəm, siz isə onu yerinə yetirən bədən üzvünün adını deyirsiniz.*

- Yeyirik, oxuyuruq, danışırıq. (ağız)
- Tuturuq, saxlayırıq. (əllər)
- Yeriyirik, qaçırıq, tullanırıq. (ayaqlar)
- Toxunuruq, sığallayırıq, rəsm çəkirik. (barmaqlar)"

### *Hissə 4. Praktik tapşırıqlar.*

**Bədən üzvləri** ***(Əlavə 3)***

Öyrədən uşaqlara öncədən kəsilmiş və qarışdırılmış bədən üzvləri təqdim edir. Öyrədən seçdiyi şagirdlə oyuna başlayır. **Öyrədən:** *"Mən sənə* (oyunu oynayan şagirdə xitab edir) *hər hansı bir hərəkət deyəcəm, sən isə həmin hərəkəti yerinə yetirən orqanı tapıb adını deyəcəksən".*

**Qeyd:** Oyunu üç şagird eyni zamanda oynaya bilər. Bu zaman vəsait bölümündə olan bədən üzvlərindən üç nüsxə istifadə edilməlidir. Bu oyunun kollektiv oynanılması üçün uşaqlar 3 qrupa bölünməli və hər bir qrupa Əlavə 3-də verilən 3 nüsxə təqdim edilməlidir.

***Uğur göstəricisi:*** Əsas bədən üzvlərinin adlarını və onların funksiyasını bilir.

## Hərəkətli oyun: "Dövrə-dövrə"

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

*Vermişik biz əl-ələ,*
*Gəzirik dövrə-dövrə.*
*Ay dostum (Amin, Leyla) göstər,*
*Təkrar eləyək biz də.*

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hər hansı bir gülməli formada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayır. Sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və həmin uşaq növbəti aparıcı olur. Oyun təkrar olunur, bu dəfə dairə əks-istiqamətdə hərəkət edir.

***Yapma: "Plastilinlə tanış oluruq"***

**Məqsəd:** Uşaqları plastilin və onun xüsusiyyətləri və istifadə qaydaları ilə tanış etmək.

**Öyrədən:** *"Baxın bu plastilindir. O yumşaqdır, ondan gözəl və maraqlı əşyalar düzəltmək olur".*

Öyrədən müxtəlif rəngli plastilin parçalarını bir neçə hissəyə bölür və uşaqlara sevdikləri rəngdə plastilin seçməyə imkan yaradır. Bundan sonra Öyrədən plastilini yoğurmağı, onu müxtəlif istiqamətlərdə əzərək formaya salmaq üsullarını göstərir. Uşağa vaxt məhdudiyyəti qoyulmadan plastilinlə oynamaq üçün şəraiti yaradılır.

***Uğur göstəricisi:*** Plastilini yoğurmağı, onu müxtəlif istiqamətlərdə əzməyi bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:**

*"Uşaqlar, siz insanın hansı bədən üzvünü yadınızda saxladınız? Uşaqlar, üzükdən nə üçün istifadə edirik? Onu hansı bədən üzvümüzə taxırıq? Afərin hər birinizə!"*

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Məqsəd:** Uşaqları özünü təqdim etmə bacarığı ilə tanış etmək.

**Öyrədən:** *"Sabahınız xeyir, uşaqlar! Sizi görməyə çox şadam. Kim mənə öz adını xatırlatmaq istəyir?"*

**Öyrədən:** *"Uşaqlar, biz bir oyun oynayacağıq. Dünən oynadığımız oyunda topu sizə mən diyirlədirdim. Bu gün topu siz bir-birinizə diyirlədəcəksiniz. Topu tutan uşaq adını söyləyib topu istədiyi dostuna diyirlədir və bu zaman onun adını deyir".*

Öyrədən oyunu birinci başlayır, topu istənilən şagirdə diyirlədir, həmin şagirdin adını deyir.

***Uğur göstəricisi:*** Özünü təqdim edə bilir. Qrupda uşaqların və işçi heyətinin (öyrədənin) adını bilir.

### *Təqvimlə iş*

**Məqsəd***:* Yağışlı hava şəraitini adlandırmağı və təsvir etməyi öyrətmək.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Yağışlı hava ***(Əlavə 4)***

Öyrədən yağışlı havanı təsvir edir (şəkil, video kimi vəsaitlərdən istifadə oluna bilər).

**Barmaq oyunu: "Yağış"**

Öyrədən barmaqları ilə yağışın yağmasını uşaqlara göstərir. O, yağışın səsini uşaqlara dinlədir.

Uşaqlar sinif otağında istənilən səthi seçir (döşəmə, masanın üzəri, divar). Öyrədən, *"yağış möhkəm yağır", "yağış yavaş yağır", "yağış kəsdi", "yağış şiddətləndi"* ifadələrini işlədir. Uşaqlar bu sözləri eşidərkən barmaqlarını seçdikləri səthə toxundurur (tez-tez, sürətli), toxunarkən "tık-tık-tık-tık (sürətli)" və ya "tıııık-tıııık-tıııık (həzin)" səsini çıxarır (yağışın sürətinə görə).

***Uğur göstəricisi:*** Yağışlı havanı təsvir edir (su damcıları, yağışın səsi) və yağışlı hava şəraitini adlandırır.

### *Mövzuya giriş*

**Vəsaitlər:** Kəndir

Öyrədən 2 metr uzunluğunda bir ipin (kəndir) iki tərəfini birləşdirib düyünləyir. Sonra o ipi döşəməyə qoyub müxtəlif formalara çevirir (dairə, kvadrat).

**Qeyd:** Öyrədən bu formalardan ancaq dairəni adlandırır. Digər formaları uşaqlara izləməyə imkan verir.

Öyrədən ipi dairənin mərkəzində yerləşdirir. Uşaqlar əl-ələ tutub dairə düzəldirlər.

**Öyrədən:** *"Uşaqlar, biz indi bir-birimizdən uzaqlaşaraq bacardığımız qədər böyük dairə düzəldəcəyik. Sonra yaxınlaşaraq döşəmədə gördüyünüz ip ölçüsündə forma düzəldəcəyik".*

**Öyrədən:** *"Uşaqlar biz indi bu gördüyümüz formalar haqqında öyrənəcəyik".*

## Riyaziyyat: Kvadrat və dairə ilə tanışlıq

**Məqsəd:** Dairə və kvadratı düzgün adlandırmağı və fərqləndirməyi öyrətmək.

**Vəsaitlər:** Hər uşaq üçün kəsilmiş mavi (böyük) və qırmızı (kiçik dairə) rəngli kağızlar. Dairə, kvadrat fiqurları, kvadrata oxşayan oyuncaqlar və əşyalar olan qutu (kitab, qutu və s.) ***(Əlavə 5)***

### *Hissə 1. Mövzunun təqdim edilməsi*

**Öyrədən:** *"Uşaqlar, bu gün dairə bizə qonaq gəlib* (dairə göstərilir). *Gəlin dairəni öyrənək: o yumrudur, yastıdır, bucaqları yoxdur, onu diyirlətmək olar.*

- *Bu dairədir. Dairə hansı rəngdədir?* (Öyrədən böyük mavi dairəni göstərir) *Bəs bu dairə hansı rəngdədir?* (Öyrədən kiçik qırmızı dairəni göstərir)
- Öyrədən dairəni uşaqlara göstərərək *"Sizcə, hansı dairə böyükdür?* (uşaqların cavabları)*"*
- *Gəlin cavablarınızı yoxlayaq. Baxın mən qırmızı dairəni mavi dairənin üzərinə qoyuram. Görürsünüz, mavi dairənin bir hissəsi kənara çıxır, deməli, mavi dairə böyükdür.*
- *Uşaqlar, dairə bizə bu gün dostu ilə qonaq gəlib. İndi biz onu yaxından tanıyacağıq* (sarı kvadrat göstərilir) *Bu hansı həndəsi fiqurdur?* (kvadrat)
- *nə rəngdədir?* (sarı)

*Afərin! İndi mən isə sizə hekayə danışmaq istəyirəm.*

### *Hissə 2. Hekayə saatı. Dairə və Kvadrat*

*Biri var idi, biri yox idi. Bir dairə var idi. O, gəzməyə çıxdı, yolla diyirləndi, diyirləndi, birdən rastına ona oxşamayan qəribə nə isə çıxdı. Dairə təəccübləndi:*

- Sən kimsən?
- Mən kvadratam. Bəs sən kimsən?
- Mən dairəyəm. Gəl bir yerdə yolda diyirlənək.
- Kvadrat diyirlənməyə çalışdı, lakin bacarmadı. Dairə təəccübləndi, kvadratı nəzərdən keçirdi və anladı ki, onun 4 tərəfi və 4 bucağı var. Axı bunların heç biri dairədə yox idi.
- Mən anladım sən niyə diyirlənə bilmirsən – dairə güldü.

**Qeyd:** Nağılı dinlədikdən sonra uşaqlar aşağıda qeyd olunan sualı cavablandırmalıdırlar.

**Sual:** *"Uşaqlar, bəs siz necə düşünürsünüz? Kvadrata diyirlənməyə mane olan nədir? Dairə niyə rahatlıqla diyirlənirdi?"*

### *Hissə 3. Oyun: "Oxşarını tap"*

**Öyrədən:** *"Uşaqlar, bu səbətdən kvadrata oxşar əşyaları tapıb götürməlisiniz və əlinizi yuxarı qaldırıb göstərməlisiniz".*

### *Hissə 4. Praktik tapşırıqlar*

**Öyrədən:** *"Uşaqlar, mən barmağımla mavi dairə boyu gəzirəm. Baxın barmağım haradan başlayıbsa, ora da qayıdır. İndi mənim barmağım qırmızı dairə boyunca gəzəcək, siz də masalarınızın üzərindəki dairələrinizi götürüb mənimlə birlikdə gəzin görək hara çatırıq?"*

***Uğur göstəricisi:*** Dairə, kvadrat fiqurlarını tanıyır və öz ətrafında oxşar fiqurları tapa bilir.

## Hərəkətli oyun: Oxuyuruq və göstəririk. Mahnı: *Çiyin, qollar ayağım...*

Öyrədən hər hansı mahnı ritmini səsləndirərək bu sözlərlə hərəkətli oyun keçirə bilər.

**Sözlər:**
Baş, çiyin, diz və ayaq barmaqları,
Baş, çiyin, diz və ayaq barmaqları,
Gözlər və qulaqlar, ağız və burun,
Baş, çiyinlər, dizlər və barmaqlar.
**Qeyd**: Uşaqlar mahnının sözləri oxunarkən jestlərlə təsvir edilən bədən üzvlərini göstərməyə çalışırlar.

## İdman

**Məqsəd:** Uşaqları dairə boyu addımlamaq, qaçmaq, iki ayaq üzərində tullanmaq hərəkətləri üzrə məşq etdirmək.

### *Hissə 1.*

Uşaqlar dairəyə düzülür. Öyrədənin siqnalı ilə bir-birinin ardınca dairə boyu gəzir, sonra qaçırlar. Hərəkətlərin sürəti dəyişir.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

1. İlkin vəziyyəti – ayaqlar bir pəncə enində aralı, qollar yanda. Əlləri önə aparmaq, sonra ilkin vəziyyətə qaytarmaq *(4-5 dəfə).*
2. Ayaqlar çiyin bərabərində aralı, əllər beldə. İrəli doğru əyilmək, əlləri dizlərə toxundurmaq, ilkin vəziyyətə qayıtmaq *(5 dəfə).*
3. Ayaqlar bir pəncə enində aralı, əllər beldə. Oturmaq, əlləri irəli aparmaq və ilkin vəziyyətə qayıtmaq *(4-5 dəfə).*
4. Ayaqlar aralı, əllər beldə. Sağa və sola əyilmək, dikəlmək, ilkin vəziyyətə qayıtmaq *(hər tərəfə 3 dəfə).*
5. Ayaqlar az aralı, qollar yanda. İki ayaq üstə yerində 8 dəfə tullanmaq. *(2 dəfə təkrar etmək).*

### *Hissə 3. "Top kimi tullanaq"*

Öyrədən iri diametrli topu götürür və onun yerdən necə yaxşı sıçradığını göstərir (bir əli ilə topu yerə vurur), sonra uşaqlara ona yaxınlaşmağı və iki ayaq üstə "top kimi" tullanmağı təklif edir. Uşaqlar tullanırlar, Öyrədən isə "tullan-hoppan" deyərək hərəkətin ritmini verir.

***Uğur göstəricisi:*** Dairə boyu addımlamaq, qaçmaq, iki ayaq üzərində tullanmaq hərəkətlərini yerinə yetirə bilir. Qabağa hərəkət etməklə bir və iki ayaq üstə tullanır.

## Sərbəst fəaliyyət: Stolüstü qrup oyunları

## Son toplantı

Öyrədən şən musiqinin sədaları altında dairə boyunca qaçmağı təklif edir. Dairənin mərkəzində döşəkçə olur. Musiqi dayandırılanda uşaq istəyinə görə döşəkçənin üstünə çıxır və məşğələdə ən çox nəyi bəyəndiyini deyir, hamı onu alqışlayır. Musiqi yenidən qoşulur və oyun eyni qayda ilə davam edir.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Məqsəd:** Uşaqları özünü təqdim etmə bacarığı ilə tanış etmək.

**Öyrədən:** *"Salam, uşaqlar! Dünən məşğələmizdən sonra necə dincəldiniz? Gəlin dairədə yenidən oturaq. Mən bu topu kimə diyirlətsəm, həmin uşaq ucadan adını deyəcək və hər kəsi xoş bir sözlə salamlayacaq".*

(top bütün uşaqlara ünvanlanır, hər kəs adını bir daha xatırladır)

***Uğur göstəricisi:*** Özünü təqdim edə bilir. Qrupda uşaqların və işçi heyətinin (müəllimin) adını bilir.

### *Təqvimlə iş*

**Məqsəd:** Buludlu hava şəraitini - Buludlu  təsvir etməyi və adlandırmağı öyrətmək.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Buludlu hava.

Öyrədən buludlu havanı təsvir edir (şəkil, video kimi vəsaitlərdən istifadə oluna bilər)  ***(Əlavə 6).***

### *Barmaq oyunu: "Buludlar"*

Öyrədən barmaqları ilə havada dairə çəkir və deyir "*Uşaqlar havada bu gün balaca buludlar var*". Öyrədən havada çəkdiyi dairələrin diametrini böyüdərək  "*Uşaqlar səmadakı buludlar böyüyür*". Öyrənənlər də Öyrədənin etdiyi hərəkətləri təkrarlayır, havada çəkdikləri buludları böyüdür, balacalaşdırırlar.

***Uğur göstəricisi:*** Buludlu  havanı təsvir edir və adlandırır.

### *Mövzuya giriş*

Öyrədən uşaqlardan birinin rəsmini lövhəyə yapışdırır və soruşur: *"Uşaqlar, lövhədə bir uşaq rəsmi var. Sizcə, o kimin uşaqlıq rəsmidir?"*

**Qeyd:** Öyrədən uşaqlara bu rəsmin kimə aid olduğunu tapmağa kömək edir.

Uşaqlar rəsmdəki uşağı tapdıqdan sonra həmən uşaq lövhəyə dəvət edilir və öz uşaqlıq rəsminin yanında dayanır.

**Öyrədən:** *"Uşaqlar, baxın Orxanın uşaqlıq rəsmi ilə indiki görünüşü arasında nə qədər fərq var. Biz bu gün Orxanın necə belə böyüdüyü barəsində danışacağıq".*

## Nitqin inkişafı: Biz necə böyüyürük?

**Məqsəd:** Şəkil əsasında suallara cavab verməyə və öz təəssüratlarını bölüşməyə maraq yaratmaq.

### *Hissə 1. Mövzuya giriş*

Öyrədən öncədən lövhəyə yapışdırdığı uşaq şəkillərinin onların yaş ardıcıllığına görə düzür (1 yaş, 2 yaş, 3 yaş, 4 yaş). ***(Əlavə 7)*** Öyrədən uşaqların böyüməsində və uşaqların yaşına uyğun qabiliyyətindən danışır (şəkil, video, audio kimi vəsaitlərdən istifadə oluna bilər) ***(Əlavə 7).***

A. *"Uşaqlar, biz balaca olanda gəzə bilmirik, iməkləyirik. Özümüz yemək yeyə bilmədiyimiz üçün bizi anamız yedizdirirdi. Bizim dişlərimiz də yox idi. Ona görə də biz əmzikdən istifadə edirdik".*
   Öyrədən uşaqlara körpə rəsmi nümayiş etdirir.
B. *"Uşaqlar, bizim üç yaşımız olanda bizi uşaq deyə çağırırlar. Biz artıq özümüz sərbəst gəzə bilirik, yeməyimizi yeyə bilirik, topla oynayırıq".* Öyrədən uşaqlara uşaq rəsmləri nümayiş etdirir.

Beləliklə, Öyrədən qocalana qədər insanların necə dəyişdiyini rəsmlər əsasında uşaqlara deyir.

**Qeyd:** Öyrədən hər dönəmdə insanların müxtəlif adlarla çağırıldığını başa salmalıdır. Məsələn. 0 yaş-yeni doğulan uşaq, 1 yaşa qədər körpə, 2-12 yaş-uşaq, 12-18 yaş yeniyetmə, 20 yaşdan yuxarı-qadın və ya kişi, 50 yaşdan yuxarı-yaşlı qadın və ya yaşlı kişi.

### *Hissə 2.*

Öyrədən bu mövzunun tədrisi əsasında qətiyyən yaş kəliməsini işlətməməlidir. Yalnız uşaq qadın, qoca, körpə kəlimələrindən istifadə etməlidir.

### *Hissə 3. Praktik hissə. Müqayisə*

**Öyrədən:** *"Uşaqlar, indi gəlin özümüzü uşaqlıq görüntümüz ilə müqayisə edək".*

Öyrədən çıxış edən uşaqların uşaqlıq rəsmlərini divara yapışdırır. Onları müvafiq olaraq rəsmlərinin yanında dayanmasını xahiş edir. Digər uşaqlar çıxış edən uşağın necə dəyişdiyini qeyd edir.

### *Hissə 4. Biliyin nümayişi | Oyun: "Kim bilir?"*

**Öyrədən:** *"Uşaqlar, biz bu gün hər bir yaşa uyğun istifadə olunan əşyaları müzakirə etdik. Mən sizə onları göstərdim".*

Öyrədən hər bir dönəmdə insanların müxtəlif əşya istifadə etdiyini uşaqlara aşılamalıdır. Məsələn, körpə-əmzik bezlər, 3-4 yaş top, oyuncaq, 7-18 yaş-kitab və ya dəftər ***(Əlavə 7).*** Öyrədən bütün yaşlara uyğun insan şəkillərini lövhəyə yapışdırır. Masanın üzərinə isə həmin yaşa uyğun əşyaları yerləşdirir. Uşaqlar Öyrədənin əli ilə göstərdiyi yaş kateqoriyası üçün əşya növü göstərməlidir.

***Uğur göstəricisi:*** Şəkil və oyuncaqlara baxarkən suallara cavab verir, öz təəssüratlarını bölüşür.

## Hərəkətli oyun: "Dövrə-dövrə"

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

*Vermişik biz əl-ələ,*
*Gəzirik dövrə-dövrə.*
*Ay dostum (Amin, Leyla) göstər,*
*Təkrar eləyək biz də.*

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hər hansı bir gülməli formada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayırlar. Sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və həmin uşaq növbəti aparıcı olur. Oyun təkrar olunur, bu dəfə dairə əks-istiqamətdə hərəkət edir.

## Rəsm: "İnsan"

**Məqsəd:** Xarici görünüşün xarakterik xüsusiyyətlərini əks etdirərək, qələmlə insan rəsmini çəkməyi öyrətmək.

Öyrədən mərhələlərlə insanın rəsminin necə çəkildiyini göstərir. Uşaqlar müəllimin ardınca təkrar edirlər: bədən (böyük dairə), baş (kiçik dairə), əllər və ayaqlar (düz xəttlər), gözlər, burun, ağız, qulaqlar və saçlar. Hər uşağın əl işini imzalamaq və tərifləmək **mütləqdir**.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

Öyrədən uşaqların uşaqlıq rəsmlərini qarışdırır, masanın üzərinə qoyur. Bir-bir rəsmləri seçir və uşaqlardan rəsmdə olan uşağı tanımasını istəyir.

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** *"Sabahınız xeyir! Sizi yenidən görməyə şadam. Gəlin birlikdə "Olsa, ayağa qalx" oyunu oynayaq. Hər kəs sinifdə gəzir və özünə istədiyi yerdə yer seçir və donmuş vəziyyətdə dayanır.*

1. *Kimin saçı qısadır? Düzdür! A... nın.*
2. *Kim A...nın yanında oturub?*
3. *Kimin əynində qırmızı (digər rəng də ola bilər) ətək var? Düzdür! F.....ın.*
4. *Kim yerindən tərbənmədən əlini uzatsa F...ə toxuna bilər görür? və s.*

*İndi biz bir-birimizin adlarını daha yaxşı bilirik".*

### *Təqvimlə iş*

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti - Günəşli, Yağışlı, Buludlu.

**Öyrədən:** *"Uşaqlar, kim Günəşin hərəkətlərini göstərə bilər? Kim yağışlı havanı göstərə bilər? İndi isə gəlin buludlu havanı barmaqlarımızın köməyi ilə göstərək".*

**Barmaq oyunu: "Günəş, Yağış, Buludlar"**

### *Mövzuya giriş*

**Öyrədən:** *"Bu gün həftə ərzində öyrəndikərimizi bir daha xatırlayacağıq".*

## İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** Uşaqları dairə boyu addımlamaq, qaçmaq, iki ayaq üzərində tullanmaq hərəkətləri üzrə məşq etdirmək.

### *Hissə 1.*

Uşaqlar dairədə düzülürlər. Öyrədənin siqnalı ilə uşaqlar bir-birinin ardınca dairə boyu gəzir, sonra qaçırlar. Hərəkətlərin sürəti dəyişir.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

5. İlkin vəziyyəti – ayaqlar bir pəncə enində aralı, qollar yanda. Əlləri önə aparmaq, sonra ilkin vəziyyətə qaytarmaq *(4-5 dəfə).*
6. Ayaqlar çiyin bərabərində aralı, əllər beldə. İrəli doğru əyilmək əlləri dizlərə toxundurmaq, ilkin vəziyyətə qayıtmaq *(5 dəfə).*
7. Ayaqlar bir pəncə enində aralı, əllər beldə. Oturmaq, əlləri irəli aparmaq və ilkin vəziyyətə qayıtmaq *(4-5 dəfə).*
8. Ayaqlar aralı, əllər beldə. Sağa və sola əyilmək, dikəlmək, ilkin vəziyyətə qayıtmaq *(hər tərəfə 3 dəfə).*
9. Ayaqlar az aralı, qollar yanda. İki ayaq üstə yerində 8 dəfə tullanmaq. *(2 dəfə təkrar etmək).*

### *Hissə 3. "Top kimi tullanaq"*

Öyrədən iri diametrli topu götürür və onun yerdən necə yaxşı sıçradığını göstərir (bir əli ilə topu yerə vurur), sonra uşaqlara ona yaxınlaşmağı və iki ayaq üstə "top kimi" tullanmağı təklif edir. Uşaqlar tullanırlar, Öyrədən isə "tullan-hoppan" deyərək hərəkətin ritmini verir.

***Uğur göstəricisi:*** Dairə boyu addımlamaq, qaçmaq, iki ayaq üzərində tullanmaq hərəkətlərini yerinə yetirə bilir.

## Hərəkətli oyun: Oxuyuruq və göstəririk. Mahnı: *Çiyin, qollar ayağım...*

Öyrədən hər hansı mahnı ritmini səsləndirərək bu sözlərlə hərəkətli oyun keçirə bilər.

*Sözlər:*
*Baş, çiyin, diz və ayaq barmaqları,*
*Baş, çiyin, diz və ayaq barmaqları,*
*Gözlər və qulaqlar, ağız və burun,*
*Baş, çiyinlər, dizlər və barmaqlar.*

**Qeyd:** Uşaqlar mahnının sözləri oxunarkən jestlərlə təsvir edilən bədən üzvlərini göstərməyə çalışırlar.

## Səsli nağıl zamanı

***Elmer***

Meşədəki bütün fillər hamısı eynidir, bircə Elmerdən başqa. O, dama-dama, ala-bəzək fildir. Bir gün o, fərqli olmaqdan yorulur və nəticədə digər fillərin böyük gülüşünə səbəb olan macəralar baş verir...

**Link:** https://youtu.be/CUV4c0Yme04

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Elmerin digər fillərdən fərqi nədə idi?
2. Digər fillər nəyə görə Elmerə gülürdülər? Sizcə fillər düz edirdilər? (Yox)
3. Nağılın sonunda Elmerə nə oldu?

## Son toplantı

Öyrədən uşaqlara dairə boyu qaçmağı təklif edir. Dairənin mərkəzində döşəkçə var. Uşaqlar növbə ilə bu döşəkçənin üstünə çıxıb yoldaşlarının hər hansı bir yaxşı xüsusiyyətini qeyd edirlər. Digər uşaqlar onu alqışlayırlar.

# Oktyabr | 2-ci həftə | Mövzu: “Mən və mənim ailəm”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Məqsəd:** Uşaqları özünü təsvir və təqdim etmə bacarığı ilə tanış etmək.

**Öyrədən:** *“Sabahınız xeyir! Sizi təkrar görməyə şadam”.*

Öyrədən öncədən hazırladığı, bəzətdiyi qutunu və 4x4 ölçülü kağız parçalarını dairənin ortasına yerləşdirir.

**Öyrədən:** *“Uşaqlar, sizə verdiyim kağız parçalarında özünüzü təsvir edin. Fəaliyyətini bitirəndə rəsmləri təqdim edin”.* Uşaqlar özünü bir-iki cümlə ilə təsvir edir, öz rəsmlərini qutunun içərisinə yerləşdirirlər.

**Qeyd:** Öyrədən uşaqların rəsmlərin altında adlarını qeyd edə bilər. Belə ki, əksər hallarda rəsm sadəcə bir çizgi və ya halqadan ibarət ola bilər. Bu uşağın ilk qələm ilə təsviri olduğu üçün Öyrədən öyrənəni yönləndirməməlidir. Rəsm olduğu kimi qrupa təqdim edilməlidir.

***Uğur göstəricisi:*** Özünü təqdim və təsvir edə bilir.

***Təqvimlə iş***

**Məqsəd:** Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini - Küləyi adlandırmağı öyrətmək. ***(Əlavə 8)***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Küləkli  hava

Öyrədən küləkli havanı (sərt külək, sərin meh) təsvir edir (şəkil, video, audio kimi vəsaitlərdən istifadə oluna bilər).

**Barmaq oyunu: “Külək”**

Öyrədən küləkli havanın səsini çıxarır və soruşur: *“Uşaqlar eşitdiyiniz nəyin səsidir?”*

Öyrədən əllərini  havada sağa-sola doğru hərəkət etdirir: “*Uşaqlar, deyəsən, hava küləklidir*”. Öyrədən əllərini daha yavaş hərəkət etdirərək “*Külək yox! Sərin meh əsir*”. Öyrənənlər də Öyrədənin etdiyi hərəkətləri təkrarlayır, qollarını sağa-sola hərəkət etdirərək küləyi təsvir etməyə çalışırlar.

***Uğur göstəricisi:*** Küləkli havanı təsvir (sərt külək, sərin meh) edir və küləkli  hava şəraitini adlandırır.

***Mövzuya giriş***

**Öyrədən:** *“Bu həftə biz ailəmiz haqqında danışacağıq. Kim deyər “ailə” nə deməkdir?”*

**Barmaq oyunu: “Mən və mənim ailəm”**

Gəlin gözəl ailəmlə,
Tanış edim sizi mən.
Bu barmağım babamdır, (baş barmaqdan başlayaraq barmaqlar açılır)
Bu barmağım nənəmdir,
Bu barmağım atamdır,
Bu barmağım anamdır,
Bu barmaq isə mənəm,
Budur bütün ailəm! (açılmış ovcumuzu oynadırıq).

## Ətraf aləmlə tanışlıq: Mən və mənim ailəm.

**Məqsəd: "Ailə bir-birinə sevgi və qayğı göstərən birlik kimi" anlayışını formalaşdırmaq.**

### *Hissə 1. Əqli hücum*

**Öyrədən:** *"Uşaqlar, sizinlə bir evdə kimlər yaşayır?"*

Öyrədən dairə üzrə topu ötürür və uşaqlar danışırlar.

### *Hissə 2. Müzakirə. Sərgi*

**Öyrədən:** *"Uşaqlar, bizim qrupda "Mənim ailəm" foto sərgisi* (uşaqların ailə şəkilləri və öncədən valideynlərdən toplanıb və sərgilənib) *açılıb. Kim öz ailəsi haqqında danışmaq istəyir?"*

Uşaqlar öz arzusu ilə ailəsinin fotoşəklinə yaxınlaşır və şəkildəkiləri təqdim edirlər. Təqdimatın gedişatında Öyrədən ailə üzvləri barədə suallar verir: kimin adı nədir, ailə harada şəkil çəkdirib və s.)

**Öyrədən:** *"Fikir verdiniz, hamımız ailəmiz haqqında bəhs edərkən gülümsədik? Niyə gülümsədiyimizi kim deyər?"* (ailə üzvlərimizi sevirik, ana və atamız yanımızda olanda əhvali-ruhiyyəmiz yaxşı olur, hamının bir yerdə şəkil çəkdirdiyi günü xatırlamaq xoşdur və s.)

**Öyrədən:** *"Uşaqlar, ailənizdə sizə kim qayğı göstərir? Necə qayğı göstərirlər?* (uşaqların cavabları) *Bəs siz ailənizdə böyüklərə qayğı göstərirsiniz?"*

### *Hissə 3. Şeir saatı. "Ailəm" şeiri (Sevinc Nuruqızı)[1]*

*Evimiz də var,*
*Eyvanımız da.*
*Xorhaxor yatan,*
*Məstanımız da.*
*Gözəl nənəm var,*
*Saçı gümüşü.*
*"Can" söyləməkdir,*
*Nənəmin işi.*
*Bax, bu babamdır,*
*Əlində əsa.*
*Sözü uzatmaz,*
*Söyləyər qısa.*
*Anamla atam,*
*Çalışır mənim.*
*Bacımla başım,*
*Qarışır mənim.*

[1] Mənbə: Uşaq ədəbiyyatı №30. Link: http://anl.az/down/meqale/merkez/2011/yanvar/152222.htm

## *Hissə 4. Praktik tapşırıq. Kim kimin nəyidir?*




*“Uşaqlar, mən sizə ata-analarınızın, nənə-babalarınızın rəsmlərini verəcəm. Siz isə onları doğru hissəyə uyğunlaşdıracaqsınız”.*

Öyrədən nümunədə verildiyi kimi atanın valideynlərini və ananın valideynlərini ata və ananın rəsminin altına düzgün yerləşdirməyə uşaqlara kömək edir.

**Qeyd**: Bu məşğələ zamanı Öyrədən yaşlı qadın-kişi, uşaq, qadın-kişi kimi kəlimələrdən istifadə edərək öncəki (biz necə böyüdük) mövzuya inteqrasiya etməlidir.

## *Hissə 5. Müzakirə və məşğələnin bağlanması*



Öyrədən sigar formalı kağızlardan uşaqlara barmaq kuklaları üçün kağızlardan konusvari formalar hazırlayır. Hər kəs öz ata-anasının rəsmini o barmaq kuklalarının üzərinə yapışdıra bilər.

**Qeyd:** Bu məşğələ vaxt apardığından valideynlər bu tapşırığı evdə edə bilər və dərsə hazır şəkildə göndərə bilərlər. Bu zaman Öyrədən valideynləri təlimatlandırmaq məqsədilə valideynlərə təlimatlandırıcı mesaj və ya video göndərə bilər.

***Uğur göstəricisi:*** Ailənin bir-birinə sevgi və qayğı göstərən birlik olduğunu anlayır.

## Hərəkətli oyun



Uşaqlar öz düzəltdiyi barmaq kuklaları ilə oynaya və ya hekayə uydura bilərlər.

## Yapma: “Bütün ailə üçün rəngli çətir”

**Məqsəd:** Plastilinlə işləmək bacarığını möhkəmləndirmək; plastilindən top düzəltmək və ovuclar arasında onu yastılatmağı, yaranan diskə müəyyən forma verməyi öyrətmək.

**Öyrədən:**

- *“Uşaqlar, baxın bu mənim çətirimdir. Deyin görüm, o necədir?* (müxtəlifrənglidir, əlvandır, damı yarımdairəvidir və tutacağı var)
- *İlin hansı fəslində biz tez-tez çətirdən istifadə edirik?*
- *Siz də öz çətirinizi düzəldin. Gəlin damından başlayaq: topu düzəldirik, sonra yastıladırıq və kənarlarını kasada olduğu kimi qaldırırıq. Damı hazırdır. Tutacağına keçirik. Balaca plastilin topundan çubuq düzəldirik və bir tərəfini qarmaq şəklinə salırıq. Tutacaq alındı. İndi tutacağı dam ilə birləşdiririk, qaldı bəzəmək. Budur, hazırdır, nə gözəl!”*

***Uğur göstəricisi:*** Yönləndirilməklə yumru və uzun formalar düzəldir və onları birləşdirir.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** Uşaqlar, ailənizə nə arzu etmək istərdiniz? Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Bu gün hamınıza afərin!

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Məqsəd:** Uşaqları özünü təsvir və təqdim etmə bacarığı ilə tanış etmək.

**Öyrədən:** *"Sabahınız xeyir! Hamınızı görməyə çox şadam".*

Öyrədən öncəki gün uşaqların rəsmlərini qoyduğu qutunu dairəyə gətirir.

**Öyrədən:** *"Uşaqlar, mən indi qutudakı kağızları qarışdıracam və hər hansı bir kağızı seçəcəm. Rəsmi sizə göstərəcəm. Siz isə həmin dostunuzu tapmağa çalışacaqsınız".*

Öyrədən seçdiyi rəsmi uşaqlara göstərir: *"Uşaqlar, bu rəsmdəki oğlandır, saçı qəhvəyidir. O A....in yanında dayanıb".*

**Qeyd 1:** Öyrədən günlük davamiyyəti bu oyun vasitəsilə qeyd edə bilər.

**Qeyd 2:** Bu oyunu uşaqların foto rəsmləri ilə də oynamaq olar.

***Uğur göstəricisi:*** Özünü və dostlarını təsvirinə görə tanıyır.

### *Təqvimlə iş*

**Məqsəd:** Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Qarlı  hava. ***(Əlavə 9)***

Öyrədən qarlı havanı (ağ qar ləpələri) təsvir edir (şəkil, video, audio kimi vəsaitlərdən istifadə oluna bilər).

**Barmaq oyunu: "Qar"**

Öyrədən əllərini (barmaqlarını) yumur-açır. "*Uşaqlar, deyəsən, qar yağır*". Öyrənənlər də Öyrədənin etdiyi hərəkətləri təkrarlayır, barmaqlarını açır-yumur, qarın yağmasını təsvir etməyə çalışırlar.

***Uğur göstəricisi:*** Küləkli havanı təsvir (sərt külək, sərin meh) edir və küləkli hava şəraitini adlandırır.

### *Mövzuya giriş*

Sinifdə tıqqıltı səsi eşidilir. Öyrədən pəncərəyə yaxınlaşır və pəncərənin qarşısında məktub tapır (Məktubu pəncərənin önünə öncədən yerləşdirir)

**Öyrədən:** *"Uşaqlar, dovşan bizə məktub gətirib. Gəlin zərfi birlikdə açaq".*

Öyrədən zərfi uşaqlarla açır və içindən həndəsi fiqurlar - dairə, üçbucaq, kvadrat və oval çıxarır.

## Riyaziyyat: Oval və üçbucaq həndəsi fiquru ilə tanışlıq

**Məqsəd:** Oval və üçbucaq həndəsi fiquru ilə tanış etmək; keçilmiş həndəsi fiqurları ətrafdakı əşyalarda tanımaq bacarığını möhkəmləndirmək

**Vəsaitlər:** dairə, üçbucaq, oval, üçbucaq.

### *Hissə 1. Mövzuya giriş*

Öyrədən dairəni uşaqlara göstərir:

- "Uşaqlar, dovşan bizə nə gətirib? (dairə)
- Dairə nə rəngdədir?
- Gəlin barmağımızı dairənin kənarı boyunca gəzdirək.

- Dovşan bizə bir fiqur da gətirib (üçbucaq zərfdən çıxarılır), bu nədir?
- Bunu bilmək (dəqiqləşdirmək) üçün gəlin onun tərəflərini sayaq. Neçə tərəfi var bu fiqurun?
- Bəs bucaqları hansılardır? Neçə bucağı var bu fiqurun?
- Beləliklə, bu bizim 3 bucaqlı, 3 tərəfli üçbucaq fiqurumuzdur.

*Bəs üçbucaq dairədən nə ilə fərqlənir? (*uşaqlar cavab verməkdə çətinlik çəkərlərsə, Öyrədən kömək edir*)*

## *Hissə 2. Riyazi nağıl saatı*

**Öyrədən:** *"Uşaqlar, gəlin sizə bir nağıl danışım.*

*Biri var idi, biri yox idi. Həndəsi fiqurlar - üçbucaq, kvadrat, dairə və ovaldan ibarət mehriban bir ailə var idi.*

*Bir gün üçbucaq, kvadrat və dairə oturub (*müəllimə evin həndəsi təsvirini ağ lövhədə çəkir*) çay içirdilər.*

- Onların nəlbəkiləri sizə nəyi xatırladır? (dairə)
- Bəs qurabiyə nəyi xatırladır? (kvadrat)
- Bəs salfet hansı formada qatlanıb? (üçbucaq)

Fiqurlar birdən musiqi eşidirlər. Pəncərədən baxanda yolda qaçan bir həndəsi fiqur görürlər *(*Öyrədən *ovalı göstərir).* Elə bilirlər dairədir. Sonra diqqətlə baxıb görürlər ki, bu dairə deyil, çünki onun tərəfləri dairəvi deyil, ovaldır.

**Sual-cavab:**

*Uşaqlar, həndəsi fiqurların sizə sualları var.* (Öyrədən müvafiq həndəsi fiqurları göstərərək davam edir)

- Mən üçbucağam, mənim üç bucağım var. Uşaqlar, mən nəyə bənzəyirəm? (kökə, oxun ucuna, evin damına və s.)
- Mən kvadratam, mənim dörd bucağım var. Mən nəyə bənzəyirəm? (evə, masaya, qəndə, qurabiyəyə və s.)
- Mən dairəyəm, mənim heç bucağım yoxdur. Mən nəyə bənzəyirəm? (günəşə, topa)
- Mən isə ovalam, mənim də bucağım yoxdur. Mən digər həndəsi fiqurlardan hansına bənzəyirəm? (dairəyə, çünki bucağın yoxdur). Bəs ondan fərqim nədir?

## *Hissə 3. Praktik tapşırıq*



*"Uşaqlar, oval qaçıb ya bağda, ya da bostanda gizləndi. Digər həndəsi fiqurlar da onunla gizlənqaç oynamaq qərarına gəldilər və onu axtarmağa getdilər. Gəlin onları tapaq".* Öyrədən lövhəyə kök, xiyar, balqabaq, badımcan və turpun şəklini yerləşdirir və ovalın bunlardan hansında gizləndiyini soruşur. (uşaqların cavabı: balqabaq, xiyar)

Öyrədən növbə ilə digər həndəsi fiqurlara oxşar meyvə və tərəvəzləri də lövhədə yerləşdirib onların hansı həndəsi fiquru xatırlatdıqlarını soruşur.

### *Hissə 4. Oyun: “Eynisini tap”*

**Vəsaitlər:** kağızdan kəsilmiş dairə və üçbucaqlar

Masanın üzərində, hər uşağın qarşısında dairə və üçbucaq həndəsi fiqurları var. Öyrədən növbə ilə dairə və üçbucağı göstərir. Uşaqlar qarşılarındakı fiqurlardan eynisini tapıb yuxarı qaldırır və adını deyirlər.

Öyrədən əldə olan fiqurun kənarı boyunca barmaqla gəzməyi nümayiş etdirir, uşaqlar təkrar edirlər.

Sonda üçbucağın bucaqları görünməmək şərti ilə dairə onun üzərinə yerləşdirilir. Bir daha iki fiqur arasındakı fərqlər müzakirə olunur.

***Uğur göstəricisi:*** Oval və üçbucaq həndəsi fiquru ilə tanışdır; keçilmiş həndəsi fiqurları ətrafdakı əşyalarda tanımaq bacarığına malikdir.

## Hərəkətli oyun: “Topu ötür”

**Vəsaitlər:** 2 top, yaxud digər iki eyni oyuncaq.

Uşaqlar iki komandaya bölünür və bir-birinin ardınca iki cərgədə düzülürlər. Hər cərgədə birinci dayanan uşağa top, yaxud digər oyuncaq verilir. Uşaqlar topu bir-birinə başlarının üstündən ötürürlər. Top axırıncı uşağa çatanda o, eyni qayda ilə topu irəliyə ötürür. Topu bu yolu ən tez keçən komanda qalib gəlir.

### *İdman*

**Məqsəd:** Öyrədənin işarəsi ilə hərəkət etmək; topu qüvvətlə itələmək bacarığını inkişaf etdirmək.

### *Hissə 1.*

Uşaqlar bir cərgə ilə gəzirlər. Öyrədənin “qarğa” siqnalı ilə  dayanıb “kar-kar-kar” deyir və sonra gəzməyə davam edirlər. Öyrədənin  “kəpənəklər” siqnalı ilə uşaqlar əllərini yana açaraq yavaş qaçırlar.

### *Hissə 2. Topla ümuminkişaf  hərəkətləri*

1. Ayaqlar bir pəncə enində aralı, top iki əl ilə aşağıda tutulub. Topu yuxarı qaldırmaq, dartınıb topa baxmaq. Topu aşağı endirib ilkin vəziyyətə qayıtmaq *(4–5 dəfə).*
2. Ayaqlar bir pəncə enində aralı, qollar sinə səviyyəsində bükülü. Yarımoturaq vəziyyətdə topla döşəməyə toxunmaq, dikəlib ilkin vəziyyətə qayıtmaq *(4–5 dəfə).*
3. Ayaqlar çiyin bərabərində aralı, qollar sinədə bükülü. Sağ (sol) ayaq tərəfə əyilib topla döşəməyə toxunmaq; dikəlib ilkin vəziyyətə qayıtmaq *(4–6 dəfə).*
4. Dizlər üstündə oturmaq, top iki əl ilə öndə tutulub. Topu hər iki istiqamətdə bədən ətrafında fırlatmaq *(2-3 dəfə).*

### *Hissə 3. Əsas hərəkət növləri*

Qrup iki yerə bölünür, otağın əks tərəflərində bir-birinin qarşısında döşəmədə otururlar. Öyrədən siqnalı ilə hər uşaq topu qarşısındakı yoldaşına ötürür. Sonra toplar geri ötürülür *(3-4 dəfə).*

***Uğur göstəricisi:*** Böyük şəxsə topu atır, topu tutur və topu ayağı ilə vurur.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:**

*Uşaqlar, bu gün hamınıza afərin! Bəs bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq. Bu gün məşğələdə biz nə ilə tanış olduq?*

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Məqsəd: Uşaqlara sinifdə olmayan uşaqları təyin etməyi öyrətmək.**

**Öyrədən:** *"Sabahınız xeyir! Mən sizin hamınızı görməyə çox şadam".*

Öyrədən öncəki gün uşaqların rəsmlərini qoyduğu qutunu dairəyə gətirir.

**Öyrədən:***"Uşaqlar, mən indi qutudakı kağızları qarışdıracam və hər hansı bir kağızı seçəcəm. Rəsmi sizə göstərəcəm. Siz isə həmin dostunuzu tapmağa çalışacaqsınız".*

Öyrədən seçdiyi rəsmi uşaqlara göstərir, *"Uşaqlar bu rəsmdəki oğlandır, saçı qəhvəyidir, adı "A" hərfi ilə bağlayır".*

**Qeyd 1:** Öyrədən günlük davamiyyəti bu oyun vasitəsilə qeyd edə bilər.

**Qeyd 2:** Bu oyunu uşaqların foto rəsmləri ilə də oynamaq olar.

***Uğur göstəricisi:*** **Sinifdə olmayan uşaqları təyin edə bilir.**

### *Təqvimlə iş*

**Məqsəd: Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Şimşək çaxır ***(Əlavə 10)***

Öyrədən Şimşəkli havanı (gurultulu səs gəli, səma işıqlnır) təsvir edir (şəkil, video, audio kimi vəsaitlərdən istifadə oluna bilər).

**Barmaq oyunu: "Şimşək"**

Öyrədən şəhadət barmağını havada ziqzaq formasında hərəkət etdirir: *"Uşaqlar, deyəsən səmada işıq görünür, yağış yağır. Uşaqlar, səmadan səs də gəlir. Şimşək çaxır".* Öyrənənlər də Öyrədənin etdiyi hərəkətləri təkrarlayır.

***Uğur göstəricisi:*** **Şimşəkli havanı təsvir (gurultulu səs gəlir, səma işıqlanır) edir və şimşəkli hava şəraitini adlandırır.**

### *Mövzuya giriş*

**Barmaq oyunu: Dəcəl barmaq**

*Dəcəl barmaq* (barmaqlar yumruqda sıxılıdır)
*Dəcəl barmaq, harada idin?* (baş barmaq açılır)
*Bu qardaşla meşədə idim,* (şəhadət barmağı açılır)
*Bu qardaşla yol gedirdim,* (orta barmaq açılır)
*Bu qardaşla sıyıq yedim,* (adsız barmaq açılır)
*Bu qardaşla şeir dedim.* (çeçələ barmaq açılır)

**Öyrədən:** *"Uşaqlar, dünən məşğələmizdən sonra evdə hansı işdə ailə üzvlərinizə kömək etmisiniz?"*

## Nitqin inkişafı: Ailə üzvlərinin öhdəlikləri.

Məqsəd: **Qohumluq münasibətləri və ailə üzvlərinin öhdəlikləri haqqında anlayışı genişləndirmək**.

### *Hissə 1. Mövzuya giriş*

- *"Uşaqlar, kim deyər, "ailə" nə deməkdir?* (uşaqların cavabı)
- *Sizin ailə üzvləriniz kimlərdir?*
- *Ailədə ən çox kiminlə vaxt keçirirsiniz?*
- *Bəs ailə üzvlərimizi qruplaşdırsaq, necə bölgü apararıq?* (yaşlı-cavan, böyük-kiçik və s.)
- *Valideynlərinizin evdə hansı öhdəlikləri var?*
- *Digər ailə üzvləriniz evdə hansı işlərlə məşğul olurlar?*
- *Sizin ailədə rolunuz nədir?*
- *Ailə üzvləriniz bir-birinə necə müraciət edir?* (Öyrədən nəvazişli sözlərdən misal çəkib uşaqlar fikirlərini ifadə etməyə kömək edir)

*Uşaqlar, ailə bizim dayağımızdır. Ailə üzvlərimizə, onların əməyinə sevgi və hörmətlə yanaşmaq lazımdır".*

### *Hissə 2. Şeir saatı. "Ailəm" şeiri (Sevinc Nuruqızı)*

### *Hissə 3.*

Öyrədən bütün ailə üzvlərini masaya düzür.

Öyrədən: *"Uşaqlar, mən hər bir ailə üzvünün öhdəçilikləri haqqında danışacam. Siz dediyim öhdəliklərin kimin etdiyini qeyd edəcəksiniz.*

*Yemək bişirir, evləyi yığışdırır, bizə qayğı göstərir. O kimdir?*

*İşə gedir, işdən gələndən sonra evdə anama sınıq əşyaları təmir etməyə kömək edir. O kimdir?*

*Gecələr mənə nağıl danışır, anamla mətbəxtdə yemək hazırlayır. O kimdir?*

Məqsəd: **Qohumluq münasibətləri və ailə üzvlərinin öhdəlikləri haqqında fikrini söyləyə bilir.**

## Hərəkətli oyun



Uşaqlar düzəltdiyi barmaq kuklaları ilə oynaya və ya hekayə uydura bilərlər.

## Rəsm: "Mehriban ürək"

Məqsəd: **Uşaqlarda yaradıcı fəaliyyətə maraq yaratmaq.**

**Vəsaitlər:** sulu boya, fırça, qabda su, nəm salfet.

Öyrədən: *"Uşaqlar, sizin ürəyiniz haradadır? Əlinizi ürəyinizə qoyun.*

*Hiss edirsiniz "tup-tup-tup", bu sizin kiçik, mehriban ürəyinizdir. Onda heç bilirsiz nə qədər nəvaziş, sevgi var?*

*Gəlin biz bu hissləri vərəqin üzərinə köçürüb ailəmizə aparaq".*

Öyrədən ürək şəklində kəsilmiş ağ vərəqləri paylayır. Uşaqlar əllərini istədikləri rəng ilə boyayıb ürəyin içində iz qoyurlar. İşlər qurumaq üçün düzülür, uşaqlar evə gedəndə hər kəs öz "ürəyini" aparır.

***Uğur göstəricisi:*** **Yaradıcı fəaliyyətə maraq göstərir.**

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:***"Uşaqlar, "ürəklərinizi" evdə təqdim edərkən ailə üzvlərinizə xoş, mehriban sözlər deməyi unutmayın. Sizə gözəl gün arzu edirəm!"*

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** *“Sabahınız xeyir! Mən sizin hamınızı yenidən görməyə çox şadam. İstirahət günlərini necə keçirməyi düşünürsünüz?”*

***Təqvimlə iş***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraitini təkrar etmək

**Oyun:** Öyrədən həzin musiqi sədaları altında hava durumunu təsvir edir, uşaqlar eşitdikləri hava durumuna uyğun hərəkətləri (Qarlı hava-barmaqlarını yumur-açır, küləkli hava-əllərini havada sağa-sola yelləyir) yerinə yetirir.

***Mövzuya giriş***

**Öyrədən:** *“Bu gün həftə ərzində öyrəndikərimizi bir daha xatırlayacağıq”.*

**Barmaq oyunu: “Topu ötür”**

**Vəsaitlər:** 2 top, yaxud digər iki eyni oyuncaq.

Uşaqlar iki komandaya bölünür və bir-birinin ardınca iki cərgədə düzülürlər. Hər cərgədə birinci dayanan uşağa top, yaxud digər oyuncaq verilir. Uşaqlar topu bir-birinə başlarının üstündən ötürürlər. Top axırıncı uşağa çatanda o, eyni qayda ilə topu irəliyə ötürür. Topu bu yolu ən tez keçən komanda qalib gəlir.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** **Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.**

## Fiziki hərəkətlər

**Məqsəd:** Öyrədən**in işarəsi ilə hərəkət etmək; topu qüvvətlə itələmək bacarığını inkişaf etdirmək.**

***Hissə 1.***

Uşaqlar bir cərgə ilə gəzirlər. Öyrədən “qarğa” siqnalı ilə dayanıb “kar-kar-kar” deyir və sonra gəzməyə davam edirlər. Öyrədən “kəpənəklər” siqnalı ilə uşaqlar əllərini yana açaraq yavaş qaçırlar.

***Hissə 2. Topla ümuminkişaf hərəkətləri***

- Ayaqlar bir pəncə enində aralı, top iki əl ilə aşağıda tutulub. Topu yuxarı qaldırmaq, dartınıb topa baxmaq. Topu aşağı endirib ilkin vəziyyətə qayıtmaq *(4–5 dəfə).*
- Ayaqlar bir pəncə enində aralı, qollar sinə səviyyəsində bükülü. Yarımoturaq vəziyyətdə topla döşəməyə toxunmaq, dikəlib ilkin vəziyyətə qayıtmaq *(4–5 dəfə).*
- Ayaqlar çiyin bərabərində aralı, qollar sinədə bükülü. Sağ (sol) ayaq tərəfə əyilib topla döşəməyə toxunmaq; dikəlib ilkin vəziyyətə qayıtmaq *(4–6 dəfə).*
- Dizlər üstündə oturmaq, top iki əl ilə öndə tutulub. Topu hər iki istiqamətdə bədən ətrafında fırlatmaq *(2-3 dəfə).*

***Hissə 3. Əsas hərəkət növləri***

Qrup iki yerə bölünür, otağın əks tərəflərində bir-birinin qarşısında döşəmədə otururlar. Öyrədənin siqnalı ilə hər uşaq topu qarşısındakı yoldaşına ötürür. Sonra toplar geri ötürülür *(3-4 dəfə).*

***Uğur göstəricisi:*** **Dairə boyu addımlamaq, qaçmaq, iki ayaq üzərində tullanmaq hərəkətlərini yerinə yetirə bilir.**

## Hərəkətli oyun: "Topu ötür"

**Vəsaitlər:** 2 top, yaxud digər iki eyni oyuncaq.

Uşaqlar iki komandaya bölünür və bir-birinin ardınca iki cərgədə düzülürlər. Hər cərgədə birinci dayanan uşağa top, yaxud digər oyuncaq verilir. Uşaqlar topu bir-birinə başlarının üstündən ötürürlər. Top axırıncı uşağa çatanda o, eyni qayda ilə topu irəliyə ötürür. Topu bu yolu ən tez keçən komanda qalib gəlir.

## Səsli nağıl zamanı

***Huşsuz Pişik Moq***

Huşsuzluğu həmişə Moqun başına oyun açır... Amma bir gecə hər şey tərsinə oldu!...

**Link:** https://youtu.be/lYnwHzmhUb4

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Kim diqqət etdi Pişik Moq nə rəngdə idi?
2. Ona nəyə görə huşsuz deyirdilər?
3. Ona nəyə görə yaramaz deyirdilər?
4. Moq nə etdiki ona əsəbiləşdilər?
5. Moq necə oldu ki, qəhrəmana çevrildi?
6. Bəs siz Moqla dost olarsınız?

## Son toplantı

**Öyrədən:** *"Uşaqlar, bu həftə ailəmiz haqqında nələri öyrəndik?*

*Sizə ailənizlə birlikdə gözəl istirahət arzu edirəm!"*

# Oktyabr | 3-cü həftə | Mövzu: “Mənim ətrafım”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** *“Sabahınız xeyir! Yeni gün başladı. Mən sizə gülümsəyirəm, sizdə bir-birinizə gülümsəyin. Nə yaxşı ki, biz bu gün birlikdə burdayıq. Bu gün Laləyə (Sənəmə, Mehdiyə və s.)  nə arzulayaq? Bəs siz mənə nə arzulaya bilərsiniz?”*

Öyrədən davamiyyəti yoxlayır.

***Təqvimlə iş***

**Məqsəd: Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Göy qurşağı.   ***(Əlavə 11)***

**Rənglərin oyunu: “Göy qurşağı”.**

Öyrədən sehrli qutusundan 7 rəngli (qırmızı, göy, yaşıl)  parça (və ya yumşaq rəngli kağızlar) çıxarır. Rəngli parçaları sıra ilə (göy qurşağında olduğu sıralama olmalıdır) döşəməyə düzür. Yeddi nəfər uşaq seçir. Uşaqlara rənglərin adlarını verir. Əli qırmızı, Aydan Sarı, İlahə yaşıl... Və onlardan istədikləri istiqamətdə hərəkət etməyini xahiş edir.

**Öyrədən:** *“Uçun mənim rənglərim yüksək-yüksək səmalara. Çatın buludlara.. Yağışdan sonra qonun bizim dağlara”.*

Uşaqlar sinifdə sərbəst hərəkət edir, sonra döşəməyə öz rənglərinin üzərinə otururlar.

***Uğur göstəricisi:*** **Göy qurşağını təsvir (rəngli, səmadadır) edir və göy qurşağını tanıyır.**

***Mövzuya giriş***

**Öyrədən:** *“Uşaqlar, ətrafınıza göz gəzdirin. Bu gün biz qrup otağımızla tanış olacağıq”.*

### Ətraf aləmlə tanışlıq:  “Bizim qrup”

**Məqsəd: Uşaqları qrup otağı və oradakı əşyaların təyinatı ilə tanış etmək.**  ***(Əlavə 11)***

***Hissə 1. Məlumatın ötürülməsi***

**Öyrədən:** *“Bu bizim qrupdur. Gəlin qrup otağımıza bir yerdə baxaq.*

- *Qrup otağımızda nə var? (*oyuncaqlar*)*
- *Hansı oyuncaqlar var?*
- *Masalar və stullar da görürsünüz, onlar bizə nə üçün lazımdır? (*oynamaq, məşğul olmaq üçün*)*
- *İsveç divarı və xalçamız da var, onlardan nə üçün istifadə edəcəyik? (*oynamaq, idmanla məşğul olmaq üçün*)*
- *Döşəmə haradadır? (*aşağıda*)*
- *Ayaqlarınızı döşəməyə vurun.*
- *Tavan haradadır? (*yuxarıda*)*
- *Əlinizi tavana çatdırın, bir az da yüksəyə qaldırmağa çalışın. Bax bizim qrup otağımız bu qədər hündürdür.*
- *Uşaqlar, bəs maşınların evciyi haradadır?*

- *Maşınların evciyi necə adlanır?* (qaraj*)*
- *Daha hansı oyuncaqların evləri var?* (uşaqlar sadalayırlar, göstərirlər*)*
- *Hər oyuncaq öz evini sevir. İndi bizim qrup otağımız həmişə səliqəli olacaq və sizin köməyinizlə oyuncaqlar öz evlərini heç vaxt unutmayacaqlar.*
- *Uşaqlar, əgər ayaqyoluna getmək istəsəniz, mənə yaxınlaşın, mən sizə kömək edərəm.*

## Hissə 2. Hazırlıq hissəsi



Öyrədən dərsdən əvvəl, kifayət qədər dəftərxana ləvazimatı hazırlamalıdır. (qələm, qələm, kitab, yapışqan, karandaşlar, hökmdar, silgi, qayçı, qələm qutusu, zımba, qələm itiləyici, lent). Hər bir şagirdin çantası olarsa, bu, oyunların oynanılmasını asanlaşdıracaq. Uşaqlar sinifdən seçdikləri  əşyaları öz torbalarına yerləşdirirlər. Sonra hər kəs dairədə əyləşir.

**Qeyd:** Öyrədən hər bir şagird üçün torbanı valideynlərdən istəyə bilər.

## Hissə 3. Müzakirə



Öyrədən hər bir şagirdin çantasını dairənin mərkəzinə boşaltmasını və içərisində olan əşyaları müzakirə etmələrini xahiş edir.

**Öyrədən:** *"Orxan, çantan nə böyükdür? Baxaq görək sən sinifdən öz çantana nə yığmısan?"*

## Hissə 4. Oyun: "Əşyanı mənə gətirin"

Öyrədən bütün əşyaları otağa səpələmə yerləşdirir. Sonra bir uşaq seçir və "Mənə (qayçı) gətir" deyir – seçilən uşaq ayağa qalxmalı, əşyanın yerini tapıb Öyrədənə gətirməlidir (çantanıza ataraq). Hər dəfə fərqli şagird seçərkən obyektləri də dəyişdirir (yerini).

## Hissə 5. Oyun: "Əşyaları dağılt-topla"



Öyrədən şagirdləri iki-iki qruplaşdırır.  Hər qrupa bir çanta dəftərxana ləvazimatı verilməlidir.  Qrupdakı uşaqların biri torbadakı əşyaları sinfə səpələməli, digər isə çantaya toplamalıdır. Uşaqlar bu oyunu Öyrədənin komandası ilə oynaya bilər.

**Qeyd 1:** Bu məşğələ zamanı uşaqlar oyuncaqları və ya ləvazimatları qarışdıra bilərlər. Belə halda uşaqlar bir-birinin torbasından öz əşyalarını tapmalıdırlar.

**Qeyd 2:** Qrupda iki uşaq olduğundan bir uşaq toplayan uşağa nəzarət etməlidir ki, o başqa qrupdakı uşaqların səpdiyi əşyaları gətirməsin.

***Uğur göstəricisi:*** Yaxın ətrafdakı əşyaları və onların təyinatını bilir.

## Hərəkətli oyun: “Tayını tap”

**Resurslar:** Müxtəlif mövzuda şəkillər

**Qayda:** Baxışların köməyi ilə qarşı tərəflə yerdəyişmə etmək

**Məqsəd:**

1. əşyaları qruplaşdırmaq bacarığını formalaşdırmaq;
2. təlimatı anlamaq bacarığı formalaşdırmaq və diqqəti möhkəmləndirmək;
3. kollektivdə dostluq atmosferi yaratmaq.

**Oyunun təsviri:**

Uşaqlar əllərində müxtəlif mövzuda şəkillər (meyvə, tərəvəz, heyvanlar və s.) tutaraq dairədə otururlar. Öyrədən hər hansı bir mövzuda danışır. Məsələn: payızda çoxlu meyvələr yetişir. Əlində meyvə şəkli olan uşaqlar danışmadan, yalnız baxışları ilə özlərinə dost seçib, yerlərini dəyişirlər. Düzgün yerdəyişmə edən uşaqlar qalibdir. Bu hərəkət bir neçə dəfə təkrarlanır və sonda müəllim seçimləri uşaqlarla birlikdə müzakirə edir.

## Yapma: “Üzük”

**Məqsəd:** **Plastilindən halqanın hazırlanmasını öyrətmək.**

Məşğələnin əvvəlində uşaqlara nümunə kimi üzük, yaxud üzük şəkli göstərilir. Üzüyün hansı materiallardan düzəldilməsi ilə bağlı qısa müzakirə aparılır.

Öyrədən plastilini iki ovcu arasında, yaxud masanın üzərində yoğuraraq uzunsov formaya salır. Uşaqlardan bu uzunsov parçanı halqa (üzük) formasına necə sala biləcəyini soruşur. Cavabları aldıqdan sonra Öyrədən uzunsov plastilin parçasının uclarını bir-birinə birləşdirərək “üzük” düzəldir. Uşaqlar eyni addımlarla prosesi təkrar edir.

**Öyrədən:** *“Uşaqlar, üzükdən nə üçün istifadə edirik? Onu hansı bədən üzvümüzə taxırıq?”*

***Uğur göstəricisi:*** **Yönləndirilməklə yumru və uzun formalar düzəldir və onları birləşdirir.**

## Sərbəst fəaliyyət: Stolüstü qrup oyunları

## Son toplantı

**Öyrədən:** *“Gəlin xatırlayaq görək qrup otağımız necədir, içində nə var? Ən çox nəyi bəyəndiniz?”*

Həzin musiqi sədaları altında Öyrədən bugünkü gün haqqında danışır və hər uşaq haqqında xoş bir fikir söyləyir.

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** *“Sabahınız xeyir, uşaqlar! Dünən məşğələmizdən sonra gününüz necə keçdi?”*

Uşaqlar dairədə oturublar.

**Öyrədən:** *“Uşaqlar, gəlin “Olsa, ayağa qalx” oyunu oynayaq.*

- *Kimin qardaşı var?*
- *Kimin bacısı var?*
- *Kimin bacısı və qardaşı var?*
- *Kimin bacısı bizim məktəbə gəlir?*
- *Kim nənə və babası ilə yaşayır?*
- *Kim don geyinməyi sevir?*
- *Kim futbol oynamağı sevir?*
- *Qızlar əl çalsınlar!*
- *Oğlanlar tullansınlar! və s.*

*İndi biz bir-birimizi daha yaxşı tanıyırıq”.*

***Təqvimlə iş***

**Məqsəd:** **Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti: Dumanlı hava ***(Əlavə 11)***

**Rənglərin oyunu: “Duman”**

Öyrədən öncədən çap etdiyi meşə (kitablarda olan rəsmlərdən də istifadə etmək olar) rəsmini uşaqlara göstərir.

**Öyrədən:** *“Uşaqlar rəsmdə nə görürsünüz?”*

*Uşaqlar rəsmi təsvir etdikdən sonra* Öyrədən *rəsmi dairənin mərkəzinə yerləşdirir və üzərinə bir az un səpir.*

**Öyrədən:** *“Uşaqlar ağacları aydın görünür? Bəz siz niyə indi ağacları aydın görmürsünüz?”*

*“Uşaqlar dumanlı hava da belədir. Duman çökəndə biz də yolu, ağacları, meşədəki çiçəkləri aydın görmürük”.*

Öyrədən dumanlı hava təsvir olunan rəsm və ya video göstərir.

***Uğur göstəricisi:*** **Dumanlı havanı təsvir edir və rəsmlərdə görərkən tanıyır.**

***Mövzuya giriş***

Uşaqlar dairədə əyləşiblər. Öyrədən dairə kənarında gəzir və barbağı ilə uşaqların kürəyinə toxunaraq düzbucaqlı rəsmi çəkir. Uşaqlardan gözlərini yummağı və toxunuşu hiss etməyi xahiş edir.

**Öyrədən:** *“-Uşaqlar kürəyinizdə çəkdiyimi indi isə siz barmağınızla döşəmədə çəkin. Sonra isə havada çəkin!”*

*- Sizinlə çəkdiyimiz fiqurun adı dördbucaqlıdır”.*

## Riyaziyyat: Düzbucaqla tanışlıq

**Məqsəd:** **Uşaqları kvadratla müqayisə əsasında düzbucaqla tanış etmək.**

**Vəsait:** üçbucaq, kvadrat, dördbucaqlı, dairə, oval

***Hissə 1.*** Öyrədən ***zərfdən kvadrat çıxarır və uşaqlara göstərir.***

- **Öyrədən:**
  - *"Mən zərfdən hansı fiquru çıxardım? (*kvadrat*)*
  - *Kvadratın nəyi var?*
  - *Kvadratın tərəflərini göstərin.*
  - *Neçə tərəfi var?*
  - *Kvadratın bucaqlarını göstərin.*
  - *Kvadratın neçə bucağı var?"(*çoxlu, dörd*)*
- Öyrədən düzbucaq göstərir:
  - *"Bu fiquru kim tanıyır?*
  - *"Düzbucağın nəyi var?*
  - *Düzbucağın tərəflərini kim göstərər? Neçə tərəfi var?*
  - *Düzbucağın bucaqlarını kim göstərər? Neçə bucağı var?*
  - *Düzbucaqla kvadratın oxşar cəhətləri hansılardır?*
  - *Bəs bu fiqurlar nə ilə fərqlənir?"(*uşaqların cavabı*).*

Öyrədən kvadratı düzbucağın üzərinə qoyur və dəqiqləşdirir ki, düzbucağın iki tərəfi kvadratın iki tərəfindən uzundur.

***Hissə 2. Oyun: "Əksini söylə"***

Öyrədən növbə ilə uşaqlara topu atır və əşyaları uzununa, eninə, hündürlüyünə və s. görə təsvir edən sözlər deyir, uşaqlar isə o sözün əksinin deyir və topu geri atır (uzun yol-qısa yol, hündür ağac-alçaq ağac və s.).

***Uğur göstəricisi:*** **Müqayisə əsasında düzbucaqlını tanıyır. İki qrup əşya arasında müqayisə əsasında 4 rəqəminin alınmasını göstərə bilir.**

## Hərəkətli oyun: "Kim kənarda qaldı?"

**Resurslar**: təbaşir və ya rəngli skoç

**Qayda**: Təlimata uyğun çıxış yolunu axtarıb tapmaq

**Məqsəd:** **Sürətli qərar vermə, koordinasiya, yaradıcı yanaşma, əməkdaşlıq bacarıqlarını formalaşdırmaq.**

**Oyunun təsviri**

Yerdə 2 kiçik kvadrat çəkilir. Uşaqlar iki komandaya ayrılırlar.

**Öyrədən:** *"Hər iki komanda çalışmalıdır ki, komandanın bütün üzvləri kvadratın içərisinə yerləşsinlər. Amma bunu necə edəcəyinizi özünüz tapmalısınız".*

Öyrədən vaxtı təyin edir və oyun başlayır. Bütün komanda üzvlərini kvadrata yerləşdirə bilməyən tərəf uduzur.

## Fiziki hərəkətlər

**Məqsəd:** **İstiqaməti təyin etmək, siqnala görə hərəkət etmək və dörd ayaq üstə tapşırıq yerinə yetirmək bacarığını inkişaf etdirmək.**

### *Hissə 1: Dairə boyu yeriş və qaçış*

Kubiklər dairəyə düzülür. Uşaqlar bir cərgə ilə kubiklər ətrafında əvvəl yeriyir, sonra yavaş qaçırlar. Hərəkətlər növbələnir. Əks-istiqamətdə eyni ardıcıllıqla hərəkətlər təkrar olunur. Tapşırıq yeriş ilə bitir.

### *Hissə 2: Kubiklərlə ümuminkişaf təlimləri*

1. Ayaqlar bir pəncə enində aralı, kubiklər hər iki əldə aşağıda. Kubikləri yanlara, sonra yuxarı qaldırmaq; aşağı salmaq; ilkin vəziyyətə qayıtmaq. *(4-5 dəfə)*
2. Ayaqlar azca aralı, kubiklər hər iki əldə çiyinlərdə. Oturub kubiklərlə döşəməyə toxunmaq. Qalxmaq əvvəlki vəziyyətə qayıtmaq. *(5-6 dəfə)*
3. Oturub ayaqları çarpazlaşdırmaq, kubiklər hər iki əldə dizlərin üstündə. Sağa doğru əyilib, kubiki mümkün qədər uzağa qoymaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkət sol tərəfə təkrar olunur. *(hər tərəfə 2-3 dəfə)*
4. Kubiklərin önündə dayanmaq, əllər sərbəst. Kubiklər ətrafında iki ayaq üstündə qısa fasilə ilə hər iki tərəfə tullanmaq. *(hər tərəfə 2-3 dəfə)*

### *Hissə 3: “Böcəklər” kimi sürünmək*

Öyrədən iki stul (yaxud stol) qoyur və ayaqlarına döşəmədən 50 sm hündürlükdə ip bağlayır. İpin bir tərəfindən 2 metr uzaqlıqda 2 metallofon qoyulur. Əks tərəfdə başlanğıc nöqtəni göstərmək üçün qısa ip qoyulur. Uşaqlar dörd ayaq üstündə, “böcək” kimi iməkləyərək ipə toxunmamaq şərti ilə altından keçir, metallofona çatıb ifa edir, ayağa qalxıb geri qayıdırlar. Uşaq sayı çoxdursa, hərəkət yarımqruplarda yerinə yetirilə bilər.

***Uğur göstəricisi:*** **Müxtəlif istiqamətlərdə müxtəlif üsullarla qaçır. (düz, ziqzaq xətt üzrə və s.)**

## Sərbəst fəaliyyət: Konstruktorlarla oyun

## Son toplantı

**Öyrədən:** *“Uşaqlar, sizin bugünkü fəaliyyətiniz çox uğurlu oldu! Bu gün yeni nə öyrəndiniz? Ən çox nəyi bəyəndiniz? Sizə uğurlu gün arzu edirəm!”*

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** *"Salam, uşaqlar. Bu gün biz topu bir-birimizə ötürərək adımızı və ailəmizdə bizə müraciət olan adı deyərək qrup üzvlərini salamlayacağıq. Mən başlayıram. Mənim adım Banuçiçəkdir. Ailədə məni Banuş çağırırlar. Hər kəsə salam, dostlar!"*

### *Təqvimlə iş*

**Məqsəd:** **Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

Öyrədən hava durumları təsvir olunan kartları öncədən hazırladığı sehrli qutusuna yerləşdirir.

**Öyrədən:** *"Uşaqlar, indi bir oyun oynayacağıq. Siz qutudan kart seçəcəksiniz, sonra yerinizə keçib əyləşəcəksiniz".*

Uşaqlar dairədə əyləşib.

*"Uşaqlar, gəlin "Odursa, hərəkət et " oyunu oynayaq:*

- *Kim günəşdir, qalxsın və oynasın;*
- *Kim yağışdır, qalxsın və oynasın;*
- *Külək və qar birlikdə oynayın".*

***Uğur göstəricisi:*** Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandıra bilir.

### *Mövzuya giriş*

**Öyrədən:** *"Uşaqlar, bu gün biz yaxşı və pis əməllər haqqında danışacağıq.*

*Yaxşı iş görəndə valideynləriniz sizə nə deyir?* (uşaqların cavabı)

*Bəs pis iş görəndə?* (uşaqların cavabı)*"*

## Nitqin inkişafı: Yaxşı nədir, pis nədir?

**Məqsəd:** **Yaxşı və pis əməllər arasındakı fərqi aydınlaşdırmaq**.

**Öyrədən:** *"Uşaqlar, yaxşı və pis əməlləri bir-birindən seçmək üçün gəlin biz lovğa maralın başına gəlmiş bir əhvalata diqqət yetirək. Siz əvvəl mənə deyin görüm heç maral görmüsünüz? Maralın buynuzları necə olur?* (maral oyuncağı, yaxud kitabın üzərindəki maral şəkli göstərilir)*"*

Öyrədən **"Lovğa Maral"** nağılını oxuyur (https://youtu.be/stWK9v057YA)

**Öyrədən:**

- *"Uşaqlar, necə oldu ki, maral özünə valeh oldu?*
- *Maral meymuna necə münasibət göstərdi?*
- *Bəs fil ilə maralın qarşılaşması necə keçdi?*
- *Dovşanla maralın ünsiyyəti haqqında nə deyə bilərik?*
- *Nə baş verdi ki, maralın köməyə ehtiyacı oldu?*
- *Fil maralın dar günündə necə davrandı?*
- *Bu nağılda kimin davranışı pis idi və niyə?*
- *Biz bu davranışı necə adlandıra bilərik?*
- *Bəs kimin davranışı sizin xoşunuza gəldi, niyə?*

- *Filin davranışını necə adlandırardıq?*

*Uşaqlar, görürsünüz, lovğalıq, təkəbbür, başqasını ələ salmaq pis əməllərdir. Nəzakətlilik, yardımsevərlik isə yaxşı əməllərdir".*

## Oyun: "Yaxşı, pis"

**Öyrədən:** *"Biz indi sizinlə "Yaxşı, pis" adlanan oyun oynayacağıq.*

*Mən sizə bəzi əməlləri deyəcəyəm. Əgər bu yaxşıdırsa, siz əl çalırsınız, əgər pisdirsə, ayaqlarınızı yerə döyürsünüz. Razılaşdıq?*

- Görüşəndə salamlaşmaq.
- İtələmək və üzr istəməmək.
- Anaya oyuncaqları yığmağa kömək etmək.
- Kitabı cırmaq.
- Oyuncaq üstündə dalaşmaq.
- Ağacların, kolların budaqlarını qırmaq.
- Anaya ev işlərində kömək etmək.

*Afərin! Deməli, uşaqlar mərhəmət, nəzakət, və ədəbli bu yaxşıdır, ya pis?"* (uşaqlar xorla: "Yaxşı!")

***Uğur göstərici:*** Hekayə, nağıl, şeiri dinləyir, personajların əməllərini izah edir, məzmun haqqında suallara cavab verir. Doğru və yalnış davranışı fərqləndirə bilir.

## Hərəkətli oyun: "Tayını tap"

**Resurslar:** Müxtəlif mövzuda şəkillər

**Qayda:** Baxışların köməyi ilə qarşı tərəflə yerdəyişmə etmək

**Məqsəd:**

1. əşyaları qruplaşdırmaq bacarığını formalaşdırmaq;
2. təlimatı anlamaq bacarığı formalaşdırmaq və diqqəti möhkəmləndirmək;
3. kollektivdə dostluq atmosferi yaratmaq.

**Oyunun təsviri:**

Uşaqlar əllərində müxtəlif mövzuda şəkillər (meyvə, tərəvəz, heyvanlar və s.) tutaraq dairədə otururlar. Öyrədən hər hansı bir mövzuda danışır. Məsələn: payızda çoxlu meyvələr yetişir. Əlində meyvə şəkli olan uşaqlar danışmadan, yalnız baxışları ilə özlərinə dost seçib, yerlərini dəyişirlər. Düzgün yerdəyişmə edən uşaqlar qalibdir. Bu hərəkət bir neçə dəfə təkrarlanır və sonda Öyrədən seçimləri uşaqlarla birlikdə müzakirə edir.

## Rəsm: "Xoş əhval"

**Məqsəd: Uşaqları fırça, sulu boya, su və kağızla tanış etmək; əhvali-ruhiyyəni müşahidə etməyi və onu boyalarla ifadə etməyi öyrətmək.**

**Öyrədən:** "*Uşaqlar, bizim böyük, işıqlı, geniş qrup otağımız var.*

- *Qrupumuz xoşunuza gəlirmi?*
- *Bir-birinizə dönüb baxın, sizin necə şən simalarınız var.*
- *Qrupumuzda əylənirsiniz? Niyə? Əhvali-ruhiyyəniz necədir?* (sevincli, şən, yaxşı)
- *Gəlin qrupumuzda necə yaxşı, sevincli əhvali-ruhiyyənin olduğunun rəsmini çəkək".*

Öyrədən uşaqlara böyük ağ bir kağız, yaxud hər uşağa kiçik kağız və sulu boyanın açıq tonlarını təklif edir.

Öyrədən kağızı su ilə islatmağa kömək edir və artıq islanmış kağıza uşaqlar seçdikləri rəngi əlavə edirlər. Sulu boyanı fırça ilə yayırlar və müəyyən düşündükləri şəkli çəkməyə çalışırlar, sonda çəkdikləri öz gözəl əhvali-ruhiyyələrinə tamaşa edirlər.

***Uğur göstəricisi:*** **Fırça, sulu boya, su və kağızın təyinatını bilir.**

## Sərbəst fəaliyyət: Stolüstü qrup oyunları

## Son toplantı

**Öyrədən:** *“Uşaqlar, əl-ələ tutun. Növbə ilə hər kəs özündən sonrakı yoldaşına tərəf dönüb: Bir-birinizin üzünə baxaraq yaxşı nə isə arzu edin”.* (uşaqlar növbə ilə yerinə yetirirlər)

*“Uşaqlar, bu gün ən diqqətli kim olub? İndi yoxlayarıq. Bugünkü məşğələmizin mövzusu nə idi?* (uşaqların cavabları) *Afərin!”*

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

Uşaq salamlaşmaq istədiyi dostunun adını çəkərək topu ona atır. Topu tutan uşaq növbəti dostunun adını çəkərək topu ona atır. Bütün uşaqlar salamlaşanadək oyun davam edir.

### *Təqvimlə iş*

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

**Oyun**: Öyrədən həzin musiqi sədaları altında hava durumunu təsvir edir, uşaqlar eşitdikləri hava durumuna uyğun hərəkətləri (Qarlı hava-barmaqlarını yumur-açır, küləkli hava-əllərini havada sağa-sola yelləyir) yerinə yetirir.

### *Mövzuya giriş*

**Öyrədən:** *"Uşaqlar, bu həftə biz yaxşı və pis əməllər haqqında danışmışdıq. "Yaxşı iş gördüm" deyəndə nəyi nəzərdə tuturuq? Sizin ətrafınızda kimlər bu yaxşı əməllərə riayət edir?"*

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd: Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.**

## Hərəkətli oyun: "Təyyarələr"

- Öyrədən öncədən mühərriki necə "işə salmağı" və "uçmağı" göstərərək uşaqlara "uçuşa" hazırlaşmağı təklif edir. Öyrədən - *"Uçuşa hazırlaşın! Mühərrikləri işə salın!"* – dedikdə uşaqlar əlləri ilə sinələri qarşısında fırlanma hərəkətləri edirlər və "r-r-r" səsi çıxarırlar.
- Öyrədənin - *"Uçduq!"* - siqnalından sonra uşaqlar əllərini təyyarənin qanadları kimi yana açırlar və "uçurlar" (müxtəlif istiqamətlərə qaçırlar).
- Öyrədənin - *"Enişə!"*- siqnalından sonra uşaqlar ya stullara, ya da döşəkçələrə otururlar.

## Fiziki hərəkətlər

**Məqsəd: İstiqaməti təyin etmək, siqnala görə hərəkət etmək və dörd ayaq üstə tapşırıq yerinə yetirmək bacarığını inkişaf etdirmək.**

### *Hissə 1. Dairə boyu yeriş və qaçış.*

Kubiklər dairəyə düzülür. Uşaqlar bir cərgə ilə kubiklər ətrafında əvvəl yeriyir, sonra yavaş qaçırlar. Hərəkətlər növbələnir. Əks-istiqamətdə eyni ardıcıllıqla hərəkətlər təkrar olunur. Tapşırıq yeriş ilə bitir.

### *Hissə 2. Kubiklərlə ümuminkişaf təlimləri*

- Ayaqlar bir pəncə enində aralı, kubiklər hər iki əldə aşağıda. Kubikləri yanlara, sonra yuxarı qaldırmaq; aşağı salmaq; ilkin vəziyyətə qayıtmaq. *(4-5 dəfə)*
- Ayaqlar azca aralı, kubiklər hər iki əldə çiyinlərdə. Oturub kubiklərlə döşəməyə toxunmaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq. *(5-6 dəfə)*
- Oturub ayaqları çarpazlaşdırmaq, kubiklər hər iki əldə dizlərin üstündə. Sağa doğru əyilib, kubiki mümkün qədər uzağa qoymaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkət sol tərəfə təkrar olunur. *(hər tərəfə 2-3 dəfə)*
- Kubiklərin önündə dayanmaq, əllər sərbəst. Kubiklər ətrafında iki ayaq üstündə qısa fasilə ilə hər iki tərəfə tullanmaq. *(hər tərəfə 2-3 dəfə)*

### *Hissə 3. “Böcəklər” kimi sürünmək.*

Öyrədən iki stul (yaxud stol) qoyur və ayaqlarına döşəmədən 50 sm hündürlükdə ip bağlayır. İpin bir tərəfindən 2 metr uzaqlıqda 2 metallofon qoyulur. Əks tərəfdə başlanğıc nöqtəni göstərmək üçün qısa ip qoyulur. Uşaqlar dörd ayaq üstündə, “böcək” kimi iməkləyərək ipə toxunmamaq şərti ilə altından keçir, metallofona çatıb ifa edir, ayağa qalxıb geri qayıdırlar.

Uşaq sayı çoxdursa, hərəkət yarımqruplarda yerinə yetirilə bilər.

*Uğur göstəricisi:* **İstiqaməti təyin edir, siqnala görə hərəkət edir və dörd ayaq üstə tapşırıq yerinə yetirir.**

## Səsli nağıl zamanı

### *Qonşular*

Nağılın qəhramanı – balaca qızın yaşadığı binada yeddi mərtəbə var. Hər mərtəbədə fərqli bir qapı var...Bir qapının üstündə çoxlu qıfıl vurulub, digər qapıdan isə möhkəm musiqi səsi gəlir...

**Link:** https://youtu.be/is9YRQDqnPY

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Hansı ev sizin xoşunuza gəldi?
2. Bəs balaca qız üçün ən rahat ev hansı idi? (öz evi)

## Son toplantı

**Öyrədən:** *“Daha bir həftənin sonuna gəldik. Evdə həftəsonunu necə keçirməyi planlaşdırırsız?*

*Kim valideynlərinə kömək edəcək? Nə edəcəksiniz?”*

## Oktyabr | 4-cü həftə | Mövzu: "Mənim evim"

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***
Uşaqlar dairədə əyləşiblər.

Öyrədən öncədən hazırladığı çəhrayı qabın içərisinə uşaqların adı yazılan (rəsmlər də yapışdırıla bilər) çubuqları yerləşdirir. Öyrədən dairədə gəzərək: *"Bir çəhrayı qabım olsa, bütün uşaqları ora qoysam, qarışdırsam-qarışdırsam (uşaqlar* Öyrədənlə *birlikdə deyirlər), içərisindən İlahəni çıxarsam, getsəm İlahənin yanına, qucaqlasam-qucaqlasam".* Öyrədən İlahəyə yaxınlaşır, İlahəni qucaqlayır, onun çubuğunu davamiyyət lövhəsinə yerləşdirir və oyuna davam edir.

***Təqvimlə iş***
**Məqsəd: Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

Öyrədən uşaqlara balaca kağız parçaları verir. **Öyrədən:** *"Uşaqlar, sizə verdiyim kağız parçalarında istədiyiniz və sevdiyiniz hava şəraitini çəkin, sonra sinfimizin sehrli qutusuna yerləşdirin. Sabah onlarla oyun oynayacağıq".*

***Uğur göstəricisi:*** **Hava durumunu təsvir edir və müxtəlif hava şəraitini adlandırmağı bilir.**

***Mövzuya giriş***
Öyrədən öncədən əlavə vəsait bölümündən götürdüyü və kəsdiyi evləri böyük qutunun üzərinə yapışdırır. Qutunun üzərinə böyük ölçülü mələfə sərir. Dərs başlamadan qutunu dairənin mərkəzinə yerləşdirir.

**Öyrədən:** *"Uşaqlar, siz indi gözünüzü yumacaqsınız və gözünüzü açanda bu mələfənin altında gizlətdiyim əşyanı görəcəksizin. Hazırsınız? 1, 2, 3... Açın gözünüzü! Uşaqlar, sizə göstərdiyim əşyalara diqqətlə baxın. Sizcə, biz onlara harada rast gələ bilərik?"* ***(Əlavə 13)***

### Ətraf aləmlə tanışlıq: Evimin əşyaları. Mebel.

**Məqsəd: Mebel və onun təyinatı haqqında anlayışın genişləndirilməsi. Yaxın ətrafındakı əşyaları və onların təyinatını bilir.**

Lövhədə, yaxud divarda mebel şəkilləri yerləşdirilir. Öyrədən şəkillərə baxmağı və bunların nə olduğunu cavablandırmağı təklif edir.

**Öyrədən:**

- *"Biz nəyi mebel adlandırırıq?* (masa, oturacaq, divan, çarpayı, kreslo və s.)
- *Mebel nə üçün gərəkdir?*
- *Masa arxasında nə edirlər?* (Yeyirlər, rəsm çəkirlər)
- *Stullar nə üçündür?* (Oturmaq üçün)
- *Çarpayı nə üçündür?* (Yatmaq, dincəlmək üçün)
- *Şkaf nə üçündür?* (Geyim, əşyaları saxlamaq üçün)
- *Mətbəx üçün hansı mebel lazımdır?*
- *Yataq otağı üçün hansı mebel lazımdır?*

*Uşaqlar, mebellə ehtiyatla rəftar etmək lazımdır. Mebelin iti bucaqları var. Mebelin üstündə tullanmaq olmaz, yıxılıb, əzilə bilərsiniz".*

**Oyun: "Əşyanı təsviri ilə tapın"**

**Öyrədən:** *"Uşaqlar, mən sizə mebel növlərini təsvir edəcəyəm. Siz də onun nə olduğunu tapıb mənə deməlisiniz.*

- *Bu əşyanın söykənəcəkləri, ayaqları və döşəyi var.* (çarpayı)
- *Onun yan, arxa divarları, öndən qapıları, içərisində rəflər var.* (şkaf)
- *Onun ayaqları, söykənəcəyi və oturacağı var.* (stul)
- *Onun ayaqları və üst taxtası var.* (masa)
- *Bu əşyanın söykənəcəyi, oturacağı və qolları var.* (kreslo, divan)

**İdman fasiləsi: "Mebel"**

**Öyrədən:**

- *"Səhər mağazaya gedəcəyik.* (yerində addımlamaq)
- *Mağazadan mebel alarıq:*
- *hündür şkaf;* (barmaqlar üstə durmaq, əllərlə yuxarı dartınmaq)
- *çarpayı;* (əlləri sol yanaq altına qoymaq)
- *stullar da alarıq;* (düz sağ qola sol qatlanmış qolu birləşdirib "oturacaq" düzəltmək)
- *həm də böyük bir masa.* (əllər yanlara açılır)
- İndi uşaqlar mənə masanın necə olduğunu deyin? (dairəvi, dördbucaq, düzbucaqlı)
- *Bəs divan necə olur?* (yumşaq, böyük, kiçik, açılan, rahat)
- *Çarpayı necə olur?* (böyük, açıq rəngli, yumşaq)
- *Oturacaq necə olur?* (bərk, yumşaq, hündür, alçaq)
- *Bəs şkaf necə olur?* (kiçik, böyük, açıq, bağlı, taxta)

*Afərin!*

***Uğur göstəricisi:*** **Mebel və onun təyinatı haqqında anlayışı var. Yaxın ətrafdakı əşyaları və onların təyinatını bilir.**

## Hərəkətli oyun: "Öz evini tap"

Uşaqlar "evciklərdə" (döşəkçələrdə, oturacaqlarda) yerləşirlər. Öyrədən uşaqlara çiçəklərə və kəpənəklərə baxmaq üçün çəmənliyə getməyi təklif edir.

*"Tez olun, evə, yağış yağdı"* çağırışı ilə Öyrədən uşaqları "evciklərdə" yer tutmağa səsləyir (istənilən yer).

## Aplikasiya: Ayı üçün stul

**Məqsəd: Hazır detallardan kompozisiya yaratmaq bacarığını inkişaf etdirmək.**

**Vəsaitlər:** istənilən rəngdə bir uzun (10 sm x 2 sm) və 2 qısa (5sm x 2 sm) zolaqlar, yapışqan, ağ kağız.

**Öyrədən:**

*"Uşaqlar, siz sehr sevirsiniz?* (bəli) *Nağıla düşmək istəyirsiniz?* (bəli)

- *Nağıl saatı: "Üç ayı" nağılı* **(Əlavə 14)**
    - *Nağıl xoşunuza gəldi?* (bəli)
    - *Qız nəyi sındırdı?* (stulu)
    - *Ayı çox məyus oldu. Bəs biz nə edək, ayıya necə kömək edək?* (uşaqların cavabı)
    - *Mən isə sizə ayı üçün stul düzəltməyi təklif edirəm. Stul hansı hissələrdən ibarətdir?* (ayaqlar, oturacaq, söykənəcək)

İndi işə başlamaq olar.

Əvvəl zolaqlardan (istənilən rəngdə bir uzun (10 sm x 2 sm) və 2 qısa (5sm x 2 sm)) kağız üzərində stul düzəldilir, sonra yapışdırılır.

Öyrədən yapışqanla iş qaydalarını xatırladır.

***Uğur göstəricisi:*** **Hazır detallardan kompozisiya yaratmaq bacarığına malikdir.**

## Sərbəst fəaliyyət: Konstruktorla oyun (mebel düzəltmək).

## Son toplantı

**Öyrədən:***"Bu gün məşğələdə biz sizinlə nədən danışırdıq? Gəlin bir daha mebelin nə üçün lazım olduğunu təkrar edək:*

- *Stul lazımdır...* (oturmaq üçün)
- *Divan lazımdır...* (oturmaq, uzanmaq, dincəlmək üçün)
- *Çarpayı lazımdır...* (yatmaq üçün)
- *Şkaf lazımdır...* (paltar asmaq üçün)
- *Kreslo lazımdır...* (oturmaq, dincəlmək üçün)

*Afərin!"*

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** *"Salam, uşaqlar! Gəlin əl və ayaqlarımızla (jestlərlə) salamlaşaq. Salam, sağ əl. Salam sol əl. Salam, sağ ayaq. Salam, sol ayaq".*

Öyrədən dairədə gəzərək "Çəhrayı qab" oyununu oynayır.

### *Təqvimlə iş*

**Məqsəd: Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

**Öyrədən:** *"Uşaqlar, gəlin sehrli qutumuzu açaq və içərisindən sizin dünən çəkdiyiniz hava şəraitini göstərən rəsmləri çıxaraq. Baxaq görək kimlər hansı hava şəraitini sevir".*

Öyrədən qutudan çıxartdıqca şəkilləri qruplarına görə yerləşdirir və sonra uşaqlarla bunu müzakirə edir.

***Uğur göstəricisi:*** **Hava durumunu təsvir edir və müxtəlif hava şəraitini adlandırmağı bilir.**

### *Mövzuya giriş*

**Öyrədən:** *"Uşaqlar, bu gün biz evimizin hansı hissələrdən ibarət olması haqqında danışacağıq".*

**Barmaq oyunu: "Barmaqlar gəzməyə çıxır"**

*1, 2, 3, 4, 5*

*Barmaqlar çıxır gəzməyə,* (çeçələ barmaqdan başlayaraq növbə ilə bütün barmaqlar açılır)

*1, 2, 3, 4, 5*

*Qayıdırlar onlar evə.* (eyni ardıcıllıqda barmaqlar qatlanır)

Bunun davamı olaraq Öyrədən əl çalaraq sadə ritm yaradır. Əvvəl ən sadə ritmdən başlamaq lazımdır (bir-iki yavaş, bir-iki cəld). Ritmi bütün uşaqlar Öyrədənlə birlikdə təkrar edir.

## Riyaziyyat və qurma: Həndəsi fiqurlardan ev

**Məqsəd: Həndəsi fiqurlar haqqında biliklərinin möhkəmləndirilməsi (kvadrat, üçbucaq).**

**Vəsaitlər**: ev modeli, arxa fon üçün kağız, müxtəlif rəngli kağız fiqurlar (tərəfləri 5 və 2 sm olan kvadratlar, yan tərəfi 6 sm olan üçbucaq); yapışqan, salfet.

**Öyrədən:** *"Uşaqlar, bu ev modelinə baxın.*

- *Ev hansı hissələrdən ibarətdir?*
- *Dam, divarlar və pəncərə hansı formaları xatırladır?*
- *Baxın, uşaqlar, hər birinizin qarşısında həndəsi fiqurlar dəsti var. Onlardan kağız üzərində ev qurmağa çalışın. Kimdə alındı?*
- *Siz əvvəl hansı fiquru götürdünüz?* (böyük kvadrat)
- *Bu evin hansı hissəsidir?* (divarı) *Nə rəngdədir?*
- *Sonra hansı fiquru əlavə etdiniz?* (üçbucaq )
- *Bu evin hansı hissəsidir?* (damı) *Nə rəngdədir?*
- *Bəs axırıncı hansı fiquru götürdünüz?* (kiçik kvadrat)
- *Bu evin hansı hissəsidir?* (pəncərəsi) *Nə rəngdədir?*

- *Bəs pəncərəni necə yerləşdirdiniz?* (mərkəzdə, ortada)

*Afərin! Yaxşı evlər qurdunuz. İndi bu ardıcıllıqla detalları kağıza yapışdırmağa başlayın".*

Öyrədən yapışqanla iş qaydalarını xatırladır.

***Uğur göstəricisi:*** **Həndəsi fiqurlar haqqında məlumatı var. Dairə, kvadrat, düzbucaq həndəsi fiqurlarını tanıyır; ətrafındakı əşyalarda həndəsi fiqurları görə bilir.**

## Hərəkətli oyun: "Öz evini tap"

## Fiziki hərəkətlər

**Məqsəd: Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq: tullanma zamanı yarıbükülü ayaqlar üstə eniş etmə bacarığının inkişafı.**

**1.** Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədən "Qurbağalar!" siqnalı səslənəndə uşaqlar dayanır, sallağı oturur, sonra ayağa qalxır və yeriməyə davam edirlər. Yeriş bir cərgə ilə, yaxud səpələnmiş formalı qaçışla əvəz olunur.

**2.** Ümuminkişaf hərəkətləri

- Ayaqlar bir pəncə enində aralı, qollar yanda. Əl çalmaq; ilkin vəziyyətə qayıtmaq. *(4–5 dəfə)*
- Ayaqlar bir pəncə enində aralı, əllər beldə. Oturmaq, əl çalmaq; ilkin vəziyyətə qayıtmaq.
- Ayaqlar çiyin bərabərində aralı, əllər arxada. Sağa və sola ayağa əyilmək, əl çalmaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq. *(5 dəfə)*
- Ayaqlar çiyin bərabərində aralı, qollar yanda. Sağa və sola dönmək, əl çalmaq; ilkin vəziyyətə qayıtmaq. *(5 dəfə)*

**3.** Əsas hərəkət növləri

**Tarazlıq**: "Körpü"

Döşəkçələrdən uzunluğu 2 metr olan 2 "körpü" qurulur. Uşaqlar bir körpü ilə gedib, digər körpü ilə qayıdırlar.

**Tullanma***:* Öyrədən uşaqları iki cərgəyə bölür. Hər cərgənin qarşısına ip qoyulur. Uşaqlar ayaqlarını azca aralayıb ipin üzərindən tullanmalıdırlar. Yerə yarıbükülü ayaqlar üstə enmək lazımdır. *(ardıcıl 4-5 dəfə).*

**Məqsəd: Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlaya bilir: tullanma zamanı yarıbükülü ayaqlar üstə eniş edir.**

## Sərbəst fəaliyyət: Konstruktordan ev qurmaq

## Son toplantı

**Öyrədən:** *"Uşaqlar, bu gün nə haqqında danışdıq?*

*Hansı oyunları oynadıq? Ən çox nə xoşunuza gəldi?"*

Öyrədən hər uşaq haqqında müəyyən müsbət fikir bildirir.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*
**Öyrədən:** *"Salam, uşaqlar! Təklif edirəm ki, bu gün bir-birinizi qavaldan istifadə edərək salamlayasınız".*

Uşaqlar növbə ilə qavala vurmaqla müəyyən ritmlə istədiyi uşağın adını deyir və həmin uşağı salamlayır.

**Qeyd:** Dostları tərəfindən seçilməyən uşağı Öyrədən seçə bilər.

### *Təqvimlə iş*
**Məqsəd:** **Hava durumunu təsvir etməyi və müxtəlif hava şəraitini adlandırmağı öyrətmək.**

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

**Oyun: "Tut və de"**

Öyrədən hava şəraitləri çəkilmiş kağız parçalarını bükərək top düzəldir, onları qutuya yerləşdirir. Müəllim qutudan çıxartdığı kağız topu uşaqlardan birinə atır və kağızı açmasını, orada nə təsvir edildiyini deməsini xahiş edir.

***Uğur göstəricisi:*** **Hava durumunu təsvir edir və müxtəlif hava şəraitini adlandırmağı bilir.**

### *Mövzuya giriş*
**Öyrədən:** "İndi isə biz meşədə olan bir ev barədə nağıl oxuyacağıq". **"Üç ayı"** nağılı oxunur.

**Barmaq oyunu: "Barmaqlar gəzməyə çıxır"**

*1, 2, 3, 4, 5 Barmaqlar çıxır gəzməyə,* (çeçələ barmaqdan başlayaraq növbə ilə bütün barmaqlar açılır)

*1, 2, 3, 4, 5 Qayıdırlar onlar evə.* (eyni ardıcıllıqda barmaqlar qatlanır)

Bunun davamı olaraq Öyrədən əl çalaraq sadə ritm yaradır. Əvvəl ən sadə ritmdən başlamaq lazımdır (bir-iki yavaş, bir-iki cəld). Ritmi bütün uşaqlar Öyrədənlə birlikdə təkrar edir.

## Nitqin inkişafı: Qab-qacaq

**Məqsəd: Əsas qab-qacaq adları haqqında biliklərin möhkəmləndirilməsi**. ***(Əlavə 15)***

**Vəsaitlər:** qab-qacaq rəsmləri (oyuncaq qab-qacaqlar).

Öyrədən şəkilləri (oyuncaqları) uşaqlara göstərir. Bir sözlə bu əşyaları necə ifadə edə biləcəklərini soruşur. (qablar/ qab-qacaq)

### *Oyun: "Bu nədir?"*
Öyrədən qabları göstərərək uşaqlara növbə ilə *"Bu nədir?" və "Bunu necə istifadə etmək olar?"* suallarını verir. Uşaqlar cavab verməkdə çətinlik çəkərlərsə, Öyrədən onlara kömək edir.

*"Bu nədir?"/ "Bunu necə istifadə etmək olar?"*

- Bu qazandır. Onda şorba və digər yeməklər bişirmək olar.
- Bu boşqabdır. Ona yemək qoymaq olar.
- Bu qaşıqdır. Qaşıqla yeməyi ağıza qoymaq olar.
- Bu fincandır. Ona çay süzüb içmək olar.
- Bu bıçaqdır. Onunla çörək kəsmək olar.
- Bu tavadır. Onda kartof qızartmaq olar.

**Öyrədən:** *"Afərin sizə! Uşaqlar, mənə daha ətraflı məlumat lazımdır. Kömək edin bu suallarıma da cavab tapım.*

- *Çox vaxt qabları harada görmək olar?* (mətbəxdə)
- *Mətbəxdə gördüyümüz qablar hansı materiallardan hazırlanıb?* (metal, şüşə, taxta, gil)
- *Çay içdiyimiz əşyanın adını deyin.* (fincan)
- *Fincan, nəlbəki, çaydan və qənd qabını bir sözlə necə adlandırmaq olar?* (çay dəsti)
- *Yemək yeyərkən hansı qablardan istifadə edirik?* (boşqab, kasa, qaşıq, çəngəl, bıçaq)
- *Bu qablar bir sözlə necə adlanır?* (yemək dəsti)

*Gəlin "Bir-Çox" oyunu oynayaq. Mən sizə əşyaların tək halını deyəcəyəm, siz mənə onların çox halını deyəcəksiniz.*

(Öyrədən bir nümunə verir, sonra uşaqlar davam edir)

- *Boşqab - boşqablar*
- *Banka – bankalar*
- *Stəkan - stəkanlar*
- *Kasa - kasalar*
- *Çaydan - çaydanlar*
- *Nəlbəki - nəlbəkilər və s."*

***Uğur göstəricisi:*** **Yaxın ətrafdakı əşyaları və onların təyinatını bilir.**

## Hərəkətli oyun: "Öz evini tap"

## Rəsm: "Ayı üçün fincan"

**Məqsəd: Rəsmi kontur daxilində bərabər yerləşdirmək və barmaqla rəsm çəkmək bacarığını təkmilləşdirmək.**

**Vəsaitlər:** uşaqların sayına uyğun kağızdan hazırlanmış fincanlar, sulu boya, salfet, fincanın lövhədə, yaxud divarda rəsmi.

Öyrədən yumşaq ayı oyuncağını göstərib deyir:

"Uşaqlar, ayı bizə qonaq gəlib və o, çox məyusdur. O mənə sevimli fincanının sındığını dedi. Gəlin ayı üçün yeni fincan hazırlayaq.

Baxın uşaqlar masada müxtəlif rəngli boyalar var. Siz şəhadət barmağınızı boyaya batırıb qarşınızdakı kağız fincanların üzərinə xallar qoyacaqsınız. Rəngi dəyişmək istədikdə barmağınızı salfetlə təmiz silin. Çalışın müxtəlif rənglərdən istifadə edəsiniz ki, ayımızın fincanı rəngbərəng olsun.

Nə gözəl fincanlar alındı! Ayımız çox razıdır və bizə çox sag ol deyir!"

***Uğur göstəricisi:*** **Rəsmi kontur daxilində bərabər yerləşdirir və barmaqla rəsm çəkmək bacarığına yiyələnə bilir.**

## Sərbəst fəaliyyət: Qrup oyunları.

## Son toplantı

**Öyrədən:** *"Uşaqlar, sizə afərin! Bugün ən diqqətli kim olub? Gəlin yoxlayaq!*

*Bu günkü dərsimizin mövzusu nə idi. (uşaqların cavabı) Afərin!"*

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** *“Sabahınız xeyir, qızlar! Sabahınız xeyir, oğlanlar! Sizi görməyə çox şadam”.*

### *Təqvimlə iş*

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti. Bütün hava şəraiti təkrar olunur.

### *Mövzuya giriş*

**Öyrədən:** *“Bu gün biz “Yaşadığım ev” oyunu oynayacağıq. Bu topu dairə üzrə bir-birimizə ötürürük və öz evimizin hündürlüyü, mərtəbəsi, rəngi, otaqları haqqında məlumat veririk”.*

**Barmaq oyunu: “Barmaqlar gəzməyə çıxır”**

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd: Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.**

## Fiziki hərəkətlər

**Məqsəd: Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq: tullanma zamanı yarıbükülü ayaqlar üstə eniş etmə bacarığının inkişafı.**

**1.** Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədənin “Qurbağalar!” siqnalı səslənəndə uşaqlar dayanır, sallağı oturur, sonra ayağa qalxır və yeriməyə davam edirlər. Yeriş bir cərgə ilə, yaxud səpələng qaçışla əvəz olunur.
**2. Ümuminkişaf hərəkətləri**

- Ayaqlar bir pəncə enində aralı, qollar yanda. Əl çalmaq; ilkin vəziyyətə qayıtmaq. *(4–5 dəfə)*
- Ayaqlar bir pəncə enində aralı, əllər beldə. Oturmaq, əl çalmaq; ilkin vəziyyətə qayıtmaq.
- Ayaqlar çiyin bərabərində aralı, əllər arxada. Sağ (sol) ayağa əyilmək, əl çalmaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq. *(5 dəfə)*
- Ayaqlar çiyin bərabərində aralı, qollar yanda. Sağa (sola) dönmək, əl çalmaq; ilkin vəziyyətə qayıtmaq. *(5 dəfə)*

**3. Əsas hərəkət növləri.**

**Tarazlıq:** “Körpü” : Döşəkçələrdən uzunluğu 2 metr olan 2 “körpü” qurulur. Uşaqlar bir körpü ilə gedib, digər körpü ilə qayıdırlar.

**Tullanma**: Öyrədən uşaqları iki cərgəyə bölür. Hər cərgənin qarşısına ip qoyulur. Uşaqlar ayaqlarını azca aralayıb ipin üzərindən tullanmalıdırlar. Yerə yarıbükülü ayaqlar üstə enmək lazımdır. *(ardıcıl 4-5 dəfə)*

*Uğur göstəricisi:* **Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlayır: tullanma zamanı yarıbükülü ayaqlar üstə enir.**

## Hərəkətli oyun: “Öz evini tap”

Uşaqlar “evciklərdə” (döşəkçələrdə, oturacaqlarda) yerləşirlər. Müəllim uşaqlara çiçəklərə və kəpənəklərə baxmaq üçün çəmənliyə getməyi təklif edir. *“Tez olun, evə, yağış yağdı”* çağırışı ilə Öyrədən uşaqları “evciklərdə” yer tutmağa səsləyir *(istənilən yer).*

## Səsli nağıl zamanı

### *Riki*

Yer üzündə çoxlu müxtəlif dovşanlar var. Kök və arıq dovşanlar, hündür və qısa dovşanlar, ağıllı və səfeh dovşanlar, təmiz və pinti dovşanlar, dişi və erkək dovşanlar! Amma onların hamısının iki uzun qulağı olur.

Rikinin də iki uzun qulağı var idi, amma onun sağ qulağı sallanırdı. Riki iki düz qulaqdan başqa heç nə arzulamırdı. Lakin o, axır ki, fərqli olmağın heç də qəbahət olmadığını öyrəndi. Əslində, bəzən fərqli olmaq daha yaxşıdır.

**Link:** https://youtu.be/W0S8p0ZyCsw

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Riki xoşunuza gəldi?
2. Riki və dovşanlar hansı meyvəni yeyir?
3. Rikini hamıdan fərqli edən nə idi? Digər dovşanlar ona niyə gülürdürlər?
4. Riki hamı kimi olmaq üçün nə etdi?
5. Sonda Riki dostları birgə nə etdi?
6. Riki ilə dost olardınız?
7. Əlavə sual: Riki ilə Elmerin oxşarlığı nədədir? (İkisi də digərlərindən görünüşcə fərqlənir.)
   a. **Qeyd:** Uşaqlara ötən həftələrdən Elmeri xatırladın.

## Son toplantı

**Öyrədən:** *"Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? İstirahət günlərini necə keçirəcəksiniz? Hər birinizə afərin!"*

# Noyabr | 5-ci həftə | Mövzu: “Payız”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:**

“Sabahınız xeyir, uşaqlar! Mənim ardımca təkrar edin: “Salam, mənim ayağım. Salam, mənim dizlərim”. Uşaqlar bu isinmə hərəkətlərini tez-tez, aram-aram edə bilərlər. Öyrədən uşaqları dairəyə dəvət edir. Sehrli qutusundan daha əvvəl yerləşdirdiyi rəsmi çıxarır. (Payız rəsmi (Əlavə 1)). Davamiyyət yoxlanılır.

***Təqvimlə iş***

**Məqsəd:** ***ilin fəsillərini (payızın xüsusiyyətlərini) öyrətmək***

Öyrədən payızın təsvir olunduğu rəsmi (Əlavə 1) “Müzakirə guşəsi”ndən asır. Onlardan rəsmdə əks olunanları təsvir etməyi istəyir.

**Qeyd 1:** Rəsmdə yağış, yarpağı tökülmüş ağaclar, xəzəllər (saralmış yarpaqlar), çətirli insanlar təsvir olunmalıdır.

**Qeyd 2:** “Müzakirə guşəsi” “Təqvim guşəsi”nə aid A5 ölçülü bir lövhədir. Rəsm uşaqlar daha aydın görsünlər deyə həmin lövhədən asılmalıdır.

**Qeyd 3:** Öyrədən payıza aid təsvirləri öz seçiminə əsasən video vasitəsi ilə də göstərə bilər.

***Barmaq oyunu: “Payız” şeiri (Abdulla Şaiq)***

Payız olur, əsir soyuq küləklər, *(Əlləri havada yelləmək)*

Solur dağda, çöldə əlvan çiçəklər.

Gecələr uzanır, günlər qısalır, (Əllər yanlara açılır, sonra əksinə - birləşdirilir)

Göy üzünü qara buludlar alır.

**Öyrədən:** “Uşaqlar, rəsmdə gördüyünüz fəsil payızdır”.

***Uğur göstəricisi:*** ***Payızın xüsusiyyətlərini təsvir edə bilir. 4 misralı şeiri əzbər deyə bilir.***

***Mövzuya giriş***

Öyrədən sinifdə gəzərək və uşaqları da gəzməyə dəvət edərək aşağıda verilən şeiri barmaq oyunu vasitəsilə uşaqlarla birlikdə deyir.

Yağış yağır, tık-tık-tık (Hər kəs barmağını hər hansı bir səthə vuraraq tıqqıldadır),

Duman çökür çöllərə (Shshhhhhh... hər kəs susaraq yerə çökür),

İnildəyir çayır, çəmən, dağ, dərə. (Brrrrr.... hər kəs bir-birindən tutub çay kimi sinifdə “axır”),

Ağaclarda nə meyvə var, nə yarpaq, (əl jesti ilə “yoxdur” işarəsi göstərilir),

Bağ-bağçalar olmuş bütün çıl-çılpaq (Hər kəs ağac formasında dayanır),

Quşlar uçub dəstə-dəstə gedirlər, (Hər kəs qanad çalaraq uçmağa başlayır)

İsti yerə köçüb, qışlaq edirlər. (Hər kəs döşəmədəki döşəkçələrdə əyləşir).

## Ətraf aləmlə tanışlıq: *Payız*

**Məqsəd:** ***Uşaqları payız fəslində başverən təbii hadisələr ilə tanış etmək***

### *Hissə 1. Giriş*

**Öyrədən:** "Uşaqlar, bayaq etdiyimiz bütün hərəkətlər payız fəslində baş verirdi. Bu gün biz bu gözəl fəsil haqqında danışacağıq"

### *Hissə 2. Giriş. Oyun.*

***Vəsaitlər***: *rəngli kağızlardan kəsilmiş yarpaqlar, yaxud sarı, qəhvəyi, qızılı rəngli kiçik yaylıqlar.*

Hər uşağa iki "yarpaq" paylanır.

**Öyrədən:**

"Uşaqlar, fırlanırıq, dönürük, yarpağa çevrilirik. *(Uşaqlar fırlanırlar.)*

Biz payız yarpaqlarıyıq, rəngli yarpaqlarıq. *(Yarpaqları yelləyirlər.)*

Biz budaqlarda oturmuşduq, külək əsdi, biz uçduq. *(Qaçırlar.)*

Yarpaqlar yerə tökülür, yeri örtürlər. *(Uşaqlar yerə otururlar.)*

Bu hadisəyə nə deyirik? *(Xəzan)*"

### *Hissə 3. Əqli hücum*

**Öyrədən:** "Uşaqlar, gəlin pəncərədən çölə baxaq. Ağaclara nə olub? Niyə yarıçılpaqdırlar? *(Ağacların yarpaqları tökülüb).* Bəli, payızda yarpaqlar tökülür, bu hadisə "xəzan" adlanır. "Xəzan" oyunu oynamağa nə deyirsiniz? Razısınız?

Öyrədən uşaqları iki-iki olmaqla qruplara ayırır. Qruplardakı uşaqlar üz-üzə dayanırlar. Öyrədənin komandası ilə birinci uşaq əlindəki yarpaqları digər uşağın başına səpir. 1-ci uşaq yarpaqları səpib bitirəndən sonra ikinci öyrənən yarpaqları yığır. İlk yarpaqları yığıb bitirən qrup qalib olur.

**Qeyd:** bu oyun üçün Öyrədən öncədən rəngli yarpaqlar hazırlamalıdır. Bu tapşırığın keçirilməsi zamanı Öyrədən payızda uşaqlara yarpaqların rəngləri haqqında məlumat verməlidir.

### *Hissə 4. Praktik tapşırıq.*

Qeyd: Öyrədən uşaqlara payıza aid atributları video vasitəsilə nümayiş etdirir.



**Qeyd:** Öyrədən video vasitələri istəyə əsasən seçə bilər.

*Heyvanlar qışa azuqə hazırlayır. Dələ qozaları yuvasına yığır.*

*Yarpaqlar rəngini dəyişir,*

*Traktorlar tarlada məhsul yığımı edir.*

Öyrədən uşaqlar ilə payız atributlarını müzakirə etdikdən sonra "Əlavə 2"-də. Həmin atributların kartlarını uşaqlara təqdim edir və uşaqlar kartları birlikdə rəngləyirlər.

### *Hissə 5. Oyun. Bizdədi.*



Öyrədən uşaqları "Əlavə 2"-də verilən kart sayı qədər (traktor, dələ, qoza, yarpaq) qrupa bölür. Hər qrupa bir kart təqdim edir. Qrupun adını karta uyğun adlandırır. Məs: Xəzan, traktor, dələ.

Öyrədən uşaqlara hər kartın anlamını izah edir.

Öyrədən: "Uşaqlar, mən sizə "məhsul yığımı" deyəndə ancaq "traktor" qrupu kartı yuxarı qaldıracaq. Mən sizə "heyvanlar özlərinə yemək toplayır" deyəndə ancaq "dələ" qrupu öz kartını qaldıracaq.

*Uğur göstəricisi:* ***payız fəslində baş verən təbii hadisələri bilir: yarpaqlar rəngini dəyişir, yarpaqlar tökülür.***

## Hərəkətli oyun: "Günəş və yağış"

Öyrədən: "Uşaqlar, deyəsən, bizim sinfimizə də yağış yağacaq. Diqqətli olun, mən "Günəş" deyəndə siz gəzirsiniz, qaçırsınız, oynayırsınız. Mən "Yağış" deyəndə siz gəlib mənim çətirimin altında gizlənirsiniz".

Öyrədən qollarını yanlara açır - bu onun çətiri olur.

## Yapma: "Payız yarpağı"

Məqsəd: ***verilmiş cizgi daxilində plastilinin yayılmasını öyrətmək.***

***Vəsaitlər:*** *yarpaq cizgisi çəkilmiş karton;qırmızı (sarı, yaxud yaşıl) və qəhvəyi rəngli plastilin.*

Öyrədən uşaqlarla birlikdə təbii payız yarpağını tədqiq edir, onun rəngini və formasını uşaqların nəzərinə çatdırır. Hər uşağın önünə yarpağın cizgisi olan karton qoyulur. Öyrədən plastilindən kiçik parçalar ayırıb verilmiş cizgi daxilində barmaqları ilə müxtəlif istiqamətlərdə yayır. Uşaqlar bu addımları təkrar edirlər. Qəhvəyi plastilindən bir parça kiçik, nazik çöp şəklinə salınır və yarpağa saplaq kimi birləşdirilir.

*Uğur göstəricisi:* ***plastilin şəklin konturundan kənara çıxmır.***

## Sərbəst fəaliyyət: *Qrup oyunları*

## Son toplantı

Öyrədən: "Uşaqlar, gün necə keçdi? Ən çox nə xoşunuza gəldi? Payız haqqında nə öyrəndiniz? Afərin sizə! "

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar!

Mənim ardımca təkrar edin: “Salam, mənim ayağım. Salam, mənim dizlərim. Salam, mənim qollarım. Salam, mənim çiyinlərim”.  Bu hərəkətləri edərkən uşaqlar əlləri ilə adlandırılan bədən üzvlərinə toxunmalıdırlar.

Öyrədən uşaqları dairədə oturmağa dəvət edir və qeydiyyat aparır.

“Salam, uşaqlar! Gəlin növbə ilə hər kəs öz adını və qrupumuza salamını söyləsin. Mən isə onun rəsmini “Sinifdədir”  lövhəsinə yapışdırım”.

**Qeyd:** “Sinifdədir” lövhəsi “Salamlaşma guşəsi”nin bir hissəsidir. A5 ölçülü bu lövhədə uşaqların rəsmi yapışdırılıb. Uşaqlar sinifdə olarkən onların rəsmi “Sinifdədir” lövhəsinə yapışdırılır.

### *Təqvimlə iş*

***Məqsəd:*** **payız fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək - yağışlı hava.**

*“Yağış” oyunu*

Uşaqlar dairəyə düzülüblər (yaxud döşəkçələrdə oturublar).

**Öyrədən:**

“Uşaqlar, gəlin indi bir musiqi parçasını dinləyək. Musiqi başlayanda otağımıza “yağış yağacaq”. Biz isə onun damcılarını əl çalaraq sayacağıq.

Bir (iki, üç, dörd, beş) damcı düşdü! *(Uşaqlar bir, iki, üç, dörd, beş dəfə əl çalırlar.)*

Beş (dörd, üç, iki, bir) damcı düşdü! *(Uşaqlar beş, dörd, üç, iki, bir dəfə əl çalırlar.)*

Yağış dayanır *(Öyrədənin səsi yavaşıyır, pıçıltıya keçir)”*

***Uğur göstəricisi:*** **payız fəslində müşahidə edilə bilən hava durumunu bilir.**

### *Mövzuya giriş*

Öyrədən öncədən hər uşaq sayı qədər hazırladığı mavi və qırmızı ipləri (uzunluğu 10 sm olan yumşaq toxuma ipləri uyğundur) uşaqların biləyinə bağlayır. Qırmızı ip ürəyimiz olan tərəfdəki biləyə, mavi isə əks tərəfdəki biləyimizə bağlanır.

**Öyrədən:**

“Uşaqlar, baxın, mən sizə bu gün iki rəngi tanıdacağam: mavi və qırmızı. Gəlin məşq edək, görək siz bu rəngləri xatirinizdə saxlaya bilirsinizmi? Mən qırmızı deyəndə siz də qırmızı ip bağlanan əlinizi qaldırmalısınız. Əgər səhv əlinizi qaldırsanız, siz dairədə əyləşəcəksiniz və biz oyunu qalan iştirakçılarla davam edəcəyik.

Başladıq! Bir əlini qaldır, indi isə digər əlini, hər ikisini qaldır, hər iki əlini aşağı endir, indi isə qırmızı ip olan əlini qaldır”.

Öyrədən səhv əlini qaldıran uşaqları müəyyən edir. Oyun davam edir.

## Riyaziyyat: “Bir və çox”

**Məqsəd:** ***Bir rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıtmaq.***

**Vəsaitlər:** Say çöpləri və ya konstruktorlar, iştirakçı sayı qədər qırmızı və göy kağız zolaqları.

Qeyd: Öyrədən “*Əlavə 3 A*” də verilən rəqəmlər təsvir edilən rəqəmlərdən də istifadə edə bilər.

### *Hissə 1. Bir rəqəminin auditorial (eşidərək) biliyini təmin edən tapşırıqlar.*

### *Oyun 1*



Öyrədən uşaqlara kiçik hekayə danışaraq sinifdə addımlayır, qaçır, yerdə iməkləyir. Hər hərəkətin arasında sinifdən bir nəfər bir dəfə dələ kimi hoppanır.

**Öyrədən:** “Uşaqlar biz meşədə gəzirik, tik-tok, tik-tok, dayanın! Dələni gördünüz? O bir dəfə hoppandı... Gəlin onu qorxutmayaq, iməkləyək. Tik-tok, tik-tok, dayanın! Dələni gördünüz? O bir dəfə hoppandı...”

Öyrədən “dələ bir dəfə hoppandı” ifadəsini işlədəndə dələ obrazında olan uşaq bir dəfə hoppanmalıdır.

### *Hissə 2. Praktik tapşırıqlar.*

**Kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) və auditorial (eşidərək) biliyi təmin edən praktik tapşırıq.**

**Öyrədən:** “Uşaqlar, qutunuzdakı say çöplərindən birini götürün.

Ayxan neçə çöp götürdü? Bəs Leyla?

- Qutuda neçə çöp qaldı? *(çox)*
- Uşaqlar, hamımızın ürəyi var. Ürəyimiz işləyəndə “tup-tup-tup” səs çıxarır. Hiss etmək istəyirsiniz bunu?
    - *(Öyrədən hər uşağın qırmızı ip bağlanan əlini ürəyinin üstünə qoyub, döyüntüləri hiss etməyə kömək edir.)*
- Uşaqlar, *qırmızı ip bağlanan* tərəfdə sizin ürəyiniz var, mavi ip isə əks tərəfdədir.
- İndi götürdüyünüz çöpü qutuya qoyun və *qırmızı ip bağlanan* əlinizi qaldırın.
- Mavi ip bağlanan əlinizi göy zolağın üstünə, *qırmızı ip bağlanan* əlinizi qırmızı zolağın üstünə qoyun.
- Göy zolaq sizin ürəyinizin olmadığı yerdə - mavi ip bağlanan hissədə, qırmızı zolaq isə *qırmızı ip bağlanan*, ürəyiniz olan hissədədir.
- Göy zolağın üstünə bir say çöpü qoyun; qırmızı zolağın üstünə çoxlu say çöpü qoyun.

İş prosesində Öyrədən çətinlik çəkənlərə kömək edir. Uşaqlar say çöplərini qoyanda Öyrədən 3-4 uşaqdan neçə çöpü göy zolağa, neçə çöpü qırmızı zolağa qoyduqlarını soruşur. Sualları əvvəl ayrı-ayrı verilir, sonra uşaqdan bir dəfəyə hər zolağın üstündə neçə çöpün olduğu soruşulur. Əgər uşaqlar cavab verməyə çətinlik çəkərlərsə, cavab nümunəsi verilir.

Uşaqlara zolaqların yerlərini dəyişmək təklif olunur. Bu dəfə qırmızı zolağa bir say çöpü, göy zolağa çoxlu say çöpü qoymaq tələb olunur.

Zolaqlar yerində qalmaqla çöplərin yeri dəyişilir: göy zolağa bir çöp, qızmızı zolağa isə çoxlu çöp qoymaq təklif olunur.

***Hissə 3. Bir rəqəminin vizual tanınmasını təmin edən praktik tapşırıq.***
**Vəsait:** Balaca 3 ədəd maşın. *"Əlavə 3 (B)"- də* verilən "1" rəqəmi Öyrədən tərəfindən öncədən kəsilir və döşəməyə yerləşdirilir.

**Öyrədən:** *"Uşaqlar, biz bayaqdan saydığımız və qırmızı zolaqda qoyduğumuz "1" sayı budur. Gəlin onun formasını bu maşınlar vasitəsi ilə çəkək.* Öyrədən *maşını "Əlavə 2 B" də qeyd edilən nöqtəyə yerləşdirir və "1" indeksinin traktoriyası üzrə hərəkət etdirir.* ***Mən çıxıram yüksək dağa, sonra düşürəm dərə aşağı****".*

Öyrədən *bu tapşırığı uşaqlarla edir.*

***Qeyd:*** *Nümunədə 4 ədəd "bir" indeksi verilib. Gərəkli olduğu təqdirdə* Öyrədən *hər bir uşaq üçün nümunə çıxara bilər.*

*Uğur göstəricisi:* **Bir rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıyır.**

## Fiziki hərəkətlər

**Məqsəd: İstiqaməti təyin etmək, siqnala görə hərəkət etmək və dörd ayaq üstdə tapşırıq yerinə yetirmək bacarığını inkişaf etdirmək.**

***1-ci hissə: Dairə boyu yeriş və qaçış.***
Kubiklər dairəyə düzülür. Uşaqlar bir cərgə ilə kubiklər ətrafında əvvəl yeriyirlər, sonra yavaş qaçırlar. Hərəkətlər növbələnir. Əks istiqamətdə eyni ardıcıllıqla hərəkətlər təkrar olunur. Tapşırıq yeriş ilə bitir.

***2-ci hissə: Kubiklərlə ümuminkişaf təlimləri.***
5. Ayaqlar bir pəncə enində aralı, hər iki əldə kubik, əllər aşağıda. Kubikləri yanlara, sonra yuxarı qaldırmaq; aşağı salmaq; ilkin vəziyyətə qayıtmaq *(4-5 dəfə).*
6. Ayaqlar azca aralı, kubiklər hər iki əldə çiyinlərdə. Oturub kubiklərlə döşəməyə toxunmaq. Qalxmaq, əvvəlki vəziyyətə qayıtmaq *(5-6 dəfə).*
7. Oturub ayaqları çarpazlaşdırmaq, kubiklər hər iki əldə -- dizlərin üstündə. Sağa doğru əyilib, kubiki mümkün qədər uzağa qoymaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkət sol tərəfə təkrar olunur. *(hər tərəfə 2-3 dəfə)*
8. Kubiklərin önündə dayanmaq, əllər sərbəst. Kubiklər ətrafında iki ayaq üstündə qısa fasilə ilə hər iki tərəfə tullanmaq *(hər tərəfə 2-3 dəfə).*

***3-cü hissə: "Böcəklər" kimi sürünmək***
Öyrədən iki stul (yaxud stol) qoyur və ayaqlarına döşəmədən 50 sm hündürlükdə ip bağlayır. İpin bir tərəfindən 2 metr uzaqlıqda 2 metallofon qoyulur. Əks tərəfdə başlanğıc nöqtəni göstərmək üçün qısa ip qoyulur. Uşaqlar dörd ayaq üstündə, "böcək" kimi iməkləyərək ipə toxunmamaq şərti ilə altından keçir, metallofona çatıb ifa edir, ayağa qalxıb geri qayıdırlar.

Uşaq sayı çoxdursa hərəkət yarımqruplarda yerinə yetirilə bilər.

*Uğur göstəricisi:* **Müxtəlif istiqamətlərdə müxtəlif üsullarla qaçır (düz, ziq-zaq xətt üzrə və s.).**

## Hərəkətli oyun: “Göbələk yığımı”

Öyrədən uşaqlara göbələk haqqında danışır və onlara suallar verir. Göbələk harada bitir? Forması necə olur? Onu yığmaq istəsək, nəyə yığaq? və s.



**Öyrədən:** “Bəli, uşaqlar. Göbələyi səbətə yığmaq lazımdır. Amma bizim səbətimiz yoxdur. Gəlin, ətəyimizə yığaq göbələkləri. Öyrədən nümunəni göstərir və uşaqlar musiqi sədaları altında göbələkləri yığır.

Qeyd: Öyrədən kağızları yumrulayır, sinfə səpələmə səpir. Kağızlar sinifdəki göbələkləri əvəz edir. Öyrədən göbələk rəsmləri də hazırlaya, bu rəsmləri sinfin müxtəlif tərəflərinə yapışdıra bilər.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, kimə məşğələmiz maraqlı oldusa, bir əlini qaldırsın.

Kim maşın oyununu sevdisə, mavi ip bağlanan əlini qaldırsın!”

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Öyrədən və uşaqlar dairədə əl-ələ dayanıblar. Əllərini buraxmadan hər kəs sağ tərəfindəki yoldaşı ilə müxtəlif ifadələrlə salamlaşır (məsələn: səni salamlayıram, səni görməyə şadam və s.). Öyrədən davamiyyəti yoxlayır.

***Təqvimlə iş***

Məqsəd: payız fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək - buludlu hava.

## "Bulud" oyunu

Uşaqlar dairəyə düzülüblər. **Öyrədən:**

"Uşaqlar, gəlin indi bir musiqi parçasını dinləyək (mən indi sizin üçün bir musiqi parçası qoyacağam). Musiqi başlayanda otağımızda "buludlar uçacaq". Bu buludlar siz olacaqsınız. Sinfimizdə sərbəst hərəkət edə bilərsiniz. Mahnı dayananda isə siz döşəkçələrdə əyləşəcəksiniz".

***Uğur göstəricisi:*** payız fəslində müşahidə edilə bilən hava durumunu bilir.

***Mövzuya giriş***

**Öyrədən:** "Uşaqlar, dünən evə qayıdarkən yolda payız fəsli ilə bağlı nələri müşahidə etdiniz?"

## Nitq inkişafı: Payız

Məqsəd: payız fəsli və bu mövsümdə baş verən təbiət hadisələri haqqında uşaqların biliklərinin sistemləşdirilməsi. ***(Əlavə 1)***

***Hissə 1. Müzakirə.***

**Öyrədən:** "İndi ilin hansı fəslidir?

Siz dediniz ki, indi payızdır. Bu fəsli hansı əlamətlərindən tanıdınız? (Hava soyuyub, insanlar isti geyinir, tez-tez yağış yağır, günlər qısalır, gecələr uzanır, ağacların yarpaqları saralır və tökülür, tez-tez soyuq külək əsir)

Uşaqlar, siz dediniz ki, ağacların yarpaqları saralır və tökülür. Bu təbiət hadisəsi necə adlanır? (Xəzan)

Yarpaqlar necə tökülür, necə uçurlar? Onları nəyə bənzətmək olar? (Yarpaqlar sakit, kəpənəklər kimi aramla uçurlar; təyyarələrə, vertolyotlara, paraşütlara oxşayırlar)

***Hissə 2. Oyun. "Sehirli top"***

**Öyrədən:** Mən topu kimə atsam, o mənim sualıma cavab verəcək.

- Yarpaqlar payızda necə olur? (Yarpaqlar payızda saralır və tökülür)
- Payız fəslində yağışlar necə yağır? (Payızda çiskin yağış yağır.)
- Payız fəslində ağaclar necə olur? (Ağaclar payızda yarpaqlarını tökürlər)
- İnsanlar payızda necə geyinirlər? (İsti geyinirlər)
- İlin payız fəslini necə adlandırmaq olar? (Qızıl, bərəkətli)

***Hissə 3. Payız ayları:***

(Əlavə 3)

- Payız fəsli hansı aydan başlayır? (sentyabr)
- Payızın ikinci ayı necə adlanır? (oktyabr)

- Payızın sonuncu ayı necə adlanır? (noyabr)
- Gəlin, payız fəslinin aylarını yenidən sayaq. (uşaqlar payız aylarını sayırlar)

***Uğur göstəricisi:*** payız fəsli və bu mövsümdə baş verən təbiət hadisələri haqqında məlumatı var.

## Hərəkətli oyun: "Günəş və yağış"

**Öyrədən:** "Uşaqlar, deyəsən, bizim sinfimizə də yağış yağacaq. Diqqətli olun, mən "Günəş" deyəndə siz gəzməli, qaçmalı, oynamalısınız. Mən "Yağış" deyəndə siz gəlib mənim çətirimin altında gizlənməlisiniz"

Öyrədən qollarını yanlara açır - bu onun çətiri olur. Hərəkətli oyun: "Günəş və yağış"

## Rəsm: "Yağış"

**Məqsəd:** qısa cizgilər, xəttlər və nöqtələrlə yağışı təsvir etməyi öyrətmək.

**Öyrədən:** "Uşaqlar, mən indi payız fəslinin əlamətləri ilə bağlı tapmacalar deyəcəyəm. Tapın görüm cavablarını.

| | | |
|---|---|---|
| *Əl ilə tutmaq olmaz,*<br>*Göz ilə görmək olmaz.* | *Ayağı yoxdur qaçır,*<br>*Qanadı yoxdur uçur.* | *Göydən gələ-gələ,*<br>*Düşür gilə-gilə,*<br>*Bunun adı nədir?*<br>*Gərək, hamı bilə.* |
| **Külək** | **Bulud** | **Yağış** |

Afərin sizə, uşaqlar! Gəlin indi sonuncu tapmacamızın cavabını, yağışı dəftərimizdə çəkək. Baxım görüm hamı qələmi düzgün tutub? "

Öyrədən yağışı təsvir etməyin bir neçə üsulunu (qısa xəttlərlə, nöqtələrlə, qırıq cizgilərlə) nümayiş etdirir. Uşaqlar bu nümunə əsasında yağış, böyük yaşlı uşaqlar isə bulud da çəkirlər.

***Uğur göstəricisi:*** qısa cizgilər, xəttlər və nöqtələrlər çəkə bilir.

## Sərbəst fəaliyyət: "Ən diqqətli" oyunu

Uşaqlar yarımdairədə düzülürlər. Bir nəfər aparıcı təyin edirlər. Aparıcı oyun iştirakçılarının düzülüş sırasını yadında saxlamalıdır. Aparıcı üzünü çevirir. Bu zaman 2-3 oyunçu yerlərini dəyişir. Aparıcı geri çevrilib dostlarının hansı ardıcıllıqda dayandıqlarını deməlidir. Aparıcının yerində bütün oyunçular olmalıdırlar. Səhv etməyənlər qalib olurlar.

## Son toplantı

**Öyrədən:**

"Bu gün sizinlə nə barədə danışırdıq? Uşaqlar, dərs kimə maraqlı oldusa, 1 dəfə əl çalsın. Məşğələdə ən çox nə xoşunuza gəldi? Fikrini bildirmək istəyən bir əlini qaldırsın".

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Öyrədən uşaqlara bir-birlərini əl sıxmaqla salamlamağı təklif edir.

***Təqvimlə iş***

Həftə ərzində təqvim ilə bağlı biliklərin möhkəmlənməsi, davamiyyətin yoxlanması.

***Mövzuya giriş***

Barmaq oyunu: “Payız” şeiri (Abdulla Şaiq)

Payız olur, əsir soyuq küləklər, (Əlləri havada yelləmək)

Solur dağda, çöldə əlvan çiçəklər.

Gecələr uzanır, günlər qısalır, (Əllər yanlara açılır, sonra əksinə - birləşdirilir)

Göy üzünü qara buludlar alır.

**Öyrədən:** “Uşaqlar, rəsmdə gördüyünüz fəsil payız fəslidir.”

***Uğur göstəricisi:*** Payızın xüsusiyyətlərini təsvir edə bilir. 4 misralı şeiri əzbər deyə bilir.

## Məntiq: İş dəftərində tapşırıqlar.

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

Məqsəd: tullanarkən yarıbükülü ayaqlar üzərinə düşməyi və topu çevik itələməyi məşq etmək.

***1-ci hissə. Dairə boyunca gəzmək və qaçmaq.***

Uşaqlar dairəyə düzülüblər. Saat əqrəbi istiqamətində dairə üzrə hərəkətə başlayırlar. Dairənin yarısını gəzərək, digər yarısını isə qaçaraq bitirirlər. Növbəti dəfə eyni qayda ilə əks istiqamətdə hərəkət edirlər.

***2-ci hissə. Ümuminkişaf hərəkətləri.***

1. Ayaqlar bir pəncə enində aralı, əllər yanlarda. Əlləri qaldırmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).

2. Ayaqlar bir pəncə enində aralı, əllər arxada. Oturmaq, əlləri irəli uzatmaq, ilkin vəziyyətə qayıtmaq.

3. Ayaqlar çiyin bərabərində aralı, əllər beldə. Sağa və sola əyilmə, ilkin vəziyyətə qayıtmaq (hər tərəfə 3 dəfə).

4. Arxası üstdə uzanmaq, əllər yanlarda. Növbəli sağ və sol ayağı qaldırmaq, aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-6 dəfə).

5. Ayaqlar bir az aralı, əllər beldə. Öyrədənin göstərişinə uyğun iki ayaq üstə tullanmaq.

***3-cü hissə. Əsas hərəkət növləri.***

- **İp üzərindən tullanmaq.**

Uşaqlar ipin qarşısında dururlar.

Öyrədən tapşırığı izah edir:  “Uşaqlar, ayaqlar bir az aralı, dizlər yarıbükülü vəziyyətdə ipin üzərindən tullanıb dovşan kimi yarıbükülmüş ayaqlar üstə enməlisiniz. Tapşırığı “Tullandıq” göstərişi ilə yerinə yetirirsiniz.” Hərəkət eyni qaydada bir neçə dəfə təkrarlanır.

- **Top diyirlətmək.**

Öyrədən uşaqları iki qrupa ayırır və hər uşağa top (böyük diametrli) götürməyi təklif edir. Hər iki qrup 2,5 m məsafədə  qarşı-qarşıya oturur, ayaqlar aralı. Uşaqlar Öyrədənin siqnalı ilə topu bir-birinə bir neçə dəfə diyirlədirlər.

***Uğur göstəricisi:*** tullanarkən yarıbükülü ayaqlar üzərinə düşməyi və topu çevik itələməyi bacarır.

## Hərəkətli oyun: “Göbələk yığımı”

Öyrədən uşaqlara göbələk haqqında danışır və onlara suallar verir. Göbələk harada bitir? Forması necə olur? Onu yığmaq istəsək, nəyə yığaq? və s.

**Öyrədən:** “Bəli, uşaqlar. Göbələyi səbətə yığmaq lazımdır. Amma bizim səbətimiz yoxdur. Gəlin, ətəyimizə yığaq göbələkləri. Öyrədən nümunəni göstərir və uşaqlar musiqi sədaları altında göbələkləri yığır.

**Qeyd:** Öyrədən kağızları yumrulayır, sinfə səpir. Kağızlar sinifdəki göbələkləri əvəz edir. Öyrədən göbələk rəsmləri də hazırlaya, bu rəsmləri sinfin müxtəlif hissələrinə yapışdıra bilər.

## Səsli nağıl zamanı

***Bala kirpi və dostları***

Yarpaqların saraldığını, meşənin dəyişdiyini görən bala kirpi meşənin xəstələndiyini düşünür. Dostları ilə birlikdə meşəni sağaltmaq üçün yollar axtarırlar.

**Link:** https://youtu.be/_k22VxApzQc

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Kirpi nə üçün qorxurdu?
2. Kirpi kimləri köməyə çağırdı?
3. Köstəbək onlara nə təklif etdi?
4. Onlar birlikdə hara getdilər?
5. Meşəyə nə olmuşdu?
6. Yarpaqlar hansı fəsildə saralır?
7. Siz kirpi, dovşan və köstəbək ilə dost olardınız?

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, bu həftə hər biriniz çox çalışmısınız. İstirahət günlərinizi necə keçirəcəksiniz? Sizə xoş istirahət arzu edirəm.”

# Noyabr | 6-cı həftə | Mövzu: “Yurdumuzun ağacları”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:**

“Salam, uşaqlar. Gəlin dairədə oturaq və bir-birimizin gözlərinə baxaraq salamlaşaq; indi isə bir-birimizə gülümsəyərək salamlaşaq”.

Öyrədən davamiyyəti yoxlayır.

***Təqvimlə iş***

Məqsəd: Payız fəslinə aid ayları öyrətmək.

Öyrədən müzakirə lövhəsindən üç ədəd rəsm asır (Əlavə 4). 1-ci rəsmdə sentyabr ayı (hava soyuq, buludlu, yağışlı təsvir edilməlidir). 2-ci rəsmdə - oktyabr (yarpaqların tökülmə prosesi və buludlu hava təsvir olunmalıdır). 3-cü noyabr (rəsmdə ağaclar çılpaq, yarpaqlar yerdə təsvir edilməlidir). Öyrədən dünən müzakirə lövhəsinə yapışdırdığı rəsmin yerinə bu üç rəsmi yapışdırır və onları ayların adı ilə adlandırır.

**Öyrədən:** “Uşaqlar, indi isə bu adları əl çalaraq öyrənəcəyik”.

***Uğur göstəricisi:*** Payız fəslinə aid ayları bilir. Əl çalır, ritmə uyğun hərəkət edir.

***Mövzuya giriş***

Barmaq oyunu: Tapmaca

Yağış yağanda, (Barmaqları tez-tez aşağı-yuxarı tərpətmək.)

Çimər, yuyunar.

Yazda geyinər, (Barmaqlar qatlanır.)

Qışda soyunar. (Barmaqlar açılır.)

(Ağac)

### Ətraf aləmlə tanışlıq: Ağaclar haqqında nə bilirik?

**Məqsəd:** Ağacları xarakterik xüsusiyyətlərinə (xarici görünüşü, yarpaqların quruluşu) görə fərqləndirməyi öyrətmək.

Vəsaitlər: Ağac şəkilləri. ***(Əlavə 5 (A))***

***Hissə 1. Əqli hücum.***

Öyrədən ağacların təsviri olduğu şəkillərə baxmağı təklif edir.

**Öyrədən:** “Uşaqlar, məlumatınız olsun ki, ağaclar yarpaqlarının quruluşuna görə enliyarpaqlı və iynəyarpaqlı olurlar. Enliyarpaqlı ağacların yarpaqları, iynəyarpaqlı ağacların isə iynələri olur.

Qışda enliyarpaqlı ağaclar yarpaqlarını tökürlər. Yadınızdadır biz payız fəslindən bəhs edərkən bu prosesi necə adlandırmışdıq? (Xəzan)

İynəyarpaqlı ağaclar isə iynələrini qoruyub saxlayırlar. Onlar heç vaxt çılpaq olmur. Biz qışda Yeni ili qarşılamaq üçün hansı iynəyarpaqlı ağacı bəzəyirik? (Küknar, şam)

***Hissə 2. Praktik tapşırıq.***
Öyrədən hər bir uşağa A5 ölçülü kağız parçası verir.

**Öyrədən:**

- İndi öz həyətinizi, bağınızı fikirləşin
- Orada ağaclar bitir?
- Mənim sizə verdiyim kağız parçasında o fikrinizə gələn ağacı çəkin!
- Bu ağac harada bitib? (Həyətdə, meşədə, bağda, parkda)

Qeyd: Uşaqlar çəkdiyi ağac barəsində məlumat verməlidir. Məsələn: Yarpaqları yaşıldır və s.

***Hissə 3. Oyun.***
Külək üzümüzə əsdi. (Əllərlə üzü yelləmək.)

Ağac yellənir. (Əllər havada yellənir.)

Külək səngiyir. (Tədricən oturmaq.)

Ağacımız isə çox-çox hündürdür. (Qalxıb, ayaq barmaqları üstündə yuxarı dartınmaq.)

"Uşaqlar, yarpaqların hərəkətini hansı sözlərlə ifadə edə bilərik? (Öyrədən cavab verməyə kömək edir.)

Yarpaqlar saralır, tökülür, solur və xışıldayırlar.

Bəs ağacların hərəkətini necə ifadə edə bilərik? (Öyrədən cavab verməyə kömək edir)

Ağaclar yellənir, dayanır, səs edir və bitirlər".

Afərin, uşaqlar! Gəlin indi bu yarpaq şəkillərinə (əsl yarpaqlara) baxaq və onların hansı ağaca aid olduğunu müəyyən edək.

***Hissə 4. Müzakirə***
Uşaqlar, ağaclar bir neçə hissədən ibarətdir. (Öyrədən şəkil, yaxud video vasitəsilə göstərərək izah edir.)

Baxın, ağacların kökü, gövdəsi, budaqları və yarpaqları olur. Bu hissələr hər ağacda fərqli olur. Gəlin bu şəkillərdəki ağaclara baxaq və bu fərqi sezməyə çalışaq.

- Bu tozağacıdır. Onun nazik, dik, ağ gövdəsi var; yarpaqları isə dairəvi formada olur.
- Küknarın qalın, qamətli, qəhvəyi gövdəsi var; yarpaqların yerinə iynələri və qozaları var.
- Quşarmudunun nazik, dik, qəhvəyi rəngli gövdəsi var; hündür ağacdır; cüt-cüt yerləşən oval formalı yarpaqları var; qırmızı giləmeyvələri olur.
- Qovağın hündür, boz rəngli gövdəsi var; yarpaqları oval formalı olur; tumurcuqları yapışqandır.
- Palıdın güclü gövdəsi sıx və bərk qabıqla örtülüdür; yarpaqları ovaldır; qozaları var.
- Ağcaqayının gövdəsi tünd boz, yarpağı ulduz şəkillidir.
- Daha hansı ağacları tanıyırsınız? (uşaqların cavabları)

***Uğur göstəricisi:*** Ağacları haqqında biliklərə malikdir. Ağacların payızda yarpağının töküldüyünü, müxtəlif ağacların yarpaqlarının quruluşu haqqında məlumatı var. Ağacların adını bilir.

## Hərəkətli oyun: "Yarpaqlar"

**Məqsəd:** ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar "İynəyarpaqlılar" və "Enliyarpaqlılar" qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə otururlar. Öyrədənin "İynəyarpaqlılar" siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda səpələng qaçırlar. Öyrədənin

“Enliyarpaqlılar” siqnalı ilə “İynəyarpaqlılar”  öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

## Yapma: “Ağac” (kollektiv iş)

**Məqsəd:** ovucların irəli-geri hərəkəti ilə plastilindən müxtəlif ölçüdə uzunsov formalar düzəltməyi öyrətmək.

**Öyrədən:** “Uşaqlar, gəlin şəkildə (pəncərədən) ağaca baxaq və gəzintidə gördüyümüz ağacları xatırlayaq. Ağaclar böyükdür, hündürdür. Onların böyük və kiçik budaqları olan gövdələri var. Budaqlardan yarpaqlar çıxır.

Bugün biz sizinlə ağac hazırlayacıq. Mən gövdəsini siz isə budaq və yarpaqlarını hazırlayacıq. İşə başlamazdan əvvəl gəlin plastilinlə iş qaydalarını təkrar edək. Kim mənim yadıma sala bilər? (uşaqların cavabı)

Əvvəl biz qəhvəyi plastilindən nazik, uzunsov formada budaqları hazırlayacağıq. Budaqlarımız müxtəlif uzunluqda olacaqlar. Budaqları mənim hazırladığım qalın gövdəyə birlşdirəcəyik.

Afərin, budaqları düzəltdik. Ağacda daha nə çatmır? Doğrudur, yarpaqlar. Yarpaqlar üçün bizə hansı plastilin lazımdır? (Yaşıl)

Plastilindən kiçik hissələr qopardırıq, yayırıq və yastılayırıq. Düzəltdiyimiz yarpaqları budaqlara birləşdiririk.

Budur bizim necə gözəl ağacımız var. ”

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:**

- “Uşaqlar, biz bu gün hansı ağaclar haqqında danışdıq? (Uşaqların cavabı)
- Ağaclar haqqında yeni nə öyrəndiniz? (Uşaqların cavabı)

Siz bu gün çox diqqətli idiniz, afərin.”

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə düzülüblər. Dairənin ortasında bir döşəkcə var. Növbə ilə hər uşaq onun üstünə çıxıb özünü təqdim edir, yoldaşlarını salamlayır. Öyrədən davamiyyəti bu oyun ilə yoxlayır.

***Təqvimlə iş***

**Məqsəd:** Payız fəslinə aid ayları öyrətmək.

Öyrədən bir gün öncə müzakirə lövhəsindən asdığı rəsmin (Əlavə 4) hansı aylara aid olduğunu təkrar edir (1-ci rəsmdə sentyabr ayı (hava soyuq, buludlu, yağışlı təsvir edilir, küçədə hər kəs çətir ilə gəzir). 2-ci rəsmdə- Oktyabr (yarpaqların tökülmə prosesi və buludlu hava təsvir olunmalıdır). 3-cü noyabr (rəsmdə ağaclar çılpaq, yarpaqlar yerdə təsvir edilməlidir)). Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəmə qoyur.

**Öyrədən:** "Uşaqlar bu rəsmlərə diqqətlə baxın! Mən sizə təsvir etdiyim rəsmi tapmağınızı istəyəcəm".

"Hava yağışlıdır, insanlar çətir ilə gəzir. Bu hansı rəsmdir? Afərin uşaqlar bu rəsmdə təsvir olunan ay isə snetyabrdır."

Öyrədən sıra ilə digər ayları da uşaqlardan soruşur.

***Uğur göstəricisi:*** Payız fəslinə aid ayları bilir.

***Mövzuya giriş***

Öyrədən öncədən hər uşaq sayı üçün hazırladığı sarı dairə və yaşıl dördbucaqlıları (diametri 5sm) uşaqlara paylayır. Hər bir uşaq öz dostunu seçir və onun ilə üz-bə-üz daynır.

**Öyrədən:** "Uşaqlar baxın sizin əlinizdə olan dairənini rəngi sarıdır, kvadratın rəngi isə yaşıl. İndi mənim komandam ilə siz bir biriniz ilə bu fiqurları dəyişəcəksizni..

- Sarı dairələri dəyişin.
- Yaşıl kvadratları dəyişin.
- Hər iki fiquru eyni anda dəyişin
- Hər kəs əlində olan sarı fiquru qaldırsın
- Hər kəs yaşıl fiquru qaldırsın
- Dairə nə rəngdədir?
- Kvadrat nə rəngdədir?

Afərin, uşaqlar. İndi isə gəlin dərsimizə başlayaq. Bu gün biz iki rəqəmini öyrənəcəyik.

## Riyaziyyat: Əşyaların xüsusiyyətləri. 2 dairəsində say

**Məqsəd:** İki rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıtmaq. İki dairəsində saymağı öyrətmək.

Vəsaitlər: hər uşağa 2 ədəd rəngli, müxtəlif ölçülü dairə, 2 oyuncaq pişik (yaxud digər heyvan), 2 qutu, 4 balıq.

Qeyd: Öyrədən "Əlavə 3 A" də verilən rəqəmlər təsvir edilən rəqəmlərdən də istifadə edə bilər

### *Hissə 1. İki rəqəminin auditorial (eşidərək) biliyini təmin edən tapşırıqlar*

**Öyrədən:** "Uşaqlar, indi ilin hansı fəslidir? (payız) Bəs payız necə olur? (qızılı, sərin, gözəl)

- Xahiş edirəm bir əlinizə bir yaşıl, digər əlinizə isə bir sarı dairə alın. Hər əldə eyni sayda, bərabər sayda dairə var-yəni bir ədəd.
- Bəs əllərimizdə cəmi neçə dairə var? (iki)
- Dairənin birini arxanızda gizlədin. Neçəsi qaldı? (bir)
- Dairələr yenidən göründü. İndi nə qədər oldu (iki)
- Lalənin neçə dairəsi var? (iki) Bəs Mahmudun? (iki)
- Kimdə sarı dairə varsa onu yuxarı qaldırsın.
- Kimdə yaşıl dairə varsa onu yuxarı qaldırsın. Afərin!

### *Hissə 2. Kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) və auditorial (eşidərək) biliyi təmin edən praktik tapşırıq.*

Uşaqlar, bir baxın bu qutulara, nənə pişiklər üçün pay göndərib. Qutuların birinin üzərində 1, digərinin üzərində 2 rəqəmi var. İçində görün nə var?! Bir qutuda 1 balıq, digər qutuda 2 balıq.

- Pişik balalarından biri ağlayır. Niyə? Deyəsən, onun payına bir balıq düşdüyü üçün məyusdur.
- Necə edək ki, hər iki pişikdə balıqların sayı bərabər olsun? (Bir balıq əlavə edək)
- İndi bərabərdir? Sayaq. Bəli, bir pişikdə 2 balıq, digər pişikdə də 2 balıq - hər iki pişikdə balıqların sayı bərabərdir."

Böyük yaşlı uşaqlara qutunun üzərindəki rəqəmlər göstərilir və onları adlandırmaq xahiş olunur.

Öyrədən döşəməyə müxtəlif əşyalar yerləşdirir. Hər döşəməyə yerləşdirilən əşyanın sayı bir və ya iki olmalıdır. Məs.: İki portağal, iki qaşıq, bir kitab.

**Öyrədən:** "Uşaqlar, hansı əşyanın dostu var? Bəs hansı əşya təkdir. Gəlin bu əşyaları sayaq. Bir, bir-iki, bir-iki.

### *Hissə 3. İki rəqəminin vizual tanınmasını təmin edən praktik tapşırıq.*

Vəsait: *Əlavə 3B*-də verilən 2 rəqəmi Öyrədən tərəfindən öncədən kəsilir və döşəməyə yerləşdirilir.

**Öyrədən:** "Uşaqlar! Biz bayaqdan saydığımız iki rəqəmi budur. Gəlin onun formasını bu barmağımızın köməyi ilə çəkək. Öyrədən barmağını "Əlavə 3 (B)"- də qeyd edilən nöqtəyə yerləşdirir və 2 indeksinin traktoriyası üzrə hərəkət etdirir.

Öyrədən bu tapşırığı uşaqlar ilə edir.

**Qeyd:** Nümunədə 4 ədəd iki indeksi verilib. Gərəkli olduğu təqdirdə Öyrədən hər bir uşaq üçün nümunə çıxara bilər.

***Uğur göstəricisi:*** əşyaların əlamətlərini müəyyən edib müqayisə etmək bacarır. İki dairəsində saymağı bilir.

## Fiziki hərəkətlər

**Məqsəd:** siqnal ilə yeriş, qaçış və dayanmağı məşq etdirmək; top ilə oyun vasitəsilə çevikliyi inkişaf etdirmək.

### *1-ci hissə: Otaqda cərgə ilə və səpələng yeriş.*

Öyrədənin "quşlar" siqnalı ilə əlləri qanadlar kimi yelləyərək qaçmaq; adi addıma keçmək.

Öyrədənin "dovşan" siqnalı ilə iki ayaq üstə tullanmaq.

Hərəkətlər təkrarlanır.

***2-ci hissə: Toplarla ümuminkişaf hərəkətləri.***

1. Ayaqlar bir pəncə enində aralı, qollar dirsəkdən bükülüb, top əldə-sinə səviyyəsində. Qolları açaraq topu qaldırmaq, topu aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
2. Ayaqlar azca aralı, top aşağıda. Oturumaq, qollar bükülür- top sinə səviyyəsinə qalxır. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq (5 dəfə).
3. Sallağı oturmaq. Top yerdədir. Topu bədən ətrafında hər iki tərəfə diyirlətmək (3 dəfə).

***3-cü hissə: Əsas hərəkət növləri. Topun düz istiqamətdə diyirlədilməsi. "Cəld top" oyunu.***

Uşaqlar, iplə işarələnmiş çıxış xəttində dayanırlar. Hər uşağın əlində top var, ayaqlar çiyin bərabərində aralı, qollar dirsəkdən bükülüb, top əldə-sinə səviyyəsində. Komanda ilə uşaqlar əyilirlər, və cəld hərəkətlə topu önə itələyir, sonra da onun arxasınca qaçırlar. Geri yeriyərək qayıdırlar (2-3 dəfə).

Əşyalar arasında onlara toxunmadan iməkləmək.

Döşəmədə bir-birindən 1,5 m aralı 2 sırada döşəkçələr, yaxud kubiklər düzülür (4-5 ədəd). Uşaqlar 2 cərgə ilə əşyalar arasında iməkləyirlər ("ilan kimi"). Ayağa qalxırlar və başlarının üstündə əl çalırlar.

***Uğur göstəricisi:*** siqnal ilə yeriyir, qaçır. Top ilə oyunda fəallıq nümayiş etdirir.

## Hərəkətli oyun: "Yarpaqlar"

**Məqsəd:** ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar "İynəyarpaqlılar" və "Enliyarpaqlılar" qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin "İynəyarpaqlılar" siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda səpələng qaçırlar. Öyrədənin "Enliyarpaqlılar" siqnalı ilə "İynəyarpaqlılar" öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Hansı qoçaq tez deyər, Söyləyin ay uşaqlar?

Xor-xor yatan pişiyin, Neçə xumar gözü var?"

Afərin uşaqlar siz bu günkü dərsimizi yaxşı mənimsəmisiniz. İndi isə evə getmək zamanıdır. Sizdən bir xahişim olacaq. Evə gedərkən yolda gördüyünüz, dostu, tayı olan bütün əşyaları saymağınızı istəyirəm. Məs: inəyin iki gözü var, cücənin iki ayağı.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir! Mən adını çəkdiyim uşaq ayağa qalxacaq yerində dairə vurub əyləşəcək. Mən isə həmin uşağın rəsmini “Sinfimizdədir” lövhəsinə yapışdıracam.”

Öyrədən (davamiyyəti yoxlayıb bitirdikdən sonra):

“Bu gün kim gəlməyib?” Bəs onun niyə gəlmədiyini kim bilir?”

***Təqvimlə iş***

**Məqsəd:** Payız fəslinə aid ayları öyrətmək.

Öyrədən 1-ci və 2-ci gün istifadə etdiyi rəsmləri uşaqlara göstərir və döşəməyə qoyur (1-ci rəsmdə sentyabr ayı (hava soyuq, buludlu, yağışlı təsvir edilməlidir). 2-ci rəsmdə - oktyabr (yarpaqların tökülmə prosesi və buludlu hava təsvir olunmalıdır). 3-cü noyabr (rəsmdə ağaclar çılpaq, yarpaqlar yerdə təsvir edilməlidir)). Uşaqlar dairədə oturub.

**Öyrədən:** “Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Kim mənə sentyabr ayını təsvir edər? Bu rəsmlərdən hansında sentyabr ayı təsvir olunub?”

Öyrədən sıra ilə digər ayları da uşaqlardan soruşur.

***Uğur göstəricisi:*** Payız fəslinə aid ayları bilir.

- ***Mövzuya giriş***

Öyrədən Öyrədən vəsaiti kitabçasındakı “Əlavə 5 (B)”-də verilən yarpaqları  öncədən kəsir. Uşaqlar özlərinə sinfin istənilən yerində dayanmağa bir yer seçir. Öyrədən kəsdiyi yarpaqları yuxarı doğru atır, yarpaqlar yerə kökülür.

**Öyrədən:** “Uşaqlar baxın! Bizim sinfimizə də payız gəlib, yarpaqlar tökülüb, xəzana dönüb. Biz indi onları toplamalıyıq, lakin siz ancaq mən təsvir etdiyim yarpaqları toplayacaqsınız.”

## Nitq inkişafı: Ağaclar haqqında nə bilirik?

***Məqsəd:*** Ağacların adlarını öyrənmək və hər bir ağacın yarpaqlarının formasını uşaqlara göstərmək.

Qeyd: Oyun Steve Metzger “We’re Going on a Leaf Hunt” hekayəsindən götürülüb. ***(Əlavə 5 (B))***

***Hissə 1. Giriş***

**Öyrədən:** “Uşaqlar, gəlin yola çıxaq, axşam düşmədən sinfimizə qayıdaq”.

“Biz gedirik yarpaq toplamağa, gedirik, gedirik (Öyrədən sinifdə gəzişir, uşaqlar Öyrədənin hərəkətlərini təkrar edirlər). Oooooo, qarşımıza təpə çıxdı (öncədən kəsilən təpəciyi işarə edir), biz onun kənarı ilə gedə bilmərik, onun üzərindən keçməliyik. Keçirik, keçirik, keçdik... Gəldik.... Vəəə bir ağaca rast gəldik. Diqqətlə baxaq, bu, tozağacıdır. Onun nazik, dik, ağ gövdəsi var; yarpaqları isə dairəvi formada olur. Gəlin, tozağacının yarpaqlarını sinifdə tapaq. (Düz tapdınız. Afərin sizə!).

***Hissə 2. Müzakirə.***

**Öyrədən:** “Uşaqlar, gəlin yolumuza davam edək!”

“Biz gedirik yarpaq toplamağa, gedirik, gedirik (Öyrədən sinifdə gəzişir, uşaqlar Öyrədənin hərəkətlərini təkrar edir). Oooooo, qarşımıza meşə çıxdı (öncədən kəsilən təpəciyi işarə edir), biz onun kənarı ilə gedə bilmərik, onun içərisi ilə getməliyik. İçərisi ilə gedirik, gedirik, uşaqlar, biz meşədə azmamaq üçün bir-birimizdən tuta bilərik, bir-birimizə dəstək olaraq meşəni keçə bilərik... Gəldik.... Vəəə bir ağaca rast gəldik. Diqqətlə baxaq, bu, küknardır. Onun qalın, qamətli, qəhvəyi gövdəsi var; yarpaqların yerinə iynələri və qozaları var.. Gəlin küknarın qozalarını sinifdə tapaq. (Düz tapdınız. Afərin sizə).

***Hissə 3. Müqayisə.***

**Öyrədən:** Uşaqlar, indi isə gəlin əyləşək və baxaq görək bu yarpaqlar nə ilə fərqlənir?

Qeyd: Öyrədən iki fərqli yarpaq götürür və uşaqlardan onları təsvir etməyi və fərqini tapmağı xahiş edir. Uşaqlar yarpaqların hansı ağaca aid olduğunu da tapmağa çalışırlar. Müzakirə bütün yarpaqlar bitənə qədər davam edir.

***Uğur kriteriyası:*** Ağacların adlarını öyrənmək və hər bir ağacın yarpaqlarının formasını uşaqlara göstərmək.

## Hərəkətli oyun: “Yarpaqlar”

**Məqsəd:** Ətrafdakılara toxunmadan pərakəndə halda (səpələng) qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar “İynəyarpaqlılar” və “Enliyarpaqlılar” qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin “İynəyarpaqlılar” siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda pərakəndə halda (səpələng) qaçırlar. Öyrədənin “Enliyarpaqlılar” siqnalı ilə “İynəyarpaqlılar” öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

## Rəsm “Rəngli yarpaqlar”

**Məqsəd:** Fırça ilə işləməyi öyrətmək.

Vəsaitlər: fırça, boya, su ilə dolu stəkan, yarpaqların şəkli (Öyrədən hər bir öyrənən üçün A4 kağızında müxtəlif formalı yarpaqlar çəkir), salfetlər.

**Öyrədən:** “Uşaqlar, boyaların arasında qırmızı, sarı, yaşıl rəngi tapa bilərsiniz? (uşaqlar tapşırığı yerinə yetirirlər). Bəli bu boya ilə yarpaqları rəngləyəcəyik. Ancaq barmaqlarımızla rəngləyə bilmərik axı, bizə köməkçi lazım olacaq. Budur, bizim köməkçimiz bu fırça olacaq”. Öyrədən fırça ilə işləmək qaydasını izah edir və uşaqlara iş prosesində nəzarət edir. Öyrədən uşaqlara şəkli kontur daxilində rəngləməyi xatırladır. Kiçik yaşlı uşaqlara bununla bağlı kömək edir.

***Uğur göstəricisi:*** fırça ilə işləməyi və kontur daxilində rəngləməyi bacarır.

## Sərbəst fəaliyyət

Uşaqlar rənglədikləri yarpaqları kəsə bilərlər.

## Son toplantı

Öyrədən öncədən hazırladığı ağac gövdəsini divara yapışdırır (yarpaqsız).

**Öyrədən:** “Uşaqlar, indi gəlin kəsdiyimiz yarpaqları bu ağaca yapışdıraq. Bu ağac bizim qurupun birliyini, mehribanlığının rəmzi olacaq. Bu ağacın adı bizim ailə ağacımız olsun!”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! İstirahət günlərinizi necə keçirəcəksiniz? ”

***Uğur göstəricisi:*** 3-5 cümlə ilə baş vermiş və ya verəcəyi hadisə haqqında danışa bilir (məsələn, bazar günü evdə nə ilə məşğul olacağı ilə bağlı).

***Təqvimlə iş***

Payız ayları. Biliklərin təkrarlanması. Öyrədən 1-ci, 2-ci, 3cü günlərdə oynanılan oyunları təkrar edə bilər.

- Mövzuya giriş

**Öyrədən:** “Uşaqlar, bu gün biz ağacların bizə olan faydası haqqında danışacağıq”.

## Məntiq: İş dəftərində tapşırıqlar

Məqsəd: Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** siqnal ilə yeriş, qaçış və dayanmağı məşq etdirmək; top ilə oyun vasitəsilə çevikliyi inkişaf etdirmək.

***1-ci hissə: Otaqda cərgə ilə və nizamsız yeriş.***

Öyrədənin “quşlar” siqnalı ilə əlləri qanadlar kimi yelləyərək qaçmaq; adi addıma keçmək.

Öyrədənin “dovşan” siqnalı ilə iki ayaq üstə tullanmaq. Hərəkətlər təkrarlanır.

***2-ci hissə: Toplarla ümuminkişaf hərəkətləri.***

1. Ayaqlar bir pəncə enində aralı, qollar dirsəkdən bükülmüş, top əldə - sinə səviyyəsində. Qolları açaraq topu qaldırmaq, topu aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).

2. Ayaqlar azca aralı, top aşağıda. Oturmaq, qolları bükmək - topu sinə səviyyəsinə qaldırmaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq (5 dəfə).

3. Sallağı oturmaq. Top yerdədir. Topu bədən ətrafında hər iki tərəfə diyirlətmək (3 dəfə).

***3-cü hissə: Əsas hərəkət növləri. Topun düz istiqamətdə diyirlədilməsi.***

“Cəld top” oyunu.

Uşaqlar iplə işarələnmiş çıxış xəttində dayanırlar. Hər uşağın əlində top var, ayaqlar çiyin bərabərində aralı, qollar dirsəkdən bükülmüş vəziyyətdə, top əldə - sinə səviyyəsində. Komanda ilə uşaqlar əyilirlər və cəld hərəkətlə topu önə itələyir, sonra da onun arxasınca qaçırlar. Geri yeriyərək qayıdırlar (2-3 dəfə).

Əşyalar arasında onlara toxunmadan iməkləmək.

Döşəmədə bir-birindən 1,5 m aralı 2 sırada döşəkçələr, yaxud kubiklər düzülür (4-5 ədəd). Uşaqlar 2 cərgə ilə əşyalar arasında iməkləyirlər (“ilan kimi”). Ayağa qalxırlar və başlarının üstündə əl çalırlar.

***Uğur göstəricisi:*** xırda idman inventarı (balışlar, toplar və s.) ilə tapşırıqlar yerinə yetirilir.

## Hərəkətli oyun: “Yarpaqlar”

**Məqsəd:** Ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar “İynəyarpaqlılar” və “Enliyarpaqlılar” qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin “İynəyarpaqlılar” siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda dağınıq şəkildə (səpələng) qaçırlar. Öyrədənin “Enliyarpaqlılar” siqnalı ilə “İynəyarpaqlılar” öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

## Səsli nağıl zamanı

***Dostlar***

**QR Kod:** Səsli nağıla keçid üçün QR kodu skan edin.

**Link:** https://youtu.be/WMobKgi_kxk

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Ayı nəyə görə ağaca yaxınlaşdı?
2. Balı hansı heyvan hazırlayır?
3. Arıların köməyinə kimlər gəldi?
4. Sizin dostunuz kimdir?

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, bu gün ən diqqətli kim idi? İndi yoxlayarıq.

Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabları). Afərin!”

## Noyabr | 7-ci həftə | Mövzu: “Meyvələr”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə düzülürlər. Hər uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona atır və salamlaşır. Oyun bütün uşaqlar salamlaşanadək davam edir. Öyrədən davamiyyəti yoxlayır.

***Təqvimlə iş***

**Məqsəd:** Günün hissələrini öyrətmək-Səhər. (Əlavə 6)

Öyrədən Müzakirə lövhəsinə öncədən asdığı bir şəkili uşaqlara təqdim edir (rəsmdə səhər, günəşin çıxışı təsvir olunub; uşaq yerindən qalxır). Öyrədən rəsmləri müqayisəli şəkildə uşaqlara təqdim edir.

***Uğur göstərici:*** Günün hissələrini - Səhəri bilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, mən öz sehrli qutumda nə isə gizlətmişəm. Əgər nə olduğunu tapa bilsəniz, bir oyun oynayacağıq. Onu tapmağınızı istəyirəm. O yumru, narıncı rəngdədir, qabığı nahamardır”. (Portağal)

### Ətraf aləmlə tanışlıq: “Meyvələr”

**Məqsəd:** meyvə və meyvə ağacları haqında bilikləri genişləndirmək və dəqiqləşdirmək.

Vəsaitlər: Oyuncaq meyvələr, meyvələr və yaxud meyvə rəsmləri.Əlavə

***Hissə 1. Meyvələrin tanıtımı***

*(Əlavə 7)* Uşaqlar dairədə əyləşir. Öyrədən qutuya plastik və ya həqiqi meyvələri toplayır.

Uşaqlardan birinə qutudan hər hansı bir meyvəni çıxarır və atır. Həmin meyvəni tutan öyrənən meyvənin əlamətlərini sadalayır. Qutudakı meyvələr (mövsümü və marketdə tapıla bilən meyvələr olmalıdır) bitdikdən sonra Öyrədən uşaqlardan birini yanına dəvət edib gözü yumulu qutudan bir meyvə seçməsini xahiş edir. Uşaq seçdiyi meyvəni gözüyumulu təsvir etməli və əlamətlərinə əsasən, toxunaraq tapmalıdır.

***Hissə 2: Dadına bax və təyin et!***

Öyrədən öncədən doğradığı və boşqaba yerləşdirdiyi meyvələri dairənin ortasına yerləşdirir. Uşaqlardan biri seçilir, gözü şərf ilə bağlanır. Öyrədən digər bir uşaqdan istədiyi meyvə hissəciyini dostuna verməyi xahiş edir. Gözü yumulu olan öyrənən meyvənin dadına baxıb onun hansı meyvə olduğunu təyin etməlidir.

**Qeyd:** Məşğələ zamanı Öyrədən uşaqlara meyvələrin faydasından, vitaminlərlə zəngin, sağlam qida olması barədə məlumat verməlidir. Faydalı qida barədə daha geniş məlumatı “Sağlam qida” mövzusunda əldə edəcəklər.

***Hissə 4: Təcrübə. Qrup işi.***

Öyrədən sinfi iki hissəyə ayırır. Seçdiyi bir neçə meyvəni tən ortadan ikiyə ayırır. Meyvələrin bir hissəsini bir qrupa, qalanını isə digər qrupa verir. Öyrədən uşaqların köməyi ilə meyvələri boyaya batırır, onların formasını ağ kağız üzərinə köçürür (möhürləyir).

Uşaqlar boyaları meyvənini rənginə uyğun seçməlidirlər.

***Uğur kriteriyası:*** meyvə və meyvə ağacları haqında bilikləri var.

## Hərəkətli oyun: Meyvələri yerləşdir

Öyrədən bir ip götürür və sinfin mərkəzində yerə yerləşdirir (ipi yerdən 20-30 sm hündürlükdə  də bağlamaq olar). İpin bir hissəsinə plastik meyvələri yerləşdirir. Plastik meyvələr olan hissədə boş bir qutu da yerə qoyulur.  Qrupdan seçilən iki uşaq ipin digər, əks hissəsində yanbayan dayanır.

**Öyrədən:** "Mən indi sizə hər hansı bir meyvə adı deyəcəm, siz adı eşidən kimi qaçıb həmin meyvəni seçib qutunun içərisinə atmalısınız. Kim meyvəni ilk müəyyən edib qutuya atsa, qalib də o sayılır."

Öyrədən uşaqların aldığı xalları lövhədə qeyd edə bilər.

## Yapma: Nar

Məqsəd: ovucların dairəvi hərəkəti ilə plastilindən yumru forma hazırlamaq qaydasını öyrətmək.

- Plastilinlə iş qaydaları təkrar edilir.
- Uşaqlar Öyrədən ilə birlikdə əsl narı nəzərdən keçirirlər.
- Öyrədən ovucların dairəvi hərəkəti ilə plastilin parçasını topa çevirmək qaydasını izah edir.
- Qırmızı plastilindən kürə - nar düzəldilir.
- Ayrıca kiçik plastilin parçasından narın saplağı hazırlanır.
- Saplaq nara birləşdirilir.

***Uğur göstəricisi:*** ovucların dairəvi hərəkəti ilə plastilindən yumru forma hazırlamaq qaydasını bilir.

## Sərbəst fəaliyyət: uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bu gün biz nədən danışdıq? (Meyvələrdən)

Onların tərkibində nə var? (Vitaminlər)

Vitaminlər bizə nə üçün lazımdır? (Xəstələnməmək üçün, sağlam və  güclü olmaq üçün)"

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

Uşaqlar dairədə düzülürlər. Hər uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona atır və salamlaşır. Oyun bütün uşaqlar salamlaşanadək davam edir.

Öyrədən davamiyyəti yoxlayır.

### *Təqvimlə iş*

**Məqsəd:** Günün hissələrini öyrətmək-Səhər. (Əlavə 6)

Öyrədən Müzəkirə lövhəsinə öncədən asdığı bir şəkili uşaqlara təqdim edir (rəsmdə səhər, günəşin çıxışı təsvir olunub; uşaq yerindən qalxır). Öyrədən rəsmləri müqayisəli şəkildə uşaqlara təqdim edir.

***Uğur göstərici:*** günün hissələrini-Səhəri bilir.

### *Mövzuya giriş*

**Öyrədən:** "Uşaqlar, mən öz sehrli qutumda nə isə gizlətmişəm. Əgər nə olduğunu tapa bilsəniz, bir oyun oynayacağıq. Onu tapmağınızı istəyirəm. O yumru, narıncı rəngdədir, qabığı nahamardır". (Portağal)

## Ətraf aləmlə tanışlıq: "Meyvələr"

**Məqsəd:** meyvə və meyvə ağacları haqında bilikləri genişləndirmək və dəqiqləşdirmək.

Vəsaitlər: Oyuncaq meyvələr, meyvələr və yaxud meyvə rəsmləri.Əlavə

### *Hissə 1. Meyvələrin tanıtımı*

*(Əlavə 7)* Uşaqlar dairədə əyləşir. Öyrədən qutuya plastik və ya həqiqi meyvələri toplayır.

Uşaqlardan birinə qutudan hər hansı bir meyvəni çıxarır və atır. Həmin meyvəni tutan öyrənən meyvənin əlamətlərini sadalayır. Qutudakı meyvələr (mövsümü və marketdə tapıla bilən meyvələr olmalıdır) bitdikdən sonra Öyrədən uşaqlardan birini yanına dəvət edib gözü yumulu qutudan bir meyvə seçməsini xahiş edir. Uşaq seçdiyi meyvəni gözüyumulu təsvir etməli və əlamətlərinə əsasən, toxunaraq tapmalıdır.

### *Hissə 2: Dadına bax və təyin et!*

Öyrədən öncədən doğradığı və boşqaba yerləşdirdiyi meyvələri dairənin ortasına yerləşdirir. Uşaqlardan biri seçilir, gözü şərf ilə bağlanır. Öyrədən digər bir uşaqdan istədiyi meyvə hissəciyini dostuna verməyi xahiş edir. Gözü yumulu olan öyrənən meyvənin dadına baxıb onun hansı meyvə olduğunu təyin etməlidir.

**Qeyd:** Məşğələ zamanı Öyrədən uşaqlara meyvələrin faydasından, vitaminlərlə zəngin, sağlam qida olması barədə məlumat verməlidir. Faydalı qida barədə daha geniş məlumatı "Sağlam qida" mövzusunda əldə edəcəklər.

### *Hissə 4: Təcrübə. Qrup işi.*

Öyrədən sinfi iki hissəyə ayırır. Seçdiyi bir neçə meyvəni tən ortadan ikiyə ayırır. Meyvələrin bir hissəsini bir qrupa, qalanını isə digər qrupa verir. Öyrədən uşaqların köməyi ilə meyvələri boyaya batırır, onların formasını ağ kağız üzərinə köçürür (möhürləyir).

Uşaqlar boyaları meyvənini rənginə uyğun seçməlidirlər.

***Uğur kriteriyası:*** meyvə və meyvə ağacları haqında bilikləri var.

## Hərəkətli oyun: Meyvələri yerləşdir

Öyrədən bir ip götürür və sinfin mərkəzində yerə yerləşdirir (ipi yerdən 20-30 sm hündürlükdə  də bağlamaq olar). İpin bir hissəsinə plastik meyvələri yerləşdirir. Plastik meyvələr olan hissədə boş bir qutu da yerə qoyulur.  Qrupdan seçilən iki uşaq ipin digər, əks hissəsində yanbayan dayanır.

**Öyrədən:** "Mən indi sizə hər hansı bir meyvə adı deyəcəm, siz adı eşidən kimi qaçıb həmin meyvəni seçib qutunun içərisinə atmalısınız. Kim meyvəni ilk müəyyən edib qutuya atsa, qalib də o sayılır."

Öyrədən uşaqların aldığı xalları lövhədə qeyd edə bilər.

## Yapma: Nar

**Məqsəd:** ovucların dairəvi hərəkəti ilə plastilindən yumru forma hazırlamaq qaydasını öyrətmək.

- Plastilinlə iş qaydaları təkrar edilir.
- Uşaqlar Öyrədən ilə birlikdə əsl narı nəzərdən keçirirlər.
- Öyrədən ovucların dairəvi hərəkəti ilə plastilin parçasını topa çevirmək qaydasını izah edir.
- Qırmızı plastilindən kürə - nar düzəldilir.
- Ayrıca kiçik plastilin parçasından narın saplağı hazırlanır.
- Saplaq nara birləşdirilir.

***Uğur göstəricisi:*** ovucların dairəvi hərəkəti ilə plastilindən yumru forma hazırlamaq qaydasını bilir.

## Sərbəst fəaliyyət: uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bu gün biz nədən danışdıq? (Meyvələrdən)

Onların tərkibində nə var? (Vitaminlər)

Vitaminlər bizə nə üçün lazımdır? (Xəstələnməmək üçün, sağlam və  güclü olmaq üçün)"

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Gəlin bu gün quş kimi qanad açaq və uçub yoldaşlarımızdan birini qucaqlayaraq salamlayaq."

Öyrədən qutudan adını çıxardığı uşaq sinifdə quş kimi uçmağa başlayır. Öyrədən davamiyyəti yoxlayır.

**Öyrədən:** "Uşaqlar, kimlərin adı qutudan çıxmadı? Kim bu gün dərsə gəlməyib? Kim səbəbi bilir?"

### *Təqvimlə iş*

Öyrədən (təqvim lövhəsində ay, həftənin günləri qeyd etdikdən sonra):

Oyun: Səhər. (Əlavə 8)

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

O-ya-nı-ram (Gərnəşərək)

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

Əl ü-zü-mü yuyuram (Əlləri üzün qarşısında dairəvi hərəkət etdiririk.

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

Dişlərimi fırçalayıram (Dişlərini necə fırçaladığını göstərir uşaqlar.

Bu məşğələ səhər etməli olduğumuz hərəkətlər bitənə qədər davam edilir.

### *Mövzuya giriş*

Öyrədən uşaqların şəkillərini sehrli qutudan çıxararaq üç uşaqdan ibarət qruplar təşkil edir.

Uşaqlar hər qrupdakı uşaqların adını qeyd edib, uşaqları sayırlar. Məs: Qrup 1-Aydan, Ayan, İnci. 1, 2, 3 uşaq var.

## Riyaziyyat: "3 dairəsində saymaq"

**Məqsəd:** Üç rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıtmaq.  Üç dairəsində saymağı öyrətmək.

Vəsait: 3 donuz balasının təsviri olan şəkillər, 3 şabalıd, 3 ev, 3 qapı (eni müxtəlif olan düzbucqlar). (Əlavə 8)

**Qeyd:** Öyrədən "Əlavə 3 A" də verilən rəqəmlər təsvir edilən rəqəmlərdən də istifadə edə bilər

### *Hissə 1.*

Bir rəqəminin auditorial (eşidərək) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) biliyi təmin edən praktik tapşırıq

Öyrədən "Üç donuz balası" nağılını xatırladır (Əgər uşaqlar nağıl ilə tanış deyillərsə, öncə nağıl oxunur).

Öyrədən üç donuz balasını göstərir ***(Əlavə 9)***

- "Kim onların adını xatırlayır?
- Donuz balalarının sayını bilmək üçün nə etmək lazımdır? (Saymaq)
- Neçə donuz balası var? (3)

Gəlin donuz balalarını şabalıda qonaq edək (Uşaqlar hər donuz balasına bir şabalıd verir).Sayaq görək neçə şabalıd var? (3) Deməli, donuz balaları və şabalıdların sayı eynidir.

### *Hissə 2: Oyun*

Uşaqlar dairə şəklində düzülürlər. Əvvəlcə hündür Yeni il ağacını (barmaqları üstündə dayanıb əlləri ilə yuxarı dartınırlar), sonra alçaq Yeni il ağacını (sallağı otururlar) göstərirlər (2-3 dəfə).

Öyrədən uşaqlara donuzların yaşadığı üç evi göstərir və evin qapısını bağlamaq üçün eni uyğun olan qapını seçmyi təklif edir. Uşaqlar qapıları eninə görə müqayisə edir (enli-ensiz) və hər evin öz qapısını seçirlər.

### *Hissə 3: Üç rəqəminin vizual tanınmasını təmin edən praktik tapşırıq*

Vəsait: Balaca 3 ədəd maşın. "Əlavə 3 (B)"- də verilən 3 rəqəmi Öyrədən tərəfindən öncədən kəsilir və döşəməyə yerləşdirilir.

**Öyrədən:** "Uşaqlar. Biz bayaqdan saydığımız üç sayı budur. Gəlin onun formasını bu maşınlar vasitəsi ilə çəkək. Öyrədən maşını Əlavə 3 B də qeyd edilən nöqtəyə yerləşdirir və üç indeksinin traktoriyası üzrə hərəkət etdirir. Mən çıxmışam uzun yola, döngə çıxır qarşıma və bir döngə daha".

Öyrədən bu tapşırığı uşaqlar ilə edir.

**Qeyd:** Nümunədə 4 ədəd üç indeksi verilib. Gərəkli olduğu təqdirdə Öyrədən hər bir uşaq üçün nümunə çıxara bilər.

***Uğur kriteriyası:*** 3-ə qədər saymağı bacarır; müqayisə bacarığına malikdir.

## Fiziki hərəkətlə

**Məqsəd:** dairədə qaçış və yeriş, Öyrədənin siqnalı ilə istiqaməti dəyişmək, tarazlığı saxlamaq bacarığını inkişaf etdirmək

### *1-ci hissə: Bir cərgə ilə gəzmək.*

Öyrədənin siqnalı ilə dönmək və yavaş qaçmaq (qaçış və yeriş bir neçə dəfə növbələnir).

### *2-ci hissə: Stullarla ümuminkişaf məşqləri.*

- Stulda oturmaq, ayaqlar bir az aralı, qollar aşağı salınıb. Əlləri yanlara, sonra çiyinlərə qaldırmaq; ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
- Stulda oturmaq, ayaqlar aralı, əllər beldə. Qollar yanlara açılır, sağ və sol əl ilə sol və sağ ayaq barmağına toxunmaq. İlkin vəziyyətə qayıtmaq (hər tərəfə 3 dəfə).
- Stulun arxasında dayanmaq, əllər sərbəstdir. İki ayaq üstündə stulun ətrafında növbə ilə hər iki tərəfə tullanmaq. (Növbəti tərəfə doğru hərəkətə başlamamışdan əvvəl kiçik fasilə).

### *3-cü hissə: Əsas hərəkət növləri*

"Timsah iməkləməsi"- ipin altından iməkləmək (hündürlüyü yerdən 50 sm).

Stullar arasında ip çəkilir. Start xətti ipdən 1,5 metr aralıdadır.

Uşaqlar - timsahlar öz evlərinə (çaya) çatmaq üçün maneəni qət etməlidirlər. Startda uşaqlar 4 ayaq üstə dayanırlar, ipə toxunmadan altından iməkləyirlər. Sonra ayağa qalxıb əllərini başlarının üstünə qaldırıb əl çalırlar (2-3 dəfə).

"Qaç! Toxunma!"

Uşaqlar bir cərgədə bir-birindən 50 sm aralı düzülmüş əşyalar arasında əşyalara toxunmadan əvvəl addımlamalı, sonra qaçmalıdırlar. (2-3 dəfə)

***Uğur göstəricisi:*** müvazinəti saxlamağa yönəlmiş tapşırıqlar yerinə yetirir.

## Hərəkətli oyun: Meyvələri yerləşdir!



Öyrədən bir ip götürür və sinfin mərkəzində yerə yerləşdirir (ipi yerdən 20-30 sm hündürlükdə də bağlamaq olar). İpin bir hissəsinə plastik meyvələri yerləşdirir. Plastik meyvələr olan hissədə boş bir qutu da yerə qoyulur. Qrupdan seçilən iki uşaq ipin digər, əks hissəsində yanbayan dayanır.

**Öyrədən:** "Mən indi sizə hər hansı bir meyvə adı deyəcəm, siz o meyvə adını eşidən kimi qaçıb həmin meyvəni seçib qutunun içərisinə atmalısınız. Kim meyvəni ilk müəyyən edib qutuya atsa, qalib də o sayılır".

Öyrədən uşaqların aldığı xalları lövhədə qeyd edə bilər.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bəs sizin üçün bu gün nə ilə yadda qaldı?"

Öyrədən həzin musiqi sədaları altında hər uşağın güclü cəhətləri haqqında danışır.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:**

“Sabahnız xeyir! Sizi yenidən görməyimə şadam! Uşaqlar, bu gün sizə gözəl bir gün diləyirəm. Bəs siz mənə nə diləyirsiniz?”

“ Uşaqlar, bilirsiniz də indi payız fəslidir və yağışlar tez-tez yağır. Mən sizi yağışdan qorumaq üçün öz çətirimin altında gizlədəcəm. Mənim çətirim kimin üzərinə gəlsə, həmin uşağın adını deyəcəksiniz.. Mən isə həmin uşağın adını davamiyyət lövhəmdə qeyd edəcəyəm (Davamiyyət lövhəsi “Salamlaşma guşəsi”ndə yerləşdirilməlidir).

***Təqvimlə iş***

Məqsəd: Günün hissələrini öyrətmək-Günorta (Əlavə 6)

Öyrədən Müzəkirə lövhəsinə öncədən asdığı bir şəkili uşaqlara təqdim edir (rəsmdə günorta-Gün zenitdədir, parlaqdır). Öyrədən Səhər və Günortanın rəsmlərini rəsmləri müqayisəli şəkildə uşaqlara təqdim edir.

Uğur göstərici: günün hissələrini-Səhəri bilir.

***Mövzuya giriş***

Barmaq oyunu: “Portağal”

Biz portağal bölürük, (sol əl bükülüb sağ əlin içində)

Dostlara ötürürük.

Bu dilim kirpi üçün, (sağ əl ilə sol əlin barmaqları növbə ilə açılır)

Bu dilim dovşan üçün,

Bu dilim pişik üçün,

Bu dilim ördək üçün,

Bu dilim qunduz üçün,

Qabığı canavar üçün. (əllər silkələnir)

“Uşaqlar, payız fəslində təbiət bizə çoxlu dadlı nemətlər gətirir? Bunlara meyvələr də aiddir”

## Nitq inkişafı: “Meyvələr”

**Məqsəd:** meyvə və meyvə ağacları haqında bilikləri genişləndirmək və dəqiqləşdirmək

Vəsaitlər: oyuncaq meyvələr, yaxud meyvə rəsmləri

***Hissə 1. Məlumatın ötürülməsi***

**Öyrədən:**

- “Uşaqlar, payız məhsul yığımı fəslidir. Gəlin xatırlayaq, hansı meyvələri biz artıq tanıyırıq? (uşaqların cavabları)
- Baxın, bizim meyvə səbətimizdən istənilən meyvəni seçə bilərsiniz. İndi isə seçdiyiniz meyvələrə baxın və mənə deyin görüm onlar bir-birindən nə ilə fərqlənirlər? (forma, rəng, ölçü)

- Uşaqlar meyvələr nə rəngdədir? (qırmızı, sarı, narıncı və s.)
- Meyvələrin rənglərini bir sözlə necə ifadə etmək olar? (rəngbərəng)
- Bəs meyvələr harada bitirlər? (ağacda) ”

***Hissə 2. Oyun***

Öyrədən oyuncaq meyvə olan boşqabları uşaqlara paylayır. Uşaqlar verilmiş qrupa aid olmayan oyuncağı tapırlar.

Məsələn: Alma, armud, soğan, gavalı,

Böyük alma, böyük armud, albalı,

Pomidor, xiyar, banan,

Badımcan, gavalı, ananas.

***Hissə 3.***

“Uşaqlar, bəs meyvə və tərəvəzlər nə üçün lazımdır? (Onlar vitaminlə zəngindir (boldurlar))

Bəs vitaminlər nə üçün lazımdır? (orqanizmi möhkəmləndirmək üçün, xəstələnməmək üçün, ağıllı olmaq üçün, mikrobları məhv etmək üçün)

Doğrudur, uşaqlar, vitaminlər bizim orqanizmimizi möhkəmləndirir və ona xəstəliklərlə mübarizə aparmağa kömək edir.

***Uğur göstəricisi:*** meyvə və meyvə ağacları haqında biliklərə malikdir.

## Hərəkətli oyun: Meyvələri yerləşdir

Öyrədən bir ip götürür və sinfin mərkəzində yerə yerləşdirir (ipi yerdən 20-30 sm hündürlükdə də bağlamaq olar). İpin bir hissəsinə plastik meyvələri yerləşdirir. Plastik meyvələr olan hissədə boş bir qutu da yerə qoyulur. Qrupdan seçilən iki uşaq ipin digər, əks hissəsində yanbayan dayanır.

**Öyrədən:** “Mən indi sizə hər hansı bir meyvə adı deyəcəm, siz o meyvə adını eşidən kimi qaçıb həmin meyvəni seçib qutunun içərisinə atmalısınız. Kim meyvəni ilk müəyyən edib qutuya atsa qalib də o sayılır.”

Öyrədən uşaqların aldığı xalları lövhədə qeyd edə bilər.

## Rəsm : Rəsm “Alma almaya bənzər”

**Məqsəd:** kollaj (rəngli kağızları kəsib, çırıb öncədən çəkilən rəsmin üzərinə yapışdırmaq

Vəsaitlər: rəngli kağızlar,, alma şəkli (kağızdan hazırlanmış, yaxud əsl alma),

**Öyrədən:** “Uşaqlar, kağızlar arasında qırmızı rəngi tapa bilərsiniz? (Uşaqlar tapşırığı yerinə yetirirlər)

Bəli bu kağızı xırda-xırda hissələrə ayıracayıq, sonra almamızın üzərinə yerləşdirəcəyik.

***Uğur göstəricisi:*** kollaj üsulu ilə işləməyi və kontur daxilində rəngli kağızları yapışdırmağı bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq. Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabları). Afərin! ”

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlama*

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar!

Mənim ardımca təkrar edin: “Salam, sağ əlim. Salam, sağ ayağım. Salam, sol əlim. Salam, sol ayağım.

İstirahət günlərini necə keçirməyi düşünürsüzün?”

### *Təqvimlə iş*

Öyrədən həftənin 1, 2 və 3-cü gün keçdiklərini təkrar edir. Səhər və Günorta.

Oyun: Səhər

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

O-ya-nı-ram (Gərnəşərək)

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

Əl ü-zü-mü yuyuram (Əlləri üzün qarşısında dairəvi hərəkət etdiririk).

Səhər-səhər nə edirsən? (Əl çalınır) 2 dəfə

Dişlərimi fırçalayıram (Uşaqlar dişlərini necə fırçaladığını göstərir).

Bu məşğələ səhər etməli olduğumuz hərəkətlər bitənə qədər davam edilir.

### *Mövzuya giriş*

*Qruplaşdır!* Öyrədən *müxtəlif meyvələrdən 1, 2 və ya 3 sayda rəsm kəsir və döşəməyə yerləşdirir.* Öyrədən uşaqlardan hər meyvəni öz qutusuna yerləşdirməyi xahiş edir. Sonra uşaqlar Öyrədən ilə birlikdə hər meyvədən neçə ədəd olduğunu sayır.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** ***həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək***

## Fiziki hərəkətlər

**Məqsəd:** ***dairədə qaçış və yeriş,*** Öyrədən***in siqnalı ilə istiqaməti dəyişmək, tarazlığı saxlamaq bacarığını inkişaf etdirmək***

### *1-ci hissə. Bir cərgə ilə gəzmək.*

Öyrədənin siqnalı ilə dönmək və yavaş qaçmaq (qaçış və yeriş bir neçə dəfə növbələnir).

### *2-ci hissə: Stullarla ümuminkişaf məşqləri*

- Stulda oturmaq, ayaqlar bir az aralı, qollar aşağı salınıb. Əlləri yanlara, sonra çiyinlərə qaldırmaq; ilkin vəziyyətə qayıtmaq *(4-5 dəfə).*
- Stulda oturmaq, ayaqlar aralı, əllər beldə. Qollar yanlara açılır, sağ və sol əl ilə sağ sol ayaq barmağına toxunmaq. İlkin vəziyyətə qayıtmaq *(hər tərəfə 3 dəfə).*
- Stulun arxasında dayanmaq , əllər sərbəstdir. İki ayaq üstündə stulun ətrafında növbə ilə hər iki tərəfə tullanmaq. *(növbəti tərəfə doğru hərəkətə başlamamışdan əvvəl kiçik fasilə)*.

### *3-cü hissə: Əsas hərəkət növləri*

*“Timsah iməkləməsi”*-ipin altından iməkləmək (hündürlüyü yerdən 50 sm).

Stullar arasında ip çəkilir. Start xətti ipdən 1,5 metr aralıdadır.

Uşaqlar - timsahlar öz evlərinə (çaya) çatmaq üçün maneəni qət etməlidirlər. Startda uşaqlar 4 ayaq üstə dayanırlar, ipə toxunmadan altından iməkləyirlər. Sonra ayağa qalxıb əllərini başlarının üstünə qaldırıb əl çalırlar.*(2-3 dəfə)*

*"Qaç! Toxunma!"*

Uşaqlar bir cərgədə bir-birindən 50 sm aralı düzülmüş əşyalar arasında əşyalara toxunmadan əvvəl addımlamalı, sonra qaçmalıdırlar. *(2-3 dəfə)*

***Uğur göstəricisi:*** Öyrədən***in siqnalı ilə istiqaməti dəyişir, tarazlığı saxlayır.***

## Hərəkətli oyun: Meyvələri yerləşdir



Öyrədən bir ip götürür və sinfin mərkəzində yerə yerləşdirir (ipi yerdən 20-30 sm hündürlükdə  də bağlamaq olar). İpin bir hissəsinə plastik meyvələri yerləşdirir. Plastik meyvələr olan hissədə boş bir qutu da yerə qoyulur.  Qrupdan seçilən iki uşaq ipin digər, əks hissəsində yanbayan dayanır.

**Öyrədən:** "Mən indi sizə hər hansı bir meyvə adı deyəcəyəm, siz adı eşidən kimi qaçıb həmin meyvəni seçib qutunun içərisinə atmalısınız. Kim meyvəni ilk müəyyən edib qutuya atsa, qalib də o sayılır."

Öyrədən uşaqların aldığı xalları lövhədə qeyd edə bilər.

## Səsli nağıl zamanı

### *Əsmərin sehrli zənbili*

Nağılın qəhrəmanı Əsmər konfet, şirniyyat, çips yeməyi çox sevir. Hələ üstəlik meyvələrnən heç arası yoxdur. Axır bir gün meyvələr dil açıb bu vəziyyətə son qoymaq, Əsməri meyvələrin xeyri barədə məlumatlandırmaq istəyirlər. Bəs onlarda bu necə alınır? Görəsən Əsmər sonda meyvələrnən razılaşa bilir?

**Link:** https://youtu.be/eKtUo1C1yhI

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Əsmər nə yeməyi xoşlayır?
2. Meyvələr bizim üçün xeyirlidir?
3. Alma nəyə görə Əsmərdən küsür?
4. Kök Əsmərə nə deyir? Kök nə üçün faydalıdır?
5. Bəs qoz nə üçün narazı idi?
6. Konfet və çipslər Əsmərə nə dedilər?
7. Əsmər sonda nə etdi?

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, istirahət günlərini necə keçirəcəksiniz?

Açıq havada vaxt keçirərkən bu həftə haqqında məlumat aldığımız quşlara nəzər yetirməyi unutmayın."

# Noyabr | 8-ci həftə | Mövzu: “Quşlar”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlama***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar!

Sabahınız xeyir, gözlər! Siz oyandınız? (Barmaqlardan “binokl” düzəldib ondan baxmaq.)

Sabahınız xeyir, qulaqlar! Siz oyandınız? (Əllərlə qulaqları sığallamaq)

Sabahınız xeyir, əllər! Siz oyandınız? (Əl çalmaq)

Sabahınız xeyir, ayaqlar! Siz oyandınız? (Yerində addımlamaq)

Sabahınız xeyir, günəş! Mən oyandım! (Əlləri yuxarı qaldırıb, dartınmaq)”

***Təqvimlə iş***

**Məqsəd:** Günün hissələrini öyrətmək-Gecə. (Əlavə 10).

Öyrədən Müzəkirə lövhəsinə öncədən asdığı bir şəkili uşaqlara təqdim edir (rəsmdə gecə-hamı yatır, küçə qaranlıqdır, göydə ay görsənir).

**Öyrədən:** “Uşaqlar kim rəsmdə gördüklərini danışar? Öncəki gün öyrəndiyimiz günorta və səhər ilə günün bu hissəsinin fərqi nədir? Uşaqlar günün bu hissəsinə biz-Gecə deyirik.”

***Uğur göstərici:*** günün hissələrini-Gecəni bilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, bu həftəmizin qəhrəmanları uçur, ağacın budağında oturub nəğmə oxuyur. Bəziləri payızda isti yerlərə köç edir. Sizcə hansı canlıdan danışıram?”

Barmaq oyunu: Tapmaca (Teymur Elçin)

Balaca bir quşam mən, (Qolları qanadlar kimi tərpətmək)

Budağa qonmuşam mən. (Sallağı oturmaq)

Hər tərəfə qar yağıb, (Hər iki əlin barmaqlarını pianoda çalırmış kimi tərpətmək)

Soyuqdan donmuşam mən. (Qollar ilə özünü qucaqlamaq)

Yem gəzirəm cik-cirik, (Hər iki əlin şəhadət və orta barmağı ilə addımları imitasiya etmək)

Görməsin məstan pişik.

(Sərçə)

### Ətraf aləmlə tanışlıq: Quşlar. Onlar necə olurlar?

**Məqsəd:** quşun bədən hissələri ( dimdiyi, lələkləri, quyruğu, ayaqları) haqqında təsəvvür yaratmaq.

Vəsaitlər: quş şəkilləri (Əlavə 11).

***Hissə 1. Giriş. Biliyin ötürülməsi.***

**Öyrədən:** “Bu gün biz quşlar haqqında danışacağıq.”

Öyrədən quşların təsviri (sərçə, qarğa, göyərçinlər) olduğu şəkillərə baxmağı təklif edir.

**Öyrədən:**

- "Bu quşlardan hansı sizə tanışdır? Bu quşları hardasa görmüsünüzmü?"
- Hər gün küçədə hansı quşları görürsününz? (Sərçə, qarğa, göyərçinlər və s.).
- Sizcə quşlar heyvanlardan nə ilə fərqlənirlər?
- Bəs quşlarla heyvanların oxşar cəhətləri nədir?
- Bəs bütün quşların ümumi cəhətləri hansılardır? (Bütün quşların ayağı var, qanadları, başı, bədəni, dimdiyi, quyruğu, lələkləri var)

Uşaqlar, bilirsiniz, soyuqların düşməsi ilə quşlar yem tapmaqda çətinlik çəkirlər. Onların bədəni soyuq havanın yaratdığı bir sıra çətinliklərin öhdəsindən gələ bilmir. Ona görə bir qrup quşlar soyuqlar bitənə qədər köçüb isti ölkələrdə məskunlaşırlar. Biz onları köçəri quşlar kimi tanıyırıq. Cənuba ilk olaraq cücülərlə qidalanan quşlar (ququ quşu, bülbül, çaydaçapan, sığırçın) uçurlar, çünki soyuqdan cücülər gizlənir və onların yeməyi olmur. Ən sonda isə suda üzən quşlar (ördəklər, qazlar və s.) köç edirlər. Beləki, çaylar, göllər donana qədər onlar öz qidalarını sudan əldə edə bilirlər.

Bizim qış boyu gördüyümüz quşlar çətinliklə də olsa, özlərinə ağac qabığının çatlarında, evlərin və hasarların dəliklərində gizlənən cücülərlə, bəzi bitkilərin meyvə və toxumları ilə qidalanırlar. Onları biz qışlayan quşlar adlandırırıq.

Qışda biz quşları müxtəlif bitkilərin (günəbaxan, balqabaq və s.) toxumları ilə yemləyərək onlara soyuq havaları rahat keçirməyə kömək edə bilərik".

### *Hissə 2. Praktik tapşırıq.*

Öyrədən ağ kağız (lövhə) üzərində quşun sxematik təsvirini çəkir. Öyrənənlər isə ağ kağız üzərində quşun hissələrini çəkməyə cəhd edir. Hər hissə çəkildikcə onun haqqında suallar və malumat verilir. Məsələn: dimdik - yemi götürmək üçün lazımdır. Qanadlar uçmaq üçün lazımdır.

- Quşlar insanlardan nə ilə fərqlənirlər? (Əllərin əvəzinə qanadları var)
- Quşlara qanad nə üçün lazımdır? (Uçmaq üçün)
- Daha nə fərq var? (Ağız əvəzinə dimdiyi var)
- Quşlara dimdik nə üçün lazımdır? ( Yemək, içmək)
- Başqa nə fərq görə bilirik?  (Dəri yerinə lələkləri var)
- Quşlara lələklər nə üçün lazımdır? (Onları isti saxlamaq üçün)
- Daha  bir fərqi mənə kim deyər? (Quşların quyruğu var)
- Bəs quyruq quşlara nə üçün lazımdır? (Qanadlar kimi quyruq da uçmağa kömək edir)

### *Hissə 3. Oyun: "Quşlar"*

Öyrədən kiçik bənövşəyi quşları budaqdakı böyük narıncı quşlarla uyğunlaşdırmalıdır. Öyrədən ağ lövhəyə uşaqlarla rənglədiyi quş rəsmləri yapışdırır (Əlavə 11).

Eyni rəngli quşların balaca formasında yerə  böyük narıncı quşlar çəkir. Döşəməyə isə balaca rəngli quşlar yerləşdirir.

Uşaqlar dairə boyu musiqi sədaları altında gəzir, musiqi dayanan kimi Öyrədənin qeyd etdiyi quş balasını (balaca quşu) böyük quşa birləşdirir. Öyrədən "qırmızı" deyəndə uşaqlardan biri qaçıb həmin balaca quşu götürüb böyük quşun yanına yapışdırmalıdır.

***Uğur göstəricisi:*** quşun bədən hissələri (dimdiyi, lələkləri, quyruğu, ayaqları) haqqında təsəvvürü var.

## Hərəkətli oyun: "Quş yuvada"

**Məqsəd:** ətrafdakılara toxunmadan dağınıq şəkildə (səpələnmiş qaçmağ)ı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə otururlar. Bu künclər yuvalardır. Öyrədənin siqnalı ilə bütün uşaqlar - "quşlar" otaqda qaçıb-uçub özünə "dən" axtarmağa başlayırlar. Öyrədənin "quşlar yuvalarınıza!" siqnalı ilə uşaqlar öz yerlərinə qayıdırlar.

Öyrədən uşaqların -"quşların" siqnala görə hərəkət etmələrinə və yuvalardan bacardıqları qədər uzağa uçub, yalnız öz yuvalarına qayıtmalarına nəzarət edir.

***Uğur göstəricisi:*** siqnal ilə yeriyir, qaçır.

## Yapma: "Göyərçin üçün dən"

**Məqsəd:** Plastilini kiçik hissələrə ayırmaq və kiçik hissələri hazırlamaq bacarığını formalaşdırmaq.

**Öyrədən:**

"Uşaqlar, göyərçin səhər oyandı və ətrafına baxdı. Ay aman, onun yeməyi qurtarıb. Kömək üçün o bizim yanımıza uçub gəlib.

- o Biz quşa yeməyə nə verə bilərik? (Çörək qırıntıları, dən).
- o Bəs çörək qırıntıları, dən nə formada olur? (Xırda, yumru)

Dənləri hazırlamaq üçün plastilini götürüb əzirik. Sonra ondan kiçik parçalar qopardırıq və ovcumuzda yumrulayırıq." Öyrədən uşaqların diqqətini plastilinin rənginə və qoparılan parçaların ölçüsünə yönəldir.

***Uğur göstəricisi:*** Plastilini kiçik hissələrə ayırır və kiçik hissələri hazırlamaq bacarığına malikdir

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:**

- "Uşaqlar, biz bu gün hansı canlılar haqqında danışdıq? (Uşaqların cavabı)
- Gəlin yenə xatırlayaq, quşlar insanlardan nə ilə fərqlənirlər? (Uşaqların cavabı)
- Uşaqlar, bizə kim qonaq gəlmişdi? (Quş)
- Biz quşu nə ilə yemlədik? (Dən, yem)

Siz bu gün çox diqqətli idiniz, afərin."

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

Uşaqlar dairədə otururlar. Salamlaşaraq uşaqlar bir-birinin əlindən tuturlar və hamı salamlaşmayanadək əlləri buraxmırlar.

Öyrədən davamiyyəti yoxlayır.

### *Təqvimlə iş*

Məqsəd: Günün hissələrini (Axşam) öyrətmək. (Əlavə 6).

**Öyrədən:** " Uşaqlar, günün çıxması-səhərdir, günün səmada hündürdə dayanması-günortadır. Bəs günün batması? Gününü gün batan vaxtı necə adlanır?

Oyun: Axşam

Axşam-axşam nə edirsən?

Dişlərimi fırçalayıram (Uşaqlar dişlərini necə fırçaladığını göstərirlər).

Axşam-axşam nə edirsən? (Əl çalınır) 2 dəfə

Gecə geyimimi geyinirəm

Axşam-axşam nə edirsən? (Əl çalınır) 2 dəfə

Mən yatmağa gedirəm.

Bu məşğələ axşam etməli olduğumuz hərəkətlər bitənə qədər davam edilir.

***Uğur göstəricisi:*** Günün hissələrini (Axşam) öyrədək.

### *Mövzuya giriş*

Öyrədən qutudan iki rəngdə qatar vaqonları çıxarır. Sağ tərəfə bir rəngdə dörd vaqon, sol tərəfə isə digər üç rəngli vaqonu sıra ilə düzür, qatar alınır. Öyrədən müqayisəli şəkildə hər vaqondan bir qatar götürüb qutuya yerləşdirir. Bu hərəkəti bir neçə dəfə təkrar edir".

**Öyrədən:** "Uşaqlar, kim deyə bilər, hansı vaqon daha uzun idi?

## Tikinti/ riyaziyyat: "4 dairəsində say. Dəmir yolu"

**Məqsəd:** Dörd rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıtmaq. Dörd dairəsində saymağı öyrətmək.

**Qeyd:** Öyrədən "Əlavə 3 (A)" də verilən rəqəmlər təsvir edilən rəqəmlərdən də vəsait kimi istifadə edə bilər

### *Hissə 1. Praktik tapşırıqlar: "Dəmir yol tikintisi"*

Dörd rəqəminin kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) biliyi təmin edən praktik tapşırıq

**Öyrədən:** "Uşaqlar, biz dünən hissələrini yapışdırıb avtomobil düzəltdik.

Avtomobil hara ilə gedir? (Avtomobil yolu ilə). Bəs qatar hara ilə gedir? (Dəmir yolu ilə/relslərin üzərində). Relslər isə şpalların üzərinə düzülür."

1. Hər uşağa 4 say çöpü və 2 uzun karandaş verilir.

2. Öyrədən uşaqlara şpalları- say çöplərini bir-birindən müəyyən məsafədə olmaqla düzməyi təklif edir. Uşaqların diqqəti düzülmüş şpalları saymağa yönləndirilir.

3. Şpalların üzərinə düz bucaq altında iki karandaş qoyulur və sayılır.

**Öyrədən:** "Uşaqlar, şpallar qısadır, bəs relslər?(uşaqların cavabı). Gəlin indi yerdə bir uzun dəmir yolu tikək."

Uşaqlar Öyrədənin köməyi ilə öz şpallarını, onların da üzərinə relslərini düzürlər və öz qısa dəmir yollarını birləşdirib bir uzun dəmir yolu düzəldirlər.

### *Hissə 2. Praktik tapşırıqlar*

Dörd rəqəminin auditorial (eşidərək) və vizual görüb sayaraq əldə etdiyi biliyi təmin edən praktik tapşırıq

A. Uşaqlar dairədə oturub, Öyrədən hərkəsdən gözünü yummağını xahiş edir. Öyrədən kənarda yerləşdirdiyi 1, 2, 3, 4, ədəd balaca topu (əlinin içinə sığa biləcək ölçüdə olmalıdır) yerə diyirləyir. Uşaqlar Öyrədənin diyirlətdiyi topun sayını ürəklərində sayıb ucadan deməlidirlər. Uşaqlar cəld sayaraq topların sayını ilk deməyə çalışmalıdırlar.

B. Öyrədən uşaqları 4-4 olmaqla qruplara ayırır. Sinifdə 4 masa yerləşdirilir. Uşaqlar masaların ətrafına toplaşırlar. Hər masada 3-4-5 uşaq dayana bilər. Uşaqlar hazır dayanırlar. Öyrədən masalara üzü aşağı quş şəkli yerləşdirir. Uşaqlar həmin quş şəkillərini Öyrədənin oyunu başladana qədər çevirməməlidirlər. Öyrədən "Çevirin" deyəndə, uşaqlar quşların rəsmlərini çevirirlər. Quşların üzərində yazılan rəqəm qədər həmin quşun yuvasına yumurta yerləşdirməlidirlər. Məsələn: Uşaqlar quşun rəsmini çevirərkən quşun üzərində "4" rəqəmini görsələr, bu zaman həmin masaya 4 ədəd yumurta yerləşdirməlidir. Öyrədən hər dəfə kartları hər masa üçün dəyişir.

### *Hissə 3: Dörd rəqəminin vizual tanınmasını təmin edən praktik tapşırıq.*

Vəsait: Balaca 3 ədəd maşın. Əlavə 2-də verilən 4 rəqəmi Öyrədən tərəfindən öncədən kəsilir və döşəməyə yerləşdirilir.

**Öyrədən:** "Uşaqlar. Biz bayaqdan saydığımız dörd sayı budur. Gəlin onun formasını bu maşınlar vasitəsi ilə çəkək. Öyrədən maşını "Əlavə 3 (B)"- də qeyd edilən nöqtəyə yerləşdirir və dörd indeksinin traktoriyası üzrə hərəkət etdirir.

Öyrədən bu tapşırığı uşaqlarla edir.

**Qeyd:** Nümunədə 4 ədəd üç indeksi verilib. Gərəkli olduğu təqdirdə Öyrədən hər bir uşaq üçün nümunə çıxara bilər.

***Uğur kriteriyası:*** 4-ə qədər saymağı bacarır; müqayisə bacarığına malikdir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enmək bacarığını inkişaf etdirmək.

### *Hissə 1. Oyun tapşırığı: "Şən siçanlar"*

Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədənin "Siçanlar!" siqnalı ilə uşaqlar əlləri bellərində barmaq uclarında qısa addımlarla yeriyirlər. "Pişiklər" siqnalı ilə uşaqlar qaçmağa başlayırlar. Hərəkətlər növbələnərək bir neçə dəfə təkrar edilir.

### *Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətləri*

o Ayaqlar bir pəncə enində aralı, qollar yanda, lentlər əllərdə. Lentləri yuxarı qaldırmaq, yelləmək. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə) .

- Ayaqlar bir pəncə enində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Oturmaq, lentləri yerə sallamaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq (4 dəfə).

- Ayaqlar çiyin bərabərində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Sağa sola dönmək, sol (sağ) əli sağa (sola) aparmaq. Dikəlmək, əvvəlki vəziyyətə qayıtmaq. (hər tərəfə 3 dəfə)

- Ayaqlar bir pəncə enində aralı, lentlər aşağı salladılıb. Lentləri yanlara qaldırıb yelləmək. aşağı salırıq. İlkin vəziyyətə qayıtmaq (5 dəfə).

***Hissə 3. Əsas hərəkət növləri***

"Meşə yolu ilə"

Yerə bir-birinə paralel iki sıra döşəkcə -"meşə yolu" düzülür. Yollar arasındakı məsafə 2-3 metr olmalıdır. Uşaqlar yavaş-yavaş, qolları ilə tarazlığı saxlayaraq bir yol ilə gedib, digər yol ilə qayıdırlar.

"Uzunqulaq dovşanlar"

Uşaqlar, dovşanlar bir cərgəyə düzülürlər. Öyrədən dovşanlara meşənin kənarına qədər (sinfin digər tərəfinə) tullanmağı təklif edir. Öyrədənin siqnalı ilə uşaqlar iki ayaq ustündə tullanaraq 3-4 metr məsafə qət edirlər. Uşaqlar geri yavaş adımla qayıdırlar.

***Uğur göstəricisi:*** uşaq tarazlığı saxlayır və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enir.

## Hərəkətli oyun: "Quş yuvada"

**Məqsəd:** ətrafdakılara toxunmadan səpələnmiş qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə otururlar. Bu künclər yuvalardır. Öyrədənin siqnalı ilə bütün uşaqlar - "quşlar" otaqda qaçıb-uçub özünə "dən" axtarmağa başlayırlar. Öyrədənin "quşlar yuvalarınıza!" siqnalı ilə uşaqlar öz yerlərinə qayıdırlar.

Öyrədən uşaqların-"quşların" siqnala görə hərəkət etmələrinə və yuvalardan bacardıqları qədər uzağa uçub, yalnız öz yuvalarına qayıtmalarına nəzarət edir.

***Uğur göstəricisi:*** siqnal ilə yeriyir, qaçır.

## Sərbəst fəliyyət: Sərbəst rəsm

## Son toplantı

Öyrədən sakit musiqi sədaları altında məşğələdə baş verənlər haqqında danışır və hər bir uşağın güclü tərəflərini vurğulayır. Uşaqlar isə ən çox yadlarında qalan məqamlarla bölüşürlər.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Gəlin xoş söz deyək! Tullanaq! Xoş söz deyək! Fırlanaq!" Xoş söz deyək! Əl çalaq! Afərin sizə! "

### *Təqvimlə iş*

**Məqsəd:** Günün hissələrini (Axşam) öyrədək. ***(Əlavə 6).***

Öyrədən günün hissələri təsvir olunan (səhər, güorta, axşam, gecə) rəsmlərini qarışdırır və döşəməyə yerləşdirir. **Öyrədən:** "Uşaqlar, kim bu rəsmləri sıra ilə düzə bilər?"

Uşaqlar günün hissəsini Səhər, günorta, axşam, gecə olaraq sıralamalıdır.

***Uğur göstəricisi:*** Günün hissələrini (Axşam) öyrədək

### *Mövzuya giriş*

**Öyrədən:** "Uşaqlar, siz bilirsiniz, quşlar həyat tərzinə görə bir-birindən necə fərqlənirlər?"

### *Barmaq oyunu: Tapmaca (Teymur Elçin)*

**Öyrədən:** "Sizi meşədə yaşayan və meşənin həkimi adlanan bir quş ilə yaxından tanış etmək istəyirəm. Kim deyər, mən hansı quş haqqında danışıram? (Ağacdələn) Ağacdələnin böyük və möhkəm dimdiyi var (uşaqlar ağacdələnin şəklinə diqqətlə baxırlar). Dili isə uzundur. Əks halda, qabıqdakı dəliklərdən qabıqyeyən böcəkləri çıxarmaq çətin olardı. Ağacdələn yay boyu cücülərlə qidalanır. Qışda isə o, küknar və şam ağaclarının qozalarını yeyir."

Ağacdələn haqqında hekayə xoşunuza gəldimi? Yeni nə öyrəndiniz?"

## Nitq inkişafı: Quşlar

**Məqsəd:** Rollu oyunlar zamanı müxtəlif səs tonu və ya intonasiyadan istifadə etməyi öyrətmək.

### *Hissə 1. Nağıl saatı "Cığal sərçə" səsli nağılı*

Öyrədən nağılı uşaqlara danışır.

### *Hissə 2: Sual-Cavab*

Öyrədən nağılın sujet xətti boyunca suallar verir. Bu uşaqların nağılı ardıcıl xatırlamasına kömək edəcək.

### *Hissə 3. Rollu-oyun.*

Öyrədən uşaqlar sırasından Cığal sərçə" nağılındakı personajlardan seçir və bu nağılı uşaqlar ilə birgə səhnələşdirirlər.

**Qeyd:** Uşaqlar nağıldakı qəhramanların ssini olduğu kimi çıxarmağa çalışmalıdır.

### *Hissə 4. Dərsin sonu.*

**Öyrədən:** "Uşaqlar biz indi bütün nağılda olan heyvanların dili ilə danışmağa çalışacayq. Mən sizə şer deyəcəm. Siz isə o cümləni həmin heyvanın dili ilə deməyə çalışacaqsınız."

Öyrədən qrupdan bir uşaq seçir və hər hansı bir heyvan adı deyir. Aşağıda qeyd edilən "Durna" şeirini həmin heyvanın dili ilə deməyini uşaqdan xahiş edir.

***"Durna" şeiri. Rəşid bəy Əfəndiyev***

Ey havada uçan durna,

Bizi qoyub qaçan durna,

Get, xoş gəldin, səfa gəldin,

Gələcəksən haçan, durna?

**Öyrədən:** "Uşaqlar, durnalar nə vaxt qayıdacaqlar? " (havalar istiləşəndə/ yazda)

***Uğur göstəricisi:*** Rollu oyunlar zamanı müxtəlif səs tonu və ya intonasiyadan istifadə edir.

## Hərəkətli oyun: "Quş yuvada"

**Məqsəd:** ətrafdakılara toxunmadan səpələnmiş qaçmağı və yeriməyi, siqnala əsasən çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə otururlar. Bu künclər yuvalardır. Öyrədənin siqnalı ilə bütün uşaqlar-"quşlar" otaqda qaçıb-uçub özünə "dən" axtarmağa başlayırlar. Öyrədənin "quşlar yuvalarınıza!" siqnalı ilə uşaqlar öz yerlərinə qayıdırlar.

Öyrədən uşaqların-"quşların" siqnala görə hərəkət etmələrinə və yuvalardan bacardıqları qədər uzağa uçub, yalnız öz yuvalarına qayıtmalarına nəzarət edir.

***Uğur göstəricisi:*** siqnal ilə yeriyir, qaçır

## Rəsm: "Quş"

**Məqsəd:** quşun bədən formasına istinad edərək dairə, oval və düz xətt çəkmək bacarığını inkişaf etdirmək.

**Öyrədən:** "İndi biz sizinlə şəkil çəkəcəyik, lap əsl rəssamlar kimi. Lakin rəssama gözəl şəkil yaratmaq üçün yaxşı əhval ruhiyyə lazımdır. Mən bilirəm hamının əhvalını yaxşılaşdırmaq üçün nə etmək lazımdır- mütləq bir-birimizə gülümsəməliyik.

Bu gün dərsə gələndə bir balaca sərçə ağacın budağında oturub şikayətlənirdi. Sərçənin dostları onu tək qoyub uçub getmişdilər. Mən ona söz verdim ki, əhvalını yaxşılaşdırmaq üçün biz onun rəsmini çəkəcəyik.

Gəlin əvvəl onun bədən hissələrini xatırlayaq.

- Quş hansı hissələrdən barətdir?
- Quşun bədəni hansı formadadır? (Oval)
- Bəs başı hansı formadadır? (Yumru, dairəvi)
- Sərçəmiz nə rəngdə olur? (Boz və qəhvəyi rəngdə)
- Onun başı böyükdür, yoxsa bədəni? (Bədəni)
- Sərçənin başında nəyi var? (Gözləri və dimdiyi)
- Bədəninin daha hansı hissələri var? (İki nazik ayağı, iki qanadı və quyruğu)"

Öyrədən uşaqlara iş ardıcıllığını izah edir. Sərçənin bədən hissələrinə uyğun olaraq rəngləri dəyişməyin gərək olduğunu bildirir. Çətinlik çəkən uşaqlara, xüsusilə kiçik yaşlılara Öyrədən kömək edir.

***Uğur göstəricisi:*** dairə, oval və düz xətt çəkmək bacarığına malikdir.

## Sərbəst fəaliyyət: Sərbəst oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, biz bu gün quşlar haqqında nə öyrəndik?

Bəs quşun bədən quruluşunu kim xatırladar bizə?

Afərin sizə!"

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Gəlin əyləşib dairə quraq. Bir-birimizə baxıb gözlərimizlə salamlaşaq. Azacıq başımızı əyərək yoldaşımızın çiyninə toxunaq və ona gülümsəyək (Öyrədən dedikcə nümayiş etdirir). Uşaqlar, siz də mənə qoşulun".

***Təqvimlə iş***

1-ci, 2-ci, 3-ü gün keçirilənlərin təkrarı. Günün hissələri: səhər, günorta, axşam və gecə. (Əlavə 6 və Əlavə 10).

***Mövzuya giriş***

**Öyrədən:** "Uşaqlar, bu həftə ərzində biz quşlar haqqında nə öyrəndik?"

***Barmaq oyunu: Tapmaca (Teymur Elçin)***

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enmək bacarığını inkişaf etdirmək

***Hissə 1. Oyun tapşırığı "Şən siçanlar"***

Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədənin "Siçanlar!" siqnalı ilə uşaqlar əlləri bellərində barmaq uclarında qısa addımlarla yeriyirlər. "Pişiklər" siqnalı ilə uşaqlar qaçmağa başlayırlar. Hərəkətlər növbələnərək bir neçə dəfə təkrar edilir.

***Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətləri***

- Ayaqlar bir pəncə enində aralı, qollar yanda, lentlər əllərdə. Lentləri yuxarı qaldırmaq, yelləmək. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Oturmaq, lentləri yerə sallamaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
- Ayaqlar çiyin bərabərində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Sağa (sola) dönmək, sol (sağ) əli sağa (sola) aparmaq. Dikəlmək, əvvəlki vəziyyətə qayıtmaq. (hər tərəfə 3 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər aşağı salladılıb. Lentləri yanlara qaldırıb yelləmək. aşağı salırıq. İlkin vəziyyətə qayıtmaq. (5 dəfə).

***Hissə 3. Əsas hərəkət növləri***

**"Meşə yolu ilə"**

Yerə bir-birinə paralel iki sıra döşəkcə - "meşə yolu" düzülür. Yollar arasındakı məsafə 2-3 metr olmalıdır. Uşaqlar yavaş-yavaş, qolları ilə tarazlığı saxlayaraq bir yol ilə gedib, digər yol ilə qayıdırlar.

**"Uzunqulaq dovşanlar"**

Uşaqlar-dovşanlar bir cərgəyə düzülürlər. Öyrədən dovşanlara meşənin kənarına qədər (sinfin digər tərəfinə) tullanmağı təklif edir. Öyrədənin siqnalı ilə uşaqlar iki ayaq ustündə tullanaraq 3-4 metr məsafə qət edirlər. Uşaqlar geri yavaş addımla qayıdırlar.

***Uğur göstəricisi:*** tarazlığı saxlayır və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enir.

## Səsli nağıl zamanı

***Bayquşlar mahnı oxumağı necə öyrəndilər***

**Link:** https://youtu.be/5Y_2pOOWC9w

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Bayquşlar niyə görüşə gecikdilər?
2. Onların başına nə gəldi?
3. Bayquşlar səslərini necə öyrəndilər?
4. Siz heç bayquş səsi eşitmişdiniz?
5. Hansı quşların səsini eşitmisiniz?

## Son toplantı

**Öyrədən:** "Bu gün məşğələmizdə sizə kim kömək edibsə siz onu qucaqlayaraq, ona təbəssüm bəxş edərək təşəkkür edə bilərsiniz. İstirahət günlərini necə keçirəcəksiniz?

Hər birinizə afərin!"

# Dekabr | 9-cu həftə | Mövzu: “Peşələr”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Uşaqlar dairədə düzülürlər. Hər uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona atır və salamlaşır. Oyun bütün uşaqlar salamlaşanadək davam edir.

***Təqvimlə iş***

**Məqsəd:** İlin fəsillərini (Qışın xüsusiyyətlərini) öyrətmək

Öyrədən qışın təsvir olunduğu rəsmi (video) “Müzakirə” guşəsindən asır. Onlardan rəsmdə əks olunanları təsvir etməyi istəyir. ***(Əlavə 1)***

**Qeyd 1:** Rəsmdə qarın yağması, yarpağı tökülmüş ağaclar, isti paltar geyinmiş insanlar təsvir olunmalıdır.

**Qeyd 2:** “Müzakirə” guşəsi “Təqvim” guşəsinə aid A5 ölçülü bir lövhədir. Rəsm uşaqlar daha aydın görsünlər deyə həmin lövhədən asılmalıdır.

Öyrədən öncədən hazırladığı pambıq topları öz “Motivasiya qutusu”ndan çıxarır və uşaqlara təqdim edir.

**Öyrədən:**

- “Uşaqlar, mən “bir, iki, üç...” deyəndə bu topları göyə atarsınız! Baxaq görək nə baş verəcək?!”
- Öyrədən uşaqlar hərəkətləri yerinə yetirdikdən sonra, “Uşaqlar, bu hansı təbiət hadisəsini sizə xatırlatdı?”

***Uğur göstəricisi:*** Qışın xüsusiyyətlərini təsvir edə bilir.

***Mövzuya giriş***

“Sehrli çubuq” oyunu: uşaqlar növbə ilə çubuğu bir-birinə ötürərək böyüyəndə hansı peşəyə sahib olmaq istədiklərini qeyd edirlər”.

### Barmaq oyunu: “Müxtəlif peşələr”

Müxtəlifdir peşələr,

Hamıya lazım gələr.

Aşpaz, rəngsaz və həkim, (5 peşə adına uyğun olaraq, baş barmaqdan başlayaraq, hər iki əldəki eyni adlı barmaqlar eyni anda bükülür.)

Satıcı və müəllim.

Saymağa çoxdur peşə, (Barmaqlar açılır.)

Davam edək birlikdə. (Əllər irəli uzadılır.)

### Ətraf aləmlə tanışlıq: “Bütün peşələr əhəmiyyətlidir”.

**Məqsəd:** Peşələr haqqında təsəvvür yaratmaq və genişləndirmək, zəhmətə və zəhmətkeşlərə hörmət aşılamaq

### *Hissə 1. Əqli hücum*

**Öyrədən:**

- “Uşaqlar, bu gün sizi bağçaya kim gətirib? (Ana, ata...)
- Bəs ana və atalarınız sonra hara gedirlər? (İşə...)
- Bəs sizin valideynləriniz nə işləyir? (Uşaqların cavabı)
- Uşaqlar, müəllim, həkim, satıcı, sürücü – bütün bunları bir sözlə necə adlandırmaq olar? (Peşə)

Bəli, hər böyük adamın peşəsi olur. Peşə - böyüklərin hər gün məşğul olduğu, özünə və ətrafdakı insanlara fayda verən fəaliyyətə deyilir. Peşəni öyrənmək lazımdır. Həmçinin insan öz peşəsini sevməlidir, yalnız o zaman yaxşı mütəxəssis ola bilər.

### *Hissə 2. Şəkil üzərində iş*

Öyrədən təsvir edilən peşələri (Əlavə 2) divara asır və uşaqlara onların hər biri barəsində qısa məlumat verir.

Yanğınsöndürən, aşpaz və s.

### *Hissə 3. Praktik tapşırıqlar*

Oyun: Öyrədən bütün peşələri tərs şəkildə lövhədən asır. Şəkillərin tərs tərəfində fiqurlar çəkir (dairə, kvadrat, oval). Öyrədən öncədən fiqur rəsmlərinin yerləşdirildiyi qutudan hər hansı bir fiqur çıxarır (uşaqlardan biri də bu fiquru qutudan çıxara bilər).

**Öyrədən:** “Uşaqlar, qutudan ..... fiqur çıxardıq. Kim bu fiquru lövhədəki eyni fiqur ilə uzlaşdıra bilər? (Uşaqların cavabları).

İndi isə gəlin həmin fiquru çevirək və baxaq görək ki, arxasında hansı peşə sahibi gizlənib? (Peşə sahibi müəyyən edilir.)

Həkimdir. Bəs kim deyər həkim nə edir?   (Müayinə və müalicə edir, resept yazır.)

Bu qayda ilə qutudakı bütün fiqurlar lövhədəki fiqurlar ilə eyniləşdirilir və peşələr müəyyən edilir.

**Peşələr:**

- Satıcı (Düzür, göstərir, sayır, bükür, çəkir, qiymətini deyir.)
- Aşpaz (Bişirir, doğrayır, qaynadır, dadına baxır, qızardır.)
- Saç ustası (Saçı kəsir, yuyur, saç düzümü edir.)
- Digər peşələr də əlavə oluna bilər.

### Hissə 4. Praktik tapşırıqlar




Öyrədən əlində peşələri əks etdirən kartları saxlayır. Kartlardan hər hansı birini seçir və uşaqlara göstərir.

**Öyrədən:** “Uşaqlar, mən indi sizə bir peşəni təsvir edəcəyəm. Siz isə o peşə sahibinin adını deməlisiniz”.

a) Torpağı biçir, inək sağır, ləklərdən tərəvəz, ağaclardan meyvə toplayır. (Fermer)
b) Sərnişin daşıyır, insanlara xidmət göstərir, əvəzində pul alır. (Sürücü)
c) İynə vurur, xəstələri müayinə edir, dərman verir. (Həkim)

**Qeyd 1.** Öyrədən bütün peşələri beləcə təsvir edir. Öyrədən təsvir edərkən jestlərdən də istifadə edə bilər.

**Qeyd 2.** Uşaqlar oyunun qaydalarını anladıqdan sonra Öyrədən uşaqlardan kart seçərək peşələri digər uşaqlara təsvir etməyi xahiş edə bilər.

### *Hissə 5. Müzakirə: Topla oyun «Əgər…»*
Öyrədən hər hansı seçdiyi uşağa topu atır və aşağıdakı suallardan birini ünvanlayır.

**Öyrədən:** "Uşaqlar, gəlin fikirləşək görək, insanlar işləməsələr, nə baş verər?

- Həkimlər xəstələri müalicə etməsə, nə olar?
- Müəllimlər uşaqlara dərs keçməsə, nə olar?
- Ustalar evlər tikməsə, nə olar?
- Sürücülər maşın sürməsə, nə olar?
- Satıcılar ərzaq satmasa, nə olar?

Bundan nə nəticə çıxara bilərik? (bütün peşələr lazımdır və vacibdir!)"

***Uğur göstəricisi:*** Peşələr haqqında təsəvvür, zəhmətə və zəhmətkeşlərə hörmət yaranır.

## Hərəkətli oyun: «Pilot»

**Öyrədən:**

"Sürücü olmaq yaxşıdır, ("Sükanı" fırladaraq qaçırlar.)

Pilot olmaq lap yaxşıdır, (Əlləri-qanadları yana açıb qaçırlar.)

Gedim yanacaq doldurum, (Dayanıb "yanacaq doldururlar".)

Pəri işə salıb uçum. (Sağ əl ilə dairəvi hərəkət edirlər.)"

## Rəsm: Yanğınsöndürən qardaşlar

**Məqsəd:** Yanğınsöndürənlərin iş fəaliyyəti haqqında təsəvvür yaratmaq.

Vəsait: Boya, ip (nazik, tikiş ipi – sap).

### *Hissə 1*
Uşaqlar ağ vərəq üzərinə əl izlərini həkk edirlər. Qurumağa qoyurlar. (Qeyd:əgər sinifdə boyadan istifadə etməyə şərait yoxdursa, Öyrədən uşaqların əl izini kağıza qələm vasitəsi ilə köçürə bilər. Bu zaman uşaqlar əl formalarını qələm ilə rəngləyə bilərlər).

### *Hissə 2*



Uşaqlar Öyrədənin öncədən çəkdiyi (hər uşaq üçün beş ədəd) dairəni kəsirlər. Hər barmağa bir dairə olmaq ilə yapışdırırlar.

***Hissə 3.*** Uşaqlar hər bir yanğınsöndürənə papaq çəkməli və ip ilə onlara su borusu hazırlamalıdırlar. (*Nümunə şəkil solda təqdim olunub*)

### *Hissə 4. Müzakirə*
Uşaqlar yanğınsöndürənlərə ad verməli, Öyrədənin köməyi ilə hansı bölgəni və ya binanı yanğından xilas etdiklərinə dair hekayə uydurmalıdırlar.

***Uğur göstəricisi:*** Yanğınsöndürənlərin iş fəaliyyəti haqqında təsəvvür yaranır.

## Sərbəst fəaliyyət: Oriqami (vərəqi qatlamaqla müxtəlif fiqulların düzəldilməsi)

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, kimə məşğələmiz maraqlı gəldisə, çoxlu yeni məlumat verdisə, üç dəfə əl çalın".

Öyrədən uşaqlara gününü şən etmiş yoldaşını qucaqlamağı təklif edir.

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Salam, uşaqlar! Bu gün biz səssiz salamlaşacağıq. Salamlaşmaq istədiyiniz yoldaşınıza baxın və barmağınızı oynadaraq, əllərinizi yuxarı qaldıraraq, yaxud gülmsəyərək fikrinizi çatdırın".

### *Təqvimlə iş*

Məqsəd: Qış fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək – qarlı hava

### *"Qar" oyunu*

Uşaqlar dairəyə düzülüblər (yaxud döşəkçələrdə oturublar).

**Öyrədən:** "Uşaqlar, mən indi sizə bir mahnı dinlədəcəyəm. Musiqi başlayanda otağımıza "qar yağacaq". Biz isə onun damcılarını əl çalaraq sayacağıq.

Bir (iki, üç, dörd, beş) qar dənəsi düşdü! (Uşaqlar bir, iki, üç, dörd, beş dəfə əl çalırlar.)

Beş (dörd, üç, iki, bir) qar dənəsi düşdü! (Uşaqlar beş, dörd, üç, iki, bir dəfə əl çalırlar.)

İndi isə sinfimizə yağmış qardan qar topu düzəldib hər hansı bir dostunuzun adını çəkin və ona atın".

***Uğur göstəricisi:*** Qış fəslində müşahidə edilə bilən hava durumunu bilir. Kiçik motorika bacarıqlarına (qarı yumrulamaq, atmaq) sahibdir.

### *Mövzuya giriş*

"Oyuncaqları gizlət" oyunu: Öyrədən dairədə oturan uşaqlara 4 gəlincik və 5 maşın göstərir.

**Öyrədən:** "Uşaqlar, siz indi gözünüzü yumacaqsınız və mən sinfin müxtəlif yerlərində bu oyuncaq və maşınları gizlədəcəyəm. Sonra onları birlikdə tapacağıq".

Uşaqlar gizlədilmiş əşyaları tapdıqca Öyrədən onlarla birlikdə sayır.

**Öyrədən:** "Afərin, uşaqlar".

## Riyaziyyat: "5" daxil olmaqla hesab. Neçə?"

**Məqsəd:** "5" rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıtmaq. Əşyanın sayını ədədlə əlaqələndirmək bacarığını formalaşdırmaq (Əlavə 3)

Vəsaitlər: Oyuncaq maşın və gəlincik (istənilən oyuncaqla əvəz etmək olar, məsələn, toplar, yastıqlar, kvadrat və üçbucaqlıqdan ibarət ev, dairələr (hər 5 uşağa), kvadratlar (hər 5 uşağa)

### *Hissə 1. Əqli hücum*

Öyrədən qrupu iki komandaya bölür: qızlar komandası və oğlanlar komandası. Öyrədən oturacaqları yan-yana düzərək iki yol düzəldir. Yolun biri 4 oturacaqdan, digəri isə 5 oturacaqdan ibarət olmalıdır. Oğlanlar uzun yolun, qızlar isə qısa yolun yanında dayanmalıdırlar. Sonra Öyrədən oğlanlara 5 maşın, qızlara isə 4 gəlincik verib, onları saymağı təklif edir. Uşaqlar oyuncaqları saydıqdan sonra onları oturacaqların üzərinə yerləşdirirlər. Öyrədən deyir: "Uşaqlar, masanın üzərində nə qədər maşın və gəlincik olduğunu bilmək üçün nə etməliyik? (Saymalıyıq).

### *Hissə 2. Müqayisə*

Öyrədən deyir: "Gəlin 5 maşın və 4 gəlinciyi müqayisə edək.

- Kim deyər, hansı çoxdur? (5 maşın 4 gəlincikdən daha çoxdur.)

- Bəs hansı azdı? (4 gəlincik 5 maşından azdır.)
- Necə eliyək ki, maşınla gəlinciklərin sayı bərabər olsun? (1 gəlincik artıraq, ya 1 maşın götürək). Uşaqlardan biri bu yolla oyuncaqların sayını bərabərləşdirir.
- Neçə gəlincik və maşın var?

Sonra Öyrədən yenidən bərabərsizliyi bərpa edir və başqa uşaqdan təkrar bərabərliyi digər yolla qurmasını istəyir. Bənzər işi paylanan materiallarla həyata keçirmək olar (dairələr və kvadratlar). Öyrədən uşaqlarla birgə dairələrin və kvadratların bərabərləşdirilməsi yollarını müzakirə edir. Uşaqlar əşyaları bu yollardan biri ilə bərabərləşdirir.

### *Hissə 3. Praktik tapşırıqlar*



Hər kəs sinifdə musiqi sədaları altında səpələmə (pərakəndə halda) gəzir. Öyrədən musiqini dayandırıb hər hansı bir sinif əşyasının adını yüksək səslə deyir və lövhədə asdığı 1-dən 5-ə qədər hər hansı bir rəqəmə toxunur. Uşaqlar Öyrədənin yüksəs səslə adını qeyd etdiyi sinif əşyasına göstərdiyi rəqəm sayı qədər toxunur. Məsələn: Masaya üç dəfə toxunur.

### *Hissə 4. Beş rəqəminin vizual tanınmasını təmin edən praktik tapşırıq*

Vəsait: "Əlavə 3"-də verilən 5 rəqəmi Öyrədən tərəfindən öncədən kəsilir və döşəməyə yerləşdirilir.

**Öyrədən:** "Uşaqlar. Biz artıq beşə qədər saya bilirik. Əşyaları saydıqdan sonra onun sayını da deyə bilirik. İndi isə gəlin "5" sayının formasını bu maşınlar vasitəsi ilə çəkək. Öyrədən maşını "Əlavə 3"-də qeyd edilən nöqtəyə yerləşdirir və "5" indeksinin traktoriyası üzrə hərəkət etdirir".

Öyrədən bu tapşırığı uşaqlar ilə də təkrar edir.

***Uğur göstəricisi:*** Beş rəqəminin auditorial (eşidərək), vizual (görünüş) və kinestetik (toxunaraq, sayıb əşyaları ayıraraq) tanıyır.

## Fiziki hərəkətlər

**Məqsəd:** Siqnal əsasında hərəkət etmək bacarığını, çeviklik və koordinasiyanı inkişaf etdirmək

### *Hissə 1. "Sənin kubikin"*

Uşaqların sayına uyğun kubiklər dairəyə düzülür. Uşaqlar bu dairə ətrafında fırlanırlar. Öyrədənin "Kubik!" siqnalı əsasında uşaqlar dayanır və cəld hər kəs bir kubik götürür. "Dairə!" göstərişi ilə uşaqlar kubikləri yerinə qoyur və hərəkətə davam edirlər. Hərəkət bir neçə dəfə təkrar olunur.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

1. Ayaq üstdə əlləri yuxarı qaldırıb dartınmaq. Sallağı oturmaq, əlləri dizlər üstünə qoymaq (5 dəfə).

2. Ayaqlar aralı, əllər arxada yerə oturmaq. Ayaqları növbə ilə qaldırmaq və aşağı salmaq (hər ayaqla 3 dəfə).

3. Qarın üstündə uzanmaq, əllər qabağa uzadılıb. Əlləri və ayaqları qaldıraraq dartınmaq (5 dəfə).

4. Əllər beldə ayaq üstündə dayanmaq. Hər istiqamətdə beldən əyilib qalxmaq (hər istiqamətdə 3 dəfə).

***Hissə 3. Əsas hərəkət növləri***

- Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və topu bu kubiklər arasından, onlara toxunmamaq şərti ilə keçirməyə çalışır.
- “Dəcəl böcəklər”: Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və iməkləyərək kubiklərin arasından keçir. Məsafə qət edildikdən sonra ayağa qalxıb başın üstündə əl çalmaq lazımdır.

***Uğur göstəricisi:*** Siqnal əsasında hərəkət etmək bacarığına, çeviklik və koordinasiyaya malikdir.

## Hərəkətli oyun: «Pilot»

**Öyrədən:**

“Sürücü olmaq yaxşıdır, (“Sükanı” fırladaraq qaçırlar.)

Pilot olmaq lap yaxşıdır, (Əlləri - qanadları yana açıb qaçırlar.)

Gedim yanacaq doldurum, (Dayanıb “yanacaq doldururlar”.)

Pəri işə salıb uçum. (Sağ əl ilə dairəvi hərəkət edirlər.)

## Sərbəst fəaliyyət: Konstruktorla oyun

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, bu gün hamınıza afərin!

Bəs bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq.

Bu gün məşğələdə biz nə ilə tanış olduq?”

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Uşaqlar, sabahınız xeyir. Gəlin günümüzə "Adlar qatarı" oyunu ilə başlayaq. Hamımız dairədə oturaq. Mən qatar oluram və öz adımı deyə-deyə bu dairəvi yolu gedirəm: Gülnar, mənim adım Gülnardır! (Öyrədən dairənin ətrafına fırlanır.)

Kim indi mənim yerimə qatar olmaq istəyir?" Oyun bütün uşaqlar iştirak edənədək davam edir.

***Təqvimlə iş***

**Məqsəd:** Qış fəslində oynanıla bilən oyunlarla uşaqları tanış etmək

***"Qartopu" oyunu***

Uşaqlar dairəyə düzülüblər.

**Öyrədən:** "İndi elə təsvir edin ki, sinfimizə qar yağıb. Qardan qar topu düzəldib hər hansı bir dostunuzun adını çəkin və ona atın".

Barmaq oyunu: "Qış əyləncəsi"

Biz qışda neyləyirik? (Barmaqları ilə özlərini göstərirlər.)

Xizəklə əylənirik, (Əllərini yanları ilə qabaqdan arxaya aparırlar.)

Bir-birimizin üstünə,

Qartopu atırıq, (Xəyali qartopu düzəldib bir-birinə atırlar.)

Pambıq kimi ağ qardan,

Qar adamı düzəldirik. (Əlləri ilə xəyali qarı toplayırlar.)

***Uğur göstəricisi:*** Qış fəslində oynanıla bilən oyunları bilir.

***Mövzuya giriş***

**Öyrədən:** "Uşaqlar, siz evdə valideynlərinizlə onların peşələri haqqında nə danışdınız?"

***Barmaq oyunu: "Müxtəlif peşələr"***

Müxtəlifdir peşələr,

Hamıya lazım gələr.

Aşpaz, rəngsaz və həkim, (5 peşə adına uyğun olaraq, baş barmaqdan başlayaraq, hər iki əldəki eyni adlı barmaqlar eyni anda bükülür.)

Satıcı və müəllim.

Saymağa çoxdur peşə, (Barmaqlar açılır.)

Davam edək birlikdə. (Əllər irəli uzadılır.)

## Nitqin inkişafı: "Valideynlərimizin peşəsi"

**Məqsəd:** Bütöv cümlələrlə cavab vermək bacarığını inkişaf etdirmək

## *Hissə 1. Giriş*

**Öyrədən:** Qeyd: Bu dərs üçün müxtəlif peşələrdə işləyən (sürücü, həkim, polis və s.) valideynlər dəvət oluna bilər. Valideynlər öz peşə geyimlərində (polis forması, həkim xalatı və s.) uşaqların qarşısına çıxmalıdırlar.

"Bu gün biz valideynlərinizin peşəsi haqqında danışacağıq. Mən dünən sizə tapşırıq vermişdim ki, valideynlərinizin harada işlədiyini, nəçi olduğunu, işlərinin vəziyyətini (ağır, yüngül, maraqlı, ciddi və s.) öyrənəsiniz".

**Qeyd:** Uşaqlar bu suallara cavab verərkən cümlə tam səslənməlidir. Öyrədən uşaqlara bütöv cümlələrlə cavab verməyi aşılamalıdır.

- Sizin valideyinləriz nə işləyir? (Məs.: Mənim valideynim həkim kimi çalışır.)
- Onlar işdə nə edirlər? Nə istehsal edirlər? (Məs.: Onlar işdə kitab istehsal edirlər.)
- Onlara işləri üçün hansı alətlər lazım olur?
- Sizin valideynlər niyə işləyirlər?

Uşaqlar öz hekayələrini danışırlar.

## *Hissə 2. Bu aşyalar kimə lazımdır?*

Öyrədən ***"Əlavə 2"*** -də çap edilən əşyaları izah edir və uşaqlar o əşyaların hansı peşəyə aid olduğunu müəyyən edir.

Qeyd: Öyrədən "Əlavə 2"- də təsvir edilməyən hər hansı bir peşəyə aid əşyanı lövhədə çəkə bilər və ya videosunu nümayiş etdirə bilər.

Nümunə:

Tərəzi, ərzaq, dükan (satıcıya).

Qayçı, parça, tikiş maşını (dərziyə).

Çömçə, qazan, tava (aşpaza).

Lövhə, təbaşir, dərslik (müəllimə).

Təkər, avtobus, sükan (sürücüyə).

Kərpic, sement, mala (ustaya).

Pambıq, bint, şpris (həkimə).

**Öyrədən:** "Uşaqlar yadınızda saxlayın ki, iş insanın cövhəridir. Hər bir peşə əhəmiyyətlidir. Ona görə indidən zəhmətə alışmaq lazımdır".



## *Hissə 3. Praktik tapşırıq*

Öyrədən lövhəyə peşələrə aid kartlar yapışdırır. Uşaqlardan kartlara diqqətlə baxmaqlarını xahiş edir. Uşaqlar gözlərini yumur. Öyrədən kartlardan birini gizlədir. Uşaqlar gözlərini açanda hansı kartın lövhədən götürüldüyünü qeyd etməlidirlər.

***Uğur göstəricisi:*** Bütöv cümlələrlə cavab vermək bacarığına yiyələniblər.

## Hərəkətli oyun: «Pilot»

**Öyrədən:**

“Sürücü olmaq yaxşıdır, (“Sükanı” fırladaraq qaçırlar).

Pilot olmaq lap yaxşıdır, (Əlləri-qanadları yana açıb qaçırlar.)

Gedim yanacaq doldurum, (Dayanıb “yanacaq doldururlar”.)

Pəri işə salıb uçum. (Sağ əl ilə dairəvi hərəkət edirlər.)”

## Yapma: Sevdiklərimizə məktub






***Hissə 1.***

Öyrədən poçtalyonun kim olduğu barədə məlumat verir. “Bizim niyə poçtalyona ehtiyacımız var?” sualı ətrafında müzakirə aparır.

***Hissə 2.***

Uşaqlar oriqami üsulu ilə müəllimin müşayiəti altında zərf düzəldirlər.

***Hissə 3.***

Uşaqlar məktubu göndərmək istədikləri adama bir rəsm çəkirlər və o rəsmi zərfin içərisinə yerləşdirirlər.

## Sərbəst fəaliyyət: Uşağın seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, kim bizə öz çəkdiyi rəsmi nümayiş etdirər və məktubu kimə yazdığını deyər?”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Uşaqlar, sabahınız xeyir. Bu gün həftəmizin son məşğələsidir. İstirahətinizi necə keçirəcəyinizi artıq bilirsiniz".

***Təqvimlə iş***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti. Öyrədən uşaqlara əvvəlki günlərdə öyrəndiklərini təkrar etdirir.

***"Xizək" oyunu***

**Öyrədən:** "Uşaqlar, indi biz sinifdə hərəkət edəcəyik. Hərəkət edərkən ayağımızı döşəmədən ayırmamalıyıq. Elə təsəvvür etməliyik ki, biz buzun üzərində sürüşürük. Mahnıya qulaq asaq!"

***Mövzuya giriş***

**Öyrədən:** "Məşğələmizdə çoxlu yeni biliklər qazanmaq üçün diqqətli olmaq lazımdır. Bu gün biz zəhmətin mənası və xeyri haqqında danışacağıq".

***Barmaq oyunu: "Müxtəlif peşələr"***

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Uşaqları göstəriş əsasında hərəkət etdirmək, bir-birilərinə topu diyirlətdirmək, onlarda "İsveç divarı"na dırmanmaq və ayaqları düzbucaq altında saxlamaq bacarıqlarını inkişaf etdirmək

Vəsaitlər: 2x2 m ölçüdə parça (örtük), müxtəlif ölçülü toplar, "İsveç divarı"

***Hissə 1. Ümumi inkişafetdirici hərəkətlər: "Biz güclü dənizçilərik".***

1) Otağın ortasına parça sərilir - bu dənizdir. Uşaqlar parçanın ətrafında "qayıqlar"a otururlar (yerdə, ayaqlar aralı). Qollar irəli uzadılır, əllər yumruq kimi yumulur (avar tuturmuş kimi). Uşaqlar bir az qabağa əyilirlər, sonra qollar dirsəkdən yığılır və kürək geri gedir. Beləliklə, uşaqlar avar çəkirlər (5 dəfə).
2) Öyrədən uşaqlara müxəlif ölçülü toplar verir – bu, qayıq və gəmilər olur. Uşaq topu qarşıdakı yoldaşına diyirləndirməlidir, yəni qayıq, yaxud gəmini dənizdə üzdürməlidir (4-5 dəfə).
3) Bir balaca top (qayıq) dənizdə (parçanın üzərində) qalır. Öyrədən uşaqlarla birlikdə parçanın kənarlarından tutur və -"Dalğa!"- çağırışı ilə parçanı silkələyirlər."Fırtına!" çağırışı ilə parçanı daha da güclü silkələyirlər. Əgər top düşdüsə, dəniz sakitləşir və topu yenidən parçanın üzərinə qoyub oyunu eyni qayda ilə bir neçə dəfə təkrar edirlər.

***Hissə 2. "İsveç divarı" – gəmi nərdivanı***

1) Nərdivana dırmanmaq. Gəmiçi uşaq "İsveç divarı"na dırmanıb, yuxarıdan hamını salamlayıb, yerə düşməlidir. Gəminin bütün heyəti növbə ilə bunu təkrar edir.
2) Körpü. Uşaq arxasını "İsveç divarı"na çevirib, bir az aralı dayanıb əlləri ilə başından yuxarıdakı pillədən tutmalıdır. Hər dəfə bir pillə aşağı tutaraq kürəyi üstə daha çox əyilir. Bəzi hallarda uşaq arxaya əyilərək əllərini tam yerə qoya bilir, beləliklə, tam körpü yaradır.
3) Ayaqların düzbucaq altında saxlanması. Uşaq arxası nərdivana dayanaraq başından yuxarıdakı pillədən tutur və qollarından sallanır. Bundan sonra ayaqlarını irəli qaldırır və düz bucaq altında saxlayır (3 dəfə).

***Uğur göstəricisi:*** Göstəriş əsasında hərəkət etməyi, bir-birilərinə topu diyirlətdirməyi, "İsveç divarı"na dırmanmağı və ayaqları düzbucaq altında saxlamağı bacarır.

## Hərəkətli oyun: «Pilot»

**Öyrədən:**

"Sürücü olmaq yaxşıdır, ("Sükanı" fırladaraq qaçırlar.)

Pilot olmaq lap yaxşıdır, (Əlləri-qanadları  yana açıb qaçırlar.)

Gedim yanacaq doldurum, (Dayanıb "yanacaq doldururlar".)

Pəri işə salıb uçum. (Sağ əl ilə dairəvi hərəkət edirlər.)"

## Səsli nağıl zamanı

***Qonşular***

Nağılın qəhramanı – balaca qızın yaşadığı binada yeddi mərtəbə var. Hər mərtəbədə fərqli bir qapı var...Bir qapının üstündə çoxlu qıfıl vurulub, digər qapıdan isə möhkəm musiqi səsi gəlir...

**Link:** https://youtu.be/is9YRQDqnPY

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

**Qeyd 3:** Oktyabrın 3-cü həftəsindən fərqli olaraq bu həftə mövzu peşələrdir. Nağılda hər bir evdə müxtəlif peşə sahibi yaşayır. Bu peşələr barədə uşaqlara ətraflı məlumat verin və əlaqəli suallar ünvanlayın.

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bizim məşğələmiz sona yetdi. Deyin görüm,  bu gün nəyi məmnuniyyətlə etdiniz?" Hər bir uşaq Öyrədəndən müəyyən müsbət rəy alır.

# Dekabr | 10-cu həftə | Mövzu: “Bizim geyimimiz”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***
**Öyrədən:** “Salam, uşaqlar. Gəlin yoldaşlarımızı yüksək səslə salamlayaq! Gəlin indi da sakitcə salamlayaq! Afərin sizə!”

***Təqvimlə iş***
**Məqsəd:** Qış fəslinə aid ayları öyrətmək

Öyrədən “Müzakirə lövhəsi”ndən üç ədəd rəsm asır. 1-ci rəsmdə dekabr ayı (hava soyuq, qar yağır, uşaqlar isti geyiniblər, ağaclar çılpaq). 2-ci rəsmdə yanvar (qar yağır, küknar ağacları qarla örtülmüşdür, uşaqlar qartopu oynayırlar). 3-cü fevral (rəsmdə ağaclar çılpaq, qar əriməyə başlayır). Öyrədən “Müzakirə lövhəsi”nə yapışdırdığı rəsmin yerinə bu üç rəsmi yapışdırır və onları ayların adı ilə adlandırır. ***(Əlavə 4)***

**Öyrədən:** “Uşaqlar, indi isə bu adları əl çalaraq öyrənəcəyik. De-kabr (iki dəfə), yan-var (iki dəfə), fev-ral (iki dəfə).”

***Uğur göstəricisi:*** Qış fəslinə aid ayları bilir. Əl çalır, ritmə uyğun hərəkət edir.

***Mövzuya giriş***
**Öyrədən:** “Uşaqlar, mən indi bir xüsusiyyət deyəcəyəm. O xüsusiyyət kimdə varsa, ayağa qalxıb əl çalacaq.

Kim şalvar geyinibsə, ayağa qalxsın. Kim don geyinibsə, ayağa qalxsın”.

Oyun bu şəkildə hər bir uşağın iştirakını təmin etmək şərti ilə davam edir.

***Barmaq oyunu: “Əlcək”***
Sağ əldə neçə barmaq var? (Sağ əli yelləmək)

1, 2, 3, 4, 5. (Sağ əlin barmaqlarını saydıqca açmaq)

Sol əldə neçə barmaq var? (Sol əli yelləmək)

1, 2, 3, 4, 5. (Sol əlin barmaqlarını saydıqca açmaq)

Bax bunları qoruyan, (əlləri yelləmək)

Bir cüt sadiq dostum var.

### Ətraf aləmlə tanışlıq: “Geyim”

**Məqsəd:** Geyimin insana niyə lazım olduğu, geyimin hava şəraitinə uyğun dəyişdiyi haqqında təsəvvür yaratmaq

Vəsaitlər: Geyim şəkilləri, yaxud uşaqların öz paltarları ***(Əlavə 5)***

***Hissə 1. Giriş***
Öyrədən uşaqlardan birini dairənini mərkəzinə dəvət edir.

- “Uşaqlar, diqqətlə ....... geyiminə baxaq! ?
- O nə geyinib?
- Geyim nədir? Geyim bizə nə üçün lazımdır? (Uşaqların cavabları)

***Hissə 2.***
Öyrədən sinfin ortasından bir ip çəkir (zivə-paltar asmaq üçün ip). Qutudan bir-bir çıxardığı geyimləri o ipdən asdıqca onlar haqqında məlumat verir.

- "Uşaqlar, bir bu paltarlara baxın. Bunlar nədir? (Ətək, don)
- Bunları kim geyinir? (Qızlar/ qadınlar/ analar/ nənələr və s.)

Doğrudur, buna görə onlar qadın geyimləri adlanır.

- Sizcə, bu şəkillərdə nə təsvir olunub? (Kostyum, şalvar, köynək)
- Bunları kim geyinir? (Oğlanlar/ kişilər/ atalar/ əmilər və s.)

Doğrudur, buna görə onlar kişi geyimləri adlanır".

***Hissə 3.***
Oyun: "Uyğun geyimi tap"

Geyim şəkli olan kartlar qarışdırılıb döşəməyə qoyulur ***(Əlavə 5).*** Öyrədən "oğlan" deyəndə, uşaqlar yerdən oğlanların geyindiyi geyim şəkillərini seçib gətirirlər. Eyni qayda ilə qızlar üçün olan geyimlər toplanır. Kartlar bitdikdən sonra oyunun nəticələri müzakirə olunur.

***Hissə 4.***
İnteqrasiya. Bu hissədə Öyrədən geyim mövzusu ilə peşələr mövzusu arasında inteqrasiya (əlaqə) yaradır.

**Öyrədən:** "Uşaqlar, görürsünüz, paltar həm də onu geyinən şəxs haqqında bizə məlumat verir. Peşə ilə bağlı olan geyimlər xüsusi geyimlər adlanır".

## Hərəkətli oyun: "Gizlənqaç"

Böyük yaşlı uşaqlardan aparıcı seçilir. Onun gözü şarf ilə bağlanır və öz ətrafında 2-3 dəfə fırladılır. Bundan sonra oyunçular otaqda səpələng qaçırlar və aparıcı onları tutur. Oyunçular onun diqqətini cəlb etmək üçün əl çalırlar. Aparıcı oyunçunu tutub onu tanımalıdır. Bu halda tutulan uşaq aparıcı olur.

***Uğur göstəricisi:*** Geyimin insana niyə lazım olduğunu bilir, geyimin hava şəraitinə uyğun dəyişdiyi haqqında təsəvvürü var.

## Yapma: "Kiçik şərf"

**Məqsəd:** Plastilini əlin irəli-geri hərəkəti ilə uzunsov yaymaq və yastılamaq qaydasını öyrətmək

Vəsaitlər: Oyuncaq dovşan, əsas rənglərdə plastilin, plastilinlə iş üçün dəst, salfet

**Öyrədən:** "Uşaqlar, baxın bizə dovşan qonaq gəlib. Amma o yaman titrəyir. Gəlin birlikdə soruşaq: "o niyə titrəyir?" (Hamı birlikdə soruşur, dovşan soyuqdan titrədiyini deyir.)

Gəl mən səni şərflə bürüyüm. İndi isindin? (Bəli)

Bax bu ağıllı balalar sənə soyuqda hansı geyimlə isinə biləcəyini öyrədə bilərlər. Uşaqlar, dovşanımıza kim nə məsləhət verə bilər. (Uşaqlar öz bilikləri və məsləhətləri ilə bölüşürlər.)

Dovşan, bəs sənin balaca balaların necə isinər? Gəl hamımız birlikdə onlar üçün şərf düzəldək".

Öyrədən uşaqlara plastilinlə iş qaydalarını xatırladır. Uşaqlar öz seçdikləri rəngdə plastilin parçasını əlin irəli-geri hərəkəti ilə uzunsov formada yayırlar; sonra barmaqları ilə basıb bu formanı yastıladırlar. Şərf hazırdır. Uşaqlar şərflərinin üstünü istədikləri şəkildə bəzəyirlər (kiçik yaşlılara Öyrədən kömək edir).

***Uğur göstəricisi:*** Plastilini əlin irəli-geri hərəkəti ilə uzunsov yaymaq və yastılamaq qaydasını bilir.

## Sərbəst fəaliyyət: Sərbəst rəsm

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, hamımız dairə üzrə qaçırıq. Kim yoldaşlarına xoş söz demək istəyirsə, ortadakı döşəkcənin üstünə çıxıb bunu edir".

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

Öyrədən günə oyunla başlamağı təklif edir.

- Uşaqlar, sol əlinizi göstərin.
- İndi sağ əlimizi göstərin.
- Sağ ayağınızı yerə vurun.
- İndi sol ayağınızı yerə vurun.
- Sol əl ilə sağ qulağa toxunun.
- Sağ əl ilə sol qulağa toxunun.
- Afərin sizə!

***Təqvimlə iş***

**Məqsəd:** Qış fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə müzakirə lövhəsindən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. Öyrədən "Müzakirə lövhəsi"ndən üç ədəd rəsm asır. 1-ci rəsmdə dekabr ayı (hava soyuq, qar yağır, uşaqlar isti geyiniblər, ağaclar çılpaq). 2-ci rəsmdə yanvar (qar yağır, küknar ağacları qarla örtülmüşdür, uşaqlar qartopu oynayırlar). 3-cü fevral (rəsmdə ağaclar çılpaq, qar əriməyə başlayır).  Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəməyə qoyur (Əlavə 4).

**Öyrədən:** "Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Mən sizə təsvir etdiyim rəsmi tapmağınızı istəyəcəyəm".

"Qar yağır, Yeni il ağacı (küknar - yolka), Şaxtababa təsvir olunub. Bu hansı rəsmdir? Afərin, uşaqlar, bu rəsmdə təsvir olunan ay isə yanvardır".

Öyrədən sıra ilə digər ayları da uşaqlardan soruşur.

***Uğur göstəricisi:*** Qış fəslinə aid ayları bilir.

***Mövzuya giriş***

Öyrədən öncədən qutudan hazırladığı böyük ölçülü zərin (zər bərabər tərəfləri olan, yəni kvadrat formalı qutudan da hazırlana bilər) üzərinə 1-5 rəqəmlər yazır. Tərəflərin birinə isə gülər üz işarəsi çəkir

**Öyrədən:**  "Uşaqlar, mənim bir qutum var, onun 6 tərəfi var". Öyrədən tərəfləri sayır. "Kim mənə kömək edə bilər? Mən  bu rəqəmləri qutunun üzərinə yapışdırmalıyam.

Afərin, uşaqlar. Gəlin zərfimizi kənara qoyaq, çünki biz bir azdan onun ilə çox maraqlı bir oyun oynayacağıq".

## Riyaziyyat: Say və müqayisə

**Məqsəd:** 1-dən 5-ə qədər əşyaları saymaq və indeks (rəqəmə) uyğunlaşdırmaq

***Hissə 1. Giriş***

Öyrədən "1, 2, 3, 4, 5" rəqəmləri təsvir edilən kartları (Əlavə 6) lövhəyə sıra ilə yapışdırır. Hər bir rəqəmi adlandırıb (Məs: 1-bir) rəqəmin altından rəqəmi ifadə edən say qədər dairə çəkir. Beləliklə, Öyrədən hər bir rəqəmin ifadə etdiyi sayı uşaqlara müəyyən etməyə kömək edir.

***Hissə 2.***

Vəsait: Düymələr.

Öyrədən hər bir uşaq üçün 5 ədəd düymə (ölçü fərq etmir) hazır etməlidir.

Öyrədən kartları (1-5 rəqəmlər təsvir edilən) üzü aşağı döşəməyə qoyur, qarışdırır və hər hansı kartı seçir. Uşaqlar kartda hansı rəqəm olduğunu tapmalı və həmin sayda düymə müəyyən etməlidirlər.

***Hissə 3.***
Öyrədən hər bir şagirdin qulağına bir rəqəm deyir (1, 2, 3, 4 və ya 5), uşaqlar rəqəmlərini unutmamaq üçün əllərinə də o rəqəmi yazır. Uşaqlardan xahiş olunur ki, bu rəqəmləri gizli saxlasınlar. Uşaqlar sıra ilə düzülür.

**Öyrədən:** "Uşaqlar, mən indi hər hansı bir rəqəmi deyəcəyəm, əgər sizin əlinizdə o rəqəm yazılıbsa, o zaman qaçıb yanıma gəlməlisiniz".

***Hissə 4.***
**Öyrədən:** "Uşaqlar, mən indi zəri atacağam, üzərinə hansı rəqəm yazılıbsa, biz o sayda əl çalacağıq. Hazırsınız?!"

**Qeyd:** Zərin gülər üz hissəsi düşərsə, uşaqlar tərpənmədən (donmuş vəziyyətdə) bir-birilərinə baxıb gülümsəməlidirlər.

***Uğur göstəricisi:*** 1-dən 5-ə qədər əşyaları saymaq və indeksə (rəqəmə) uyğunlaşdırmağı bacarır.

## Fiziki hərəkətlər

**Məqsəd:** Dairə ətrafında fırlanarkən ritmik hərəkətlər yerinə yetirmək, Öyrədənin siqnalına çevik reaksiya vermək bacarığını inkişaf etdirmək

***Hissə 1. "Qurbağa və kəpənəklər"***
Uşaqlar dairə üzrə yeriyirlər. Öyrədən "Qurbağa!" deyəndə hamı sallağı oturub əllərini dizlərinin üstünə qoyur. Öyrədən "Qaçış!" deyəndə uşaqlar qalxıb qaçmağa başlayırlar. Öyrədən "Kəpənək!" deyəndə hamı qollarını yana açıb uçmağa başlayır. Öyrədən "Yeriş!" deyəndə uşaqlar qollarını yanlarına salıb yeriməklə davam edirlər. Qaçış və yeriş bir neçə dəfə növbələnir.

***Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətlər***
- Ayaqlar bir pəncə enində aralı, əllər aşağıda, hər iki əldə lent. Lentləri yuxarı qaldırmaq, qollar düz. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
- Ayaqlar çiyin bərabərində aralı, əllər çiyinlərdə, hər iki əldə lent. Sağa dönüb sağ qolu açmaq, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkəti sol tərəfə təkrarlamaq (hər tərəfə 3 dəfə).
- Ayaqlar çiyin bərabərində aralı, əllər beldə, hər iki əldə lent. Qabağa əyilib lentləri yelləmək. İlkin vəziyyətə qayıtmaq (5-6 dəfə).
- Ayaqlar bir pəncə enində aralı, qollar yanlarda, hər iki əldə lent. Lentləri irəli-geri yelləmək. İlkin vəziyyətə qayıtmaq.

***Hissə 3.***
Uşaqlar hər iki əllərində lent dairə üzrə qaçırlar. Öyrədən qavala vuranda qaçış yerişlə əvəzlənir. Yeriş və qaçış bir neçə dəfə növbələnir.

***Uğur göstəricisi:*** Dairə ətrafında fırlanarkən ritmik hərəkətlər yerinə yetirir, siqnala çevik reaksiya vermək bacarığına malikdir.

## Hərəkətli oyun: "Gizlənqaç"

Böyük yaşlı uşaqlardan aparıcı seçilir. Onun gözü şarf ilə bağlanır və öz ətrafında 2-3 dəfə fırladılır. Bundan sonra oyunçular otaqda səpələng qaçırlar və aparıcı onları tutur. Oyunçular onun diqqətini cəlb etmək üçün əl çalırlar. Aparıcı oyuçunu tutub onu tanımalıdır. Bu halda tutulan uşaq aparıcı olur.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

Öyrədən bir-birinə kömək etmiş uşaqlara qucaqlaşmağı təklif edir. Məşğələnin gedişatı haqqında uşaqlara bir neçə sual verir.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə oturublar.

**Öyrədən:** “Salam, uşaqlar! Bu gün hava necədir? Tutqun, soyuq gündə əhval-ruhiyyəmizi necə qaldıra bilərik? (Uşaqların cavabları) Mən sizinlə təbəssümümü paylaşmaq istəyirəm. Siz də yanınızdakı yoldaşınızı təbəssümünüzlə sevindirin”.

***Təqvimlə iş***

**Məqsəd:** Qış fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə “Müzakirə lövhəsi”ndən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. Öyrədən “Müzakirə lövhəsi”ndən üç ədəd rəsm asır. 1-ci rəsmdə dekabr ayı (hava soyuq, qar yağır, uşaqlar isti geyiniblər, ağaclar çılpaq). 2-ci rəsmdə yanvar (qar yağır, küknar ağacları qarla örtülmüşdür, uşaqlar qartopu oynayırlar). 3-cü fevral (rəsmdə ağaclar çılpaq, qar əriməyə başlayır). Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəməyə qoyur (Əlavə 4).

**Öyrədən:** “Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Mən sizə təsvir etdiyim rəsmi tapmağınızı istəyəcəyəm”.

“Rəsmdə ağaclar çılpaq, qar azdır. Bu hansı rəsmdir? Afərin, uşaqlar, bu rəsmdə təsvir olunan ay isə fevraldır”.

Öyrədən əvvəlki  digər ayları da uşaqlardan soruşur.

***Uğur göstəricisi:*** Qış  fəslinə aid ayları bilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, bu gün biz ayaq geyimi haqqında danışacağıq.

Biz evdə ayağımıza nə geyinirik? (başmaq)

Bəs həyətdə/küçədə? (ayaqqabı, çəkmə və s.)

Barmaq oyunu: “Əlcək”

Sağ əldə neçə barmaq var? (Sağ əli yelləmək)

1, 2, 3, 4, 5. (Sağ əlin barmaqlarını saydıqca açmaq)

Sol əldə neçə barmaq var? (Sol əli yelləmək)

1, 2, 3, 4, 5. (Sol əlin barmaqlarını saydıqca açmaq)

Bax bunları qoruyan, (Əlləri yelləmək)

Bir cüt sadiq dostum var.

***Nitqin inkişafı: Şarl Perro “Qırmızıpapaq” nağılı. Şarl Perro (Əlavə 7)***

**Məqsəd:** Diqqətlə dinləmək, suallara qısa cümlələrlə cavab vermək, qəhrəmanların davranışını qiymətləndirmək bacarığını inkişaf etdirmək

Öyrədən nağılı oxuyur və müzakirəyə başlayır:

- Uşaqlar, nağıl xoşunuza gəldi?
- Nağılda kimdən bəhs edilir?
- Qızı niyə belə adlandırmışdılar?
- Qırmızıpapağın başına nə əhvalat gəlmişdir?
- Qızmızıpapaq və nənəsi necə xilas oldular?
- Nağılda hansı obraz pis əməllərlə məşğul idi?
- Nağılda sevdiyiniz obraz hansı oldu?

**Qeyd:** Öyrədən Qırmızıpapağın və ya digər personajların geyimini təsvir edərək uşaqları müzakirəyə cəlb edir.

**Məsələn:** Nənə yataqda olduğu üçün gecəlikdə, Qırmızıpapaq günəşdən qorunmaq üçün papaq taxır, ana iş gördüyü üçün önlük geyinir.

***Uğur göstəricisi:*** Diqqətlə dinləmək, suallara qısa cümlələrlə cavab vermək, qəhrəmanların davranışını qiymtləndirmək bacarığına malikdir.

## Hərəkətli oyun: "Gizlənqaç"

Böyük yaşlı uşaqlardan aparıcı seçilir. Onun gözü şərf ilə bağlanır və öz ətrafında 2-3 dəfə fırladılır. Bundan sonra oyunçular otaqda səpələng qaçırlar və aparıcı onları tutur. Oyunçular onun diqqətini cəlb etmək üçün əl çalırlar. Aparıcı oyunçunu tutub onu tanımalıdır. Bu halda tutulan uşaq aparıcı olur.

## Rəsm: "Papaq"

**Məqsəd:** Fırça ilə düz xətt çəkməyi, boyalı barmaqla bəzək vurmağı öyrətmək

Vəsaitlər: Fırça, sulu boya, su ilə dolu stəkan, rəngli kağızlardan hazırlanmış papaqlar, salfetlər, gəlincik

**Öyrədən:**

- Biz bu gün hansı nağılı oxuduq? (Qırmızıpapaq)
- Uşaqlar, baxın mənim əlimdə rəngli papaqlar var: göy, sarı, narıncı, yaşıl. Bəs əgər Qırmızıpapağa qırmızı yox, göy papaq hədiyyə etsəydilər, onu necə adlandırardılar? (Göypapaq)
- Bəs yaşıl? (Yaşılpapaq)

Düzdür!

Gəlin papağı naxışlarla bəzəyək. Razısınız? (Bəli) Biz papağın üzərində rəngli naxışlar çəkə bilərik. Naxışları çəkmək üçün bizə nə lazım olacaq? (Əgər uşaqlar cavab verməkdə çətinlik çəkirlərsə, boya və fırçanı işarə etmək olar.) Afərin!

Öyrədən boya ilə iş qaydalarını xatırladır və ehtiyac olduqda uşaqlara kömək edir. Qırmızıpapaq (Hər hansı bir gəlincik) papaqlara baxıb deyir:

"Uşaqlar, papaqlar çox gözəl alındı! Siz onları mənə hədiyyə edərsiniz? (Bəli)

İndi mən hər gün yeni gözəl papaq geyinə bilərəm. Çox sağ olun! Mən meşəyə gedib hamıya gözəl papaqlarımı göstərəcəyəm. Sağ olun! Siz necə də ağıllısınız!"

***Uğur göstəricisi:*** Fırça ilə düz xətt çəkməyi, boyalı barmaqla bəzək vurmağı öyrətmək

## Sərbəst fəaliyyət: Qələmlərlə sərbəst rəsm

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, sizinlə hansı nağılı oxuduq? Ən çox nə yadınızda qaldı? Nağılın qəhrəmanları kimlər idi? Evdə bu nağıldan nə danışa bilərsiniz?"

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Gəlin əl və ayaqlarımızla salamlaşaq. Salam, sağ əl. Salam, sol əl. Salam, sağ ayaq. Salam, sol ayaq”.

***Təqvimlə iş***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, bu gün geyimlər haqqında öyrəndiklərimizi ümumiləşdirəcəyik. Kim deyər, biz əynimizə, başımıza, ayağımıza nə geyinirik?”

***Barmaq oyunu: “Əlcək”***

Sağ əldə neçə barmaq var? (Sağ əli yelləmək)

1, 2, 3, 4, 5. (Sağ əlin barmaqlarını saydıqca açmaq)

Sol əldə neçə barmaq var? (Sol əli yelləmək)

1, 2, 3, 4, 5. (Sol əlin barmaqlarını saydıqca açmaq)

Bax bunları qoruyan, (Əlləri yelləmək)

Bir cüt sadiq dostum var.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Dairə ətrafında fırlanarkən ritmik hərəkətlər yerinə yetirmək, Öyrədənin siqnalına çevik reaksiya vermək bacarığını inkişaf etdirmək.

***Hissə 1. “Qurbağa və kəpənəklər”***

Uşaqlar dairə üzrə yeriyirlər. Öyrədən “Qurbağa!” deyəndə hamı sallağı oturub əllərini dizlərinin üstünə qoyur. Öyrədən “Qaçış!” deyəndə uşaqlar qalxıb qaçmağa başlayırlar. Öyrədən “Kəpənək!” deyəndə hamı qollarını yana açıb uçmağa başlayır. Öyrədən “Yeriş!” deyəndə uşaqlar qollarını yanlarına salıb yeriməklə davam edirlər. Qaçış və yeriş bir neçə dəfə növbələnir.

***Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətləri.***

Ayaqlar bir pəncə enində aralı, əllər aşağıda, hər iki əldə lent. Lentləri yuxarı qaldırmaq, qollar düz. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).

Ayaqlar çiyin bərabərində aralı, əllər çiyinlərdə, hər iki əldə lent. Sağa dönüb sağ qolu açmaq, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkəti sol tərəfə təkrarlamaq. (hər tərəfə 3 dəfə).

Ayaqlar çiyin bərabərində aralı, əllər beldə, hər iki əldə lent. Qabağa əyilib lentləri yelləmək. İlkin vəziyyətə qayıtmaq (5-6 dəfə).

Ayaqlar bir pəncə enində aralı, qollar yanlarda, hər iki əldə lent. Lentləri irəli-geri yelləmək. İlkin vəziyyətə qayıtmaq.

***Hissə 3.***

Uşaqlar hər iki əllərində lent dairə üzrə qaçırlar. Öyrədən qavala vuranda qaçış yerişlə əvəzlənir. Yeriş və qaçış bir neçə dəfə növbələnir.

***Uğur göstəricisi:*** Dairə ətrafında fırlanarkən ritmik hərəkətlər yerinə yetirir, Öyrədənin siqnalına çevik reaksiya verir.

## Hərəkətli oyun: "Gizlənqaç"

Böyük yaşlı uşaqlardan aparıcı seçilir. Onun gözü şarf ilə bağlanır və öz ətrafında 2-3 dəfə fırladılır. Bundan sonra oyunçular otaqda səpələng qaçırlar və aparıcı onları tutur. Oyunçular onun diqqətini cəlb etmək üçün əl çalırlar. Aparıcı oyuçunu tutub onu tanımalıdır. Bu halda tutulan uşaq aparıcı olur.

## Səsli nağıl zamanı

***Ad Günü Tacı***

Kraliça yubileyini qeyd edir və bu münasibətlə keçirilən ziyafətdə taxmaq üçün ona mükəmməl bir tac lazımdır. Görəsən, o, krallığın zərgəri göndərən tacı taxacaq, yoxsa tərəvəz mağazasından, yaxud şokolad ustasından gələn tacı?.. Bəlkə də bunların heç biri belə xüsusi gün üçün uyğun deyil?

**Link:** https://youtu.be/xzlXzAvGp7Q

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Kraliçanın ad gününə nə hazırlayırdılar?
2. Siz hansı tacı bəyəndiniz?
3. Kraliça hansı tacı bəyəndi? Nəyə görə? (Çünki onu nəvələri hazırlayıb)
4. Kraliçanın hansı heyvanı var? (İtlər)

## Son toplantı

**Öyrədən:** "Uşaqlar bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq.

Bugünkü dərsimizin mövzusu nə idi? (uşaqların cavabları).

Afərin! "

# Dekabr | 11-ci həftə | Mövzu: “Qışın əlamətləri”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə düzülürlər. Hər uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona atır və salamlaşır. Oyun bütün uşaqlar salamlaşanadək davam edir.

***Təqvimlə iş***

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən kağızdan düzəldilmiş kəpənəkdən istifadə edərək salamlaşma güşəsində uşaqlar ilə birlikdə-hava şəraitini qey edir.

**Öyrədən:** “Uşaqlar görün mənim sehirli qutumda nə qəşəng kəpənək var? O indi sinifdə uçacaq və bizim salamlaşma guşəmizdəki hava şəraitiniin üzərinə qonacaq. Mənim kəpənəyim bu gün havanın necə olduğunu müəyyən edib həmin hava şəraitinin üzərinə qonmalıdır. Siz ona kömək edə bilərsiniz?”

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, mən indi iki sözdən istifadə edəcəyəm. Siz o sözlərə əsasən, davranmağa çalışacaqsınız.

İlk söz “soyuq” dur. Soyuq olanda biz üşüyürük. Üşüyəndə isə əllərimizi qollarımıza sürtərək qızınmağa çalışırıq. BRRRR səsini də çıxarırıq. Dişlərimiz qamaşır və bəzən əsirik. Kim üşüməyi nümayiş etdirə bilər?

İkinci söz “isti”dir. İsti olanda bizim bəzən havamız çatmır, özümüzü əlimiz ilə yelləyirik. Kim göstərər isti olanda hansı hərəkətləri yerinə yetiririk?”

Uşaqlar oyunu bitirdikdən sonra Öyrədən, “Uşaqlar, sizcə, bu gün havaya əsasən, biz üşüməliyik, yoxsa bizə isti olmalıdır?

Doğrudur, bizə soyuq olmalıdır, çünki indi qış fəslidir və hava şaxtalı, qarlıdır. Gəlin birlikdə qışın əlamətlərini öyrənək”.

### Ətraf aləm ilə tanışlıq: “Qışın əlamətləri”

**Məqsəd:** Uşaqları qış fəsli zamanı təbiətdə baş verən hadisələr ilə tanış etmək

***Hissə 1. Giriş***

Öyrədən uşaqlara qış ilə bağlı video göstərir. Videoda meşə, qarın yağması, heyvanların qış yuxusuna getməsi

- Uşaqlar, meşədə nə baş verirdi?
- Heyvanlar niyə belə edirdilər (yatırdılar).
- Niyə belə düşünürsünüz? (Uşaqların cavabı)
- Qışın hansı əlamətlərini bilirsiniz? Qışda təbiətdə nə baş verir? (Uşaqların cavabı)

Öyrədən uşaqlara pəncərədən baxmağı təklif edir.

**Öyrədən:** Doğrudur, qışda günəş az işıq saçır, hava soyuq olur, tez qaralır? Bütün bunlara baxmayaraq, qış yenə də gözəl fəsildir. Qışda çox maraqlı və şən vaxt keçirmək olar. Gəlin qış əyləncələrindən bəhs edək.

- Qışda nə ilə məşğul olmaq olar? ( Qışda qartopu oynamaq, qaradamı düzəltmək, xizəklə sürüşmək olar)
- Siz qışda bunların hansı ilə məşğul olmusunuz?” (Uşaqların cavabı)

***Hissə 2. Şeir saatı. Mirzə Ələkbər Sabir «Uşaq və buz»***

Dərsə gedən bir uşaq, (Yerində addımlayırlar.)

Çıxdı buz üstə qoçaq; (Bədəni müxtəlif istiqamətlərə əyirlər.)

Sürüşdü birdən-birə, (Dizi üstə yerə otururlar.)

Düşdü üz üstə yerə. (Əlləri ilə üzlərini örtürlər.)

Durdu uşaq neylədi? (Ayağa qalxırlar.)

Buza belə söylədi: (Əllərini belə qoyurlar.)

“Sən nə yamansan, a buz?! (Sağ ayağını qarşıya qoyur, sağ əli ilə döşəməni, “buzu” göstərir)

Adam yıxansan, a buz! (Sol ayağını qarşıya qoyur, sol əli ilə döşəməni, “buzu” göstərir)

Az qalıb ömrün sənin, (Sağ ayağını qarşıya qoyur, sağ əli ilə döşəməni, “buzu” göstərir)

Yaz gələr, artar qəmin: (Sol ayağını qarşıya qoyur, sol əli ilə döşəməni, “buzu” göstərir)

Əriyib suya dönərsən, (Əllərini birləşdirir, sonra əks istiqamətlərdə hərəkət etdirir)

Axıb çaya gedərsən!” (Ovuclarını birləşdirir və qarşıya aparır).

***Hissə 3. Oyun. “Düzgün sözü seç”.***

Hamı yerdə dairədə oturub. Öyrədən sual verir və topu uşaqlardan birinə diyirləyir. Uşaq suala bir sözlə cavab verir və topu Öyrədənə geri diyirləyir. Suala ətraflı cavab almaq üçün top bir neçə uşağa diyirləndirilir. Uyğun cavablar alındıqdan sonra növbəti sual verilir.

Suallar:

- Qış ilə bağlı hansı sözləri istifadə etmək olar? Qış necədir? (Qarlı, şaxtalı, soyuq, sərt, ağ və s.)
- Qar necə olur? (Ağ, yumşaq, soyuq, parıldayan və s.)
- Qar dənəciyi necə olur? (Yüngül, havalı, incə, şəffaf, qəşəng, ağ, naxışlı və s.)

**Öyrədən:**

- Deyin görüm bu gün hansı fəsildən bəhs etdik?
- Qışın hansı əlamətlərini bilirsiniz? (məs.: hava soyuyur, qar yağır, günəş az-az görünür, günlər qısalır və s.)
- Qış əyləncələrini xatırlayın. Qışda nə ilə məşğul olmaq olar?
- Afərin uşaqlar. Oynaya bilərsiniz.

***Uğur göstəricisi:*** Qış fəsli zamanı təbiətdə baş verən hadisələr ilə tanışdır.

## Fiziki hərəkətlər

**Məqsəd:** Yeriş və qaçış ilə digər fiziki hərəkətləri (topu atmaq, iki ayaq üzərində tullanmaqla) növbələməyi məşq etmək

### *Hissə 1*

Uşaqlar - qar dənəcikləri çevrədə dururlar. Öyrədənin "Külək əsdi!" (qavalı sakitcə səsləndirir) siqnalı ilə qar dənəcikləri yavaş-yavaş barmaqları üzərində əllərini yanlara açaraq dairə üzrə hərəkət edirlər. Getdikcə hərəkət sürətlənir (qavalın səsi artır), sonda uşaqlar qaçmağa başlayırlar. Öyrədən qavala vurub deyir: "Külək istiqamətini dəyişdi, qar dənəcikləri əks tərəfə uçdular!" (Uşaqlar əks tərəfə qaçırlar.). "Külək tam kəsildi, qar dənəcikləri sakitcə yerə düşürlər"- uşaqlar dayanırlar, əllərini yanlarına salırlar və otururlar.

### *Hissə 2. Top ilə inkişafetdirici məşqlər*

- Ayaqlar bir pəncə enində aralı, top aşağıdadır. Qollar düz vəziyyətdə top irəli qaldırılır; top yuxarı qaldırılır; top irəli endirilir, ilkin vəziyyət alınır (4 dəfə).
- Oturmuş halda ayaqlar aralı, toplar əldə, qollar dirsəkdən qatlanıb. Top yuxarı qaldırılır, bədən irəli əyilir, top yerə toxundurulur, top yuxarı qaldırılır, ilkin vəziyyət alınır (4-5 dəfə).
- Hamı dizlər bükülü vəziyyətdə oturub, top yerdədir. Uşaq topu sağa və sola ötürməklə öz ətrafında fırladır. Əllər növbələnir (hər tərəfə 3 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

Tullanmaq. Oyun üzərində məşq: "Hop-hop qurbağalar". Otağın bir tərəfində yerə kəndir qoyulur- bu bataqlıqdır. Uşaqlar-"hop-hop qurbağalar" otağın digər tərəfində bir xətt üzrə dururlar. Öyrədən metallafonda çalır və bu ritmə uyğun olaraq, uşaqlar iki ayaq üzərində "bataqlıq" istiqamətində tullanırlar (təxminən 16 dəfə). Kəndirə çatanda "Şap!" deyib üzərindən tullanırlar. Əgər qrup böyükdürsə, uşaqlar iki xətt üzrə düzülürlər. Xəsarətlərdən qaçmaq üçün sıralar arasındakı məsafə 1,5-2 metr olmalıdır. İkinci sıranın uşaqları oyuna bir az gec, Öyrədənin işarəsi ilə başlayırlar.

***Uğur göstəricisi:*** Yeriş və qaçış ilə digər fiziki hərəkətləri (topu atmaq, iki ayaq üzərində tullanmaqla) növbələməyi bacarır.

## Sərbəst fəaliyyət: Sərbəst rəsm

## Son toplantı

Öyrədən uşaqlara qavalın sədaları altında dairə üzrə qaçmağı təklif edir. Dairənin ortasına bir balış qoyulur. Qavalın səsi kəsildikdə uşaqlardan biri istəyi üzrə balışın üstünə çıxır və dərsdə ən çox nəyi bəyəndiyini deyir, digərləri isə onu alqışlayır. Növbə ilə digər uşaqlar da iştirak edir.

**Öyrədən:** "Bu günlük bu qədər. Afərin, uşaqlar! Təşəkkür edirəm!"

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Salam, uşaqlar! Bu gün qollarımız bizim budaqlarımız olsun, onları yanlara açaq və sol tərəfimizdəki (ürəyimiz olan tərəfdəki) yoldaşımızı qucaqlayaraq salamlayaq”.

### *Təqvimlə iş*

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən bir gün öncə “Salamlaşma” guşəsinə qonan kəpənəyi yenə sinifdə uçurdur.

“- Uşaqlar, bu gün hava necədir?

- İndi bizim kəpənəyimiz hansı “hava şəraiti”nin üzərinə qonmalıdır? (Uşaqların cavabı).

- Düzdür, bu gün hava .......,

-Çünki indi qış fəslidir, hava soyuqdur, kəpənəyimiz....... “hava şəraiti”nə qonarsa, üşüyər”.

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

### *Mövzuya giriş*

Öyrədən ovuclarına eyni əşya olmaqla müxtəlif sayda əşya (ovcun içinə sığa biləcək qədər balaca və sayı 5 dən çox olmamalıdır) yerləşdirir. Ovcu qapalı şəkildə uşaqlara deyir.

“Uşaqlar, sizcə, mənim əlimdə nə var?” Uşaqlar tapmağa çalışır.

**Öyrədən:** “Ovcumda tum (günəbaxan tumu) var”. Öyrədən ovcunun birini açır. “Neçə mənim birinci ovcumda ədəd tum var? (Uşaqların cavabı). Bəli, 3 ədəd. Bəs o biri ovcumda? Sizcə, o, 3-dən çox olacaq, yoxsa az?”

Öyrədən hər iki ovucu açıldıqdan sonra orada olan tumların sayını lövhədə indeks (rəqəm) ilə yazır. Solda 3, sağda 5 tum. Hər iki rəqəmin altında həmin rəqəmə uyğun tum rəsmi çəkir və onların sayını müqayisə edir.

Az və çox anlayışını uşaqlara anladır.

## Riyaziyyat: Az və çox

**Məqsəd:** İki qrup obyekt müqayisə etməyi öyrənmək, az və ya çox saya sahib olduqları halda, bunu qeyd etməyi bacarmaq

### *Hissə 1.*

Uşaqlar üzərində oyuncaq olan masaların ətrafında yarımdairə şəklində otururlar. Öyrədən uşaqların diqqətini oyuncaqlara çəkir və tapşırığı başa salır: “Uşaqlar, masaların üzərinə baxın. Onların üzərində müxtəlif oyuncaqlar var. Mən kimin adını çəksəm, həmin uşaq öz masasının üzərində hansı oyuncaqdan azdır (barmaqla 1 göstərilir), hansından çox olduğunu aid edib bizə deyəcək (*məs.: masanın üzərində iki ədəd top və 5 sayda maşın var)*.

**Qeyd:** Oyuncaqların sayını müəyyən etməkdə çətinlik çəkən kiçik yaşlı uşaqlara fərqli suallar verilir:

**Öyrədən:** “Sən neçə maşın tapdın? Bəs neçə top? İndi de görüm, neçə maşın və neçə top tapmısan?”

Öyrədən uşaqlara qrup otağındakı sevimli oyuncaqları arasında az və çox olanları tapıb göstərməyi təklif edir.

**Qeyd:** Kiçik yaşlı uşaqlara tapılası oyuncaqların adını deməklə köməklik göstərmək lazımdır.

***Hissə 2.***

**Oyun: Nə dəyişdi?**

Öyrədən masanın üzərinə 3-4 oyuncaq qoyur. Uşaqlardan biri masanın yanına dəvət olunur və oyuncaqlara baxmaq üçün ona 1-2 dəqiqə vaxt verilir. Uşaq hansı əşyanın az sayda, hansı əşyanın çox sayda olduğunu müəyyən edir. Bundan sonra uşaq üzünü çevirir və oyuncaqların sayı dəyişdirilir. Biri masanın üzərindən götürülür. Yəni az sayda olan oyuncaq sayına əlavə edilir və say çıxalır. Oyunda bütün uşaqlar növbə ilə, yaxud yarışan iki komanda şəklində iştirak edirlər.

***Hissə 3. Oyun: Kimdə azdır.***



Öyrədən bir neçə topun üzərində rəqəmlər yazır: 1, 2, 3, 4, 5. Öyrədən uşaqlar arasında "5" uşaq seçir. Onlar sıra ilə döşəmədə oturur. Öyrədən hər bir uşağa 1 top atır. Beləliklə, hər bir uşaqda (sırada oturan 5 uşaq nəzərdə tutulur) bir ədəd top olur. Öyrədən sırada oturan uşaqlardan topun üzərindəki rəqəmi yerdə qalan uşaqlara göstərməklərini xahiş edir. Daha sonra uşaqlar Öyrədənin verdiyi balaca əşyalardan istifadə edərək öz toplarında olan rəqəmin sayı qədər qarşısına əşya düzməlidir. Öyrədən yerdə qalan şagirdlərdən hər bir uşaqda neçə əşya olduğunu və kimdə daha az, çox olduğunu müəyyən etməsini rica edir.

***Uğur göstəricisi:*** İki qrup obyekt müqayisə etməyi bacarır, az və ya çox saya sahib olduqları halda, bunu qeyd etməyi bilir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Məkanda istiqamətlənməni inkişaf etdirməklə səpələng qaçmağı öyrətmək və yeriş məşqi etdirmək. "İsveç divarı"nda tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığının inkişaf etdirmək.

***Hissə 1.***

Otaqda kubiklər düzülüb. Uşaqlar qavalın sədaları altında cərgə ilə gəzirlər. Öyrədən "Çıxaq gəzintiyə. Görək ətrafımızda hansı ağaclar bitir" sözləri ilə uşaqları otaqda səpələng qaçmağa və gəzməyə çağırır. Uşaqlar kubiklərin ətrafında gəzirlər və sonda Öyrədənin göstərişi ilə hər kəs bir kubik götürüb cərgədə addımlamağa qayıdır.

***Hissə 2. Kubiklərlə ümuminkişaf məşqləri***

- Ayaqlar bir pəncə enində aralı, kubiklər hər iki əldə aşağıda. Kubikləri yanlardan yuxarı qaldırmaq, bir-birinə vurmaq, aşağı salmaq. İlkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
- Ayaqlar bir pəncə enində aralı, kubiklər hər iki əldə arxada. Əyilmək, kubikləri ayaqların qarşısında yerə qoymaq, qalxmaq, əlləri arxaya aparmaq, əyilmək, kubikləri götürmək. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq (3-4 dəfə).
- Ayaqlar çiyin bərabərində aralı, kubiklər aşağıda. Sağa (sola) dönmək, sağ (sol) əli yana aparmaq. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq (3 dəfə).
- Ayaqlar az aralı, əllər yanlarda sərbəst. Kubiklər yerdə ayaqların qarşısında. İki ayaq üstə kubiklərin ətrafında hər iki tərəfə tullanmaq, yerində addımlama ilə növbələmək. (3-4 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

"Yeni il oyuncağını götür"

"İsveç divarı"nda yuxarıdan 3-cü pillədən qırılmayan oyuncaq asılır. Uşaqlar növbə ilə çıxıb ona toxunurlar. Sonra oyuncaq ən sonuncu pillədən asılır, hərəkət təkrar olunur. Öyrədən ehtiyacı olan uşaqları aşağıda sığortalayır.

***Uğur göstəricisi:*** Məkanda istiqamətlənməni inkişaf etdirməklə səpələng qaçır. "İsveç divarı"nda tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığı var.

## Hərəkətli oyun: "Yarpaqlar"

**Məqsəd:** Ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən, çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar "İynəyarpaqlılar" və "Enliyarpaqlılar" qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin "İynəyarpaqlılar" siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda səpələng qaçırlar. Öyrədənin "Enliyarpaqlılar" siqnalı ilə "İynəyarpaqlılar" öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

***Uğur göstəricisi:*** Ətrafdakılara toxunmadan səpələng qaçır və yeriməyi, siqnala əsasən, çevik hərəkət etməyi bilir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, gün necə keçdi? Ən çox nə xoşunuza gəldi?"

# 3-cü gün

## Səhər toplantısı

### Salamlaşma

**Öyrədən:** "Salam, uşaqlar! Bu gün qollarımız bizim iynə yarpaqlarımız olsun, onları yanlara açaq və sağ tərəfimizdəki yoldaşımızı qucaqlayaraq salamlayaq".

### Təqvimlə iş

**Məqsəd:** "Salamlaşma" guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən bir gün öncə "Salamlaşma guşəsi"nə qonan kəpənəyi yenə sinifdə uçurdur.

"- Uşaqlar, bu gün hava necədir?

- İndi bizim kəpənəyimiz hansı hava şəraitinin üzərinə qonmalıdır? (Uşaqların cavabı).

- Düzdür, bu gün hava .......,

- Çünki indi qış fəslidir, hava soyuqdur, kəpənəyimiz....... hava şəraitinə qonarsa, üşüyər."

***Uğur göstəricisi:*** "Salamlaşma" guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

### Mövzuya giriş

Qar. Qar niyə yoxa çıxır?

Öyrədən öncədən soyuducuda dondurduğu buzu bir qabın içərisinə yerləşdirir:

"Uşaqlar, gəlin günün sonuna qədər bu qabdakı buzu müşahidə edək. Qabdakı buz qışda yağan qar kimi sinfimizin istisindən əriyib suya dönəcək".

## Nitqin inkişafı: Tofiq Mütəllibov: "Şən yolka" şeiri

**Məqsəd:** Əzbərləmək qabiliyyətini artırmaq

Geyinmisən al-əlvan,
Budaqların çıraqban,
Dövrə vurub qız-oğlan,
Nəğmə deyir şən yolka,
Sən nə gözəlsən, yolka.

Dildə gəzir sorağın,
Bəzənib hər budağın,
Şaxtababa qonağın,
Olmuş sənin, şən yolka,
Sən nə gözəlsən, yolka.

Çölü, meşəni bəzə,
Düzləri gəzə-gəzə,
Hər il qonaq gəl bizə,
Ürək açan, şən yolka,
Sən nə gözəlsən, yolka.

Öyrədən şeiri **ifadəli** şəkildə oxuyur və **təkrar** edir; sonra uşaqlarla şeirin **müzakirəsinə** başlayır.

**Öyrədən:**

- Uşaqlar, şeirdə nədən bəhs edilir?
- Yeni il ağacı necədir: şən, yoxsa qəmli? (Üz ifadələri ilə göstərilir.)
- Şeirin bütün sözləri sizə aydındır?
    - (*Şeir bir daha hissə-hissə oxunur, aydın olmayan hissələr izah edilir.*)

Öyrədən növbə ilə bir neçə uşağı şeiri onunla birlikdə oxumağa dəvət edir. Bu uşaqlar Öyrədən ilə birlikdə şeirin qısa məzmununu danışırlar. Şeirin hər hansı bir hissəsini yadında saxlamış uşaq olarsa, Öyrədən onu yoldaşları qarşısında şeir deməyə dəvət edir.

***Uğur göstəricisi:*** 5 misralı şeiri əzbər deyə bilir.

## Hərəkətli oyun: “Yarpaqlar”

**Məqsəd:** Ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən, çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar “İynəyarpaqlılar” və “Enliyarpaqlılar” qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin “İynəyarpaqlılar” siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda səpələng qaçırlar. Öyrədənin “Enliyarpaqlılar” siqnalı ilə “İynəyarpaqlılar” öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

***Uğur göstəricisi:*** Ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən, çevik hərəkət etməyi bilir.

## Aplikasiya və rəsm : “Küknar ağacı”

**Məqsəd:** Hazır formalarda olan kağız üzərində şəkil tərtib edib yapışdırmağı öyrətmək

Vəsaitlər: Hər uşağa tərəfləri 8 sm , 5 sm və 3 sm olan 3 ədəd yaşıl rəngli üçbucaq, ağ boya, fırça, göy kağız, yapışqan, salfet

**Öyrədən:** “Uşaqlar, bizə dovşandan məktub gəlib. İndi mən sizə onu oxuyacağam.

“Salam, mənim gözəl balalarım. Sizə yazan dovşandır. Bizim meşədə küknar ağacları çatmır. Mənə çoxlu küknar ağacı düzəltməyə kömək edərsinizmi? Hörmətlə, dovşan” .

Uşaqlar, gəlin dovşana kömək edək və ona bunun kimi çoxlu gözəl küknar ağacları düzəldək (Nümunə göstərilir.)

1. Küknar ağacı hansı həndəsi fiqurdan düzəldilib? (Üçbucaq)
2. Üçbucaqlar ölçüsünə görə eynidir? (Müxtəlifdir: böyük, orta və balaca)
3. Böyük budaqlar harada yerləşir? (Aşağıda)
4. Kiçik budaqlar harada yerləşir? (Yuxarıda)
5. Küknar ağacı hansı həndəsi fiqura bənzəyir?(Küknar ağacı üçbucağa bənzəyir)
6. Küknar ağacının alınması üçün üçbucaqları necə yerləşdirək? (Aşağıda ən böyük üçbucağı, onun üstündə orta ölçülü, yuxarıda ən kiçiyi)
7. Üçbucaqlar nə rəngdədir? (Yaşıl)

Küknar ağacı kağız üzərində yığılır. Yapışqan ilə iş qaydaları təkrarlanır. Üçbucaqlar müvafiq qaydada göy kağızın üzərinə yapışdırılır ”.

***Uğur göstəricisi:*** Hazır formalarda olan kağız üzərində şəkil tərtib edib yapışdırmağı bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, biz bu gün quşlar haqqında nə öyrəndik?

Bəs quşun bədən quruluşunu kim xatırladar bizə?

Afərin sizə!”

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Bu gün hər birimiz bir ağacın dilindən qrupumuzu salamlayacağıq. Mən sizə palıddan (küknardan, söyüddən, ağcaqayından və s.) salam gətirmişəm". Uşaqlar salamlaşmanı bu qayda ilə davam edirlər. Ağac adları təkrar oluna bilər.

### *Təqvimlə iş*

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti. 1, 2, 3-cü gün öyrənənlərin təkrarı.

### *Mövzuya giriş*

Qış əyləncələri hansılardır? Qışda həyətdə nə oynamaq olar?

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Məkanda istiqamətlənməni inkişaf etdirməklə səpələng qaçmağı öyrətmək və yeriş məşqi etdirmək. "İsveç divarı"nda tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığının inkişaf etdirmək

### *Hissə 1.*

Otaqda kubiklər düzülüb. Uşaqlar qavalın sədaları altında cərgə ilə gəzirlər. Öyrədən "Gəzintiyə. Görək ətrafımızda hansı ağaclar bitir" sözləri ilə uşaqları otaqda səpələng qaçmağa və gəzməyə çağırır. Uşaqlar kubların ətrafında gəzirlər və sonda Öyrədənin göstərişi ilə hər kəs bir kub götürüb cərgədə addımlamağa qayıdır.

### *Hissə 2. Kublarla ümuminkişaf məşqləri*

- Ayaqlar bir pəncə enində aralı, kublar hər iki əldə aşağıda. Kubları yanlardan yuxarı qaldırmaq, bir birnə vurmaq, aşağı salmaq. İlkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
- Ayaqlar bir pəncə enində aralı, kubiklər hər iki əldə arxada. Əyilmək, kubikləri ayaqların qarşısında yerə qoymaq, qalxmaq, əlləri arxaya aparmaq, əyilmək, kubikləri götürmək. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq (3-4 dəfə).
- Ayaqlar çiyin bərabərində aralı, kubiklər aşağıda. Sağa (sola) dönmək, sağ (sol) əli yana aparmaq. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq (3 dəfə).
- Ayaqlar az aralı, əllər yanlarda sərbəst. Kubiklər yerdə ayaqların qarşısında. İki ayaq üstündə kubiklərin ətrafında hər iki tərəfə tullanmaq, yerində addımlama ilə növbələmək (3-4 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

"Yeni il oyuncağını götür".

"İsveç divarı"nda yuxarıdan 3-cü pillədən qırılmayan oyuncaq asılır. Uşaqlar növbə ilə çıxıb ona toxunurlar. Sonra oyuncaq ən sonuncu pillədən asılır, hərəkət təkrar olunur. Öyrədən ehtiyacı olan uşaqları aşağıda sığortalayır.

***Uğur göstəricisi:*** Məkanda istiqamətlənməni inkişaf etdirməklə səpələng qaçır və yeriyir. "İsveç divarı"nda tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığına malikdir.

## Hərəkətli oyun: "Yarpaqlar"

**Məqsəd:** Ətrafdakılara toxunmadan səpələng qaçmağı və yeriməyi, siqnala əsasən, çevik hərəkət etməyi məşq etmək.

Uşaqlar “İynəyarpaqlılar” və “Enliyarpaqlılar” qruplarına bölünürlər. Bütün uşaqlar otağın künclərində yerləşdirilmiş stul və ya döşəkçələrin üstündə oturur. Öyrədənin “İynəyarpaqlılar” siqnalı ilə bu qrupa aid olan uşaqlar ayağa qalxıb əllərini başları üzərində dik tutaraq otaqda səpələng qaçırlar. Öyrədənin “Enliyarpaqlılar” siqnalı ilə “İynəyarpaqlılar” öz yerlərinə qayıdır, eyni zamanda digər qrupun üzvləri qolları yanlara açılmış şəkildə otaqda səpələng qaçmağa başlayırlar. Qrupların növbələşməsi bir neçə dəfə təkrar edilir.

Öyrədən uşaqların siqnala görə hərəkət etmələrinə nəzarət edir.

## Səsli nağıl zamanı

***Duman və İşıq***

**Link:** https://youtu.be/TH7CrsHUP1I

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

**Qeyd 3:** Duman və İşıq nağılında bir çox məna vardır. Bunları uşaqlara izah edin: Qışda ağacların qışda yarpaqlarının tökülməsi və yazda yenisinin bitməsini, ağacların qalın qabıqlı olduğunu, dumanlı havanın günəşlə, işıqla əvəz etməsini.

***Uşaqlara suallar***

1. Layçi hara gedirdi?
2. Siz necə düşünürsünüz, ağaclara qışda soyuq olur? Nəyə görə?
3. Dumanlı hava görmüsünüz?
4. Günəşli hava bəs necə?
5. Siz Layçi ilə dost olardınız?
6. Bəs sizcə ağaclar yarpaqları tökülür deyə kədərlənirlər? (Yox, onlar köhnə yarpaqlarını töküb yazda yenidən yarpaq açırlar)

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, istirahət günlərini necə keçirəcəksiniz?

Evlərinizi qarşıdan gələn bayramda necə hazırlamağı təklif edəcəksiniz?”

Öyrədən hər uşaq haqqında xoş bir söz deyir və sağollaşır.

## Dekabr | 12-ci həftə | Mövzu: “Yeni il gəlir!”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! İstirahət günlərinizi necə keçirdiniz? ”

***Təqvimlə iş***

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən bir gün öncə “Salamlaşma” guşəsinə qonan kəpənəyi yenə sinifdə uçurdur. Lakin hava durumu bitdikdən sonra - ay bölümündə uşaqlar hansı ay olduğunu qeyd edir.

- İndi bizim kəpənəyimiz hansı ayın üzərinə qonmalıdır? (Uşaqların cavabı).
- Düzdür, dekabr ayıdır. .......
- Çünki indi qış fəslidir, hava soyuqdur, kəpənəyimiz dekabr, yanvar, fevral aylarına qona bilməz.”

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

Uşaqlar dairədə oturublar. **Öyrədən:** “Yeni ilin gəlişinə çox az vaxt qalıb. Buna görə bu gün hər birimiz qatarla dövrə vurub ucadan Şaxtababaya öz arzumuzu deyəcəyik. Birinci mən başlayıram”.

Öyrədən dairənin ətrafında dövrə vurur, başlanğıc nöqtəsinə çatanda ucadan öz arzusunu deyir. Uşaqlar eyni qayda ilə oyunu davam edirlər.

***Barmaq oyunu: Gülzar İbrahimova “Sən necə qəşəngsən, qar!” şeirindən bir bənd***

Uşaqlar, ay uşaqlar! (Əlləri havada yelləmək)

Çölə çıxın, yağır qar. (Sol əlin barmaqlarını bir-bir sağ əlin ovcuna toxundurmaq)

Gəlin həyətə düşək, (Sağ əlin barmaqları sol əlin ovcunda “addımlayır”.)

Xizək ilə sürüşək! (Əllər yanlarda irəli-geri-xizək sürürmüş kimi-hərəkət etdirilir.)

### Ətraf aləmlə tanışlıq: “Qarşıdan gələn bayramlar”

**Məqsəd:** Uşaqlara qarşıdan gələn bayramlar haqqında məlumat vermək

***Hissə 1.***

**Öyrədən:** “Uşaqlar, qarşıdan iki gözəl bayram gəlir.

- İlk növbədə biz dekabrın 31-i bütün azərbaycanlılar üçün mühüm olan Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edəcəyik. Bu gün 1991-ci ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən elan olunmuşdur. Bu, dünyada yaşayan 50 milyondan çox azərbaycanlının birlik günüdür. Dünyanın hansı yerində olmağınızdan asılı olmayaraq, siz azərbaycanlı adını ləyaqət və fəxrlə daşımalısınız.
    - Bu məlumata əsasən, deyin görüm həmrəy olmaq nə deməkdir? (Uşaqların cavabları)
- Növbəti bayram isə Yeni il olacaq. Biz köhnə il ilə vidalaşıb, Yeni ili, yeni arzu və ümidləri qarşılayacağıq. Siz Yeni illə bağlı hansı adət-ənənələri bilirsiniz? (Uşaqların cavabları)

- Yeni ilin əsas rəmzi küknar ağacıdır. Bəzi ölkələrdə təbii küknar ağacı bəzədilir. Lakin ağacları kəsməmək üçün artıq süni küknar ağaclarına üstünlük verilir. Bəs siz evdə küknar ağacı bəzəyəcəksiniz? (Uşaqların cavabları)
- Yeni ildə sizə kim hədiyyə gətirir? (Şaxtababa)
- Bilirsiniz, Şaxtababanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar: Amerika Birləşmiş Ştatlarında, Böyük Britaniyada "Santa Klaus", Fransada "Per Noel", Rusiyada "Ded Moroz" və s..
- Şaxtababa ilə daha kim gəlir? (Qar qız)
- Doğrudur. Bəs sizin ailənizdə bu bayramlarla bağlı hansı ənənələr var? " (Uşaqların cavabları)

***Hissə 2. Bayram tədbirinə hazırlıq***

Öyrədən uşaqlarla birlikdə bayram tədbiri üçün şeir, mahnı əzbərləməyə, rollu-süjetli səhnə hazırlamağa başlayır.

***Uğur göstəricisi:*** Qarşıdan gələn bayramlar haqqında məlumatı var.

***Hərəkətli oyun: Sözlər: Hikmət Ziya, Musiqi: Musa Mirzəyev- "Yeni il gəlir" (1 və 2-ci bəndlər)***

Süd kimi ağ qar ilə,
Çoxlu-çoxlu bar ilə,
Qış ilə, bahar ilə
Yeni il gəldi,
Yeni il gəldi.
Neçə nübar ilə,
Yeni il gəldi.

Dekabrın son günü,
Bizə tutub üzünü,
Dedi ürək sözünü:
Yeni il gəldi,
Yeni il gəldi.
Görürük özünü,
Yeni il gəldi.

## Aplikasiya: "Yeni il bəzəyi"

**Məqsəd:** Plastilini ovuclar arasında irəli-geri hərəkətlə yastılama bacarığını təkmilləşdirmək. Dovşanın xarici görünüşünün xüsusiyyətlərini düzəltdiyi fiqurda göstərmək

Vəsaitlər: 1x12 sm ölçüdə rəngli kağızlardan kəsilmiş zolaqlar, yapışqan, qayçı

**Öyrədən:** "Uşaqlar, mən qrupumuzu bəzəməyi təklif edirəm. Otağımız çox böyükdür, buna görə də hazırlayacağımız bəzək uzun olmalıdır. Bəs necə edək? Hər birimiz ayrılıqda belə böyük bəzək düzəltsək, çox vaxt itirərik. Bəs necə edək? (Uşaqlar öz fikirlərini bildirirlər.)

Hərəmiz bəzəyin bir hissəsini hazırlasaq və sonra bu hissələri birləşdirsək, məqsədimizə tez çatarıq.

Gəlin mən sizə işimizi izah edim. Qarşımızdakı zolaqlardan birini götürürük və onun bir ucuna yapışqan sürtüb digər ucuna yapışdırırıq. Bundan sonra fərqli rəngdə digər zolaq götürürük və hazırladığımız halqanın içindən keçirib uclarını eyni qayda ilə yapışdırırıq. Rənglərin növbələnməsinə diqqət yetiririk".

Uşaqlar işi sərbəst yerinə yetirirlər. Ehtiyac olarsa, Öyrədən kömək edir. Böyük yaşlı uşaqlar zolaqları qayçı ilə özləri kəsə bilərlər.

***Uğur göstəricisi:*** Plastilini ovuclar arasında irəli-geri hərəkətlə yastılama bacarığına malikdir. Dovşanın xarici görünüşünün xüsusiyyətlərini düzəltdiyi fiqurda göstərə bilir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar. Otağın bəzədilməsi.

## Son toplantı

**Öyrədən:** "Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Evdə məşğələmizlə bağlı nə danışacaqsınız?

Hər birinizə afərin!"

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Uşaqlar, sabahınız xeyir! Gəlin bir oyun oynayaq. Mən “1” deyəndə hoppanacaqsınız, “2” deyəndə əl çalacaqsınız, “3” deyəndə yanınızda olan dostunuzu qucaqlayacaqsınız”.

***Təqvimlə iş***

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

**Öyrədən:**

- Uşaqlar, bizim kəpənəyimiz yenə uçmağa başlayır.
- Sizcə, o hansı ayın üzərinə qonacaq? (Dekabr, doğrudur)
- Dekabr ayı tezliklə bitəcək, sonra hansı ay gələcək?
- Qış fəslinin ayları hansılardır? (Dekabr, yanvar, fevral)
- Payız ayları hansılardır? (Sentyabr, oktyabr, noyabr)
- Uşaqlar kəpənəyi uyğun ayın üzərinə qondurmaq lazımdır. O artıq uçmaqdan yoruldu.

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

**Barmaq oyunu: “Barmaqlar gəzməyə çıxır”.**

1,2,3,4,5 – Barmaqlar çıxır gəzməyə, (Çeçələ barmaqdan başlayaraq növbə ilə bütün barmaqlar açılır)

1,2,3,4,5 – Qayıdırlar onlar evə. (Eyni ardıcıllıqda barmaqlar qatlanır)

Riyaziyyat: " “5” daxil olmaqla hesab: “Neçə?” Müqayisə: Çox/az"

**Məqsəd:** Əşyanın sayını ədədlə əlaqələndirmək bacarığını formalaşdırmaq, “5” daxilində əşyaların daha çox/az olduğunu təyin etməyi öyrətmək

***Hissə 1. Oyun***

Oyun: Dəniz quldurları və onların qənimətləri

**Öyrədən:** “Uşaqlar, dəniz quldurları öz qənimətlərini bu qutularda gizlədib. Biz indi bu qutuları açıb içərisindəki qızıl pulları sayıb hansı dəniz quldurunun daha zəngin olduğunu müəyyən edəcəyik.

Uşaqlar qutuları açır, içindəki qəpikləri sayır. Qutuları sıra ilə düzür.

***Hissə 2. Oyun: Addımla və tap***

Öyrədən öncədən böyük ay vərəqdə hazırladığı dəniz quldurlarının xəritəsini döşəməyə qoyur. Xəritədə dəniz, dağlar, çay, dərə-təpə təsvir olunub. Öyrədən həmin xəritədə yol çəkir və addımları sayaraq uşaqlar həmin xəzinələrin yerini tapmalıdırlar.

“İndi isə biz dəniz quldurlarının gizlətdiyi digər qızıl qəpikləri tapmağa çalışacayıq. Mən biz bu qırmızı rəngdə qeyd olunan X işarəsindən başlayacağıq, 3 addım gedəcəyik, sonra sağ yol ilə davam etməli olacağıq. Oradakı xəzinəni görürsünüz? Neçə ədəd qızıl pul var orada? Gəlin sayaq!

1,2,3,4,5. Afərin uşaqlar”.

Öyrədən uşaqlar bütün qızılları tapana qədər bu oyunu oynayır.

**Qeyd:** Öyrədən bu oyunu kağız üzərində, sinif otağında, ağ lövhədə də çəkə bilər.

***Uğur göstəricisi:*** Əşyanın sayını ədədlə əlaqələndirmək bacarığına malikdir, "5" daxilində əşyaların daha çox/az olduğunu təyin etməyi bacarır.

## Fiziki hərəkətlər

Öyrədənin seçimi əsasında Yeni il ağacı ətrafında ifa edilən mahnılar, rəqslər və oyunlar.

Hərəkətli oyun: Sözlər: Hikmət Ziya; Musiqi: Musa Mirzəyev "Yeni il gəlir" (3 və 4-cü bəndlər)

Bəzənmişdir yolkalar,
Onların da sözü var:
Bilsin ellər, obalar,
Yeni il gəlir,
Yeni il gəlir.
Sevinir uşaqlar,
Yeni il gəlir.

Sevinclə gülə-gülə,
Aydın səhərlər ilə,
Yeni zəfərlər ilə
Yeni il gəldi,
Yeni il gəldi.
Hər obaya, elə,
Yeni il gəldi.

## Sərbəst fəaliyyət: Bayramlar mövzusunda sərbəst rəsm

## Son toplantı

Öyrədən bayram musiqisinin sədaları altında dərsdə nə etdiklərini və hər uşağın nə ilə fərqləndiyini qeyd edir. Uşaqlar da günün nə ilə yadda qaldığı ilə bölüşürlər.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! Gəlin bu gün Şaxtababa kimi salamlaşaq. He, he, hey, (uca, qalın səslə), salam, Aydan!”. Uşaqlar bir-birini eyni qayda ilə salamlayırlar.

***Təqvimlə iş***

Aylar, hava şəraiti mövzularının təkrarı.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, evinizdə bayramlara hazırlıq necə gedir? Yeni il ağacı qurmusunuz? Bəs evinizdə Azərbaycan bayrağı var?”

***Barmaq oyunu: Gülzar İbrahimova “Sən necə qaşəngsən, qar!” şeirindən bir bənd***

## Nitqin inkişafı

Yeni il şənliyi üçün şeirlər və mahnılar hazırlanır / təkrar edilir.

## Rəsm: “Qar dənəciyi”

**Məqsəd:** Bəzək düzəltmək və bəzəməklə uşaqlarda estetik zövqü inkişaf etdirmək

Vəsaitlər: Hər uşağa 2x10 ölçüsündə 3 mavi zolaq (Yeni il ağacının ölçüsündən asılı olaraq, zolaqların ölçüsü dəyişə bilər), pambıq, yapışqan, ağ (mavi) nazik ip (sap)

Öyrədən uşaqlara Yeni il ağacı üçün hazır qar dənəciyi oyuncağını göstərir.

**Öyrədən:**

- Uşaqlar, qarşınızdakı zolaqlardan birinin ortasına yapışqan çəkib digərinin üzərinə çarpaz yapışdırırıq. Eyni qayda ilə üçüncü zolağı da onların üzərinə yapışdırırıq. (Öyrədən kiçik yaşlı uşaqlara kömək edir.)
- İndi isə qar dənəciyinin bir üzünün bütün səthinə yapışqan çəkirik və pambıqdan kiçik parçalar götürüb yapışdırırıq.
- Beləliklə, qar dənəciyimiz hazırdır. İndi isə ipdən asqı düzəltmək üçün zolaqlardan birinin ucuna yaxın qayçı ilə xırda deşik açırıq. İpimizi o deşikdən keçiririk. Mən sizə deşik açmağa və ipə düyün vurmağa kömək edəcəyəm.
- Öyrədən dediklərini nümayiş etdirir, ehtiyac yaranarsa, uşaqlara kömək edir.

***Uğur göstəricisi:*** Estetik zövqü var.

## Son toplantı

**Öyrədən:** Uşaqlar, bu gün siz çox çalışdınız! Afərin sizə! Buyurun, oyuncaqlarınızla gözəl Yeni il ağacımızı bəzəyin.

Uşaqlar hazırladıqları oyuncaqları Yeni il ağacından asırlar.

---

# 4-cü gün

## Səhər toplantısı

***Bayram salamlaşması***

Qrupda Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il qeyd olunur.

# Yanvar | 13-ci həftə | Mövzu: “Mən və sağlamlığım”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Mən hər birinizi görməyə çox şadam! Bizimlə yeni və maraqlı fikirlərinizi bölüşə bilərsiniz? Yeni ili necə qarşıladınız?”

***Təqvimlə iş***

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən bir əlindəki beş barmağını, digər əlindəki iki barmağını göstərir.

**Öyrədən:** “Uşaqlar, mənim bir əlim xoşbəxt əldir. Çünki bu əlimdə bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə günləri var. Digər əlimin iki barmağında isə məyus üz çəkmişəm, çünki o barmaqlarımda şənbə və bazar günləri var. Həmin günlərdə mən sizi görə bilmirəm. Ona görə də həmin günlərdəki barmaqlarım qəmgindir”. (Əlavə 1)

Gəlin birlikdə həftənin günlərini sayaq: Bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə və bazar

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

***Mövzuya giriş***

Öyrədən sinifdə ucadan asqırır və uşaqların üzünə baxır. “Uşaqlar, yanınızda kimsə asqıranda nə deyirlər? Bəli, “Sağlam ol!”. Asqıranda əlimiz ilə ağzımızı örtməliyik. Belə ki, biz xəstə ola bilərik və bu xəstəliyi digərlərinə də yaya bilərik”.

“Biz bu gün sağlamlığımız haqqında danışacağıq”.

### Ətraf aləmlə tanışlıq: “Sağlam olmaq nə deməkdir?”

**Məqsəd:** Uşaqlara sağlam olmaq üçün lazım olan şərtlər (sağlamlığı möhkəmləndirmək, idmanla məşğul olmaq, açıq havada çox vaxt keçirmək, düzgün qidalanmaq, təmiz olmaq) haqqında anlayış vermək

***Hissə 1. Müzakirə***

Öyrədən uşaqlara bir neçə rəsm göstərir. Rəsmlərdə xəstə və sağlam uşaqlar təsvir olunub. (Əlavə 2)

**Öyrədən:**

- Rəsmdəki uşaqları kim təsvir edə bilər?
- Rəsmdəki uşaqlar nə ilə fərqlənirlər?
- “Xəstə olmaq” nə deməkdir? (Xəstə olanda başımız, boğazımız, qarnımız ağrayır, hərarətimiz qalxır, öskürürük.)
- Biz nəinki sağlamlığımızı qoruya, həm də onu möhkəmləndirə bilərik.
- Xəstəliklərdən qorunmaq üçün tez-tez əlləri yumaq, yuyulmamış meyvə-tərəvəz yeməmək, açıq havada gəzmək, otağın havasını tez-tez dəyişmək, düzgün qidalanmaq lazımdır.

***Hissə 2. Müşahidə: Çirkli və təmiz əllər***

Uşaqlara iki ədəd soyulmuş kartof təqdim edilir. Dairədə oturan uşaqlardan xahiş edir ki, kartoflardan birini əldən-ələ gəzdirsinlər. Sonra kartoflar iki eyni ölçülü şüşə qablara (bankaya) yerləşdirilir.

**Öyrədən:** “Uşaqlar, biz indi təmiz və çirkli əllərin fərqini görmək üçün bu şüşə qablara su tökəcəyik. Öyrədən qablara su əlavə edir. Uşaqların əl vurduqları kartofun olduğu qabın suyu bulanıq və çirkli olur. Digər qab isə təmiz, şəffaf olur.

**Öyrədən:** “Uşaqlar, baxın, çirkli əllərimiz ilə toxunduğumuz hər bir şey belə çirklənir. Odur ki, əllərimizi təmiz saxlamalıyıq”.

### *Hissə 3. Müzakirə*

Öyrədən uşaqlara iki şəkil (birinci rəsmdə idmançı, ikincidə isə idman ilə məşğul olmayan insan təsvir olunub) göstərir. (Əlavə 3)

“Uşaqlar, sağlam olmaq üçün idman ilə məşğul olmaq lazımdır.

- İdman nədir? (Uşaqların cavabları).
- Bəs idmanla kimlər məşğul olurlar? (Uşaqların cavabları).
    - Doğrudur, idmançılar.
- İdmanla niyə məşğul olmaq lazımdır? (Güclü, sağlam, çevik, dözümlü olmaq üçün)
- Bəli, idmanla məşğul olmaq, səhər idmanını etmək, bədəni möhkəmləndirmək lazımdır.
- Bəs “sağlamlığı möhkəmləndirmək” nə deməkdir? (İdmanla məşğul olmaq, düzgün qidalanmaq, çoxlu hərəkət etmək, gündəlik rejimə riayət etmək, vitamin ilə bol qidalar qəbul etmək)

Öyrədən uşaqları idman yarışları barədə videoya baxmağa dəvət edir.

- Hansı idman növlərini tanıyırsınız?
- Valideynlərinizdən maraqlanın görün onlar idmanla məşğul olublarmı? Olublarsa, hansı növü ilə?

**Qeyd:** Valideynlərdən idman ilə məşğul olan varsa, həmin dərsə dəvət oluna bilər.

***Uğur göstəricisi:*** Uşaqların sağlam olması üçün lazım olan şərtlər (sağlamlığı möhkəmləndirmək, idmanla məşğul olmaq, açıq havada çox vaxt keçirmək, düzgün qidalanmaq) haqqında anlayışı var.

## Hərəkətli oyun: “Topu ötür”

**Məqsəd:** Komandada oynamaq bacarığını aşılamaq

Vəsait: İki top, yaxud digər eyni oyuncaqlar

Uşaqlar iki komandaya bölünür və iki sıraya düzülürlər (uşaqlar bir-birinin arxasında durmalıdırlar). Birinci dayanan uşağa top verilir və o, əllərini yuxarı qaldıraraq başı üstündən topu geriyə ötürür. Beləliklə, uşaqlar topu bir-birilərinə başları üzərindən ötürərərək sırada duran son yoldaşlarına çatdırırlar. Sonuncu uşaq isə topu yenə də başının üzərindın (ayaqların arasından da ola bilər) irəliyə ötürür. Topu bu məsafəni ən tez qət etmiş komanda qalib gəlir.

***Uğur göstəricisi:*** Komandada oynamağı bacarır.

## Yapma: “İnsan”

**Məqsəd:** Müxtəlif bədən hisslərini yapmağı və onları birləşdirməyi öyrətməklə kiçik motorikanın inkişafını təmin etmək

İlk öncə uşaqlar insan fiquruna, yaxud şəklinə baxırlar. Müəyyən hərəkətlər yerinə yetirilərkən bədən üzvlərinin vəziyyətini nəzərdən keçirirlər. Həmçinin uşaqlara düzəltmək istədikləri bədən pozasında durmaq təklif olunur. Bu zaman onlar əsas məqamları – ətrafların bükülməsini, bədən, yaxud başın əyilmə istiqamətini yadda saxlayırlar.

**İş ardıcıllığı:**

- Gövdə yumru, yaxud armud formasında düzəldilir.
- Baş yumru formada düzəldilir.
- Ayaqlar və qollar üçün plastilinə uzunsov forma verilir. Qolların ucu yastılanıb əl düzəldilir. Ayaqlar üçün ayrıca yumru formalar düzəldilir – bunlar pəncə, yaxud ayaqqabılar olacaq.
- Bütün hissələr müvafiq qaydada gövdəyə birləşdirilir.

***Uğur göstəricisi:*** Müxtəlif bədən hisslərini yapmağı və kiçik motorikanın köməyi ilə onları birləşdirməyi bacarır.

## Sərbəst fəaliyyət: Sərbəst rəsm

## Son toplantı

**Öyrədən:** “Siz bu gün çox yaxşı çalışmısınız. Üzünüzdə təbəssüm görürəm, bu, çox yaxşıdır. Çünki xoş əhval bizim sağlamlığımıza kömək edir. Ona görə gəlin tez-tez bir-birimizə gülümsəyək.

Hamınız sağlam böyüyün!”

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

“Zəncir”: Uşaqlar dairədə dizi üstündə otururlar. Salamlaşarkən onlar bir-birilərinin əllərindən tuturlar və salamlaşma bitənə qədər buraxmırlar. Dairə bağlanır. Uşaqlar bir-birilərinin əllərindən möhkəm tutaraq ayağa qalxırlar (zənciri qırmamaq şərti ilə) və hər kəs uca səs ilə “Sabahınız xeyir, dostlar” ifadəsini səsləndirirlər.

### *Təqvimlə iş*

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən əllərini kağız üzərinə yerləşdirir. Əl formasını uşaqlara nümayiş edərək kəsir. Hər bir barmağı həftənin gününə əsasən adlandırır. Məsələn: Xoşbəxt əl, baş barmaq – bazar ertəsi, şəhadət barmağı – çərşənbə axşamı. Öyrədən həftənin günlərini sıra ilə dedikcə əlini barmaqların üzərində gəzdirir. Lakin Öyrədən ancaq sol əlin formasını çıxarır və yalnız həftənin iş günlərini qeyd edir.

**Qeyd:** Əl formasında kəsilən kağız “Salamlaşma” guşəsindən asılır.

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

### *Mövzuya giriş*

Öyrədən qrupdan iki uşaq seçir. Onlardan qrupda öncədən təyin edilən nöqtədə durmalarını xahiş edir. Sonra bir-bir qarşıya doğru tullanmalarını rica edir. Hər bir uşağın tullanmadan öncəki yeri ilə tullandıqdan sonra endiyi məsafə lent ilə qeyd edilir.

Qeyd: Oyun qrupda oynanılarsa, məsafə kağız və ya parça lent ilə qeyd edilməlidir (ölçülməlidir). Oyun həyətdə oynanılarsa, məsafə təbaşir ilə çəkilərək göstərilə bilər.

## Riyaziyyat: Uzun, qısa

**Məqsəd:** Uşaqlara iki əşyanı uzunluğuna görə müqayisə etməyi öyrətmək

### *Hissə 1. Əqli hücum*

**Öyrədən:** “Uşaqlar, bir az əvvəl Həsən və Ləman tullandı və biz onların tullandıqları məsafəni qeyd etdik. Sizcə, kim daha uzağa tullandı? Gəlin addımlarımız ilə ölçək, bəxaq görək hansı uşağın tullandığı məsafəyə daha çox addım yerləşdirə bilərik.

Təcrübə etdikdən sonra uzun və qısa məsafə müəyyən edilir. “Uzun” və “qısa” anlayışları uşaqlara izah edilir.

**Qeyd:** Əgər məsafə lent ilə ölçülübsə, o zaman lentlər uzlaşdırılır və fərqləri müəyyən edilir.

### *Hissə 2. Praktik tapşırıq*

**Vəsaitlər:** Müxtəlif uzunluqda sarı rəngli kağız zolaqlar (uzunluq fərqi – 5 sm), biri qısa, biri uzun olmaqla, müxtəlif rəngli iki lent

Öyrədən 2 müxtəlif uzunluqda olan sarı zolaq (bir zolaq o birisindən 10 sm uzundur) götürür və soruşur:

**Öyrədən:**

- “Zolaqlar nə rəngdədir?”
- İndi biz zolaqları uzunluğuna görə müqayisə edəcəyik. Hansı zolaq uzundur? Necə bilək?”

Baxın mən bir zolağı digərinin üzərinə qoyuram, uclarını bərabərləşdirirəm. Görürsünüz, zolağın sağ ucu kənara çıxır, deməli, o, digərindən uzundur".

Öyrədən izah edərkən barmağını hər iki zolaq boyunca gəzdirir.

**Öyrədən:**

"Uşaqlar, baxın, bizə iki ayı qonaq gəlib. Sizcə, onlardan hansı böyükdür? Bəs hansı kiçikdir?

Bizim iki ədəd lentimiz də var.

- Lentlər nə rəngdədir?
- Gəlin lentlərin uzunluğunu müqayisə edək. Necə bilək ki, hansı lent uzundur, hansı qısadır?
- Lalə, yaxınlaş və bir lenti o birinin üzərinə qoy. Uclarını bərabərləşdir. Bax belə.
- Hansı rəngdə lent uzundur? Doğrudur, göy lent uzundur, onun ucu çıxır.
- Bəs hansı lent qısadır? Doğrudur, qırmızı lent qısadır.
- Elşən, hansı lent uzundur? Bizə göstər və barmağını onun üzərində gəzdir.
- Fidan, hansı lent qısadır? Bizə göstər və barmağını onun üzərində gəzdir.
- Balaca ayıya hansı lenti hədiyyə edək? Niyə?
- Bəs böyük ayıya hansı lenti hədiyyə edək? Niyə?

***Hissə 3. Təcrübə***

Ölçü vasitələri. Bədən üvlərimiz (əl, barmaqlar, addım, ayaq izimiz, qarış).

**Öyrədən:** "Uşaqlar, indi hər biriniz sinfimizdə qarşınıza çıxan hər hansı iki əşya gətirməlisiniz".

Uşaqlar sinfi gəzərk iki əşya seçirlər və dairədə otururlar.

Öyrədən döşəməyə böyük ölçülü kağız yerləşdirir (qəzet, köhnə mələfə, rəngli və ya aleksandrit kağız). Uşaqlardan xahiş edir ki, bir-bir Öyrədənə yaxınlaşıb seçdikləri əşyaları kağızın üzərinə qoysunlar və orada onların uzunluğunu qeyd etsinlər.

Suallar:

- "Hansı əşya uzundur?
- Hansı əşya qısadır?
- Hər kəs qalxsın və özünün uzun əşyasını dairənin mərkəzinə qoysun.
- Gəlin dairənin mərkəzində olan əşyaları yan-yana düzək və baxaq sinifdə ən uzun əşya hansıdır.
- Hər kəs qalxsın və özüzün qısa əşyasını dairəyə qoysun, uzun əşyasını isə seçib götürsün.
- Gəlin dairənin mərkəzində olan əşyaları yan-yana düzək və baxaq, seçdiklərinizin içərisində ən qısa əşya hansıdır?"

***Uğur göstəricisi:*** İki əşyanı uzunluğuna görə müqayisə etməyi bacarır.

## Fiziki hərəkətlər

**Məqsəd:** Siqnal əsasında hərəkət etmək bacarığını, çeviklik və koordinasiyanı inkişaf etdirmək

***Hissə 1. "Sənin kubikin"***

Uşaqların sayına uyğun kubiklər dairəyə düzülür. Uşaqlar bu dairə ətrafında fırlanırlar. Öyrədənin "Kubik!" siqnalı əsasında uşaqlar dayanır və cəld hər kəs bir kubik götürürlər. "Dairə!"göstərişi ilə uşaqlar kubikləri yerinə qoyur və hərəkətə davam edirlər. Hərəkət bir neçə dəfə təkrar olunur.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər.*

1. Ayaq üstə əlləri yuxarı qaldırıb dartınmaq. Sallağı oturmaq, əlləri dizlər üstünə qoymaq. (5 dəfə)

2. Ayaqlar aralı, əllər arxada yerə oturmaq. Ayaqları növbə ilə qaldırmaq və aşağı salmaq. (hər ayaqla 3 dəfə)

3. Qarın üstündə uzanmaq, əllər qabağa uzadılıb. Əlləri və ayaqları qaldıraraq dartınmaq. (5 dəfə)

4. Əllər beldə ayaq üstündə dayanmaq. Hər istiqamətdə beldən əyilib qalxmaq. (hər istiqamətdə 3 dəfə)

### *Hissə 3. Əsas hərəkət növləri*

- Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və topu bu kubiklər arasından, onlara toxunmamaq şərti ilə keçirməyə çalışır.
- "Dəcəl böcəklər": Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və iməkləyərək kubiklərin arasından keçir. Məsafə qət edildikdən sonra ayağa qalxıb başın üstündə əl çalmaq lazımdır.

***Uğur göstəricisi:*** Siqnal əsasında hərəkət etməyi bacarır, çeviklik və koordinasiya inkişaf edib.

## Hərəkətli oyun: "Pəhləvanlar"

**Məqsəd:** Çevikliyi inkişaf etdirmək, qol əzələlərinin məşqini öyrətmək

Uşaqlar eyni gücə malik cütlüklərə bölünürlər. Döşəmədə üzbəüz oturub ayaqlarını aralı qoyurlar. Pəncələrini bir-birilərinə dirəyirlər. Bir-birilərinin əllərindən tuturlar. Öyrədənin "Dart!" çağırışından sonra hər uşaq qarşısındakı yoldaşını öz tərəfinə dartmağa çalışır. Sonra qaliblər də bir-biri ilə mübarizə apara bilərlər.

***Uğur göstəricisi:*** Çevikdir, qol gücündən istifadə edə bilir.

## Sərbəst fəaliyyət: Öyrədənin təlimatı əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bu gün hamınıza afərin! Bəs bu gün kim daha diqqətli idi? İndi yoxlayarıq. Biz bu gün məşğələdə nə ilə tanış olduq?"

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Uşaqlar, gəlin birlikdə bir-birimizi salamlayaq. Sabahın xeyir, Ayan! Sabahın xeyir, Fərhad!

Öyrədən davamiyyət qutusundan bir-bir uşaqların adlarını çıxarır, davamiyyət lövhəsinə asır. Sonra Öyrədən qutuda şəkilləri qalan uşaqların adlarını çəkir və soruşur:

- Bu gün kim gəlməyib? (Fidan)
- Kim bilir, Fidan niyə gəlməyib?
- Mən sizə xoş əhval arzu edirəm!

***Təqvimlə iş***

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən öncəki gün kəsdiyi əl izini və üzərindəki həftənin günlərini uşaqlara bir daha nümayiş etdirir.

Dünəndən fərqli olaraq, bu gün sağ əlin izini çıxarır, şəhadət barmaq və orta barmağı çıxmaqla, bütün barmaqları bağlayır.

Bu iki barmağı həftənin şənbə və bazar günü olaraq adlandırır. Uşaqlar əl izlərində olduğu kimi (bir əldə beş barmaq və digər əldə iki barmaq) barmaqlarının vasitəsi ilə həftənin günlərini qeyd edirlər.

**Qeyd:** Əl formasında kəsilən kağız "Salamlaşma" guşəsindən asılır.

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

***Mövzuya giriş***

***Şeir: Nəbi Xəzri "Nənəm nağıl danışır"***

"Bax, ulduzlar göz vurur,

Ay başım üstə durur.

Onlar da sanki duyur,

Nənəm nağıl danışır".

**Öyrədən:**

"Uşaqlar, kim nənəsi ilə yaşayır? Kimin nənəsi hər gecə ona nağıl danışır? Mən də bu gün sizə nağıl danışmaq istəyirəm. Hazırsınızsa, keçək "Nağıl" guşəsinə".

## Nitqin inkişafı: Azərbaycan xalq nağılı "Cırtdan"

**Məqsəd:** Uşaqlara nağılı diqqətlə dinləməyi, məzmun üzrə suallara cavab verməyi, qəhrəmanların hərəkətlərini qiymətləndirməyi öyrətmək

***Hissə 1. Nağılın saatı***

Nağıl oxunur, məzmun kitabdakı şəkillərlə uzlaşdırılır.

Suallar:

- Bu nağılın qəhrəmanı kimdir?
- Cırtdan kimdir?
- Uşaqlar divə necə qalib gəldilər?

- Sizcə, uşaqlar sağlam idi, yoxsa xəstə?
- Div niyə güclü idi. Div sağlam idi?

### *Hissə 2. Dərsin yekunu*

- 1, 2,3, (barmaqlarla 1, 2, 3-ü göstərərək) əl çal hekayə üçün, (3  dəfə əl çalırlar)
- 1, 2,3, (barmaqlarla 1, 2, 3-ü göstərərək) əl çal dinləyən üçün, (3  dəfə əl çalırlar)
- 1, 2,3, (barmaqlarla 1, 2, 3-ü göstərərək) əl çal danışan üçün, (3  dəfə əl çalırlar)

***Uğur göstəricisi:*** Uşaqlar nağılı diqqətlə dinləməyi, məzmun üzrə suallara cavab verməyi, qəhrəmanların hərəkətlərini qiymətləndirməyi bilir.

## Hərəkətli oyun: "Pəhləvanlar"

**Məqsəd:** Çevikliyi inkişaf etdirmək, qol gücünün məşqini təmin etmək

Uşaqlar eyni gücə malik cütlüklərə bölünürlər. Döşəmədə üzbəüz oturub ayaqlarını aralı qoyurlar. Pəncələrini bir-birilərinə dirəyirlər. Bir-birilərinin əllərindən tuturlar. Öyrədənin "Dart!" çağırışından sonra hər uşaq qarşısındakı yoldaşını öz tərəfinə dartmağa çalışır. Sonra qaliblər də bir-biri ilə mübarizə apara bilərlər.

***Uğur göstəricisi:*** Çevikdir, qol gücündən istifadə edə bilir.

## Rəsm: "Qızıl medal"

**Məqsəd:** İdmanda qaliblərin qızıl medalla qiymətləndirilməsi haqqında məlumat vermək, biləyin dairəvi hərəkəti ilə dairəni rəngləməyi məşq etmək

**Öyrədən:**

- "Uşaqlar, hansı idman yarışları haqqında məlumatınız var? (Uşaqların cavabı)
- Sizcə, bu yarışlar niyə keçirilir? (Uşaqların cavabı)

Doğrudur, bu yarışlar idmançıların mübarizə aparması, kimin ən cəld, ən çevik, ən dözümlü olmasını üzə çıxarmaq üçündür. Bu yarışlar həm də idmançılar və azərkeşlər üçün bir bayrama çevrilir. Bəs idmançılardan kimin ən yaxşı olduğunu hansı medal göstərir? (Qızıl)

Gəlin biz həmin qızıl medalı düzəldək.

- Bəs medal nə formada olur? (Dairəvi)
- Nə rəngdə olur? (Qızılı, sarı)

Gəlin havada medal çəkək (uşaqlar Öyrədən ilə birlikdə barmaqları ilə havada medal çəkirlər). Uşaqlar, gəlin qızıl havada çəkdiyimiz dairəni vərəqdə də çəkək. Medalı biz sarı rənglə çəkməliyik. Baxın görün mən medalı necə çəkirəm - fırçam ilə sarı boyanı götürürəm və dairəvi hərəkətlərlə dairənin ortasını rəngləyirəm. İndi isə siz qızıl medallarınızı çəkin".

Boya quruyanda uşaqlar medalları vərəqdən kəsir və Öyrədən hər birindən ip salmaq üçün kiçik deşik açır. Uşaqlar istəklərinə uyğun olaraq, medalları bəzəyirlər.

**Qeyd:** Hazır medalları uşaqlar boyunlarından asırlar. Uşaqlar öz əl işlərini evə apara bilərlər.

***Uğur göstəricisi:*** İdmanda qaliblərin qızıl medalla qiymətləndirilməsi haqqında məlumatı var.

## Sərbəst fəaliyyət: Oyun «Ən diqqətli»

Uşaqlar yarımdairə şəklində düzülürlər. Sonra bir aparıcı seçirlər. Aparıcı uşaqların düzülüşünü yadında saxlamalıdır. Aparıcı üzünü çevirir və 2-3 oyunçu yerini dəyişir. Aparıcı yenidən uşaqlara baxanda kimin harada dayandığını göstərməlidir. Aparıcı yerində hər bir oyunçu olmalıdır. Səhv etməyən hər kəs qalib hesab olunur.

## Son toplantı

**Öyrədən:**

- "Biz bu gün məşğələdə nədən bəhs etdik?
- Uşaqlar, məşğələmiz kimə maraqlı gəldi?
- Kim çoxlu yeni biliklər qazandısa, üç dəfə əl çalsın".

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir! Dostlar, sizin ürəyiniz var? Bəs o harada yerləşir? Əlinizi ürəyinizin üstünə qoyun, nə hiss edirsiniz? Bəli, döyünən sizin ürəyinizdir. Gəlin günümüzə bir oyunla başlayaq".

Uşaqlar iki sıra olmaqla qarşı-qarşıya düzülür.

***Təqvimlə iş***

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən bir əlində beş barmaq, digər əlində iki barmaq nümayiş etdirir. Əllərini arxada gizlədir.

**Öyrədən:** " Uşaqlar, mən hansı barmağı göstərsəm, siz həftənin hansı günü olduğunu qeyd edəcəksiniz".

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

***Mövzuya giriş***

Öyrədən hər bir uşaq üçün 5x5 sm ölçülü kağızlara "Əlavə 4"-də təsvir edilən rəsmi çəkir və hər bir uşağa birini verir. Uşaqlardan xahiş edir ki, ağızlarını geniş açsınlar və dişlərinə baxsınlar (Qeyd: Öyrədən öncədən valideynlərdən məktəbə balaca güzgü göndərmələrini xahiş edir). Orada qaraltı və çürük dişlər görərlərsə, bu zaman eyni dişi vərəqdə də qeyd etməlidirlər. Daha sonra uşaqlar rəsmləri ilə birlikdə dairədə əyləşib öz çürük dişlərini saymalıdırlar.

**Öyrədən:** "Uşaqlar, bəs necə edə bilərik ki, dişlərimiz sağlam olsun? Biz bu barədə gələn həftə daha ətraflı danışacağıq".

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Yeriş və qaçış ilə digər fiziki hərəkətləri (topu atmaq, iki ayaq üzərində tullanmaqla) növbələməyi məşq etmək

***Hissə 1***

Uşaqlar - qar dənəcikləri çevrədə dururlar. Öyrədənin "Külək əsdi!" (qavalı sakitcə səsləndirir) siqnalı ilə qar dənəcikləri yavaş-yavaş barmaqları üzərində əllərini yanlara açaraq dairə üzrə hərəkət edirlər. Getdikcə hərərkət sürətlənir (qavalın səsi artır), sonda uşaqlar qaçmağa başlayırlar. Öyrədən qavala vurub deyir: "Külək istiqamətini dəyişdi, qar dənəcikləri əks tərəfə uçdu!" (uşaqlar əks tərəfə qaçırlar). "Külək tam kəsildi, qar dənəcikləri sakitcə yerə düşür"- uşaqlar dayanırlar, əllərini yanlarına salırlar və otururlar.

***Hissə 2. Top ilə inkişafetdirici məşqlər***

- Ayaqlar bir pəncə enində aralı, top aşağıdadır. Qollar düz vəziyyətdə top irəli qaldırılır; top yuxarı qaldırılır; top irəli endirilir, ilkin vəziyyət alınır (4 dəfə).
- Oturmuş halda ayaqlar aralı, toplar əldə, qollar dirsəkdən qatlanıb. Top yuxarı qaldırılır, bədən irəli əyilir, top yerə toxundurulur, top yuxarı qaldırılır, ilkin vəzyyət alınır (4-5 dəfə).
- Hamı dizlər bükülü vəziyyətdə oturub, top yerdədir. Uşaq topu sağa və sola ötürməklə öz ətrafında fırladır. Əllər növbələnir (hər tərəfə 3 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

Tullanmaq. Oyun üzərində məşq: "Hop-hop qurbağalar". Otağın bir tərəfində yerə kəndir qoyulur - bu bataqlıqdır. Uşaqlar - "hop-hop qurbağalar" otağın digər tərəfində bir xətt üzrə dururlar. Öyrədən metallafonda çalır və bu ritmə uyğun olaraq, uşaqlar iki ayaq üzərində "bataqlıq" istiqamətində tullanırlar (təxminən 16 dəfə). Kəndirə çatanda "Şap!" deyib üzərindən tullanırlar. Əgər qrup böyükdürsə, uşaqlar iki xətt üzrə düzülürlər. Xəsarətlərdən qaçmaq üçün sıralar arasındakı məsafə 1,5-2 metr olmalıdır. İkinci sıranın uşaqları Öyrədənin işarəsi ilə oyuna bir az gec başlayırlar.

***Uğur göstəricisi:*** Yeriş və qaçış ilə digər fiziki hərəkətləri (topu atmaq, iki ayaq üzərində tullanmaqla) növbələməyi bacarır.

## Hərəkətli oyun: "Topu ötür"

**Məqsəd:** Komandada oynamaq bacarığını aşılamaq

**Vəsaitlər:** İki top, yaxud digər eyni oyuncaq

Uşaqlar iki komandaya bölünür və iki sıraya düzülür (uşaqlar bir-birinin arxasında durmalıdır). Birinci dayanan uşağa top verilir və o, əllərini yuxarı qaldıraraq başı üstündən topu geriyə ötürür. Beləliklə, uşaqlar topu bir-birilərinin başı üzərindən ötürərək sırada duran son yoldaşlarına çatdırırlar. Sonuncu uşaq isə topu yenə də başının üstündən (ayaqların arasından da ola bilər) irəliyə ötürür. Topu bu məsafəni ən tez qət etmiş komanda qalib gəlir.

***Uğur göstəricisi:*** Komandada oynamağı bacarır.

## Səsli nağıl zamanı

### *Maks idman edir*

**Link:** https://youtu.be/mhLPZfqnoFM

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

**Qeyd 3:** Maksın idman hərəkətlərini təkrarlayın.

### *Uşaqlara suallar*

1. Siz də Maksa idman etmək üçün qoşulardınız?
2. Maksın hərəkətlərini bəyəndiniz?
3. Siz də heyvan dostlarınızla idman etmək istəyirsiniz?
4. Ən güclü heyvan hansı idi?

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, bu gün ən diqqətli kim olub? Elə indicə bunu yoxlayarıq! Bugünkü məşğələmizin mövzusu nə idi? Afərin!"

# 1-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

Uşaqlar dairədə dayanırlar. Öyrədən hər bir uşaqdan dairənin daxilində hərəkət edib torbadan çıxardığı topun üzərindəki say qədər uşağı salamlamağı xahiş edir… “…….” Birinci səndən başlayaq.”

### *Təqvimlə iş*

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən təqvim üzərində həftənin günlərini göstərir. Uşaqlar həftənin günlərini aylıq təqvimdə sıra ilə sayırlar. **Öyrədən:** “Uşaqlar, bu gün çərşənbə axşamıdırsa, sabah həftənin hansı günü olacaq?”

**Qeyd:** Öyrədən həftənin günlərini lövhədən sıra ilə asmalıdır ki, uşaqlar günlərin sırasını görə bilsinlər.

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

### *Mövzuya giriş*

**Öyrədən:** “Uşaqlar, gəlin keçən həftə divardan asdığımız “Sağlam dişlər” əl işimizi götürək və yenə onlara baxaq.

- Kimin çürük dişi yoxdur?
- Kimin çürük dişi çoxdur?
- Bəs biz necə edək ki, dişlərimiz sağlam olsun?
- Hazırsınızsa, çox maraqlı bir tapşırığa başlayaq”.

## Ətraf aləmlə tanışlıq: “Sağlam və qeyri-sağlam qida”

**Məqsəd:** Uşaqlara sağlam olmaq üçün lazım olan şərtlər yəni sağlam qidalanmaq haqqında anlayış vermək

### Hissə 1. Müzakirə

Öyrədən sağlam və qeyri sağlam qida haqqında video nümayiş etdirir. Öyrədən süd məhsullarının bədənimizə faydaları, şirniyyatın zərərli olması barədə məlumat verir.

### Hissə 2. Praktik hissə

### *Tapşırıq: Düzgün qidanı seç!*

“Əlavə 5”-də verilən boşqablar (biri sağlam qida üçün, digəri qeyri-sağlam qida üçün) və qida növləri kəsilir, hazırlanır (Öyrədən bu şəkilləri dərsdən öncə hazırlamalıdır). Boşqab ağ lövhəyə yapışdırılır. Ətrafına “Əlavə-5” də verilən qida növləri yapışdırılır. Müzakirə əsasında hər bir qida məhsulu analiz edilir və yalnız sağlam qida olduğu təqdirdə boşqaba yerləşdirilir.

### *Hissə 3. Hekayə saatı:* *Erik Karl “Ac baramaqurdu”*

Hekayəni “Əlavə 6”-dakı rəsmlər əsasında uşaqlara Öyrədən danışır.

Hekayənin qısa icmalı:

Baramaqurdu yumurtadan çıxır, həftənin hər günü müxtəlif sayda, müxtəlif qidalar yeyir. Bazar ertəsi 1 ədəd alma, çərşənbə axşamı iki ədəd armud, çərşənbə üç ədəd gavalı, cümə axşamı dörd ədəd çiyələk, cümə günü mandarin, şənbə  bir parça şokolad yeyir, bazar günü isə 1 ədəd lollipop, kolbasa, 1 ədəd keks və başqa qidalar yeyir, qarın ağrısına düşür.

**Öyrədən:**

- “Uşaqlar, hekayə xoşunuza gəldi?
- O, həftənin hansı günü armudları yedi? (Rəsm əsasında Öyrədən uşaqlara sualı cavablandırmağa kömək edir).
- O, həftənin hansı günü alma yedi? (Rəsm əsasında Öyrədən uşaqlara sualı cavablandırmağa kömək edir).

**Qeyd:** Bu tapşırıq əsasında Öyrədən həftənin günləri və sağlam qida mövzuları arasında inteqrasiya qurmalıdır.

***Uğur göstəricisi:*** uşaqlara sağlam olmaq üçün lazım olan şərtlər sağlam qidalanmaq haqqında anlayış var.

## Hərəkətli oyun: “Topu ötür”

**Məqsəd:** Komandada oynamaq bacarığını aşılamaq

**Vəsaitlər:** İki top, yaxud digər eyni oyuncaq

Uşaqlar iki komandaya bölünür və iki sıraya düzülür (uşaqlar bir-birinin arxasında durmalıdır). Birinci dayanan uşağa top verilir və o əllərini yuxarı qaldıraraq başı üstündən topu geriyə ötürür. Beləliklə, uşaqlar topu bir-birilərnə başları üzərindən ötürərərək sırada duran son yoldaşlarına çatdırırlar. Sonuncu uşaq isə topu yenə də başı üzərindən (ayaqların arasından da ola bilər) irəliyə ötürür. Topu bu məsafəni ən tez qət etmiş komanda qalib gəlir.

***Uğur göstəricisi:*** Komandada oynamağı bacarır.

## Yapma: “Mən nə yeyirəm?”




**Vəsait:** Öyrədən ağ vərəq üzərinə piramida rəsmini çəkir. Piramida 3 hissəyə bölünür.

Hissə 1: Ən yuxarı hissə - Mən axşam nə yeməyi sevirəm.

Hissə 2: Orta hissə - Mən günorta nə yeməyi sevirəm.

Hissə 3: Piramidanın aşağı hissəsi- Mən səhər nə yeməyi sevirəm.

**Qeyd:** Bu tapşırıq əsasında uşaqlar günün hissələrini təkrar edəcəklər.

## Sərbəst fəaliyyət: Oyun

## Son toplantı

**Öyrədən:** “Siz bu gün çox yaxşı çalışmısınız. Üzünüzdə təbəssüm görürəm, bu çox yaxşıdır. Çünki xoş əhval bizim sağlamlığımıza kömək edir. Ona görə də gəlin tez-tez bir-birimizə gülümsəyək.

Hamınız sağlam böyüyün!”

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Sabahınız xeyir, dostlar! Gəlin bir oyun oynayaq. Dairə yaradaq, özümüzə yoldaş tapaq və onun əlini tutaq. İndi isə mənim göstərişimə uyğun olaraq, bədəninizin müəyyən hissələri ilə "salamlaşırsınız": Sağ əl-sağ ələ! Kürək-kürəyə! Diz-dizə! Çeçələ barmaq-çeçələ barmağa! Daban-dabana! Dirsək-dirsəyə! Bir-birinizin əlini sıxın. Afərin! Təşəkkür edirəm."

### *Təqvimlə iş*

**Məqsəd:** Həftənin günlərini öyrətmək

Öyrədən təqvim üzərində həftənin günlərini göstərir. Uşaqlar sıra ilə həftənin günlərini aylıq təqvimdə sıra ilə sayırlar.

**Öyrədən:** "Uşaqlar bu gün Çərşənbə axşamıdırsa, dünən, yəni bir öncəki gün həftənin hansı günü olacaq?"

**Qeyd:** Öyrədən həftənin gülərini lövhədən sır ilə asmalıdır ki, uşaqlar günlərin sırasını görə bilsinlər.

***Uğur göstəricisi:*** Həftənin günlərini bilir.

### *Mövzuya giriş*

Öyrədən sinifdən iki uşaq seçir. Hər iki uşaqdan addım atmağını rica edir. Hər iki uşağın ayağını bir-birindən mümkün qədər uzaqlaşdırmağını rica edir.

**Öyrədən:** "Uşaqlar, kimin addımı daha enlidir, kimin addımı ensizdir.

Biz bu gün enli-ensiz mövzusunu müzakirə edəcəyik."

## Riyaziyyat: Enli/ensiz

**Məqsəd:** Əşyaları eninə görə müqayisə etməyi, enli-ensiz sözlərini düzgün istifadə etməyi öyrətmək

### *Hissə 1. Müzakirə*

Vəsaitlər: Rəngi və uzunluğu eyni, lakin eni fərqli olan 2 kağız zolaq; hər uşağa rəngi və uzunluğu eyni, enində 5 sm fərq olan 2 zolaq (32x3 sm, 32x8 sm).

**Öyrədən:**

- "Uşaqlar, əlimdəki zolaqlar nə rəngdədir?
- Uşaqlar, bəs zolaqlarımızdan birində artıq qalan bu hissə bilirsiniz nəyi göstərir? Bu o deməkdir ki, bir zolaq digərindən daha enlidir; yəni artıq qalan hissəsini gördüyümüz zolaq enlidir, artığı olmayan zolaq isə enli zolağımıza nisbətən ensizdir".

Öyrədən hər uşağa iki zolaq verir və eyni qayda ilə onları müqayisə etməyə köməklik göstərir.

### *Hissə 2. Praktik hissə*

Oyun: Enli/ensiz.

Öyrədən uşaqlara otaqda olan enli və ensiz əşyalar tapıb tədqiq etməyə qısa vaxt verir. Bundan sonra uşaqların adı növbə ilə çəkilir və onlar otaqda olan bir enli, bir ensiz əşya adı deyirlər.

***Uğur göstəricisi:*** Əşyaları eninə görə müqayisə etməyi, "enli", "ensiz" sözlərini düzgün istifadə etməyi bacarır.

## Fiziki hərəkətlə

**Məqsəd:** Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enmək bacarığını inkişaf etdirmək.

### *Hissə 1. Oyun tapşırığı "Şən siçanlar"*

Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədənin "Siçanlar!" siqnalı ilə uşaqlar əlləri bellərində barmaq uclarında qısa addımlarla yeriyirlər. "Pişiklər" siqnalı ilə uşaqlar qaçmağa başlayırlar. Hərəkətlər növbələnərək bir neçə dəfə təkrar edilir.

### *Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətləri*

- Ayaqlar bir pəncə enində aralı, qollar yanda, lentlər əllərdə. Lentləri yuxarı qaldırmaq, yelləmək. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Oturmaq, lentləri yerə sallamaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
- Ayaqlar çiyin bərabərində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Sağa sola dönmək, sol (sağ) əli sağa (sola) aparmaq. Dikəlmək, əvvəlki vəziyyətə qayıtmaq. (hər tərəfə 3 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər aşağı salladılıb. Lentləri yanlara qaldırıb yelləmək. aşağı salırıq. İlkin vəziyyətə qayıtmaq. (5 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

***"Meşə yolu ilə"***

Yerə bir-birinə paralel iki sıra döşəkcə -"meşə yolu" düzülür. Yollar arasındakı məsafə 2-3 metr olmalıdır. Uşaqlar yavaş-yavaş, qolları ilə tarazlığı saxlayaraq bir yol ilə gedib, digər yol ilə qayıdırlar.

***"Uzunqulaq dovşanlar"***

Uşaqlar-dovşanlar- bir cərgəyə düzülürlər. Öyrədən dovşanlara meşənin kənarına qədər (sinfin digər tərəfinə) tullanmağı təklif edir. Öyrədənin siqnalı ilə uşaqlar iki ayaq ustündə tullanaraq 3-4 metr məsafə qət edirlər. Uşaqlar geri yavaş adımla qayıdırlar.

***Uğur göstəricisi:*** Uşaq tarazlığı saxlayır və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enir.

## Hərəkətli oyun: "Pəhləvanlar"

**Məqsəd:** Çevikliyin inkişafı, qol gücünün məşqi

Uşaqlar eyni gücə malik cütlüklərə bölünürlər. Döşəmədə üzbəüz oturub ayaqlarını aralı qoyurlar. Pəncələrini bir-birilərinə dirəyirlər. Bir-birinin əlindən tuturlar. Öyrədənin "Dart!" çağırışından sonra hər uşaq qarşısındakı yoldaşını öz tərəfinə dartmağa çalışır. Sonra qaliblər də bir-biri ilə mübarizə apara bilərlər.

***Uğur göstəricisi:*** Çevikdir, qol gücündən istifadə edə bilir.

## Sərbəst fəliyyət: Sərbəst rəsm

## Son toplantısı

Öyrədən sakit musiqi sədaları altında dərsdə nə etdiklərini və hər uşağın nə ilə fərqləndiyini qeyd edir. Uşaqlar da günün nə ilə yadda qaldığı ilə bağlı fikirlərini bölüşürlər.

# 3-cü gün

## Səhər toplantısı:

### *Salamlaşma*

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Gəlin bu gün bir-birimizi sevdiyimiz qidalarla tanıyaq. Bunun üçün bir oyun oynayaq"

**"Sehrli çubuq" oyunu**: Uşaqlar növbə ilə çubuğu bir-birilərinə ötürərək xoşladıqları qida növlərini qeyd edirlər."

### *Təqvimlə iş*

**Məqsəd:** Həftənin günlərini öyrətmək.

Öyrədən təqvim üzərində həftənin günlərini göstərir. Uşaqlar sıra ilə həftənin günlərini aylıq təqvimdə sıra ilə sayırlar. **Öyrədən:** "Uşaqlar bu gün cümə axşamıdırsa, dünən və sabah həftənin hansı günü olacaq?"

***Uğur göstəricisi:*** Həftənin günlərini öyrətmək

### *Mövzuya giriş*

Öyrədən dairədə outran uşaqlara bir neçə yeməli (konfet, alma) qida növü göstərir.

**Öyrədən:** "Uşaqlar, sizcə, bu qidalardan hansı sizin sağlamlığınıza ziyan ola bilər? Bəlkə biz nöbəti dərsimizdə bunu bizim Cırtdandan soruşaq? O bir azdan sinifimizə qonaq gələcək. Bu gün biz onunla sağlam olmaq üçün düzgün qidalanmaqdan danışacağıq".

## Nitqin inkişafı: Cırtdana faydalı və zərərli qida məhsulları haqqında danışmaq

**Məqsəd:** Uşaqlarda faydalı və zərərli qida məhsulları haqqında təsəvvür yaratmaq

### *Hissə 1. Nağıl saatı*

**Öyrədən:** "Uşaqlar, bu gün biz səhhətimiz üçün xeyirli və zərərli qidalar haqqında bəhs edəcəyik. Sizcə, qida bizim sağlamlığımıza təsir göstərir? Bəs hansı qidalar bizə sağlamlıq gətirir?(faydalı) "

Qapı (xəyali) döyülür və Cırtdan içəri daxil olur.

Qeyd: Öyrədən Cırtdanın kuklasını hazırlaya və ya rəsmini istifadə edə bilər (Əlavə 7).

**Öyrədən:** "Salam, Cırtdan! Uşaqlar, siz Cırtdanı xatırlayırsınız? (bəli) Biz bu yaxınlarda onun haqqında nağıl oxumuşduq."

Cırtdan deyir: "Uşaqlar, kömək edin, yol göstərin. Mənim boyum heç artmır! Görün mən necə balacayam. Bir məsləhət verin mənə, nə edim axı? (Cırtdandan gün ərzində nəilə qidalandığı soruşulur) Bəh-bəh, mən bu gün Koka-kola içmişəm, çipsi yemişəm, üstəlik də bir qab albalı mürəbbəsi. Bu qədər yemişəm, heç başa düşmürəm ki, niyə boyum artmayıb".

**Öyrədən:**

- "Uşaqlar, sizcə, Cırtdanın boyu niyə artmır? (Çünki o düzgün qidalanmır.)
- Uşaqlar, bəs siz Cırtdana nə yeməyi məsləhət görərsiniz? (Tərəvəz, meyvə, süd məhsulları)
- Bəs onlar sağlamlıq üçün niyə faydalıdır? (Onlar vitaminlə zəngindir.)
- Bizim sağlamlığımız üçün faydalı olan, bizə güc verən süd məhsulları hansılardır? (Ayran, süd, qatıq, yoqurt, kəsmik, xama)
- Başqa hansı faydalı məhsullar tanıyırsınız? (Uşaqların cavabı)

Uşaqlar, gəlin Cırtdana faydalı və zərərli qida məhsullarını seçməyi öyrədək. Sən isə, Cırtdan, bax və yadında saxla!"

***Hissə 2. Oyun***

**Öyrədən:** “Mən qida məhsullarının adını çəkirəm. Əgər bu faydalı qidadırsa, siz əllərinizi qaldırırsınız, əgər zərərlidirsə, onda qarnınızı tutursunuz və oturursunuz. (Süd, balıq, çipsi, sıyıq, koka-kola, alma, şəkər, sup və s.) Uşaqlar, indi siz sağlam olmaq və xəstələnməmək üçün nə yemək lazım olduğunu bilirsiniz.

Bəs deyin görüm, meyvəni tərəvəzədən necə seçirsiniz? (Tərəvəzlər ləkdə bitir, meyvələr ağacda.)

Hə, Cırtdan, indi bildin ki, sağlam olub yaxşı böyümək üçün nə yemək lazımdır? ”

Cırtdan: “Bəli. Uşaqlar, çox sağ olun!”

***Uğur göstəricisi:*** Uşaqların faydalı və zərərli qida məhsulları haqqında təsəvvürü var.

## Hərəkətli oyun: “Topu ötür”

**Məqsəd:** Komandada oynamaq bacarığını aşılamaq

**Vəsaitlər:** İki top, yaxud digər eyni oyuncaq

Uşaqlar iki komandaya bölünür və iki sıraya düzülürlər (uşaqlar bir-birinin arxasında durmalıdır). Birinci dayanan uşağa top verilir və o əllərini yuxarı qaldıraraq başı üstündən topu geriyə ötürür. Beləliklə, uşaqlar topu bir-birilərinə başı üzərindən ötürərərək sırada duran son yoldaşlarına çatdırırlar. Sonuncu uşaq isə topu yenə də baş üstündən (ayaqların arasından da ola bilər) irəliyə ötürür. Topu bu məsafəni ən tez qət etmiş komanda qalib gəlir.

***Uğur göstəricisi:*** Komandada oynamağı bacarır.

## Rəsm: “Nar faydalı meyvədir”

**Məqsəd:** Nar çəkməyi öyrətmək; meyvələrdə insan orqanizmini möhkəmləndirmək üçün gərək olan vitaminlərin olması haqqında təsəvvür yaratmaq.

**Vəsaitlər:** Albom vərəqi, boya-qırmızı, yaşıl rəngli quaş, fırça, qabda su, salfet, Öyrədənin nümunə rəsmi, yaxud nar

**Öyrədən:** “Uşaqlar, gəlin Cırtdan üçün faydalı meyvə - nar çəkək.

Nar çox dəyərli meyvədir. O, güc verir, cavanlaşdırır və xəstəliklərlə mübarizə aparmağa kömək edir. Gəlin birlikdə narın görünüşünü xatırlayaq. Nar yumru, bərk və qırmızı qabıqlıdır. Qabığın altında xırda tumlu, tünd qırmızı rəngli ləti olan çoxlu toxumlar var.

İndi isə əlimdəki nar (nar şəklinə) baxıb deyin görək nar nə formadadır? Bəs nar nə boyda olur?”

İşə başlamamışdan əvvəl uşaqlar Öyrədənlərlə birlikdə fırçanı düzgün tutmağı, fırça ilə boya götürmək və fırçanı yumaq qaydasını yada salırlar. Eyni zamanda, dairəni çəkmək (iki yarımdairəvi xətt vasitəsilə, yaxud bir hərəkətlə bütöv dairə çəkməklə) və onu rəngləmək qaydasını da yada salırlar. Uşaqlar hərəkətləri havada, stolun və kağızın üzərində təkrarlayırlar. Daha sonra yüngül toxunuşla narın bəndəmi çəkilir.

***Uğur göstəricisi:*** Nar çəkməyi bacarır, meyvələrdə insan orqanizmini möhkəmləndirmək üçün lazımlı vitaminlərin olması haqqında təsəvvürü var.

## Sərbəst fəaliyyət: Öyrədənin təlimatı əsasında oyun

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, indi siz hansı ərzaqların sağlamlığınız üçün xeyirli olduğunu bilirsiniz. Bu gün dərsdə nə xoşunuza gəldi?”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam uşaqlar! Dairəmizi yaradaq ki, hər kəs bir-birini görsün. Bu gün sakitcə, bir-birimizin gözlərinə baxaraq gülümsəyib (əl edib, iki əlimizi birlikdə qaldırıb və s.) salamlaşacağıq”. Öyrədən jestlərin köməyi ilə salamlaşmağı nümayiş etdirir.

***Təqvimlə iş***

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən “Salamlaşma” guşəsində hava durumunu qeyd etdikdən sonra oradakı böyük ölçüdə, müxtəlif rəngdə rənglənmiş əl formasının üçüncü barmağını qatlayaraq:

“Kim xatırladar, dünən həftənin hansı günü idi? (Çərşənbə axşamı)

- Bu gün həftənin hansı günüdür? (Çərşənbə)

- Sabah həftənin hansı günü olacaq?”

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

Sağlam olmaq üçün gərəkli şərtlər haqqında yekun söhbət.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Məkan oriyentasiyası və müvazinət hissiyyatını inkişaf etdirmək

***Hissə 1***

Uşaqlar qavalın sədaları altında sıra ilə yeriyirlər. Öyrədənin "Yürüşə!" çağırışı ilə bütün uşaqlar otaqda səpələng qaçırlar. Daha sonra səpələng yerişə və yenidən qaçışa keçid olur.

***Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər***

- Stulda oturaq halda ayaqlar bir az aralı, əllər beldə; əllər yana, yuxarı, yana; ilkin vəziyyətə qayıtmaq (5 dəfə).
- Stulda oturaq halda əllər beldə; sağa və sola əyilmək; dikəlmək. (4–6 dəfə).
- Stulda oturaq halda ayaqlar aralı, əllər beldə; əllər yana, sağ (sol) ayağa tərəf əyilmək, əl barmaqları ilə ayağın üzünə toxunmaq; dikəlmək, ilkin vəziyyətə qayıtmaq (hər tərəfə 3 dəfə).
- Stulun arxasında dayanmaq, əllər sərbəst; stul ətrafında hər iki istiqamətdə iki ayaq üstündə tullanmaq (bir istiqamətdə hərəkəti bitirdikdən sonra kiçik fasilə).

***Hissə 3. Əsas hərəkət növləri***

Müvazinət. "Körpü üzərində gəzinti".

Döşəmədə balışlardan 2 metr uzunluğunda iki “körpü” düzəldilir. Uşaqlar “körpülərdən” bir metr məsafədə qarşı-qarşıya iki sırada düzülürlər. Oyun tapşırığı: çayın bir tərəfindən digər tərəfinə körpünün üstü ilə keçmək. Uşaqlar yanı üstə bir ayaq-bir ayaq gedirlər (əllər beldə yaxud yanda). Öyrədən uşaqlara xatırladır ki, başı və beli dik saxlamaq lazımdır. Tapşırıq bitəndə hər uşaq öz sırasına qayıdır. (3–4 dəfə).

### *Hissə 4. Günün mövzusuna uyğun hərəkət növləri*

Müvazinət. "Dairə üzərində gəzinti".

Döşəmədə balışlardan "körpü" düzəldilir. İki uşaq "dairə" üzərində bir-birinə əks istiqamətdə hərəkət edir.

***Uğur göstəricisi:*** Məkanda hərəkət edərkən oriyentasiyasını saxlaya bilir və müvazinət hissini inkişaf etdirməyi bacarır.

## Hərəkətli oyun: "Pəhləvanlar"

**Məqsəd:** Çevikliyin inkişafı, qol gücünün məşqi

Uşaqlar eyni gücə malik cütlüklərə bölünürlər. Döşəmədə üzbəüz oturub ayaqlarını aralı qoyurlar. Pəncələrini bir-birilərinə dirəyirlər. Bir-birilərinin əllərindən tuturlar. Öyrədənin "Dart!" çağırışından sonra hər uşaq qarşısındakı yoldaşını öz tərəfinə dartmağa çalışır. Sonra qaliblər də bir-biri ilə mübarizə apara bilərlər.

***Uğur göstəricisi:*** Çevikdir, qol gücündən istifadə edə bilir.

## Səsli nağıl zamanı

### *Əsmərin sehrli zənbili*

Nağılın qəhrəmanı Əsmər konfet, şirniyyat, çips yeməyi çox sevir. Hələ üstəlik meyvələrnən heç arası yoxdur. Axır bir gün meyvələr dil açıb bu vəziyyətə son qoymaq, Əsməri meyvələrin xeyri barədə məlumatlandırmaq istəyirlər. Bəs onlarda bu necə alınır? Görəsən Əsmər sonda meyvələrnən razılaşa bilir?

**Link:** https://youtu.be/eKtUo1C1yhI

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Əsmər nə yeməyi xoşlayır?
2. Meyvələr bizim üçün xeyirlidir?
3. Alma nəyə görə Əsmərdən küsür?
4. Kök Əsmərə nə deyir? Kök nə üçün faydalıdır?
5. Bəs qoz nə üçün narazı idi?
6. Konfet və çipslər Əsmərə nə dedilər?
7. Əsmər sonda nə etdi?

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, dərsimiz kimə maraqlı oldu? Kim çoxlu yeni biliklər qazandısa, üç dəfə əl çalsın".

Öyrədən uşaqlara birlikdə xoş vaxt keçirdiyi yoldaşını qucaqlamağı təklif edir. Hər bir uşağa gün ərzindəki uğuru haqqında xoş rəy bildirilir.

# Yanvar | 15-ci həftə | Mövzu: “Nəqliyyat”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***
**Öyrədən:** “Sabahınız xeyir! Uşaqlar, gəlin əl-ələ tutaq. Bir-birimizə gülümsəyərək “Sabahın xeyir!” söyləyək ki, günümüz şən və xoş keçsin”.

***Təqvimlə iş***
**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən “Salamlaşma” guşəsində hava durumunu və həftənin gününü qeyd etdikdən sonra “Salamlaşma” guşəsindəki qış fəslini müzakirə edir: *Uşaqlar kim deyər indi hansı fəsildir? Bizim salamlaşma lövhəmizdəki qış fəsli hava şəraitinə görə payız fəslindən nə ilə fərqlənir?*

(Öyrədən müqayisəli şəkildə qış və payız fəslində olan hava şəraitini müzakirə edir.)

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***
Barmaq oyunu: “Nəqliyyat”

- Beş barmaqla neyləyək? (Əllərini barmaqları aralı vəziyyətdə göstərirlər)
- Təyyarədə süzdürək, (Çeçələ barmaq qatlanır)
- Avtomobildə gəzdirək, (Adsız barmaq qatlanır)
- Tramvaya yol verək, (Orta barmaq qatlanır)
- Vertolyota mindirək, (Şəhadət barmağı qatlanır)
- Metro ilə yol gedək. (Baş barmaq qatlanır)

**Öyrədən:** “Bu həftə biz nəqliyyat haqqında danışacağıq. Kim bilir nəqliyyat nədir? (Uşaqların cavabı)

### Ətraf aləmlə tanışlıq: “Nəqliyyat növləri”

**Məqsəd:** Yük və sərnişin nəqliyyatının oxşar və fərqli xüsusiyyətlərini seçmək

**Vəsaitlər:** Abtobus, maşın, taksi, velosiped, gəmi, təyyarə, vertalyot

***Hissə 1. Əqli hücum***
Biz məktəbə nə ilə gəlirik?

**Öyrədən:** “Uşaqlar, siz məktəbə gələrkən nə ilə gəldiniz? Maşınla, avtobusla, yoxsa ayaqla (piyada)?

Maşın və ya digər minik vasitələri ilə gələn uşaqlar müəyyən edilir.

Sizcə, mən (Öyrədən) məktəbə nə ilə gəlib?

***Hissə 2. Biliyin yoxlanılması***
**“Gör və tap” oyunu:** Öyrədən uşaqların nəqliyyat vasitələri barədə nə dərəcədə məlumatlı olduğunu yoxlamaq üçün onlara videonu (https://youtu.be/3BXEEjE991U) nümayiş etdirir. Uşaqlar bu videoda qeyd edilən nəqliyyat vasitələrini görərək tapmalıdırlar. Öyrədən videoda görünən hər bir nəqliyyat vasitəsini “Əlavə 8”-də taparaq kəsir və lövhəyə yapışdırır.

**Qeyd**: Uşaqların tapa bilmədiyi və ya məlumatı olmadığı nəqliyyat növü haqqında Öyrədən məlumat verir. Hər bir nəqliyyat növü müzakirə edilir. Öyrədən hər bir nəqliyyat növü üçün əlavə video da nümayiş etdirə bilər.

### *Hissə 3: Sual-Cavab*

Öyrədən sual-cavab zamanı əyani vəsaitlərdən istifadə edir.

- Hansı nəqliyyat növlərini tanıyırsınız? (Uşaqların cavabı)
- Yükü nə ilə daşımaq olar? (Maşınla)
- Bəs yükü daşıyan maşınlar necə adlanır? (Yük maşını)
- Bunlardan hansı yük maşınıdır? (Öyrədən uşaqlara iki maşın göstərir).
- Bəs digər maşın hansıdır? (Minik)
- O, nə üçün istifadə olunur? (Adamları daşımaq üçün).

***Gəlin görək onların oxşar və fərqli cəhətləri nədir:***

- Hər iki maşının hansı hissələri var? (Sükan, təkər, motor, işıq).
- Yük maşınının təkərləri böyükdür, bəs minik maşınının təkərləri necə? (Kiçik)
  - Yük maşınında yük daşıyırlar, məsələn, qum, tikinti materialları, odun və s.; minik maşınında isə adamları daşıyırlar;
- Bu nəqliyyat vasitələrini kim idarə edir? (Sürücü);
- Bu nəqliyyat vasitələri harada hərəkət edir? (Yerdə);
- Hansı maşında yük daşınır? (Yük maşınında).
- İctimai nəqliyyat(avtobus) kimi daşıyır? (Sərnişinləri).
- Onlardan birinin üzərində "Təcili Tibbi Yardım" yazılır. Sizcə, bu maşınlara niyə digər maşınlar həmişə yol verir?
  - Bəli, çünki xəstəni ən tez zamanda xəstəxanaya çatdırmaq lazımdır.
- Bir də qırmızı rəngli böyük maşınlar olur, sayrışan işıqlarla yanğını söndürməyə tələsirlər. Bu yanğınsöndürənlərin maşınıdır. Onlara da digər maşınlar yol verirlər, əks halda yanğın ətrafı bürüyər.
- Polis maşınları da sayrışan işıqlarını qoşanda kiminsə köməyinə tələsirlər, axı təhlükəli cinayətkarları onlar həbs edirlər.

### *Hissə 4. Nəqliyyat. "Binqo" oyunu (Əlavə 9)*



Uşaqlara binqo kartları paylanılır. Öyrədən hər hansı bir maşının adını çəkəndə uşaqlar həmin maşının üzərinə balaca daş qoyur (həmin kartın çıxdığını qeyd etmək üçün). Kartı ilk bitən uşaq qalib elan edilir.

***Uğur göstəricisi:*** Yük və sərnişin nəqliyyatının oxşar və fərqli xüsusiyyətlərini seçə bilir.

## Hərəkətli oyun: "Qatar"

**Məqsəd:** Cərgəyə düzülmək və cərgədə hərəkət etmək, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirmə vərdişlərini inkişaf etdirmək

Uşaqlar Öyrədənin arxasınca bir-birinin belindən tutaraq cərgəyə düzülürlər. Öyrədən "parovoz", uşaqlar isə "vaqon" olurlar. Öyrədən "Tu-tuuu" səsini çıxarır və qatar ya dairəvi, ya da ilanvari hərəkətə başlayır (uşaqlar "çu-çu-çu" səsi çıxara bilərlər). Öyrədən elan edir: "Tullanmaq stansiyası!"

Uşaqlar bir-birinin belini buraxıb iki ayaq üstündə tullanırlar. Qatar yenidən eyni qayda ilə yola düşür. "Rəqs dayanacağı "-uşaqlar musiqi sədaları altında rəqs edirlər. "Qaçış dayanacağı!"- qavalın sədaları altında uşaqlar səpələng qaçırlar. Sonra böyük uşaqlardan biri "parovoz" olur və oyun davam edir.

***Uğur göstəricisi:*** Cərgəyə düzülmək və hərəkət etməyi bacarır, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirmə bacarığına malikdir.

## Aplikasiya: "Yük maşını"

**Məqsəd:** Bir neçə hissədən ibarət əşyanı aplikasiya vasitəsilə təsvir etməyi öyrətmək

**Vəsaitlər:** Öncədən kəsilmiş kabinalar, kuzalar, pəncərələr, qara rəngli kvadratlar, aplikasiyanın üzərinə yapışdırılacağı vərəqlər, yapışqan, qayçı, salfet

**Öyrədən:** "Gəlin «Yük maşını» aplikasiyasını hazırlayaq. İlk öncə kabinə və kuzanı yapışdıraq.

- Maşın yola düşə bilər? (Xeyr, təkərləri yoxdur)
- Maşının təkərləri nə formada olur (Dairəvi)
- Bəs sizdə hansı formada fiqurlar qalıb? (Kvadrat)
- Biz kvadratdan dairə edə bilərik? (bəli)"

Öyrədən kvadratdan dairə etmək üsulunu xatırladır. Kiçik yaşlı uşaqlara hazır kəsilmiş təkərləri vermək olar. Uşaqların əl işləri divarda sərgilənir.

***Uğur göstəricisi:*** Bir neçə hissədən ibarət əşyanı aplikasiya vasitəsilə təsvir etməyi bilir.

## Sərbəst fəaliyyət: Uşağın seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, nəqliyyat haqqında məşğələmiz xoşunuza gəldi? Deyin görüm, biz nəyi nəqliyyat adlandırırıq? (Yerdə, havada, suda yükü və adamları daşıyan hər vasitəni). Afərin!"

# 2-ci gün

## Səhər toplantısı:

***Salamlaşma***

**Öyrədən:** "Salam, uşaqlar. Gəlin bir-birimizi salamlayaq və günümüzün yaxşı keçməsi üçün xoş bir söz deyək".

***Təqvimlə iş***

**Məqsəd:** "Salamlaşma" guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən "Salamlaşma" guşəsində hava durumunu və həftənin gününü qeyd etdikdən sonra "Salamlaşma" guşəsindəki qış fəslini müzakirə edir. *Uşaqlar, kim deyər indi hansı fəsildir? Bizim salamlaşma lövhəmizdəki qış fəsli öz görünüşünə görə payız fəslindən nə ilə fərqlənir?*

(Öyrədən müqayisəli şəkildə qış və payız fəslində olan hava şəraitini müzakirə edir.)

***Uğur göstəricisi:*** "Salamlaşma" guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

Öyrədən "sehrli qutu"sundan rəngli toplar çıxarır. Uşaqlar dairədə oturub.

**Öyrədən:** "Uşaqlar mən sehrli qutudan 2 ədəd top çıxaracam. İki uşaq seçəcəyəm və sizə topları verəcəyəm. Hər ikiniz topu yuxarı doğru atacağıq. Baxaq görək ki, kim topu daha hündürə atacaq.

## Riyaziyyat: "Hündür, alçaq"

**Məqsəd:** Əşyaları hündürlüyünə görə müqayisə etməyi öyrətmək.

**Vəsaitlər:** Hündür və alçaq evlərin təsviri olan kartlar, yaxud kağızdan kəsilmiş evlər, iki müxtəlif hündürlükdə olan oyuncaqlar, müxtəlif hündürlükdə olan karandaş dəsti

***Hissə 1. Müzakirə***

Uşaqlar, bu gün bizim çox maraqlı məşğələmiz olacaq. Biz əşyaları hündürlüyünə görə müqayisə edəcəyik. Bizə bu gün Tıq-Tıq xanımla Siçan bəy qonaq gəlib. Onların bizim köməyimizə ehtiyacları var. Onlar bilmirlər ki, hansı hündür evdə, hansı alçaq evdə yaşasın. Gəlin qonaqlarımıza kömək edək!

Bunu necə edə bilərik? (uşaqların cavabı-Siçan bəy böyükdür, ona görə hündür evdə yaşasın, Tıq-Tıq xanım balacadır, ona görə alçaq evdə yaşaya bilər). Budur biz Siçan bəy və Tıq-Tıq xanıma kömək etdik.

***Hissə 2. Praktik tapşırıq***

İndi isə hər kəs öz yerində otursun. Sizin stolunuzun üstündə hündürlüyünə görə fərqli olan karandaşlar qoyulub. Gəlin onları bölək. Bir tərəfə hündür, digər tərəfə isə alçaq karandaşları yığaq. Afərin, uşaqlar!

## İdman fasiləsi: "Cırtdanlar və divlər"

Öyrədən "Cırtdan" deyəndə hamı oturur, "div" deyəndə barmaqları üstündə dayanır və əllərini yuxarı qaldırır.

***Hissə 3. Sərbəst tapşırıq***

Uşaqların diqqəti hündür və alçaq olanlarını seçmək üçün müəyyən əşya qruplarına yönləndirilir (Məsələn: Uşaqlar divara söykənib bir-birilərinin boyunu ölçə bilərlər).

### *Hissə 4. Oyun «Əksini söylə»*

Uşaqlara tanış olduqları ölçü anlayışları verilir; müqayisə üçün onlar bu anlayışların əksini söyləməlidirlər. (hündür-alçaq, enli-ensiz, böyük-kiçik, uzun-qısa, qalın-nazik)

***Uğur göstəricisi:*** Əşyaları hündürlüyünə görə müqayisə etməyi bacarır.

## Fiziki hərəkətlər:

**Məqsəd:** Uşaqların göstəriş əsasında hərəkət etmək, bir-birilərinə topu diyirlətmək, "İsveç divarı"na dırmanmaq və ayaqları düz bucaq altında saxlamaq bacarıqlarını inkişaf etdirmək.

Vəsaitlər: 2x2 m ölçüdə parça (örtük), müxtəlif ölçülü toplar, "İsveç divarı"

### *Hissə 1. Ümumi inkişafetdirici hərəkətlər: "Biz güclü dənizçilərik"*

1. Otağın ortasına parça sərilir-bu dənizdir. Uşaqlar parçanın ətrafında "qayıqlara" otururlar (yerdə, ayaqlar aralı). Qollar irəli uzadılır, əllər yumruq kimi yumulur (avar tuturmuş kimi). Uşaqlar bir az qabağa əyilirlər, sonra qollar dirsəkdən yığılır və kürək geri gedir. Beləliklə, uşaqlar avar çəkirlər (5 dəfə).
4. Öyrədən uşaqlara müxəlif ölçülü toplar verir – bu qayıq və gəmilər olur. Uşaq topu qarşıdakı yoldaşına diyirləndirməlidir, yəni qayıq , yaxud gəmini dənizdə üzdürməlidir (4-5 dəfə).
5. Bir balaca top (qayıq) dənizdə (parçanın üzərində) qalır. Öyrədən uşaqlarla birlikdə parçanın kənarlarından tutur və -"Dalğa!"- çağırışı ilə parçanı silkələyirlər."Fırtına!" çağırışı ilə parçanı daha da güclü silkələyirlər. Əgər top düşdüsə, dəniz sakitləşir və topu yenidən parçanın üzərinə qoyub oyunu eyni qayda ilə bir neçə dəfə təkrar edirlər.

### *Hissə 2. "İsveç divarı" – gəmi nərdivanı*

1. Nərdivana dırmanmaq. Gəmiçi uşaq "İsveç divarı"na dırmanıb, yuxarıdan hamını salamlayıb yerə düşməlidir. Gəminin bütün heyəti növbə ilə bunu təkrar edir.
2. Körpü. Uşaq arxasını "İsveç divarı"na çevirib, bir az aralı dayanıb əlləri ilə başından yuxarıdakı pillədən tutmalıdır. Hər dəfə bir pillə aşağı tutaraq kürəyi üstə daha çox əyilir. Bəzi hallarda uşaq arxaya əyilərək əllərini tam yerə qoya bilir, beləliklə, tam körpü yaradır.
3. Ayaqların düzbucaq altında saxlanması. Arxası nərdivana dayanaraq uşaq başından yuxarıdakı pillədən tutur və qollarından sallanır. Bundan sonra ayaqlarını irəli qaldırır və düz bucaq altında saxlayır (3 dəfə).

***Uğur göstəricisi:*** Uşaqlar göstəriş əsasında hərəkət etməyi, bir-birilərinə topu diyirlətməyi, "İsveç divarı"na dırmanmağı və ayaqları düzbucaq altında saxlamağı bacarırlar.

## Hərəkətli oyun: "Bacarıqlı sürücü"

Hər birinin əlində sükan (yastıq) uşaqlar otaqda dağınıq şəkildə dayanıblar. Öyrədənin siqnalı ilə uşaqlar-"maşınlar" bir-birilərinə mane olmadan otaqda müxtəlif istiqamətdə hərəkət edirlər. Öyrədən qırmızı rəngli dairəni qaldıranda bütün maşınlar dayanır. Yaşıl qaldırılarsa, uşaqlar hərəkətə davam edirlər. Öyrədən sarını göstərərsə, uşaqlar yerlərində qaçırlar.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, sizə afərin! Bu gün ən diqqətli kim olub? Gəlin yoxlayaq! Bugünkü dərsimizin mövzusu nə idi? (uşaqların cavabı)

Uşaqlar, valideynlərinizin harada və kim işlədiyi haqda məlumat alarsınız. Sabah biz bunu müzakirə edəcəyik?"

# 3-cü gün

## Səhər toplantısı:

***Salamlaşma***

**Öyrədən:** "Salam, uşaqlar! Dairə şəklində oturaq ki, mən hər birinizi görə bilim. Gəlin bir-birimizin gözlərinə baxıb gözlərimizlə salamlaşaq. Əlimizi yanımızdakı yoldaşımızın çiynınə qoyuruq və başımızı yüngülcə tərpədib salamlaşırıq".

***Təqvimlə iş***

**Məqsəd:** "Salamlaşma" guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən "Salamlaşma" guşəsində hava durumunu və həftənin gününü qeyd etdikdən sona "Salamlaşma" guşəsindəki qış fəslini müzakirə edir: "-Uşaqlar, kim mənə xatırladar, indi hansı fəsildir? Öyrədən müqayisəli şəkildə qış və payız fəslində olan geyimləri müzakirə edir."

***Uğur göstəricisi:*** "Salamlaşma" guşəsində təqvim bölümündə təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

**Öyrədən:** "Uşaqlar, nəqliyyatı kimlər sürür?" (Uşaqların cavabı)

## Barmaq oyunu: "Nəqliyyat"

- Beş barmaqla neyləyək? (əllərini barmaqları aralı vəziyyətdə göstərirlər)
- Təyyarədə süzdürək, (çeçələ barmaq qatlanır)
- Avtomobildə gəzdirək, (adsız barmaq qatlanır)
- Tramvaya yol verək, (orta barmaq qatlanır)
- Vertolyota mindirək, (şəhadət barmağı qatlanır)
- Metro ilə yol gedək. (baş barmaq qatlanır)

**Öyrədən:** "Bu həftə biz nəqliyyat haqqında danışacağıq. Kim bilir nəqliyyat nədir? (uşaqların cavabı): Bəli, uşaqlar, insanları və yükü daşıyan maşınlar nəqliyyat adlanır.

## Nitqin inkişafı: "Nə gedir? Nə uçur? Nə üzür?"

**Məqsəd:** Hərəkət yerindən asılı olaraq (yerüstü, hava, su), nəqliyyat vasitələrinin fərqini göstərmək. (Əlavə 8)

***Hissə 1. Məlumatın ötürülməsi***

**Öyrədən:** "Biz artıq bilirik ki, maşın yerin üstü ilə hərəkət edir, beləliklə o yerüstü nəqliyyat adlanır. Gəlin biz onu sxematik şəkildə belə göstərək (Öyrədən horizontal xətt çəkir).

- Digər yerüstü nəqliyyat vasitələrindən hansının adını çəkə bilərsiniz? (Avtobus, tramvay, trolleybus və s.).
- Maşını kim sürür? (Sürücü)
- Bəs əgər yolunuzun üstünə çay çıxsa, hansı nəqliyyat vasitəsindən istifadə edərsiniz? (Öyrədən su nəqliyyat vasitələrinin şəkillərini göstərir, uşaqlar onları adlandırırlar: qayıq, gəmi, kater).
- Suda hərəkət edən bütün nəqliyyat vasitələrini bir sözlə necə adlandırarsınız? (Su nəqliyyatı)
- Su nəqliyyatı sxematik olaraq dalğalı xətt ilə göstərilir. (Uşaqlara nümayiş etdirilir.)
- Su nəqliyyatını kim idarə edir? (kapitan)
- Bəs yolda qarşımıza hündür dağlar çıxsa hansı nəqliyyat köməyimizə çatar?(Öyrədən hava nəqliyyatı vasitələrinin- təyyarə, vertolyot- şəkillərini nümayiş etdirir).
- Hava ilə hərəkət edən bütün nəqliyyat vasitələrini bir sözlə necə adlandırarıq?(hava nəqliyyatı) Hava nəqliyyatı sxematik olaraq quşa bənzər xətt ilə göstərilir. (Uşaqlara nümayiş etdirilir.)

- Təyyarəni kim idarə edir? (Təyyarəçi, pilot)

***Hissə 2. Praktik tapşırıqlar***

İndi isə hər kəs əlinə istənilən nəqliyyat vasitəsinin şəklini götürsün. Gəlin sxemlərə əsasən (yerüstü, su, hava nəqliyyatı), qruplara bölünək. Musqi çaldığı müddətdə biz xalçanın üzərində sərbəst gəzirik. Musiqi kəsilən kimi siz aid olduğunuz nəqliyyat növünə və əlinizdəki nəqliyyat vasitəsinə uyğun olan bölümə yaxınlaşırsınız.

**Qeyd**: Öyrədən sinifdə yerüstü, su və hava nəqliyyatları üçün ərazi (məkan ayırır). Oyun bir neçə dəfə təkrar olunur, uşaqlar əllərində olan kartları bir-biri ilə də dəyişə bilərlər.

***Uğur göstəricisi:*** Hərəkət yerindən asılı olaraq (yerüstü, hava, su) nəqliyyat vasitələrinin fərqini göstərə bilir.

## Hərəkətli oyun: "Qatar"

**Məqsəd:** Cərgəyə düzülmək və cərgədə hərəkət etmək, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirmək vərdişlərini inkişaf etdirmək.

Uşaqlar Öyrədənin arxasınca bir-birinin belindən tutaraq cərgəyə düzülürlər. Öyrədən “parovoz”, uşaqlar isə “vaqon” olurlar. Öyrədən “Tu-tuuu” səsini çıxarır və qatar ya dairəvi, ya da ilanvari hərəkətə başlayır (uşaqlar “çu-çu-çu” səsi çıxara bilərlər). Öyrədən elan edir: “Tullanmaq stansiyası!”

Uşaqlar bir-birinin belini buraxıb iki ayaq üstündə tullanırlar. Qatar yenidən eyni qayda ilə yola düşür. “Rəqs dayanacağı ”uşaqlar musiqi sədaları altında rəqs edirlər. “Qaçış dayanacağı!”- qavalın sədaları altında uşaqlar səpələng qaçırlar. Sonra böyük uşaqlardan biri “parovoz” olur və oyun davam edir.

***Uğur göstəricisi:*** Cərgəyə düzülmək və cərgədə hərəkət etməyi bacarır, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirməyi bacarığına malikdir.

## Rəsm: “Dəmir yolu”

**Məqsəd:** Fırça ilə uzun və qısa düz xətt çəkmək bacarığını möhkəmləndirmək.

**Vəsaitlər:** Uzununa iki yerə bölünmüş A4 vərəqi, qəhvəyi və qara quaş.

**Öyrədən:** “Uşaqlar, biz indicə sizinlə sanki qatarda gedirdik. Qatar dəmir yolunda relslərin üstü ilə gedir. Relslər isə şpalların üzərinə qoyulur. Gəlin biz dəmir yolunun rəsmini çəkək.

Əvvəlcə biz şpalları çəkəcəyik. Şpallar taxta və betondan olurlar (Öyrədənin göstərişinə əsasən uşaqlar ağ kağız parçasının üzərində qəhvəyi boya ilə arada kiçik məsafə buraxaraq şaquli xəttlər çəkirlər). İndi isə şpalların üzərinə relsləri qoyaq: qara boya ilə şpalları kəsib keçən iki üfüqü xətt çəkək.Bütün əl işlərini bitişik düzmək olar. Görün necə dəmir yolu düzəldə bildik. Afərin bizə! ”

“Dəmir yolu ” quruyandan sonra tikinti blokları (vaqonlar) ilə dəmir yolunda getmək olar.

***Uğur göstəricisi:*** Fırça ilə uzun və qısa düz xətt çəkmək bacarığına malikdir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** “Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Hansı nəqliyyat növləri ilə tanış oldunuz? ”

Öyrədən uşaqlara ortaya qoyulmuş balışın ətrafında qavalın sədaları altında fırlanmağı təklif edir. Qavalın səsi kəsiləndə bir uşaq balışın üstünə çıxır və məşğələdə bəyəndiyi məqamlardan birini deyir. Digərləri onu alqışlayır. Bir neçə uşaq bunu təkrarlayır.

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahın  xeyir, Əminə! Sabahın xeyir, Aydan! Uşaqlar, gəlin növbə ilə qrupda hər kəsi salamlayaq”.

***Təqvimlə iş***

Öyrədən uşaqlarla əvvəlki günlərdə öyrəndiklərini təkrar edir.

***Mövzuya giriş***

**Öyrədən:** “Hansı maşınları tanıyırsınız?” (uşaqların cavabı)

## Barmaq oyunu: “Nəqliyyat”

- Beş barmaqla neyləyək? (əllərini barmaqları aralı vəziyyətdə göstərirlər)
- Təyyarədə süzdürək, (çeçələ barmaq qatlanır)
- Avtomobildə gəzdirək, (adsız barmaq qatlanır)
- Tramvaya yol verək, (orta barmaq qatlanır)
- Vertolyota mindirək, (şəhadət barmağı qatlanır)
- Metro ilə yol gedək. (baş barmaq qatlanır)

**Öyrədən:** “Bu həftə biz nəqliyyat haqqında danışacağıq. Kim bilir nəqliyyat nədir? (uşaqların cavabı). Bəli, uşaqlar, insanları və yükü daşıyan maşınlar nəqliyyat adlanır.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Musiqi və fiziki hərəkətlər

**Məqsəd:** Verilən göstərişə müvafiq reaksiya göstərməyi məşq etmək,  əl-göz, ayaq-göz koordinasiyasını inkişaf etdirmək

***Hissə 1.***

Uşaqlar bir-birinin ardınca dairə üzrə hərəkət edirlər. Öyrədən növbə ilə göstərişlər verir: “Xizək sürürük”, “Üzürük”, “Qaçırıq”, “Tullanırıq”. Uşaqlar göstərişə uyğun hərəkətlər nümayiş etdirirlər.

***Hissə 2. Bir-birilərinə topun atılması***

Uşaqlar iki cərgə üzrə düzülürlər (cərgələr arasındakı məsafə 2 metr olmalıdır). Öyrədən hər cərgə üçün başlanğıc nöqtəsini kəndirlə qeyd edir. Başlanğıc vəziyyət: dizüstə oturmaq, top yerdə (bir qrup uşaqlarda). Öyrədənin "Diyirlət!" siqnalı ilə uşaqlar topu yoldaşlarına diyirlədirirlər. Yoldaşı topu tutub yenidən Öyrədənin siqnalı ilə geriyə diyirlədir (4-5 dəfə).

***Hissə 3. Topu qapıya vur!***

Bir-birindən 1 metr aralıda iki stul qoyulur. 1,5 metr aralıda (getdikcə geri çəkilir) kəndir qoyulur. Bu yerdən uşaqlar qapıya qol vurmağa çalışırlar.

Hərəkətlər dinamik musiqi sədaları altında yerinə yetirilir.

***Uğur göstəricisi:*** Verilən göstərişə müvafiq reaksiya göstərməyi bacarır, əl-göz, ayaq-göz koordinasiyası inkişaf edib.

## Hərəkətli oyun: "Bacarıqlı sürücü"

Hər birinin əlində sükan (yastıq) uşaqlar otaqda dağınıq şəkildə dayanıblar. Öyrədənin siqnalı ilə uşaqlar-"maşınlar" bir-birilərinə mane olmadan otaqda müxtəlif istiqamətdə hərəkət edirlər. Öyrədən qırmızı rəngli dairəni qaldıranda bütün maşınlar dayanır. Yaşıl qaldırılarsa, uşaqlar hərəkətə davam edirlər. Öyrədən sarını göstərərsə, uşaqlar yerlərində qaçırlar.

## Səsli nağıl zamanı

***Uzunqulağın əhvalatı***

**Link:** https://youtu.be/s3aBv-gLCEE

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

**Qeyd 3:** Heyvanların nəqliyyat vasitəsi kimi və yük daşımada istifadə olunduğunu qeyd edin. Atlar, uzunqulaqlar, dəvələr və s.

### *Uşaqlara suallar*

1. Toyuqlar niyə narazı idilər?
2. Toyuqların köməyinə kim gəldi?
3. Uzunqulağa nə deyərdiniz?
4. Bəs siz onlardan kimlə dost olardınız?
5. Sizin də it dostunuz var?

## Son toplantı

**Öyrədən:** ”Uşaqlar, bu gün ən diqqətli kim olub? Elə indicə bunu yoxlayarıq! Bugünkü məşğələmizin mövzusu nə idi? Afərin!”

# Yanvar | 16-cı həftə | Mövzu: “Mən piyadayam”

## 1-ci gün

### Səhər toplantısı:

***Salamlaşma***

Uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona diyirlədir. Topu tutan uşaq da onunla adını çəkərək salamlaşır və topu növbəti yoldaşına ötürür. Xəbər mübadiləsi.

***Təqvimlə iş***

**Məqsəd:** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən «Salamlaşma guşəsi»ndə hava durumunu və həftənin gününü qeyd etdikdən sonra «Salamlaşma guşəsi»ndəki qış fəslini müzakirə edir. “- Uşaqlar, kim deyər indi hansı fəsildir? - Bu gün biz qışda yuxuya gedən ayıdan danışacağıq. - Ayının necə gəzdiyini kim göstərə bilər? Öyrədən uşaqlara ayının qış yuxusuna getməsinə aid video göstərir.

***Uğur göstəricisi:*** “Salamlaşma” guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

**Öyrədən:** “Bu həftə biz yol hərəkət qaydalarını müzakirə edəcəyik. Kim yolda gedərkən riayət etdiyi qaydalar haqqında qısa məlumat vermək istəyir?” (uşaqların cavabı)

### Barmaq oyunu: “Yol hərəkəti qaydaları”

- 1-Sən yola bax diqqətlə! (hər iki əlin çeçələ barmağından başlayaraq qatlayırıq)
- 2- İşıqfor da var hələ.
- 3 - Yol nişanın qaçırma,
- 4 - Keçidi istifadə elə.

Qaydanı hamı bilsin, (hər iki əldə barmaqlar eyni anda açılır). Qoy riayət eləsin.

### Ətraf aləmlə tanışlıq: “Yol hərəkəti qaydaları”

**Məqsəd:** Uşaqlara yol hərəkəti işarələrini tanıtmaq və onların sayəsində necə davranacağını öyrətmək

**Vəsaitlər:** Yol nişanları, işıqfor, piyada keçidi ilə bağlı şəkillər. (Əlavə 8)

***Hissə 1. Məlumatın ötürülməsi***

**Öyrədən:** “Yol hərəkətinin iştirakçıları, əsasən, avtomobil və piyadalardır. Yol hərəkəti hər zaman təhlükəlidir. Ona görə qaydalara riayət etmək çox önəmlidir. Qaydalara həm piyada, həm də avtomobil sahibləri riayət etməlidirlər. Piyada öz piyada xətti ilə, maşın və avtobuslar isə avtomobil yolu ilə hərəkət edirlər. Bəs deyin görüm:

- Yolda oynamaq olarmı?
- Yolu haradan keçmək olar?
- İşıqfor nədir? İşıqforda neçə rəng var işıq var? Hansı işıq yananda yolu keçmək olar?
- İşıqfor olduğu halda, yolu necə keçmək lazımdır?
- Bəs işıqfor olmadığı halda? (öncə sola, sonra sağa baxmaq, yol boşdursa, hərəkətə davam etmək)
- Hansı yol hərəkəti nişanlarını tanıyırsınız?

***Hissə 2. Praktik hissə***

Öyrədən “Əlavə 11” də qeyd edilən “sola”, “sağa”, “düz”, “dur” kimi işarələri sinfin döşəməsinə yerləşdirir. Uşaqlardan biri seçilir. Uşaq əlinə dairəvi bir vəsait (qapaq) götürür. Sinifdə minik maşını sürər kimi hərəkət edir. (Öyrədən döşəməyə xüsusi yapışqanlar yapışdıraraq yol və ya yaşayış ərazisi də düzəldə bilər). Uşaq sinifdə hərəkət zamanı rast gəldiyi işarələrə əsasən, davranmalıdır. Yəni “stop” (dur) işarəsini görəndə dayanmalıdır.

***Uğur göstəricisi:*** Uşaqlar yol hərəkəti işarələrini tanıyır və onların sayəsində necə davranacağını bilir.

## Hərəkətli oyun: "Qatar"

**Məqsəd:** Cərgəyə düzülmək və cərgədə hərəkət etmək, göstəriş əsasında müxtəlif hərəkətləri yerinə yetirmək vərdişlərini inkişaf etdirmək.

Uşaqlar Öyrədənin arxasınca bir-birinin belindən tutaraq cərgəyə düzülürlər. Öyrədən “parovoz”, uşaqlar isə “vaqon” olurlar. Öyrədən “Tu-tuuu” səsini çıxarır və qatar ya dairəvi, ya da ilanvari hərəkətə başlayır (uşaqlar “çu-çu-çu” səsi çıxara bilərlər). Öyrədən elan edir: “Tullanma stansiyası!”

Uşaqlar bir-birinin belini buraxıb iki ayaq üstündə tullanırlar. Qatar yenidən eyni qayda ilə yola düşür. “Rəqs dayanacağı”-uşaqlar musiqi sədaları altında rəqs edirlər. “Qaçış dayanacağı!”- qavalın sədaları altında uşaqlar səpələng qaçırlar. Sonra böyük uşaqlardan biri “parovoz” olur və oyun davam edir.

***Uğur göstəricisi:*** Cərgəyə düzülməyi və cərgədə hərəkət etm, göstəriş əsasında müxtəlif hərəkətləri yerinə yetirmə bacarıqlarına malikdir.

## Aplikasiya: “İşıqfor”

**Məqsəd:** İşıqfora dair bilikləri möhkəmləndirmək (rənglərin ardıcıllığı və mənası), künclərini kəsməklə kvadratdan dairə hazırlamağı öyrətmək (4-5 yaşlılara)

**Vəsaitlər:** Qara və boz rəngli kağızlardan kəsilmiş işıqfor dirəyi, qırmızı, sarı və yaşıl rəngli dairələr (3-4 yaşlılar üçün), qırmızı, sarı və yaşıl rəngli kvadratlar (4-5 yaşlılar üçün), qayçı, yapışqan

- 3-4 yaşlı uşaqlar dairələri işıqforun dirəyi üzərinə qırmızı rəngdən başlayaraq, ardıcıllıqla düzürlər.
- 4-5 yaşlı uşaqlar kvadratlardan dairələr kəsirlər və sonra onları dirəklərin üzərinə düzürlər.
- Hər kəs dairələri qırmızı rəngdən başlayaraq, yapışqanla dirək üzərində bərkidir.

**Öyrədən:** “Hazır işıqforları düzürük. Nəzər yetiririk: Necə də gözəl işıqforlar hazırlamışıq!

***Uğur göstəricisi:*** İşıqfora dair məlumatı var (rənglərin ardıcıllığı və mənası), künclərini kəsməklə kvadratdan dairə hazırlamağı bacarır.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son toplantı

**Öyrədən:** “Əl-ələ tutun. Bir-birinizə baxıb növbə ilə gözəl bir arzu diləyin. (Uşaqlar növbə ilə icra edirlər.)

Uşaqlar, bu gün ən diqqətli kim idi? Gəlin yoxlayaq! Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabları) Afərin!”

# 2-ci gün

## Səhər toplantısı:

### *Salamlaşma*

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! Gəlin günümüzə maraqlı bir oyunla başlayaq. Sizdən bir nəfər yoldaşlarınızdan birini təsvir edəcək, biz də həmin uşağın kim olduğunu tapmağa çalışacağıq. Mən oyuna birinci başlayıram: bu qız gəlinciklərlə oynamağı sevir, çox gülür, həmişə köməyə hazırdır. Onun uzun saçları və iri gözləri var. Bu gün o, çəhrayı köynək və boz şalvar geyinib. Deyin görüm, o kimdir?”

### *Təqvimlə iş*

**Məqsəd:** İlin  fəsillərini (Qışın xüsusiyyətlərini) təkrarlamaq

Öyrədən qışın təsvir olunduğu rəsmi (video) “Müzakirə guşəsi”ndən asır. Onlardan rəsmdə baş verən hadisələri təsvir etməyi (onun haqqında danışmağı) istəyir.

**Qeyd 1:** Rəsmdə qarın yağması, yarpağı tökülmüş ağaclar, isti paltar geyinmiş insanlar təsvir olunmalıdır.

**Qeyd 2:** “Müzakirə guşəsi” “Təqvim guşəsi”nə aid A 5 ölçülü bir lövhədir. Uşaqların rəsmi daha aydın görməsi üçün rəsm həmin lövhədən asılmalıdır.

***Uğur göstəricisi:*** Qışın xüsusiyyətlərini təsvir edə bilir.

### *Mövzuya giriş*

Öyrədən öncədən konstruktordan hazırladığı  2 ədəd fərqli rəngli və fərqli ölçülü evciyi uşaqlara göstərir.

**Öyrədən:** “Uşaqlar, bu evciklərə diqqətlə baxın! Sizcə, bu iki evcik bir-birindən nə ilə fərqlənir?

## Riyaziyyat: Böyük/kiçik

**Məqsəd:** Uşaqların müqayisə etmə bacarığını artırmaq: “böyük”, “kiçik” ifadələrini öyrətmək (Əlavə 10)

### *Hissə 1. Giriş. Məlumatın ötürülməsi*

Öyrədən Mövzuya giriş bölümündə təqdim etdiyi iki tikilini təqdim edir.

“Sizcə, bu iki ev bir-birindən nə ilə fərqlənir?”

Öyrədən uşaqlara evlərə müxtəlif rakurslardan baxmaqlarını, əl ilə toxunmalarını təklif edə bilər.

### *Hissə 2. Oyun. Böyük-balaca.*

**Öyrədən:** “Uşaqlar, biz indi bir oyun oynayacağıq. Mən sizə “böyü” deyəndə siz əllərinizi geniş açacaqsınız, ayağa qalxacaqsınız. Mən sizə “balaca ol” deyəndə siz yumurlanıb balacalaşacaqsınız”.

### *Hissə 3. Praktik tapşırıq*

***Oyun. Balaca/böyük.***

**Qeyd:** Bu oyunu oynamadan öncə Öyrədən uşaqlar ilə “Əlavə 10”-da verilən rəsmləri (böyük-kiçik) ölçüsünə görə müzakirə etməlidir.

Öyrədən döşəməyə  “Əlavə 10”-da verilən “böyük/kiçik” mövzusuna dair rəsmləri döşəməyə (məsafəli) yerləşdirir. Uşaqlardan xahiş edir ki, otaqda səpələmə dayansınlar.

**Öyrədən:** “Uşaqlar mən “böyük” kəliməsini deyəndə siz qaçıb hər hansı böyük ölçülü əşyanın (rəsmdəki heyvan, əşya və ya insan ola bilər) üzərində dayanmalısınız. Əgər mən “kiçik” kəliməsini səsləndirsəm, o zaman siz kiçik ölçülü əşyanın üzərində dayanmalısınız”.

**Qeyd:** Tez qaçıb yerini tuta bilməyən uşaqlar dairədə əyləşir, oyun digər uşaqlar ilə davam edir. Öyrədən oyunu maraqlı etmək üçün kartların sayını oyunun sonuna yaxın azalda bilər.

***Uğur göstəricisi:*** İki əşyanı böyüklüyünə (böyük/kiçik), uzunluğuna (uzun/qısa), eninə (enli/ensiz) görə müqayisə edir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Müxtəlif fiziki hərəkətlərlə (tapşırıqları yerinə yetirməklə qaçış və yeriş, top diyirlətmək, iki ayaq üstündə tullanmaq) böyük motorikanın inkişafına təkan vermək

### *Hissə 1.*

Uşaqlar bir cərgə ilə gedir. Öyrədənin "Təyyarələr!" siqnalı ilə uşaqlar əllərini qanad şəklində açaraq səpələng qaçırlar, sonra yeriyirlər (hərəkətlərin növbələnməsi davam edir). Öyrədən uşaqların bir-biri ilə toqquşmamasına nəzarət edir.

### *Hissə 2. Top ilə inkişafetdirici hərəkətlər.*

1. Ayaqlar bir pəncə enində aralı, top aşağıda. Qollar düz, topu qarşıya qaldırmaq; topu yuxarı qaldırmaq; topu qarşıya endirmək; ilkin vəziyyətə qayıtmaq (4 dəfə).
2. Oturaq vəziyyətdə ayaqlar aralı, topu sinə səviyyəsində tutmaq, qollar bükülü. Topu yuxarı qaldırma, irəli əyilib döşəməyə toxunmaq; dikəlmək, topu yuxarı qaldırmaq, ilkin vəziyyətə qayıtmaq (4–5 dəfə).
3. Sallağı oturmaq, dabanları yerə toxundurmaq (bu zaman top yerdə olur). Topu sağa və sola ötürməklə öz ətrafında fırlatmaq, əllər növbələnir (hər tərəfə 3 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

Tullanmaq. Oyun üzərində məşq. "Hop-hop qurbağalar".

Otağın bir tərəfində yerə kəndir qoyulur – bu, bataqlıqdır. Uşaqlar – "hop-hop qurbağalar" otağın digər tərəfində bir xətt üzrə düzülürlər. Öyrədən metallafonda çalır və bu ritmə uyğun olaraq, uşaqlar iki ayaq üzərində "bataqlıq" istiqamətində tullanırlar (təxminən 16 dəfə). Kəndirə çatanda "Şap!" deyib üzərindən tullanırlar. Fasilədən sonra oyun üzərində məşq davam edir. Əgər qrup böyükdürsə, uşaqlar iki xətt üzrə düzülürlər. Xəsarətlərdən qaçmaq üçün sıralar arasındakı məsafə 1,5-2 metr olmalıdır. İkinci sıranın uşaqları oyuna bir az gec, Öyrədənin işarəsi ilə başlayırlar.

**Məqsəd:** Müxtəlif fiziki hərəkətlər edə bilir: tapşırıqları yerinə yetirməklə qaçış və yeriş, top diyirlətmək, iki ayaq üstündə tullanmaq və s. Böyük motorikası inkişaf edib.

## Hərəkətli oyun: "Bacarıqlı sürücü"

Hər birinin əlində sükan (yastıq) uşaqlar otaqda dağınıq şəkildə dayanıblar. Öyrədənin siqnalı ilə uşaqlar – "maşınlar" bir-birinə mane olmadan otaqda müxtəlif istiqamətdə hərəkət edirlər. Öyrədən qırmızı rəngli dairəni qaldıranda bütün maşınlar dayanır. Yaşıl qaldırılarsa, uşaqlar hərəkətə davam edirlər. Öyrədən sarını göstərərsə, uşaqlar yerlərində qaçırlar.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

**Öyrədən:** ”Uşaqlar, bəs sizin üçün bu gün nə ilə yadda qaldı?” Öyrədən həzin musiqi sədaları altında hər uşağın güclü cəhətləri haqqında danışır.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:**

“Sabahınız xeyir! Gəlin balışlarımızı götürüb dairədə oturaq. Bu gün hava necədir? Tutqun havada əhvalımızı necə qaldıra bilərik? (Uşaqların cavabı). Mən sizə təbəssüm bağışlayıram. Yanınızdakı yoldaşlarınıza da siz təbəssümünüzü hədiyyə edin. Bir-birinizə gülümsəyin”.

***Təqvimlə iş***

Məqsəd: Qış fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək (yağıntılı hava)

***“Qar” oyunu***

Uşaqlar dairəyə düzülüblər (yaxud döşəkçələrdə oturublar).

**Öyrədən:** “Uşaqlar, mən indi sizin üçün bir musiqi parçası səsləndirəcəyəm. Musiqi başlayanda otağımıza “qar yağacaq”. Biz isə qar dənəciklərini əl çalaraq sayacağıq.

Bir (iki, üç, dörd, beş) qar dənəsi düşdü! (uşaqlar bir, iki, üç, dörd, beş dəfə əl çalırlar)

Beş (dörd, üç, iki, bir) qar dənəsi düşdü! (uşaqlar beş, dörd, üç, iki, bir dəfə əl çalırlar)”

İndi isə sinfimizə yağmış qardan qartopu düzəldib hər hansı bir dostunuzun adını çəkin və ona atın”

***Uğur göstəricisi:*** qış fəslində müşahidə edilə bilən hava durumunu bilir. Kiçik motorika bacarıqlarına-qarı yumrulamaq, atmaq sahibdir.

***Mövzuya giriş***

**Öyrədən:** “Bu gün yol hərəkəti qaydaları haqqında mövzumuzu davam edirik.”

## Barmaq oyunu: “Yol hərəkəti qaydaları”

1. Sən yola bax diqqətlə! (hər iki əlin çeçələ barmağından başlayaraq qatlayırıq)
2. İşıqfor da var hələ.
3. Yol nişanın qaçırma,
4. Keçidi istifadə et.

Qaydanı hamı bilsin, (hər iki əldə barmaqlar eyni anda açılır)

Qoy riayət eləsin.

## Nitqin inkişafı: “İşıqforu xilas edək!”

**Məqsəd:** Uşaqların yol nişanları haqqında biliklərini yoxlamaq və möhkəmləndirmək, nəqliyyat növləri haqqında bilikləri möhkəmləndirmək, diqqət və məntiqi düşüncəni inkişaf etdirmək.

**Vəsait:** Yol nişanları (avtobus dayanacağı, piyada keçidi və s.).

***Hissə 1. İzahat***

**Öyrədən:** “Uşaqlar, bu gün mən dostumuz İşıqfordan məktub almışam. İşıqfor yazır ki, onu tilsimləyiblər və indi o, düzgün işləmir.

Bəs, uşaqlar, əgər İşıqfor olmasa, nə baş verər? (Yollarda qəzalar olar, insanlar xəsarət alar.)

Biz nə edə bilərik? (uşaqların cavabı)

Doğrudur, uşaqlar, ona kömək etməliyik! Bunun üçün bir neçə tapşırıq yerinə yetirmək lazımdır. Hazırsınız?

Biz avtobusla ona qonaq gedirik və yolüstü onun tapşırıqlarını yerinə yetirəcəyik. Gəlin stullardan avtobus düzəldək. (Avtobus dayanacağı nişanının yanında Öyrədən və uşaqlar stulları iki-iki cərgəyə düzərək avtobus düzəldirlər.)

Bəs avtobus harada dayanır? ( Dayanacaqda)

Biz onu necə tapa bilərik? (Avtobus şəkli olanyol nişanı ilə)

Afərin! Avtobusda yerlərimizi tutmağın vaxtıdır. Amma yalnız nəqliyyat vasitələrindən birinin adını çəkən uşaqlar avtobusda yer ala bilərlər.

### *Hissə 2. Sual-cavab*

Nə qədər ki yol gedirik, mən sizə bir neçə sual verəcəyəm.

- Nəqliyyat vasitəsini kim idarə edir?
- Avtobusda gedən şəxsi necə adlandlandırırıq?
- Küçədə gedən adamları necə adlandırırıq?

Birinci tapşırığın öhdəsindən gəldiniz. Məncə, İşıqfor razı qalacaq.

Biz gəlib çatdıq. İndi isə maşın yolunu keçməliyik.

- Maşın yolunu necə keçmək olar? (Piyada keçidi (zebra) ilə)
- Bəs onu necə tapmaq olar? (Zolaqlı yol nişanı ilə)
- Əgər piyada keçidi yoxdursa, nə etmək lazımdır? (Yola yaxınlaşıb əvvəlcə sola, sonra sağa baxmaq lazımdır; əgər maşın yoxdursa, yolu keçirik; əgər yaxınlıqda maşın varsa, onu buraxmaq lazımdır (Öyrədən və uşaqlar yolu piyada keçidindən keçirlər).

### *Hissə 3. Yol hərəkəti nişanlarının dayanacağında*

**Öyrədən:** “Biz sizinlə yol nişanları dayanacağına çatmışıq. Düşün. Siz onlarla tanışsınız?

Öyrədən bir neçə işarə göstərir və uşaqlara onlar haqqında danışır. Uşaqlar bəzi yol hərəkəti qaydalarını özləri tapmağa çalışır. Yol hərəkəti nişanlarını oyuncaq maşınlar vasitəsi ilə əyani nümayiş etdirilir.

Afərin! İndi işıqforun tilsimi dəqiq açılacaq.

Avtobus geri qayıtmaq üçün yola düşür!”

***Uğur göstəricisi:*** Uşaqların yol nişanları, nəqliyyat növləri haqqında məlumatı var. Diqqət və məntiqi yaşına uyğundur.

## Hərəkətli oyun: "Qatar"

**Məqsəd:** Cərgəyə düzülmək və cərgədə hərəkət etmək, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirmək vərdişlərini inkişaf etdirmək.

Uşaqlar Öyrədənin arxasınca bir-birinin belindən tutaraq cərgəyə düzülürlər. Öyrədən “parovoz”, uşaqlar isə “vaqon” olurlar. Öyrədən “Tu-tuuu” səsini çıxarır və qatar ya dairəvi, ya da ilanvari hərəkətə başlayır (uşaqlar “çu-çu-çu” səsi çıxara bilərlər). Öyrədən elan edir: “Tullanmaq stansiyası!”

Uşaqlar bir-birinin belini buraxıb iki ayaq üstündə tullanırlar. Qatar yenidən eyni qayda ilə yola düşür. “Rəqs dayanacağı” – uşaqlar musiqi sədaları altında rəqs edirlər. “Qaçış dayanacağı!” – qavalın sədaları altında uşaqlar səpələng qaçırlar. Sonra böyük uşaqlardan biri “parovoz” olur və oyun davam edir.

***Uğur göstəricisi:*** Cərgəyə düzülməyi və cərgədə hərəkət etməyi bacarır, işarə əsasında müxtəlif hərəkətləri yerinə yetirmə bacarığına malikdir.

## Rəsm: “Zolaqlı piyada keçidi”

**Məqsəd:** Düz, enli xətlərin çəkilməsini öyrətmək, “piyada keçidi” anlayışını möhkəmləndirmək

**Vəsaitlər:** Yol nişanları, uzununa iki hissəyə bölünmüş qara A4 vərəqi, fırça, ağ quaş

**Öyrədən:**

- “Uşaqlar, biz səyahətimizdə piyada keçidinə rast gəlmədik; yalnız “piyada keçidi” nişanını gördük (Yol nişanını nəzərdən keçirirlər.).
- Gəlin piyada keçidini  özümüz çəkək. Bu bizim yolumuzdur (Qara vərəqdən olan zolaqları göstərir).
- Bu isə yolu keçmək istəyən piyadadır (adam, yaxud digər kiçik oyuncaq). Qəzanın baş verməməsi üçün gəlin onun üçün piyada keçidi çəkək.
- Fırçanı ağ boyaya batırırıq və qara vərəqin üzərində enli ağ zolaqlar çəkirik.”
- Zolaqlar quruyanda uşaqlar oyuncaqlarını keçiddən keçirirlər.

***Uğur göstəricisi:*** Düz, enli xətt çəkə bilir, “piyada keçid” anlayışına malikdir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar

## Son  toplantı

**Öyrədən:** “Uşaqlar, sizə afərin! Bu gün ən diqqətli kim olub? Gəlin yoxlayaq!

Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabı). Afərin! ”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar və Öyrədənlər növbə ilə bir-birini salamlayırlar: "Salam, dost! Mən səni görməyə çox şadam!". Bundan sonra hər kəs əl-ələ tutur və deyir: "Salam, dostlar!".

***Təqvimlə iş***

Məqsəd: Qış fəslində oynanıla bilən oyunlarla uşaqları tanış etmək

## "Qartopu" oyunu

Uşaqlar dairəyə düzülüblər.

**Öyrədən:** "İndi elə təsəvvür edin ki, sinfimizə qar yağıb. Yağmış qardan qartopu düzəldib hər hansı bir dostunuzun adını çəkin və ona atın".

## "Xizək" oyunu

**Öyrədən:** "Uşaqlar, indi biz sinifdə hərəkət edəcəyik. Hərəkət edərkən ayağımızı döşəmədən ayırmamalıyıq. Elə təsəvvür etməliyik ki, biz buzun üzərində sürüşürük. Mahnıya qulaq asaq!

## Barmaq oyunu: "Qış əyləncəsi"

Biz qışda neyləyirik? (Barmaqları ilə özlərini göstərirlər.)

Xizəklə əylənirik,(Əllərini yanları ilə qabaqdan arxaya aparırlar.)

Bir-birimizin üstünə,

Qartopu ələyirik, (Xəyali qartopu duzəldib bir-birinə atırlar.)

Pambıq kimi ağ qardan,

Qar adamı düzəldirik. (Əlləri ilə xəyali qarı toplayırlar.)

***Uğur göstəricisi:*** Qış fəslində oynanıla bilən oyunları bilir.

***Mövzuya giriş***

**Öyrədən:** "Bu gün piyadaların təhlükəsiz hərəkəti üçün qaydaları xatırlayacağıq. Yollarda təhlükəsizliyi təmin edən vasitələrdən birini çox yaxşı tanıyırıq-işıqfor. Gəlin mövzumuzu işıqfor haqqında bir şeirlə davam edək".

Qırmızı, yaşıl, sarı, (baş barmaqdan başlayaraq, 3 barmağı bir-bir açırlar)

Nəqliyyat işıqları.

Yanmasa o işıqlar,

Yollar tamam qarışar. (Əlləri havada müxtəlif istiqamətdə yelləyirlər.)

Qırmızı yandı, dayan! (Əl ilə dayan işarəsi göstərirlər - qol irəli, ovuc çölə istiqamətlənib.)

Maşın gəlir o yandan. (Sol tərəfi göstərirlər)

Sarıda tələsməyən, (Şəhadət barmağını qaldırıb havada yelləyirlər.)

Uzaq olar bəladan.

Yandı yaşıl oyaq ol,

Marş irəli yaxşı yol. (İki qolu dirsəkdən qatlayıb sonra irəli açırlar).

## Barmaq oyunu: “Yol hərəkəti qaydaları”

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Tək cərgə ilə gəzmək, Öyrədənin işarəsi ilə hərəkət etmək, topu diyirlətmək, çevik reaksiya vermək bacarığını inkişaf etdirmək

### *Hissə 1. "Piyadalar" adlı oyun tapşırıqları*

Uşaqlar qavalın sədası altında otaq boyunca addımlayırlar. Öyrədən qırmızı dairəni yuxarı qaldırdıqda dayanırlar, sarını qaldırdıqda yerində addımlayırlar, yaşılda isə hərəkətə davam edirlər. Bu, bir neçə dəfə təkrarlanır.

### *Hissə 2. Yastıq ilə ümumi inkişaf oyunları*

1. Ayaqlar bir pəncə enində aralı, qollar sinə səviyyəsində qatlanıb, əldə yastıq var. Qolları tam açaraq yastığı yuxarı qaldırmaq. Yastığı aşağı salıb, ilkin vəziyyətə dönmək (5 dəfə).
2. Ayaqlar çiyin bərabərində aralı, qollar sinə səviyyəsində qatlanıb, əldə yastıq var. İrəli əyilərək yastıqla yerə toxunmaq. Qalxıb ilkin vəziyyətə dönmək (4–5 dəfə).
3. Ayaqlar bir pəncə enində aralı, yastıq aşağıda iki əl arasında. Əyləşib yastığı önə tərəf uzatmaq. Ayağa qalxıb ilkin vəziyyətə dönmək (4–5 dəfə).
4. Yastıq yerdə – uşağın qarşısında. Yastığın üstündən irəliyə və geriyə hoppanma (2-3 dəfə).

### *Hissə 3. Topu bir - birinə diyirlətmək*

Uşaqlar aralarındakı məsafə 2 m olmaqla iki cərgəyə ayrılırlar. Öyrədən kəndirlə hər iki cərgə üçün başlanğıc nöqtəni müəyyənləşdirir. İlkin vəziyyət – diz üstündə, top yerdə (birinci qrup üçün). Öyrədənin "Diyirlət!" göstərişi ilə hər bir uşaq topu yoldaşına ötürür, o isə öz növbəsində topu tutub, yenə də Öyrədənin göstərişi ilə geri ötürür (4–5 dəfə).

***Uğur göstəricisi:*** Tək cərgə ilə gəzmək, Öyrədənin işarəsi ilə hərəkət etmək, topu diyirlətmək, çevik reaksiya vermək bacarığına malikdir.

## Hərəkətli oyun: "Bacarıqlı sürücü"

Hər birinin əlində sükan (yastıq) uşaqlar otaqda dağınıq şəkildə dayanıblar. Öyrədənin siqnalı ilə uşaqlar – "maşınlar" bir-birilərinə mane olmadan otaqda müxtəlif istiqamətdə hərəkət edirlər. Öyrədən qırmızı rəngli dairəni qaldıranda bütün maşınlar dayanır. Yaşıl qaldırılarsa, uşaqlar hərəkətə davam edirlər. Öyrədən sarını göstərərsə, uşaqlar yerlərində qaçırlar.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, hansı yol hərəkəti qaydalarını bilirsiniz? (Uşaqların cavabı)

Gəlin bir daha yol hərəkət nişanlarını xatırlayaq. (Uşaqların cavabı). Afərin!”

# Fevral | 17-ci həftə | Mövzu: “Ev heyvanları”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Mən hər birinizi görməyə çox şadam! İstirahət günlərini necə keçirdiniz?

**Öyrədən:** “Uşaqlar, bu gün kim dərsə gəlməyib? Kim səbəbi bilir?”

***Təqvimlə iş***

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

***Mövzuya giriş***

Öyrədən lövhədən üzü çevrilmiş bir rəsm asır.

**Öyrədən:** “Uşaqlar, mən sizə bir tapmaca deyəcəyəm. Əgər ki tapa bilsəniz, o zaman tablonu çevirəcəyik və bu rəsmdə nə təsvir olunduğunu görəcəksiniz. Bundan sonra maraqlı məşğələlər başlayacaq”.

Altı bulaq içərlər, Üstü zəmi biçərlər. (Qoyun)

### Ətraf aləmlə tanışlıq: Ev heyvanları

Vəsaitlər: Ev heyvanlarının şəkilləri (fiqurları, oyuncaqları) (Əlavə 1)

**Məqsəd:** Uşaqları ev heyvanları və onların həyat tərzi ilə tanış etmək

***Hissə 1. Müşahidə***



Öyrədən uşaqların ev heyvanları haqqında ilkin biliklərini yoxlamaq üçün onlara plastik ev heyvanları oyuncaqları təqdim edir.  Öyrədən hər bir uşağı diqqətlə müşahidə edir və onların hansı heyvan ilə necə davranacağına dair qeydlər götürür.

**Qeyd:** Diqqət ediləcək məqamlar: Uşaqlar heyvanların səsini çıxarırmı? Uşalqar hevyanların təyinatını (ikək süd verir, it bizi qoruyur) bilir.

**Qeyd:** Qrup iki hissəyə ayrılır və oyuncalar sinfin iki hissəsində yerləşdirilir.

***Hissə 2. Əqli hücum***

“Uşaqlar, siz evinizdə (həyatinizdə) bu gördüyünüz heyvanlardan hansını saxlayırsınız? Əgər heyvanın adını bilmirsinizsə, siz o heyvanı sadəcə oyuncaqların içərisindən seçib göstərə bilərsiniz”.



***Hissə 3. Heyvanların adını öyrənirik.***
***(Əlavə 1)***

Öyrədən ev heyvanları təsvir edilən kartları döşəməyə düzür, plastik heyvan oyuncaqlarını isə yanına qoyur.

“Uşaqlar, bir baxın görün mənim əlimdə hansı heyvan var? Uşaqların cavabı: “İt”. Afərin sizə. İndi isə gəlin həmin heyvanın

rəsmini yerdə yerləşdirdiyim kartlarda tapmağa çalışaq. Bu heyvan, adətən, evdə və ya həyətdə, insanların yanında yaşayır. İt faydalı heyvandır, çünki o bizi qoruyur, hətta digər heyvanları da canavardan qoruyur. Ona görə də biz onlara qayğı göstəririk: yemlərini, sularını verir, sağlamlığının qeydinə qalırıq".

**Qeyd 1.** Öyrədən hər bir heyvan haqqında video da tədim edə bilər.

**Qeyd 2.** Öyrədən nümunədə verilən (it haqqında) qayda ilə bütün ev heyvanları haqqında uşaqlara məlumat verir.

### *Hissə 4. İdman fasiləsi*

Öyrədən şeiri deyir və məzmuna uyğun hərəkətlər göstərir. Uşaqlar təkrar edirlər

**Pişik**
**Pişik ala boyundur,**
**İşi tamam oyundur.**
**Əlin asta basandır,**
**Bucaqları pusandır.**
**Əl-üzünü yuyandır,**
**Səs-səmiri duyandır.**
***(Mirmehdi Seyidzadə)***

### *Hissə 5. Heyvanların səslərini tanıyırıq.*



**A.** Öyrədən əlində olan heyvan rəsmləri təsvir edilən kartları toplayır, otaqda gəzir, kartları qarışdırır və hər hansı kartı uşaqlara göstərir. Uşaqlar həmin kartda təsvir edilən heyvanın adını tapmağa çalışır, Öyrədən isə heyvanın səsini çıxarır. Bu hissə bütün heyvanların adı çəkilənə qədər davam edir.

a. Öyrədən heyvan səslərini video və ya audio ilə də səsləndirə bilər.

b. Video və ya audioda səsləndirilən heyvan səsləri Azərbaycan dilinə uyğun olmalıdır. Məsələn: İt – Hav... hav... İnək - Mooo...mooo...

**B.** Öyrədən əyləşib. Uşaqlar musiqi sədaları altında sinifdə səpələmə gəzişir. Öyrədən musiqinin səsini kəsər-kəsməz hər hansı heyvanın rəsmini göstərir. Uşaqlar o heyvanın səsini çıxartmalıdırlar. Uşaqlar heyvan səslərini düzgün tapsalar, hər kəs əl çalır.

### *Hissə 6. Heyvanların adlarını bilirik və səslərini tanıyırıq.*



Öyrədən ağ lövhədə marker ilə hər hansı bir heyvanın rəsmini çəkməyə çalışır. Məsələn: Pişiyin qulaqları, başı, burnu və bığları çəkilir. Uşaqlar rəsmi tamamlamadan tapmağa çalışırlar.

Qeyd 1. Öyrədən heyvan rəsmini çəkərkən hər bir detalı tamamladıqdan sonra dayanır və uşaqlardan o rəsmi tapmalarını xahiş edir. Əgər rəsmdəki heyvanın adı tapılmazsa, Öyrədən prosesi davam etdirir.

***Uğur göstəricisi:*** Ev heyvanları və onların həyat tərzi ilə tanışdır.

## Hərəkətli oyun: "Pişik və siçanlar"

**Məqsəd:** Barmaqları üzərində gəzməyi və maneələrdən qaçaraq hərəkət etməyi məşq etmək

Uşaqlar stullarda (siçan yuvalarında) əyləşiblər. Otağın əks tərəfində Öyrədən (pişik) gözlərini yumub yatıb. Siçanlar (uşaqlar) qalxıb otaqda sərbəst hərəkət edirlər. Pişik (Öyrədən) oyanır və siçanları (uşaqları) tutmağa çalışır. Uşaqlar da qaçıb dərhal öz yerlərini (siçan yuvalarını) tutmalıdırlar. Pişiyin (Öyrədən) tutduğu uşaqlar oyundan çıxır. Pişik rolunu növbə ilə uşaqlar da icra edə bilərlər.

## Yapma: "Pişik"

**Məqsəd:** Həndəsi fiqurlardan kompozisiya yaratmağı öyrətmək. Həndəsi fiqurlar barədə bilikləri təkrarlamaq

**Vəsaitlər:** Diametri 10 sm olan iki böyük dairə (baş, bədən), diametri 2 sm olan üç kiçik qara dairə (gözlər və burun), 1x3 sm ölçüdə 5 zolaq (ayaqlar və quyruq), 0,5x6 sm ölçüdə qara rəngdə üç zolaq (bığ), iki kiçik üçbucaq (qulaqlar), fırça, yapışqan, qayçı, hazır nümunə

**Öyrədən:**

- “Uşaqlar, görün bizə kim qonaq gəlib? (Əlindəki oyuncağı göstərir.)
- Gəlin ona yaxından baxaq. Pişik necədir? (Tüklü, yumşaq)
- Pişiyin nəyi var? (Başı, bədəni, qulaqları, gözləri, burnu, bığları, quyruğu, ayaqları)
- Pişik necə səs çıxarır? (Myau-myau)

Uşaqlar, bizim pişiyimiz çox darıxır. Gəlin onun üçün dostlar düzəldək. Bunun üçün qarşınızdakı həndəsi fiqurlardan istifadə edəcəksiniz”.

Öyrədən hər bir həndəsi fiqurun hansı bədən üzvü üçün nəzərdə tutulduğunu izah edir. Kompozisiyanı yığmaqda çətinlik çəkən uşaqlara, xüsusilə, azyaşlılara Öyrədən kömək edir.

***Uğur göstəricisi:*** Həndəsi fiqurlardan kompozisiya yaratmağı bacarır.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, hər kəs özünə bir yoldaş tapsın, onun əlindən tutub xoş bir söz desin (qucaqlasın).

- Məşğələmizdə ən diqqətli kim olub?
- Bu gün mövzumuz nə idi?

Afərin sizə! ”

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

Uşaqlar əlləri dizlərinin üstündə dairədə oturublar. Salamlaşarkən onlar bir-birilərinin əllərindən tuturlar və hamı salamlaşıb qurtaranadək əllərini buraxmırlar; beləliklə, dairə qapanır. Uşaqlar möhkəm əl-ələ tutub əllərini yuxarı qaldırırlar və hamı birlikdə "Sabahınız xeyir!" deyir.

Davamiyyət yoxlanılır. **Öyrədən:** "Uşaqlar, kim deyər? Bu gün dairə zəncirimizdə bizim ilə kim salamlaşmadı? Kim qrupda deyil?"

### *Təqvimlə iş*

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

### *Mövzuya giriş*

**Vəsaitlər:** Daş (çay daşı, ağır olmayan), Firəngiz adlı bir gəlincik, qırmızı geyimli gəlincik

**Qeyd:** Öyrədənin qırmızı geyimli gəlinciyi olmadığı təqdirdə özü də qırmızı geyim geyinə bilər və ya hər hansı valideyndən uşaqlardan birini qırmızı geyimdə məktəbə göndərməyini rica edə bilər.

Öyrədən bir musiqi səsləndirir. Musiqi motivasiyaedici olmalıdır. Öyrədən sinifdə gəzir və saymağa başlayır.

1, 2 – bizimki, (əlləri ilə özünü qucaqlayır)

3, 4 - qapını ört! (əli ilə sanki qapı örtür)

Öyrədən uşaqlara onunla bərabər bu tapşırığı davam edə biləcəyini işarə ilə anladır.

5, 6 - daş altı, (Öyrədən ayılır, yerdə sanki daş varmış kimi qaldırır.)

7, 8 - Firəngiz,

9, 10 - qırmızı don (Öyrədən öz paltarına və ya hər hansı oyuncağın qırmızı paltarına işarə edir.)

## Riyaziyyat: Say: 10-a qədər və daha çox saymaq

**Məqsəd:** 3-ə (5-ə) qədər rəqəmləri adlandırmağı təkrar etmək. 10-a qədər şifahi saymağı öyrətmək

### *Hissə 1. Müzakirə*




Öyrədən uşaqlar ilə üzbəüz oturur. Rəqəmləri öyrətmək üçün bəzi tanış obyektlərdən istifadə edir (məsələn, öncəki dərslərdə "Meyvələr" mövzusunda istifadə etdiyimiz meyvələr bu dərs üçün də istifadə edilə bilər). Əvvəlcə meyvələrin hər birinin adını təkrar edin. Hər bir meyvəni sıra ilə qarşınızdakı yerə / masaya qoyun. Sonra hər meyvəyə toxunun və yavaş-yavaş sayın (**Öyrədən:** "1 ... 2 ... 3"). Bunu iki-üç dəfə edin. Sonra hər meyvəni saydıqda / toxunduğunuzda yekun sayı qeyd edin. Məsələn: "Mən almaları sayıram. 1 ... 2 ... 3... 4. Neçə alma var? 4 ədəd almamız var".

**Qeyd 1.** Öyrədən bütün meyvələri sayır və hər birinin yekun sayını qeyd edir.

**Qeyd 2.** Öyrədən meyvələri uşaqlarla bərabər - xor şəkildə kollektiv saymalıdır.

### *Hissə 2. Praktik iş*




Öyrənənləri iki-iki qruplaşdırın və hər qrupa bir sıra əşyalar verin (məsələn: 3 plastik meyvə, 2 maşın, 4 qələm və s.). Öyrənənlər cisimləri saymağı və onlara toxunmağı təcrübədən keçirməlidirlər.

**Öyrədən:** “Uşaqlar, siz öz əşyalarınızı qruplaşdırmalı, sonra isə saymalısınız. Baxın, mən necə edirəm? "1 ... 2 ... 3 alma var. Almaları digər əşyalardan ayırdım. 1 ... 2 ədəd qələm var. Onları da ələmətinə görə eyniləşdirdim və ayrıca qoydum”.

### *Hissə 3.*



Öyrədən böyük bir qutunu sinfin ortasına yerləşdirir və öyrətdiyi rəqəmlər üçün (məsələn, 3 plastik meyvə, 3 maşın, 3 qələm və s.) əşya seçir, hər kateqoriyanın kifayət qədər obyekti olmasından əmin olur. Əşyaları sinfə səpələmə paylayır. Sonra bir uşaq seçir və “......., qutuya üç (qələm) qoy” deyir.

**Qeyd 1.** Öyrədən uşaq hər bir obyekti götürərkən sinifdə hər kəsin saydığından əmin olmalıdır. (1… 2… 3). Sonra öyrənən obyektləri qutuya qoyarkən də saymalıdır.

**Qeyd 2.** Bu tapşırıq tərsinə də yerinə yetirilə bilər. Yəni uşaqlar oyuncaqları qutudan çıxarıb sinifdə səpələmə yerləşdirə bilərlər.

### *Hissə 4.*



Öyrədən hər hansı bir zərb aləti və ya digər musiqi aləti ilə ritm tutur. 1-dən 10-a qədər rəqəmlər lövhədə asılı olur. Öyrədən rəqəmləri ritmə uyğun səsləndirdikcə uşaqlar Öyrədən ilə birlikdə sayır.

Nümunə: Mahnı ritmi.

1 – 2 – 3 – 4 – 5

6 – 7 – 8 – 9 – 10

1 – 2 – 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10

**Qeyd:** Öyrədən istənilən ritmdən istifadə edə bilər. Ritm hər hansı mahnının sözlərinə də uyğunlaşdırıla bilər.

***Uğur göstəricisi:*** 3-ə (5-ə) qədər rəqəmləri adlandırmağı bacarır. 10-a qədər şifahi saymağı bilir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Tapşırıqları yerinə yetirməklə qaçış və yeriş, irəliləməklə iki ayaq üzərində tullanmaq bacarıqlarını inkişaf etdirmək

### *Hissə 1.*

Uşaqlar bir cərgə ilə gedir.Öyrədənin "Təyyarələr!" siqnalı ilə uşaqlar əllərini qanad şəklində açaraq səpələng qaçırlar, sonra yeriyirlər (hərəkətlərin növbələnməsi davam edir). Öyrədən uşaqların bir-birinə dəyməməsinə nəzarət edir.

### *Hissə 2. Ümumi inkişaf üçün yaylıqla oyun*

- Ayaqlar bir pəncə enində aralı, hər iki əldə yaylıq sinə səviyyəsində. Qolları qarşıya açmaq, yaylıqları göstərmək, ilkin vəziyyətə qayıtmaq (4–5 dəfə).
- Ayaqlar çiyin bərabərində aralı, hər iki əldə yaylıq aşağıda tutulub. Əyilib yaylığı sağa, sonra sola yelləmək, ilkin vəziyyətə qayıtmaq (5 dəfə).
- Ayaqlar bir pəncə enində aralı, hər iki əldə yaylıq aşağıda tutulub. Oturaq vəziyyət alıb yaylıqları qarşıya uzatmaq. Ayağa qalxıb ilkin vəziyyətə qayıtmaq (4–5 dəfə).
- Ayaqlar bir az aralı, yaylıq sağ əldə. Yaylığı baş üzərində yelləyərək iki ayaq üzərində tullanmaq və yerində yerişlə növbələmək (qaval, yaxud musiqi sədaları altında).

### *Hissə 3. Əsas hərəkət növləri*

"Çuxurdan-çuxura" tullanmaq. Qalın kartondan hazırlanmış yastı halqalar paralel iki sırada düzülüb (5-6 ədəd, bir-birindən 40 sm aralıda). Bunlar hamısı"çuxur"lardır.

Uşaqlar iki cərgə düzülür və iki ayaq üzərində çuxurdan-çuxura tullanır, (fasiləsiz, yaxud çuxurun qarşısında kiçik fasilə ilə) yerə yarımbükülü ayaqlar üzərinə enirlər (2–3 dəfə).

***Uğur göstəricisi:*** Tapşırıqları yerinə yetirməklə qaçış və yerişi, irəliləməklə iki ayaq üzərində tullanmağı bacarır.

## Hərəkətli oyun: “Sərçələr və pişik”

Uşaqlar yerdə yerləşdirilmiş halqaların içərisində oturub. Uşaqlar sərçələri, onların oturduğu dairələr isə quşların yuvalarını təmsil edir. Pişik isə sinfin kənarında yerdə qıvrılmış şəkildə əyləşib. Öyrədən “Uçun, sərçələrim!” dedikdə bütün sərçələr uçur və pişik onları tutmağa çalışır. Pişiyə yaxalanan öyrənən kənarda oturur və qalan uşaqlar ilə oyun davam edir.

Qeyd: Oyun əsnasında Öyrədən pişiyi canlandıran uşağın da yerini dəyişə bilər.

## Sərbəst fəaliyyət: Oyunlar

## Son toplantı

Öyrədən sakit musiqi sədaları altında məşğələdə baş verənlər haqqında danışır və hər bir uşağın güclü tərəflərini vurğulayır. Uşaqlar isə ən çox yadlarında qalan məqamlarla bölüşürlər.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Təklif edirəm ki, bu gün bir-birinizi qavaldan istifadə edərək salamlayasınız”.

Uşaqlar növbə ilə qavala vurmaqla müəyyən ritmlə bir-birini salamlayırlar. Bunun davamı olaraq, Öyrədən əl çalaraq sadə ritm yaradır. Əvvəl ən sadə ritmdən başlamaq lazımdır (bir-iki yavaş, bir-iki cəld). Ritmi bütün uşaqlar Öyrədən ilə birlikdə təkrar edir.

***Təqvimlə iş***

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Mən sizə bir tapmaca deyəcəyəm, siz isə cavabını tapmağa çalışacaqsınız.

**Ağ saqqalam, bəyirrəm,**
**Qıllarımı əyirrəm,**
**Mən keçdiyim yollardan,**
**Qoyun-quzu gətirrəm.**
**(Keçi)**

**Qeyd:** Uşaqlar, kim öz ev heyvanının qayğısına necə qaldığı haqqında danışmaq istəyir?”

## Nitqin inkişafı: Ev heyvanları

**Məqsəd:** Ev heyvanları və onların faydası haqqında bilikləri möhkəmləndirmək

## Nazlı və dostları: “Ev heyvanları”

***Hissə 1. Verilişi birlikdə izləmək***

Link: https://youtu.be/gMGFe4USEMo

**Qeyd:** Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu(linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

***Hissə 2. Sual-cavab***

- Uşaqlar, bəs, sizcə, insanlar heyvanları niyə öz yanlarında saxlayırlar?
- İnsanlar ev heyvanlarına necə qulluq edirlər?
- Bəs ev heyvanları insanlara necə fayda verir?

***Hissə 3. Oyun***

Mən sizə bir ev heyvanının səsini çıxaracağam, siz isə onun şəklini döşəmədə yerləşdirdiyim kartların içərisindən tapacaqsınız.

**Qeyd:** Uşaqlar heyvanları tapdıqca Öyrədən onların faydaları barəsində danışır.

- İnək (süd verir)
- Qoyun (yun verir)
- At (insanı, yükü daşıyır) və s.
- Uşaqlar, ev heyvanlarının bizə nə qədər faydası olduğunu anladınız? (uşaqların cavabları)
- Biz onları insanların köməkçisi də adlandıra bilərikmi? (uşaqların cavabları)
- Gəlin bu heyvanları “Bizim köməkçilərimiz” guşəsindən asaq. Kim mənə kömək edər?”

### *Hissə 4. Tapmaca saatı*

"Uşaqlar, deyin görüm:

- O hansı heyvandır ki, anadan saqqallı doğulur? (Keçi)
- O nədir ki, evə girməz, amma sədaqəti eldə gəzər? (İt)

***Uğur göstəricisi:*** Ev heyvanları və onların faydası haqqında biliyə malikdir.

### *Hərəkətli oyun: Hərəkətli oyun: "Pişik və siçanlar"*

**Məqsəd:** Barmaqları üzərində gəzməyi və maneələrdən qaçaraq hərəkət etməyi məşq etmək

Uşaqlar stullarda (siçan yuvalarında) əyləşiblər. Otağın əks tərəfində Öyrədən (pişik) gözlərini yumub yatıb. Siçanlar (uşaqlar) qalxıb otaqda sərbəst hərəkət edirlər. Pişik (Öyrədən) oyanır və siçanları (uşaqları) tutmağa çalışır. Uşaqlar da qaçıb dərhal öz yerlərini (siçan yuvalarını) tutmalıdırlar. Pişik (Öyrədən tutduğu uşaqlar oyundan çıxır. Pişik rolunu növbə ilə uşaqlar da icra edə bilərlər.

***Uğur göstəricisi:*** Barmaqları üzərində gəzməyi və maneələrdən qaçaraq hərəkət etməyi bilir.

## Rəsm: "İnəyin ləkələri"

**Məqsəd:** Cizgi daxilində barmaqlar ilə boyamağı öyrətmək, təxəyyülün inkişafını stimullaşdırmaq

**Vəsaitlər:** İnək şəkli olan boyama, sulu boya, su dolu qab, salfet

İşə başlamamışdan əvvəl Öyrədən uşaqlarla hər kəsin inəyinin nə rəngdə və ləkələrinin hansı şəkildə olacağı ilə bağlı fikir mübadiləsi aparır.

Öyrədən iş prosesini addım-addım izah edir:

"Uşaqlar, ilk növbədə inəyiniz üçün seçdiyiniz rəngə barmağınızı batırıb onu rəngləyirsiniz; sonra barmğınızı salfetlə silir və boyanın quruması üçün bir az gözləyirsiniz. Boya quruyandan sonra inəyin ləkələri üçün seçdiyiniz rəngə barmağınızı batırıb onu bəzəyirsiniz.

Görün necə əlvan inəklərimiz var!"

***Uğur göstəricisi:*** Cizgi daxilində barmaqlar ilə boyamağı bacarır.

## Səsli nağıl zamanı

### *Balaca Qırmızı Toyuq*

Üç tənbəl dost. Bir qoçaq toyuq. Bir parça çörək. Bu üç əsas element sadə bir ovsunla unudulmaz hekayəyə çevrilib.

**Link:** https://youtu.be/3si6KPt6BCc

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Qırmızı toyuq hansı heyvanlarla birgə yaşayırdı?
2. Evdə bütün işləri kim görürdü? Bəs o hansı işləri görürdü?
3. Buğdanı kim əkdi? Kim becərdi? Kim bəs buğdanı(taxılı) üyütdü? Bəs çörəyi kim bişirdi?
4. Bəs çörəyi kim yedi?
5. Siz də evdə valideynlərinizə kömək edirsiniz?

## Yekun toplantı

**Öyrədən:** "Bu gün  sizinlə nə barədə danışırdıq? Kim ev heyvanları haqqında yeni məlumat əldə etdisə, 1 dəfə əl çalsın. Məşğələdə ən çox nə xoşunuza gəldi?"

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** " Sabahınız xeyir! Mən sizi görməyimə çox şadam. Bu gün birlikdə hörümçək kimi tor düzəldəcəyik". Hamı bir-birini salamlayır və əlindəki yumağı (ipin ucundan tutmaq şərti ilə) atır. Beləliklə, tor yaranır.

### *Təqvimlə iş*

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

### *Mövzuya giriş*

Öyrədən plastik ev heyvanları oyuncaqlarını hazır edir.  Uşaqlardan biri seçilir, gözü şarf ilə yumulur. Uşaq gözü yumulu olduğu halda, əlində olan plastik heyvana toxunaraq onu tapmağa çalışır. Uşaq heyvanı tapmaqda çətinlik çəkərsə, uşaqlar həmin heyvanını səsini çıxardaraq öna kömək edirlər.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Siqnal əsasında hərəkət edərək bacarığını, çeviklik və koordinasiyasını inkişaf etdirmək

### *Hissə 1. "Sənin kubikin"*

Uşaqların sayına uyğun kubiklər dairəyə düzülür. Uşaqlar bu dairə ətrafında fırlanırlar. Öyrədənin "Kubik!" siqnalı əsasında uşaqlar dayanır və cəlb hər kəs bir kubik götürür. "Dairə!" göstərişi ilə uşaqlar kubikləri yerinə qoyur və hərəkətə davam edirlər. Hərəkət bir neçə dəfə təkrar olunur.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

1. Ayaq üstdə əlləri yuxarı qaldırıb dartınmaq. Sallağı oturmaq, əlləri dizlər üstünə qoymaq (5 dəfə).
2. Ayaqlar aralı, əllər arxada yerə oturmaq. Ayaqları növbə ilə qaldırmaq və aşağı salmaq (hər ayaqla 3 dəfə).
3. Qarın üstündə uzanaraq əlləri qabağa uzatmaq. Əlləri və ayaqları sqaldıraraq dartınmaq (5 dəfə).
4. Əllər beldə , ayaq üstündə dayanmaq. Hər istiqamətdə beldən əyilib qalxmaq (hər istiqamətdə 3 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri*

- Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və topu bu kubiklər arasından, onlara toxunmamaq şərti ilə keçirməyə çalışır.
- "Dəcəl böcəklər": Uşaqlar iki qrupa bölünüb sıra ilə düzülürlər. Hər sıranın qarşısında 2 metr aralıda iki kubik qoyulur (aralarında məsafə 1 metr). Hər sıradan bir uşaq irəli çıxır və iməkləyərək kubiklərin arasından keçir. Məsafə qət edildikdən sonra ayağa qalxıb başın üstündə əl çalmaq lazımdır.

***Uğur göstəricisi:*** Siqnal əsasında hərəkət etmək bacarığına malikdir, çevikdir və koordinasiyanı saxlaya bilir.

## Hərəkətli oyun: "Sərçələr və pişik"

Uşaqlar yerdə yerləşdirilmiş halqaların içərisində oturub. Uşaqlar sərçələri təmsil edir, onların oturduğu dairələr isə onların yuvalarını. Pişik isə sinfin kənarında yerdə qıvrılmış şəkildə əyləşib. Öyrədən "Uçun, sərçələrim!" dedikdə bütün sərçələr uçur və pişik onları tutmağa çalışır. Pişiyə yaxalanan öyrənən kənarda oturur və qalan uşaqlar ilə oyun davam edir.

**Qeyd:** Öyrədən oyun əsnasında  pişiyi canlandıran öyrənənin də yerini dəyişə bilər.

## Səsli nağıl zamanı

***Balaca balıq və böyük balina***

Balaca balığın dənizdə macərası. Dəniz quldurları ilə mübarizədə balaca balıq necə kömək edir?

**Link:** https://youtu.be/PnMKK5Ifabg

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Balaca balığın boynunda nə var idi?
2. Balıqlar niyə dənizin dərinliklərinə üzməyə başladılar?
3. Balaca balıq niyə gəmidəkilərə kömək etdi?
4. Balina və balıq dəniz quldurlarını necə dayandırdı?

## Son  toplantı

**Öyrədən:** “Uşaqlar, bu həftə hər biriniz çox çalışmısınız. Bunun üçün sizə afərin deyirəm və xoş istirahət arzu edirəm. Siz mənə nə arzu edirsiniz?”

# Fevral | 18-ci həftə | Mövzu: “Vəhşi heyvanlar”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! Yoldaşlarınızla salamlaşın və bir-birinizə istirahət günləriniz haqqında sual verin”.

***Təqvimlə iş***

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, baxın görün bizə kimlər qonaq gəlib? (vəhşi heyvanlardan bir neçəsinin oyuncağı, yaxud şəkli göstərilir).

Onlar haradan qonaq gəlib sizcə?”

### Barmaq oyunu: “Meşədə kim yaşayır”

**Meşədə kim yaşayır? (Meşəni imitasiya edərək barmaqlar birləşdirilir.)**
**Gözlərində çırağı, (Şəhadət barmaqla gözlər göstərilir.)**
**Dişlərində qırmağı, (Ovuclar açıq, barmaqlar yarı bükülü vəziyyətdə dişlər imitisiya edilir.)**
**Səsi adam ürküdər,**
**Zəhmi heyvan əsdirər. (Bütün bədən əsdirilir.)**
**(Canavar)**

### Ətraf aləmlə tanışlıq: “Vəhşi heyvanlar. Onlar harada yaşayırlar?”

**Məqsəd:** Vəhşi heyvanlar və onların həyat tərzi haqqında təsəvvür formalaşdırmaq

**Vəsaitlər:** Vəhşi heyvanların şəkilləri (oyuncaqları) və ya “Əlavə 2”-də təsvir edilən heyvan rəsmləri

***Hissə 1.***




Öyrədən plastik vəhşi heyvan oyuncaqlarından istifadə edir. Öyrədən məşğələdən əvvəl oyuncaqları və ya kartları bir çantaya qoyur. Çantanı çıxarır və içərisinə baxır – öyrənənlərin diqqətini cəlb etmək üçün sürpriz səslər çıxarır. Yavaş-yavaş, bir-bir heyvanları çəkir, torbadan çıxarır. Öyrədən heyvanı yavaş-yavaş torbadan çıxardıqca heyvan adını çəkir.

"Məsələn, bu nədir? Bu (Aslan). (Aslan), (Aslan), (Aslan)" "Aslan nə səs çıxarır?" "Kükrəyin!"



***Hissə 2. Oyun. Ötür-ötür.***

Öyrədən plastik heyvan oyuncaqlarını torbaya yerləşdirir. Torbadan bir heyvan çıxarır, onu öyrənənə ötürür. Öyrədən heyvanı öyrənənə ötürərkən heyvanın adını deyir və səsini çıxarır. Dairəvi şəkildə oturan uşaqlar da heyvanı bir-birinə ötürərkən eyni ilə Öyrədən kimi heyvanın səsini çıxarmalı və adını çəkməlidir. Öyrədən birinci heyvan oyuncaq bir neçə uşağa ötürüldükdən sonra ikinci oyuncağı (plastik heyvan - məsələn, ayı) torbadan çıxarır və dairəyə əlavə edir. Beləliklə, dairədə artıq iki heyvan dövrə edir. Öyrədən 3, 4-cü və sair

sayda oyuncağı da dairəyə əlavə edir. Öyrədən oyunu bitirmək üçün dairədə fırlanıb ona gələn oyuncaqları bir-bir meşəyə yola salır.

**Öyrədən:** “Uşaqlar, heyvanlar yoruldu. Onlar artıq dincəlmək istəyirlər. Buna görə də biz onları meşəyə yola salırıq.

### *Hissə 3. Praktik tapşırıq. Eynisini tap.*



Öyrədənin eyni kartdan iki nüsxəyə ehtiyyacı olacaq. Kartlar qarışdırılır, üzü aşağı vəziyyətdə masaya və ya döşəməyə yerləşdirilir. Öyrənənlər bir kartı, sonra başqa bir kartı çevirir. Oyunun məqsədi eyni iki kartı tapmaqdır Öyrənən eyni cüt kartı (məsələn, iki pələng) çevirərsə, kartları oyundan çıxarır. Həmin öyrənən bir xal qazanır. Əgər öyrənən iki fərqli kartı çevirərsə, onları geri çevirməlidir və bu zaman növbəti oyunçu oyuna növbə qazanır. Oyun bütün kartlar çıxarıldıqdan sona çatır və ən çox kart alan oyunçu qalib gəlir.

### *Hissə 4. Təsvir et*

**Öyrədən:** “Uşaqlar, bizə qonaq gəlmiş vəhşi heyvanlardan bəzilərini seçib onları təsvir edəcəyik.

Kim mənimlə birlikdə dələni (canavarı) təsvir etmək istəyir? ”

(Dələ vəhşi heyvandır;onun yumşaq quyruğu var; oyuqda yaşayır; qış üçün göbələk, fındıq toplayır.

Canavar vəhşi heyvandır; onun başı, 4 ayağı var; bədəni boz xəzlə örtülüdür; böyük iti dişləri, uzun boz quyruğu var; o, canavar yuvasında yaşayır.)

### *Hissə 5. Son müzakirə. Heyvanı əlamətlərinə görə tanımaq.*

**Öyrədən:** “Uşaqlar, mən indi sizə tapmacalar deyəcəyəm, siz də əlamətlərə görə heyvanı tapacaqsınız.”

| | | | | | |
|---|---|---|---|---|---|
| İynəsi çox,<br>Tikanı yox.<br>Əti dərman,<br>Özü heyvan. | Kolları gəzər<br>pusa-pusa,<br>Qıçları uzun,<br>qolu qısa. | O nədir ki, evə<br>girməz,<br>Sədaqəti eldə<br>gəzər. | Saqqalı uzun<br>sallanar,<br>Dağa-daşa<br>dırmanar. | O tayda durar,<br>gedər,<br>Boynunu burar<br>gedər.<br>Bir sürüyə<br>girəndə<br>Qırxını qırar<br>gedər. | Heyvandı heç<br>səsi yox,<br><br>Üstündə<br>pulları çox. |
| ***Kirpi*** | ***Dovşan*** | ***İt*** | ***Keçi*** | ***Canavar*** | ***Balıq*** |

Siz heyvanlarla qayğı ilə rəftar etsəniz, onlar da sizə sevgi bəxş edəcəklər və sizə sadiq olacaqlar.

***Uğur göstəricisi:*** Vəhşi heyvanlar və onların həyat tərzi haqqında təsəvvürü var.

### *Hərəkətli oyun: “Ayı balası”*

**Məqsəd:** Təhlükəsizliyi nəzərə alaraq, müşahidə, ünsiyyət, qavrama kimi idraki bacarıqları və fiziki aktivlik vərdişlərini  formalaşdırmaq.

Bala ayı (uşaqlardan biri) kötüyün (stulun) üstündə oturub. Uşaqlar dəstə ilə ayıya tərəf otaqda hərkət edirlər (giləmeyvə, göbələk yığırlar).

Uşaqlar yaxınlaşanda ayı nərildəyir və uşaqların arxasınca qaçır. Kimi tutsa, o oyundan çıxır.

***Uğur göstəricisi:*** Təhlükəsizliyi nəzərə alaraq, müşahidə, ünsiyyət, qavrama kimi idraki bacarıqlara və fiziki aktivlik vərdişlərinə malikdir.

***Yapma: "Dovşan üçün kök" (kiçik yaşlılar üçün), "dovşan" (böyük yaşlılar üçün)***

**Məqsəd:** Plastilini ovuclar arasında irəli-geri hərəkətlə yastılama bacarığını təkmilləşdirmək. Dovşanın xarici görünüşünün xüsusiyyətlərini yapmada göstərmək

**Öyrədən:** Uşaqlar, biz bilirik ki, dovşanlar kökü sevirlər. Gəlin biz də dovşan üçün kök düzəldək.

Siz mənim əlimdəki kökə baxın. Onun bir ucu qalın, digər ucu nazikdir. Bəs biz kök üçün hansı rəng plastilindən istifadə edərik? (narıncı)"

Öyrədən plastilinin ovuclar arasında irəli-geri hərəkətlərlə uzunsov formada yapılma üsulunu nümayiş etdirir. Daha sonra hazır formanın bir ucunun nazidilməsini göstərir. İş prosesində uşaqlara dəstək olur. Yapılmış "kökləri" uşaqlar boşqablara düzürlər.

---

Dovşan şəkli (oyuncağı) nəzərədən keçirilir. Bədən hissələrinin formaları dəqiqləşdirilir.

**Öyrədən:** Uşaqlar, baxın mənim əlimdə böyük və kiçik plastilin parçası var.

- Dovşanın başını hansı parçadan düzəldək? (Kiçik)
- Bəs bədənini hansı parçadan düzəldək? (Böyük)
- Dovşanın qulaqlarını düzəltmək üçün plastilini uzun formaya salıb iki yerə bölürük, axı dovşanın iki qulağı var.
- İndi isə dovşanın qulaqlarını başına yapışdırırıq.
- Dovşanlarımıza əllər, ayaqlar və quyruq düzəltmək üçün xırda plastilin parçalarını ovuclarımızın arasına qoyub yumrulayırıq. Hazır formaları dovşanın bədəninə yapışdırırıq".
- Dovşanları digər boşqablara yerləşdirilir.

***Uğur göstəricisi:*** Plastilini ovuclar arasında irəli-geri hərəkətlə yastılamağı bacarır. Dovşanın xarici görünüşünün xüsusiyyətlərini yapmada göstərir.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** "Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Evdə məşğələmizlə bağlı nə danışacaqsınız?

Hər birinizə afərin!"

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! Gəlin əyləşib dairə quraq. Bir-birimizə baxıb gözlərimizlə salamlaşaq. Azacıq başımızı əyərək yoldaşınızın çiyninə toxunaq və ona gülümsəyək (Öyrədən dedikcə nümayiş etdirir). Uşaqlar, siz də mənə qoşulun”.

### *Təqvimlə iş*

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

### *Mövzuya giriş*



**Vəsaitlər:** Üzərində marker ilə rəqəmlər yazılan plastik toplar

**Qeyd 1.** Əgər sinifdə plastik toplar yoxdursa bu zaman kağıqzların yumrulanması vasitəsi ilə top düzəltmək və üzərinə marker ilə nömrələr yazmaq şərtdir.

Öyrədən öncədən üzərinə yazdığı balaca topları (plastik toplar) sinifdə səpələmə əyləşən uşaqlara atır və onlardan bu topları geri atmalarını xahiş edir. Sonra bu topları öz dostlarına da ata biləcəyini deyir. Öyrədən musiqi sədası altında uşaqların atdıqları topları “Dur” kəliməsi ilə dayandırır və əllərində olan topun üzərində hansı rəqəmin yazıldığını soruşur.

**Öyrədən:** “Uşaqlar, oyun xoşunuza gəldi? Biz bu gün rəqəmlər ilə bağlı daha maraqlı oyunlar oynayacağıq.

## Riyaziyyat: Say. İndeks.

**Məqsəd:** 10-a qədər rəqəmlərin oxunmasını, 5-ə qədər rəqəmlərin uyğun rəqəm dəsti ilə eyniləşdirilməsini öyrətmək




### *Hissə 1. Giriş. Biliyin ötürülməsi.*

Öyrədən lövhədə 1-dən 10-a qədər rəqəmləri yazır. Uşaqlarla bərabər ardıcıllıqla rəqəmlər sayılır. Rəqəmlər ritmik, sakit, cəld formada sayıla bilər. Öyrədən hər rəqəmi qeyd etdikdə uşaqlar döşəməyə o qədər sayda əşya yerləşdirməlidirlər. Məsələn: 6-altı səslənərsə, uşaqlar döşəmədəki dairəyə (Öyrədən döşəkçələrdən dairə düzəldir) o qədər sayda oyuncaq və ya əşya yerləşdirməlidirlər. Öyrədən qaydaları başa saldıqdan sonra məşğələyə başlayır.




### *Hissə 2. Oyun. Düzgün rəqəm məndədir.*

Öyrədən A4 kağızlarında hər rəqəmdən iki nüsxə olmaqla 1-dən 10-a qədər rəqəmləri kağıza yazır. Kağızlar üzü yuxarı şəkildə döşəməyə yerləşdirilir. Uşaqlar musiqi sədaları altında sinifdə səpələmə gəzirlər. Öyrədən musiqini dayandıranda uşaqlar səsləndirilən rəqəmin üzərində dayanmalıdırlar.

**Qeyd 1.** Bütün rəqəmlərdən yalnız iki nüsxə olduğundan hər dəfə mahnı dayandırıldıqda yalnız iki uşaq doğru kartda dayanır.

### *Hissə 3. Eşit və doğru rəqəmi tap.*



**Qeyd 1.** Bu məşğələ sayəsində Öyrədən riyaziyyat və ətraf aləm ilə tanışlıq fənləri arasında inteqrasiya qurmalıdır.

Öyrədən kiçik bir hekayə uydurur. Məsələn: Uşaqlar, vəhşi heyvanlar meşədə gəzişir. Gəlin baxaq görək onlar neçə addım atır? Ayı gəzir xəzan üstündə, Xrış, xrış, xrış, Neçə addım atdı bizim ayımız? Bəli, doğrudur. İndi isə gəlin bu rəqəmləri lövhədəki indekslərə birləşdirək. Uşaqlar, Öyrədənin köməyi ilə hər heyvanın addımını hesablayıb rəqəmi müəyyən edir və həmin heyvanın rəsmini həmin rəqəmin altına yapışdırır.

### *Hissə 4. Növbəti rəqəmi tap.*



**Qeyd:** Uşaqlara kartlar əyani şəkildə göstərilməlidir. Belə ki, indeksi öyrətmək üçün rəqəm, say və indeks uzlaşması şərtdir.

Öyrədən əlindəki kartları sıra ilə yerə düzür. Hər hansı bir rəqəmdə dayanır və uşaqlardan soruşur.

**Öyrədən:** "Uşaqlar, mən sayıram və kartları döşəməyə düzürəm. 1, 2, 3, 4, ..... ardını isə siz sayacaqsınız. Afərin sizə!"

Öyrədən kartları döşəmədən yığışdırır və yenidən 1-dən başlayaraq, döşəməyə düzməyə başlayır.

1, 2, 3, 4, 5, 6.... siz isə ardını sayacaqsınız. Uşaqlar çıxan kart sayından sonrakı rəqəmləri tamamlayır.

***Uğur göstəricisi:*** 10-a qədər rəqəmləri oxuya bilir, tanıyır, 5-ə qədər rəqəmləri uyğun rəqəm dəsti ilə eyniləşdirir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Tək cərgə ilə gəzmək, Öyrədənin işarəsi ilə hərəkət etmək, topu diyirlətmək, çevik reaksiya vermək bacarığını inkişaf etdirmək

### *Hissə 1. "Piyadalar" adlı oyun tapşırıqları*

Uşaqlar qavalın sədası altında otaq boyunca addımlayırlar. Öyrədən qırmızı dairəni yuxarı qaldırdıqda dayanır, sarını qaldırdıqda yerində addımlayır, yaşılda isə hərəkətə davam edirlər. Bu bir neçə dəfə təkrarlanır.

### *Hissə 2. Yastıq ilə ümumi inkişaf oyunları*

1. Ayaqlar bir pəncə enində aralı, qollar sinə səviyyəsində qatlanıb, əldə yastıq var. Qolları tam açaraq yastığı yuxarı qaldırmaq.Yastığı aşağı salıb, ilkin vəziyyətə dönmək (5 dəfə).
2. Ayaqlar çiyin bərabərində aralı, qollar sinə səviyyəsində qatlanıb, əldə yastıq var. İrəli əyilərək yastıqla yerə toxunmaq. Qalxıb ilkin vəziyyətə dönmək (4–5 dəfə).
3. Ayaqlar bir pəncə enində aralı, yastıq aşağıda iki əl arasında. Əyləşib yastığı önə tərəf uzatmaq. Ayağa qalxıb ilkin vəziyyətə dönmək (4–5 dəfə).
5. Yastıq yerdə uşağın qarşısında. Yastığın üstündən irəliyə və geriyə hoppanma (2-3 dəfə).

### *Hissə 3. Topu bir-birinə diyirlətmək.*

Uşaqlar aralarındakı məsafə 2 m olmaqla iki cərgəyə ayrılırlar. Öyrədən kəndirlə hər iki cərgə üçün başlanğıc nöqtəni müəyyənləşdirir. İlkin vəziyyət – diz üstündə, top yerdə (birinci qrup üçün). Öyrədənin "Diyirlət!"

göstərişi ilə hər bir uşaq topu yoldaşına ötürür, o isə öz növbəsində topu tutub, yenə də Öyrədənin göstərişi ilə geri ötürür  (4–5 dəfə).

***Uğur göstəricisi:*** Tək cərgə ilə gəzmək, Öyrədənin işarəsi ilə hərəkət etmək, topu diyirlətmək, çevik reaksiya vermək bacarığına malikdir.

## Hərəkətli oyun: "Tülkü, tülkü, tümbəki"

Sinif otağında tülkü və dovşan üçün yer ayrılır. Tülkü öz yuvasında oturu və dovşanları gözətləyir. Dovşanlar sinifdə gəzişir və deyir:

"Tülkü, tülkü, tümbəki, Quyruq üstə nəlbəki,"

Öyrədən "dovşanlarım, tülkü gəlir" deyəndə tülkü ova çıxır və dovşanlardan birini tutur. Dovşanlar tülkünün yuvasından çıxdığını görəndə qaçıb öz yuvalarına doğru qaçmalıdırlar.

***Qayda: Oyunun qaydasına əsasən, tülkü dovşanların yuvasına girə bilməz.***

## Sərbəst faəliyyət: Sərbəst rəsm

## Son  toplantı

Musiqi sədaları altında Öyrədən keçilənlərlə bağlı suallar verir.

**Öyrədən:** "Uşaqlar, evə gedərkən yolda gördüyünüz və ya evdə hər gördüyünüz əşyanı saymağınızı sizdən rica edirəm. Məsələn. Ananız yemək bişirərəkən beş (5) soğandan istifadə etdi."

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Salam, uşaqlar! Gəlin dairəvi şəkildə oturaq ki, hamı bir-birini görə bilsin. Bu gün biz sakitcə salamlaşacağıq: bir-birimizə təbəssümlə baxaraq, əl verib görüşərək, əlimizi havada yelləyərək (Öyrədən göstərir, uşaqlar təkrar edir).”

### *Təqvimlə iş*

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

**Öyrədən:** “Uşaqlar, bu gün biz isti ölkələrin heyvanları haqqında danışacağıq. Sizcə hansı heyvanlar istini sevir?”

## Barmaq oyunu: “Meşədə kim yaşayır”

- Meşədə kim yaşayır? (Meşəni imitasiya edərək barmaqlar birləşdirilir.)
- Gözlərində çırağı, (Şəhadət barmaqla gözlər göstərilir.)
- Dişlərində qırmağı, (Ovuclar açıq, barmaqlar yarı bükülü vəziyyətdə dişlər imitisiya edilir)
- Səsi adam ürküdər,
- Zəhmi heyvan əsdirər. (bütün bədən əsdirilir)
  - ***(Canavar)***

## Nitqin inkişafı: Vəhşi heyvanlar

**Məqsəd:** Vəhşi heyvanlar haqqında təsəvvürü genişləndirmək, fikirlər formalaşdırmaq, vəhşi heyvanlar barədə fikrin çatdırılmasına təkan vermək

### *Hissə 1. Hekayə. “Şir və dovşan”*

Qalın meşədə bir şir yaşayırdı. Bu şir çox zalım heyvan idi, əlinə keçən heyvanı parçalayıb yeyirdi. Heyvanlar şirin əlindən lap bezmişdilər. Günlərin bir günü onlar bir yerə yığıldılar. Belə qərara gəldilər ki, şirə hər gün bir heyvan versinlər yesin, onlara dəyib dolaşmasın. Dovşanı şirin yanına göndərdilər. Dovşan təklifini şirə söylədi. Şir razı oldu, razılaşdılar.

Bəli, heyvanlar hər gün çöp atırdılar, çöp kimə düşsə, onu şirə verirdilər, yeyirdi. Belə-belə bir müddət gəlib keçdi, növbə dovşana düşdü. Dovşan orda-burda girləndi, axşama kimi şirin yanına getmədi. Ac qalan şir çox qəzəbləndi. Axşam dovşan onun yanına getdi. Şir onu parçalamaq istəyəndə dovşan dedi:

- Acığın tutmasın, məndə günah yoxdur. Sənə yeməyə bir dovşan gətirirdim, bir şir əlimdən alıb yedi.

Şirin ağzı köpükləndi, dedi:

- O hansı şirdir? Nə hədlə mənə gətirilən dovşanı alıb yeyib? Tez ol, yerini de. Gör onu necə parça-parça eləyirəm?! Dovşan şirin qabağına düşüb, bir su quyusunun başına gətirdi və dedi:

- Şir bu quyunun içinə girdi.

Şir quyuya baxanda suda öz əksini gördü. Elə bildi ki, dovşanı yeyən şirdir. Özünü quyuya atdı, suda boğulub öldü. Heyvanların da canı onun zülmündən qurtardı.

### *Hissə 2. Sual-cavab*

Öyrədən uşaqlara hekayədə yer alan personajlar haqqında suallar verir.

1. “Hekayədə meşənin ən güclü heyvanı kim idi?
2. Niyə heyvanlar hər gün şirə yem göndərməlidirlər?

3. Dovşan özünü necə xilas etdi?!"

***Hissə 3. Oyun. "Sözü de"***

**Öyrədən:** "Uşaqlar, əlimdə nə var? (Top)

Mən onu atıb əlamət deyəcəyəm, siz də bu əlamətin hansı heyvana aid olduğunu tapacaqsınız.

***Qeyd:*** *Uşaqlar digər uyğun heyvan adları çəkə bilərlər.*

Məzəli – meymun. Qəddar – şir. Dişli – timsah. Hündür- zürafə. İri - fil.

İndi isə mən heyvan adı çəkəndə siz onun əlamət deməlisiniz.

***Hissə 4. Oyun. "Cümləni tamamla!"***

**Öyrədən:** "Uşaqlar, mən sizə cümlələr deyəcəyəm, siz isə o cümləni istədiyiniz kimi tamamlayacaqsınız.

Dovşan qışda ağ, yayda...(boz rəngdə olur)

Dovşanı quyruğu qısa, qulaqları...(uzundur)

Kirpi balaca, ayı ...(böyükdür)

Dələ qışda boz , yayda ...(kürəndir)

Dələnin quyruğu uzun , dovşanınkı...( qısadır)

Dələ oyuqda yaşayır, tülkü...(yuvada)

Tülkü hiyləgərdir, dovşan ...(ürkək)

Dovşan yumşaq tüklüdür, kirpi...(iynəlidir)

***Uğur göstəricisi:*** Vəhşi heyvanlar haqqında təsəvvürü var. Vəhşi heyvanlar haqqında fikirləri formalaşıb.

## Hərəkətli oyun: "Ayı balası"

**Məqsəd:** Təhlükəsizliyi nəzərə alaraq, müşahidə, ünsiyyət, qavrama kimi idraki bacarıqların və fiziki aktivlik vərdişlərini formalaşdırmaq

Bala ayı (uşaqlardan biri) kötüyün (stulun) üstündə oturub. Uşaqlar dəstə ilə ayıya tərəf otaqda hərəkət edirlər (giləmeyvə, göbələk yığırlar).

Uşaqlar yaxınlaşanda ayı nərildəyir və uşaqların arxasınca qaçır. Kimi tutsa, o, oyundan çıxır.

***Uğur göstəricisi:*** Təhlükəsizliyi nəzərə alaraq, müşahidə, ünsiyyət, qavrama kimi idraki bacarıqlara və fiziki aktivlik vərdişlərinə malikdir.

## Rəsm: "Zürafə"

**Məqsəd:** Verilmiş xarici xüsusiyyətlər əsasında obraz çəkmək bacarığını inkişaf etdirmək

**Vəsaitlər:** Sulu boya, fırça, su ilə dolu qab, ağ vərəqlər, salfet

Öyrədən uşaqlara zürafə oyuncağı (şəkli) göstərir.

**Öyrədən:**

- Bu hansı heyvandır, uşaqlar?
- Zürafə harada yaşayır?
- Necə düşünürsünüz, zürafəyə belə xallı rəng niyə lazımdır? (ağaclar arasında onu yırtıcılara görünməz etmək üçün)

- Bəs zürafəyə belə uzun boyun niyə lazımdır? (ağacların hündürdə yerləşən yarpaqlarına ilə qidalanmaq üçün)

Hündür boyu və yaxşı görmə qabiliyyəti zürafəyə uzaqdan təhlükəni görməyə imkan verir. Zürafəyə uzun nazik ayaqları ona yırtıcılardan qaçmağa kömək edir.

Sizə kiçik sirr açacağam: bütün məməli heyvanlar arasında ən uzun dil (50 sm) zürəfadədir, o hətta qulaqlarını dili ilə təmizləyə bilir. Zürafə xoşunuza gəlir?

İndi ovcumuzu sarı rəngə boyayıb kağız üzərində izini qoyuruq. Kağızı tərsinə çeviririk. Baş barmağımız zürafənin quyruğu, digər barmaqlarımız isə onun ayaqları olur. Əlimizi salfetlə siləl. İndi də barmağımızla zürafənin boynunu və başını çəkək.

Gəlin zürafəmizin xallarını da çəkək: barmağınızı qəhvəyi rənglə boyayın və bədəninin hər yerində xallar qoyun. Afərin, uşaqlar!"

***Uğur göstəricisi:*** Verilmiş xarici xüsusiyyətlər əsasında obraz çəkməyi bacarır.

## Səsli nağıl zamanı

### *Zürafə hamının dostudur*

Savannada yaşayan heyvanlar zürafəni uzun boyuna görə ələ salırlar. Hər kəsdən küsən zürafə savannanı tərk edir Amma bir gün savannada elə hadisələr baş verir ki, heyvanların köməyə ehtiyacı olur. Bu vəziyyətdə zürafə onların köməyinə gəlir.

**Link:** https://youtu.be/b3aLtuCMYI4

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Heyvanlar niyə zürafəni ələ salırdılar?
2. Zürafə özünü necə hiss edirdi?
3. Bəs Zürafə onlar üçün nə edir?
4. Siz istəyərdiniz zürafə sizin dostunuz olsun?
5. Bəs siz dostlarınıza kömək edirsiniz?

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, gəlin günümüzü bir oyunla yekunlaşdıraq. Cəld dairə şəklində düzülün!

- Biz zürafələrik. Zürafənin hər yerində xalları var. (Baş, gövdə, ayaqlara əl ilə toxunmaq- 3 dəfə təkrar olunur.)
- Alnında, qulaqlarında, boynunda, dirsəklərində. (Şəhadət barmaq ilə bədənin müvafiq hissələrinə toxunmaq)
- Burnunda, qarnında, dizlərində, ayaq barmaqlarında. (Şəhadət barmaq ilə bədənin müvafiq hissələrinə toxunmaq)

İndi isə gəlin bu oyunu yavaş-yavaş təkrar edək. Mənə xatırladın görüm, biz bu gün hansı heyvanlar ilə tanış olduq? Afərin!"

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Salam, uşaqlar. Gəlin bir-birimizi salamlayaq və günümüzün yaxşı keçməsi üçün nə isə xoş bir söz deyək”.

### *Təqvimlə iş*

Aylar, həftənin günləri, fəsillər və hava şəraiti mövzuları təkrar edilir və «Salamlaşma» guşəsində qeyd edilir.

### *Mövzuya giriş*

Öyrədən soyuq ölkələrdə yaşayan vəhşi heyvanlardan bir neçəsinin şəklini, yaxud oyuncağını nümayiş etdirir, hər birinin xüsusiyyətləri haqqında qısa məlumat verir.

**Öyrədən:**

- “Uşaqlar, gəlin soyuq ölkələrdə yaşayan vəhşi heyvanların bir neçəsi ilə tanış olaq. (Uşaqlar heyvanları nəzərdən keçirir, sualları varsa, soruşur.)
- İndi isə mən pinqvinəm, pinqvinlərlə dolu qatara minib otağımızda dövrə vururam. (Öyrədən otaqda dövrə vurub uşaqların yanına qayıdır.)
- İndi isə mən növbəmi ağ ayıya verirəm ki, ağ ayılarla dolu qatar da otağı dövrə vursun”.

Hər bir uşaq hər hansı bir heyvan şəklində otaqda dövrə vurana qədər oyun davam edir. Bu zaman uşaqlar heyvan şəkillərini, yaxud oyuncaqları əllərində də tuta bilərlər. Heyvan adları təkrarlana bilər.

## Barmaq oyunu: “Meşədə nə yaşayır?”

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

***Məqsəd:*** Məhdud dayaq sahəsində yerimə zamanı tarazlığı saxlamaq və tullanma zamanı yarıbükülmüş ayaqlar üstə enmək bacarığını inkişaf etdirmək

### *Hissə 1. Oyun tapşırığı: “Şən siçanlar”*

Uşaqlar bir cərgə ilə yeriyirlər. Öyrədənin “Siçanlar!” siqnalı ilə uşaqlar əlləri bellərində barmaq uclarında qısa addımlarla yeriyirlər. “Pişiklər” siqnalı ilə uşaqlar qaçmağa başlayırlar. Hərəkətlər növbələnərək bir neçə dəfə təkrar edilir.

### *Hissə 2. Lentlərlə ümuminkişaf hərəkətlər*

- Ayaqlar bir pəncə enində aralı, qollar yanda, lentlər əllərdə. Lentləri yuxarı qaldırmaq, yelləmək. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Oturmaq, lentləri yerə sallamaq. Qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
- Ayaqlar çiyin bərabərində aralı, lentlər hər iki əldə, əllər çiyinlərdə. Sağa (sola) dönmək, sol (sağ) əli sağa (sola) aparmaq. Dikəlmək, əvvəlki vəziyyətə qayıtmaq. (hər tərəfə 3 dəfə)
- Ayaqlar bir pəncə enində aralı, lentlər aşağı salladılıb. Lentləri yanlara qaldırıb yelləmək. aşağı salırıq. İlkin vəziyyətə qayıtmaq. (5 dəfə).

### *Hissə 3. Əsas hərəkət növləri. Meşə yolu ilə*

Yerə bir-birinə paralel iki sıra döşəkcə -"meşə yolu"- düzülür. Yollar arasındakı məsafə 2-3 metr olmalıdır. Uşaqlar yavaş-yavaş, qolları ilə tarazlığı saxlayaraq bir yol ilə gedib, digər yol ilə qayıdırlar.

### *"Uzunqulaq dovşanlar"*

Uşaqlar-dovşanlar bir cərgəyə düzülürlər. Öyrədən dovşanlara meşənin kənarına qədər (sinfin digər tərəfinə) tullanmağı təklif edir. Öyrədənin siqnalı ilə uşaqlar iki ayaq üstündə tullanaraq 3-4 metr məsafə qət edirlər. Uşaqlar geriyə yavaş adımlarla qayıdırlar.

***Uğur göstəricisi:*** Tarazlığı saxlayır və tullanma zamanı yarıbükülmüş ayaqlar üstünə enir.

## Hərəkətli oyun: "Tülkü, tülkü, tümbəki"

Sinif otağında tülkü və dovşan üçün yer ayrılır. Tülkü öz yuvasında oturur və dovşanları gözətləyir. Dovşanlar sinifdə gəzişir və deyir:

"Tülkü, tülkü, tümbəki,

Quyruq üstə nəlbəki,"

Öyrədən "Dovşanlarım, tülkü gəlir" deyəndə tülkü ova çıxır və dovşanlardan birini tutur. Dovşanlar tülkünün yuvasından çıxdığını görəndə qaçıb öz yuvalarına doğru qaçmalıdırlar.

***Qayda:*** *Oyunun qaydasına əsasən, tülkü dovşanların yuvasına girə bilməz.*

## Səsli nağıl zamanı

### *İnadkar fil balası*

**Link:** https://youtu.be/ZU7uQN9pqx0

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Fil balasının başına nə gəldi?
2. Fil balası hansı heyvan olmaq istədi? (Ceyran,meymun,tutuquşu)
3. Sonda fil balası hansı qərarı verdi?

## Son toplantı

**Öyrədən:** "Bu gün məşğələmizdə sizə kim kömək edibsə, siz onu qucaqlayaraq, ona təbəssüm bəxş edərək təşəkkür edə bilərsiniz. İstirahət günlərini necə keçirəcəksiniz? Hər birinizə afərin!"

# Fevral | 19-cu həftə | Mövzu: “Heyvanlar və onların balaları”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***
**Öyrədən:** “ Salam, uşaqlar! Gəlin bu günümüzə özümüz haqqında danışmaqla başlayaq (ad, soyad, yaş,).

Sizi valideynləriniz evdə necə çağırır? (Uşaqların cavabları)”.

***Təqvimlə iş***
**Məqsəd:** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən «Salamlaşma» guşəsində hava durumunu və həftənini gününü qeyd etdikdən sonra «Salamlaşma» guşəsindəki qış fəslini müzakirə edir.

-Uşaqlar, indi hansı fəsil olduğunu kim deyər?

-Bizim “Salamlaşma” lövhəmizdəki qış fəsli hava şəraitinə görə payız fəslindən nə ilə fərqlənir”

(Öyrədən müqayisəli şəkildə qış və payız fəslində olan hava şəraitini müzakirə edir.

***Uğur göstəricisi:*** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***
**Öyrədən:** “Uşaqlar, evinizdə, təsərrüfatınızda saxladığınız heyvanlardan hansının adını çəkə bilərsiniz?”.

### Barmaq oyunu: “Ev heyvanları və onların balaları”

**Gəlin görək fermada,**
**Nə baş verir bu anda.(barmaqlar bükülü vəziyyətdədir, baş barmaqdan başlayaraq növbə ilə açılırlar)**
**At dayçanı bəsləyir,**
**İnək buzovu səsləyir,**
**Qoyun quzu mələyir,**
**Keçi-çəpiş ot yeyir.**
**Qaldı tək toyuq-cücə**
**Onlar da dən dənləyir.**

### Ətraf aləmlə tanışlıq: “Ev heyvanları, vəhşi heyvanlar və onların balaları”

**Məqsəd:** İnsanlar kimi heyvanların da balalarının olmasını uşaqlara izah etmək və onların adları haqqında məlumat vermək

**Vəsaitlər:** böyük və kiçik oyuncaq heyvanlar (inək, pişik, it, ayı, dovşan, tülkü); “Ev heyvanları”,”Vəhşi heyvanlar”, ”Heyvanlar və onların balaları”mövzusunda şəkillər. (Əlavə 3 və 4)

***Hissə 1. Giriş. Əqli hücum***
Öyrədən lövhədən hər hansı bir ailə rəsmi asır və uşaqlardan soruşur:

“Uşaqlar, bu ailənin neçə fərdi var? Ailədə neçə uşaq var? Ana-ata böyükdür, yoxsa uşaqlar? Kimi suallar ilə uşaqların ailə tərkibini analiz etmələrinə təşviq edir.

### *Hissə 2. Müzakirə*
Öyrədən bir neçə uşağın anası və ya atası ilə olan rəsmini lövhədən asır.

**Qeyd:** Ailə mövzusunda Öyrədən valideynlərdən topladığı rəsmləri istifadə edə bilər.

Daha sonra heyvanlar və onların balalarının rəsmlərini də lövhədən asır.

**Öyrədən:** Uşaqlar biz öz valideynlərimizin övladlarıyıq, heyvanların da balaları var. Onların da öz adları var.

- Şəkildə nə görürsünüz? (toyuq)
- Yanında nə dayanıb? (cücə).
- Toyuq böyükdür, cücə kiçik. Cücə toyuğun balasıdır.

Bütün heyvanlar və balaları lövhədən asılır və adları müzakirə edilir.

**Qeyd:** Hər bir heyvanın balaca balası haqqında video rolik təqdim edilməlidir.

### *Hissə 3. Oyun. Sən kimin balasısan?*
Uşaqlar sinifdə səpələmə dayanır, Öyrədən hər hansı bir heyvanın səsini çıxarır. Uşaqqlar həmin heyvanın balasının adını deməli və həmin heyvan balası kimi yeriməli və səs çıxartmalıdırlar.

Məsələn: "Toyuq. Toyuğun balası kimdir? Düzdür, cücə" Uşaqlar cücə kimi yeriməli, qanadlarını çırpmalıdırlar.

| | | | | | |
|---|---|---|---|---|---|
| İnək-buzov | Qoyun-quzu | At-dayça | Keçi-çəpiş | Camış-kəlçə | Toyuq-cücə |

### *Hissə 4. Didaktik oyun. Heyvanlara kömək et.*
Öyrədən lövhədə meşə rəsmi çəkir (lövhə dərsdən öncə hazırlanmalıdır).

**Öyrədən:** "Uşaqlar, bizim heyvanlar otlamağa gediblər, balalarını da özləri ilə aparıblar. Qayıdanda evə yolu azıblar və eyni zamanda balalarını da itiriblər. Biz onlara kömək etməliyik ki, balalarını tapsınlar".

Öyrədən ilk öncə eşşəyi otlağa yapışdırır. Uşaqlar döşəmədə yerləşdirdiyi balaların içərisindən eşşəyin balasını tapıb anasının yanına aparmalıdır.

**Öyrədən:** "Afərin sizə, uşaqlar. Artıq eşşək fermaya geri dönə bilər, o, balasına, yəni xötəyə qovuşdu. Gəlin digər heyvanların balalarını tapmağa davam edək.

***Uğur göstəricisi:*** İnsanlar kimi heyvanların da balalarının olmasını bilir və onların adları haqqında məlumat verir.

### *Hərəkətli oyun. Pişik və heyvan balaları*
Uşaqlar dairədə dayanıb. Uşaqlar hər hansı bir heyvan balası olmalıdır. Uşaqlar istənilən heyvan balasının adını secə bilər. Lakin uşaqlar hansı heyvan balası olduğunu pişiyə bildirməməlidir.

Uşaqlar dairədə gəzir və deyir:

- Pişiyim ala boyundu
- İşi tamam oyundu
- Elin asta basandı
- Bucaqları pusandı

Uşaqlar bu şeri bitirər bitirməz pişik dairədə qaçır və istədiyi uşağı seçir. Pişiyin seçdiyi uşaq heyvan balasının səsini çıxarmalıdır. Çıxara bilməsə, pişik onu dairənin mərkəzinə aparacaq.

## Yapma: “Dovşan balası”

**Məqsəd:** Ayrı-ayrı yapılmış hissələrdən bütöv fiqur düzəltmək

Vəsaitlər: Plastilin (ağ, qara), yapma üçün altlıq, yapma alətləri, salfet

- Dostlar, bu gün bizə qeyri-adi qonaq gəlib. Tapın görüm kimdi o? Uzun qulaqları var, kökü xoşlayır? (dovşan)
- Uşaqlar, gəlin dovşanın bədən hissələrinə diqqət yetirək. Dovşanın bədəni hansı hissələrdən ibarətdir? (gövdə, baş, ayaqlar, pəncələr, qulaqlar, quyruq)
- Deyin görüm gövdə (baş, ayaqlar, pəncələr, qulaqlar, quyruq) hansı formada olur? (oval, dairəvi, uzunsov)
- Bəs bədəninin ən böyük hissəsi hansıdır? (gövdə; gövdədən sonra böyüklüyünə görə başı, ayaqları, pəncələri, qulaqları və ən kiçik hissəsi-quyruğu gəlir)
- Gəlin görək bu bədən hissələrini necə düzəldə bilərik?
    - Plastilindən bir parça götürürük və iki ovcumuzun arasında dairəvi hərəkətlərlə yumrulayıb yumru forma alırıq. Bundan sonra ovuclarımızı növbə ilə qabağa-arxaya hərəkət etdirib oval formasını alırıq.
    - Plastilin parçasını iki ovcumuz arasında dairəvi hərəkətlərlə yumrulayaraq başı düzəldirik.
    - Pəncələr və qulaqları uzunsov formada düzəldirik.
    - Quyruq üçün lap kiçik plastilin parçası götürüb dairəvi formaya salırıq.
- Diqqətlə baxın. Gövdəyə ilk öncə başı, sonra ayaqları, sonra pəncələri, sonra başa qulaqları və ən sonda bədənə quyruğu birləşdiririk. İndi isə gəlin dovşanımız meşədə darıxmasın deyə onun üçün balalar düzəldək.”

***Uğur göstəricisi:*** Ayrıca yapılmış hissələrdən bütöv fiqur düzədə bilir.

## Sərbəst fəaliyyət: Sərbəst mövzuda karandaşlarla rəsm

## Son toplantı

**Öyrədən:** “Təəssüf ki, məşğələmiz bitdi. Sizə afərin, uşaqlar! Bu gün ən çox nə xoşunuza gəldi? Mənim isə xoşuma sizin gözəl davranışınız gəldi”.

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Salam, uşaqlar! Günümüzə bir oyunla başlayacağıq. Gəlin dairəmizi quraq (yaxud döşəmədə balışların üstündə otura bilərlər)".

- Bir (iki, üç, dörd, beş) damla düşdü. (Uşaqlar 1(2,3,4,5) dəfə əl çalırlar.)
- Yağış yağır. (Uşaqlar davamlı əl çalırlar.)
- Yağış kəsildi (Uşaqlar dayanırlar)
- Beş (dörd, üç, iki, bir) damcı düşdü. (uşaqlar 5 (4,3,2,1) dəfə əl çalırlar)

***Təqvimlə iş***

**Məqsəd:** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək.

Öyrədən «Salamlaşma» guşəsində hava durumunu və həftənini gününü qeyd etdikdən sonra «Salamlaşma» guşəsindəki qış fəslini müzakirə edir.

- Uşaqlar mənə xatırladar indi hansı fəsildir?

- Öyrədən müqayisəli şəkildə qış və payız fəslində olan geyimləri müzakirə edir".

***Uğur göstəricisi:*** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş. Barmaq oyunu: "Barmaqlar gəzməyə çıxır".***

1,2,3,4,5 – Barmaqlar çıxır gəzməyə, (çeçələ barmaqdan başlayaraq növbə ilə bütün barmaqlar açılır)

1,2,3,4,5 – Qayıdırlar onlar evə. (eyni ardıcıllıqda barmaqlar qatlanır)

## Riyaziyyat: Say: Az və çox

Qeyd: Az və çox mövzusu 1-dən 5-ə qədər rəqəmlər bitdikdə keçirilmişdi. Bu ayda olan az və çox, əsasən, 1-dən 10-a qədər olan rəqəmləri özündə təcəssüm etdirir.

**Məqsəd:** Əşyanın sayını ədədlə əlaqələndirmək bacarığını formalaşdırmaq, 5 daxilində əşyaların daha çox və ya az olduğunu təyin etməyi öyrətmək

***Hissə 1. Biliyin ötürülməsi***

Öyrədən lövhədə 1-dən 10-a qədər rəqəmləri yazır. Hır bir rəqəmin altından rəqəmin sayı qədər dairə çəkir. Öyrədən verilən rəqəmlərdən hər hansı birini seçir və ona aid dairələri digərləri ilə müqayisə edir. Nəticədə "çox" və "az" anlayışını uşaqlara aşılayır.

***Hissə2. Praktik tapşırıq. Oyun: "Dəniz quldurları və onların qənimətləri"***

*(Əlavə 5).* **Öyrədən:** "Uşaqlar, dəniz quldurları öz qənimətlərini bu qutularda gizlədib. Biz indi bu qutuları açıb içərisindəki qızıl pulları sayıb hansı dəniz quldurunun daha çox pula sahib olduğunu müəyyən edəcəyik.

Uşaqlar qutuları açır, içindəki qəpikləri sayırlar. Qutuları sıra ilə düzürlər.

**Qeyd 1.** "Əlavə-5"-də qeyd edilən dəniz quldurlarının sandıqları və qəpikləri Öyrədən dərsdən öncə kəsir və hər sandığın içərisinə yerləşdirir.

**Qeyd 2.** Hər bir qutuda ən çox 10 qızıl qəpik olmalıdır.

### *Hissə 3. Oyun. İndeks əsasında böyük və kiçiyin tapılması.*

Öyrədən sağ və sol tərəfinə iki qutu yerləşdirir. Hər iki qutuya balaca toplar yerləşdirir. Topların üzərində 1-dən 10-a qədər rəqəmlər yazılır. Öyrədən iki öyrənən seçir. Hər iki öyrənən hərəsi müxtəlif qutulardan top seçir. Topların üzərində olan rəqəm qədər sinifdən əşya gətirməlidirlər. Daha sonra kimdə daha çox və az əşya olması ilə bağlı müqayisələr aparırlar.

**Qeyd:** Bu oyun yarış halında keçirilməməlidir. Belə ki, qutudan çıxarılan rəqəmlər müxtəlif olduğundan uşaqların bərabərliyi mümkünsüzdür.

***Uğur göstəricisi:*** Əşyanın sayını ədədlə əlaqələndirmək bacarığına malikdir, 5 daxilində əşyaların daha çox və ya az olduğunu təyin etməyi bacarır.

## Fiziki hərəkətlər

**Məqsəd:** Hərəkətləri cəld dəyişmə bacarığını və "İsveç divarı"nda məşqləri təkminləşdirmək

### *Hissə 1."Qurbağalar və kəpənəklər"*

Uşaqlar cərgə ilə gəzir. Öyrədən "qurbağalar" deyəndə bütün uşaqlar dayanıb sallağı otururlar və əllərini dizləri üstünə qoyurlar ("kva-kva-kva" səsini də çıxara bilərlər). Bundan sonra uşaqlar ayağa qalxıb yerişi davam edirlər. Öyrədənin "kəpənəklər" siqnalı ilə uşaqlar dayanıb qollarını yana açır və qanad kimi yelləyirlər.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

1. Ayaqlar bir pəncə enində aralı, qollar sinə qarşısında dirsəkdən qatlanıb, əllər yumruq halında. Sinə qarşısında əllər dairəvi hərəkət edir, bir əl digər əlin ətrafında fırlanır (5 dəfə).
2. Ayaqlar azca aralı, əllər arxada. Oturaq vəziyyət alıb dizləri əllər ilə tutmaq. Qalxıb ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
3. Oturaq vəziyyətdə ayaqlar aralı. Əllər yanlarda qarşıya əyilib ayaq barmaqlarına toxunmaq. Belini düzəltmək və ilkin vəziyyətə qayıtmaq (4 dəfə)
4. Ayaqlar azca aralı. Əllər yanlarda sərbəst. Kiçik fasilələrlə yerində iki ayaq üzərində tullanmaq (qaval, yaxud musiqinin sədaları altında yerinə yetirilir).

### *Hissə 3. "İsveç divarı"nda hərəkətlər*

- Nərdivana dırmanmaq. Uşaq müstəqil şəkildə, lakin nəzarət altında bir neçə dəfə nərdivana qalxıb enir.
- Ayaq hərəkətləri. Uşaq arxası nərdivana dayanaraq başından yuxarıda olan dayaqdan tutub sallanır və ayaqlarını yanlara tərpədir.
- Ayaqların düzbucaq altında saxlanması. Uşaq arxası nərdivana dayanaraq başından yuxarıda olan dayaqdan tutub sallanır; ayaqları qarşıya qaldırıb düzbucaq altında saxlayır.

***Uğur göstəricisi:*** Hərəkətləri cəld dəyişməyi bacarır və "

”nda məşqlər edir.

## Hərəkətli oyun: “Heyvanı tap”

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

***Vermişik biz əl-ələ, Gəzirik dövrə-dövrə. Ay dostum (Amin, Leyla) göstər, Təkrar eləyək biz də.***

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hansısa bir gülməli pozada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayırlar. Bundan sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və onu növbəti aparıcı kimi seçir. Oyun təkrar olunur, bu dəfə dairə əks istiqamətdə hərəkət edir.

## Sərbəst fəaliyyət: Sərbəst rəsm

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, kimə məşğələmiz maraqlı gəldisə, üç dəfə əl çalsın. İndi isə günümüzü əyləncəli edən yoldaşımızı qucaqlayıb sağollaşaq”.

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Salam, uşaqlar! Dünən məşğələmizdən sonra necə dincəldiniz? Gəlin dairədə yenidən oturaq. Mən bu topu kimə diyirlətsəm, həmin uşaq ucadan adını deyəcək və hər kəsi xoş bir sözlə salamlayacaq".

(Top bütün uşaqlara atılır, hər kəs adını bir daha xatırladır.)"

***Təqvimlə iş***

**Məqsəd:** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi öyrətmək

Öyrədən «Salamlaşma» guşəsində hava durumunu və həftənini gününü qeyd etdikdən sonra buradan asılan qış fəslini müzakirə edir.

- Uşaqlar, indi hansı fəsil olduğunu kim deyər?
- Bu gün biz qışda yuxuya gedən ayıdan danışacağıq.
- Kim ayının necə gəzdiyini göstərə bilər?

Öyrədən uşaqlara ayının qış yuxusuna getməsinə aid video göstərir.

***Uğur göstəricisi:*** «Salamlaşma» guşəsində təqvim bölümündəki təqvimə əsasən, dəyişiklikləri qeyd etməyi bacarır.

***Mövzuya giriş***

Öyrədən sinfin döşəməsinə 4 ədəd heyvan balası rəsmi yerləşdirir (sağ, sol, yuxarı, aşağı). Bir uşaq seçir, döşəməyə yerləşdirilmiş heyvan balalarının mərkəzində dayanmağını rica edir. Diqqət ilə kənarında olan balalara baxmağını söyləyir. Sonra uşağın gözünü yumur.

"Uşaqlar, biz indi ........ (uşağın adı - ona) söz ilə işarə edəcəyik. O isə bizim dediyimiz heyvan balasını tapacaq.

........, sənin sağında olan heyvan balasını xatırlayırsan? O hansı heyvan idi? Bəs solundakını necə? O hansı heyvan balası idi?"

Beləliklə, uşaqlar məkanda onların ətrafında yerləşən əşyaları xəyallarında təsvir etməyi öyrənir.

## Nitqin inkişafı

**Məqsəd:** Diqqətli dinləmək, məzmun üzrə suallara cavab vermək bacarığını təkminləşdirmək; empatiya (başqalarının dərdinə şərik olmaq) hissini inkişaf etdirmək

***Hissə 1. Nağıl "Əyriqulaq dovşan və ya hərə olduğu kimi" nağılı (Arzu Soltan)***

Öyrədən nağılı ifadəli oxuyur.

***Hissə 2. Sual-cavab***

Öyrədən uşaqlara suallar verir:

- "Nağıl xoşunuza gəldi?
- Hansı qəhrəman daha çox xoşunuza gəldi?
- Nağıl nə haqdadır? "

***Hissə 3. Müzakirə***

Nağıl qəhrəmanlarının davranışının müzakirə edilir.

### *Hissə 4. Nağılı davam et*

Öyrədən və uşaqlar birlikdə nağılı danışırlar. Öyrədən nağıldan bir parça uşaqlara danışır,

**Öyrədən:** “Bəs sonra nə olur?” Uşaqlar davam etməyə çalışırlar.

**Qeyd:** Öyrədənin məqsədi hekayə və ya nağılı öz sözləri ilə danışmağa uşaqları həvəsləndirməkdir.

***Uğur göstəricisi:*** Hekayəni diqqətlə dinləyir. Hekayənin məzmunu üzrə suallara cavab verir. Empatiya (başqalarının dərdinə şərik olmaq) hissinə malikdir.

## Hərəkətli oyun: “Pişik və heyvan balaları”

Uşaqlar dairədə dayanıb. Uşaqlar hər hansı bir heyvan balası olmalıdır. Uşaqlar istənilən heyvan balasının adını seçə bilər. Lakin uşaqlar hansı heyvan balası olduğunu pişiyə bildirməməlidirlər.

Uşaqlar dairədə gəzir və deyir:

*“Pişiyim ala boyundu, İşi tamam oyundu. Əlin asta basandı, Bucaqları pusandı”.*

Uşaqlar bu şeiri bitirər-bitirməz pişik dairədə qaçır və istədiyi uşağı seçir. Pişiyin seçdiyi uşaq heyvan balasının səsini çıxarmalıdır. Çıxara bilməsə, pişik onu dairənin mərkəzinə aparacaq.

## Rəsm: “Əyriqulaq dovşan”

**Məqsəd:** Uşaqların görüb eşitdiklərini təsvir etmək bacarığını sınaqdan keçirmək; dairə, düz və əyri xətt çəkmək bacarıqlarını təkminləşdirmək

Vəsaitlər: kağız, quaş, fırça

**Öyrədən:**

“Biz sizinlə keçən dəfə plastilindən dovşan düzəltmişdik. Onun hər iki qulağı eyni idi. Bizim nağılda isə dovşanın qulaqları bir-birindən fərqlidir. Hər biri də özünə görə gözəldir. Gəlin bizim gözəl dovşanı çəkək.

- Əvvəlcə gövdəni böyük dairə ilə göstəririk.
- Gövdədən yuxarıda bir az kiçik dairə-başı çəkirik.
- Bir qulaq (düz xətt) və digər qulağı (əyri xətt) çəkirik.
- Kiçik pəncələr çəkirik. Quruyandan sonra gözlər, burun, ağız çəkəcəyik.

Görün nə gözəl dovşanlar alındı: hər biri özünə görə gözəldir!”

***Uğur göstəricisi:*** Uşaqların görüb eşitdiklərini təsvir etmək bacarığına sahibdir. Dairə, düz və əyri xətt çəkə bilir.

## Sərbəst fəaliyyət: Konstruktorla oyun

## Son toplantı

**Öyrədən:** Uşaqlar, gəlin günümüzü yekunlaşdıraq. Öyrəndiklərimizi qısaca xatırlamağın vaxtıdır:

- Hansı heyvanları tanıyırsınız? (Uşaqların cavabları)
- Bəs heyvanlar hansı hissələrdən ibarətdir?
- Heyvanların balalarının adlarını kim xatırlayır? (At-dayça, qoyun-quzu, toyuq-cücə).

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Gəlin əl və ayaqlarımızla salamlaşaq. Salam, sağ əl. Salam, sol əl. Salam, sağ ayaq. Salam, sol ayaq”.

***Təqvimlə iş***

1, 2, 3-cü günlər keçirilənlərin təkrarı

***Mövzuya giriş***

**Öyrədən:** “İndi isə ev heyvanlarını və onların balalarını yada salaq. Uşaqlar, heyvanlar nə səs çıxarırlar?”. (İnək böyürür- mooo, it hürür- hav-hav)

Uşaqlar dairədə əyləşib. Öyrədən bir uşaq seçir. Həmin uşaq dairənin mərkəzində əyləşir. Digər uşaqla dairənin mərkəzində əyləşən uşağa heyvan adları deyir. Mərkəzdə oturan uşaq isə uşaqlar tərəfində deyilən heyvanların səsini çıxarır”.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Hərəkətləri çevik növbələmək bacarığını və “İsveç divarı”nda məşqləri təkmilləşdirmək

***Hissə 1.“Qurbağalar və kəpənəklər”***

Uşaqlar cərgə ilə gəzir. Öyrədən “qurbağalar” deyəndə bütün uşaqlar dayanıb sallağı otururlar və əllərini dizləri üstünə qoyurlar (“kva-kva-kva” səsini də çıxara bilərlər). Bundan sonra uşaqlar ayağa qalxıb yerişi davam edirlər. Öyrədənin “kəpənəklər” siqnalı ilə uşaqlar dayanıb qollarını yana açır və qanad kimi yelləyirlər.

***Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər.***

1. Ayaqlar bir pəncə enində aralı, qollar sinə qarşısında dirsəkdən qatlanıb, əllər yumruq halında. Sinə qarşısında əllər dairəvi hərəkət edir, bir əl digər əlin ətrafında fırlanır (5 dəfə).
2. Ayaqlar azca aralı, əllər arxada. Oturaq vəziyyət alıb dizləri əllər ilə tutmaq. Qalxıb ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
3. Oturaq vəziyyətdə ayaqlar aralı. Əllər yanlarda qarşıya əyilib ayaq barmaqlarına toxunmaq. Belini düzəltmək və ilkin vəziyyətə qayıtmaq (4 dəfə)
4. Ayaqlar azca aralı. Əllər yanlarda sərbəst. Kiçik fasilələrlə yerində iki ayaq üzərində tullanmaq (qaval yaxud musiqinin sədaları altında yerinə yetirilir).

***Hissə 3. “İsveç divarı”nda hərəkətlər***

Nərdivana dırmanmaq. Uşaq müstəqil şəkildə, lakin nəzarət altında bir neçə dəfə nərdivana qalxıb enir.

- Ayaq hərəkətləri. Arxası nərdivana dayanaraq uşaq başından yuxarıda olan dayaqdan tutub sallanır və ayaqlarını yanlara tərpədir.
- Ayaqların düzbucaq altında saxlanması. Arxası nərdivana dayanaraq uşaq başından yuxarıda olan dayaqdan tutub sallanır; ayaqları qarşıya qaldırıb düzbucaq altında saxlayır.

***Uğur göstəricisi:*** Hərəkətləri çevik növbələməyi bacarır və “İsveç divarı”nda məşqlər edir.

## Hərəkətli oyun: "Heyvanı tap"

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

*Vermişik biz əl-ələ, Gəzirik dövrə-dövrə. Ay dostum (Amin, Leyla), göstər,Təkrar eləyək biz də.*

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hər hansı bir gülməli pozada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayır. Bundan sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və onu növbəti aparıcı kimi seçir. Oyun təkrar olunur, bu dəfə dairə əks istiqamətdə hərəkət edir.

## Səsli nağıl zamanı

### *Meymunun Tapmacası*

Bu nağıl anasını itirmiş meymun haqqındadır. Sakitləş, balaca Meymun, ağlama. Mən ananı tapmağa kömək edərəm, - Kəpənək dedi. Balaca Meymun anasını itirib. Kəpənək ona əlindən gələn köməyi etsə də, onların bəxti gətirmir. Görəsən, nə üçün Kəpənək hər dəfə onu səhv başa düşür? Bəs Meymun evinə qayıda biləcəkmi?

**Link:** https://youtu.be/T8Kj-Lj3mWY

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Meymun anasını tapa bildi?
2. Bəs niyə kəpənək ona kömək edə bilmədi? Kəpənəklər nədən yaranırlar?
3. Digər hansı heyvanları gördünüz?

## Son toplantı

Öyrədən uşaqlara dairə üzrə qaçmağı təklif edir. Dairənin ortasında bir balış qoyulub. Kim ətrafdakılarla bağlı yaxşı bir xüsusiyyət seçə bilsə, balışın üstünə çıxıb bunu deyir. Digərləri də ona əl çalır. Bir neçə uşağın öz fikrini deməsinə şərait yaradılmalıdır.

# Fevral | 20-cı həftə | Mövzu: “Kim harada yaşayır”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Salam, uşaqlar! Dairəmizi yaradaq ki, hər kəs bir-birini görsün. Bu gün sakitcə, bir-birimizin gözlərinə baxaraq gülümsəyib (əl edib, iki əlimizi birlikdə qaldırıb və s.) salamlaşacağıq”. Öyrədən jestlərin köməyi ilə salamlaşmağı nümayiş etdirir.

***Təqvimlə iş***

**Məqsəd:** İlin fəsillərini (Qış xüsusiyyətlərini) təkrarlamaq

Öyrədən qış fəslinin təsvir olunduğu rəsmi (video) «Müzakirə»guşəsindən asır. Onlardan rəsmdə əks olunanları təsvir etmələrini (onun haqqında danışmağı) istəyir.

Qeyd 1: Rəsmdə qarın yağması, yarpağı tökülmüş ağaclar, isti paltar geyinmiş insanlar təsvir olunmalıdır.

Qeyd 2: «Müzakirə»guşəsi «Təqvim»guşəsinə aid A5 ölçülü bir lövhədir. Uşaqların rəsmi daha aydın görməsi üçün rəsm həmin lövhədən asılmalıdır.

***Uğur göstəricisi:*** Qışın xüsusiyyətlərini təsvir edə bilir.

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar, biz sizinlə artıq heyvanlar haqqında danışmışıq. Hansı heyvanları tanıdığımızı kim deyər? (uşaqlar tanıdıqları heyvanların adlarını sadalayırlar) Afərin, uşaqlar! Bizim kimi heyvanların da yaşadıqları evlər var. Buna heyvanların yuvaları deyilir. Bu gün biz sizinlə onların yaşadığı həmin yuvalar haqqında danışacıq.

***Barmaq oyunu: Teymur Elçin “Sərçə”***

Öyrədən mahnının sözlərini hərəkətlərlə ifadə edir, uşaqlar təkrarlayırlar.

**Səhər-səhər bağçada,**
**Bir sərçə dən yeyirdi.**
**Hərdən baxıb üzümə,**
"Cik-cik, cik-cik" deyirdi.

**O yedi, doydu, qaçdı,**
**Birdən itdi gözümdən,**
**Bəs o balaca sərçə**
**Hara getdi gözümdən?!**

**Çox axtardım,**
**tapmadım,**
**Tutdu ağlamaq məni.**
**Birdən kolun dalından**
Uçan gördüm sərçəni.

**O uçdu, uçdu, uçdu,**
**Qondu yaşıl budağa.**
**Çox çağırdım, gəlmədi,**
**Uçub getdi uzağa.**

### Ətraf mühit ilə tanışlıq: “Hər bir heyvanın öz yuvası var!”

**Məqsəd:** Uşaqların ətraf mühit barədə biliklərini genişləndirmək. Hər bir ev heyvanının öz evinin olduğunu öyrətmək

Vəsaitlər: Əlavədə təsvir edilən ev heyvanları və onların evləri. ***(Əlavə 6)***

***Hissə 1. Mövzuya giriş. Məlumatın ötürülməsi.***

Qeyd: Bu məşğələ sayəsində Öyrədən öncəki dərslərdə verilən mövzuları (ev, biz harada yaşayırıq) təkrar edir.

Öyrədən ev rəsmini ağ lövhədən asır və deyir: "Sizcə, bu evdə kim yaşayır? Düzdür, bu evdə ailə yaşayır. Uşaqlar bizim hamımızın evi var. Eləcə də, bizim ətrafımızda yaşayan heyvanların da evləri var. Biz bu gün onları yaşadığı evləri təsvir edəcəyik və onların evlərinin adlarını öyrənəcəyik.

### *Hissə 2. Müzakirə və praktik nümayiş*

Öyrədən "Əlavə 6"-da təsvir edilən heyvanların evlərini və heyvanları masanın üzərinə yerləşdirir.

**Öyrədən:** "Uşaqlar, bizim ev heyvanlarımız bütün gün otlayıblar, bizə kömək ediblər, işləyiblər, indi isə yorulublar. Onlar öz yuvalarına getməlidirlər. Biz onlara kömək etməliyik. Mən masada yerləşdirdiyim heyvanlara aid evi tapmağa çalışacağıq".

Öyrədən hər bir heyvanın yuvasını nümayiş etdirmək üçün video təqdim edir.

İnək tövlədə, it daxmada, toyuq hində və s. yaşayır.

### *Hissə 3. Didaktik oyun: "Kim harada yaşayır?"*

Öyrədən sinifdə dairələr yerləşdirir. Hər bir dairə ev heyvanlarının evi kimi təqdim edilir.

Məsələn: Hin, tövlə, dam. Uşaqlar sinifdə musiqi sədaları altında səpələmə gəzir. Öyrədən musiqini dayandırdıqda hər hansı bir heyvan adı deyir. Uşaqlar həmin heyvanın olduğu dairənin içərisinə doğru qaçırlar. Bütün uşaqlar dairəyə sığa bilmədiyindən kənarda qalırlar. Kənarda qalanlar oyundan uzaqlaşdırılır.

***Uğur göstəricisi:*** Ətraf mühit barədə biliyə malikdir. Hər bir heyvanın öz evinin olduğunu bilir.

## Hərəkətli oyun: "Yuvacıqlardakı sərçələr"

Uşaqlar "Sərçələr" Öyrədənin köməyi ilə 3-4 qrupa ayrılırlar və "yuva"nın (iplərdən düzəldilmiş dairələrin) içində dayanırlar. Öyrədənin "uçduq" siqnalına əsasən, "sərçələr" yuvadan uçurlar və bütün otaq boyu qaçırlar. "Quşlar, yuvanıza gəlin" siqnalına əsasən, öz " yuvalarına" uçurlar. Oyun 3 dəfə təkrarlanır.

## Yapma: "Yuvada quş"

**Məqsəd:** Uşaqların modelləşdirmə qabiliyyətini inkişaf etdirmək: kürəni yuvarlamaq, disk düzəltmək, basmaq və sıxışdırmaq

***Vəsaitlər:*** *Sarı, qəhvəyi, qırmız və qara rəngli plastilin, yapma üçün müşəmbə, salfetlər*

1. Öyrədən uşaqlara yuva yapmanın yollarını göstərir.
2. Qəhvəyi plastilini götürürük, kürə düzəldirik - plastilini ovcumuza qoyub dairəvi hərəkətlərlə yumrulayırıq.
3. Sonra kürəni yastılayırıq, barmağımızla mərkəzinə basdırıq, kənarlarını isə çimdikləyirik. Budur , yuva alındı!
4. Sonra Öyrədən quşcuğazın yapılması metodunu göstərir:
5. Sarı plastilin 2 balaca hissəsi götürürük: biri digərindən balaca - baş, digəri isə daha böyük – bədən, kürəcikləri yumrulayırıq, bir-birilərinə birləşdiririk.
6. Quyruq düzəldirik – Bədənin aşağı hissəsindən bir hissəni əlimizlə uzadırıq.
7. Sonra qara plastilindən balaca kürəciklər düzəldirik – bu, gözlərdir
8. Dimdiyi isə qırmızı plastilindən düzəldirik.
9. Quşcuğazı yuvaya otuzdururuq.
10. Məşğələnin sonunda yekun nəticə çıxarılır. Uşaqlar yuvalarda oturan quşcuğazları nəzərdən keçirirlər.

***Uğur göstəricisi:*** Modelləşdirmə qabiliyyəti inkişaf edib: kürəni yuvarlamaq, diskə düzəltmək, basmaq və sıxışdırmaq kimi qabliyyətlərə malikdir.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar. Süjetli oyunlar.

## Son toplantı

Günün tamamlanması. Uşaqlar yastıqlar üzərində otururlar. Musiqi sədaları altında Öyrədən dərsdə nə etdikləri barədə danışır və hər kəs haqqında xoş sözlər deyir.

## 2-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir! Hər birinizi görməyə çox şadam. Bu gün Novruza qədər qeyd edəcəyimiz 4 Çərşənbə axşamından birincisi-Su çərşənbəsidir”.

***Təqvimlə iş***

**Məqsəd:** Qış fəslində oynanıla bilən oyunlarla uşaqları tanış etmək

***“Qartopu” oyunu***

Uşaqlar dairəyə düzülüblər.

**Öyrədən:** “İndi elə təsəvvür edin ki, sinfimizə qar yağıb. Yağmış qardan qartopu düzəldib hər hansı bir dostunuzun adını çəkin və ona atın”.

***“Xizək” oyunu***

**Öyrədən:** “Uşaqlar, indi biz sinifdə hərəkət edəcəyik. Hərəkət edərkən ayağımızı döşəmədən ayırmamalıyıq. Elə təsəvvür etməliyik ki, biz buzun üzərində sürüşürük. Mahnıya qulaq asaq! Mən mahnının səsini yüksəldəndə siz də sürətinizi artırın”.

***Uğur göstəricisi:*** Qış fəslində oynanıla bilən oyunları bilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, kim “Qızılı saçlı qız və üç ayı” nağılını xatırlayır? Biz bu gün həmin nağıl ilə bağlı məşğələləri yerinə yetirəcəyik. Hazırsınız? O zaman maraqlı məşğələlərə başlayaq”.

### Riyaziyyat: Say: Bərabər, daha az, daha çox.

**Məqsəd:** İki qrup obyekti müqayisə etməyi öyrənmək, eyni saya sahib olduqları halda, bunu qeyd etməyi bacarmaq. “Daha az”, “daha çox” ifadələrini mənimsəmək.

***Hissə 1. Mövzuya giriş***

Öyrədən ***“Əlavə 7”***dəki vəsaiti çap edir və lövhəyə yapışdırır. Rəsmlərdə “Sarı saçlı qızın meşədəki sərgüzəştləri” verilib.

Öyrədən şəkillər əsasında hekayə uydurmağa çalışır. “Sarı saçlı qızın meşədə topladığı çiçəklərin balaca ayının topladıqları çiçəklər ilə müqayisə edir. Müqayisəli şəkildə daha az, daha çox və bərabər olan saylar müəyyən edilir. Hər bir adı çəkilən sayın yanında rəqəm (indeks) yazılmalıdır.

***Hissə 2. Praktik tapşırıq***



Öyrədən üç ədəd ağzı qapalı banka (şüşə qab) götürür.

Şüşələrin içərisinə müxtəlif sayda konfet və ya balaca əşya yerləşdirir (əşyalar eyni ölçülü və eyni formalı olmalıdır). Uşaqlar bankaları ilk öncə müşahidə etməli, daha sonra təxmini bankalarda olan konfetlərin sayını müəyyən etməlidirlər. Öyrədən təxmin edilən rəqəmi (həqiqətə uyğun olmaya da bilər) bankanın üzərinə yazır. Daha sonra bankaların qapaqları açılır və hər bankanın içərisində olan konfetlər sayılır. Həqiqətə uyğun olub-olmadığı müəyyən edilir. Öyrədən oyunu davam edir və bankalardakı konfetlərin sayını dəyişdirir. Uşaqlar yenidən şüşə qablardakı konfetləri müəyyən etməyə çalışırlar.

**Uğur göstəricisi:** İki qrup obyekt müqayisə etməyi bacarır, eyni saya sahib olduqları halda, bunu qeyd etməyi bilir. “Daha az”, “daha çox” ifadələrini yerinə görə uyğun işlədir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Uşaqlarda göstəriş əsasında hərəkət etmək, bir-birinə topu diyirlətmək, “İsveç divarı”na dırmanmaq və ayaqları düzbucaq altında saxlamaq bacarıqlarını inkişaf etdirmək

***Vəsaitlər:*** *2x2 m ölçüdə parça (örtük), müxtəlif ölçülü toplar, “İsveç divarı”*

***Hissə 1. Ümumi inkişafetdirici hərəkətlər: “Biz güclü dənizçilərik”.***

1. Otağın ortasına parça sərilir- bu, dənizdir. Uşaqlar parçanın ətrafında “qayıqlara” otururlar (yerdə, ayaqlar aralı). Qollar irəli uzadılır, əllər yumruq kimi yumulur (avar tuturmuş kimi). Uşaqlar bir az qabağa əyilirlər, sonra qollar dirsəkdən yığılır və kürək geri gedir. Beləliklə, uşaqlar avar çəkirlər (5 dəfə).
2. Öyrədən uşaqlara müxəlif ölçülü toplar verir – bu qayıq və gəmilər olur. Uşaq topu qarşıdakı yoldaşına diyirləndirməlidir, yəni qayıq, yaxud gəmini dənizdə üzdürməlidir (4-5 dəfə).
3. Bir balaca top (qayıq) dənizdə (parçanın üzərində) qalır. Öyrədən uşaqlarla birlikdə parçanın kənarlarından tutur və “Dalğa!” çağırışı ilə parçanı silkələyirlər. “Fırtına!” çağırışı ilə parçanı daha da güclü silkələyirlər. Əgər top düşdüsə, dəniz sakitləşir və topu yenidən parçanın üzərinə qoyub oyunu eyni qayda ilə bir neçə dəfə təkrar edirlər.

***Hissə 2. “İsveç divarı” – gəmi nərdivanı***

1. Nərdivana dırmanmaq. Gəmiçi uşaq “İsveç divarı”na dırmanıb, yuxarıdan hamını salamlayıb, yerə düşməlidir. Gəminin bütün heyəti növbə ilə bunu təkrar edir.
2. Körpü. Uşaq arxasını “İsveç divarı”na çevirib, bir az aralı dayanıb əlləri ilə başından yuxarıdakı pillədən tutmalıdır. Hər dəfə bir pillə aşağı tutaraq kürəyi üstə daha çox əyilir. Bəzi hallarda uşaq arxaya əyilərək əllərini tam yerə qoya bilir, beləliklə, tam körpü yaradır.
3. Ayaqların düzbucaq altında saxlanması. Arxası nərdivana dayanaraq uşaq başından yuxarıdakı pillədən tutur və qollarından sallanır. Bundan sonra ayaqlarını irəli qaldırır və düzbucaq altında saxlayır (3 dəfə).

***Uğur göstəricisi:*** Uşaqlar göstəriş əsasında hərəkət etməyi, bir-birinə topu diyirlətməyi, “İsveç divarı”na dırmanmağı və ayaqları düzbucaq altında saxlamağı bacarır.

## Hərəkətli oyun: Dairədə top ilə oyun “Heyvanların əlamətlərini de!”

İndi isə biz dairəvi dayanacağıq və “Heyvanların əlamətlərini deyin!” adlı oyun oynayacağıq. Mən heyvanın adını çəkirəm və topu atıram. Siz isə əlamətləri sadalayaraq (rənginə və xarakterinə görə) onun necə bir heyvan olduğunu deməlisiniz. Sonda topu mənə qaytarmalısınız. Tülkü narıncı rəngdədir, hiyləgərdir. Dovşan qorxaq və utancaqdır. Dələ çevik və sürətlidir. Canavar boz rəngdədir və qorxuncdur. Kirpi iynəli və hiyləgərdir. Quş cəld və rəngarəngdir. Balıq ehtiyatlı və sürətlidir.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, sizə afərin! Bu gün ən diqqətli kim olub? Gəlin yoxlayaq!

Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabı)

Uşaqlar, valideynlərinizin işlədiyi yer və peşəsi haqqında məlumat alarsınız. Sabah biz bunu müzakirə edəcəyik”.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

Sabahınız xeyir, uşaqlar! Uşaqlar əlləri dizlərinin üstündə dairədə oturublar. Salamlaşarkən onlar bir-birinin əlindən tuturlar və hamı salamlaşıb qurtaranadək əllərini buraxmırlar; beləliklə, dairə qapanır. Uşaqlar möhkəm əl-ələ tutaraq əllərini yuxarı qaldırırlar və hamı birlikdə "Sabahınız xeyir!" deyir.

### *Təqvimlə iş*

**Məqsəd:** Qış fəslində oynanıla bilən oyunlarla uşaqları tanış etmək

### *Barmaq oyunu: "Qış əyləncəsi"*

Biz qışda neyləyirik? (Barmaqları ilə özlərini göstərirlər.)

Xizəklə əylənirik, (Əllərini yanlarında qabaqdan arxaya aparırlar.)

Bir-birimizin üstünə,

Qartopu atırlar.) ələyirik, (Xəyali qartopu duzəldib bir-birinə atırlar.)

Pambıq kimi ağ qardan,

Qar adamı düzəldirik. (Əlləri ilə xəyali qarı toplayırlar.)

***Uğur göstəricisi:*** Qış fəslində oynanıla bilən oyunları bilir.

### *Mövzuya giriş*

Uşaqlar sinifdə səpələmə gəzişirlər. Öyrədən ritmik olaraq, aşağıda verilən şeir parçasını səsləndirir. Uşaqlar hər misranı Öyrədən ilə təkrar edərək həmin ritm ilə sinifdə gəzişirlər.

**Öyrədən:**

| | | |
|---|---|---|
| Kim harada yaşayır?».<br>Bilin siz də, a dostlar,<br>Harada qalır heyvanlar.<br>Siçan yatır yuvada, | Sərçə damın altında.<br>Dovşan kolun dibində,<br>Dələ kiçik oyuqda.<br>Yer tapacaq özünə, | Tülkü də, canavar da.<br>Deyin görüm siz mənə,<br>Bilirsiniz harada? |

## Nitqin inkişafı: "Kim harada yaşayır?"

**Məqsəd:** Uşaqlarda heyvanların yaşayış yeri, onun təyinatı barədə bilikləri möhkəmləndirilmək

### *Hissə 1. Hekayə*

Uşaqlar, mən sizə Səbinə adlı bir qızın və onun meşədəki dostlarının başına gələn maraqlı bir hadisəni danışacağam (Hekayənin uyğun illustrasiyalarla göstərilməsi tövsiyə olunur). Səbinə gözəl bir evdə yaşayırdı. Ev böyük, gözəl bir çəmənin yaxınlığında yerləşirdi, çəməndə isə böyük, gözəl bir ağac var idi, ağacın yanında isə göl var idi. Səbinə tez-tez çəmənə oynamağa gəlirdi və onun yanından çoxlu quşlar uçuşurdular, kolların arasından onu tülkülər, dovşanlar izləyirdilər. Hətta bir gün onunla oynamağa ayı da gəlmişdi. Bu gün Səbinə də çəməndə oynamaq qərarına gəldi. Günəş işıq saçırdı, gözəl işıqlı bir gün idi. (Uşaqlar öz fikirlərini əlavə edirlər). Amma birdən külək əsməyə başladı, qara buludlar gəldi, şimşək çaxdı və yağış yağdı. Hava qaraldı və hamı öz evində gizlənmək qərarına gəldi. Amma o qədər qaranlıq idi ki, elə güclü yağış yağırdı ki, hamı çaş-baş qaldı və onlar öz evlərinə gedib çıxa bilmədilər. Gəlin Səbinə və onun dostlarına kömək edək. Səbinə

harada yaşayırdı (Evcikdə). Bəs onun evi harada idi? (Gözəl çəmənin yaxınlığında). Çəməndə nə bitirdi? Evin yanında daha nələr var idi? (Uşaqların cavabları)

### *Hissə 2. Oyun «Kim harada yaşayır?»*

(Öyrədən qız, ev, su hövzəsi, ağac, heyvanların təsvir olunduğu illustrasiyaları masanın üzərinə düzür və uşaqlardan xahiş edirik ki, kim harada yaşayırsa, onu həmin evdə yerləşdirsin. Kim harada yaşayır? Məsələn, qız evdə, balıq suda və s.)

Necə fikirləşirsiniz, ağacda kimlər yaşayır? (Quşlar). Bu quşların yaşadıqları evlər necə adlanır? Quşlar yuvanı nədən və necə hazırlayırlar? Uşaqlar, ağac kimisə gizlədə bilər? Ağacda oyuq ola bilər və orada dələ, ağacdələn yaşaya bilər.

Bəs ağacın altında kim yaşaya bilər? (Qarışqa, kirpi, dovşan) Uşaqlarla həşərat və heyvanların yaşayış yerləri barədə söhbət aparılır. Sən demə, ağac nə qədər heyvanlara sığınacaq olub. Bəli, bizdə ördək, qurbağa, balıqlar da var. Bəs biz onları harada yerləşdirək? (Uşaqların cavabları) Biz hamıya kömək etdik! Siz yorulmusunuz? Gəlin dincələk.

Siz vəhşi heyvanların harada yaşadıqlarını və onların evlərinin necə adlandırıldığını bilirsinizmi?

- Tülkü, canavar yuvada yaşayır.
- Ayı mağarada yaşayır.
- Dovşanın evi var? (Xeyr, kol dibində gizlənir)
- Bəs dələ harada yaşayır, bilrisiniz? (Ağac oyuğunda)

### *Hissə 3. Son müzakirə*

Biz sizinlə bu gün nə edirdik? Gəlin xatırlayaq. Kim harada yaşayır? (Uşaqların cavabları) Afərin!

***Uğur göstəricisi:*** Uşaqlar heyvanların yaşayış yerləri, onların təyinatı barədə məlumata malikdir.

## Hərəkətli oyun: "Yuvacıqlardakı sərçələr"

Uşaqlar - "Sərçələr" Öyrədənin köməyi ilə 3-4 qrupa ayrılırlar və "yuvanın" (iplərdən düzəldilmiş dairələrin) içində dayanırlar. Öyrədənin "uçduq" siqnalına əsasən, "sərçələr" yuvadan uçurlar və bütün otaq boyu qaçırlar. "Quşlar, yuvanıza gəlin" siqnalına əsasən, öz " yuvalarına" uçurlar. Oyun 3 dəfə təkrarlanır

## Rəsm: "Oyuqdakı dələ"

**Məqsəd:** Ovuc içi ilə rəsm çəkmə texnikası üzrə bacarıqların inkişafı

***Vəsaitlər:*** *Su ilə dolu qablar, mavi vərəqlər(mavi kağızlar), quaş, salfetlər*

1. Bu gün biz sizinlə dələnin evini çəkəcəyik. Onun evinin adı kimin yadında qalıb?(oyuq)
2. Qarşınızda qəhvəyi boya olan boşqablar var. Gəlin əllərimizi boyaya batıraq. Bütün ovuc və biləklər boyaya tam yerləşməlidir. İndi isə əlimizi vərəqin üzərinə elə qoyaq ki, götürəndə əllərimizin, ovuclarımızın və biləklərimizin izi vərəqin üzərində qalsın. İndi isə ovuclarımızı salfetlə yaxşıca silirik. Barmaqlarınızla kağızı yuxarı çevirin. Çəkdiyimiz şəkil oyuqlu ağacımız olacaq. Amma ağacımızın yarpaqları yoxdur.
3. Gəlin indi işarə barmağımızla ağacımızı yaşıl yarpaqlarla bəzəyək. Uşaqlar, işarə barmağımız hansıdır? Bu barmağımızı yaşıl boyaya batırırıq, budaq (barmaq) olan yerdə yarpaq izi qoyuruq.
4. Ağacın altında isə yaşıl boya ilə ot çəkək. Sonra salfetlə barmağımızı silək.
5. İndi bizə oyuqdan baxan dələni barmaqla çəkəcəyik. Barmağımızı narıncı boyaya batırırıq, budağın yanında barmaq izi qoyuruq. Bu, dələnin başıdır. Çeçələ barmağımızla burun və göz çəkirik.

***Uğur göstəricisi:*** Ovuc içi ilə rəsm çəkmə texnikasını bilir.

## Sərbəst fəaliyyət: Oyun. «Ən diqqətli»

Uşaqlar yarım dairəyə otururlar. Öyrədən uşaqlar arasında birini aparıcı təyin edir. Aparıcı oyun iştirakçılarının düzülüş qaydasını (harada oturduqlarını) yadında saxlamalıdır. Sonra aparıcı üzünü çevirir. Bu vaxt 2-3 oyunçu yerlərini dəyişirlər. Aparıcı hansı uşaqların yerlərini dəyişdiyini tapmalıdır. Hər bir uşaq aparıcı olduqdan sonra oyun bitməlidir. Səhv etməyən hər kəs qalib sayılır.

## Son toplantı

Hamı yastıqda oturur. Uşaqlar, budur, bizim görüşümüz başa çatdı. Deyin görək bu gün ən çox nə xoşunuza gəldi? Mən bu gün üçün sizin hər birinizi tərifləmək istəyirəm. Öyrədən hər uşaq barəsində yaxşı bir şey deyir.

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir! Uşaqlar, gəlin əl-ələ tutaq  və bir-birimizə gülümsəyərək  "Sabahın xeyir!" söyləyək ki, günümüz şən və xoş keçsin".

***Təqvimlə iş***

1, 2, 3-cü günlər keçirilənlərin təkrar edilməsi

***Mövzuya giriş***

Öyrədən həftənin mövzusunu möhkəmləndirmək üçün uşaqlar ilə heyvanlar və onların yuvaları barədə söhbət aparır.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** Maneələrin üzərindən atlayaraq hərəkət koordinasiyasını inkişaf etdirmək; iməkləmək üzrə məşqləri təkrar etmək.

***Hissə 1.***

Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr  yerləşdirilir (kubiklər arasındakı məsafə 0,5 m olmalıdır). Öyrədən deyir: "Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi bir-birimizə və o maneələrə toxunmadan gəzməyə və qaçmağa başlayacağıq. Hazırıq? Başlayaq!" Öyrədən iki göstəriş verir:  "İlan kimi sürünək" deyəndə uşaqlar yerə əyilir və iməkliyərək sağ tərəfdəki maneələri  ötməyə çalışırlar, "Qaçaq" deyəndə isə sol tərəfdəki kubiklərə toxunmadan qaçırlar.

***Hissə 2. Ümumi inkişaf məşqləri.***

1. Ayaqlar dabanlardan aralı,  4 dəfə ardıcıl olaraq, əllərini irəli-geri apar və yellə. Əvvəlki vəziyyətə qaytar (4-5 dəfə).
2. Ayaqlar dabanlardan aralı, əllər beldə. Otururuq, dizləri əllər ilə tuturuq, qalxırıq, əvvəlki vəziyyəti alırıq (4 dəfə).
3. Otururuq, ayaqları aralayırıq, əllər arxada saxlayırıq. Əlləri yana qaldırırıq, qabağa əyilirik, əllər ilə ayaq uclarına toxunuruq. Düz dururuq, əllər yana, əvvəlki vəziyyəti alırıq (3-4 dəfə).
4. Qarın üstə uzanırıq, əllər dirsəkdən bükülü vəziyyətdə. Növbə ilə ayaqları büküb-açırıq (hərəkət seriyası 1-4,3-4 dəfə təkrar edirik)

***Hissə 3. Əsas hərəkət növləri.***

İməkləmə. "Ayıcıqlar". Uşaqlar ("Ayıcıqlar") Öyrədənin müəyyən etdiyi başlanğıc nöqtəsində əl və ayaqlarının üstündə dayanırlar. Öyrədənin siqnalı ilə "ayıcıqlar" kubiklər istiqamətində düz iməkləyirlər. Kubiklərə çatdıqdan sonra ayağa qalxırlar və başlarının üzərində əl çalırlar. Başlanğıc nöqtə və ağac arasında məsafə 3 m-dən çox olmamalıdır. Oyun 2 dəfə təkrarlanır.

***Uğur göstəricisi:*** Maneələrin üzərindən atlayaraq hərəkət koordinasiyasını saxlaya bilir.

## Hərəkətli oyun: Dairədə top ilə oyun "Heyvanların əlamətlərini de"

İndi isə biz dairəvi dayanacağıq və "Heyvanların əlamətlərini deyin!" adlı oyun oynayacağıq. Mən heyvanın adını çəkirəm və topu atıram. Siz isə əlamətləri sadalayaraq (rənginə və xarakterinə görə) onun necə bir heyvan olduğunu deməlisiniz. Sonda topu mənə qaytarmalısınız. Tülkü narıncı rəngdədir, hiyləgərdir.  Dovşan

qorxaq və utancaqdır. Dələ çevik və sürətlidir. Canavar boz rəngdədir və qorxuncdur. Kirpi iynəli və hiyləgərdir. Quş cəld və rəngarəngdir. Balıq ehtiyatlı və sürətlidir.

## Səsli nağıl zamanı

***Balaca siçanın böyük macərası***

**Link:** https://youtu.be/6lXlO1roJCM

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Siçanlar harada yaşayır?
2. Siçan haralara səyahətə getmişdi?
3. Bəs siçan niyə ağladı?
4. Nənəsi siçana niyə cəsarətli olduğunu dedi?

## Son toplantı

Uşaqlar, bu gün kim hamıdan diqqətli idi? İndi yoxlayarıq. Bugünkü dərsin mövzusu nə idi? (Uşaqların cavabları). Afərin!

# Mart | 21-ci həftə | Mövzu: “Bahar”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***



Öyrədən “Səhər nə edirəm?” kartlarını hazır edir. (Əlavə 1)

Öyrədən kartları qarışdırır və bir kart seçir. Həmin kartda təsvir edilən hər hansı bir hərəkəti jest və mimika ilə göstərir. Məsələn: “Dişlərimi fırçalayıram”. Öyrədən əllərini fırça formasında dişlərinə doğru aparır və sanki dişlərini fırçalayır görüntüsünü yaradır.

Öyrənənlər kartı tapdıqda Öyrədən kartı lövhədən asır və yeni kart seçilir, oyun davam edir.

**Qeyd**: İlk kartı tapan öyrənən növbəti kartı seçə bilər və hətta kartda təsvir olunanı uşaqlara həmin uşaq göstərə bilər.

***Təqvimlə iş***

İlin fəsillərini (Yazın xüsusiyyətlərini) öyrətmək

Öyrədən yaz təsvir olunan rəsmi (video) müzakirə guşəsindən asır. Onlardan rəsmdə baş verən hadisələri təsvir etmələrini (onun haqqında danışmalarını) istəyir. (Əlavə 2)

**Qeyd** 1: Rəsmdə ağacların çiçəklənməsi, çəmənlik və yeni açan çiçəklər təsvir olunmalıdır.

**Qeyd** 2: “Müzakirə” guşəsi “Təqvim” guşəsinə aid A5 ölçülü bir lövhədir. Rəsmin aydın görünməsi üçün həmin lövhədən asılmalıdır.

“Təqvim” lövhəsində fəsil, həftənin günü, hava durumu **qeyd** edilir.

***Uğur göstəricisi:*** Yazın xüsusiyyətlərini təsvir edə bilir.

***Mövzuya giriş***

Öyrədən öncədən valideynlərdən öz uşaqlarının  şəkillərini çiçəklənən ağacın altında çəkmələrini istəyir. Şəkillər Öyrədənə “Whatsapp”, elektron poçt vasitəsi ilə göndərilə və ya çap edilmiş formada təqdim edilə bilər.

“Bu rəsmlərə baxın. Ayxanın (istənilən uşaq seçilə bilər) yanındakı ağacın çiçəklərinə baxın. Sizcə, o ağacın bizim qış fəslində müzakirə etdiyimiz ağacdan fərqi nədir? Sizcə, bu dəyişikliyin səbəbi nədir? Niyə ağacımızda çiçəklər açıb? Biz bu gün bütün bu suallara cavab axtaracağıq”.

### Ətraf aləm ilə tanışlıq: “Yazın əlamətləri”

**Məqsəd:** Yazın əlamətləri, yaz fəslində təbiətdə baş verən dəyişiklikləri öyrənmək

***Hissə 1. Mövzuya giriş***

Öyrədən dərs başlamadan öncə lövhədə dörd ağac çəkir.

- Ağac 1. Ağac çəkir. Ağaca bir neçə yarpaq çəkir. Ağacdan düşən yarpaqları çəkir. Yarpaqları yerə tökülən vəziyyətdə çəkir. Göydə bulud çəkir. Havanı yağışlı çəkir.

- Ağac 2. Ağac çəkir. Ağacada heç bir yarpaq çəkmir. Ağacın üzərində, yerdə və havada qar dənəcikləri çəkir. Ağacın yanında qar adamını təsvir edir.
- Ağac 3. Ağacda çiçəklər var, ətrafında quşlar, kəpənəklər uçur.  Göyə bir günəş və bulud çəkir.

Öyrədən  uşaqlar ilə bu üç ağacı müqayisəli şəkildə müzakirə edir.

**Qeyd**: Əlavə vəsait olaraq, Öyrədən "Əlavə 2"-də verilən yaz rəsmlərini də uşaqlara təqdim edə bilər.

### *Hissə 2. Vizual məlumatın təqdim edilməsi*



Öyrədən  uşaqlara yazın gəlişini nümayiş etdirən video təqdim edə bilər.

Öyrədən aşağıdakı məlumatdan istifadə edərək uşaqlara yazın gəlişi barədə məlumat verə bilər.

- Bəli, baharda bütün təbiət oyanır:
- Ağaclar tumurcuqlayır və onlardan yarpaqlar əmələ gəlir.
- Quşlar mahnı oxuyur. Bəzi quşlar isti ölkələrdən qayıdırlar.
- Heyvanlar qış yuxusundan oyanır, onların balaları dünyaya gəlir. (Ayı, kirpi)
- Heyvanların bəzilərində tüklərinin rəngi dəyişir. (Dələlər, dovşanlar)
- "Otlar yaşıllaşır; ilk yaz gülləri çiçəklərini açır".

### *Hissə 3. Oyun. Müzakirə və nümayiş*

Öyrədən yaz, payız və qışa aid uşaqlar ilə birgə əlamətlər sayır. O, əlamətləri kiçik vərəqlərdə çəkir.

**Qeyd**: Öyrədənin bu kartları öncədən hazırlaması məqsədəuyğundur.

Məsələn, Qar adamı, qar dənəsi, gül, kəpənək, çətir və sairə. Öyrədən bu əlamətlərin hansı fəslə aid olduğunu soruşur və növbəti oyuna keçir.

### *Hissə 4.  Oyun. Praktik tapşırıq*




Öyrədən öncəki məşğələdə təqdim edilən kartları yerə səpələmə yayır.

**Öyrədən:** "Uşaqlar, mən indi fəslin adını deyəcəyəm, siz isə həmin fəslə aid kartları seçərək  mənim hazırladığım qutuya atmalı olacaqsınız.

**Qeyd**: Öyrədən öncədən 3 qutu hazırlamalıdır (hər fəslə bir ədəd qutu). Onların üzərinə hansı fəslə aid olduğunu bildirən rəsm yapışdırmalıdır.

### *Hissə 5. Şeir saatı*

**Öyrədən:** "Uşaqlar, biz artıq bilirik ki, yazda gözəl güllər açır. Odur ki, mən indi baharda açan gözəl güllərdən biri-bənövşə haqqında şeir deyəcəyəm. Diqqətlə dinləyin, çünki növbəti dəfə biz eşitdiklərimizi hərəkətlərimizlə ifadə edəcəyik.

### *Bənövşə (Abdulla Şaiq)*

**Bənövşəyəm, bənövşə,**
**Düşmüşəm dilə-dişə;**
**Qızlar, oğlanlar məni**
Dərib taxarlar döşə.

**Bahar oldu açaram,**
**Qar, borandan qaçaram;**
**Başqa güllər açanda,**
Mən quş olub uçaram.

**Qurudar məni ayaz,**
**Yaşayıram bircə yaz.**
**Rəngim, ətrim gözəldir,**
Əl vurmayın, ömrüm az.

***Uğur göstəricisi:*** Yazın əlamətlərini və  bu fəsildə təbiətdə baş verən dəyişiklikləri bilir.

### *Hərəkətli oyun: "İsti və soyuq külək"*

İki əsas oyunçu seçilir. Biri isti külək olur və onun əlinə qırmızı lent bağlanılır. Digəri isə soyuq küləkdir və onun əlinə mavi lent bağlanır. Uşaqlar otaqda sərbəst gəzirlər. "Külək" əmri ilə meydançaya soyuq külək daxil olur və mümkün olduğu qədər çox oyunçuya toxunaraq onları dondurmağa çalışır. "Donmuş" oyunçular tərpənmirlər. İsti külək isə onların donunu açmaq üçün əli ilə toxunub "Azadsan" deyir. Beləliklə, soyuq və isti külək yarışırlar. Oyunçuların məqsədi oyunda  donmamaqdır. İsti külək bütün oyunçuların donunu açmağa çalışacaq. Fit səsi ilə oyun bitir və külək roluna seçilən yeni oyunçularla oyun təkrarlanır.

### *Rəsm: "Günəş"*

**Məqsəd:** Uşaqlara plastilin ilə rəsm çəkmə texnikasını öyrətmək, şaquli səth üzərində yarımhəcmli və nisbətən, qabarıq obyektlərin təsvir olunduğu  rəsmlər yaratmaq

Vəsaitlər: Şəkillər – günəş, yaşıl rəngli qalın karton, sarı və narıncı rəngli plastilin, yapma üçün lövhə, salfetlər

Səhər hər kəsdən tez kim oyanır? Hamıya işıq və istilik verən nədir? (Günəş)

**Öyrədən:** "Bu gün biz plastilinlə günəşi çəkəcəyik. Uşaqlar, gəlin yadımıza salaq, günəş necə olur? (dairəvi, sarı, narıncı, qırmızı)"

Öyrədən işin yerinə yetirilməsi mərhələlərini başa salır:

Sarı və ya qırmızı plastilindən birini götürürük. Plastilinlə dairəvi hərəkətlər edərək ovcumuzun içində kürəcik yaradırıq. Alınan kürəciyi kartonun mərkəzinə qoyuruq və yavaşca üzərinə basırıq. Balaca bir hissə qopardıb günəşin şüalarını düzəldirik. Sonra onu günəşə yapışdırırıq.

Uşaqlar işə başlayırlar.

***Uğur göstəricisi:*** Plastilin ilə rəsm çəkmə texnikasını bilir.

## Sərbəst fəaliyyət: Uşağın seçimi ilə oyun

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, gəlin əl-ələ tutaq. Bir-birimizin üzünə baxaraq arzular diləyək". (Uşaqlar növbə ilə arzularını deyirlər.)

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*



**Öyrədən:** "Uşaqlar, xatirinizdədirsə, biz dünən "Səhər-səhər nə edirsən?" kartlarını tapmağa çalışırdıq. Baxın, mən o kartları lövhədən asmışam. Lakin onların sıraları pozulub. Kim mənə o kartları düzgün sıra ilə düzməyə kömək edər?

Sizcə, oyanan kimi biz nə edirik? Yerimizdən qalxırıq, yoxsa dişlərimizi fırçalayırıq?"

**Qeyd**: Öyrədən suallar əsasında uşaqların kartları düzgün sıra ilə düzməyini təmin edir.

### *Təqvimlə iş*

**Məqsəd:** Yaz fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək - yağışlı hava

## "Yağmur" oyunu

Öyrədən ağ vərəqlərdən öncədən hazırladığı dairələri döşəməyə düzür. Dairələrin sayı qrupdakı uşaqların sayından bir ədəd az olmalıdır.

**Öyrədən:** "Uşaqlar, bu dairələr sizin evinizdir. Bizim sinif otağımız isə çəmənlik. Siz musiqi sədaları altında çəmənlikdə rəqs edəcəksiniz, musiqi dayananda siz özünüzə ev tapıb gizlənməlisiniz. Kim özünə ev tapmağı çatdırmasa, yerdə oturacaq".

**Qeyd**: Öyrədən hər turdan sonra dairələri uşaqların sayından bir dairə az olmaq şərti ilə tənzimləyir.

**Qeyd**: "Təqvim" lövhəsində fəsil, həftənin günü, hava durumu **qeyd** edilir.

***Uğur göstəricisi:*** Yaz fəslində müşahidə edilə bilən hava durumunu bilir. Böyük motorika bacarıqlarını - qaçmağı, özünü tarazlamağı bacarır.

### *Mövzuya giriş*

Öyrədən otağın döşəməsinə 2 ədəd heyvan balası rəsmi yerləşdirir (sağ, sol). Bir uşaq seçir, ondan döşəməyə yerləşdirilmiş heyvan balalarının mərkəzində dayanmağı rica edir. Diqqət ilə kənarında olan balalara baxmağını söyləyir. Sonra uşağın gözünü yumur.

**Öyrədən:** "Uşaqlar, biz indi Orxana (seçilmiş uşağa) söz ilə heyvan balalarını təsvir edəcəyik. O isə bizim dediyimiz heyvan balasına tərəf dönəcək".

**Qeyd**: Öyrədən bu məşğələnin gedişatı zamanı "sol" və "sağ" kəlmələrini istifadə etməməlidir.

**Qeyd**: Bu məşğələ motivasiya xarakterli olduğu üçün yalnız 1 və ya 2 uşaq bu oyunu oynaya bilər. Bu oyunun kollektiv oynanılması üçün uşaqların hər biri ayaq üstdə dayanmalı və hər birinin soluna və ya sağına eyni oyuncaq, rəsm, əşya qoyulmalıdır. Öyrədən hər kəsdən ətrafına diqqətlə baxmağı rica etməli və hər kəsin gözü yumulmalı, hər kəsə əşyanı və ya şəkili tapmaq üçün eyni təlimatlar verilməlidir.

**Qeyd**: Öyrədən bu məşğələ vasitəsi ilə "heyvanlar" mövzusuna inteqrasiya edə bilər.

## Riyaziyyat: "Məkanda istiqamətlənmə. Sağ-Sol"

**Məqsəd:** Məkandakı obyektlərin yerini (sağ və ya sol) özünə nisbətdə təyin etmək bacarığını inkişaf etdirmək

## *Mövzuya giriş. Hissə 1.*

**Öyrədən:** "Uşaqlar, əyləşməyin, gəlin bugünkü məşğələmizi idman hərəkəti ilə başlayaq. Əlləri çiyin istiqamətində açın! İndi isə başınızı pəncərə tərəfə və sonra isə qapı tərəfə yönləndirin. Ayaqlarınızı da çiyin ölçüsündə aralı qoyun. Əvvəlcə pəncərə tərəfdə olan ayağınıza, sonra isə qapı tərəfdə olan ayağınıza tərəf çevrilin. Uşaqlar, pəncərə tərəfdə olan əlimizi və ayağımızı "sağ", qapı tərəfdə olan əl və ayağımızı isə "sol" hissə adlandırırıq.

## *Hissə 2. Təlimatın verilməsi*

**Öyrədən:** "Uşaqlar, biz sağ-sol əl-ayağımızı qarışdırmamaq üçün onlara qırmızı və mavi lentlər bağlayacağıq.

Qırmızı lenti soldakı, mavini isə sağdakı əl və ayağımıza bağlayacağıq. Əgər oyun zamanı sağ və solunuzu qarışdırarsınızsa, onları rənglər ilə təyin edə bilərsiniz.

Öyrədən uşaqların əl və ayaqlarına qırmızı və mavi lentlər bağlayır

**Qeyd**: Qırmızı və ya mavi lent olmadığı təqdirdə, Öyrədən bu rəngləri digər rənglər ilə əvəz edə bilər.



## *Hissə 3. Oyun. Praktik tapşırıq.*

Vəsaitlər: Kəndir ip

Öyrədən sinfin ortasından bir ip çəkir, onu döşəməyə yerləşdirir. Uşaqların hər biri ipin solunda dayanır. Öyrədən "sağa tullan" və ya "sola tullan" komandası ilə uşaqlara müraciət edir. Uşaqlar bu təlimata əsasən, ipin solundan sağa, sağından sola tullanır.

## *Hissə 4. Musiqi fasiləsi. "Mənim istiqamətim" mahnısı*

**Qeyd** 1. Öyrədən istənilən ritm ilə bu mahnını uşaqlar ilə oxuya bilər.

**Qeyd** 2. Uşaqlar bu mahnının oxuyarkən

| | | |
|---|---|---|
| **Xorla (2 dəfə)** | **Nəqarət 1:** | **Xorla (2 dəfə)** |
| **Sola atlan,** | **Dönüb yerə toxun,** | **Oturun və ayağa durun,** |
| **Sağa atlan,** | **Sola dön və sağa dön.** | **Yuxarı-aşağı tullanın və əllərinizi çırpın.** |
| **İrəli atlan,** | **Dönüb yerə toxun,** | **Oturun və ayağa qalxın,** |
| Və geri tullan. | Sola dön və sağa dön. | Yuxarı və aşağı atlayın və əllərinizi çırpın. |

## *Hissə 5. Oyun. Praktik tapşırıq.*



Uşaqlar otaqda sıraya düzlənir və dayanırlar.

**Öyrədən:** "Uşaqlar, mən sizə müxtəlif komandalar verəcəyəm. Məsələn: İrəli iki addım, arxaya iki addım, sağa iki addım, sola iki addım. Siz isə bu hərəkətləri yerinə yetirəcəksiniz. Unutmayın! Siz komandada işləməyi bacarmalısınız. Buna görə də komanda şəklində hərəkət etməlisiniz".

**Qeyd**: Öyrədənin təlimatının əksinə hərəkət edən öyrənən "Sən yandın" ifadəsi ilə oyundan xaric edilir, döşəməyə oturur və qalan uşaqlar ilə oyun davam edir.

*Hissə 6. Müzakirə*



Uşaqlar döşəmədə əyləşib. Öyrədən sinifdəki əşyaların adını sadalayır və uşaqlar onların solda və ya sağda olduğunu deyirlər.

***Uğur göstəricisi:*** Məkandakı obyektlərin yerini (sağ və ya sol) özünə nisbətdə təyin etmək bacarığına malikdir.

## Fiziki hərəkətlər

**Məqsəd:** Hərəkətləri çevikliklə növbələşdirmə bacarığını aşılamaq və "İsveç divarı"nda məşqləri təkminləşdirmək

### *Hissə 1. "Qurbağalar və kəpənəklər"*

Uşaqlar cərgə ilə gəzir. Öyrədən "qurbağalar" deyəndə bütün uşaqlar dayanıb sallağı otururlar və əllərini dizləri üstünə qoyurlar ("kva-kva-kva" səsini də çıxara bilərlər). Bundan sonra uşaqlar ayağa qalxıb yerişi davam edirlər. Öyrədənin "kəpənəklər" siqnalı ilə uşaqlar dayanıb qollarını yana açır və qanad kimi yelləyirlər.

### *Hissə 2. Ümumi inkişafetdirici hərəkətlər*

1. Ayaqlar bir pəncə enində aralı, qollar sinə qarşısında dirsəkdən qatlanıb, əllər yumruq halında. Sinə qarşısında əllər dairəvi hərəkət edir, bir əl digər əlin ətrafında fırlanır (5 dəfə).
2. Ayaqlar azca aralı, əllər arxada. Oturaq vəziyyət alıb dizləri əllər ilə tutmaq. Qalxıb ilkin vəziyyətə qayıtmaq (4-5 dəfə).
3. Oturaq vəziyyətdə ayaqlar aralı. Qarşıya əyilib əlləri ayaq barmaqlarına toxundurmaq. Belini düzəltmək və ilkin vəziyyətə qayıtmaq (4 dəfə)
4. Ayaqlar azca aralı. Əllər yanlarda sərbəst. Kiçik fasilələrlə yerində iki ayaq üzərində tullanmaq (qaval, yaxud musiqinin sədaları altında yerinə yetirilir).

### *Hissə 3. "İsveç divarı"nda hərəkətlər*

- Nərdivana dırmanmaq. Uşaq müstəqil şəkildə, lakin nəzarət altında bir neçə dəfə nərdivana qalxıb enir.
- Ayaq hərəkətləri. Uşaq arxası nərdivana dayanaraq başından yuxarıda olan dayaqdan tutub sallanır və ayaqlarını yanlara tərpədir.
- Ayaqların düzbucaq altında saxlanması. Uşaq arxası nərdivana dayanaraq başından yuxarıda olan dayaqdan tutub sallanır; ayaqları qarşıya qaldırıb düzbucaq altında saxlayır.

***Uğur göstəricisi:*** Hərəkətlərini çevikliklə növbələşdirməyi bacarır və "İsveç divarı"nda məşqlər edir.

## Sərbəst fəaliyyət: Sərbəst rəsm

## Hərəkətli oyun: "Od və su"

**Məqsəd:** Uşaqlar Öyrədənin göstərişi ilə hərəkət edirlər, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü başa düşürlər.

Uşaqlar üç qrupa bölünürlər. Birinci qrupun əllərində qırmızı lentlər ("od" qrupu), ikinci qrupda mavi lentlər ("su" qrupu), üçüncü qrupda isə şəffaf (ağ) lentlər olur ("Külək" qrupu).

Öyrədənin göstərişləri ilə öyrənənlər hərəkət etməyə başlayırlar. Öyrədən "Yanğın çıxır" dedikdə "Od" qrupundakı uşaqlar yavaş-yavaş "Su" qrupuna doğru gedirlər və lentləri yelləyirlər. "Lakin suyu görən od

qorxur!" dedikdə isə "Su" komandasından olan uşaqlar irəli gəlir və mavi lentləri yelləyirlər. Bu zaman "od" qrupundakı uşaqlar geri çəkilir. Oyun Öyrədənin göstərişləri ilə davam edir: “Ancaq külək odu gücləndirir və alov təkrar yaranır” dedikdə "Külək" qrupundakı uşaqlar ortaya gəlir və şəffaf (ağ) lentlə sıraların arasından qaçırlar. Öyrədən sonda deyir: “Bəladan qaçmaq üçün, su əlavə edək!” Bu cümlədən sonra “Su” komandasından olan uşaqlar qabağa çıxırlar və mavi lentlərini yelləyirlər.

***Uğur göstəricisi:*** Öyrənən Öyrədənin göstərişi ilə hərəkət edə bilir, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü başa düşür.

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, kimə məşğələmiz maraqlı gəldisə, üç dəfə əl çalsın. İndi isə günümüzü əyləncəli edən yoldaşımızı qucaqlayıb sağollaşaq”.

## 3-cü gün

### Səhər toplantısı

***Salamlaşma***:



Öyrədən "Səhər-səhər nə edirsən?" kartlarını lövhədə üzü qapalı yapışdırır.

Hər bir kartın üzərində rəqəm yazır. 1, 2, 3,4, 5. Uşaqlar dairədə əyləşib.

**Öyrədən:** "Uşaqlar, mən indi kimə istəsəm, topu atacağam, həmin uşaq bizə ixtiyari bir rəqəm deyəcək. Mən isə o rəqəmin arxasında gizlənən kartı açacağam. Siz hamınız xorla o kartda təsvir olunan hərəkəti deyəcəksiniz və jestlərlə göstərəcəksiniz"

**Qeyd**: "Jest" sözü uşaqlara izah edilir; bədən üzvlərinin köməyi ilə fikrini ifadə etmək deməkdir.

***Təqvimlə iş***

**Məqsəd:** Yaz fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək

### "Göy qurşağı" oyunu

Öyrədən ağ vərəqlərdən öncədən hazırladığı dairələri döşəməyə düzür. Dairələrin sayı qrupdakı uşaqların sayından bir ədəd az olmalıdır.

**Öyrədən:** "Uşaqlar, bu dairələr sizin evlərinizdir. Bizim sinif otağımız isə çəmənlik. Siz musiqi sədaları altında çəmənlikdə rəqs edəcəksiniz, musiqi dayananda siz özünüzə ev tapıb gizlənməlisiniz. Kim özünə ev tapmağı çatdırmasa, yerdə oturacaq".

**Qeyd**: Öyrədən hər turdan sonra dairələri uşaqların sayından bir ədəd az olmaq şərti ilə tənzimləyir.

**Qeyd**: "Təqvim" lövhəsində fəsil, həftənin günü, hava durumu **qeyd** edilir.

***Uğur göstəricisi:*** Yaz fəslində müşahidə edilə bilən hava durumunu bilir.

***Mövzuya giriş***

**Öyrədən:** "Uşaqlar, biz bu həftə sizinlə ailəmiz haqqında danışacağıq. Gəlin ailəmizin üzvlərini bir-bir sayaq. Afərin! Bəs, uşaqlar, bu həftə hansı bayramı qeyd edəcəyik? Bəli, 8 Mart Beynəlxalq Qadınlar Günü bayramını. Məhz ona görə də biz bu həftə sizinlə ailəmizin ən dəyərli üzvləri olan analarımız, bacılarımız, nənələrimiz haqqında danışacağıq".

### Barmaq oyunu: "Bizim analarımız".

**Bu dünyada analar çoxdur (əllər müxtəlif istiqamətlərdə açılır və çiyinləri qucaqlayırıq).**
**Uşaqlar hamısını çox sevir.**
**Jurnalist və mühəndis,**
**Aşpaz və polis,**
**Dərzi, müfəttiş və müəllim,**
**Həkim, bərbər və usta - (çeçələ barmaqdan başlayaraq, əvvəlcə bir əlin, sonra digər əlin barmaqlarını yumuruq).**
**Hər bir ana önəmlidir, (əlləri "kilidləyirik")**

**Hər bir ana gərəklidir! (əllərimizi açırıq və yuxarı qaldırırıq)**

## Ətraf ilə tanışlıq: "Ana, anacan. Nənə"

**Məqsəd:** Uşaqlara 8 Mart Beynəlxalq Qadınlar Günü haqqında məlumat vermək

### *Hissə 1. Əqli hücum*

Hər bir insan üçün ana ən yaxşı, ən gözəl, ən yaxın insandır!

1. 8 Mart Qadınlar Günü - bütün anaların və nənələrin bayramıdır.

2. Analarımız haqqında danışaq. Ananızın adı nədir? (Uşaqlar cavab verirlər)

3. Nənələrin də ana olduğunu bilirsinizmi? (Nənə - ananın anası və ya atanın anası).

4. Anamız bizim ən yaxın dostumuz, sirdaşımız, bizim həmişə qayğımıza qalan və bizi ən çox sevən insandır.

### *Hissə 2. Şeir saatı. İslam Səfərli - "ANA"*

Uşaqlar, gəlin birlikdə oxuyaq!

**Əziz ana, can ana,**
**Gözəl, mehriban ana!**
**Böyütdükcə bizi sən**
Dən düşür saçlarına.

**Halal südün təmizdir,**
**Müqəddəsdir diləyin.**
**Qəlbimizlə bir vurur**
Sənin ana ürəyin.

**Qəhrəmanlar anası,**
**Sevimli, əziz qadın.**
**Bizim ana Vətənlə,**
Qoşa çəkilir adın.

### *Hissə 3. Valideynlərə təqdimat*

Mən səni sevirəm, çünki ...

Öyrədən uşaqlar ilə birlikdə onların analarının əvvəlcədən valideynlərdən aldığı fotolarını kəsir, çərçivələyirlər. Çərçivə rəngli kağızlardan ibarət ola bilər. Uşaqlar Öyrədən ilə birlikdə bu şəkillərə asılqan keçirib otağın mərkəzindən keçən ipdən asırlar. Uşaqlar növbəti gün sinfə gələn valideynləri üçün təqdimat hazırlayırlar. Təqdimat

"Mən səni sevirəm, çünki...."

Və ya

"Çox sağ ol, anacan, ona görə ki, ........"

***Uğur göstəricisi:*** 8 Mart Qadınlar Günü kimi **qeyd** edildiyini bilir.

## Hərəkətli oyun: "İsti və soyuq külək"

İki əsas oyunçu seçilir. Biri isti külək olur və onun əlinə qırmızı lent bağlanılır. Digəri isə soyuq küləkdir və onun əlinə mavi lent bağlanılır. Uşaqlar otaqda sərbəst gəzirlər. "Külək" əmri ilə meydançaya soyuq külək daxil olur və mümkün olduğu qədər çox oyunçuya toxunaraq onları dondurmağa çalışır. "Donmuş" oyunçular tərpənmirlər. İsti külək isə onların donunu açmaq üçün əli ilə toxunub "Azadsan" deyir. Beləliklə, soyuq və isti külək yarışırlar. Oyunçuların məqsədi oyunda donmamaqdır. İsti külək bütün oyunçuların donunu açmağa çalışacaq. Fit səsi ilə oyun bitir və külək roluna seçilən yeni oyunçularla oyun təkrarlanır.

## Yapma: "Ana üçün çiçək"

**Məqsəd:** Kiçik motorikanı inkişaf etdirilmək, parçaları birləşdirmək bacarığını formalaşdırmaq

Hər bir qadın üçün ən gözəl hədiyyə çiçəkdir! Gəlin analarımız üçün çiçəklər düzəldək.

Ananıza hədiyyə etmək istədiyiniz çiçəyin rəngini seçin! (Öyrədən uşaqlara gülün rəngini seçməyi təklif edir).

1. Yaşıl plastilini yuvarlayaraq bir saplaq düzəldirik.
2. Daha kiçik parça plastilini yumrulayaraq yarpaqlar düzəldirik.
3. Plastilindən kiçik parça götürürüb bir neçə balaca "toplar" düzəldirik. «Top»ları yastılayıb gülün ləçəklərini düzəldirik və onu başqa rəngdə olan topun ətrafına bərkidirik.
4. Yarpaqları saplağa birləşdiririk və çiçək hazırdır!

Analarımız bizim çiçəkləri çox bəyənəcəklər!

***Uğur göstəricisi:*** Kiçik motorikanı inkişaf etdirib, parçaları birləşdirmək bacarığına malikdir.

## Sərbəst fəaliyyət: Uşağın seçimi ilə oyun

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, gəlin əl-ələ tutaq. Bir-birinizin üzünə baxaraq arzular diləyək. (Uşaqlar növbə ilə arzularını deyirlər.)

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Bir-birinizə yaxşı söz deyin” oyununu təklif edir. Uşaqlar növbə ilə topu ötürərək bir-birlərinə yaxşı söz deyirlər. Bəs analarımız, nənələrimiz haqqında biz hansı yaxşı sözləri deyə bilərik?

### *Təqvimlə iş*

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti **qeyd** edilir.

### *Mövzuya giriş*

**Öyrədən:** “Uşaqlar, yazda torpaq necə oyanır?”

## Barmaq oyunu: “Bax və təkrar et”

Uşaqlar dairədə oturublar. Öyrədən bir əlini irəli uzadıb hər hansı bir işarə göstərir (məs: bir (iki, üç, dörd, beş) barmaq müxtəlif kombinasiyada, iki barmaq aşağı, ovuc üzüyuxarı açıq şəkildə və s). Uşaqlar bu işarələri təkrar edirlər. Öyrədən bəzən iki, yaxud üç işarəni ardıcıl göstərə bilər. Azyaşlıların sayı çox olarsa, uşaqlar iki qrupa bölünürlər.

**Qeyd**: Öyrədən valideynləri (anaları) sinfə dəvət edir, uşaqlar öncəki gün valideynlərə hazırladıqları əl işlərini və təqdimatı göstərirlər.

## Məntiq: İş dəftərləri ilə işləmək

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirilmək, məntiqi təfəkkürü və kiçik motorikanı inkişaf etdirmək

## Fiziki hərəkətlər

**Məqsəd:** Dairəvi qaçış və maneələr üzərindən atlayaraq uşaqları məşq etdirmək

***Hissə 1.*** Zalın mərkəzində kubiklərdən ibarət dairə yaradılır və uşaqlar o dairə ətrafında düzülürlər. Öyrədənin işarəsindən sonra uşaqlar dairə ətrafında hərəkət etməyə başlayırlar. Bir az asta tempdə gəzdikdən sonra, yavaş-yavaş sürəti artırıb qaçmağa başlayırlar. Bir neçə dəqiqə qaçdıqdan sonra uşaqlar sürəti tədricən azaldıb yürüşə keçirlər və hərəkəti dayandırırlar. Sonra Öyrədən hər uşağa bir kubik götürməyi söyləyir.

***Hissə 2.*** Kub ilə ümumi inkişafedici tapşırıqlar (gül ilə də olar). Öyrədən hər bir hərəkəti uşaqlara əyani nümayiş etdirir.

1. Uşaqlar, ayaqlarımızı bir pəncə enində aralayaq. Kubiki sağ əlimizdə aşağıda tutaq. Yavaş-yavaş əllərimizi yana aparaq, yuxarı qaldırıb, kubiki sol əlimizə ötürürək, sonra əllərimizi yenə yana aparıb, aşağı salıb, kubiki sol əldə saxlayaq (3-4 dəfə).
2. Uşaqlar, indi isə gəlin ayaqlarımızı çiynimiz bərabərində aralayaq, kubiki isə hər iki əlimizlə aşağıda saxlayaq. Yavaş-yavaş əllərimizi yuxarı qaldıraq; önə əyilək, kubik ilə döşəməyə toxunaq. Afərin, uşaqlar! İndi gəlin qalxaq, kubiki qaldıraq və əvvəlki vəziyyətimizə qayıdaq (4 dəfə ).
3. Uşaqlar, davam edək? Gəlin indi döşəmədə oturaq, ayaqlarımızı çarpazlayaq və əllərimizi sərbəst saxlayaq. Döşəmədəki kubiki sağ əlimizə alaq, sağa dönüb, kubik ilə döşəməyə toxunaq. İndi isə düz oturaq, kubiki döşəməyə qoyub, əvvəlki vəziyyətimizə qayıdaq. Gəlin indi eyni hərəkətləri 2-3 dəfə təkrar edak.
4. Uşaqlar, gəlin indi ayaqüstdə duraq. Ayaqlarımızı biraz az aralayaq, əllərimizi beldə tutaq (kubik ayaq uclarına yaxın) və növbə ilə kubik ətrafında hər iki ayaqla sağa və sola tullanaq. (2-3 dəfə)

Afərin, uşaqlar!

***Hissə 3. Hərəkətlərin əsas növləri. "Çay üzərindən" tullanmalar***
Öyrədən yerdə iplərdən ibarət olan çay düzəldir (15 sm enində) (şəkil 16).

Öyrədən tapşırığı başa salır: “Uşaqlar, təsəvvür edək ki, bu iplər çaydır. Gəlin çayın yanında dayanaq, ayaqları azca aralayaq, dizləri biraz büküb çayın üzərindən tullanaq”. Uşaqlar tullandıqdan sonra üzlərini yenə də çaya çevirib, tapşırığı 8-10 dəfə təkrar edirlər.

***Uğur göstəricisi:*** Dairəvi qaçışı və maneələr üzərindən atlanmağı bacarır.

## Hərəkətli oyun: “Od və su”.

**Məqsəd:** Öyrədənin göstərişi ilə hərəkət etmək, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü aydınlaşdırmaq.

Uşaqlar üç qrupa bölünürlər. Birinci qrupun əllərində qırmızı lent (“od” qrupu), ikinci qrupda mavi lent (“su” qrupu), üçüncü qrupda isə şəffaf (ağ) lent olur.( “Külək” qrupu).

Öyrədənin göstərişləri ilə öyrənənlər hərəkət etməyə başlayırlar. Öyrədən “Yanğın çıxır" dedikdə “Od” qrupundakı uşaqlar yavaş-yavaş “Su” qrupuna doğru gedirlər və lentləri yelləyirlər. "Lakin suyu görən od qorxur!" dedikdə isə "Su" komandasından olan uşaqlar irəli gəlir və mavi lentləri yelləyirlər. Bu zaman "Od" qrupundakı uşaqlar geri çəkilirlər. Oyun Öyrədənin işarələri ilə davam edir: “Ancaq külək odu gücləndirir və alov təkrar yaranır” dedikdə "Külək" qrupundakı uşaqlar ortaya gəlir və şəffaf (ağ) lentlə sıraların arasından qaçırlar. Öyrədən sonda deyir: “Bəladan qaçmaq üçün su əlavə edək!” göstərişindən sonra “Su” komandasından olan uşaqlar qabağa çıxırlar və mavi lentlərini yelləyirlər.

***Uğur göstəricisi:*** Öyrənən Öyrədənin göstərişi ilə hərəkət edə bilir, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü dərk edir.

## Sərbəst fəaliyyət: Öyrədənin təyin etdiyi oyunlar

## Son toplantı

Afərin, uşaqlar! Musiqi sədaları altında Öyrədən dərsdə nə etdiklərini barədə danışır və hər kəs haqqında xoş sözlər deyir.

# Mart | 22-ci həftə | Mövzu: “Tərəvəzlər”

## 1-ci gün

### Səhər toplantısı



***Salamlaşma***

Salam, uşaqlar! Sizləri görməyimə çox şadam. Kim deyər, həftə sonunu necə keçirtdiniz?

Öyrədən uşaqları iki qrupa bölür. Hər iki qrupdan bir öyrənən seçilir. Öyrədən seçdiyi kartdakı sözlərdən birini jestlər ilə hər iki qrupun nümayəndəsinə göstərir. Hansı qrupun nümayəndəsi kartdakı kəlməni ilk taparsa, o qrup xal qazanır.

***Təqvimlə iş***

**Məqsəd:** Yaz fəslinə aid ayları öyrətmək (Əlavə 3)

Öyrədən “Müzakirə” lövhəsindən üç ədəd rəsm asır. 1-ci rəsmdə mart ayı (yağış yağır). 2-ci rəsmdə-aprel (əkin və biçin sahəsi təsvir edilib), 3-cü may (ağaclar çiçəklənir). Öyrədən “Müzakirə” lövhəsinə yapışdırdığı rəsmin yerinə bu üç rəsmi yapışdırır və onları ayların adı ilə adlandırır.

**Öyrədən:** “Uşaqlar indi isə bu adları tez-tez və yavaş-yavaş deyəcəyik. Mart, aprel, may”.

***Uğur göstəricisi:*** Yaz fəslinə aid ayları bilir. Əl çalır, ritmə uyğun hərəkət edir.

***Mövzuya giriş. Fermaçının tərəvəzləri***

Öyrədən və sinifdə iştirak edən valideyn aşağıdakı mahnını bir-biri ilə oyun və drama şəklində həyata keçirir.

Öyrədən ***validеyndən soruşur:***

Oh, cənab fermaçı, nə qəşəng bostanın var?

Sənin bostandan mən nə dərə bilərəm?

Yoldaş fermaçı, bizə bu bostanda nə yetişdirdiyinizi söyləyin,

Bostanınızda, bostanınızda.

***Validеyn*** Öyrədən***ə cavab verir:***

Kələm, yerkökü yetişdirirəm,

Kartofu isə əkirəm.

Kələm, yerkökü yetişdirirəm.

Hələ soğan da əkirəm.

Öyrədən ***validеyndən soruşur:***

Oh, cənab fermaçı, nə qəşəng bostanın var?

Sənin bostanından mən nə dərə bilərəm?

Yoldaş fermaçı, bizə bu bostanda nə yetişdirdiyinizi söyləyin,

Bostanınızda, bostanınızda...

***Valideyn*** Öyrədən***ə cavab verir:***

Balqabaq, qarğıdalı yetişdirirəm,

Turp, kahı, sarımsaq da əkirəm.

Çağır uşaqları kömək etsinlər. Əgər ki, kömək edə bilsələr, bostanımdan onlara pay da verərəm.

**Öyrədən:** "Uşaqlar, hazırsınız? Fermaçının bostanına ziyarətə gedək? Baxaq görək, o, bostanda nə əkir, nə becərir?

## Ətrafla tanışlıq: Tərəvəzlər

**Məqsəd:**Uşaqlarda bostanda yetişən meyvələr haqqında təsəvvür yaratmaq. Tərəvəzlərin adını öyrətmək.



### *Hissə 1. Müzakirə. Tərəvəzlərin təqdim edilməsi. (Əlavə 4)*

Öyrədən həqiqi və ya plastik tərəvəzləri, yaxud onların rəsmlərini masaya düzür.

Uşaqlara bu tərəvəzlər barəsində məlumat verir. Öyrədən tərəvəzlər barəsində video da təqdim edə bilər. Uşaqlar tərəvəzləri əlamətinə (rəng, forma) görə təyin etməyə çalışırlar.

Öyrədən daha sonra uşaqlardan birinin gözünü yumur və tərəvəzlərə əl vuraraq tapmağını xahiş edir.



### *Hissə 2. Oyun. Sarımsaq kimdədir?*

Öyrədən müxtəlif plastik tərəvəzləri (iki ədəd) dairədə oturan uşaqlara paylayır. Uşaqlardan xahiş edir ki, tərəvəzləri dairədə soldan sağa ötürsünlər. Tərəvəzlərdən biri sarımsaq olmalıdır. Musiqi ritmi altında uşaqlar tərəvəzləri soldan sağa ötürməlidir. Uşaqlar çalışmalıdır ki, onlara sarımsaq gələr-gəlməz onu özlərindən sonra əyləşən yoldaşlarına ötürsünlər, belə ki, musiqi dayandırıldıqda əlində sarımsaq olan öyrənən oyunu tərk edir (bir addım geridə əyləşir) və oyun digər öyrənənlər ilə davam edir.



### *Hissə 3. Praktik iş: Salatın düzəldilməsi*

Öyrədən uşaqların evdən gətirdiyi tərəvəzləri doğramaqlarına, qarışdırmaqlarına, salat hazırlamağına şərait yaradır.

1. Tərəvəzlər doğranılır.
2. Mayonez və ya xama əlavə edilib qarışdırılır.
3. Ədviyyat əlavə edilir.
4. Süfrəyə verilir.

5. Uşaqlar salatın dadına birlikdə baxırlar.

**Qeyd**: Bu məşğələ zamanı istifadə edilən tərəvəzlər öncədən qaynadılmalı və hazır şəkildə qrupa gətirilməlidir.

**Qeyd**: Bu tapşırıq yerinə yetirilərkən bir neçə valideyn Öyrədənə kömək etməlidir.

**Qeyd**: İstifadə olunan əşyalar (bıçaq, boşqab) iti və kəsici olmamalıdır. Qrupdakı balaca uşaqlar bu tapşırığı böyüklərin müşayiəti altında yerinə yetirməlidirlər.

***Uğur göstəricisi:*** Bostanda yetişən meyvələr haqqında təsəvvürü var. Tərəvəzlərin adını bilir.

## Hərəkətli oyun: "Yuvacıqlardakı sərçələr"

Uşaqlar "Sərçələr" Öyrədənin köməyi ilə 3-4 qrupa ayrılırlar və "yuvanın" (iplərdən düzəldilmiş dairələrin) içində dayanırlar. Öyrədənin "uçduq" siqnalına əsasən, "sərçələr" yuvadan uçurlar və bütün otaq boyu qaçırlar. "Quşlar, yuvanıza gəlin!" siqnalına əsasən, öz " yuvalarına" uçurlar. Oyun 3 dəfə təkrarlanır.

## Yapma: Dovşana yerkökü düzəlt.

**Məqsəd:** Mərcimək kimi kiçik hissəciklərlə aplikasiyanı tamamlamağı öyrətmək

Yerkökü dovşanların ən çox sevdiyi tərəvəzdir.

Vəsait: Qırmızı mərcimək, yaşıl kağız, yapışqan, qayçı.

1. Ağ kağız üzərində hər bir uşaq üçün kökün forması çıxarılır.
2. Uşaqlar öz kök formalarının üzərini mərcimək ilə bəzəyirlər.
3. Uşaqların əl izi yaşıl kağızlara köçürülür və forması çıxardılır.
4. Yaşıl kağız üzərində kəsilən yerkökü yarpaqları yerkökünün özü ilə birləşdirilir və kök formasına salınır.

**Qeyd**: Uşaqların əl işi lövhədə düzəldilmiş "Bostan" guşəsində asılır.

***Uğur göstəricisi:*** Mərcimək kimi kiçik hissəciklərlə aplikasiyanı tamamlamağı bacarır.

## Sərbəst fəaliyyət: Öyrədənin təyin etdiyi oyunlar

## Son toplantı

Uşaqlar, biz bu gün yeni nə öyrəndik? Ən çox nəyi bəyəndiniz?

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:**

“Uşaqlar, Novruzun üçüncü çərşənbəsi küləyə həsr olunub. Siz külək haqqında nə bilirsiniz? Sizcə, külək insana necə kömək edə bilər? (İstidə sərinlədir, külək dəyirmanını işə salır, yelkənlər vasitəsilə qayıq və gəmiləri hərəkət etdirir). Amma külək bəzən dağıdıcı da ola bilər - qasırğa kimi. İndi biz də sizinlə “külək” yarada bilərik. Necə? – Yavaşca üfürsək, yüngül külək, güclü üfürsək, güclü külək olacaq. Hava isti olanda insana külək kömək edə bilər”.

***Təqvimlə iş***

**Məqsəd:** Yaz fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə müzakirə lövhəsindən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. 1-ci rəsmdə mart, 2-ci rəsmdə aprel, 3-cüsündə may. Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəməyə qoyur.

**Öyrədən:** “Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Mən sizdən təsvir etdiyim rəsmi tapmağınızı istəyəcəm”.

***Uğur göstəricisi:*** Yaz fəslinə aid ayları bilir.

***Mövzuya giriş***

Öyrədən təqvim bölümü bitər-bitməz ayağa qalxır, qapıya doğru gedir, qapını açır, çöl tərəfdən bağlayır.

Sonra qapını açır və içəriyə daxil olur. Bu hərəkəti uşaqlara bir neçə dəfə nümayiş etdirir. Öyrədənin köməkçisi (valideyn) hər dəfə Öyrədən sinfi tərk edəndə onun harada olduğunu uşaqlardan soruşur.

Əgər “içəridə”, “bayırda”, “çöldə” kəlmələrini istifadə edən olmasa, köməkçinin köməyi ilə uşaqlar Öyrədənin harada olmasını müəyyən edir.

## Riyaziyyat: Məkan anlayışı: “İçəridə” və “Bayırda”

**Məqsəd:** “İçəridə” və “Bayırda” anlayışlarının fərqini izah etmək və 5-ə qədər saymaq bacarığını möhkəmləndirmək



***Hissə 1. Giriş. Müzakirə.***

Öyrədən ilk olaraq uşaqlardan otağa göz gəzdirmələrini rica edir. Hava durumu yaxşı olduğu halda, Öyrədən uşaqları həyətyanı sahəyə çıxarır.

**Qeyd**: Uşaqlar hazırlaşarkən Öyrədən onlara həyətyanı sahədəki əşyalara, bitkilərə baxmalarını tapşırır. Uşaqlar çöldə və içəridə gördüklərini müzakirə edirlər.

***Hissə 2. Oyun. Çalış, içəridə ol!***

**Öyrədən:** "İndi isə gəlin "İçəridə və ya bayırda" oyununu oynayaq. Uşaqlar dairəyə düzülürlər. Öyrədən təbaşir ilə dairə çəkir. Uşaqlardan içəri və çölə tullanmalarını xahiş edir. Öyrədən "Dayanın!" deyəndə uşaqlar dayanır, sonra "Hər kəs donsun" söyləyir. Uşaqlar, gəlin müəyyən edək görək kimlər bayırda qalıb, bəs kimlər dairənini içinə tullana bilib? -Afərin!"

**Qeyd**: Dairənin xaricində qalanlar oyundan çıxarılırlar və oyun yerdə qalan öyrənənlər ilə davam edir.



***Hissə 3. Oyun***

**Qeyd**: Bu məşğələ həyətyanı sahədə davam edə bilər.

Vəsaitlər: Lövhə, markerlər, fləş kartlarda evin içində və çölündə ola biləcək əşyaların fotoları

Öyrədənin lövhəsi həyətyanı sahəyə çıxarıla bilmirsə, Öyrədən evi təbaşir vasitəsi ilə yerdə də çəkə bilər.

Öyrədən sadə bir ev çəkir və öyrənənlərə "içəridən" və "çöldən" kəlmələrinin mənasını bir daha izah edir! Uşaqlar iki komandaya ayrılır və hər komandadan bir öyrənən eyni anda yarışa hazır olur. Öyrədən qutudan ev əşyasının kiçik ölçüdə təsvir olunduğu kart çıxarır. Yarışan uşaqlar kartda təsvir edilən əşyanın içəridə və ya çöldə olduğunu sürətlə müəyyən etməlidirlər. Öyrədən kartı göstərən kimi öyrənənlər "evin içində" və ya "evin çölündə" kəlməsini işlətməlidir. Doğru sözü ən tez səsləndirən öyrənən qalib elan olunur və komandasına xal qazandırır.

***Hissə 4. Müzakirə***

Öyrədən uşaqlar ilə sinfə geri döndükdən sonra lövhədə 5 ədəd sinfə aid və 5 ədəd sinifdən xaric (həyətə və ya çölə aid) obyekt çəkir. Məsələn: Ağac, kitab, xalça, gül, kol və s. əşyalardan hansını içəridə hansını isə çöldə gördüklərini izah etməklərini xahiş etdi.

***Uğur göstəricisi:*** "İçəridə" və "Bayırda" anlayışların fərqini izah edə bilir. İçəriyə və bayıra aid olan əşyaları müəyyən edir.

## Fiziki hərəkətlər: (rəngli lentlər, toplar)

**Məqsəd:** Uşaqlarla komandada hərəkət etməyi, lentlə olan çalışmaları yerinə yetirməyi, topu dığırlamağı məşq etmək

***Hissə 1. "Yarpaqlar"***

Öyrədən ("ağac") əlində eni 2-3sm olan sarı, yaşıl və qırmızı kağızdan hazırlanmış lentlərlə komandanın mərkəzində dayanır. Uşaqlar ("Yarpaqlar") onun ətrafında dayanırlar. "Külək!" əmri ilə Öyrədən əllərini ("budaqlarını") yelləyir, uşaqlar ("yarpaqlar") isə uçuşaraq otaqda fırlanırlar. Öyrədən "Külək dayandı!" dedikdə uşaqlar çöməlirlər. Bu hərəkətlər bir neçə dəfə təkrarlanır. "Yarpaqlar, mənim yanıma gəlin!" göstərişi verildikdə isə uşaqlar Öyrədənin yanına qaçırlar. Sonda Öyrədən onların hərəsinin əlinə bir lent verir.

***Hissə 2. Lentlə ümumi inkişafedici tapşırıqlar***

1. Ayaqlar çiyinin enində, əllər kənarlarda. Lenti yuxarı-aşağı sallayırıq, (sağ-yuxarı, sol-aşağı, və s.) – dəyirman (5 dəfə).
2. Eyni, lakin öz ətrafında əvvəl bir, sonra digər istiqamətdə fırlanırsan - hər bir istiqamətdə 2 dəfə
3. Ayaqlar aralıda, əlləri lentlə başın üstdə saxlayırıq. Külək əsir – lentlər başın üstündə irəli-geri 5 dəfə yellənir.

4. Çöməlib lentlə əlləri döşəməyə vurmaq. Külək əmri ilə düzlənib lentləri yuxarı yüksəkdə 5 dəfə yellətmək.
5. Dairədə qaçmaq, əllərimizi lentlə kənara açmaq (lentlərin küləkdə uçuşmasını müşahidə edirik)

***Hissə 3. Əsas hərəkət növləri***

“Yuvarla-tut”. Uşaqlar ayaqları aralı vəziyyətdə otururlar. Oynayan cütlüklərdən birinin əlində böyük diametrli bir top verilir (uşaqlar arasında məsafə təxminən 1-1,50 m). Öyrədənin göstərişi ilə uşaqlar topu qüvvətlə itələyərək bir-birlərinə ötürürlər (Əllər “bayquş” kimi).

***Uğur göstəricisi:*** Komandada hərəkət etmə bacarığına malikdir.

## Hərəkətli oyun: Tərəvəzlər hərəkətdə

Öyrədən sinifdə 6 ədəd halqa təyin edir. Uşaqları 6 qrupa bölür və hər bir qrupa tərəvəz adı verir. Öyrədən tərəvəz şəkillərini - kartlarını sinfin müxtəlif hissələrinə asır. Öyrədən uşaqlardan halqada oturmalarını rica edir. Öyrədən sinifdə gəzişir, istədiyi tərəvəz kartına (divarda asılan) toxunur və “Hoppan”, “rəqs et” və ya “qalx, fırlan” kimi ifadələr ilə komandalar verir. Yalnız bu hərəkətləri Öyrədənin divarda toxunduğu tərəvəz komandası yerinə yetirməlidir.

## Sərbəst fəaliyyət: Uşaqların arzusu ilə oyunlar

## Son toplantı

Hər kəs döşəkçələrdə oturur. “Budur, uşaqlar, bu görüşümüz də sona çatdı! Deyin, bu gün sizin xoşunuza daha çox nə gəldi? Mən də istəyərdim ki, bu gün üçün hər birinizi tərifləyim”. Öyrədən hər bir uşaq haqqında tariflər söyləyir.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Salam, uşaqlar! Gəlin dairədə əyləşək ki, hamı bir-birini görə bilsin. Bu gün biz jestlərin köməyi ilə (əl sallamaqla, hər iki əlinizi birdən yuxarı qaldırmaqla...) sakitcə, bir-birimizin gözünə təbəssümlə baxaraq salamlaşacağıq. Öyrədən  jestləri nümayiş etdirir və uşaqlar onu təkrarlayırlar.

### *Təqvimlə iş*

**Məqsəd:** Yaz fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə müzakirə lövhəsindən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. 1-ci rəsmdə mart, 2-ci rəsmdə-aprel, 3-cüsündə may. Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəmə qoyur.

**Öyrədən:** “Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Mən təsvir etdiyim rəsmi tapmağınızı sizdən istəyəcəyəm”.

***Uğur göstəricisi:*** Yaz fəslinə aid ayları bilir.

### *Mövzuya giriş*

Öyrədən qutusundan turp çıxarır. Onu sinfə öncədən gətirdiyi dibçəkdəki torpaqda balaca çala qazıb əkir (torpağa basdırır).

**Öyrədən:** “Uşaqlar, bu turpu torpaqdan çıxarmağa mənə kim kömək edər?”

Uşaqlar asanlıqla turpu torpaqdan çıxarır. **Öyrədən:** “Uşaqlar, bəs bu turp çox böyük olsaydı, siz onu torpaqdan qopara bilməsəydiniz, kimi köməyə çağırardınız? (Uşaqların cavabı). Gəlin görək bizim bostançı babamız turpu çıxarmaq üçün kimi köməyə çağırır?”

## Nitqin inkişafı: “Turpun nağılı” (Əlavə 5)

**Məqsəd:** Uşaqlarda yaradıcılıq təfəkkürünün inkişafına dəstək olmaq

Vəsaitlər: Nağılın obrazlarına uyğun oyuncaqlar, yaxud şəkillər

**Öyrədən:** “Görün mənim cibimə kim girib? Bu gün bizim çox balaca bir qonağımız var:

Bu balaca siçanı təsvir etməyə kim mənə kömək edər? Siçan necədir?

(Öyrədən siçanı qulağına yaxınlaşdırır, sanki siçan ona nə isə deyir)

Bu siçan öyünür ki, o, ən böyük turpu yerdən çıxara bilib. Bəs bilmək istəyirsiniz, əslində, əhvalat necə olub? O zaman döşəkçələrdə oturun və dinləyin. Eyni zamanda mənə əhvalatı tamamlamağa kömək edərsiniz. Bunun üçün sizə göstərəcəyim oyuncaqlara (şəkillərə) diqqət yetirin:

Baba turp əkdi. Turp böyüdü, böyüdü, yetişdi. Baba turpu çıxarmaq istədi. Dartdı-dartdı, çıxara bilmədi.

- Baba kimi köməyə çağırdı?  (Nənəni)
- O, nənəni necə çağırdı? (Nənə, gəl mənə turpu çıxarmağa kömək et!)
- Nənə köməyə gəldi. Dartdılar-dartdılar, çıxara bilmədilər.
- Onlar sonra kimi çağırdılar? (Nəvəni)
- Nəvə turpu çıxarmağa köməyə gəldi. Nəvə nənədən, nənə babadan, baba da turpdan yapışdı. Dartdılar, dartdılar, çıxara bilmədilər.
- Onlar turpu çıxarmağa kimi çağırdılar? (Toplanı).
- Toplanı necə çağırdılar?  (Toplan, gəl turpu çıxarmağa kömək et!)

- Toplan nəvədən, nəvə nənədən, nənə babadan, baba turpdan yapışdı. Dartdılar-dartdılar, çıxara bilmədilər.
- Onda onlar kimi çağırdılar? (Məstanı)
- Məstanı necə çağırdılar? (Məstan, gəl turpu çıxarmağa kömək et!)
- Məstan gəldi.
- Məstan Toplandan, Toplan nəvədən, nəvə nənədən, nənə babadan, baba turpdan yapışdı. Dartdılar, dartdılar, çıxara bilmədilər.
- Onlar kimi çağırdılar? ( Siçanı)
- Siçan Məstandan, Məstan Toplandan, Toplan nəvədən, nəvə nənədən, nənə babadan, baba turpdan yapışdı. Dartdılar, dartdılar, turpu çıxartdılar.

Budur, nağılımız sona çatdı.

1. Xoşunuza gəldimi? (Bəli)
2. Deyin, turpu siçan özü çıxartdı?
3. Ona kim kömək edirdi?

Bəli, uşaqlar, güc birlikdədir! ”

***Uğur göstəricisi:*** Böyüklərin suallarına cavab olaraq, eşitdiyi mətnin məzmununu çatdıra bilir. Yaradıcılıq təfəkkürü var.

## Hərəkətli oyun: “Yuvacıqlardakı sərçələr”

Uşaqlar - Sərçələr Öyrədənin köməyi ilə 3-4 qrupa ayrılırlar və “yuva”nın (iplərdən düzəldilmiş dairələrin) içində dayanırlar. Öyrədənin “uçduq” siqnalına əsasən, “sərçələr” yuvadan uçurlar və bütün otaq boyu qaçırlar. “Quşlar, yuvanıza gəlin!” göstərişinə əsasən, öz “ yuva”larına uçurlar. Oyun 3 dəfə təkrarlanır.

## Rəsm: “Turp”

**Məqsəd:** Fırça ilə işləməyi və kontur daxilində rəngləməyi öyrətmək

Vəsaitlər: Fırça, boya, su ilə dolu stəkan, turpun şəkli (kağızdan hazırlanmış, yaxud əsl turp), salfetlər

**Öyrədən:** “Uşaqlar, boyaların arasında qırmızı rəngi tapa bilərsiniz? (Uşaqlar tapşırığı yerinə yetirirlər.)

Bəli, bu boya ilə turpu rəngləyəcəyik. Ancaq barmaqlarımızla turpu rəngləyə bilmərik axı, bizə köməkçi lazım olacaq. Budur, bizim köməkçimiz bu fırça olacaq”.

Öyrədən fırça ilə işləmək qaydasını izah edir və uşaqlara iş prosesində nəzarət edir.

Öyrədən uşaqlara şəkli kontur daxilində rəngləməyi xatırladır. Kiçik yaşlı uşaqlara bununla bağlı kömək edir.

***Uğur göstəricisi:*** Fırça ilə işləməyi və kontur daxilində rəngləməyi bacarır.

## Sərbəst fəaliyyət: “Turpun nağılı”nın səhnələşdirilməsi

***Uğur göstəricisi:*** Rollu oyunlar zamanı müxtəlif səs tonu və intonasiyadan istifadə edir.

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, sizinlə hansı nağılı danışdıq? Ən çox nə yadınızda qaldı? Bu nağılın qəhrəmanları kimlərdir?”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma:*** Budur, qarşıdan böyük bayram gəlir. Bu gün isə qrupumuzda kiçik bayram keçirdəcəyik! Gəlin valideynlərimizi salamlayaq. Dairədə hamı salamlaşır. Uşaqlar və valideynlər əl-ələ tutub salamlaşırlar: "Hamıya salam!"

***Təqvimlə iş***: Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti

***Mövzuya giriş***: **Öyrədən:** Bu gün biz sizinlə Novruz bayramını qeyd edəcəyik.

## İş dəftərlərində tapşırıq: Tapşırıq evə verilir.

**Məqsəd:** Həftənin mövzusunu möhkəmləndirmək, məntiqi təfəkkürü və kiçik motorikanı inkişaf etdirmək

## Hərəkət və musiqi

**Məqsəd:** Novruz qabağı mahnılar və oyunlarla bayram əhval-ruhiyyəsi yaratmaq

Qrupda bayram. Uşaqlar bayram mahnıları oxuyurlar, musiqi ilə hərəkət edirlər. Milli oyunlar oynayırlar. Evdən gətirdikləri şirniyyatları nuş edirlər.

***Uğur göstəricisi:*** Novruz qabağı mahnılar və oyunlarla bayram əhval-ruhiyyəsi yarada bilirlər.

## Hərəkətli oyun: Tərəvəzlər hərəkətdə

Öyrədən otaqda 6 ədəd halqa yaradır. Uşaqları 6 qrupa bölür və hər bir qrupa tərəvəz adı verir. Öyrədən tərəvəz şəkillərini, kartlarını sinfin müxtəlif hissələrinə asır. Öyrədən uşaqlardan halqada oturmalarını rica edir. Öyrədən sinifdə gəzişir, istədiyi tərəvəz kartına (divarda asılan) toxunur və "Hoppan", "rəqs et" və ya "qalx, fırlan" kimi ifadələr ilə komandalar verir. Öyrədənin divarda toxunduğu tərəvəz komandası yalnız bu hərəkətləri yerinə yetirməlidir.

## Səsli nağıl zamanı

***Bir damla su***

**Link:** https://youtu.be/hcDgL8hj3vw

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

1. Su niyə bizim üçün vacibdir?
2. Su damlası səhrada hansı həşəratla qarşılaşır?
3. Qarışqalar niyə yorğun idilər?
4. Su damlası onlara necə kömək etdi? Siz də dostlarınıza kömək edirsiniz?

## Sərbəst fəaliyyət: Oyunlar

## Son toplantı

Uşaqlar, kimə maraqlı idisə, kim şənləndisə, üç dəfə əl çalsın. Öyrədən uşaqlardan xahiş edir ki, bir-birilərini qucaqlasınlar.  Bəs şirniyyatlardan nəyi bəyəndiniz?  Öyrədən hər bir uşağın məziyyətli cəhətini deyir.

# Mart | 23-cü həftə | Mövzu: “Novruz  bayramı”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir, uşaqlar! Bu gün biz qavaldan istifadə edərək salamlaşacağıq”. Uşaqlar növbə ilə qavala vurur və bir-birilərini müəyyən ritmlə salamlayırlar. Başlanğıc olaraq ən sadə ritm yaradılır. Məsələn, tərbiyəçi “Əl çalmaq” adlı ritmik bir oyun təklif edə bilər. (Bir, iki - asta, bir, iki, üç isə tez). Bütün uşaqlar tərbiyəçi ilə ritmi təkrar edirlər”.

***Təqvimlə iş***

Təqvimə uyğun olaraq, həftənin günü, fəsil, hava şəraiti “Salamlaşma” lövhəsində qeyd edilir.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar, bu gün biz sizinlə xalqımızın sevimli bayramı olan Novruz bayramı haqqında söhbətimizi davam etdirəcəyik. Kim deyər, Novruzun dördüncü çərşənbəsi hansıdır?”

Öyrədən uşaqlarla Torpaq çərşənbəsi haqqında danışır.

“Novruz bayramının gözəl adət-ənənələrindən biri də yumurta boyamaqdır. Yumurta yeni həyatın rəmzidir, Novruz isə bütün təbiətin oyandığı yazın bayramıdır.

***Haxışta***

Gəldi bahar bayramı, (haxışta)

İlin gözəl bayramı. (haxışta)

Qədəmlərin xoş olsun, (haxışta)

Novruzda deyir hamı. (haxışta)

**Öyrədən:** “Uşaqlar, qarşıdan hansı bayram gəlir? Bəli, hamımızın sevdiyi Novruz bayramı gəlir. Bunun üçün biz bu həftə sizinlə “Novruz bayramı” haqqında danışacağıq. Kim Novruz bayramını sevir? Sizin evinizdə Novruz bayramına necə hazırlaşırlar? Uşaq ucadan və aydın danışmalıdır, xəbərləri qısa və səlis çatdırmalıdır. (Uşaqların cavabları). Afərin, uşaqlar! Bəs kim deyər, Novruzun neçə çərşənbəsi var? Bəli, dörd. (Su, Od, Yel və Torpaq çərşənbələri).

***Haxışta***

Gəl-gəl, a yaz günləri, (haxışta)

Bahar bayram günləri. (haxışta)

Bu Novruz bayramında, (haxışta)

İlin ən xoş günləri. (haxışta)

### Ətrafla tanışlıq: Bayram haqqında “Novruz bayramı”. Ənənələr.

**Məqsəd:** Uşaqları Novruz bayramınının ənənələri ilə tanış etmək, çərşənbələr və dörd ünsür haqqında məlumat vermək: su, od, külək, torpaq

### *Hissə 1. Çərşənbələr haqqında danışmaq*

Novruzun ikinci çərşənbəsi Od-ataş çərşənbəsi sayılır. Od yerə nəfəs verir, isidir, qışda donmuş torpaqların donunu açır. Od çərşənbəsində də Su çərşənbəsindəki kimi tonqal qalayar, məşəllər alışdırar, şamlar yandırarlar. Uşaqlar, böyüklər, qızlar, oğlanlar tonqal ətrafında halay vuraraq rəqs edər, mahnı oxuyar, "ağırlığım, uğurluğum odda yansın" deyərək tonqal ətrafından tullanarlar". Sonda Öyrədən uşaqlarla odla davranış qaydarını müzakirə edir.

Su və Od çərşənbəsi

**Öyrədən:** "Bahar bayramının əsas atributları çərşənbələrdir: Su, Od, Yel və Torpaq çərşənbələri Kim deyər, Novruzun ilk iki çərşənbəsi hansılardır? Afərin, Su və Od çərşənbələridir. Gəlin bir az onlar haqqında danışaq.

Su çərşənbəsi: İnanclara görə, yazın ilk oyanışı sudan başlayır. Dağları, dərələri bürüyən qarlar əriyir. Bu çərşənbədə sübh tezdən suyun qırağına gəlib dua edən, arzu tutan, dərdini suya danışan insan yüngülləşir.

### *Hissə 2. Bədən tərbiyəsi dəqiqəsi: "Torpaq, Od, Su, Hava"*

"Torpaq" deyəndə çöməlmək, "Hava"deyənədə - üfürmək, "Su" deyəndə- üzmə hərəkətləri etmək, "Od" deyəndə isə əlləri yuxarı qaldırıb, öz ətrafında dönmək lazımdır. Kim səhv edirsə, oyundan çıxır.

1. "Novruz" nə bayramıdır?
2. Novruz ənənələrini müzakirə etmək
3. Bayram sovqatı: şəkərbura-Ayın rəmzi, qoğal-Günəşin rəmzidir.
4. Bayrama aid şeir öyrənirik, mahnı və ya rəqs öyrənməyə davam edirik.

### *Hissə 3. Novruz şənliyinə hazırlaşmaq. Mahnı və şeir əzbərləmək*

***Uğur göstəricisi:*** Uşaqlar Novruz bayramının ənənələri ilə tanışdır, çərşənbələr və dörd ünsür - su, od, külək, torpaq haqqında məlumatları var.

## Hərəkətli oyun: "Od və su"

**Məqsəd:** Öyrədənin göstərişi ilə hərəkət etmək, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü dərk etmək

Uşaqlar üç qrupa bölünürlər. Birinci qrupun əllərində qırmızı lent ("od" qrupu), ikinci qrupda mavi lent ("su" qrupu), üçüncü qrupda isə şəffaf (ağ) lent olur ("Külək" qrupu).

Öyrədənin göstərişləri ilə öyrənənlər hərəkət etməyə başlayırlar. Öyrədən "Yanğın çıxır" dedikdə "Od" qrupundakı uşaqlar yavaş-yavaş "Su" qrupuna doğru gedirlər və lentləri yelləyirlər. "Lakin suyu görən od qorxur!" dedikdə isə "Su" komandasından olan uşaqlar irəli gəlir və mavi lentləri yelləyirlər. Bu zaman "od" qrupundakı uşaqlar geri çəkilir. Oyun Öyrədənin göstərişləri ilə davam edir: "Ancaq külək odu gücləndirir və alov təkrar yaranır" dedikdə "Külək" qrupundakı uşaqlar ortaya gəlir və şəffaf ( ağ) lentlə sıraların arasından qaçırlar. Öyrədən sonda deyir: "Bəladan qaçmaq üçün su əlavə edək!" göstərişindən sonra "Su" komandasından olan uşaqlar qabağa çıxırlar və mavi lentlərini yelləyirlər.

***Uğur göstəricisi:*** Uşalqar öyrədənin göstərişi ilə hərəkət edə bilir, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü başa düşür.

## Yapma: "Şəkərbura və qoğal"

**Məqsəd:** Uşaqların Novruzun ənənəvi sovqatları haqqında təsəvvürlərini genişləndirmək, onlara şar düzəltməyi öyrətmək, fiquru düzləşdirməyi məşq edirmək, kiçik motorikanı inkişaf etdirmək

Uşaqlar, biz də bu gün Novruz bayramına hazırlaşacağıq: şəkərbura və qoğal bişirəcəyik.

1. Bir az plastilin götürürük, əlimizdə isidib yayırıq. Bu bizim xəmirimizdir.
2. “Xəmir”imizi ovucumuzda dairəvi hərəkətlərlə yayırıq.
3. Kiçik uşaqlar “xəmir”i düzləşdirib qoğal hazırlayırlar.
4. Böyük uşaqlar isə alınmış topu tamamilə düzləşdirib xəmiri qatlayırlar və kənarlarını sıxırlar. Sovqatlarımızı siniyə qoyuruq.

***Uğur göstəricisi:*** Uşaqların Novruzun ənənəvi sovqatları haqqında təsəvvürü var.

## Sərbəst fəaliyyət: Öyrədənin istədiyi oyunlar

## Son toplantı

Uşaqlar, biz bu gün yeni nə öyrəndik? Ən çox nəyi bəyəndiniz?

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Sizləri görməyimə şadam! Gəlin dairədə əl-ələ dayanaq. Əllərimizi buraxmadan hamımız sağ tərəfindəki yoldaşı ilə müxtəlif ifadələrlə salamlaşsın (məs: səni salamlayıram, səni görməyə şadam və s.)"

### *Təqvimlə iş*

Təqvimə uyğun olaraq, həftənin günü, fəsil, hava şəraiti "Salamlaşma" lövhəsində qeyd edilir.

### *Mövzuya giriş*




**Öyrədən:** "Uşaqlar, kim mənimlə oyun oynamaq istəyir?"

Öyrədən lövhədə hər hansı bir heyvanın rəsmini çəkir. Heyvanın quyruğu uzun və şələ olmalıdır. Öyrədən uşaqlardan bir neçəsini seçir və onların əlinə hazırladığı (öncədən çəkilmiş və kəsilmiş) quyruqları verir. Uşaqlar gözü yumulu əllərindəki quyruğu heyvanın üzərinə yapışdırmalıdırlar.

**Öyrədən:** "Gəlin indi gözümüzü açaq və  baxaq görək, biz bu quyruqları doğru yerə yapışdırmışıq, yoxsa yanlış.

Öyrədən hər bir quyruğun yapışdırıldığı yeri müzakirə edir.

Orxan, sənin yapışdırdığın quyruq  yuxarıda,

Adil, sənin yapışdırdığın quyruq aşağıda,

**Qeyd**: Öyrədən bu tapşırıq sayəsində öyrədəcəyi əsas sözlərin uşaqlar tərəfindən eşidilməsini təmin edir.

## Riyaziyyat: Məkanda istiqamətlənmə. Arxada, öndə, yuxarıda, aşağıda.

**Məqsəd:** Məkandakı obyektlərin yerini özünə nisbətdə təyin etmə bacarığına yiyələnmək

Vəsaitlər: Tıq-tıq xanım gəlinciyi (yaxud hər hansı bir digər oyuncaq-ayı, pişik, top)

### *Hissə 1. Giriş. Məlumatın ötürülməsi*

Uşaqlar yarımdairə şəklində döşəkçələrin üstündə oturublar.

**Öyrədən:** "Uşaqlar, görün bizə kim qonaq gəlib? (Tıq-tıq xanım). O özü ilə oyuncaqlar gətirib və sizinlə bir az oynamaq istəyir. Baxın görün, o hansı oyuncaqları gətirib? (Uşaqlar stolun üzərində  gördükləri oyuncaqları sadalayırlar.)

Tıq-tıq xanım:

"Uşaqlar, gəlin oynayaq.

- Stolun üzərindəki oyuncaqlar necə düzülüb? (Bir-birinin yanında)
- Bəs ayı harada dayanıb? (Stolun ortasında, top ilə pişiyin arasında)
- Bəs pişik harada dayanıb? ( Onun sağında)
- Oyuncaqların necə düzüldüyü yadınızda qaldı?"

Tıq-tıq xanım oyuncaqları yaylıqla örtür və iki-üç uşaqdan onların yerini təkrar etməyi xahiş edir. Daha sonra Öyrədən yaylığın altında oyuncaqların yerini dəyişir və onları bir-birinin ardınca düzür. Ayını uşaqlara yaxın, sonra topu, onun ardınca isə pişiyi qoyur. Tıq-tıq xanım soruşur:

- “Oyuncaqlar indi necə düzülüb?
- Hansı bizə yaxın, hansı bizdən uzaqdır?
- Hansı topun qarşısında, hansı topun arxasında dayanıb?”.

Bundan sonra daha iki-üç dəfə yerdəyişmə edilir.

### *Hissə 2. Oyun “Kimin axrasında kim dayanıb?”*

Uşaqlar səpələng dayanıblar. Tıq-tıq xanım uşaqlardan sağ əllərini göstərməyi, sağ əl ilə sağ qulaqlarını, sonra sol qulaqlarını tutmağı xahiş edir. İki-üç uşaqdan ondan solda və sağda kimin dayandığı soruşulur. Daha sonra uşaqlara sağa tərəfə dönmək göstərişi verilir. Üç-dörd uşaqdan onlardan qarşıda və arxada dayananların adı soruşulur. Tıq-tıq xanım uşaqları tərifləyir və yeni oyun təklif edir.

### *Hissə 3. Oyun “Tap haradayam?”*

Öyrədən Tıq-tıq xanımın yerini dəyişir və hər dəfə uşaqlardan onun yerini tapmağı xahiş edir (stulun üstündə, stolun altında, qarşımda, yerdə və s.).

Oyundan sonra Tıq-tıq xanım uşaqlara maraqlı vaxt keçirdiyi üçün təşəkkür edir və sağollaşır.

***Uğur göstəricisi:*** Məkandakı obyektlərin yerini özünə nisbətdə təyin etmə bacarığına malikdir.

## Fiziki hərəkətlər: (toplar, kubiklər)

**Məqsəd:** Uşaqlara bir-birlərinin ardınca barmaq ucunda yeriməyi öyrətmək, manelərin üstündən keçmək, topu qapıdan keçirtmək (müəyyən bir istiqaməti öyrətmək). Sürünməyi və qabağa hoppanmağı məşq etmək. Cəldliyi, dözümlülüyü və hərəkətlərin koordinasiyasını inkişaf etdirmək.

***Hissə 1.*** Uşaqlar, indi biz Qoğalgilə qonaq gedəcəyik. Ard-arda düzülün, yola düşürük. Amma biz getdikcə, Qoğalın yolda kimlərə rast gəldiyini xatırlayaq.  Dovşan - (qabağa gedərkən iki ayaq üstdə hoppanmaq), Qurd - (dairədə asta qaçış). Ayı - (dizlər yerə dəymədən iməkləmək). Tülkü - (Öyrədənin ardınca bir-bir barmaq ucunda yerimək). Amma Qoğal hamıdan  tez qaçdı ( uşaqalar bir-birini ötmədən Öyrədənin ardınca qaçırlar). Dayanırıq, nəfəs alırıq, nəfəs veririk.

### *Hissə 2. Topla inkişaf etdirən məşqlər. Uşaqlar topları götürürlər.*

1. İndi biz qoğalı necə bişirdiyimizi göstərəcəyik. Xəmir yoğururuq. Uşaqlar əllərindəki topları barmaqlarıyla fırlayırlar, sonra barmaqlarını açıb, topu əzirlər (güclü əllərlə).
2. “Qoğal soyuyur”. Dayanaraq, ayaqlar bitişik, topu iki əllə qabağımızda tuturuq, əllər aşağı. 1-cidə - əlləri yuxarı qaldırırıq, barmaq ucunda, topa baxırıq, 2-cidə isə ilkin vəziyyətə qayıdırıq (4 dəfə).
3. “Qoğalı dığırlayırıq” Dayanaraq, ayaqlar bitişik, topu iki əllə qabağımızda tuturuq, əllər aşağı. 1-cidə- çöməlirik, topu ətrafımızda dığırlayırıq, 2-ci isə düzlənirik (4 dəfə).
4. Baxın necə al yanaqlı qoğal alındı. Döşəmədə əyləşirik, ayaqlar bir yerdə, top hər iki əlimizdə - dizimizin üstündə. Birincidə - bir tərəfə dönürük, topu yerə vururuq (mümkün olduğu qədər geri çevrilmək), ikincidə isə yenə başqa tərəfə  dönmək (nəzarət edin ki, kürək düz olsun) (hər tərəfə 3 dəfə dönürük).
5. “Toplar kimi hoppanırıq”
6. Uşaqlar, bizim qoğalımız nəyə bənzəyir? O necədir? Doğrudur, o, top kimi yumrudur. Gəlin biz də toplar kimi hoppanaq.

### *Hissə 3. Hərəkətin əsas növləri. Top dığırlamaq.*

Budur, biz öz qoğalımızı bişirdik. Gəlin onun necə dığırlandığını  göstərək. Uşaqlar topu (“qoğalı”) əvvəlcə bir əllə masanın üzərində, sonra hər iki əllə döşəmədə, kubiklərin (ağacların) arasından 2 dəfə  ilan kimi dığırlayırlar və geri qayıdırlar.

İndi isə, uşaqlar, “Qoğalla sağollaşırıq”. Uşaqlar dairədə dayanırlar və topu cəld bir-birlərinə ötürürlər.

***Uğur göstəricisi:*** Barmaq ucunda yeriməyi bilir. Maneələrin üstündən keçməyi bacarır, topu qapıdan keçirə bilir (müəyyən bir istiqamətdə). Sürünməyi və qabağa hoppanmağı bacarır. Çəldliyi, dözümlülüyü və hərəkətlərin koordinasiyasını inkişaf etdirir.

## Fiziki hərəkətlər: "Tülkü və qoğal"

**Məqsəd:** Uşaqları qaçışda məşq etdirmək, qrupda işləmə bacarığını inkişaf etdirmək

Öyrədən ("tülkü") oturub (yatır), uşaqlar ("qoğallar") "meşədə" topla yavaşca ora-bura qaçırlar. Birdən tülkü oyanır, ayağa durur. Uşaqlar bir yer tapıb qoğalı gizlətməlidirlər. Oyun, tülkü qoğalı tapana kimi davam edir. Oyun 3-4 dəfə təkrarlanır. Obrazları dəyişmək olar: qurd, ayı...

***Uğur göstəricisi:*** Komandada işləmə bacarığına malikdir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi ilə oyunlar

## Son toplantı

Afərin, uşaqlar! Musiqi sədaları altında tərbiyəçi dərsdə nə etdikləri barədə danışır və hər kəs haqqında xoş sözlər deyir.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

Öyrədən deyir: “Sabahınız xeyir! Uşaqlar, gəlin əl - ələ tutaq və hamımız birlikdə “Sabahınız xeyir!” deyək. İndi isə bir-birimizə gülümsəyək ki, bütün gün əhval-ruhiyyəmiz xoş olsun! Afərin, uşaqlar! Bizim görüşlərdə çoxlu maraqlı müzakirələr, məlumatlar olur. Onları yaxşı başa düşmək və yadda saxlamaq üçün gəlin bir-birimizin sözünü kəsməyək, əlimizi qaldırmadan yerimizdən cavab veməyək, bir-birimizin sözünə hörmətlə yanaşaq və sona kimi dinləyək.

### *Təqvimlə iş*

Təqvimə uyğun olaraq, həftənin günü, fəsil, hava şəraiti “Salamlaşma” lövhəsində qeyd edilir.

### *Mövzuya giriş*

**Öyrədən:** “Uşaqlar, bu gün biz sizinlə xalqımızın sevimli bayramı olan Novruz bayramı haqqında söhbətimizi davam etdirəcəyik. Novruzun dördüncü çərşənbəsi hansıdır?”

Öyrədən uşaqlarla Torpaq çərşənbəsi haqqında danışır.

“Novruz bayramının gözəl adət-ənənələrindən biri də yumurta boyamaqdır. Yumurta yeni həyatın rəmzidir, Novruz isə bütün təbiətin oyandığı yazın bayramıdır.

***Haxışta***

Gəldi bahar bayramı, (haxışta)

İlin gözəl bayramı. (haxışta)

Qədəmlərin xoş olsun, (haxışta)

Novruzda deyir hamı. (haxışta)

## Nitqin inkişafı: Bayrama aid mahnılar, şeirlər

**Məqsəd:** Torpaq çərşənbəsi haqqında məlumat vermək, bayram əhval-ruhiyyəsi yaratmaq, bayrama hazırlaşmaq

**Öyrədən:** “İnanclara görə, Torpaq çərşənbəsində su ilə odun torpağa qovuşması torpağın canındakı donu açır, torpağı yumşaldır. İnsanın, bütün canlı varlıqların həyatında su və odla yanaşı, torpağın da çox böyük əhəmiyyəti danılmazdır. Su ana, od atadırsa, torpaq varlığın özüdür»

Yaz günləri. Müəllif: Mirzə Ələkbər Sabir.

**Gəl, gəl, a yaz günləri!**
**İlin əziz günləri!**
**Dağda ərit qarları,**
Bağda ərit qarları.

**Çaylar axıb sel olsun,**
**Taxıllar tel-tel olsun.**
**Ağaclar açsın çiçək,**
Yarpağı ləçək-ləçək.

***Uğur göstəricisi:*** Çərşənbələr haqqında məlumatı var, bayram əhval-ruhiyyəsini duya bilir, bayrama hazırdır.

## Hərəkətli oyun: “Od və su”

**Məqsəd:** Uşaqlar Öyrədənin göstərişi ilə hərəkət edirlər, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü dərk edirlər.

Uşaqlar üç qrupa bölünürlər. Birinci qrupun əllərində qırmızı lent (“od” qrupu), ikinci qrupda mavi lent (“su” qrupu), üçüncü qrupda isə şəffaf (ağ) lent olur (“Külək” qrupu).

Öyrədənin göstərişi ilə öyrənənlər hərəkət etməyə başlayırlar. Öyrədən “Yanğın çıxır" dedikdə “Od” qrupundakı uşaqlar yavaş-yavaş “Su” qrupuna doğru gedirlər və lentləri yelləyirlər. "Lakin suyu görən od qorxur!" dedikdə isə "Su" komandasından olan uşaqlar irəli gəlir və mavi lentləri yelləyirlər. Bu zaman "od" qrupundakı uşaqlar geri çəkilirlər. Oyun Öyrədənin göstərişləri ilə davam edir: “Ancaq külək odu gücləndirir və alov təkrar yaranır” dedikdə "Külək" qrupundakı uşaqlar ortaya gəlir və şəffaf (ağ) lentlə sıraların arasından qaçırlar. Öyrədən sonda deyir: “Bəladan qaçmaq üçün su əlavə edək!” göstərişindən sonra “Su” komandasından olan uşaqlar qabağa çıxırlar və mavi lentlərini yelləyirlər.

***Uğur göstəricisi:*** Öyrənən Öyrədənin göstərişi ilə hərəkət edə bilir, küləyin odu gücləndirdiyini, suyun isə söndürdüyünü başa düşür

## Rəsm: "Yumurta formalarını bəzəyək"

**Məqsəd:** Uşaqları bayramda yumurta boyamaq ənənəsi ilə tanış etmək, düz və dalğalı xətlər ilə naxışlar çəkməyi öyrətmək

1. Öyrədən artıq bəzənmiş və ya kağızdan düzəlmiş yumurtaları göstərir.
2. “Biz artıq düz rəflər çəkməyi bacarırıq (dəmiryolundakı kimi), dalğalı xətlərlə dalğaları çəkə, fırça və barmaqlarımızla nöqtələr qoya bilərik. “Kağız” yumurtaları hərə öz zövqünə görə bəzəsin”.
3. Öyrədən işə necə başlayacağını bilməyən uşaqlara kömək edir.

“Necə də gözəl və rəngli yumurtalar alındı! Gəlin bizim qrupu onlarla bəzəyək!” (Otağın fərqli yerlərinə bərkitmək olar, deşik açıb, sap keçirdib nədənsə asmaq da olar.)

***Uğur göstəricisi:*** Uşaqlar bayramda yumurta boyamaq ənənəsinin olduğunu bilir, düz və dalğalı xətlər ilə naxışlar çəkməyi bacarır.

## **Sərbəst fəaliyyət:** Öyrədə**nin istədiyi oyunlar**

## Son toplantı

Uşaqlar, bu gün ən diqqətli kim idi? Gəlin yoxlayaq! Bugünkü dərsimizin mövzusu nə idi? (Uşaqların cavabları) Afərin!!!

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Uşaqlar, dünən siz əsl sənətçi idiniz. Gəlin özümüzü bir daha alqışlayaq. Kim deyər, teatr haqqında nə öyrəndiniz?

***Təqvimlə iş***

Təqvimə uyğun olaraq, ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti "Salamlaşma" lövhəsində **qeyd** edilir.

***Mövzuya giriş***

**Öyrədən:** Bu gün biz sizinlə həftə ərzində müzakirə etdiyimiz Novruz bayramını **qeyd** edəcəyik. **Öyrədən:** "Uşaqlar, bu gün biz sizinlə xalqımızın sevimli bayramı olan Novruz bayramı haqqında söhbətimizi davam etdirəcəyik. Kim deyər, Novruzun dördüncü çərşənbəsi hansıdır?"

## Novruz tədbiri

# Aprel | 24-cü həftə | Mövzu: “Həşəratlar”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaq salamlaşmaq istədiyi uşağın adını çəkərək topu ona atır. Topu tutan uşaq hamı ilə salamlaşır və həftəsonu nə etdiyini söyləyir, sonra növbəti uşağın adını çəkərək topu ona atır.

**Öyrədən:** “Uşaqlar gəlin həftəyə barmaqlarımızı hazırlayaq, onlar bu həftə rəngləyəcək, rəsm çəkəcək, yazacaq. Ona görə onları möhkəmləndirməliyik.”

***Barmaq oyunu: “Bax və təkrar et”***

Uşaqlar dairədə oturublar. Öyrədən bir əlini irəli uzadıb hər hansı bir işarə göstərir (məs: bir (iki, üç, dörd, beş) barmaq müxtəlif kombinasiyada, iki barmaq aşağı, ovuc açıq üzü yuxarı və s). Uşaqlar bu işarələri təkrar edirlər.

***Təqvimlə iş***

**Məqsəd:**Təqvim ilə işləməyi öyrətmək.

Ayın tarixi, həftənin günü, fəsil salamlaşma lövhəsində qeyd edilir.

***Oyun: “ Fəsillər”***

Öyrədən proqram üzrə keçirilmiş payız, qış və yaz aylarını uşaqlar ilə təkrar edir.

Öyrədən uşaqlardan döşəmədə qeyd etdiyi dairələrin üzərində dayanmalarını xahiş edir.

**Öyrədən:** “Uşaqlar mən indi sizə hər hansı bir ay deyəcəm. Əgər qeyd etdiyim ay qış fəslinə aid olsa, onda siz əl çalacaqsınız, payız fəslinə aid olsa yerinizdə bir dəfə dövrə vuracaqsınız, yaz fəslinə aid olsa hündürə tullanacaqsınız.”

***Uğur kriteriyası***: Təqvim ilə işləməyi bacarır.

***Mövzuya giriş***

**Öyrədən:** “Uşaqlar indi mən sizə bir tapmaca deyəcəm. Siz isə onu tapmağa çalışacaqsınız?”

**Yazda yığır yeməyini,**
**Çox sevir öz əməyini,**
**Yeyib yatar baharadək,**
**Nədir adı, tapın görək.**
**Qarışqa. ( Əlavə 1)**

**Öyrədən:** “Qarışqa həşəratdır. Bu həftə biz sizinlə həşəratlar haqqında danışacağıq.

## Ətraf mühitlə tanışlıq: “Həşəratların gözəl dünyası”.

**Məqsəd:** Uşaqların həşəratların müxtəlifliyi və quruluşu barədə biliklərini artırmaq (meşədə, tarlada, göl ətrafında) .

Vizual material: həşəratların illüstrasiyaları ( Əlavə 2) və ya plastmas həşərat oyuncaqlar.

### *Hissə 1. Həşəratların təqdim edilməsi.*

**Məqsəd:** Təsviri yaddaşın gücləndirilməsi.

Öyrədən uşaqlar ilə birgə dairədə oturub verilən tapşırığı yerinə yetirməyə çalışır.

**Öyrədən:** “Uşaqlar, deyin görək qızmar, günəşli bir gündə meşədə və ya tarlada gəzməyi, dincəlməyi xoşlayırsız? Gəlin gözlərimizi yumaq və xəyallarımızda birlikdə ora gedək. İndi sizdən xahiş edəcəm ki, gözünüzü yumasız və mənim şəklini lövhədən asdığım həşəratı təsvir etməyə çalışasınız. (lövhədən asılan həşərat kəpənəkdir)

Biz meşədə yaşıl çəməndə bir-birimizin ardınca addımlayırıq, ətrafımızda rəngarəng kəpənəklər uçuşur. Budur biz artıq çayırdayıq. Ətrafda nə qədər kəpənək var. Onlar uçur, bəziləri isə çiçəklərin üzərinə qonub, qanadlarını yellədir.

Gözünüzü açın! İndi lövhədə gördüyünüz ikinci (arı) həşəratı təsvir edəcəyik. Diqqətlə bizim lövhədəki arıya baxın! Sizcə o uçar yoxsa torpaqda sürünər? (uşaqların cavabı). Gəlin gözümüzü yumaq və bu dəfə çəmənimizdə arı və kəpənəkləri birgə təsvir edək. (Öyrədən video vəsaitdən də istifadə edə bilər)”

Öyrədən daha sonra sıra ilə bir neçə həşəratı uşaqların təsvir etdiyi mənzərəyə əlavə edir. Bu tapşırıq yerinə yetirilərkən iki əsas qaydaya riayyət edilməlidir.

1. Həşəratlar sıra ilə, tək-tək təsvir edilməli və bir-bir uşaqların təsvir etdiyi mənzərəyə əlavə edilməlidir.
2. Hər əlavə edilən həşəratın xəyalda təsvir edilmədən öncə Öyrədən tərəfindən şəkil üzərində təsvir edilməsi şərtdir.
3. Öyrədən hər əlavə etdiyi həşaratı öncəki haşarat və ya öncəki həşaratlar ilə həşəratların qabliyyətinə görə (uça bilir, sürünür, qonur, sançır) müqayisə etməlidir.

### *Hissə 2. Həşəratların bədən hissələri*

Öyrədən proyektor vasitəsi ilə çəmən rəsmini lövhədə canlandırır. Əlində və öncədən kəsdiyi həşərətlar təsvir edilən rəsmləri bir-bir çəmənin üzərinə yerləşdirir. Öyrədən hər bir həşəratı lövhəyə əlavə edərkən onun bədən hissələrini uşaqlar ilə müzakirə edir. Məsələn: Kəpənək, qanadı var, antenası var, altı ayağı var. Uşaqlar döşəmədə əyləşir, uşaqların arasından iki uşaq seçilir (Öyrədən uşaqları xüsusi eçim strategiyalarına əsasən seçə bilər) və lövhənin qarşısına dəvət edilir.

**Öyrədən:** “Uşaqlar (Öyrədən seçdiyi iki uşağa müraciət edir) indi mən sizə həşəratların bədən üzvlərini deyəcəm, siz isə mənim qeyd etdiyim bədən üzvləri olan həşəratı tapmağa çalışacaqsınız.

*Qanadı var, qanadları şəffafdır, sancmağa iynəsi var, baş, bədən və quyruq hissədən ibarətdir, bu hansı həşəratdır?*

**Qeyd:** Oyunun qaydasına əsasən aşağıdakılara riayyət edilməlidir.

1. Hər seçilmiş qrupa dörd ədəd həşərat təsvir edilməlidir.
2. Uşaqların adı lövhədə yazılmalı və tapdıqları həşərat sayı qədər adlarının yanına ulduz işarəsi çəkilməlidir. Daha sonra (oyun bitdikdən sonra) Öyrədən uşlaqlarla birgə öz adlarının qarşısındakı ulduzları saymalıdır.
3. Uşaqlar həşəratları tapdıqdan sonra Öyrədənin köməyi ilə həmin həşaratın adını təkrar etməlidir.

### *Hissə 4: Praktik tapşırıq.*

Öyrədən icmanın həyatində təbaşir vasitəsi ilə bir neçə həşərat rəsmi çəkir (Öyrədənini çəkməyə zamanı yoxdursa və ya şəkil çəkmə qabliyyəti yoxdursa Əlavə 2 də təsvir edilən rəsmlərdən istifadə edə bilər), hər həşəratın ətrafında geniş dairə çəkir. Uşaqlar kənarda dayanır, uşaqların sırasından yarışmaq üçün iki uşaq seçilir. Öyrədən bir neçə üsul (ad, əlamət, bədən hissələrini təsvir etməklə) vasitəsi ilə həşaratları təsvir edir, seçilən uşaqlar isə həmin həşarat yerləşdirilən dairəyə doğru qaçmalı və dairənin içərisində ilk olaraq dayanmalıdırlar. Dairəyə ilk qaçan uşaq qalib olur. Öyrədən bu oyunu 4, 6 uşaq ilə də oynaya bilər.

### *Hissə 5: Yekun müzakirə*

**Öyrədən:**

“Uşaqlar, siz necə fikirləşirsiz, həşəratlar nə ilə qidalanırlar? Həşəratlar yaşıl yarpaqlar, budaqlar və cavan bitkilərlə qidalanırlar. Arılar və kəpənəklər isə çiçəklərin şirin nektarı ilə qidalanmağı sevirlər. Uşaqlar, unutmaq olmaz ki, bütün həşəratlar zərərəsiz deyillər. Əgər siz qarışqaya toxunsaz o sizi dişləyə bilər. Dişləyən zaman onun ifraz etdiyi turşu insanın əlini güclü yandırır  və dişlədiyi yer çox uzun müddət ağrıyır. Başqa hansı həşəratlar dişləyirlər? (uşaqların cavabları) Arı çox ağrılı sancır. Ağcaqanadlardan da ehtiyyat etmək lazımdır. Lakin onu da unutmaq olmaz ki, təbiətdə hər şey bir-birinə bağlıdır. Hər bir həşərat, bizim üçün zərərli olduqları halda belə, ətraf mühitə fayda verə bilərlər. Gəlin təbiət sakinləri ilə qarşılaşdığımız zaman diqqətli və ehtiyatlı olaq!”

***Uğur kriteriyası***: Uşaqların həşəratların müxtəlifliyi və quruluşu barədə biliklərini artırmaq (meşədə, tarlada, göl ətrafında) .

## Hərəkətli oyun:   "Hörümçək torundakı milçəklər"

Qrupdan 3-4 uşaq seçilir. Onlar “milçəklər” olurlar. Qalan uşaqlar isə dairədə durur. Dairədə duran uşaqlar “tor” olurlar. Bunun üçün onlar əllərini yuxarı qaldırıb, birləşdirirlər. Öyrədən bir dəfə qavala vuranda “milçəklər” qanadlarını çırpıb, torun içinə uçub, sonra ordan çıxmalıdırlar. Öyrədən qavala iki dəfə vuranda isə “tor” rolunu oynayan uşaqlar əllərini aşağı salırlar. Dairədən çıxmağa çatmayan “milçək” dairəyə qoşulur. Oyun “tor” bütün milçəkləri tutana qədər davam edir.

## Aplikasiya:  “Uğur böcəyi”

**Məqsəd:** Həndəsi fiqurlardan kompozisiya hazırlamaq bacarığını gücləndirmək. Uğur böcəyi barəsində mlumatılandırmaq.

Materiallar: Diametri 5 və 3 sm olan 2 qara dairə, diametri 5 sm olan qırmız dairə, yaşıl rəngli kağız, salfet, qara karandaş, qələm və qayçı.

“Bu balaca böcəkdir! Onun qırmızı rəngi və bədənində çoxlu qara  nöqtələr var. O qanadlarını açır və göyə uçur. Kim deyər bu hansı həşəratdır, uşaqlar?” (uğur böcəyi). Öyrədən oyuncağı göstərir ( şəkil) Gəlin bunu nəzərdən keçirək. Bu oyuncaq hansı fiqura oxşayır? (dairəyə). Düzdür, dairəyə oxşayır. Bəs bizim uğur böcəyimiz nə rəngdədir? (qırmızı). Hər şey düzdür, bizim uğur böcəyimiz yumrudur,  kürəyində qara nöqtələri, qanadları  və pəncələri var. Bəs biz sizinlə uğur böcəyinə harda rast gələ bilərik? (tarlada , meşədə, bağda) Doğrudur, uğur böcəyi bitki olan hər yerdə olur.

Gəlin işə başlayaq. Balaca qara dairə götürün, bir tərəfini kleyləyin, sonra çevirin və vərəqin baş hisssinə yapışdırın. Salfet ilə üzərinə yaxşıca basın. Sonra böyük qara dairə götürün, kleyləyin və balaca dairənin yarısını örtəcək şəkildə üzərinə qoyun. Baxın mən bunu necə edirəm.  İndi isə qırmızı dairəni götürün, iki hissəyə qatlayın və onu qayçı ilə orta xəttdən kəsin.( Öyrədən çətinlik çəkən uşaqlara kömək edir). Hissələrdən birinin bir tərəfini kleyləyib, biraz kənara çevirərək qara dairənin üzərinə qoyun.  İkinci qanadı da eyni qayda ilə yapışdırın. İndi isə qara karandaş ilə böcəyin kürəyində qara nöqtələr çəkək. Uşaqlar, bizim

böcəyimizin daha  nəyi əskikdir?  Doğrudur, gözləri və bığları. Onları da biz qara qələm ilə çəkək. Sizdə çox gözəl uğur böcəkləri alındı!

***Uğur kriteriyası***: Həndəsi fiqurlardan  kompozisiya hazırlamaq bacarığına malikdir. Uğur böcəyi barəsində mlumatı var.

## Sərbəst fəaliyyət: Sərbəst şəkil çəkmək. Oyunlar.

## Son toplantı

Siz hansı həşəratları tanıyırsız? (qarışqa, uğur böcəyi, çəyirtkə, kəpənək, milçək, ağcaqanad, arı, eşşək arısı). Kimin yadında qalıb həşərat hansı hissələrdən ibarətdir? (Həşəratların altı ayağı olur. Bədənləri  isə üç hissədən ibarətdir-baş, döş və qarın. Onlardan bəzilərinin qanadları və bığları var)

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Bu gün biz qavaldan istifadə edərək salamlaşacağıq". Uşaqlar növbə ilə qavala vururlar və bir-birilərini müəyyən ritmlə salamlayırlar. Başlanğıc olaraq ən sadə ritm yaradılır.

Məsələn, Öyrədən "Əl çalmaq" adlı ritmik bir oyun təklif edə bilər. (bir , iki asta, bir, iki , üç isə tez). Ritmi bütün uşaqlar Öyrədən ilə təkrar edirlər."

***Təqvimlə iş***

**Məqsəd:**Təqvimə aid oyunları öyrətmək. Uşaqlara təqvim ilə bağlı anlayışı aşılamaq.

Ayın tarixi, həftənin günü, fəsil salamlaşma lövhəsində qeyd edilir.

Oyun: " Ardını de!"

**Öyrədən:** "Uşaqlar mən indi sizə bir tamamlanmamış cümlə deyəcəm, siz onu tamamlamalı olacaqsınız."

Mən baharı sevirəm, çünki, baharda..... (güllər açır, ağaclar çiçəklənir). Öyrədən bir neçə dəfə bu bitməmiş cümləni təkrar edir, uşaqlar o cümləni tamamlayır.

**Məqsəd:** Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən sinifdən bir neçə qızın adını çəkir və həmin qızları qrup şəklində dairənin ortasında dayanmağa dəvət edir. Öyrədən bir ədəd də oğlan adı çəkir və həmin oğlanı da qrupa əlavə edir.

**Öyrədən:** "Uşaqlar sizcə bizim qrupda yalnış olan nədir? Sizcə kim qrupda olmamalıdır? Sizcə hamıdan fərqli bu qrupda kimdir?"

Öyrədən suallar əsasında uşaqların qrupda fərqli olanı (oğlanı) tapmaqlarına kömək edir.

**Öyrədən:** "Uşaqlar afərin sizə! Siz mənə qrupumuzda fərqli olanı, yəni O...nı (seçilən oğlan uşağının adını çəkir) tapmağa kömək etdiniz. Bizim bu günkü dərsimiz qruplaşdırmadır. Biz bu gün bütün gördüklərimizi qruplaşdıracağıq.

## Riyaziyyat: Qruplaşdırma. Əşyaları əlamətinə görə qruplaşdırmaq

**Məqsəd:** Əlamət, rəng və formasına görə əşyaları, heyvanları qruplaşdırmağı öyrətmək.

***Hissə 1:*** Geyimləri təyinatına görə qruplaşdırmaq (geyim mövzusuna inteqrasiya).

Öyrədən döşəmənin üzərinə qarışıq olaraq Əlavə 3-də verilən yay və qış geyimlərini kəsib yerləşdirir. İki ədəd çomadanı da geyimlərin yanına yerləşdirir.

**Öyrədən:** "Uşaqlar bizim dostlardan biri isti ölkəyə səyahətə çıxır amma daha sonra isə soyuq ölkəyə yollanacaq. Bunun üçün biz ona çomadanını yığmağa kömək etməliyik"

Öyrədən bir-bir geyimləri döşəmədən qaldırıb uşaqlara göstərir və soruşur.

"Uşaqlar sizcə bu geyimi (şalvar, isti ayaqqabı, isti gödəkcə) bizim dostumuz hansı ölkədə geyinə bilər? Sizcə biz bu geyimi hansı çomadana yerləşdirməliyik?"

Qeyd: Uşaqlar hər iki çomadanı topladıqdan sonra Öyrədən bu çomadanları riyaziyyat guşəsindən asır.

***Hissə 2:*** Meyvələri və tərəvəzləri qruplaşdırmaq (meyvələr və tərəvəzlər mövzusuna inteqrasiya). Əlavə 4.

**Öyrədən:** "Uşaqlar biz səyahətə gedən dostumuza kömək etdik, indi isə bazarlıqdan gələn anaya meyvə və tərəvəzləri səbətə yerləşdirməyə kömək edəcəyik."

Öyrədən səbətləri iki fərqli masaya yerləşdirir. Səbətin birinə nümunə üçün bir ədəd meyvə, digərinə isə bir ədəd tərəvəz yerləşdirir. Meyvə və tərəvəz kartlarını isə sinifə səpələmə yayır. Uşaqlar sinifin kənarında oturacaqda əyləşir. Uşaqlar sırasından iki uşaq seçir, seçdiyi uşaqlar musiqi sədaları altında start komandasından sonra sinifdəki kartları səbətlərə toplamalıdır. Uşaqlardan biri yalnız meyvələri, digəri isə yalnız tərəvəzləri səbətlərə yığmalıdır.

***Hissə 3:*** Kartlarla iş. Tap və qruplaşdır.

Öyrədən Əlavə 5- də verilən kartları üzü yuxarı masaya düzür. Uşaqlardan kartlara diqqətlə baxmaqlarını xahiş edir, sonra isə bütün kartları üzü aşağı çevirir. Daha sonra kartlardan birini qaldırır və uşaqlardan həmin karta uyğun digər kartı tapmağını xahiş edir. Oyun bütün həşərat rəsmləri qruplaşdırılana qədər davam edir.

***Uğur kriteriyası***: Əlamət, rəng və formasına görə əşyaları, heyvanları qruplaşdırmağı bacarır.

## Fiziki hərəkətlər

Tapşırıq: Dairəvi qaçış və maneələr üzərindən atlayaraq uşaqları məşq etdirmək;

***1-ci hissə.*** Otağın mərkəzində kubiklərdan ibarət dairə yaradılır və uşaqlar o dairə ətrafında düzülürlər. Öyrədənin işarəsindən sonra uşaqlar dairə ətrafında hərəkət etməyə başlayırlar. Biraz asta tempdə gəzdikdən sonra, yavaş-yavaş sürəti artırıb qaçmağa başlayırlar. Bir neçə dəqiqə qaçdıqdan sonra uşaqlar sürəti tədricən azaldıb yürüşə keçirlər və hərəkəti dayandırırlar. Sonra Öyrədən hər uşağa bir kubik götürməyi söyləyir.

***2-ci hissə.*** Kubik lərlə ümumi inkişafetdirici tapşırıqlar ( gül ilə də olar). Öyrədən hər bir hərəkəti uşaqlara əyani nümayış etdirir.

1. Uşaqlar, ayaqlarımızı bir pəncə enində aralayaq. Kubiki sağ əlimizdə aşağıda tutaq. Yavaş-yavaş əllərimizi yana aparaq, yuxarı qaldırıb, kubiki sol əlimizə ötürürük,sonra əllərimizi yenə yana aparıb, aşağı salıb, kubiki sol əldə saxlayaq. (3-4 dəfə)
2. Uşaqlar, indi isə gəlin ayaqlarımızı çiyinimiz bərabərində aralayaq, kubiki isə hər iki əlimizlə aşağıda saxlayaq. Yavaş-yavaş əllərimizi yuxarı qaldıraq; önə əyilək, kubik ilə döşəməyə toxunaq. Afərin, uşaqlar! İndi gəlin qalxaq, kubu qaldıraq və əvvəlki vəziyyətimizə qayıdaq (4 dəfə ).
3. Uşaqlar, davam edək? Gəlin indi döşəmədə oturaq, ayaqlarımızı çarpazlayaq və əllərimizi sərbəst saxlayaq. Döşəmədəki kubiki sağ əlimizə alaq, sağa dönüb, kubik ilə döşəməyə toxunaq. İndi isə düz oturaq, kubiki döşəməyə qoyub, əvvəlki vəziyyətimizə qayıdaq. Gəlin indi eyni hərəkətləri 2-3 dəfə təkrar edək.
4. Uşaqlar, gəlin indi ayaqüstə duraq. Ayaqlarımızı biraz az aralayaq, əllərimizi beldə tutaq (kubik ayaq uclarına yaxın) və növbə ilə kubik ətrafında hər iki ayaqla sağa və sola tullanaq. (2-3 dəfə)

Afərin, uşaqlar!

***3-cü hissə.*** Hərəkətlərin əsas növləri..

"Çay üzərindən" tullanmalar.

Öyrədən yerdə iplərdən ibarət olan çay düzəldir. (15 sm enində).

Öyrədən tapşırığı başa salır: “Uşaqlar, təsəvvür edək ki, bu iplər çaydır. Gəlin çayın yanında dayanaq, ayaqları azca aralayaq, dizləri biraz büküb cayın üzərindən tullanaq”. Uşaqlar tullandıqdan sonra üzlərini yenə də çaya çevirib, tapşırığı 8-10 dəfə təkrar edirlər.

***Uğur kriteriyası***: Dairəvi qaçış və maneələr üzərindən atlayaraq məşq edir.

## Hərəkətli oyun: Həşəratların yarışı

Öyrədən məktəbin həyətində uşaqları iki qrupa ayırır, uşaqları sıra ilə qaçış yarışı üçün ard-arda düzür. Öyrədən yarışı başlamadan öncə komandalara təlimat verir.

**Öyrədən:** “Uşaqlar biz birinci yarışı kəpənək kimi keçirəcəyik. Sizin hər biriniz bir ədəd kəpənək olacaqsınız. Mən sizə başla komandası verəndə hər iki komandanın birinci iştirakçısı qaçmağa başlayacaq, mənim qeyd etdiyim xətti keçərək geri dostlarına tərəf qayıdacaq. Lakin unutmayın! Siz kəpənəksiniz və yarışarkən kəpənək kimi, yəni qanadlarınızı çırparaq qaçmalısınız.

Qeyd 1: Uşaqlar iki-iki qaçaraq və ya uçaraq, sürünərək özlərindən sonrakı komanda üzvlərinə toxunmalıdır. Toxunulan uşaq öz rəqibi ilə yarışır və son yarışan uşaqlardan ilk geri dönən uşaq öz komandasını qalib edir.

Qeyd 2: Oyun üçün istənilən həşarat seçilə bilər.

## Sərbəst fəliyət: Oyunlar.

## Son toplantı

«Uşaqlar, kim dərsdə çoxlu yeni şey öyrəndisə 3 dəfə əl çalsın»

Sonda Öyrədən uşaqlara bir-birilərini qucaqlamağı təklif edir.

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** "Salam, uşaqlar!!! Gəlin dairədə oturaq ki, hamı bir-birini görsün. Bu gün biz bir-birimizlə sakitçə, sözlərdən istifadə etmədən salamlaşacağıq. Mən necə edirəmsə siz də elə edin. "Öyrədən uşaqlara jestlərlə müxtəlif salamlaşmaları göstərir. Məsələn, əl sallamaq, iki əli birlikdə qaldırmaq, gözlərə baxıb gülümsəmək və s.

### *Təqvimlə iş*

**Məqsəd:** Qafiyəli misraları kollektiv şəkildə deməyi öyrətmək.

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

### *Oyun: "Mənim ilə birgə de!"*

**Öyrədən:** "Öyrədən uşaqlara qafiyəli misra deyir, uşaqlar onu təkrar edir, sonra daha bir qafiyəli misra deyir, uşaqlar birinci və ikinci qafiyəli misranı birlikdə təkrar edir. Öyrədən daha bir misra əlavə edir. Öyrədən 5 sayda misra deyənə qədər uşaqlar bu gedişatı davam edir.

**Məqsəd:** Qafiyəli misraları kollektiv şəkildə deməyi bacarır.

**Mən aşıq xoşa gəldi, (uşaqlar təkrar edir),**
**Oxudu coşa gəldi (uşaqlar təkrar edir),**
**Sevimli bahar fəsli (uşaqlar təkrar edir),**
Novruzla qoşa gəldi (uşaqlar təkrar edir).

### *Mövzuya giriş*

**Öyrədən:** Uşaqlar, bu gün biz sizinlə həşəratlar haqqında mövzumuzu davam etdirəcəyik. Hamımızın nağıllardan tanıdığımız məşhur bir böcək var. O hansı böcəkdir? Bəli, bu "Tıq-tıq xanım"dır.

**Aşağı gedərəm ley-leyi,**
**Yuxarı gedərəm ley-leyi.**
**Nə sümüyü var, nə iliyi.**
(Kəpənək)

**Qanadı var uçmağa,**
**İynəsi var sancmağa,**
**Sevir işi, zəhməti,**
**Odur ki, var hörməti.**
(Arı)

## Nitq inkişafı: A.Şaiqin "Tıq-tıq xanım" nağılının oxunması.

**Məsqsəd:** Digər insanların hislərini, davranışlarını müşahidə etmə, anlama, qiymətləndirmə və öz fikirlərini izah etmək bacarığının inkişafı.

1. Öyrədən nağılı oxuyur, illustrasiyaları göstərir.
2. Məzmuna uyğun uşaqlarla söhbət edir:
   - Nağılın baş qəhrəmanı kimdir?
   - Onu niyə belə adlandırıblar?
   - Tıq-tıq xanımı kim qarşıladı?
   - O kim ilə dostlaşdı?
3. Müzakirə: Bu nağıl bizə nəyi öyrədir? Kim əsl dostdur?

***Uğur kriteriyası***: Digər insanların hislərini, davranışlarını müşahidə etmə, anlama, qiymətləndirmə və öz fikirlərini izah etmək bacarığına malikdir.

## Hərəkətli oyun: "Hörümçək torundakı milçəklər"

Qrupdan 3-4 uşaq seçilir. Onlar "milçəklər" olurlar. Qalan uşaqlar isə dairədə durur. Dairədə duran uşaqlar "tor" olurlar. Bunun üçün onlar əllərini yuxarı qaldırıb, birləşdirirlər. Öyrədən bir dəfə qavala vururanda "milçəklər" qanadlarını çırpıb, torun içinə uçub, sonra ordan çıxmalıdırlar. Öyrədən qavala iki dəfə vururanda isə "tor" rolunu oynayan uşaqlar əllərini aşağı salırlar. Dairədən çıxmağa çatmayan "milçək" dairəyə qoşulur. Oyun "tor" bütün milçəkləri tutana qədər davam edir.

## Rəsm : "Tıq-tıq xanım"

**Məqsəd:** Sevilən qəhrəmanı rəsmdə əks etdirməyi öyrətmək, kağızda rəsmin səliqə ilə rənglənməsi bacarıqlarını möhkəmləndirmək.

Cizgi filmi qəhrəmanı "Tıq-tıq xanım" xarici görünüşcə real həyatdakı dozanqurdundan fərqlidir. O fındıq qabığından ayaqqabı, çiçəkdən ətək geyinib.

- 3 ovaldan ibarət gövdə çəkin
- Bığları çəkin.
- Göz , burun və təbəssüm əlavə edin.
- Ortadakı ovaldan baş istiqamətində 2 pəncə və 2 ayaq çəkin. Ayaqlara fındıq qabığından ayaqqabı əlavə edin (yarımdairə).
- Tıq tıq xanımın ətəyini təsvir edin. Özünüzdən detallar əlavə edin..

Sonra uşaqlar rəsmi rəngləməyə başlayırlar. Boya, rəngli karandaş vasitəsilə rəngləmək olar. Rəsmi yekunlaşdırmaq üçün fon əlavə etmək olar. Burada hər bir uşaq istədiyi bir fonu əks etdirə bilər. Işin sonunda sərgi düzəldirik və öz işlərimizi nəzərdən keçiririk..

***Uğur kriteriyası***: Sevilən qəhrəmanı rəsmdə əks etdirməyi bacarır, kağızda rəsmin səliqə ilə rənglənməsi bacarıqlarına sahibdir.

## Sərbəst fəaliyyət

Karandaşlar ilə sərbəst rəsm. Uşaqların istəklərindən asılı olaraq oyunlar

## Son toplantı

Uşaqlar, bu gün biz hansı qəhrəmanla tanış olduq? ("Tıq-tıq xanım") Kimin yadında qalıb bu o həşərat idi? (dozanqurdu) Ona nə olmuşdu? (uşaqların cavabları) Kim ona kömək etdi? Afərin sizə!

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** “Sabahınız xeyir! Uşaqlar, bütün gün üçün xoş əhval ruhiyyə yaratmaq üçün gəlin əl-ələ tutaq və bir-birimizə gülümsəyək  hamımız birlikdə “Sabahınız xeyir!” deyək. Bizim məşğələdə çoxlu maraqlı şeylər öyrənmək üçün diqqətli olmaq lazımdır, yerindən qışqırmaq olmaz, nəsə demək və ya soruşmaq istəsək əl qaldırmaq lazımdır.

***Təqvimlə iş***

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

Öyrədən “Həftənin Ulduzu” adlı sertifikatı həftənin ən aktiv uşağına təqdim edir.

***Mövzuya giriş***

**Öyrədən:** “ Uşaqlar, yazda torpaq necə oyanır?”

## Barmaq oyunu: “Bax və təkrar et”

Uşaqlar dairədə oturublar. Öyrədən bir əlini irəli uzadıb hər hansı bir işarə göstərir (məs: bir (iki, üç, dörd, beş) barmaq müxtəlif kombinasiyada, iki barmaq aşağı, ovuc açıq üzü yuxarı və s). Uşaqlar bu işarələri təkrar edirlər. Öyrədən bəzən iki, yaxud üç işarəni ardıcıl göstərə bilər. Azyaşlıların sayı çox olarsa uşaqlar iki qrupa bölünürlər.

## Məntiq: İş dəftərləri ilə işləmək.

**Məqsəd:** Həftənin mövzularının möhkəmləndirilməsi,  məntiqi təfəkkürün və kiçik motorikanın inkişafı.

## Fiziki hərəkətlər

**Məqsəd:**  Dairəvi  qaçış və maneələr üzərindən atlayaraq  uşaqları məşq elətdirmək;

***1-ci hissə.*** Zalın mərkəzində kubiklərdən ibarət dairə yaradılır və uşaqlar o dairə ətrafında düzülürlər. Öyrədənin işarəsindən sonra uşaqlar dairə ətrafında hərəkət etməyə başlayırlar. Biraz asta tempdə gəzdikdən sonra, yavaş-yavaş sürəti artırıb qaçmağa başlayırlar. Bir neçə dəqiqə qaçdıqdan sonra uşaqlar sürəti tədricən azaldıb yürüşə keçirlər və hərəkəti dayandırırlar. Sonra Öyrədən hər uşağa bir kubik götürməyi söyləyir.

***2-ci hissə.*** Kubik ilə ümmumi inkişafedici tapşırıqlar ( gül ilə də olar). Öyrədən hər bir hərəkəti uşaqlara əyani nümayiş etdirir.

1. Uşaqlar, ayaqlarımızı bir pəncə enində aralayaq. Kubiki sağ əlimizdə aşağıda tutaq. Yavaş-yavaş əllərimizi yana aparaq,  yuxarı qaldırıb, kubiki sol əlimizə ötürürük,sonra əllərimizi yenə yana aparıb, aşağı salıb, kubiki sol əldə saxlayaq. (3-4 dəfə)
2. Uşaqlar, indi isə gəlin ayaqlarımızı çiyinimiz  bərabərində aralayaq, kubiki isə hər iki əlimizlə aşağıda saxlayaq.  Yavaş-yavaş əllərimizi yuxarı qaldıraq; önə əyilək, kubik ilə döşəməyə toxunaq. Afərin, uşaqlar! İndi gəlin qalxaq, kubiki qaldıraq  və əvvəlki vəziyyətimizə qayıdaq (4 dəfə ).
3. Uşaqlar, davam edək? Gəlin indi döşəmədə oturaq, ayaqlarımızı çarpazlayaq və əllərimizi sərbəst saxlayaq. Döşəmədəki kubiki sağ əlimizə alaq, sağa dönüb, kubik ilə döşəməyə toxunaq. İndi isə düz oturaq, kubiki döşəməyə qoyub, əvvəlki vəziyyətimizə qayıdaq. Gəlin indi eyni hərəkətləri 2-3 dəfə təkrar edak.

4. Uşaqlar, gəlin indi ayaqüstə duraq. Ayaqlarımızı biraz az aralayaq, əllərimizi beldə tutaq (kubik ayaq uclarına yaxın) və növbə ilə kubik ətrafında hər iki ayaqla sağa və sola tullanaq. (2-3 dəfə)

Afərin, uşaqlar!

***3-cü hissə.*** Hərəkətlərin əsas növləri..

"Çay üzərindən" tullanmalar.

Öyrədən yerdə iplərdən ibarət olan çay düzəldir. (15sm enində).

Öyrədən tapşırığı başa salır: “Uşaqlar, təsəvvür edək ki, bu iplər çaydır. Gəlin çayın yanında dayanaq, ayaqları azca aralayaq, dizləri biraz büküb cayın üzərindən tullanaq”. Uşaqlar tullandıqdan sonra üzlərini yenə də çaya çevirib, tapşırığı 8-10 dəfə təkrar edirlər.

***Uğur kriteriyası***: Dairəvi qaçış və maneələr üzərindən atlamağı bacarır.

## Hərəkətli oyun: Həşəratların yarışı

Öyrədən məktəbin həyatindəuşaqları iki qrupa ayırır, uşaqları sıra ilə qaçış yarışı üçün ard-arda düzür. Öyrədən yarışı başlamadan öncə komandalara təlimat verir.

**Öyrədən:** “Uşaqlar biz birinci yarışı kəpənək kimi keçirəcəyik. Sizin hər biriniz bir ədəd kəpənək olacaqsınız. Mən sizə başla komandası verəndə hər iki komandanın birinci iştirakçısı qaçmağa başlayacaq, mənim qeyd etdiyim xətti keçərək geri dostlarına tərəf qayıdacaq. Lakin unutmayın! Siz kəpənəksiniz və yarışarkən kəpənək kimi, yəni qanadlarınızı çırparaq qaçmalısınız.

Qeyd 1: Uşaqlar iki-iki qaçaraq və ya uçaraq, sürünərək özlərindən sonrakı komanda üzvlərinə toxunmalıdır. Toxunulan uşaq öz rəqibi ilə yarışır və son yarışan uşaqlardan ilk geri dönən uşaq öz komandasını qalib edir.

Qeyd 2: Oyun üçün istənilən həşarat seçilə bilər.

## Sərbəst fəaliyyət: Öyrədənin qərarına əsasən oyunlar

## Son toplantı

Afərin, uşaqlar! Musiqi sədaları altında Öyrədən dərsdə nə etidklərini barədə danışır və hər kəs haqqında xoş sözlər deyir.

# Aprel | 25-ci həftə | Mövzu: “Çiçəklər”

## 1-ci gün

### Səhər toplantısı

Top ilə salamlama. Öyrədən dairənin ortasına bir oturacaq yerləşdirirş “Empati oturacağı” adlı bu oturacağa uşaqlardan biri oturur. O dairədən hər hansı bir uşağı seçib yerini ona verməlidir. Lakin, həmin uşağı niyə seçdiyini seçən uşaq qeyd etməlidir.

Mən, ______ seçdim çünki, ___________.

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək.  Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi həftənin günü, fəsil, hava durumu “Salamlaşma” guşəsində qeyd edilir. .

***Oyun: “Hansı fəsli sevirsən?”***

Öyrədən qrupdakı uşaqları iki nəfər olmaqla qruplaşdırır. Tərəfdaşlar qarşı qarşıya oturub, biri-birlərində hansı fəsli sevdiyini soruşur. Sonra, A tərəfdaş B tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. B tərəfdaş isə A tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. Bütün tərəfdaşlar təqdimatı bitirdikdə oyun bitir.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən mövzuya giriş etmədən öncə sinifdəki uşaqların sayı qədər balaca dairə və uşaqların sayından beş dəfə daha çox ləçək hazırlayır.

Öyrədən sehirli qutusundan (Salamlaşma guşəsi üçün ilin başlanğıcından istifadə edilən qutu) yuxarıda qeyd edilən dairələri və ləçəkləri dairənin mərkəzinə, döşəməyə səpələmə yerləşdirir.

**Öyrədən:** “Uşaqlar bu gördüyünüz formalardan (Öyrədən ləçək və ya tac sözlərindən istifadə etmir) nə düzəltmək olar?”

Öyrədən döşəmədə tac və ləçəklərdən istifadə edən şagirdlərin düzəltdiyi və ya düzəltməyə çalışdığı kompozisiyaları izləyərək sinifdə gəzişir. Öyrədən verilən hissəciklərdən çiçək düzəldən uşaq rastına çıxarsa dayanır və həmin uşağı sorğu-suala tutmağa çalışır.

**Öyrədən:** “Sənin düzəltdiyin nədir? (uşağın cavabı). Uşaqlar, baxın! ...... (uşağın adı) bizə bu gün gül kompozisiyası düzəldib. Uşaqlar bizim bu günkü dərsimiz çiçəklər (güllərdir). Biz bu gün güllərin formaları, hissələri, nə ilə qidalandığını və necə böyüdüyünü öyrənəcəyik.

Qeyd: Öyrədən uşaqlara istədiyi formanı düzəlmək üçün sərbəstlik verməlidir. Uşaqların hər biri çiçək düzəltmək istəyində olmaya bilər.

### Ətraf mühitlə tanışlıq:  “Çiçəklər”

**Məqsəd:** Çiçəklərin adlarını öyrətmək. Gülün hissələrini adlandırmağı öyrətmək.

***Hissə 1:*** Güllərin adları və fərqli formaları.

Öyrədən lövhədən Əlavə 6-də verilən lalə gülünü asır, uşaqlardan bu gülü təsvir etmələrini xahiş edir. Uşaqlar gülü təsvir edib bitirdikdən sonra lalə gülünün yanına daha bir gül, bənövşə asır. Hər kəs verilən ikinci gülü

də təsvir edir. Daha sonra Öyrədən lalə və bənövşə gülləri arasında fərqi və ya oxşar cəhətləri uşaqlardan tapmağı xahiş edir. Öyrədən Əlavə 6-da verilən bütün gülləri bir-bir, müqayisəli şəkildə lövhədən asır və uşaqlar ilə hər bir gülü rənginə və qurluşuna görə müqayisə edir.

Qeyd: Öyrədən bu tapşırıq ərəfəsində dəfələrlə güllərin adını qeyd etməlidir.

***Hissə 2:*** Gülün hissələri

Əsas Kəlimələr: Tac, ləçək, çiçəyin saplağı, çiçəyin yarpağı, çiçəyin kökü. Əlavə 7

Öyrədən hər bir uşağa A5 ölçülü kağız paylayır və onlardan masa arxasında əyləşmələrini xahiş edir. Öyrədən lövhədə bir dairə çəkir, uşaqlar Öyrədənini lövhədə çəkdiyi dairəyə baxaraq eynisini öz vərəqlərində çəkməyə çalışır. Öyrədən bu dairənin ətrafına halqalar əlavə edir (çiçəyin ləçəkləri), uşaqlar təkrar edir. Öyrədən çiçəyin sapını və kökünü də kompazisiyaya əlavə edir. Uşaqlar lövhədə Öyrədənin çəkdiyi çiçək hissələrini ardıcıl olaraq öz vərəqlərində çəkməyə çalışır.

Qeyd: Öyrədən çəkdiyi hər çiçək hissəsindən sonra fasilə verməli, hər bir uşağın onu izlədiyinə əmin olmalıdır.

Qeyd: Bu məşğələnin məqsədi gülün hissələrinin adını öyrətməkdir. Bu səbəbdən Öyrədən hər bir çəkdiyi hissənin adını qeyd etməlidir (tac, ləçək, çiçəyin saplağı, çiçəyin yarpağı, çiçəyin kökü).

***Hissə 4:*** Praktik hissə.

Uşaqlar Öyrədən ilə birgə həyətyani sahədə öncədən hazırlanmış hissədə toxum əkməyə yollanır. Öyrədən uşaqlara ilk öncə torpağı yumuşaltmaq, torpaqda toxumu əkə biləcəkləri hissə (şırım) ayırmaq, toxumu torpağa yerləşdirmək, və toxumun üzərini basdırmaq lazım olduğunu aşılayır. Daha sonra uşaqlar onlara verilən toxumu torpağa basdırır

Qeyd: Uşaqlar öz əkdikləri toxumların yanına adları və ya rəsmləri olan balaca tablolar qoya bilərlər. Əlavə 8

***Hissə 5:*** Yekun. Güllər nə ilə qidalanır.

Öyrədən uşaqlardan həyətdə səpələmə, yerə çöməlmiş formada dayanmağı xahiş edir. Sinifdən iki uşaq seçilir. Birinə yağış digərinə isə günəş adı verilir. Öyrədən hər hansı həzin musiqi sədaları altında növbəti misraları təkrar edir.

***Uşaqlar*** Öyrədən***in ardınca təkrar edir:***

“Balaca tumurcuğam mən, gizlənmişəm torpaqda (Uşaqlar çöməlmiş, dizlərini qucaqlamış vəziyyətdə),

Suya ehtiyacım var, böyüyüb başa çatmağa,

**Öyrədən:** “O zaman biz yağışı çağıraq ay tumurcuq, sənə su versin.”

Yağış uşaqların arasında gəzişir və tık-tık-tık səsi çıxararaq sanki yağış yağır kimi göstərir.

***Uşaqlar*** Öyrədən***in ardınca təkrar edir:***

“Azca böyüdüm mən, göy üzünü görürəm (uşaqlar azca dirçəlir, boynunu qaldırır, və səmaya baxır)

Lakin günəş gəlsin gərək, çünki mən üşüyürəm,

**Öyrədən:** “O zaman biz günəşi çağıraq, səni isitsin”

Günəş uşaqların arasında gəzişir və sanki günəş onları qızdırırmış kimi göztərir.

***Uşaqlar*** Öyrədən***in ardınca təkrar edir:***

“İsindim, boy atdım tumurcuğum da var,

Budur yarpaqlarım, ləçəyim də var (Uşaqlar əllərini kənara geniş açır, günəşə doğru boylanır.

**Öyrədən:** “Afərin mənim güllərimə, böyüdülər, boy atdılar.”

***Uğur kriteriyası***: Çiçəklərin adlarını bilir. Gülün hissələrini adlandırmağı bacarır.

## Hərəkətli oyun: Çiçəklər

**Məqsəd:** Çiçəklərin adlarına dair bilikləri möhkəmləndirmək.

Qeyd: Bu oyun geniş məkanda (həyətyani sahədə, geniş sinif otağında) oynanılmalıdır.

Qeyd: Öyrədən bu oyunu musiqi sədaları altında və ya uşaqların ritmik alqışı əsasında keçirə bilər.

Oyuna hazırlıq: Uşaqlar dairədə dayanır, Öyrədən beş uşağı dairənini mərkəzinə dəvət edir. Dairənin mərkızində olan hər bir uşağa çiçək adı verilir (qızıl gül, nərgiz, lalə, yasəmən, bənövşə). Öyrədən seçilən uşaqların başına eyni adlı gül təsvir edilən tac taxa bilər (Əlavə 9).

Oyunun qaydaları: Öyrədən dairədə dayanan şagirdlərdən birini və dairənin mərkəzində dayanan güllərdən birinin adını çəkir. Məsələn: Orxan (dairədə dayanan şagird) və nərgiz (gül adı). Adını eşidən gül dairənin xaricinə çıxmalı və dairə ətrafında istənilən istiqamətdə (saat əqrəbi və ya ona əks istiqamətdə) hərəkət etməlidir.

Öyrədən adını çəkdiyi Orxan (uşaq), adı çəkilən gülü, nərgizi tutmağa çalışmalı, nərgiz (gül) isə Orxandan qaçmalıdır. Oyunun qaydalarına əsasən Orxan dairənin içinə girə bilməz. Nərgiz (gül) Orxana yaxalanmadan dairənin içinə, öz yerinə geri dönərsə oyun dayanır və Öyrədən dairə daxilindən oyunu yenidən başlamaq üçün iki şagird seçir.

***Uğur kriteriyası***: Çiçək adlarını bilir.

## Aplikasiya: Gül dəstəsi

**Məqsəd:** Çərtilmiş rəngli qələmlərin artıqlarından kompozisiya hazırlamaq bacarığını gücləndirmək. Güllərin qurluşu barədə məlumat vermək. Materiallar – Hər bir uşaq üçün:

- Eni 2 və ya 3 sm, uzunluğu 10-12-15 sm olan 3 ədəd yaşıl rəngli düzbucaqlı zolaq,
- Hər bir gül budağına 2 ədəd ayırmaqla 6 ədəd yarpaq,
- 3 ədəd diametri 2 sm olan dairə (gülün mərkəzinə yerləşdirmək üçün),
- Xeyli miqdarda çərtilmiş rəngli qələmlərin artığı
- Hər bir şagird üçün bir ədəd rəngli A 4 formatlı kağız.

Uşaqlar gülün budaqlarını, yarpaqlarını A 4 vərəqinin üzərinə yapışdırır. Daha sonra çərtilmiş qələm artıqlarından çiçəklər düzəltməyə başlayır. Sonda çiçəklərin mərkəzinə kəsilmiş dairələr yerləşdirilir. Aplikasiya icma qrupunun yaradıcılıq guşəsindən asılır.

***Uğur kriteriyası***: Çərtilmiş rəngli qələmlərin artıqlarından kompozisiya hazırlamaq bacarığına malikdir. Güllərin qurluşu barədə məlumatı var.

## Sərbəst fəaliyyət

Sərbəst şəkil çəkmək. Oyunlar

## Son toplantı

**Öyrədən:** "Üşaqlar, bu gün öyrəndiyimiz hansı çiçəyi daha çox bəyəndiniz? (uşaqların cavabı) Nəyə görə ən çox o çiçəyi bəyəndiniz? (uşaqların cavabı)

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə əyləşib. Hər kəs özünə aid bir əşyanı (papaq, qələm, ayaqqabı və s.) qarşısına qoyub.

**Öyrədən:** "Uşaqlar indi siz mən deyəndə 3 dəfə əl çalıb öz qarşınızdakı əşyanı özünüzdən solda oturan uşağın qarşısına qoyacaqsınız. Başlayaq?"

Uşaqlar əl çalıb əşyaları özlərindən soldakı uşağa ötürürlər, bu proses iki dəfə davam edir və Öyrədən hər hansı bir uşaqdan soruşur. Sənin önündəki əşya nədir? O kimindir? Uşaq cavablandırdıqdan sonra uşaqlar Öyrədənini təlimatı ilə bir daha əl çalıb əşyaları ötürürlər. Belələr əşyalar öz sahibinə geri dönüb gələnə qədər oyun davam edir.

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək.  Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi həftənin günü, fəsil, hava durumu "Salamlaşma" guşəsində qeyd edilir. .

***Oyun: "Hansı fəsli sevirsən?"***

Öyrədən qrupdakı uşaqları iki nəfər olmaqla qruplaşdırır. Tərəfdaşlar qarşı qarşıya oturub, biri-birlərində hansı fəsli sevdiyini soruşur. Sonra, A tərəfdaş B tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. B tərəfdaş isə A tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. Bütün tərəfdaşlar təqdimatı bitirdikdə oyun bitir.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən uşaqlardan  sinifdəki ipdən öncədən asdığı  paltarlara baxmağı xahiş edir.Öyrədən bilərəkdən corab, əlcək kimi əşyaları öz cütləri ilə asmayıb.

Qeyd: Paltarlar valideynlər tərəfindən göndərilə bilər. İstifadə edilən paltarlar 4-5 yaşlı uşaqlara aid olmalıdır.

## Riyaziyyat: "Cüt" anlayışı ilə tanışlıq.

**Məqsəd:** Əşyaların əsas əlamətləri üzə qruplaşdırmaq bacarığını inkişaf etdirmək: rəng, forma, ölçü və s. xüsusiyyətlərə uyğun əşyalar tapıb, cüt-cüt qruplaşdırmaq.

***Hissə 1:*** Əqli Hücum

Siz bura gələrkən sizə geyinməyə kim köməklik edirdi? (ana, nənə, özüm).Necə geyindiniz? Əvvəl nəyi, sonra nəyi geyindiz? (İpdəki paltarları.) Gəlin səliqə ilə onu düzək. Hansı əşyalardan 2 dənədir: (corab, qolflar, çəkmələr, qolluqlar, əlcəklər). Bəli bunlar cütdürlər. Bu əşyaları biz tək geyinə bilərik? Düzdür, geyinə bilmərik.  Bəs niyə biz bu əşyalardan iki ədəd alırıq.  Niyə bunları cüt şəkildə geyinirik.

Qeyd: Öyrədən bu məşğələ üçün uşaqlarda vizual görünüş yaratmaq məqsədi ilə bir dəst uşaq paltarı nümayiş etdirə bilər.

***Hissə 2:*** Oyun

Öyrədən uşaqlara iki qutu təqdim edir. Hər iki qutuda rəngli və bəzəkli corablar yerləşdirir.  A qutusunda olan corabların cütləri B qutusunda yerləşdirilib. Öyrədən uşaqlar sırasından iki uşaq seçir. Hər iki uşağın gözü qapalı olur. Uşağın biri A kutusundan digəri isə B qutusundan bir ədəd corab seçib digər uğaqlara göstərir.

Uşaqlar yerdən “cütdür” və ya “cüt deyil” kəlimәsini istifadə edərək oyunda olan uşaqları yönləndirir. Uşaqlar seçdikləri cüt olana qədər oyunu davam edirlər.

Qeyd: Öyrədən bu məşğələ üçün Əlavə 10-da verilən çap edilmiş corab cütlərindən də istifadə edə bilər.

***Hissə 3:*** Cüt sayları müəyyən edin!

Öyrədən cütləşən corabları uşaqlar ilə birgə saymağa başlayır.

**Öyrədən:** “1 və 2, deməli iki cüt rəqəmdir 3 və 4. Uşaqlar bunları da cütləşdirək, deməli 4 də cüt rəqəmdir. 5 corab tayı götürür Öyrədən və soruşur.

“Uşaqlar beş corabı cütləşdirək. Afərin sizə. Neçə corab cütləşmədən qaldı? Bəli 1 corab? Sizcə niyə? Bəli. Doğrudur. Çünki 5 rəqəmi tək rəqəmdir.

***Uğur kriteriyası***: Əşyaların əsas əlamətləri üzrə qruplaşdırmağı bacarır. Rəng, forma, ölçü və s. xüsusiyyətlərə uyğun əşyaları tapıb,cüt-cüt qruplaşdıra bilir.

## Fiziki hərəkət

**Məqsəd:** Öyrədənin siqnalına əsasən yeriməyi məşq elətdirmək: Əşyalar arasında iməkləməyi təkrar elətdirmək.

***1-ci hissə.*** Uşaqlar dairə formasında düzülürlər və saat əqrəbi istiqamətində addımlamağa başlayırlar. Öyrədən müxtəlif heyvan adlarını sadalayır uşaqlar isə onların hərəkətlərini təqlid edirlər. Məsələn “sərçələr” siqnalını verdikdə uşaqlar “cikcirik” deyib, gəzməyə davam edirlər, “Qurbağalar” sözü ilə oturub, əlləri dizə qoyub tullanmalıdırlar. Sonra yavaş templi qaçışa keçirlər. Öyrədənin“At” sözü ilə hoppanaraq qaçmağa başlayırlar. Gəzmək və qaçmaq məşqi növbə ilə yerinə yetirilir.

***2- ci hissə.*** Yastıqlarla ümumi inkişaf təlimləri.

1. Ayaqlar biraz aralı, yastıq isə sinədə bükülmüş əllərdə olmalıdır.Yastığı irəli aparırıq, əlləri düzləşdiririk, sonra əvvəlki vəziyyətə qayıdırıq.(4-5 dəfə)
2. Ayaqlar çiyin bərabərində açılır, yastığı aşağıdan yuxarıya qaldırırıq, əyilirik, yastıq ilə yerə toxunuruq, dikəlirik, yastığı yuxarı qaldırırıq.Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
3. Ayaqlar çiyin bərabərində açılır, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Sağa (sola) dönürük, yastıq sağa (sola) çeviririk, dikəlirik. Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
4. Ayaqlar dabanlardan aralı, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Çömbəlirik və yastıq ilə yerə toxunuruq. Ayağa qalxıb əvvəlki vəziyyəti alırıq.(3-4 dəfə)
5. Yastığın qarşısında dayanıb, ayaqları biraz aralayırıq, əlləri sərbəst saxlayırıq. Yastıq ətrafında hər iki tərəfə tullanırıq. Tullanmalar arasında azca fasilə etmək lazımdır.(2 dəfə)

***3-cü hissə.*** Əsas hərəkət növləri.

Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr yerləşdirilir. (kubiklər arasındakı məsafə 1 m olmalıdır). Öyrədən deyir: “Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi sizinlə o maneələrə toxunmadan iməkləməyə və qaçmağa başlayacıq. Əvvəl biz əşyalara toxunmadan onların arasından iməkləyərək keçirik, sonra ayağa qalxıb, halqaya addımlayırıq. (sonuncu əşyadan 1metr uzaqlıqda yerləşir) və əl çalırıq. Yadınızda qaldı, uşaqlar? Indi gəlin cərgəyə düzülək və tapşırığı yerinə yetirək (2-3 dəfə). Hazırıq? Başlayaq!”

***Uğur kriteriyası***: Öyrədənin siqnalına əsasən yeriməyi bacarır.

## Hərəkətli oyun: “Oturacaqlar”(musiqi və ya daban)

Gəlin oturacaqlarla planetimizi təsvir edək! Oturacaqlar dairə formasında və bir-birilərinə yaxın düzülürlər.(oturacaqların sayı uşaq sayından 1 ədəd az olur). Bizim planetimizdə çoxlu adam yaşayır və hər kəsə yer çatır. Amma bizim oyunuzumda cəld olmasa bir nəfərə yer çatmayacaq. Diqqətli olun!

Uşaqlar, oturacaqlara yaxınlaşın. Mahnı dayanan kimi ( ya da Öyrədən dəfə möhkəm vurduğu zaman) siz cəld şəkildə yerinizi tutmalısınız. Oturacaqsız qalan oyundan çıxır. Amma inciməyin: bu sadəcə bir oyundur!

Hər dəfə oyunçu azaldıqda oturacaq da azalmalıdır. 2 oyunçu və 1 oturacaq qaldığı zaman oyunun final mərhələsi keçirilir.

## Sərbəst fəaliyyət: Öyrədənin seçiminə əsasən oyunlar

## Son toplantı

Öyrədən uşaqlara dairə boyu qaçmağı təklif edir. Dairənin mərkəzində bir yastıq qoyulur. Bir uşaq mərkəzə keçir və yoldaşına xoş söz deyir, digərləri isə ona əl çalırlar. Sonra digər uşaqlar eyni qaydada tapşırığı təkrar edirlər. Bu gün hamıya afərin! Çox sağ olun uşaqlar!

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Sabahınız xeyir! Bu gün mən sizə sehirli  bir papaq gətirmişəm. Uşaqlar növbə ilə papağı geyinirlər və öz sevdikləri nağıl, kitab barədə danışırlar. Sizə böyük afərin! Uşaqlar, kimin hekayəsi daha çox xoşunuza gəldi? Niyə? Nağıllardakı hansı həşərata bənzəmək istəyərdiniz?

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək.  Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi həftənin günü, fəsil, hava durumu "Salamlaşma" guşəsində qeyd edilir. .

## Oyun: "Mən hansı fəslin ayıyam?"

Öyrədən Sentyabr-Mart ayına qədər hər hansı bir ay deyir, uşaqlar həmin ayın hansı fəslə aid olduğunu tapmalıdırlar. Düzgün tapan uşağa Öyrədən kağızdan kəsilmiş ulduz verir, oyunun sonunda ən çox ulduzu olan uşaq oyunun qalibi olur.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən sinifdə ritmik şəkildə gəzişərək aşağıda verilən şer parçasını səsləndirir. Öyrədən uşaqları da onunla birlikdə sinifdə hərəkət etməyə dəvət edir.

Qeyd: Şeirin ritmik səsləndirilməsinə əl çalma, ayaqları yerə vuraraq tappıldatma hərəkətlərini yerinə yetirə bilər.

**Bənövşə (Abdulla Şaiq)**

**Bənövşəyəm, bənövşə,**
**Düşmüşəm dilə-dişə.**
**Qızlar, oğlanlar məni**
Dərib taxarlar döşə.

**Bahar oldu açaram,**
**Qar, borandan qaçaram.**
**Başqa güllər açanda,**
Mən quş olub uçaram.

**Qurudar məni ayaz,**
**Yaşayıram bircə yaz.**
**Rəngim, ətrim gözəldir,**
Əl vurmayın, ömrüm az.

Şeir ritmik səsləndirildikdən sonra Öyrədən uşaqları hekayə guşəsinə dəvət edir. Erik Karlonun "Toxum" hekayəsini danışır.

## Nitq inkişafı: Çiçəklər. "Toxum"

**Məqsəd:** Uşaqların fəsllər dəyişdikcə təbiətdə baş verən dəyişikliklər haqqında, yaz, yay, qış, payız fəsillərinin əlamətləri barədə biliklərini möhkəmləndirmək. Güllərin böyümə prosesi haqqında məlumat vermək.

Vəsait: Əlavə 11- də verilən hekayə və təsvirlər.

Öyrədən nağılı oxuyur, illustrasiyaları göstərir. Məzmuna uyğun uşaqlarla söhbət edir:

- Toxumlara nə oldu?
- Toxumlar hansı yerləri ziyarət etdi?
- Hekayəni bəyəndinizmi? Hekayədə ən çox nəyi bəyəndiniz?

***Uğur kriteriyası***: Uşaqların fəsllər dəyişdikcə təbiətdə baş verən dəyişikliklər haqqında, yaz, yay, payız, qış fəsillərinin əlamətləri barədə fikirlərini bölüşə bilir. Güllərin böyümə prosesi hansı pillələrdən ibarət olduğuna dair fikir bildirə bilir.

## Hərəkətli oyun: Çiçəklər

**Məqsəd:** Çiçəklərin adlarına dair bilikləri möhkəmləndirmək.

Qeyd: Bu oyun geniş məkanda (həyətyani sahədə, geniş sinif otağında) oynanılmalıdır.

Qeyd: Öyrədən bu oyunu musiqi sədaları altında və ya uşaqların ritmik alqışı əsasında keçirə bilər.

Oyuna hazırlıq: Uşaqlar dairədə dayanır, Öyrədən beş uşağı dairənini mərkəzinə dəvət edir. Dairənin mərkəzində olan hər bir uşağa çiçək adı verilir (qızıl gül, nərgiz, lalə, yasəmən, bənövşə). Öyrədən seçilən uşaqların başına eyni adlı gül təsvir edilən tac taxa bilər (Əlavə 8).

Oyunun qaydaları: Öyrədən dairədə dayanan şagirdlərdən birini və dairənin mərkəzində dayanan güllərdən birinin adını çəkir. Məsələn: Orxan (dairədə dayanan şagird) və nərgiz (gül adı). Adını eşidən gül dairənin xaricinə çıxmalı və dairə ətrafında istənilən istiqamətdə (saat əqrəbi və ya ona əks istiqamətdə) hərəkət etməlidir.

Öyrədən adını çəkdiyi Orxan (uşaq), adı çəkilən gülü, nərgizi tutmağa çalışmalı, nərgiz (gül) isə Orxandan qaçmalıdır. Oyunun qaydalarına əsasən Orxan dairənin içinə girə bilməz. Nərgiz (gül) Orxana yaxalanmadan dairənin içinə, öz yerinə geri dönərsə oyun dayanır və Öyrədən dairənə və dairə daxilindən oyunu yenidən başlamaq üçün iki şagird seçir.

***Uğur kriteriyası***: Çiçək adlarını bilir.

## Rəsm: “Qar yağışı gülü”

**Məqsəd:** Boya fırçasıyla çiçək rəsmini çəkmək texnikasını öyrətmək.

1. İndi ilin hansı fəslidir? ( hansı yaz çiçəklərini tanıyırsınız?)
2. Bənövşə gülünün nəyi var? (budaq, çiçək , yarpaq). Onlar nə rəngdədirlər? Gülü çəkmək üçün hansı rəngi seçəcəyik?(bənövşəyi)
   a. Öyrədənin göstərişi: “Gəlin bir yerdə bənövşə gülünü çəkməyi öyrənək. Əvvəlcə biz fırçanı yaşıl boyaya batırıb, nazik budaq çəkirik. Sonra fırçanı su olan qabda yaxalayıb, bənövşəyi boyaya batırırıq. Enli fırça ilə budağın ucuna toxunub, yanında gülün ləçəklərini çəkirik. Bunu 3 dəfə təkrarlayırıq. Budur bənövşə gülü demək olar ki hazırdır. Bəs nə çatmır? (yarpaq) Fırçanı götürürük sonra yaşıl rəngə batırıb yarpaqları çəkirik. Uşaqlar üçün suallar: “ Uşaqlar, biz əvvəl nəyi çəkdik? (budaq). Bəs sonra? (ləçəklər). Çiçəyi çəkmək üçün hansı rəngdən istifadə etdik? Gülü necə çəkdik? Fırçanı budağa neçə dəfə toxundurduq? (3 dəfə). Ən sonda nəyi çəkdik? (yarpaqları)
3. İndi isə siz çəkin.

Sonda Öyrədən deyir: “Afərin, uşaqlar! Siz necə də gözəl bənövşə güllü şəklini çəkmisiniz. Yaşıl otlar üzərində onlar çox gözəl görünürlər. Uşaqlar, yer üzündə çoxlu sayda güllər var. Baxmayaraq ki, onlardan çoxdur, onları dərmək olmaz. Biz onları dərsək onlar qırılacaq, solacaq və öz gözəlliyini itirəcəklər. Qoy çiçəklər sizin rəsmlərinizdə qalsınlar və uzun müddət hamını sevindirsinlər”

***Uğur kriteriyası***: Boya fırçasıyla çiçək rəsmini çəkmək texnikasını bacarır.

## Sərbəst fəaliyyət

Karandaşlar ilə sərbəst rəsm. Uşaqların istəklərindən asılı olaraq oyunlar

## Son toplantı

Uşaqlar, bu gün biz hansı qəhrəmanla tanış olduq? (“Tıq-tıq xanım”) Kimin yadında qalıb bu o həşərat idi? (dozanqurdu) Ona nə olmuşdu? (uşaqların cavabları) Kim ona kömək etdi? Afərin sizə!

# 4-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

Salam, uşaqlar! Hamını yenidən görməyə çox şadam! Öyrədən uşaqlardan axşamı necə keçirtdikləri barədə danışmağı təklif edir. Uşaq yüksək səslə və aydın danışmalıdır, məlumatları qısa və dəqiq şəkildə çatdırmalıdırlar. Afərin!

### *Təqvimlə iş*

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

Öyrədən "Həftənin Ulduzu" adlı sertifikatı həftənin ən aktiv uşağına təqdim edir.

### *Mövzuya giriş*

Öyrədən sinifdə ritmik şəkildə gəzişərək aşağıda verilən şeir parçasını səsləndirir. Öyrədən uşaqları da onunla birlikdə sinifdə hərəkət etməyə dəvət edir.

Qeyd: Şeirin ritmik səsləndirilməsinə əl çalma, ayaqları yerə vuraraq tappıldatma hərəkətlərini yerinə yetirə bilər.

bilər.

**Bənövşə (Abdulla Şaiq)**

**Bənövşəyəm, bənövşə,**
**Düşmüşəm dilə-dişə.**
**Qızlar, oğlanlar məni**
Dərib taxarlar döşə.

**Bahar oldu açaram,**
**Qar, borandan qaçaram.**
**Başqa güllər açanda,**
Mən quş olub uçaram.

**Qurudar məni ayaz,**
**Yaşayıram bircə yaz.**
**Rəngim, ətrim gözəldir,**
Əl vurmayın, ömrüm az.

Şeir ritmik səsləndirildikdən sonra Öyrədən uşaqları hekayə guşəsinə dəvət edir. Erik Karlonun "Toxum" hekayəsini danışır.

## Məntiq: iş dəftərlərində iş

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi təfəkkür və kiçik motorikanın inkişafı

## Fiziki hərəkətlər

**Məqsəd:** Öyrədənin siqnallarına uyğun hərəkət etmək bacarığını inkişaf etdirmək. İsveç divarında məşqləri yerinə yetirərək, topu yerə atıb hər iki əl ilə tutmaq məşqi.

***1-ci hissə.*** Uşaqlar, Öyrədənin siqnalı ilə sütun üzrə tək-tək gəzməyə başlayırlar.Öyrədənin "Qarışqalar" siqnalı ilə uşaqlar həm əlləri həm də ayaqları üstündə yeriyirlər. "Kəpənəklər " siqnalı ilə əllərini yuxarı aşağı hərəkət etdirərək qaçırlar. "Böcəklər siqnalı verməklə uşaqlar arxası üzrə uzanıb, ayaqlarını yuxarı qaldırıb "pəncələrini" tez-tez hərəkət etdirirlər. Məşqlər növbə ilə dəyişir.

***2-ci hissə.*** Top ilə umumi inkişaf tapşırıqları.

1. Ayaqlar çiyin bərabərində aralı, top hər iki əldə aşağıda. Topu yuxarı qaldırmaq, ona baxmaq, aşağı salmaq, əvvəlki vəziyyəti almaq. (5 dəfə).
2. Ayaqlar çiyin bərabərində açılır, top hər iki əldə sinədə. Əyilirik, top ilə yerə toxunuruq, dikəlirik , əvvəlki vəziyyətə qayıdırıq. (4–5 dəfə).
3. Ayaqlar çiyin bərabərində aralı, top hər iki əldə aşağıda. Otururuq, topu irəliyə götürürük, ayağa qalxırıq, əvvəlki vəziyyəti alırıq (4–5 dəfə).

4. Çömbəlirik, topu qarşımıza yerə qoyuruq. Əllərimizlə topu öz ətrafımızda sağa və sola diyirlədirik. (hər tərəfə 2-3 dəfə).
5. Ayaqlar azca aralı, top yerdə olur. Hər iki ayaqla top ətrafında tullanırıq (hər tərəfə 2 dəfə)

***3-cü hissə.*** Əsas hərəkət növləri. "At-tut". Uşaqlar dairəyə düzülürlər. Öyrədən tapşırığı göstərir və deyir: "Uşaqlar, gəlin ayaqlarımızı çiyin bərabərində, topumuzu isə sinədə bükülmüş əllərdə saxlayaq. İndi isə mən " Atırıq" siqnalını verəndən sonra topu ayaqlarımızın ucuna atıb hər iki əllə tutmağa çalışaq" Uşaqlar bacardıqları kimi topu tutmağa çalışırlar. Öyrədən bütün uşaqların topu tutduğundan əmin olduqdan sonra, növbəti atış üçün komanda verir. Məşq bir neçə dəfə təkrarlanır. Sonda uşaqlar topları yerinə qaytarıb (səbət və ya qutuya), tək-tək cərgəyə düzülürlər.

***Uğur kriteriyası***: Öyrədənin siqnallarına uyğun hərəkət etmək bacarığını inkişaf etdirmək. İsveç divarında məşqləri yerinə yetirərək, topu yerə atıb hər iki əl ilə tutmağı bacarır.

## Hərəkətli oyun: "Oturacaqlar"(musiqi və ya daban)

Gəlin oturacaqlarla planetimizi təsvir edək! Oturacaqları dairə formasında və bir-birilərinə yaxın düzülürlər.(oturacaqların sayı uşaq sayından 1 ədəd az olur). Bizim planetimizdə çoxlu adam yaşayır və hər kəsə yer çatır. Amma bizim oyunuzumda cəld olmasa bir nəfərə yer çatmayacaq. Diqqətli olun!

Uşaqlar, oturacaqlara yaxınlaşın. Mahnı dayanan kimi ( ya da Öyrədən dəfə möhkəm vurduğu zaman) siz cəld şəkildə yerinizi tutmalısınız. Oturacaqsız qalan oyundan çıxır. Amma inciməyin: bu sadəcə bir oyundur!

Hər dəfə oyunçu azaldıqda oturacaq da azalmalıdır. 2 oyunçu və 1 oturacaq qaldığı zaman oyunun final mərhələsi keçirilir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi ilə oyunlar

## Son toplantı

Öyrədən uşaqlara dairə boyu qaçmağı təklif edir. Dairənin mərkəzində bir yastıq qoyulur. Bir uşaq mərkəzə keçir və yoldaşına xoş söz deyir, digərləri isə ona əl çalırlar. Sonra digər uşaqlar eyni qaydada tapşırığı təkrar edirlər. Bu gün hamıya afərin! Çox sağ olun uşaqlar!

# Aprel | 26-cı həftə | Mövzu: “Evlər”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Salam, uşaqlar! Gəlin dairəyə düzülək.  Bir birinizin gözlərinə baxıb, gülüş və xoş əhval-ruhiyyə ötürək. İndi isə yastıqların üzərində oturaq və istirahət günlərində nələr etdiyimizdən danışaq?

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək.  Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava durumu “Salamlaşma” guşəsində qeyd edilir. .

***Oyun: “Hansı fəsli sevirsən?”***

Öyrədən qrupdakı uşaqları iki nəfər olmaqla qruplaşdırır. Tərəfdaşlar qarşı qarşıya oturub, bir-birlərindən hansı fəsli sevdiyini soruşur. Sonra, A tərəfdaş B tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. B tərəfdaş isə A tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. Bütün tərəfdaşlar təqdimatı bitirdikdə oyun bitir.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən öncədən valideynlərdən aldığı hər bir uşağın evinin rəsmini lövhədən asır. Öyrədən evlərdən birini seçir və işarə ilə göstərir.

Qeyd: Öyrədən evlərin rəsmini kompyuter və ya proyektor vasitəsi ilə göstərə bilər.

“Uşaqlar kim bilir bu ev kimin evidir. (Uşaqların cavabı). Bəli, doğru tapdınız. Bu ev Ülkərgilin evidir. Kim təsvir edər, Ülkərgilin evini. Ülkərin yaşadığı ev, Orxanın yaşadığı evdən nə ilə fərqlənir?”

### Ətraf aləmlə tanışlıq: Evlər

**Məqsəd:** İnsanlar tərəfindən inşa edilən müxtəlif evlərin olduğu haqqında məlumat vermək. Evlərin qurluşu və təyinatının fərqli olduğu haqqında uşaqları biliklәndirmək.

***Hissə 1.*** Öyrədən Əlavə 12-də verilən ev rəsmlərindən birini lövhədən asır, uşaqlar ilə həmin evin qurluşunu müzakirə edir. Daha sonra digər ev birinci evin yanına əlavə edilir.

**Öyrədən:**

- Uşaqlar sizcə bu evlər bir birindən nə ilə fərqlənir?
- Sizcə biz bu evi soyuq yerdə tikərik yoxsa isti?

Beləliklə bütün ev rəsmləri müzakirə edilir və lövhədən asılır.

***Hissə 2.*** Öyrədən Əlavə 12-də verilən evlərdə yaşayan insanları, heyvanları və ya əşyaları kəsib döşəməyə yerləşdirir. Öyrədən hər bir əşyanın hansı evə məxsus olduğunu suallar əsasında müəyyən edir.

***Hissə 3.*** Təbaşir ilə çək.

Öyrədən uşaqlar ilə həyətyanı sahədə, məktəbin qarşısında dərsi davam edir.

***Hissə 4.*** Praktik tapşırıq. Koma.

Öyrədən uşaqları qruplara ayırır. Hər qrupda 3 nəfər olmaqla uşaqlar masa arxasında əyləşir. Öyrədən qruplara müxtəlif ləvazimatlar verir və bu ləvazimatlardan koma düzəltmələrini xahiş edir. Qruplardan biri komanı kibrit çöplərindən, digəri parçadan, daha başqa qrup isə qurumuş küknar ağacının iynə yarpaqlarından düzəldir. Hər bir qrup adlandırılır, dərs bitdikdən sonra uşaqların əl işləri "Əl işləri" lövhəsindən asılır.

***Uğur kriteriyası:*** İnsanlar tərəfindən inşa edilən müxtəlif evlərin olduğu haqqında məlumat vermək. Evlərin qurluşu və təyinatının fərqli olduğu haqqında uşaqları bilikləndirmək.

## Hərəkətli oyun: Ən diqqətli

Uşaqlar yarım dairəyə otururlar. Öyrədən uşaqlar arasında birini aparıcı təyin edir. Aparıcı oyun iştirakçılarının düzülüş qaydasını ( harda oturduqlarını)  yadında saxlamalıdır. Sonra aparıcı üzünü çevirir. Bu vaxt 2-3 oyunçu yerlərini dəyişirlər. Aparıcı hansı uşaqların yerlərini dəyişdiyini tapmalıdır. Hər bir uşaq aparıcı olduqdan sonra oyun bitməlidir.  Səhv etməyən hər kəs qalib sayılır.

## Yapma: Evlər Aplikasiya

**Məqsəd:** Ev formasını kəsməyi, qayçı ilə işləməyi öyrətmək.

Rəsmdə verildiyi kimi aplikasiyanın alt hissəsi üçün kağız qatlanır. Eyni formalı fon kağızı hər bir uşaq üçün ayrıca kağız, evin tərkib hissələri (dam, dördbucaqlı divarı) hazırlanır.

Ağac formalarının, hasarın kağız üzərində forması qələm ilə çəkilir, uşaqlara paylanılır.

Uşaqlar verilən hissələri kəsir və arxa fon üzərinə yapışdıraraq aplikasiyanı hazır edir.

***Uğur kriteriyası***: Ev formasını kəsməyi, qayçı ilə işləməyi bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** "Uşaqlar, hər kəs özünə bir yoldaş tapsın, onun əlindən tutub xoş bir söz desin (qucaqlasın).

- Məşğələmizdə ən diqqətli kim olub?
- Bu gün mövzumuz nə idi?

Afərin sizə! "

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə otururlar.  Əl-ələ möhkəm tutub, əllərini yuxarı qaldırırlar. ( əlləri açmadan ayağa qalxırlar)

Uşaqlar bir -birilərinə "Sabahınız xeyir!" deyirlər

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək.  Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava durumu "Salamlaşma" guşəsində qeyd edilir. .

***Oyun: "Hansı fəsli sevirsən?"***

Öyrədən qrupdakı uşaqları iki nəfər olmaqla qruplaşdırır. Tərəfdaşlar qarşı-qarşıya oturub, bir-birilərindən hansı fəsli sevdiyini soruşur. Sonra, A tərəfdaş B tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. B tərəfdaş isə A tərəfdaşın sevdiyi fəsli və həmin fəsli niyə sevdiyini qrupa deyir. Bütün tərəfdaşlar təqdimatı bitirdikdə oyun bitir.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən dairədə oturan uşaqlara təpsinin içərisinə yerləşdirilmiş bir neçə stəkan göstərir. Stəkanların altına isə ən çox 5 olmaqla müxtəlif sayda paxlalı bitki qoyur. Öyrədən stəkanları sürüşdürərək qarışdırır, birini seçir və qaldırır. Stəkanın altında olan paxla dənələrini uşaqlar ilə sayır və saya uyğun gələn indeksi (rəqəmi) lövhəyə yazır.

**Öyrədən:** "Uşaqlar mən sizin rəqəmləri necə sevdiyinizi bilirəm, odur ki, bu gün çoxlu sayda rəqəmlərlə oyunlar oynayacağıq. Hazırsız?"

## Riyaziyyat: Toplama. Numikonlarla toplama.

**Məqsəd:** Verilən iki müxtəlif əşya qrupunu birləşdirərək ümumi sayı tapmağı öyrətmək.

***Hissə 1: Oyun.*** "Rəqəmlərin indekslərə uyğunlaşdırılması".

Vəsait: Torba, üzərində rəqəm yazılan kiçik ölçülü toplar, hər uşaq sayı üçün stəkan, iri ölçülü paxlalı bitki (noxud, lobya). Uşaqların adları öncədən lövhəyə alt-alta şəkildə yazılmalıdır.

"Mövzuya giriş" də verilən sayım tapşırığı bitdikdən sonra Öyrədən hər uşaq sayı üçün bir stəkan (plastik, bir dəfə istifadə edilə bilən) və hər stəkanın içinə sayı ən çox 5 olan müxtəlif sayda paxla yerləşdirərək verir. Uşaqlar stəkanları qarşılarına yerləşdirərək dairədə oturur. Öyrədən torbadan rəqəm çıxarır və o rəqəmi lövhəyə yazır. Uşaqlar cəld öz stəkanlarındakı paxlaları saymağa başlayır. Lövhədəki rəqəmə uyğun sayda paxlası olan şagird ayağa qalxmalı və dairənin içində əyləşməlidir. Dairəyə keçən uşaqlarının adlarının qarşısında lövhədə ulduz işarəsi yazılır. Öyrədən torbadan üzərində rəqəm yazılan daha bir top çıxarır və o rəqəmi də lövhəyə yazır. Uşaqlar öz stəkanlarındakı paxlaları sayır və öncəki qaydada, əgər lövhədəki rəqəmə uyğundursa dairənin mərkəzinə keçir, əyləşir. Dairənin mərkəzində əyləşən, stəkanındakı paxla sayı lövhədəki rəqəmə uyğun olmayan uşaqlar isə geri, dairədəki yerlərinə keçir. Öyrədən dairədəki uşaqların lövhədə qeyd edilən  adının qarşısında ulduz işarəsi çəkir. Oyunun sonunda adının qarşısında ən çox ulduz işarəsi olan uşaq oyunu qazanır.

***Hissə 2.*** Qarışdır və say.

Uşaqlar iki-iki olmaqlar qruplaşırlar. Hər qrupdakı uşaqlar öz stəkanlarını və onun içərisində yerləşdirilən paxlalarını bir daha sayır və stəkanın içinə tökür. Öyrədən sinifdə gəzişərək hər uşağın stəkanının üzərinə içərisində olan paxla sayına uyğun rəqəm yazır. Hər qrupa daha bir stəkan verilir. Qrupda əyləşən hər iki uşaq öz paxlalarını onlara verilən ümumi stəkana tökür və qarışdırır. Daha sonra ümumi stəkanda olan paxlalar sayılır. Öyrədən hər kəsin diqqətini cəlb edərək lövhənin qarşısına keçir və hər bir qrup ilə işləməyə başlayır.

Öyrədən qrup 1-ə müraciət edir: Orxan, sənin stəkanında nə qədər paxlan var idi? Ülkər bəs sənin stəkanında nə qədər paxla var idi?

***Hissə 3.*** Numikonların təqdim edilməsi.

Öyrədən Əlavə 13-də verilən  verilən numikon rəsmlərini öncədən kəsərək uşaqların görə biləcəyi hissədə, lövhədən asır.  Onların mərkəzindəki dairəyə barmağını yerləşdirir və hər bir dairənin daxilindəki dairəni sayır. Öyrədən hər numikonu Əlavə 12-də verilən rənglər ilə rəngləyir.

Qeyd: Numikonların rəngi nümunədə verildiyi kimi rəngləndirilməlidir. Uşaqlar numikonları originalda olduğu rənglərlə xatırlamalıdır.

***Hissə 4.*** Numikonlar dostlaşsın.

Öyrədən seçdiyi numikonlara göz-qaş, ağız-burun çəkərək onlara ad verir. Və daha sonra onların dostluğuna dair qısa hekayələr uydurur.

Qeyd: Öyrədən kiçik hekayələri uydurarkən yaradıcı olmalıdır. Dostlaşan numikonlar lövhədə vizual şəkildə birləşdirilməli və numikonlar üzərindəki dairələrin ümumi sayı şifahi şəkildə deyilməlidir.

***Uğur kriteriyası***: İki müxtəlif qrupdakı əşya sayını bilir. Verilən iki müxtəlif əşya qrupunu birləşdirərək ümumi sayı tapmağı bacarır.

## Fiziki hərəkətlər

**Məqsəd:**Maneələri üzərindən atlayaraq hərəkət koordinasiyasını inkişaf etdirmək, iməkləmək üzrə məşqləri təkrar etmək.

***1-ci hissə.*** Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr  yerləşdirilir. (kubiklər arasındakı məsafə 0,5m olmalıdır). Öyrədən deyir: “Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi bir-birimizə və o maneələrə toxunmadan gəzməyə və qaçmağa başlayacağıq. Hazırıq? Başlayaq!” Öyrədən iki işarə edir. “İlan kimi sürünək” deyəndə uşaqlar yerə əyilir və iməkliyərək sağ tərəfdəki maneələri  ötməyə çalışırlar, “Qaçaq” deyəndə isə sol tərəfdəki kubiklərə toxunmadan qaçırlar.

***2-ci hissə.*** Ümumi inkişaf məşqləri

1. Ayaqlar dabanlardan aralı,  4 dəfə ardıcıl olaraq əllərini irəli geri apar və yellə. Əvvəlki vəziyyətə qaytar.(4-5 dəfə)
2. Ayaqlar dabanlardan aralı, əllər beldə. Otururuq, dizləri əllər ilə tuturuq, qalxırıq, əvvəlki vəziyyəti alırıq.(4 dəfə)
3. Otururuq, ayaqları aralayırıq, əllər arxada saxlayırıq. Əlləri yana qaldırırıq, qabağa əyilirik, əllər ilə ayaq uclarına toxunuruq. Düz dururuq, əllər yana, əvvəlki vəziyyəti alırıq.(3-4 dəfə).
4. Qarın üstə uzanırıq, əllər dirsəkdən bükülü vəziyyətdə. Növbə ilə ayaqları büküb açırıq ( hərəkət seriyası 1-4,3-4 dəfə təkrar edirik)

***3-cü hissə.*** Əsas hərəkət növləri.

İməkləmə "Ayıcıqlar". Uşaqlar ("ayıcıqlar") Öyrədənin müəyyən etdiyi başlanğıc nöqtəsində əl və ayaqlarının üstündə dayanırlar. Öyrədənin siqnalı ilə "ayıcıqlar" kubiklər istiqamətində düz iməkləyirlər. Kubiklərə çatdıqdan sonra ayağa qalxırlar və başlarının üzərində əl çalırlar. Başlanğıc nöqtə və ağac arasında məsafə 3m-dən çox olmamalıdır. Oyun 2 dəfə təkrarlanır.

***Uğur kriteriyası***: Maneələr üzərindən atlayaraq hərəkət koordinasiyasını inkişaf etdirmək, iməkləmək üzrə məşqləri təkrar etmək.

## Hərəkətli oyun

**Öyrədən:** "Uşaqlar siz indi bir-biriniz ilə göz təması qurmadan otağın ətrafında gəzişəcəksiniz və ətrafdakı əşyalara baxacaqsınız. Başlayaq?" Uşaqlar otaqda gəzişir, daha sonra Öyrədən "Göz təması qurma" qaydasını dəyişir.

**Öyrədən:** "İndi isə yenə otaqda gəzişin və gəzərkən bir-birinizin üzünə baxın! Üz-üzə gəldiyiniz dostlara rəqəm deyin. Məsələn: Beş. Üz-üzə gəldiyiniz dostunuz da sizə rəqəm deyəcək. Sonra hər ikiniz dediyiniz rəqəmi barmağınız ilə göstərəcəksiniz. Daha sonra isə birlikdə bütün barmaqlar (sizin və dostunuzun) sayacaqsınız."

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

Uşaqlar, bu gün kim hamıdan diqqətli idi? İndi yoxlayarıq! Bu günki məşğələmizin mövzusu nə idi? (uşaqların cavabları). Bu gün siz hamınız çox çalışdınız və sizin hamınıza çox sağ ol demək istəyirəm.Afərin!

## 3-cü gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairə formasında düzülmüş yastıqlarda otururlar. Öyrədən deyir: “Salam, uşaqlar! Bu gün hava necədir? Qəmli bir gündə əhval ruhiyyəni necə yaxşılaşdırmaq olar? (uşaqların cavabı). İndi mən sizinlə təbəssümümü paylaşmaq istəyirəm. Siz də qarşınızda olan dostunuzu öz təbəssümünüzlə sevindirin. Bir-birinizə gülümsəyin”

***Təqvimlə iş***

**Məqsəd:** Təqvimə aid oyunları öyrətmək. Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ay, ayın tarixi həftənin günü, fəsil, hava durumu “Salamlaşma” guşəsində qeyd edilir. .

### Oyun: Mən hansı fəslin ayıyam?

Öyrədən Sentyabr-Mart ayına qədər hər hansı bir ay deyir, uşaqlar həmin ayın hansı fəsilə aid olduğunu tapmalıdırlar. Düzgün tapan uşağa Öyrədən kağızdan kəsilmiş ulduz verir, oyunun sonunda ən çox ulduzu olan uşaq oyunun qalibi olur.

***Uğur kriteriyası***: Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən öncədən sinifə gətirdiyi, kağızdan düzəldilmiş bir neçə qoğalı sinifin müxtəlif yerlərində gizlədir. Öyrədən uşaqlardan birinə istiqamət verərək (sağa, sola, düz get, sola dön, geri gəl) qoğalı tapmağını xahiş edir. Qoğalı tapan uşaq bu qoğalın haradan gəldiyini uydurаraq (xəyali, fikrindən) deməlidir. Öyrədən suallar vasitəsi ilə ona hekayəni qurmağa kömək edir.

**Öyrədən:** “Uşaqlar sizcə bu qoğallar haradan gəlir? (Uşaqların cavabı). Bu gün mən sizə bir nağıl danışacam, orada qoğal evdən qaçacaq, bilmək istəyirsiz qoğalın başına nələr gələcək?

### Nitqin inkişafı: “Qoğal” nağılının oxunması

**Məqsəd:** Uşaqların diqqətinin davamlılığı inkişaf edirmək, hekayəni diqqətlə sona qədər dinləyib, məzmuna dair suallara cavab verə bilmək bacarığını inkişaf etdirmək, böyüklərin köməyi ilə hekayəni danışmağı öyrənmək.

İndi isə nənənin necə qoğal bişirdiyi haqqında bir nağıl oxuyaq.

1. Öyrədən hekayəni ifadəli şəkildə oxuyur.
2. Uşaqlara suallar:
   a. Nağıl xoşunuza gəldi?
   b. Ən çox kimi bəyəndiniz?
   c. Nağıl nə haqda idi?
3. Qəhrəmanların davranışının müzakirəsi
4. Öyrədən və uşaqlar birlikdə nağılı söyləyirlər.

Əgər böyüklərə qulaq asmasan, olacaq budur!

***Uğur kriteriyası***: Uşaqlar diqqətini toplaya bilir, hekayəni diqqətlə sona qədər dinləyir, məzmuna dair suallara cavab verə bilmək bacarığına malikdir, böyüklərin köməyi ilə hekayəni danışa bilir.

## Hərəkətli oyun: Ən diqqətli

Uşaqlar yarım dairəyə otururlar. Öyrədən uşaqlar arasında birini aparıcı təyin edir. Aparıcı oyun iştirakçılarının düzülüş qaydasını ( harda oturduqlarını) yadında saxlamalıdır. Sonra aparıcı üzünü çevirir. Bu vaxt 2-3 oyunçu yerlərini dəyişirlər. Aparıcı hansı uşaqların yerlərini dəyişdiyini tapmalıdır. Hər bir uşaq aparıcı olduqdan sonra oyun bitməlidir. Səhv etməyən hər kəs qalib sayılır.

## Rəsm: Ev Çək

**Məqsəd:** Gördüyü xəttlərin, rəsmin təkrarını yerinə yetirməyi öyrətmək.

Materiallar: Sadə qələm, kağız, rəngli qələmlər.

Öyrədən verilən linkdəki videonu bir neçə dəfə uşaqlara izlədir. Daha sonra Öyrədən videonu dayandıraraq və uşaqlardan hər dayanan ana qədər videoda təsvir edileni təkrarlamağı xahiş edir.

Qeyd: Öyrədənin şəbəkə problemi olarsa, Öyrədən lövhədə evi markerlə bir neçə dəfə çəkib, silə bilər. Sonda uşaqlar Öyrədənin çəkdiyi ev əsasında öz dəftərlərində eyni rəsmi təkrarlaya bilər.

***Uğur kriteriyası***: Gördüyü xətlərin, rəsmin təkrarını yerinə yetirməyi bacarır.

## Sərbəst fəaliyyət

## Son toplantı

Hamı yastıqda oturur. Uşaqlar, budur bizim görüşümüz başa çatdı. Deyin görək bu gün ən çox nə xoşunuza gəldi? Mən bu gün üçün sizin hər birinizi tərifləmək istəyirəm. Öyrədən hər uşaq barəsində yaxşı bir şey deyir.

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Sabahınız xeyir! Sizi görməyimə şadam.Gəlin bir-birimizi əl ilə salamlayaq: «Sabahınız xeyir!». Bu gün bizi çox maraqlı dərs gözləyir.

***Təqvimlə iş***

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

Öyrədən "Həftənin Ulduzu" adlı sertifikatı həftənin ən aktiv uşağına təqdim edir.

***Mövzuya giriş***

**Öyrədən:** Dünən biz "Qoğal" nağılını səhnəyə qoyduq, amma qoğal haqda başqa bir nağıl da var. Bu Arzu Soltanın «FİDAN VƏ QOĞAL» nağılıdır. Bu gün biz bir daha tamaşa quracağıq, lakin bu başqa bir "Qoğal" tamaşası olacaq.

## Məntiq: İş dəftərlərində iş

**Məqsəd:** Həftənin mövzusunun möhkəmləndirilməsi, kiçik motorikanın və məntiqi təfəkkürün inkişafı.

## Fiziki hərəkətlər

**Məqsəd:**Maneələrin üzərindən atlayaraq hərəkət koordinasiyasını inkişaf etdirmək, iməkləmək üzrə məşqləri təkrar etmək.

***1-ci hissə.*** Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr yerləşdirilir. (kubiklər arasındakı məsafə 0,5m olmalıdır). Öyrədən deyir: "Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi bir-birimizə və o maneələrə toxunmadan gəzməyə və qaçmağa başlayacıq. Hazırıq? Başlayaq!" Öyrədən iki işarə edir. "İlan kimi sürünək" deyəndə uşaqlar yerə əyilir və iməkləyərək sağ tərəfdəki maneələri ötməyə çalışırlar, "Qaçaq" deyəndə isə sol tərəfdəki kubiklərə toxunmadan qaçırlar.

***2-ci hissə.*** Ümumi inkişaf məşqləri.

1. Ayaqlar dabanlardan aralı, 4 dəfə ardıcıl olaraq əllərini irəli geri apar və yellə. Əvvəlki vəziyyətə qaytar.(4-5 dəfə)
2. Ayaqlar dabanlardan aralı, əllər beldə. Otururuq, dizləri əllər ilə tuturuq, qalxırıq, əvvəlki vəziyyəti alırıq.(4 dəfə)
3. Otururuq, ayaqları aralayırıq, əlləri arxada saxlayırıq. Əlləri yana qaldırırıq, qabağa əyilirik, əllər ilə ayaq uclarına toxunuruq. Düz dururuq, əllər yana, əvvəlki vəziyyəti alırıq.(3-4 dəfə).
4. Qarın üstə uzanırıq, əllər dirsəkdən bükülü vəziyyətdə. Növbə ilə ayaqları büküb açırıq ( hərəkət seriyası 1-4,3-4 dəfə təkrar edirik)

***3-cü hissə.*** Əsas hərəkət növləri.

İməkləmə "Ayıcıqlar". Uşaqlar ("ayıcıqlar") Öyrədənin müəyyən etdiyi başlanğıc nöqtəsində əl və ayaqlarının üstündə dayanırlar. Öyrədənin siqnalı ilə "ayıcıqlar" kubiklər istiqamətində düz iməkləyirlər. Kubiklərə çatdıqdan sonra ayağa qalxırlar və başlarının üzərində əl çalırlar. Başlanğıc nöqtə və ağac arasında məsafə 3m-dən çox olmamalıdır. Oyun 2 dəfə təkrarlanır.

***Uğur kriteriyası***: Maneələrin üzərindən atlayaraq hərəkət koordinasiyasını saxlaya bilir.

## Səsli nağıl zamanı

***Buqələmun Buqi***

Buqələmun Buqinin bir dərdi var. Digər Buqələmunlar yaşıl, sarı və göy rəng alanda o, qırmızı, bənövşəyi və narıncı rəngdə olur. Fərqli olmaq onu darıxdırır. Lakin bir gün kiçik buqələmunlar gəzintiyə gedərkən yolu azanda Buqi anladı ki, onu başqalarından fərqləndirən cəhət əslində böyük üstünlükdür...

**Link:** https://youtu.be/GKaQ9tUAzPc

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

### *Uşaqlara suallar*

**Qeyd: Bu sualların hamısının cavabı nağılda öz əksini tapır. (Uşaqlara yönəlmiş şəxsi sualları çıxmaq şərtilə)**

1. Buqələmunlar hansı rənglərdə olurlar?
2. Buqi niyə digərlərindən fərqlənir?
3. Bəs bu fərqlilik ona necə kömək etdi?
4. Əsas rənglər hansılardır?
5. Qırmızı rəng ilə sarı rəngi qarışdıranda hansı rəng alınır?
6. Sarı rəng ilə göy rəngi qarışdıranda hansı rəng alınır?
7. Qırmızı rəng ilə göy rəngi qarışdıranda hansı rəng alınır?
8. Bəs qara rəng necə yaranır?
9. Bəs sizcə sizi digərlərindən fərqləndirən nələrdir?

## Hərəkətli oyun

**Öyrədən:** "Uşaqlar siz indi bir-biriniz ilə göz təması qurmadan otağın ətrafında gəzişəcəksiniz və ətrafdakı əşyalara baxacaqsınız. Başlayaq?" Uşaqlar otaqda gəzişir, daha sonra Öyrədən "Göz təması qurma" qaydasını dəyişir.

**Öyrədən:** "İndi isə yenə otaqda gəzişin və gəzərkən bir-birinizin üzünə baxın! Üz-üzə gəldiyiniz dostlara rəqəm deyin. Məsələn: Beş. Üz-üzə gəldiyiniz dostunuz da sizə rəqəm deyəcək. Sonra hər ikiniz dediyiniz rəqəmi barmağınız ilə göstərəcəksiniz. Daha sonra isə birlikdə bütün barmaqlar (sizin və dostunuzun) sayacaqsınız."

## Sərbəst fəaliyyət: Sərbəst rəsm. Oyunlar.

## Son toplantı

Uşaqlar, bu gün kim hamıdan diqqətli idi? İndi yoxlayarıq. Bugünki dərsin mövzusu nə idi? (Uşaqların cavabları).Afərin!

# Aprel | 27-ci həftə | Mövzu: “Ev əşyaları”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Salam, uşaqlar! Hamınızı yenidən görməyə çox şadam! Gəlin, həftə sonunu necə keçirdiyimizdən danışaq. Uşaqlar bir-bir yüksək səslə və qısa şəkildə həftəsonu nə etdiklərini söyləyir. (gəzməyə getməkləri, hara getdikləri və s...) Afərin!

***Təqvimlə iş***

**Məqsəd:**Təqvim ilə işləməyi öyrətmək.

Ayın tarixi, həftənin günü, fəsil salamlaşma lövhəsində qeyd edilir.

***Oyun: “ Fəsillər”***

Öyrədən proqram üzrə keçirilmiş payız, qış və yaz aylarını uşaqlar ilə təkrar edir.

Öyrədən uşaqlardan döşəmədə qeyd etdiyi dairələrin üzərində dayanmalarını xahiş edir.

**Öyrədən:** “Uşaqlar mən indi sizə hər hansı bir ay deyəcəm. Əgər qeyd etdiyim ay qış fəslinə aid olsa, onda siz əl çalacaqsınız, payız fəslinə aid olsa yerinizdə bir dəfə dövrə vuracaqsınız, yaz fəslinə aid olsa hündürə tullanacaqsınız.”

***Uğur kriteriyası***: Təqvim ilə işləməyi bacarır.

***Mövzuya giriş***

Öyrədən uşaqların diqqətini cəlb etdikdən sonra elektrik qızdırıcını elektrik şəbəkəsinə birləşdirir. Qızdırıcının istisi hiss olunduqdan, lampa yandığı göründükdən sonra isə qızdırıcını elektrik şəbəkəsindən ayırır.

Öyrədən qızdırıcının ucluğunu göstərərək,

“Uşaqlar sizcə mən bu ucluğu elektrik şəbəkəsinə calamasaydım, lampanın rəngi yanarmıydı?”(Uşaqların cavabı)

***Ətraf mühitlə tanışlıq: “Ev əşyaları”***

**Məqsəd:** Elektrik ilə çalışan əşyaların adlarını öyrətmək. Ev əşyalarının bəzilərini elektrik şəbəkəsinə qoşulmadan işləmədiyi haqqında məlumat vermək.

***Hissə 1.*** Məlumatın verilməsi. Elektrik avadanlıqları.

Öyrədən evdə işlədilən hər bir elektrik avadanlığı haqqında məlumat verir.

Qeyd: Video görüntülər və ya Əlavə 13-də verilən şəkillərdən istifadə edilə bilər.

***Hissə 2.*** Hansı Elektrik ilə işləyir yoxsa?

Öyrədən lövhədə bir çox ev əşyası çəkir və ya şəklini yapışdırır. Uşaqlardan iki nəfəri lövhəyə dəvət edir. Öyrədən hər hansı elektrik avadanlığını təsvir etməli, uşaqlar isə həmin avadanlığı tapmağa çalışmalıdır. Barmağını ilk təsvir edilən avadanlığın üzərinə qoyan uşaq qalib olur.

***Hissə 3.*** Soyuducuda nələr var.

Öyrədən lövhədə soyuducu rəsmi çəkir və ya Əlavə 14-də verilən açıq qapılı soyuducudan istifadə edir.

Soyuducunun kənarında kartof, kələm, soğan, ketçup, mayonez, göyərti çəkir. Öyrədən hər bir meyvə və ya tərəvəzi müzakirə edir və onların harada saxlanıldığına dair suallar verir. Soyuducuda saxladığımız tərəvəz və ya meyvələr xətt vasitəsi ilə soyuducuya birləşdirilir.

***Uğur kriteriyası***: Elektrik ilə çalışan əşyaların adlarını bilir. Ev əşyalarının bəzilərini elektrik şəbəkəsinə qoşulmadan işləmədiyi haqqında məlumatı var.

## Hərəkətli oyun: "Oturacaqlar"(musiqi və ya daban)

Gəlin oturacaqlarla planetimizi təsvir edək! Oturacaqları dairə formasında və bir-birilərinə yaxın düzülürlər.(oturacaqların sayı uşaq sayından 1 ədəd az olur). Bizim planetimizdə çoxlu adam yaşayır və hər kəsə yer çatır. Amma bizim oyunuzumda cəld olmasa bir nəfərə yer çatmayacaq. Diqqətli olun!

Uşaqlar, oturacaqlara yaxınlaşın. Mahnı dayanan kimi ( ya da Öyrədən dəfə möhkəm vurduğu zaman) siz cəld şəkildə yerinizi  tutmalısınız. Oturacaqsız qalan oyundan çıxır. Amma inciməyin: bu sadəcə  bir oyundur!

Hər dəfə oyunçu azaldıqda oturacaq da azalmalıdır. 2 oyunçu və 1 oturacaq qaldığı zaman oyunun final mərhələsi keçirilir.

## Rəsm: "Qoğal" tamaşası üçün maskaları rəngləmək

**Məqsəd:** Uşaqların yapma bacarığını, kiçik motorikasının və yaradıcı təfəkkürünün inkişafı.

Ləvazimatlar: birdəfəlik kağız boşqablar, rəngli kağız, yapışqan, fırçalar, qayçı, boz qələm, quaş boya, keçəli qələm (flomasterlər), saç üçün qalın kağız zolaqları.

İşi qrup şəklində etmək olar.

Öyrədən heyvanlar üçün göz, burun, qulaqları qabaqcadan hazırlayır.

1. Kağız boşqablar düzgün rənglə boyanılmalıdır. Ayı-qəhvəyi, qurd-boz, tülkü-narıncı, qoğal-sarı. Dovşan üçün boşqab ağ rəngdə saxlanılmalıdır. Boşqabların qurumasını gözləyirik.
2. Böyük uşaqlar burun, göz, qulaqların formalarını kartonda və ya rəngli kağızda çəkib, özləri sərbəst kəsirlər. Balacalar hazır hissələri götürürlər.
3. Alınan hissələri (gözlər, burun, ağız, sifət) boşqabda yerləşdiririk.
4. Heyvanın sifətinin kəsilmiş hissələrini yapışdırmağa başlayırıq.
5. Qara markerlə sifətdə nöqtələr çəkirik. Ağzını flomasterlə çəkmək ya da yapışdırmaq olar.
6. Heyvanın sifəti hazır olanda, bığlarını kəsirik. Onları yapışdırırıq.
7. Kəsilmiş qulaqları, yapışqan və ya skoçla bərkidirik.
8. Qulaqları stepler və ya yapışqanla yapışdırırq.
9. Hazırladığımız maskaları uşağın başının ölçüsündə olan saç bandına yapışdırırıq.

***Uğur kriteriyası***: Uşaqlar yapma bacarığına malikdir, kiçik motorikasının və yaradıcı təfəkkürünün inkişafı var.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Son toplantı

Bu gün yeni nə öyrəndiniz? Günəş ətrafında neçə planet fırlanır? Neçəsində həyat var? Fikirləşin və Yer planetimizi necə qoruya biləcəyimiz barədə evdə danışın.

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairə formasında düzülmüş yastıqlarda otururlar. Öyrədən deyir: “Salam, uşaqlar! Bu gün hava necədir? Qəmli bir gündə əhval ruhiyyəni necə yaxşılaşdırmaq olar? (uşaqların cavabı). İndi mən sizinlə təbəssümümü paylaşmaq istəyirəm. Siz də qarşınızda olan dostunuzu öz təbəssümünüzlə sevindirin. Bir-birinizə gülümsəyin”

***Təqvimlə iş***

**Məqsəd:**Təqvimə aid oyunları öyrətmək. Uşaqlarda təqvim ilə bağlı anlayışı aşılamaq.

Ayın tarixi, həftənin günü, fəsil salamlaşma lövhəsində qeyd edilir.

***Oyun: “ Ardını de!”***

**Öyrədən:** “Uşaqlar mən indi sizə bir tamamlanmamış cümlə deyəcəm, siz onu tamamlamalı olacaqsınız.”

Mən baharı sevirəm, çünki, baharda..... (güllər açır, ağaclar çiçəklənir). Öyrədən bir neçə dəfə bu bitmməmiş cümləni təkrar edir, uşaqlar o cümləni tamamlayır.

**Məqsəd:** Təqvimə aid oyunları oynamağı bacarır. Təqvim ilə bağlı anlayışı var.

***Mövzuya giriş***

Öyrədən böyük və rəngli kağızlar üzərində numikonları çəkir və ya ağ vərəq üzərində çəkib rəngləyir. Uşaqlardan beş nəfər seçilir və bu numikonlar onların boynundan asılır. Öyrədən həmin beş uşağın adını kağızlara yazıb torbanın içinə yerləşdirir. Öyrədən torbanı qarışdırır iki ad çıxarır. Həmin iki nəfər hərəkəti sonlandırır (dayanır) yerdə oturan uşaqlar onların boyunlarından asdığı numikonların cəmini deyir.

Qeyd: Hər kəs ürəyində saymalı və yalnız cavab hazır olduqdan sonra şifahi tələffüz etməlidir.

İlk düzgün cavabı ifadə edən şagird qalib olur.

## Riyaziyyat: Toplama.

**Məqsəd:** Əşyaların əsas əlamətləri üzə qruplaşdırmaq bacarığını inkişaf etdirmək: rəng, forma, ölçü və s. xüsusiyyətlərə uyğun əşyalar tapıb,cüt-cüt qruplaşdırmaq.

***Hissə 1.*** Oyun “Top tarlasında.”

Öyrədən uşaqları həyətyani sahəyə dəvət edir. Orada Öyrədən balaca toplar olan dərin qabı dairənin mərkəzinə yerləşdirir. Öyrədən “Başla” komandası verəndə uşaqlar götürə biləcəyi qədər topu qucağına yığır. Uşaqlar öz istədiyi dostuna yaxınlaşıb qucaqlarındakı topu, bu toplara göz gəzdirərək saymalıdırlar. Topları yerə düşməyən qruplar qalib qruplar sayılır.

***Hissə 2.*** Oyun “Alma ağacları”

Öyrədən iki ədəd alma ağacı çəkir lövhəyə. Uşaqlardan ikisini seçir və hər bir uşağa bir alma ağacı verir. Uşaqlar ağaca top atır. Əgər uşaqların atdığı top ağacın haşiyələrini keçməzsə Öyrədən ağacın üzərində alma çəkir. Hər bir uşağa verilən beş top ağaca doğru atıldıqdan sonra hər iki uşağın ağacının altında ağaca tuş gələn almaların sayı yazılır. Daha sonra hər iki ağacdakı almaların ümumi sayı sayılır və lövhəyə yazılır.

***Hissə 3.*** Sərbəst Toplama oyunları.

Öyrədən ümumi sayı müəyyən etməyə kömək edən istənilən oyunu oynada bilər.

***Hissə 4.*** Kartlarla oyun

Əlavə 15-də verilən kartlardan istifadə edərək Öyrədən uşaqlara numikonların mərkəzindəki dairələrin sayına uyğun rəqəmi tapmağı, daha sonra iki kartı birləşdirib ümümi sayı tapmağa kömək edə bilər.

***Uğur kriteriyası***: Əşyaların əsas əlamətləri üzə qruplaşdırmağı bacarır. Rəng, forma, ölçü və s. xüsusiyyətlərə uyğun əşyaları tapıb,cüt-cüt qruplaşdıra bilir.

## Fiziki hərəkət

**Məqsəd:** Öyrədənin siqnalına əsasən yeriməyi məşq elətdirmək: Əşyalar arasında iməkləməyi təkrar elətdirmək.

***1-ci hissə.*** Uşaqlar dairə formasında düzülürlər və saat əqrəbi istiqamətində addımlamağa başlayırlar. Öyrədən müxtəlif heyvan adlarını sadalayır uşaqlar isə onların hərəkətlərini təqlid edirlər. Məsələn "sərçələr" siqnalını verdikdə uşaqlar "cikcirik" deyib, gəzməyə davam edirlər, "Qurbağalar" sözü ilə oturub, əlləri dizə qoyub tullanmalıdırlar. Sonra yavaş templi qaçışa keçirlər. Öyrədənin"At" sözü ilə hoppanaraq qaçmağa başlayırlar. Gəzmək və qaçmaq məşqi növbə ilə yerinə yetirilir.

***2- ci hissə.*** Yastıqlarla ümumi inkişaf təlimləri.

1. Ayaqlar biraz aralı, yastıq isə sinədə bükülmüş əllərdə olmalıdır.Yastığı irəli aparırıq, əlləri düzləşdiririk, sonra əvvəlki vəziyyətə qayıdırıq.(4-5 dəfə)
2. Ayaqlar çiyin bərabərində açılır, yastığı aşağıdan yuxarıya qaldırırıq, əyilirik, yastıq ilə yerə toxunuruq, dikəlirik, yastığı yuxarı qaldırırıq.Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
3. Ayaqlar çiyin bərabərində açılır, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Sağa (sola) dönürük, yastığı sağa (sola) çeviririk, dikəlirik. Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
4. Ayaqlar dabanlardan aralı, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Çömbəlirik və yastıq ilə yerə toxunuruq. Ayağa qalxıb əvvəlki vəziyyəti alırıq.(3-4 dəfə)
5. Yastığın qarşısında dayanıb, ayaqları biraz aralayırıq, əlləri sərbəst saxlayırıq. Yastıq ətrafında hər iki tərəfə tullanırıq. Tullanmalar arasında azca fasilə etmək lazımdır.(2 dəfə)

***3-cü hissə.*** Əsas hərəkət növləri.

Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr yerləşdirilir. (kubiklər arasındakı məsafə 1 m olmalıdır). Öyrədən deyir: "Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi sizinlə o maneələrə toxunmadan iməkləməyə və qaçmağa başlayacağıq. Əvvəl biz əşyalara toxunmadan onların arasından iməkləyərək keçirik, sonra ayağa qalxıb, halqaya addımlayırıq. (sonuncu əşyadan 1 metr uzaqlıqda yerləşir) və əl çalırıq. Yadınızda qaldı, uşaqlar? Indi gəlin cərgəyə düzülək və tapşırığı yerinə yetirək (2-3 dəfə). Hazırıq? Başlayaq!"

***Uğur kriteriyası***: Öyrədənin siqnalına əsasən yeriməyi bacarır.

## Hərəkətli oyun: "Oturacaqlar"(musiqi və ya daban)

Gəlin oturacaqlarla planetimizi təsvir edək! Oturacaqları dairə formasında və bir-birilərinə yaxın düzülürlər.(oturacaqların sayı uşaq sayından 1 ədəd az olur). Bizim planetimizdə çoxlu adam yaşayır və hər kəsə yer çatır. Amma bizim oyunuzumda cəld olmasa bir nəfərə yer çatmayacaq. Diqqətli olun!

Uşaqlar, oturacaqlara yaxınlaşın. Mahnı dayanan kimi ( ya da Öyrədən dəfə möhkəm vurduğu zaman) siz cəld şəkildə yerinizi tutmalısınız. Oturacaqsız qalan oyundan çıxır. Amma inciməyin: bu sadəcə bir oyundur!

Hər dəfə oyunçu azaldıqda oturacaq da azalmalıdır. 2 oyunçu və 1 oturacaq qaldığı zaman oyunun final mərhələsi keçirilir.

### **Sərbəst fəaliyyət:** Öyrədən**in seçiminə əsasən oyunlar**

### Son toplantı

Öyrədən uşaqlara dairə boyu qaçmağı təklif edir. Dairənin mərkəzində bir yastıq qoyulur. Bir uşaq mərkəzə keçir və yoldaşına xoş söz deyir, digərləri isə ona əl çalırlar. Sonra digər uşaqlar eyni qaydada tapşırığı təkrar edirlər. Bu gün hamıya afərin! Çox sağ olun uşaqlar!

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

“Sabahınız xeyir” Sizi görməyimə şadam! Bizim Yer planetimiz bu top kimi kürəyə oxşayır. Elə təsəvvür edin ki, bu bizim Yer planetimizdir! Yer üzündə çoxlu ölkələr var və orada müxtəlif xalqlar yaşayır! Siz başqa ökədə və ya şəhərdə  olmusunuz? – Uşaqlar dairə boyu topu bir-birilərinə ötürürlər və səyahətləri haqqında danışırlar.

### *Təqvimlə iş*

**Məqsəd:** Qafiyəli misraları kollektiv şəkildə deməyi öyrətmək.

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

### *Oyun: “Mənim ilə birgə de!”*

**Öyrədən:** “Öyrədən uşaqlara qafiyəli misra deyir, uşaqlar onu təkrar edir, sonra daha bir qafiyəli misra deyir, uşaqlar birinci və ikinci qafiyyəli misranı birlikdə təkrar edir. Öyrədən daha bir misra əlavə edir. Öyrədən 5 sayda misra deyənə qədər uşaqlar bu gedişatı davam edir.

Mən aşıq xoşa gəldi, (uşaqlar təkrar edir),

Oxudu coşa gəldi  (uşaqlar təkrar edir),

Sevimli bahar fəsli  (uşaqlar təkrar edir),

Novruzla qoşa gəldi  (uşaqlar təkrar edir)

**Məqsəd:** Qafiyəli misraları kollektiv şəkildə deməyi bacarır.

### *Mövzuya giriş*

**Öyrədən:** “Və budur tamaşa günü gəldi çatdı. Bu gün bizim qrupumuz teatra çevrilir. Gəlin təsəvvür edək ki, burada bir səhnə var (otağın küncünə nənə ilə babanın oturacağı masanı qoyuruq), bura isə tamaşaçı yeri olacaq (otağın digər tərəfində)”. Öyrədən uşaqlar arasında rolları bölüşdürür.

Qeyd: Valideynləri  də tamaşaya cəlb etmək olar.

Səhnə və auditoriyanın hazırlığı:

Uşaqlar Öyrədən ilə birlikdə teatrı təşkil edirlər: səhnə və auditoriya düzülür. Səhnəyə masa və 2 oturacaq, auditoriyaya isə izləyici sayı qədər oturacaqlar qoyulur. Səhnə və auditoriya arasında meşənin ağaclarını əvəz edən yastıqlar və ya bir neçə oturacaq da qoymaq olar. Qoğal onların arasından qaçmalıdır. Səhnədən kənarda olan artistlər üçün də bir neçə yer ayırmaq lazımdır.

## Nitqin və sosial bacarıqların inkişafı: “Qoğal” nağılının dramatizasiyası

**Məqsəd:** Uşaqlara qəhrəmanların sözlərini dəqiq ifadə etməyi və rol əsasında hərəkət etməyi öyrətmək, teatrda davranış qaydaları ilə uşaqları tanış etmək.

1. Aktyorlar kostyumlarını geyinib, kənarda əyləşirlər.
2. Müəllim nağılı danışır: “Biri var idi, biri yox idi. Bir baba ilə nənə var idi....” Aktyorlar  çıxıb rollarını ifa edirlər.
3. Tamaşaçılar əl çalırlar. Sənətçilər baş əyirlər.
4. Növbəti gün biz yenə tamaşa oynayacağıq, yalnız rolları dəyişəcəyik.

## Hərəkətli oyun: “Tülkü və qoğal”

**Məqsəd:** uşaqları qaçışda məşq etdirmək, qrupda işləmə bacarığını inkişaf etdirmək.

Öyrədən (“tülkü”) oturub (yatır), uşaqlar (“qoğallar”) “meşədə” topla yavaşca ora-bura qaçırlar. Birdən tülkü oyanır, ayağa durur. Uşaqlar bir yer tapıb qoğalı gizlətməlidirlər. Oyun tülkünün qoğalı tapana kimi davam edir. Oyun 3-4 dəfə təkrarlanır. Obrazları dəyişmək olar: qurd, ayı...

***Uğur kriteriyası***: Qrupda işləmə bacarığını malikdir.

## Aplikasiya: “Qoğal və onun dostları”

**Məqsəd:** Uşaqlara nağıl qəhrəmanlarını plastilinlə düzəltməyi öyrətmək, nağılı plastilində davam etdirmək.

Vəsaitlər: plastilin, kağız

1. İndi isə biz plastilinlə nağıl düzəldə bilərik. Kağız zolaq qoğalın dığırlanacağı yol olacaqdır.
2. Gəlin qoğal və onun dostlarını düzəldək!
3. Kiçiklər qoğallar və dovşanlar düzəldə bilərlər, böyüklər isə Öyrədənin köməyi ilə digər obrazları düzəldirlər.

***Uğur kriteriyası***: Nağıl qəhrəmanlarını plastilinlə düzəltməyi öyrətmək, nağılı plastilində davam etdirmək.

## Sərbəst fəaliyyət

Uşaqların istəyi ilə plastilin teatrı oynayırıq.

## Son toplantı

**Öyrədən:** “Uşaqlar, kimə dərsdə maraqlı idisə, kim çoxlu yeni şeylər öyrənibsə 3 dəfə əl çalsın. Müəllim uşaqlara bir-birilərini qucaqlamağı təklif edir”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

Salam uşaqlar! Dairədə oturun ki, mən sizin hamınızı görə bilim. Bir-birimizin gözünə baxaraq salamlaşaq. Yavaşca başımızı sallayaraq, qonşumuzun çiyninə toxunaq və ona gülümsəyək. Baxın mən necə edirəmsə elə edin.

***Təqvimlə iş***

Ay,ayın tarixi, həftənin hansı günü, fəsil, hava haqqında məlumat.

Öyrədən "Həftənin Ulduzu" adlı sertifikatı həftənin ən aktiv uşağına təqdim edir.

***Mövzuya giriş***

**Öyrədən:** Dünən biz "Qoğal" nağılını səhnəyə qoyduq, amma qoğal haqda başqa bir nağıl da var. Bu Arzu Soltanın «FIDAN VƏ QOĞAL» nağılıdır. Bu gün biz bir daha tamaşa quracağıq, lakin bu başqa bir "Qoğal" tamaşası olacaq.

## Barmaq oyunu: Gəlin Yer üzündə dostca yaşayaq!

## Məntiq: İş dəftərlərində iş

**Məqsəd:** Həftənin mövzularını möhkəmləndirmək, məntiqi təfəkkür və kiçik motorikanın inkişafı

## Fiziki hərəkətlər

**Məqsəd:** Öyrədənin siqnalına əsasən yeriməyi məşq etdirmək: Əşyalar arasında iməkləməyi təkrar elətdirmək.

***1-ci hissə.*** Uşaqlar dairə formasında düzülürlər və saat əqrəbi istiqamətində addımlamağa başlayırlar. Öyrədən müxtəlif heyvan adlarını sadalayır uşaqlar isə onların hərəkətlərini təqlid edirlər. Məsələn "sərçələr" siqnalını verdikdə uşaqlar "cikcirik" deyib, gəzməyə davam edirlər, "Qurbağalar" sözü ilə oturub, əlləri dizə qoyub tullanmalıdırlar. Sonra yavaş templi qaçışa keçirlər. Öyrədənin "At" sözü ilə, hoppanaraq qaçmağa başlayırlar. Gəzmək və qaçmaq məşqi növbə ilə yerinə yetirilir.

***2- ci hissə.*** Yastıqlarla ümumi inkişaf təlimləri.

1. Ayaqlar biraz aralı, yastıq isə sinədə bükülmüş əllərdə olmalıdır.Yastığı irəli aparırıq, əllər düzləşdiririk, sonra əvvəlki vəziyyətə qayıdırıq.(4-5 dəfə)
2. Ayaqlar çiyin bərabərində açılır, yastığı aşağıdan yuxarıya qaldırırıq, əyilirik, yastıq ilə yerə toxunuruq, dikəlirik, yastığı yuxarı qaldırırıq.Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
3. Ayaqlar çiyin bərabərində açılır, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Sağa və sola dönürük, yastığı sağa və sola çeviririk, dikəlirik. Əvvəlki vəziyyəti alırıq.(3 dəfə)
4. Ayaqlar dabanlardan aralı, yastığı sinədə bükülmüş əllərdə saxlayırıq. Çömbəlirik və yastıq ilə yerə toxunuruq. Ayağa qalxıb əvvəlki vəziyyəti alırıq.(3-4 dəfə)
5. Yastığın qarşısında dayanıb, ayaqları biraz aralayırıq, əlləri sərbəst saxlayırıq. Yastıq ətrafında hər iki tərəfə tullanırıq. Tullanmalar arasında azca fasilə etmək lazımdır.(2 dəfə)

***3-cü hissə.*** Əsas hərəkət növləri.

Otağın hər iki tərəfində 5-6 kubiklərdən ibarət maneələr yerləşdirilir. (kubiklər arasındakı məsafə 1 m olmalıdır). Öyrədən deyir: "Uşaqlar, bizim qabağımızda kubiklərdən ibarət maneələr var. Biz indi sizinlə o maneələrə toxunmadan iməkləməyə və qaçmağa başlayacağıq. Əvvəl biz əşyalara toxunmadan onların

arasından iməkləyərək keçirik, sonra ayağa qalxıb, halqaya addımlayırıq. (sonuncu əşyadan 1 metr uzaqlıqda yerləşir) və əl çalırıq. Yadınızda qaldı, uşaqlar? Indi gəlin cərgəyə düzülək və tapşırığı yerinə yetirək (2-3 dəfə). Hazırıq? Başlayaq!"

***Uğur kriteriyası***: Öyrədənin siqnalına əsasən yeriməyi bacarır.

## Hərəkətli oyun: "Tülkü və qoğal"

**Məqsəd:** uşaqları qaçışda məşq etdirmək, qrupda işləmə bacarığını inkişaf etdirmək.

Öyrədən ("tülkü") oturub (yatır), uşaqlar ("qoğallar") "meşədə" topla yavaşca ora-bura qaçırlar. Birdən tülkü oyanır, ayağa durur. Uşaqlar bir yer tapıb qoğalı gizlətməlidirlər. Oyun tülkünün qoğalı tapana kimi davam edir. Oyun 3 – 4 dəfə təkrarlanır. Obrazları dəyişmək olar: qurd, ayı...

***Uğur kriteriyası***: qrupda işləmə bacarığını malikdir

## Sərbəst fəaliyyət: Oyun

## Son toplantı

**Öyrədən:** "Tezliklə biz evimizə getməli olacağıq. Bizim otaqda olan oyuncaqlarımız öz evlərini tapmağı hələ də öyrənməyiblər, axı onlar canlı deyillər. Onlara kömək etmək istəyirsiniz? (Uşaqlar oyuncaqları yerinə qoyurlar) .Afərin sizə uşaqlar! Ən çox nə xoşunuza gəldi? Hamınızı tərifləmək istəyirəm! Siz bügün çox yaxşı işlədiniz!"

# May | 28-ci həftə | Mövzu: “Azərbaycanın dövlət rəmzləri”

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Uşaqlar, qarşınızdakı yoldaşınızın gözlərinə baxın və ona təbəssüm bəxş edin. Bu təbəssüm ona bütün gün xoş əhval bağışlayacaq.

İstirahət günlərinizi necə keçirdiniz?

***Təqvimlə iş***

**Məqsəd:** İlin fəsillərini (Yayın xüsusiyyətlərini) öyrətmək

Öyrədən yayın təsvir olunduğu rəsmi (video) “Müzakirə guşəsi”ndən asır. O uşaqlardan rəsmdə əks olunanları təsvir etməyi istəyir. (Əlavə 1)

Qeyd 1: Rəsmdə yay ayının xüsusiyyətləri təsvir olunmalıdır.

Qeyd 2: “Müzakirə guşəsi” “Təqvim guşəsi”nə aid A5 ölçülü bir lövhədir. Rəsm uşaqlar daha aydın görsünlər deyə həmin lövhədən asılmalıdır.

***Oyun: Dənizdə üz***

**Öyrədən:** Uşaqlar, biz indi yaya hazırlıq edəcəyik. Yayda siz dənizə gedəndə artıq bədəniniz dənizdə üzməyə hazır olmalıdır. Odur ki, biz indi sinifdə, havada üzəcəyik.

Uşaqlar sinifdə səpələmə gəzərək Öyrədənin “Sağa”, “Sola”, “Geriyə üz” komandası ilə hərəkət edir. Üzərkən uşaqlar bir birinə toxunmamalıdır. Üzmə prosesində bir-birnə təmas edən uşaqlar dairədə əyləşir. Oyun digər uşaqlarla davam edir.

***Uğur göstəricisi:*** Yay xüsusiyyətlərini təsvir edə bilir.

***Mövzuya giriş***

Uşaqlar Azərbaycan himnini oxuyur. Öyrədən himn oxunduqdan sonra Azərbaycan bayrağına dair video nümayiş etdirir.

**Öyrədən:** Uşaqlar rəsmdə gördüyünüz nədir?

### Ətraf aləmlə tanışlıq: Azərbaycan dövlətinin rəmzləri. Bayraq və gerb.

**Məqsəd:** Azərbaycanın dövlətinin rəmzləri və onların mənaları haqqında məlumat vermək.

Vəsaitlər: Azərbaycanın bayrağı, gerbi. (Əlavə 2).

***Hissə 1. Məlumatın verilməsi.***

Öyrədən bayrağın üç rəngi və onun mənaları, eləcə də gerbin üzərindəki atributların mənasını izah edir. (Əlavə 3)

***Hissə 2. Qruplarla iş.***

Öyrədən uşaqları beş uşaq olmaqla qruplara ayırır. Hər bir qrup üçün böyük ölçülü, ağ vərəqə üzərində çəkilmiş bayraq forması uşaqlara təqdim edilir. Uşaqlar qrup şəklində bayrağın üç rəngini rəngləyir.

***Hissə 3. Bayrağımızı tap*.**

Öyrədən Əlavə 4-də verilən digər ölkələrin bayraqlarını öncədən kəsərək hazır edir. Tapşırıq zamanı bayraqları masaya tökərək qarışdırır. Bayraqları üzü aşağı çevirir. Uşaqlar dairəvi şəkildə, öz oturacaqlarında əyləşib. Yarış  üçün iki uşaq masa arxasına dəvət edilir. Uşaqlar Öyrədənin "Başla" komandası ilə bayraqları cəld formada üzü yuxarı çevirib baxmalıdırlar. Azərbaycan bayrağını ilk tapan uşaq qalib elan edilir. Yarışan uşaqlar yerdə oturan uşaqlarla əvəz edilir.

***Uğur göstəricisi:*** Azərbaycanın dövlətinin rəmzlərini bilir və onların mənaları haqqında məlumatı var.

## Hərəkətli oyun: Barmaq oyunu: "Barmaq sırası"

Uşaqlar dairə şəklində oturublar. Öyrədən şəhadət barmağını qaldırır və "bir" deyir. Onun solundakı uşaq şəhadət və orta barmağı birlikdə qaldırıb "iki" deyir. Soldakı növbəti uşaq şəhadət, orta və adsız barmağını qaldıraraq "üç" deyir. Ondan sonra gələn uşaq şəhadət, orta, adsız və çeçələ barmağını qaldırıb "dörd" deyir. Sıradakı uşaq baş barmağı da əlavə edib "beş" deyir. Oyun saat əqrəbi istiqamətində yenidən birdən başlayaraq davam edir. Bütün uşaqlar iştirak etdikdən sonra oyunu saxlamaq, yaxud daha çevik nəticə üçün davam etmək olar

## Yapma: Azərbaycan bayrağı.

**Məqsəd**: Plastilindən istifadə etməyi (kəsmək, diyirləmək) öyrətmək.

Vəsait: Plastilin.

Öyrədən hər uşağa dörd rəng (qırmızı, yaşıl, göy, ağ) təqdim edir. Uşaqlar verilən plastilinləri ovucunun içərisində yumrulayaraq kürələr düzəldir. Daha sonra hər bir kürəni ovucunun içində diyirləyərək uzun ilan formalarına çevirirlər. Hər üç zolaq hazır olduqdan sonra uşaqlar zolaqları yan yana olmaqla vərəq üzərində yerləşdirir.

Arxa fon hazır olduqdan sonra ağ rəng plastilindən istifadə edərək düzəldilən ulduz forması bayrağın üzərinə yerləşdirilir.

***Uğur göstəricisi:*** Plastilindən istifadə etməyi (kəsmək, diyirləmək) bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Son toplantı

**Öyrədən:** Uşaqlar, hər kəs özünə bir yoldaş tapsın, onun əlindən tutub xoş bir söz desin (qucaqlasın).

- Məşğələmizdə ən diqqətli kimi olub?
- Bu gün mövzumuz nə idi?

Afərin sizə!

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** “Salam, uşaqlar! Bu gün biz səssiz salamlaşacayıq. Salamlaşmaq istədiyiniz yoldaşınıza baxın və barmağınızı oynadaraq, əllərinizi yuxarı qaldıraraq, yaxud gülmsəyərək fikrinizi çatdırın.”

### *Təqvimlə iş*

**Məqsəd**: yay fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək - qarlı hava

### *“Yağış” oyunu*

Öyrədən uşaqlardan sıra ilə düzülmələrini xahiş edir, uşaqlardan birini yağışı təmsil etmək üçün seçir.

Seçilən uşaq drijor rolunu oynayır və yağışı əl çalma ilə göstərir.

Drijor rolunda olan uşaq sırada dayanan istənilən uşağa işarə edir. Onun işarə etdiyi uşaq “Yağış” hərəkətini yerinə yetirir. Drijor daha bir uşağa işarə edir. Bu dəfə yeni işarə edilən uşaq “Yağış” hərəkətini yerinə yetirir. Daha sonra drijorluq edən uşaq sırada istənilən uşaqdan başlayaraq əl işarəsi ilə sıranın axırına qədər işarə edir. Bu dəfə onun işarə etdiyi bütün uşaqlar “yağış” hərəkətini yerinə yetirir. Qeyd: Öyrədən bu oyunu digər hava durumuna da tətbiq edə bilər

***Uğur göstəricisi:*** Yay fəslində müşahidə edilə bilən hava durumunu bilir. Kiçik motorika bacarıqlarına (qarı yumrulamaq, atmaq) sahibdir.

### *Mövzuya giriş*

Öyrədən divarda çəkdiyi ədəd oxu üzərində heyvanların illustrasiyasını yapışdırıb. Ədəd oxu 1-6 ə qədərdir.

1–incidə tülkü, 2–inci nömrədə ayı, 3–üncü nömrədə kəpənək, 4–cü nömrədə dovşan, 5–ci nömrədə meymun, 6–ıncı yerdə kirpi özünə yuva qurub.

**Öyrədən:** “Uşaqlar gəlin sizin bir oyun oynayaq. Mən indi zəri atacam, hansı rəqəm düşsə sıralamada həmin nömrədə duran heyvanın yuvası və yaşadığı yer barəsində suallar verəcəm. Gəlin zəri ataq!”

Öyrədən zəri atır, 5 rəqəmi düşür, Öyrədən meymun haqqında suallar verir.

Kim deyər?

## Riyaziyyat: "Miqdar sayı və Sıra sayı"

**Məqsəd**: Uşaqlara miqdar sayı barədə biliklərin verilməsi. Miqdar və sıra saylarının fərqini anlamağa kömək etmək.

### *Hissə 1. Ümumi məlumat.*

**Öyrədən:** “Salam, uşaqlar! Baxın görün bizi kim izləyir? Bəli, bu kirpidir! Onun iynələrinin üstündə nə var? (almalar) Bəs siz necə fikriləşirsiz, kirpi bu almaları hara aparır? (kirpi balalarına aparır) Gəlin sizinlə kirpinin öz balalarına nə qədər alma apardığını sayaq (1,2,3,4,5) Deyin görək alma hansı həndəsi fiqura oxşayır? (dairə) Baxın, kirpi meşədən bir kisə dolu alma gətirib. Kirpi öz almalarını bizə verir ki, biz onları saymaqda ona köməklik edək. Masalarımız arxasında əyləşək və ona kömək edək. Mən indi sizə torbadakı almaları paylayacam. Uşaqlar, gəlin almaları bir-bir sayaq? (1,2,3,4,5) Cəmi nə qədər oldu? (5)

***Hissə 2. Praktik hissə.***

Kağızı qarşınızda şaquli vəziyyətdə qoyun (Öyrədən necə qoymaq lazım olduğunu göstərir). Vərəqi ayırıcı zolaq kimi isifadə edərək, Öyrədən, zolağın sağ tərəfində almaları, sol tərəfdə isə dairələri yerləşdirir (hər bir almanın qarşısında bir dairə durur). Uşaqlar, gəlin sayaq sağ tərəfdə nə qədər alma var? (1,2,3,4,5) Cəmi nə qədər oldu? (5) Afərin uşaqlar! İndi isə gəlin birlikdə barmaqlarımızla dairələri sayaq? (1,2,3,4,5 dairə) Alma və dairələrin miqdarı barədə nə demək olar? (onlar bərabər saydadırlar). İndi isə uşaqlar almanın birini boşqaba qoyun və cəmi nə qədər alma qaldığını deyin. (4 alma)

Almaların sayı dairələrin sayından az oldu? (bəli) Deyin görək , necə oldu ki, bizdə 4 alma qaldı? (almanın 1-ni götürdük) 4 alma və 5 dairə. Müqayisə edin, hansı azdır? Hansı çoxdur? Dairələr almalardan nə qədər çoxdur? Uşaqlar, gəlin tapaq hansı rəqəm daha büyükdür, 4 yoxsa 5? Hansı rəqəm daha azdır 4 yoxsa 5? İndi isə uşaqlar , elə edin ki alma və dairələrin miqdarı bərabərləşsin. Necə edək ki, 5 alma olsun? Afərin, indi isə dairəni götürək. Dairə və almaların miqdarını bərabərləşdirmək üçün daha nə etmək olar?”

**Məqsəd**: Uşaqların sayları barədə məlumatın verilməsi.

Material: Maqnit ilə dəstəklənən nömrəli kartlar, sinif xəritəsi (Öyrədən öncədən sinifin xəritəsinihazırlayır və ya lövhədə çəkir), qələmlər

Qeyd: Sıra saylarını bildirən rəqəmlər təsvir olunmuş kartları fəaliyyətdən əvvəl otaq ətrafında yerləşdirməlisiniz.

***Hissə 1: İzahat***

- Şagirdlərdən gündəlik həyatda sıra nömrələrini istifadə etmə yollarını müzakirə edin
- Dərsdəki şagirdləri davamiyyət üçün necə sıraya düzdüyünüzü və ya təqvimdəki günləri necə sıra ilə saydığınızı izah edə bilərsiniz. Kitabda şəkillərin və ya səhifələrin sıra ilə gəldiyini də qeyd etmək mümkündür.

***Hissə 2: Tətbiq***

Öyrədən uşaqları 5/5 olmaqla 2 sırada düzür və beləliklə sinifdə iki ədəd beş nəfərdən ibarət sıra yaranır. Öyrədən ilk öncə uşaqları sırası ilə adlandırır.

Sıra 1. 1-ci uşaq Fəqan, 2-ci uşaq Aydan, 3-cü uşaq Hüseyn və s.

Sıra 2. 1-ci uşaq Orxan, 2-ci uşaq İlahə, 3-cü uşaq Lalə, 4-cü uşaq Fidan, və s.

Bütün sıralardakı uşaqların yerini qeyd etdikdən sonra **Öyrədən:**

Uşaqlar mən indi çantadan bir kart çıxaracam, hansı rəqəm çıxsa 1-ci və 2 ci sırada həmin sıra nömrəsində dayanan uşaqlar yerlərini dəyişəcək. Beləliklə oyun çantadan bütün rəqəmlər çıxana qədər davam edir.

***Uğur göstəricisi:*** Uşaqların sıra sayları barədə məlumatı var. Miqdar və sıra saylarının fərqini bilir.

## Fiziki hərəkətlər

**Məqsəd**: kəndir üzərində yeriməyi və əşyaların arasında qaçmağı, yastıqların üzərindən bükülmüş ayaqlarla üzərinə tullanmağı, və topu bir-birinə ötürməyi məşq etmək.

***1-ci hissə.*** Öyrədən otağın bir tərəfində kəndir, digər tərəfində isə aralarındakı məsafə 40 sm olmaqla 8 kubik qoyur. Uşaqlar kəndirin üzərində yeriyirlər və kubiklərin arasından qaçırlar. Əsas qayda bir-birinə toxunmadan qaçmaqdır. (2-3 dəfə)

***2-ci hissə*** Topla inkişafetdirici hərəkətlər

1. Ayaqlar çiyin bərabərində aralı. Top hər iki əldə aşağıda. Topu yuxarı qaldırmaq, barmaqların ucunda durmaq, topu aşağı salmaq və ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)

2. Ayaqlar çiyin bərabərində aralı, top sinə səviyyəsində əllərdə. Sallağı oturmaq, topu irəli uzatmaq, qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)

4. Ayaqlar azca aralı, top sinə səviyyəsində əllərdə. Top əldə hər iki tərəfə dairə üzrə iki ayaq üzərində tullanmaq.

***3-cü hissə.*** Əsas hərəkət növləri.

Tullanmaq: "Paraşütçülər". Uşaqlar iki qrupa bölünürlər. Bir qrup uşaqlar "paraşütçülər" olur və yastıqların üstünə çıxırlar. Digər qrup uşaqlar isə yarımdairə şəklində oturub"hava limanı" yaradırlar. "Hazır ol!" əmri ilə yastıqların üzərində olan uşaqlar başlanğıc vəziyyəti alırlar (ayaqlar azca aralı, dizlər azca bükülmüş, əllər arxaya tərəf). "Tullanın" əmri ilə uşaqlar bükülmüş ayaqları üzərinə tullanırlar. Oyun tapşırığı 4-5 dəfə təkrarlanır. Sonra uşaqlar yerlərini dəyişirlər

Topu yuvarlamaq. Uşaqlar 4-5 nəfərdən ibarət qruplara bölünür, hər qrupa bir top verilir. Uşaqlar döşəməyə oturur, və ayaqlarını aralı qoyaraq dairə qururlar. Öyrədənnin siqnalı ilə topu bir-birinə diyirlədirlər.

***Uğur göstəricisi:*** kəndir üzərində yeriməyi və əşyaların arasında qaçmağı, yastıqların üzərindən bükülmüş ayaqlarla üzərinə tullanmağı, və topu bir-birinə ötürməyi bacarır.

## Hərəkətli oyun: "Dövrə-dövrə"

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

Vermişik biz əl-ələ,

Gəzirik dövrə-dövrə.

Ay dostum (Amin, Leyla) göstər,

Təkrar eləyək biz də.

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hər hansı bir gülməli formada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayır. Sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və həmin uşaq növbəti aparıcı olur. Oyun təkrar olunur, bu dəfə dairə əks-istiqamətdə hərəkət edir.

## Sərbəst fəaliyyət: Konstruktorla oyun

## Son toplantı

**Öyrədən:** Uşaqlar, bu gün hamınıza afərin!

Bəs bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq.

Bu gün məşğələdə biz nə ilə tanış olduq?

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** Uşaqlar, sabahınız xeyir. Gəlin günümüzə “Adlar qatarı” oyunu ilə başlayaq. Hamımız dairədə oturaq. Mən qatar oluram və öz adımı deyə-deyə bu dairəvi yolu gedirəm. Gülnar, mənim adım Gülnardır! (Öyrədən dairənin ətrafına fırlanır)

Kim indi mənim yerimə qatar olmaq istəyir?

Oyun bütün uşaqlar iştirak edənədək davam edir.

### *Təqvimlə iş*

**Məqsəd**: yay fəslində müşahidə edilə bilən hava durumu ilə uşaqları tanış etmək-günəşli hava.

### *“Günəş” oyunu*

Öyrədən öncədən sarı vərəqlərdən hazırladığı dairələri döşəməyə düzür. Dairələrin sayı sinifdəki uşaqların sayından bir ədəd az olmalıdır.

**Öyrədən:** “Uşaqlar bu dairələr günəşdir. Bizim sinif otağımız isə gecə. Siz, mən “gecə” və ya “qaranlıq” deyəndə sinif otağında  gəzişəcəksiniz, elə ki, mən “günəş” dedim  siz özünüzə sarı bir dairə ev tapıb dayanacaqsınız. Kim özünə günəş tapmağı çatdırmasa dairədə yerdə oturacaq.”

Qeyd: Öyrədən hər turdan sonra dairələri uşaqların sayından bir dairə az olmaq şərti ilə tənzimləyir.

Qeyd: Təqvim lövhəsində fəsil, həftənin günü, hava durumu qeyd edilir

***Uğur göstəricisi:*** yay fəslində müşahidə edilə bilən hava durumunu bilir. Böyük motorika bacarıqlarına-qaçma, özünü tarazlama bacarıqlarını aşılamaq.

### *Mövzuya giriş*

Öyrədən himni uşaqlarla oxuduqdan sonra uşaqlara növbəti videonu nümayiş etdirir.

Gerb haqqında videonun linki: https://youtu.be/AC7qtJ4SVE8

## Nitq inkişafı: Azərbaycan vətənimizdir

**Məqsəd**: uşaqların yaşadıqları ölkə haqqında biliklərini dərinləşdirmək.

Vəsaitlər: Azərbaycana aid təsvirlər (şəkil, video).

Öyrədən uşaqların diqqətini lövhədə nümayiş olunan şəkillərə yönəldir.

**Öyrədən:**

- “Uşaqlar, “vətən” sözü eşidəndə fikrinizə nə gəlir? (uşaqların cavabları)
- Vətənimiz bizə niyə doğma və əzizdir? (uşaqların cavabları)

Uşaqlar, vətən bizi yetişdirən torpağımızdır, bizim ruhumuzu qidalandıran mədəniyyətimizdir, bizim əcdadlarımızın yadigarı olan doğma Azərbaycandır! Vətən biz özümüzük, çünki bizim hər birimiz vətənimizin bir hissəsini daim qəlbimizdə, öz davranışımızda daşıyırıq.

- Biz hansı ölkədə yaşayırıq? Bu gözəl şəkillər hara aiddir?
- Bizim vətənimiz Azərbaycanın paytaxtı haradır?

- Bəs biz Azərbaycanın hansı şəhərində (rayon, kənd) yaşayırıq?
- Azərbaycanın digər hansı böyük şəhərlərini tanıyırsınız?
- Vətənimizin təbiəti necədir?
- Azərbaycanın mədəniyyəti dünyada nə ilə məşhurdur?
- Bəs Azərbaycanın əsas sərvəti nədir? (uşaqların cavabları)

Uşaqlar, dedikləriniz hamısı doğrudur. Lakin bizim ən əsas sərvətimiz insanlarımızdır - zəhmətkeş, cəsarətli, ləyaqətli xalqımız!

***Uğur göstəricisi:*** uşaqların yaşadıqları ölkə haqqında bilikləri var.

## Hərəkətli oyun: Barmaq oyunu: "Barmaq sırası"

Uşaqlar dairə şəklində otururblar. Öyrədən şəhadət barmağını qaldırır və "bir" deyir. Onun solundakı uşaq şəhadət və orta barmağı birlikdə qaldırıb "iki" deyir. Soldakı növbəti uşaq şəhadət, orta və adsız barmağını qaldıraraq "üç" deyir. Ondan sonra gələn uşaq şəhadət, orta, adsız və çeçələ barmağını qaldırıb "dörd" deyir. Sıradakı uşaq baş barmağı da əlavə edib "beş" deyir. Oyun saat əqrəbi istiqamətində yenidən birdən başlayaraq davam edir. Bütün uşaqlar iştirak etdikdən sonra oyunu saxlamaq, yaxud daha çevik nəticə üçün davam etmək olar

## Sərbəst fəaliyyət: Sərbəst rəsm.

## Yekun toplantı

**Öyrədən:** Bu gün sizinlə nə barədə danışırdıq? Kim yeni məlumat əldə etdisə bir dəfə əl çalsın. Məşğələdə ən çox nə xoşunuza gəldi?

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Uşaqlar, sabahınız xeyir. Bu gün həftəmizin son məşğələsidir. İstirahətinizi necə keçirəcəyinizi artıq bilirsiniz?

***Təqvimlə iş***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar kim bayrağımızda olan rənglərin mənasını deyə bilər?

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** kəndir üzərində yeriməyi və əşyaların arasında qaçmağı, yastıqların üzərindən bükülmüş ayaqlarla üzərinə  tullanmağı, və topu bir-birinə ötürməyi məşq etmək.

***1-ci hissə.***

Öyrədən otağın bir tərəfində kəndir, digər tərəfində isə aralarındakı məsafə 40 sm olmaqla 8 kubik qoyur. Uşaqlar kəndirin üzərində yeriyirlər və kubiklərin arasından qaçırlar. Əsas qayda bir-birinə toxunmadan qaçmaqdır. (2-3 dəfə)

***2-ci hissə*** Topla inkişafetdirici hərəkətlər

1. Ayaqlar çiyin bərabərində aralı. Top hər iki əldə aşağıda. Topu yuxarı qaldırmaq, barmaqların ucunda durmaq, topu aşağı salmaq və ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)

2. Ayaqlar çiyin bərabərində aralı, top sinə səviyyəsində əllərdə. Sallağı oturmaq, topu irəli uzatmaq, qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)

4. Ayaqlar azca aralı, top sinə səviyyəsində əllərdə. Top əldə hər iki tərəfə dairə üzrə iki ayaq üzərində tullanmaq.

***3-cü hissə.*** Əsas hərəkət növləri.

Tullanmaq: “Paraşütçülər”. Uşaqlar iki qrupa bölünürlər. Bir qrup uşaqlar “paraşütcülər” olur və yastıqların üstünə çıxırlar. Digər qrup uşaqlar isə yarımdairə şəklində oturub “hava limanı” yaradırlar. “Hazır ol!” əmri ilə yastıqların üzərində olan uşaqlar başlanğıc vəziyyəti alırlar (ayaqlar azca aralı, dizlər azca bükülmüş, əllər arxaya tərəf). “Tullanın” əmri ilə uşaqlar bükülmüş ayaqları üzərinə tullanırlar. Oyun tapşırığı 4-5 dəfə təkrarlanır. Sonra uşaqlar yerlərini dəyişirlər

Topu yuvarlamaq.  Uşaqlar 4-5 nəfərdən ibarət qruplara bölünür, hər qrupa bir top verilir. Uşaqlar döşəməyə oturur, və ayaqlarını aralı qoyaraq dairə qururlar. Öyrədənin siqnalı ilə topu bir-birinə diyirlədirlər.

**Məqsəd:** kəndir üzərində yeriməyi və əşyaların arasında qaçmağı, yastıqların üzərindən bükülmüş ayaqlarla üzərinə tullanmağı, və topu bir-birinə ötürməyi bacarır.

## Hərəkətli oyun: “Dövrə-dövrə”

Oyunun iştirakçıları əl-ələ tutub dairə düzəldirlər. Aparıcı dairənin içində dayanır. Uşaqlar saat əqrəbi istiqamətində fırlanmağa başlayırlar və aparıcının adı ilə deyirlər:

Vermişik biz əl-ələ,

Gəzirik dövrə-dövrə.

Ay dostum (Amin, Leyla) göstər,

Təkrar eləyək biz də.

Uşaqlar dayanır, aparıcı bir hərəkət göstərir (qurbağa kimi tullanır, yerində fırlanır, yaxud hər hansı bir gülməli formada dayanır). Bütün uşaqlar onun etdiyini təkrarlayır. Sonra aparıcı uşaqlardan birinə yaxınlaşır və həmin uşaq növbəti aparıcı olur. Oyun təkrar olunur, bu dəfə dairə əks-istiqamətdə hərəkət edir.

## Sərbəst fəaliyyət: Stolüstü qrup oyunları

## Yekun toplantı

**Öyrədən:** “Uşaqlar, bu həftə hər biriniz çox çalışmısınız. Bunun üçün sizə afərin deyirəm və xoş istirahət arzu edirəm. Siz mənə nə arzu edirsiniz?”

# May | 29-cu həftə | Mövzu: Azərbaycan təbiəti

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Salam, uşaqlar.  Gəlin yoldaşlarımızı yüksək səslə salamlayaq! Gəlin indi da sakitcə salamlayaq! Afərin sizə!

***Təqvimlə iş***

**Məqsəd:** Yay fəslinə aid ayları öyrətmək

Öyrədən "Müzakirə lövhəsi"ndən üç ədəd rəsm asır. 1-ci rəsmdə iyun ayı (heyvanlar, quzu çəməndə otlayır). 2-ci rəsmdə iyul (uşaqlar həyətdə oynayır, əylənir, uşaqların paltarı yay fəslinə uyğundur). 3-cü avqust (ailələr dənizə çimməyə gedir). Öyrədən "Müzakirə lövhəsi"nə yapışdırdığı rəsmin yerinə bu üç rəsmi yapışdırır və onları ayların adı ilə adlandırır. (Əlavə 5)

**Öyrədən:** "Uşaqlar, indi isə bu adları əl çalaraq öyrənəcəyik. İ-yun (iki dəfə), İ-yul (iki dəfə), Av-qust (iki dəfə)."

***Uğur göstəricisi:*** yay fəslinə aid ayları bilir. Əl çalır, ritmə uyğun hərəkət edir.

***Mövzuya giriş***

**Öyrədən:** "Bu həftə biz ölkəmizin təbiəti haqqında danışacağıq. Divarda gördüyünüz bu xəritə (Azərbaycanın xəritəsi bütün ay divardan asılı olmalıdır) bu ay bizim yaxın köməkçimiz olacaq. Tapşırıldığı kimi Azərbaycanın təsviri olan şəkillər gətirmisiniz. Biz indi onları nəzərdən keçirəcəyik."

### Ətraf aləmlə tanışlıq: Azərbaycan təbiəti

**Məqsəd:** Azərbaycanın təbiəti haqqında bilikləri dərinləşdirmək və möhkəmləndirmək

Vəsaitlər: Azərbaycanın xəritəsi və Azərbaycan təbiətini təsvir edən şəkillər.

**Öyrədən:**

- "Uşaqlar, Azərbaycanın  yarısından çoxu dağlıq ərazidir. Dağ necə olur? Siz mənə bildiyiniz hansı dağ adlarını deyə bilərsiz? (uşaqlar cavab verməkdə çətinlik çəkərlərsə Öyrədən bir neçə dağ adı çəkməklə kömək edir)
- Dağlardan, dağların arasından isə çaylar axır. Azərbaycanda irili-xırdalı 8000-dən çox çay var. 8000 -i başqa necə ifadə edərik, tək yoxsa çoxlu?
- Tanıdığınız  (bizim yaşadığımız yerdə) hansı çaylar var? (uşaqlar cavab verməkdə çətinlik çəkərlərsə Öyrədən bir neçə çay adı çəkməklə kömək edir)
- Çayların bizim həyatımız üçün çox böyük əhəmiyyəti var. Onlar bizi içməli su ilə, əkin sahələrini isə suvarmaq üçün su ilə təmin edirlər. Bəs bilirsiniz Azərbaycanın ən böyük çayları hansılardır? (ehtiyac olarsa Öyrədən xəritədə göstərərək kömək edir)
- Bir baxın, xəritədə müxtəlif ölçulu mavi hissələr görürük. Bunlar isə göllərimizdir. Azərbaycanda gölllərin sayı çoxdur- 400-dən artıq. Bizim tanıdığımız göllər hansılardır?" (ehtiyac olarsa Öyrədən xəritədə göstərərək kömək edir)

- Bizim bir mavi gözəlimiz var- Xəzər dənizi! Bu dünyanın ən böyük göludür. Təsəvvür edirsiniz? Bütün dünyada mövcud olan gölllərdən ən böyüyü. O qədər böyükdür ki, ona göl yox, dəniz deyirlər.

Uşaqlar, bizim doğma Azərbaycanımız gözəl təbiəti, səfalı iqlimi ilə dillər əzbəri olub. Yeraltı və yerüstü sərvətlərinə görə doğma yurdumuz bütün dünyada məşhurdur. Biz vətənimizin hər qarışını sevməli, qorumalı və onunla fəxr etməliyik."

***Uğur göstəricisi:*** Azərbaycanın təbiəti haqqında biliyə malikdir.

## Hərəkətli oyun: "Dağlar, çaylar, göllər dənizlər"

**Məqsəd:** fiziki tapşırıqları komanda şəklində yerinə yetirməyi məşq etmək.

Uşaqların sayından asılı olaraq qrup iki yaxud üç komandaya bölünür.

**Öyrədən:** Uşaqlar, təsəvvür edin ki, qrup otağımız Azərbaycanın ərazisidir. Mən "Çay" deyəndə hər qrup bir çay olur, və qrup üzvləri bir-birinin ardınca yeriyərək otağımızda "axırlar".

Mən "Göl" deyəndə hər qrup bir dairə yaradır və dayanır.

Mən "Dəniz" deyəndə bütün uşaqlar əl-ələ tutub böyük bir dairə qurur, əllərini dalğavari tərpədib"dəniz" olurlar.

Mən "Dağ" deyəndə hər qrupun uşaqları bir-birinə qısılaraq hündür "dağ" əmələ gətirirlər.

Öyrədən tapşırıqları müxtəlif ardıcıllıqda verir.

***Uğur göstəricisi:*** fiziki tapşırıqları komanda şəklində yerinə yetirməyi məşq etmək.

## Yapma: "Mənim Vətənim"

**Məqsəd:** Plastilin parçasını barmaqlarla yayıb kompozisiya düzəltməyi öyrətmək.

Vəsaitlər: A3 ölçüdə yaşıl vərəqlər, qəhvəyi, mavi, 2-3 əlvan rəngli plastilin.

**Öyrədən:**

- "Uşaqlar, xəritədə dağlar hansı rənglə göstərilib? (Öyrədən xəritədə dağlara işarə edir)
- Bəs çaylar və göllər hansı rənglə göstərilib? (Öyrədən xəritədə çaylar və göllərə işarə edir)
- İndi təsəvvür edin ki, bu vərəqlər Azərbaycanın ərazisidir. Biz onun dağlarını, çay və göllərini düzəltməliyik.
- Əvvəl ovuclarımız arasında qəhvəyi plastilini yumru formaya salırıq. Sonra bu formanı vərəqlərimizin üzərinə qoyub barmaqlarımızla müxtəlif istiqamətlərdə yayırıq. Dağlarımız hazırdır.
- İndi mavi plastilini ovucumuzu irəli-geri hərəkət etdirərək uzunsov formada yayırıq. Biz bunu dağlarımızın arasında yerləşdirərək çaylarımızı göstərəcəyik. Çayların bəzisi dağın zirvəsindən başlayacaq (Öyrədən plastilinin qabarıq hissələrini göstərir).
- Mavi plastilindən kiçik yumrular düzəldib kompozisiyamızın üzərində barmağımızla yayırıq. Bu bizim göllərimizdir.
- Əlvan rəngli plastilinlərdən xırda-xırda parçalar qoparıb vərəqin yaşıl hissəsinə yapışdırırıq. Beləliklə güllü-çiçəkli çəmənlərimiz hazırdır.

Baxın bizim Azərbaycanımız belə fərqlidir!"

***Uğur göstəricisi:*** Plastilin parçasını barmaqlarla yayıb kompozisiya düzəltməyi bacarır.

## Sərbəst fəaliyyət: Qrup oyunları

## Yekun toplantı

**Öyrədən:** “Uşaqlar, hər kəs özünə bir yoldaş tapsın, onun əlindən tutub xoş bir söz desin (qucaqlasın).

- Məşğələmizdə ən diqqətli kimi olub?
- Bu gün mövzumuz nə idi?

Afərin sizə! ”

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

Sabahınız xeyir, uşaqlar! İndi hər kəs dalğalanan dəniz olacaq. Təklif edirəm hərə öz adını sanki dəniz onun adını deyirmiş kimi desin. Mən başlayıram "Sə-nəm, Sə-nəm". Kim davam edəcək?

### *Təqvimlə iş*

**Məqsəd:** Yay fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə müzakirə lövhəsindən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. Öyrədən "Müzakirə lövhəsi"ndən üç ədəd rəsm asır. 1-ci rəsmdə iyun ayı (heyvanlar, quzu çəməndə otlayır). 2-ci rəsmdə iyul (uşaqlar həyətdə oynayır, əylənir, uşaqların paltarı yay fəslinə uyğundur). 3-cü avqust (ailələr dənizə çimməyə gedir).

Daha sonra Öyrədən həmin rəsmləri qarışdırır və döşəməyə qoyur (Əlavə 5).

**Öyrədən:** "Uşaqlar, bu rəsmlərə diqqətlə baxın! Mən sizə təsvir etdiyim rəsmi tapmağınızı istəyəcəyəm".

"Heyvanlar, quzu çəməndə otlayır. Bu hansı rəsmdir? Afərin, uşaqlar, bu rəsmdə təsvir olunan ay isə iyundur".

Öyrədən sıra ilə digər ayları da uşaqlardan soruşur.

***Uğur göstəricisi:*** Yay fəslinə aid ayları bilir.

### *Mövzuya giriş*

Öyrədən sinifdə, dairədə oturan uşaqlardan bir öğlanı yanına çağırır. Sırada dayanmasını xahiş edir. Öyrədən indi isə bir qız uşağını ilk çağırdığı oğlanın yanıda dayanması üçün dəvət edir. Beləliklə Öyrədən oğlan-qız olmaqla uşaqları sıralandırır.

Öyrədən sıralandırmanı dayandırıb uşaqlardan soruşur.

**Öyrədən:** "Sizcə növbəti uşaq oğlan olacaq yoxsa qız?" Uşaqların cavabı.

Qeyd 1. Öyrədən uşaqlar növbəti uşağın qız və ya oğlan olmasını tapa biləmdikdə sıradakı uşaqları "oğlan, qız, oğlan, qız" kimi saymağa başlamalı, uşaqlara növbəti uşağı tapmağa kömək etməlidir.

Qeyd 2. Öyrədən sinifdə uşaq sayı az olduqda uşaqların rəsmlərindən (lövhələrə yapışdırılmış) və ya lövhəyə çəkilən şəkillərdən istifadə edə bilər. (Əlavə 6)

## Riyaziyyat: Naxış. Riyazı

**Məqsəd:** Uşaqların görsəl intellekti sayəsində naxışı davam etdirməyi, naxışı kopyalamağı, yeni naxış yaratmağı öyrətmək.

### *Hissə 1. Naxışın kopyalanması*

Öyrədən uşaqlara müxtəlif paxlalı bitkilərin dənəsi qarışdırılmış qab təqdim edir. Öyrədən öncədən evdə hazırlanmış naxış nümunələrindən birini uşaqlara göstərir və həmin naxışı onların təkrar etməsini rica edir.

Qeyd: Paxlalı bitkilərdən hazırlanan lövhələrdə Öyrədən 1 noxud, 2 lobya, 1 noxud, 2 lobya olmaqla sadə naxışlar düzəltməlidir.

Qeyd: Öyrədən həmin lövhələrdəki naxışları vizual formada, hər masada təkrarlamaqla uşaqlara nümayiş etdirməlidir.

***Hissə 2. Naxışın davam edilməsi.***

Öyrədən rəngli kağızlardan çox sayda dairə, üçbucaq, dörbucaqlı təqdim edir uşaqlara. Öyrədən lövhəyə 1 üçbucaq, 2 dairə, 1 üçbucaq, 2 dairə yapışdırır.

**Öyrədən:** "İndi isə siz bu naxışı davam edəcəksiniz. Sizcə növbəti forma hansı olacaq?"

***Hissə 3. Öz naxışını yarat.***

Uşaqlar qruplara ayrılır. Bəzi qruplar yerdə oturur, bəzi qruplar isə masa arxasında. Öyrədən yerdə əyləşən uşaqlara sinif otağındakı əşyalardan istifadə edərək, masada oturan qruplara isə ağ vərəqlərdə öz istədiyi naxışı düzəltməy təklif edir.

Qeyd: Uşaqlar onlara verilən tapşırığı qrup şəklində yerinə yetirməlidir.

***Hissə 4. Qruplarla iş.***

Bu oyun cüt-cüt oynanılır, uşağın təxəyyülünü və əşyaları təsvir etmək bacarığını cəlb edir.

Uşaqlar ikili qruplarda, qarşı-qarşıya əyləşir. Uşaqlardan birinə ağ kağız və sadə (rənglidə ola bilər) kağız verilir. Ağ kağızı olan uşaq qarşısındakı uşağın dediyi (tələffüz etdiyi) naxışı ağ vərəqdə çəkməlidir. Daha sonra uşaqlar yer dəyişmə edir. Naxışları diktə edən uşaq indi isə naxışı yazan (çəkən) rolunu oynayır.

***Uğur göstəricisi:*** Naxışı davam etdirməyi, naxışı kopyalamağı, yeni naxış yaratmağı bacarır.

## Fiziki hərəkətlər

**Məqsəd:** siqnala əsasən yerimə hərəkətləri yerinə yetirmək; topu atıb tutmaqda çalışmalar etmək.

***1-ci hissə:*** Uşaqlar əllərində lent dairə üzrə yeriyirlər. Öyrədən "Dalğa!" deyəndə hamı əllərindəki lenti dalğavari oynadaraq səpələng qaçırlar. Öyrədən "Dəniz sakitdir!" deyəndə uşaqlar dairəyə qayıdıb yeriməyə davam edirlər. Qaçış və yeriş bir neçə dəfə növbələnir.

***2-ci hissə:*** Lentlərlə ümumi inkişaf hərəkətləri.

1. Ayaqlar pəncə enində aralı, əllər aşağıda, hər iki əldə lent. Lentləri yanlardan yuxarı qaldırmaq, yelləmək. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
2. Ayaqlar çiyin enində aralı, əllər çiyinlərdə, hər iki əldə lent. Sağa dönüb sağ qolu açmaq, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkəti sol tərəfə təkrarlamaq. (hər tərəfə 3 dəfə)
3. Ayaqlar çiyin enində aralı, əllər beldə, hər iki əldə lent. Qabağa əyilib lentləri yelləmək. İlkin vəziyyətə qayıtmaq. (5-6 dəfə)
4. Ayaqlar pəncə enində aralı, qollar yanlarda, hər iki əldə lent. Lentləri irəli-geri yelləmək. İlkin vəziyyətə qayıtmaq.

***3-cü hissə:*** Əsas hərəkət növləri

- Uşaqlar topu yuxarı atıb iki əl ilə tuturlar.
- Uşaqlar iki qrupa bölünür və qarşı-qarşıya iki cərgədə düzülürlər (aradakı məsafə 3 metr olmalıdır).
- Qarşı-qarşıya durmuş uşaqlar Öyrədənin siqnalı əsasında aşağıdan topu bir-birinə atırlar. (10-12 dəfə)

***Uğur göstəricisi:*** siqnala əsasən yerimə hərəkətləri yerinə yetirmək; topu atıb tutmaqda çalışmalar edir.

## Hərəkətli oyun: «Dəniz dalğalanır»

Uşaqlar musiqinin (metallafonun) sədaları altında bir tərəfdən digər tərəfə tərpənirlər:

«Dəniz dalğalanır-bir, dəniz dalğalanır-iki, dəniz dalğalanır-üç. Don!». Sonuncu sözü eşitdikdə uşaqlar olduqları pozada dayanırlar və hərəkət etmirlər. Öyrədən ən maraqlı pozada dayanmış uşaqlara özlərinə ad qoymağı təklif edir. Ən çox bəyənilən ad sahibi növbəti aparıcı olur. Hər bir uşağın aparıcı olması üçün şərait yaradılır.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar.

## Yekun toplantı

Öyrədən bir-birinə kömək etmiş uşaqları qucaqlaşmağa dəvət edir, məşğələnin gedişatı haqqında uşaqlara bir neçə sual verir.

## 3-cü gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə oturublar. **Öyrədən:** “Salam, uşaqlar! Mən sizinlə təbəssümü paylaşmaq istəyirəm . Siz də yanınızdakı yoldaşınızı təbəssümünüzlə sevindirin.”

***Təqvimlə iş***

**Məqsəd:** yay fəslinə aid ayları öyrətmək

Öyrədən bir gün öncə “Müzakirə lövhəsi”ndən asdığı rəsmin hansı aylara aid olduğunu təkrar edir. Öyrədən “Müzakirə lövhəsi”ndən iyun, iyul, avqust olmaqla üç ədəd rəsm asır..

**Öyrədən:** “Uşaqlar bu gün biz bu adları tez-tez və yavaş-yavaş deyəcəyik. İyun, iyul, avqust”.

Öyrədən əvvəlki digər ayları da sıraya əlavə edir. “mart, aprel, may, iyun, iyul, avqust”.

Daha sonra Öyrədən qış və payız aylarını da ritmik sıralamaya əlavə edir.

***Uğur göstəricisi:*** yay fəslinə aid ayları bilir.

***Mövzuya giriş***

**Öyrədən:**

**“Məndən soruşursunuz:**
**– De görək səhər-səhər**
**Nəyə bənzəyir Xəzər?**
**– Xəzər göyə bənzəyir, göy**
**Xəzərə bənzəyir.**
**Xəzər qızıl haşyəli göy məxmərə bənzəyir.**
**Hər qarışı üzümlü, əncirli qum təpələr,**
**Sahilin qulağına pıçıldayan ləpələr,**
**Çiçəklər, otlar üstə iməkləyən körpələr**
Hələ bəstələnməmiş nəğmələrə bənzəyir.

**Mən bilirəm, Xəzərin ürəyində nələr var,**
**Sularda avar çəkən qoca, gənc qayıqçılar,**
**Balıqlar dünyasına tor atan balıqçılar**
**Bəxtindən xeyli razı bəxtəvərə bənzəyir.**
**İtirmişəm sayını həftələrin, ayların,**
**Ətrafı seyr edirəm üstündən qayaların:**
**Mənim ayna Xəzərim, şair qağayıları**
Mahnı, şeir yazdığı bir dəftərə bənzəyir.

**Qayaların sinəsi sulardan oyuq-oyuq,**
**Xəzərə keşik çəkən sahildəki hər buruq**
**Babək ordusundakı saçları buruq-buruq,**
Yapıncısı qapqara bir əsgərə bənzəyir.

### Nitqin inkişafı: “Dəniz”

**Məqsəd:** uşaqlarda intelektual inkişaf etmiş şəxsiyyət formalaşdırın,onlara düşünmək və nəzarət etmək kimi bacarıqlarını aşılayın

Vəsaitlər: yaşıl, mavi və göy parça.

**Öyrədən:**

- Uşaqlar, pəncərədən baxın. İndi hansı fəsildir?
  - Doğrudur, yaz! Yazda təbiət oyanır, hər yer yaşıllaşır, ilk güllər bitir, quşlar özlərinə yuva qurur.
- Yazdan sonra hansı fəsil gəlir?
  - Doğrudur, yay. Yayda bir çox insanlar dənizdə üzmək, dəniz havasından həzz almaq və günəşdə isinmək üçün dəniz kənarına üz tuturlar.
- Uşaqlar, kim deyə bilər dəniz havadan asılı olaraq necə dəyişir? (uşaqların cavabları)
  - Günəşli günlərdə dəniz sakit, dalğasız olur.
  - Yüngül külək əsəndə dənizdə kiçik dalğalar əmələ gəlir.
  - Pis havada dəniz təlatümlü olur, böyük boz dalğalar sahilə çırpılır. Belə havada üzmək, açıq dənizə çıxmaq olmaz.

## İdman fasiləsi: "Dəniz"

Dəniz çox genişdir, (əlləri yana geniş açmaq)

Dəniz çox dərindir, (əyilmək və döşəməyə toxunmaq)

Orada balıqlar yaşayır, dostlar. ( balıq kimi üzmək)

**Öyrədən:**

- "Dənizin sahilində oturanda nə eşidirik? (küləyin səsini, ləpələrin döyüntüsünü, qağayıların səsini)
- Kim dənizdə olub əlini qaldırsın? Olanlar olmayanlara söyləsin dəniz necə olur.
- Dəniz haqqında necə gözəl hekayələrə qulaq asdıq. Hekayələrinizdən anladıq ki dəniz böyükdür, gözəldir, duzludur və siz orada üzəndə isti olub.

Uşaqlar, gəlin indi qrupumuz üçün bir dəniz düzəldək. Masanın üzərindəki yaşıl, göy, mavi parçaları görürsünüz? Təsəvvür edin ki, bu dənizin dalğalarıdır və onları döşəməyə dəniz şəklində düzün.

Görün nə gözəl dənizimiz alındı! Gəlin ona bir ad da qoyaq."

***Uğur göstəricisi:*** uşaqlarda intelektual inkişaf etmiş şəxsiyyət formalaşıb, düşünmək və nəzarət etmək kimi bacarıqlara malikdir.

## Hərəkətli oyun: "Dağlar, çaylar, göllər dənizlər"

**Məqsəd:** fiziki tapşırıqları komanda şəklində yerinə yetirməyi məşq etmək.

Uşaqların sayından asılı olaraq qrup iki yaxud üç komandaya bölünür.

**Öyrədən:** Uşaqlar, təsəvvür edin ki, qrup otağımız Azərbaycanın ərazisidir. Mən "Çay" deyəndə hər qrup bir çay olur, və qrup üzvləri bir-birinin ardınca yeriyərək otağımızda "axırlar".

Mən "Göl" deyəndə hər qrup bir dairə yaradır və dayanır.

Mən "Dəniz" deyəndə bütün uşaqlar əl-ələ tutub böyük bir dairə qurur, əllərini dalğavari tərpədib"dəniz" olurlar.

Mən "Dağ" deyəndə hər qrupun uşaqları bir-birinə qısılaraq hündür "dağ" əmələ gətirirlər."

Öyrədən tapşırıqları müxtəlif ardıcıllıqda verir.

## Rəsm "Dəniz"

**Məqsəd:** təxəyyülün inkişafını stimullaşdırmaq.

Vəsaitlər: kağız, boya, fırça, su ilə dolu qab, salfet.

**Öyrədən:**

- “Bu gün biz Xəzər dənizinə səyahət edəcəyik. Dəniz necədir? (uşaqların cavabları)
- Dənizin rəngi dəyişkəndir. Dənizin sərhədi yoxdur. Bir sahildə dayananda digər sahil görünmür, axı dənizlər
- böyük olur. Dəniz dalğalıdır.
- Təsəvvür edin ki, dənizin sahilində oturub onun gözəlliyindən həzz alırıq. Gəlin gördüyümüz və hiss etdiyimizi çəkək. Dənizi və dalğaları çəkmək üçün hansı boyalardan istifadə edəcəyik? (uşaqların cavabları)
- Əvvəlcə dənizimiz üçün seçdiyimiz rənglə vərəqimizi boyayaq (mavi, göy, yaşıl, boz).
- Biz artıq bilirik ki, dəniz sakit olmur. Ona görə də gərək dalğalar çəkək. Bunun üçün biz fırçaya daha tünd və ya daha açıq boya götürüb nəm kağızda xəttlər çəkə bilərik (yuxarı-aşağı).
- İndi isə işə başlayaq, uşaqlar. İş bitdikdən sonra sərgi keçirəcəyik!”

**Məqsəd:** təxəyyülünü yaşına uyğun istifadə edir.

## Sərbəst fəaliyyət: Sərbəst oyunlar.

## Yekun toplantı

**Öyrədən:** “Uşaqlar, sizinlə xəyalən hara səyahət etdik? Ən çox nəyi bəyəndiniz məşğələmizdə?”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Salam, uşaqlar! Gəlin əl və ayaqlarımızla salamlaşaq. Salam, sağ əl. Salam sol əl. Salam, sağ ayaq. Salam, sol ayaq.

***Təqvimlə iş***

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar, bu gün Xəzər dənizi haqqında öyrəndiklərimizi ümumiləşdirəcəyik. Xəzər dənizi deyəndə fikrinizə nə gəlir?

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** siqnala əsasən yerimə hərəkətləri yerinə yetirmək; topu atıb tutmaqda çalışmalar etmək.

***1-ci hissə:*** Uşaqlar əllərində lent dairə üzrə yeriyirlər. Öyrədən "Dalğa!" deyəndə hamı əllərindəki lenti dalğavari oynadaraq səpələng qaçırlar. Öyrədən "Dəniz sakitdir!" deyəndə uşaqlar dairəyə qayıdıb yeriməyə davam edirlər. Qaçış və yeriş bir neçə dəfə növbələnir.

***2-ci hissə:*** Lentlərlə ümumi inkişaf hərəkətləri.

1. Ayaqlar pəncə enində aralı, əllər aşağıda, hər iki əldə lent. Lentləri yanlardan yuxarı qaldırmaq, yelləmək.
2. Lentləri aşağı salmaq, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
3. Ayaqlar çiyin enində aralı, əllər çiyinlərdə, hər iki əldə lent. Sağa dönüb sağ qolu açmaq, ilkin vəziyyətə qayıtmaq. Eyni hərəkəti sol tərəfə təkrarlamaq. (hər tərəfə 3 dəfə)
4. Ayaqlar çiyin enində aralı, əllər beldə, hər iki əldə lent. Qabağa əyilib lentləri yelləmək. İlkin vəziyyətə qayıtmaq. (5-6 dəfə)
5. Ayaqlar pəncə enində aralı, qollar yanlarda, hər iki əldə lent. Lentləri irəli-geri yelləmək. İlkin vəziyyətə qayıtmaq.

***3-cü hissə:*** Əsas hərəkət növləri

- Uşaqlar topu yuxarı atıb iki əl ilə tuturlar.
- Uşaqlar iki qrupa bölünür və qarşı-qarşıya iki cərgədə düzülürlər (aradakı məsafə 3 metr olmalıdır).

Qarşı-qarşıya durmuş uşaqlar Öyrədənin siqnalı əsasında aşağıdan topu bir-birinə atırlar. (10-12 dəfə)

***Uğur göstəricisi:*** siqnala əsasən yerimə hərəkətləri yerinə yetirir; topu atıb tutmaqda çalışır.

## Hərəkətli oyun: «Dəniz dalğalanır»

Uşaqlar musiqinin (metallafonun) sədaları altında bir tərəfdən digər tərəfə tərpənirlər:

«Dəniz dalğalanır-bir, dəniz dalğalanır-iki, dəniz dalğalanır-üç. Don!». Sonuncu sözü eşitdikdə uşaqlar olduqları pozada dayanırlar və hərkət etmirlər. Öyrədən ən maraqlı pozada dayanmış uşaqlara özlərinə ad

qoymağı təklif edir. Ən çox bəyənilən ad sahibi növbəti aparıcı olur. Hər bir uşağın aparıcı olması üçün şərait yaradılır.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar

## Yekun toplantı

**Öyrədən:** Uşaqlar bu gün kim ən diqqətli idi? İndi yoxlayarıq. Bu günkü dərsimizin mövzusu nə idi? (uşaqların cavabları). Afərin!

## May | 30-cu həftə | Mövzu: Azərbaycan mədəniyyəti

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

Uşaqlar dairədə düzülürlər. Hər uşaq salamlaşmaq istədiyi yoldaşının adını çəkərək topu ona atır və salamlaşır. Oyun bütün uşaqlar salamlaşanadək davam edir.

***Təqvimlə iş***

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

**Məqsəd:** Uşaqlara rəngləri oyrətmək.

***Rəng Oyunu***

Uşaqlar dairədə əyləşir. Sinifinizdəki hər bir şagird üçün ən az üç ədəd fərqli kağız (dairə, üçbucaq, düzbucaqlı formada) hazırlayın (hər uşağa 1 qırmızı, hər şagirdə 1 sarı və s.). Öyrədən "qırmızı üçbucaq" deyir və uşaqlar həmin kartı öz kartlarının içindən seçib göstərməlidir. Daha sonra Öyrədən "yaşıl dairə" deyə səslənir. Uşaqlar yaşıl dairəni seçib göstərməlidir.

Qeyd 1: Uşaqlar ilə bu tapşırığı yerinə yetirmədən öncə formalar təkrar olunmalıdır.

Qeyd 2: Formalar üçün seçilən rənglər hər bir uşaq üçün eyni olmalıdır. Məsələn: Üçbucaq-sarı, Dairə-yaşıl, Düzbucaqlı-mavi, Dördbucaqlı-qırmızı.

***Uğur göstəricisi:*** Uşaqlara rəngləri oyrətmək.

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar, bu həftəmiz mədəniyyət və ənənələrimizə həsr olunub.Mədəniyyət və ənənə dedikdə nə başa düşürsünüz?

### Ətraf aləmlə tanışlıq: "Azərbaycanın mədəniyyəti"

**Məqsəd:** Azərbaycanın mədəniyyəti haqqında bilikləri möhkəmləndirmək.

**Öyrədən:** Uşaqlar, bizim qədim və zəngin mədəniyyətimiz var. Azərbaycanın müxtəlif bölgələrində aşkar olunmuş qayaüstü rəsmlər, müxtəlif sənət əşyaları bu diyarın mədəniyyətin beşiyi olmasına sübutdur.

(Öyrədən Qobustan qayaüstü rəsmlərinin təsviri olan şəkillər, yaxud video nümayiş etdirir)

Uşaqlar, bu təsvirlərdə nə görürsünüz? (uşaqların cavabları)

- Bu bizim əcdadlarımızın bizə qoyduğu ilkin mədəniyyət nümunələridir. Bunun kimi bir çox mədəniyyət nümunəsi bütün dünyada məşhur Qobustan Dövlət Tarixi və Bədii qoruğu ərazisində tapılıb.
- Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Tahir Salahov və digər gözəl rəssamlarımızın əsərləri dünyanın məşhur qalereyalarında nümayiş olunmaqdadır.
- Bizim Qız Qalası, Şəki Xan Sarayı, Şirvanşahlar sarayı, memar Əcəminin Naxçıvanda yaratdığı Möminə xatın və Yusif ibn Küseyir türbələri, Şuşadakı Pənahəli xanın sarayı, Natəvanın evi kimi gözəl memarlıq nümunələrimiz də var. Bəs bizim bölgədə (rayonda/ kənddə/ qəsəbədə) hansı memarlıq nümunələri var?
- Hamımız evimizdə xalça istifadə edirik. Bəs ailə üzvlərinizdən kim xalça toxuya bilir? (uşaqların cavabları)

- Xalçaçılıq bizim mədəniyyətin ən gözəl, incə sahələrindən biridir. Əsrlərlə yaşadılan, nəsildən-nəslə ötürülən bu sahə öz rəngarəngliyi ilə göz oxşayır. Bəs siz bilirsiniz ki, Azərbaycanın hər guşəsinin özünəməxsus xalça naxışı var? Bizim diyarın xüsusi naxışı hansıdır? (uşaqların cavablarından sonra Öyrədən bölgəyə məxsus naxışlarla əyani, yaxud şəkillər vasitəsiə tanış edir uşaqları)
- Azərbaycanı dünyada məşhur edən daha bir amil bizim təkrarolunmaz muğamımızdır. Yatanda kimin anası ona layla oxuyur?
- Bilin ki, layla da muğam üzərində oxunur. Biz gözümüzü açandan bu gözəl musiqi nümunəsinin sədaları altında böyüyürük. Gəlin bir parça muğam dinləyək.
- Ailənizdə muğamı ən çox kim sevir?
- Uşaqlar, mədəniyyətimiz bizim bir parçamızdır. Dünyanın hansı yerində olursa olsun biz onu özümüzlə daşıyırıq. Ona görə onu sevib qorumalıyıq.

## "Teatr"

**Məqsəd:** Uşaqları teatrla tanış emək, teatr peşələrinə, teatr mədəniyyətinə uşaqların marağını yaratmaq.

- Necə düşünürsünüz, uşaqlar, teatr nədir? Kimsə teatrda olubmu? Bəli, teatr tamaşaların nümayiş olunduğu, musiqinin səsləndiyi, şeirlər oxunan gözəl bir yerdir. Orada rəqs edirlər və mahnı oxuyurlar. Teatrda siz həm gülə, həm də ağlaya bilərsiniz.
- Teatrda nə olur? – (Səhnə, auditoriya, geyim otağı)
- Teatrda kimlər işləyir? ( aktyer, rejissyor, dərzi, işıqçı)

1) Aktyorlar müxtəlif rolları ifa edirlər. Onlar kostyum geyinirlər, bəzən isə maska taxırlar.
2) Teatrda rejissor var. O tamaşaları hazırlayır.
3) Dərzi( kostyumer) –kostyumları tikir.
4) İşıqçı- səhnəni işıqlandırır. Teatrla bağlı bir çox peşə var.
5) Tamaşalara baxmağa gələnlər isə - tamaşaçılardır. Onlar auditoriyada əyləşirlər.

Teatrın öz qaydaları var: tamaşaçılar tamaşaya sakit baxmalıdırlar, sənətçilərə və digər tamaşaçılara mane olmamalıdırlar.

Bu həftə biz sizinlə teatr oyunu oynayacağıq: "Qoğal" tamaşasının səhnəsini qoyaq. Mən rejissyor olacam, sizlərdən bir hissəniz sənətçi, digər hissə isə tamaşaçı olacaq. Rolları sonra dəyişmək də olar.

Gəlin əvvəlcə xatırlayaq, "Qoğal" nağılında hansı qəhrəmanlar var? (nənə, baba, qoğal, dovşan, ayı, qurd,tülkü)

Qəhrəmanları necə təsvir edə bilərik? Nənəyə yaylıq taxmaq olar, babaya papaq, digərlərinə isə maska düzəltmək lazımdı. Bu gün biz bununla məşğul olacağıq.

***Uğur göstəricisi:*** Azərbaycanın mədəniyyəti haqqında bilikləri var. Uşaqlar teatrla tanışdır, teatr peşələrinə, teatr mədəniyyətinə uşaqların marağı var.

## Hərəkətli oyun: Qaval daşı

**Öyrədən:** "Uşaqlar, bilirsiniz Qobustanda yekə, lap yekə bir daş var- ona Qaval daşı deyirlər. Çox qədim zamanlarda insanlar onu musiqi aləti kimi istifadə edirdilər. İndi biz də qədim insanlara çevrilib öz qaval daşlarımızda çalacağıq. "

Uşaqlar iki qrupa bölünürlər. Hər qrup yarımdairə şəklində dizləri üstündə yerdə oturur. Hər uşağın (yaxud iki uşağın) qarşısında bir stul - qaval daşı - olur. Otağın digər tərəfində hər qrup üçün bir stul qoyulur. Hər qrupdan bir uşaq irəli çıxıb qaçışa hazırlaşır. Öyrədənin işarəsi ilə uşaqlar qaval daşlarını əlləri ilə çalmağa

başlayırlar. İrəli çıxmış uşaqlar qaçıb otağın digər tərəfində qoyulmuş stulların başına fırlanıb geri qayıtmalıdırlar. Qayıdan uşaq yerinə oturur və qaval daşını çalmağa qoşulur, növbəti yoldaş qaçışa başlayır. Hansı qrupda ən tez bütün uşaqlar qaçıb geri qayıdarlarsa o qrup qalib hesab olunur.

## Rəsm: «Milli ornamentli küpə». Pambıq çubuqlarla rəsm.

**Məqsəd:** uşaqlara bildikləri qrafik xəttlərdən (düz, dalğalı,spiral) istifadə edərək naxış düzəltməyi öyrətmək.

Vəsaitlər:  öncədən çəkilmiş küpə siluetləri, müxtəlif milli naxışlı küpə rəsmləri, qayçı, sulu boya, pambıq çubuqlar, su ilə dolu qab, salfet.

**Öyrədən:** Uşaqlar, küpə, burnu və qulpu olan, su üçün qabdır. Çaydana oxşayır, amma daha uzun olur. Küpəni adətən gildən, şüşədən və ya plastikdən hazırlayırlar. Biz bu gün küpələri gözəl naxışlarla bəzəyəcəyik.

- Öyrədən öz hazırladığı nümunəni və hazır şəkilləri nümayiş etdirir.
- Uşaqlar qayçı ilə vərəqlərdən küpələri kəsirlər.
- Uşaqlara xatırladılır ki, hər rəng üçün ayrıca pambıq çubuq var, ona görə rəngləri qarışdırmamağa diqqət etsinlər.
- Qeyd olunur ki, naxışların səliqəli alınması üçün pambıq çubuqlar tam dik - düz bucaq altında - tutulmalıdır.

***Uğur göstəricisi:*** uşaqlara bildikləri qrafik xəttlərdən (düz, dalğalı,spiral) istifadə edərək naxış düzəltməyi bacarır.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar.

## Yekun toplantı

**Öyrədən:** Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Evdə məşğələmizlə bağlı nə danışacaqsınız? Hər birinizə afərin!

# 2-ci gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Salam, uşaqlar! Uşaqlar gün ərzində xoş əhval-ruhiyyədə olmaq üçün gəlin əl-ələ tutaq və bir-birimizə gülümsəyərək birlikdə - Sabahın xeyir!- deyək.

***Təqvimlə iş***

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

**Məqsəd:** Uşaqları rəngləri oyrətmək.

***"Rəng ayağa qalx" oynayın***

Uşaqların hər birinə 1 ədəd rəngli kağız paylanılır. Uşaqlar yerdə əyləşir, Öyrədən isə oturacaqda. Öyrədən hər hansı bir rəngi deyir (Məsələn: qırmızı) və bu rəngi tutan uşaq və ya uşaqlar tez ayağa qalxmalı, tullanmalı və sonra oturmalıdırlar. Qeyd: Öyrədən bu oyunu aramla başlamalı, daha sonra rəngləri ard-arda sürətlə deyərək davam etməlidir.

***Uğur göstəricisi:*** Uşaqlara rəngləri oyrətmək

***Mövzuya giriş***

Öyrədən Əlavə 7-də verilən rəsmləri masanın üzərinə qarışıq (sıra ilə olmayan) düzür. Uşaqlardan gün başlayarkən ilk həyata keçirdiyi fəaliyyəti soruşur, bu fəaliyyəti rəsmlər arasında tapıb lövhədən asmalarını xahiş edir.

**Öyrədən:** "Uşaqlar, xatırlayırsınızsa biz sizin ilə gün ərzində etdiyimiz hərəkətləri sıra ilə danışmışdıq. Bu gün isə biz həmin hərəkətlərin və ya işlərin günün hansı hissəsində edildiyini müzakirə edəcəyik."

***Riyaziyyat: Günün hissələri. Əlavə 7-də***

**Məqsəd:** Uşaqların günün hissələri haqqında olan biliklərini üzə çıxarmaq və möhkəmləndirmək.

Vəsaitlər: dairə (diametri 10 sm), üçbucaq (tərəfinin uzunluğu 10sm), kartondan düzəldilmiş 2 bərabər uzunluqda "buz" zolaq (birinin eni 30 sm, digərinin eni 15 sm).

Uşaqlar Öyrədənlə birlikdə pəncərəyə yaxınlaşırlar və çöldə gördüklərini təsvir edirlər (göyün üzü aydın və mavidir, günəş işıq saçır, küçə işıqlıdır və s.). **Öyrədən:**

- "Uşaqlar, Biz nə vaxt oyanırıq?
- Səhər təbiətdə nə baş verir?
- Səhərlər siz nə edirsiniz?
- Sizcə biz səhəri hansı rənglə işarə edə bilərik? (mavi, boz, sarı)
- Bəs səhərdən sonra nə gəlir?
- Günorta siz nə müşahidə edirsiniz?
- Günorta uşaqlar nə edir?
- Deyin görüm, günortanı hansı rənglə göstərək? (narıncı, sarı, ağ)
- Bəs günorta bitəndə səma necə dəyişir? Günortadan sonra nə gəlir?
- Axşamlar siz və ailə üzvləriniz nə ilə məşğul olursuz?
- Axşamı necə qeyd edə bilərik? (bənövşəyi, tünd göy)
- Bəs uşaqlar səmada ulduzlar görünəndə və biz çarpayımızda olanda günün hansı hissəsi olur?

- Gecəmiz hansı rəngə boyanır? (qara, tünd göy)”

Öyrədən uşaqlara günün hissələrini təsvir edən şəkillər göstərir.

Uşaqlar günün müxtəlif hissələrinə aid fəaliyyətlərini bir daha xatırlayırlar.

Hamı birlikdə günün hissələrini ardıcıllıqla sayır.

### *1. Didaktik oyun: “Cümləni tamamla”*

Öyrədən günün hissələri ilə bağlı cümləni başlayır, uşaqlar cümləni tamamlayırlar.

Səhər  yeməyini səhər, şam yeməyini isə (axşam) yeyirik.

Gecə yatırıq, oyanırıq (səhər).

Günorta nahar edirik, səhər yeməyini isə yeyirik (səhər).

Günəş günorta işıq saçır, ay isə (gecə).

Şam edirik axşamlar, nahar isə edirik (günorta).

### *2. Didaktik oyun: “Günün hissələrinin adını deyin”*

Öyrədən günün hər hansı bir hissəsinin adını deyir, uşaqlar isə digərlərini müvafiq ardıcıllıqla deməyə davam edirlər.

Məsələn:

Ö:- günorta, U:- axşam, gecə, səhər.

Ö:- gecə, U:- səhər, günorta, axşam.

## Fiziki hərəkətlər

**Məqsəd:** Öyrədənin işarəsi əsasında tapşırıq yerinə yetirmək; isveç divarında tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığının  inkişaf etdirilməsi.

***1-ci hissə.*** Öyrədən qavalı yavaşca tərpədir, uşaqlar bir cərgə ilə dairə üzrə yeriyirlər.  Öyrədən qavalın səsini artırdıqca uşaqlar daha sürətlə yeriməyə başlayır və sonra qaçışa keçirlər. Öyrədən qavalın səsini zəiflədir, uşaqlar da sürəti aşağı salırlar və tədricən yavaş yerişə keçirlər.

***2-ci hissə:*** Ümumi inkişaf məşqləri.

- Ayaqlar aralı, qollar dirsəkdən bükülü sinə səviyyəsində, əllər yumruq şəklində. Qolları yanlara açmaq, əlləri açmaq. Əlləri bükmək, qolları qatlamaq, ilkin vəziyyətə qayıtmaq. (5 dəfə)
- Ayaqlar azca aralı, əllər arxada. Sallağı oturmaq, əlləri irəli uzatmaq; qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)
- Ayaqlar aralı oturmaq, əllər beldə. Qabağa əyilmək, barmaqlarla döşəməyə toxunmaq. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
- Ayaqlar azca aralı, əllər yanda. Yerində tullanmaqla yerişi növbələmək.

***3-cü hissə:*** Əsas hərəkət növləri – isveç divarında məşqlər.

- Uşaq müstəqil şəkildə, lakin nəzarət altında bir neçə dəfə nərdivana qalxıb enir.
- Arxası nərdivana dayanmaq, başdan yuxarıdan olan dayaqdan tutub sallanmaq, ayaqları yanlara açmaq.
- İlkin vəziyyətə qayıtmaq.

- Arxası nərdivana dayanmaq, başdan yuxarıda olan dayaqdan tutub sallanmaq, ayaqları qabağa qaldırıb düzbucaq altında saxlamaq.
- İlkin vəziyyətə qayıtmaq.

***Uğur göstəricisi:*** Öyrədənin işarəsi əsasında tapşırığı yerinə yetirir; İsveç divarında tapşırıq yerinə yetirərkən tarazlığı saxlamağı bacarır.

## Hərəkətli oyun: "Tülkü və qoğal"

**Məqsəd:** Uşaqları qaçışda məşq etdirmək, qrupda işləmə bacarığını inkişaf etdirmək.

Öyrədən ("tülkü") oturub (yatır), uşaqlar ("qoğallar") "meşədə" topla yavaşca ora-bura qaçırlar. Birdən tülkü oyanır, ayağa durur. Uşaqlar bir yer tapıb qoğalı gizlətməlidirlər. Oyun tülkü qoğalı tapana kimi davam edir. Oyun 3 – 4 dəfə təkrarlanır. Obrazları dəyişmək olar: qurd, ayı...

***Uğur göstəricisi:*** Qrupda işləmə bacarığına malikdir

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar.

## Yekun toplantı

**Öyrədən:** Uşaqlar, gün necə keçdi? Ən çox nə xoşunuza gəldi?

# 3-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Salam, uşaqlar! Hər birinizə xoş gün arzu edirəm! Siz mənə nə arzu edirsiniz?

***Təqvimlə iş***

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

**Məqsəd:** Uşaqlara rəngləri öyrətmək.

***"Posterlərdə Rənglərə Toxun" oyununu oynayın.***

Sinif otağınızın divarlarında çoxlu rəngli plakatlar varsa, bu, əla fəaliyyətdir. Öyrədən hər hansı bir rəngi deyir (Məsələn: qırmızı). Öyrədən dediyi rəngi uşaqlar sinifdə tapmalı və qaçaraq əllərini həmin rəngə vurmalıdır. Öyrədən dediyi rəngi sinifdə tapa bilməyən uşaq dairədə əyləşir. Qalan uşaqlar oyuna davam edir.

***Uğur göstəricisi:*** Uşaqlara rəngləri öyrətmək

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar, bu gün biz qədim ənənələrə malik Azərbaycan mətbəxindən danışacağıq. Sizin milli mətbəximizdən ən çox sevdiyiniz yemək hansıdır?

## Nitq inkişafı: Azərbaycan mətbəxi

**Məqsəd:** Milli mətbəx haqqında bilikləri üzə çıxarmaq və möhkəmləndirmək.

**Öyrədən:** Uşaqlar, siz bilirsiniz ki, dünyanın ən zəngin mətbəxi olan ölkələrindən birində yaşayırıq?! Azərbaycanın rəngarəng təbiəti il boyu mətbəximizdə bir-birindən fərqli qida məhsulları - ət, dəniz məhsulları, meyvə, tərəvəz və digər nemətlər istifadə etməyə imkan yaradır.

- Sizin evinizə uzaq-uzaq ölkələrdən qonaqlar gəlsə siz onlar üçün nə bişirərsiniz? (uşaqların cavabları)
    - Afərin sizə! Azərbaycanımız dünyada ləziz dolması, ətirli plovu, növbənöv xəmir xörəkləri və əlbəttə ki, dadı damaqda qalan şirniyyatları ilə məşhurdur.
- Bəs deyin görüm, siz qonaqlarınıza çay ilə hansı şirniyyatlar təklif edərsiniz? (uşaqların cavabları)
    - Paxlava, şəkərbura, badambura, müxtəlif növ halvalar və digər şirniyyatlarımız istənilən çay süfrəsinin bəzəyidir. Xatırlayırsınız bu şirniyyatları daha çox hansı bayramda hazırlayırıq?
- Uşaqlar, bəs bizim çay süfrəmizin xüsusi elementini kim deyər mənə? (uşaqların cavabları)
    - Bizim çay süfrəmizi fərqli edən amillərdən biri də incə belli armudu stəkanlardır. (Öyrədən armudu stəkanı nümayiş etdirir)
- Sizcə bu stəkanların adı niyə armudu stəkandır? (uşaqların cavabları)
    - Uşaqlar, bizim süfrəmiz və mətbəx mədəniyyətimizdə çörəyin xüsusi yeri var. Çörək ruzi-bərəkət rəmzidir. Buna görə çörəyə hörmətlə yanaşmaq və onun qədrini bilmək lazımdır. Azərbaycanda çörək hazırlamağın da xüsusi ənənəsi var.
- Təndir nədir?
- Kimin həyətində təndir var?
- Kim evdə yemək hazırlayarkən, çörək bişirərkən ailə üzvlərinə kömək edir?

Afərin sizə, uşaqlar!

***Uğur göstəricisi:*** Milli mətbəx haqqında biliklərə malikdir.

## Hərəkətli oyun: Qaval daşı

**Öyrədən:** Uşaqlar, bilirsiniz Qobustanda  yekə, lap yekə bir daş var- ona Qaval daşı deyirlər. Çox qədim zamanlarda insanlar onu musiqi aləti kimi istifadə edirdilər. İndi biz də qədim insanlara çevrilib öz qaval daşlarımızda çalacağıq.

Uşaqlar iki qrupa bölünürlər. Hər qrup yarımdairə şəklində dizləri üstündə yerdə oturur. Hər uşağın (yaxud iki uşağın) qarşısında bir stul-qaval daşı- olur. Otağın digər tərəfində hər qrup üçün bir stul qoyulur. Hər qrupdan bir uşaq irəli çıxıb qaçışa hazırlaşır. Öyrədənin işarəsi ilə uşaqlar qaval daşlarını əlləri ilə çalmağa başlayırlar. İrəli çıxmış uşaqlar qaçıb otağın digər tərəfində qoyulmuş stulların başına fırlanıb geri qayıtmalıdırlar. Qayıdan uşaq yerinə oturur və qaval daşını çalmağa qoşulur, növbəti yoldaş qaçışa başlayır. Hansı qrupda ən tez bütün uşaqlar qaçıb geri qayıdarlarsa o qrup qalib hesab olunur.

## Yapma: ”Armudu  stəkan”

**Məqsəd:** yayma, basma və hamarlama üsullarından istifadə edərək armudu stəkan düzəltməyi öyrətmək (bir parça plastilindən).

Vəsaitlər: plastilin, armudu stəkan, nümunə əl işi.

**Öyrədən:** Uşaqlar, plastilini hazırlayaq. Kürə yuvarlayaq. Kürəni masanın üzərinə qoyub ovucumuzla onu irəli-geri hərəkət etdirərək azca uzunsov forma verək. Xəyalən bu kütləni iki eyni hissəyə bölək: işimizi asanlaşdırmaq üçün fikrimizdəki bölgünü plastilinin üzərində kiçik cizgi ilə qeyd edək. Bu cizginin üstündən baş və şəhadət barmağımızla hər tərəfdən basaraq stəkanımızın boğazını nazildirik. Nazilmiş boğazdan bir tərəfə olan hissə yumru qalacaq, digər tərəfi isə uc tərəfindən basaraq konus şəklinə gətirək. Həmin uc hissənin kənarlarını yüngülcə dartıb dikəldək, ortasını isə içəri basıb çuxur əmələ gətirək. Düzəltdiyimiz formanı hamarlayaq, səliqəyə salaq. Bizim armudu stəkanımız hazırdır. Çay içə bilərik!

Öyrədən dediklərini nümayiş etdirir, ehtiyac yaranarsa uşaqlara kömək edir.

***Uğur göstəricisi:*** yayma, basma və hamarlama üsullarından istifadə edərək armudu stəkan düzəltməyi bacarır (bir parça plastilindən).

## Sərbəst fəaliyyət: Sərbəst rəsm.

## Yekun toplantı

**Öyrədən:** Uşaqlar, bu gün siz çox çalışdınız! Afərin sizə! Məşğələmizin ən çox bəyəndiyiniz hissəsi hansı oldu?”

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! Bu gün hər birimiz Azərbaycanın bir şəhərinin (bölgəsinin) dilindən qrupumuzu salamlayacağıq. Mən sizə Şuşadan (Gəncədən, Qubadan və s.) salam gətirmişəm." Uşaqlar salamlaşmanı bu qayda ilə davam edirlər. Adı çəkilən yerləri xəritədə Öyrədən göstərir.

***Təqvimlə iş***

Ay,ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

***Mövzuya giriş***

Öyrədən uşaqlara hər hansı bir hekayəni səhnələşdirməyi təklif edə bilər.

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər

**Məqsəd:** Öyrədənin işarəsi əsasında tapşırıq yerinə yetirmək; isveç divarında tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığının inkişaf etdirilməsi.

***1-ci hissə.*** Öyrədən qavalı yavaşca tərpədir, uşaqlar bir cərgə ilə dairə üzrə yeriyirlər. Öyrədən qavalın səsini artırdıqca uşaqlar daha sürətlə yeriməyə başlayır və sonra qaçışa keçirlər. Öyrədən qavalın səsini zəiflədir, uşaqlar da sürəti aşağı salırlar və tədricən yavaş yerişə keçirlər.

***2-ci hissə:*** Ümumi inkişaf məşqləri.

- Ayaqlar aralı, qollar dirsəkdən bükülü sinə səviyyəsində, əllər yumruq şəklində. Qolları yanlara açmaq, əlləri açmaq. Əlləri bükmək, qolları qatlamaq, ilkin vəziyyətə qayıtmaq. (5 dəfə)
- Ayaqlar azca aralı, əllər arxada. Sallağı oturmaq, əlləri irəli uzatmaq; qalxmaq, ilkin vəziyyətə qayıtmaq. (4-5 dəfə)
- Ayaqlar aralı oturmaq, əllər beldə. Qabağa əyilmək, barmaqlarla döşəməyə toxunmaq. Dikəlmək, ilkin vəziyyətə qayıtmaq. (4 dəfə)
- Ayaqlar azca aralı, əllər yanda. Yerində tullanmaqla yerişi növbələmək.

***3-cü hissə:*** Əsas hərəkət növləri-isveç divarında məşqlər.

- Uşaq müstəqil şəkildə, lakin nəzarət altında bir neçə dəfə nərdivana qalxıb enir.
- Arxası nərdivana dayanmaq, başdan yuxarıdan olan dayaqdan tutub sallanmaq, ayaqları yanlara açmaq. İlkin vəziyyətə qayıtmaq.
- Arxası nərdivana dayanmaq, başdan yuxarıdan olan dayaqdan tutub sallanmaq, ayaqları qabağa qaldırıb düz bucaq altında saxlamaq. İlkin vəziyyətə qayıtmaq.

***Uğur göstəricisi:*** Öyrədənin işarəsi əsasında tapşırıq yerinə yetirmək; isveç divarında tapşırıq yerinə yetirərkən tarazlığı saxlamaq bacarığının inkişaf etdirilməsi.

## Səsli nağıl zamanı

***Eynək***

**Link:** https://youtu.be/mKRbbitwy_o

**Qeyd:** Səsli nağıla keçid üçün QR kodu skan edin. Əgər icma otağında izləmək mümkün deyilsə, bu videonu (linki) valideynlərə göndərərək uşaqların evdə izləməsini təmin edin.

**Qeyd 2:** Aşağıdakı suallar nümunədir və onların cavabı nağılda öz əksini tapır. Nağılı öncədən izləyin və əlavə suallar hazırlayın. Əgər nağılı valideynə göndərərsinizsə, sualları da göndərin.

***Uşaqlara suallar***

1. Mahmud nəyə görə eynək almaq istədi?
2. Eynəklər ona kitab oxumaqda kömək etdi?
3. Eynək satan necə başa düşdü ki, Mahmud oxumağı bacarmır?
4. Eynək satan Mahmuda nə məsləhət gördü? Nəyin yolunu göstərdi?

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar.

## Yekun toplantı

**Öyrədən:** Uşaqlar, istirahət günlərini necə keçirəcəksiniz? Bu həftə keçdiklərimizdən bacınıza, qardaşınıza nə öyrədə bilərsiniz?

Öyrədən hər uşaq haqqında xoş bir söz deyir və sağollaşır.

# May | 31-ci həftə | Mövzu: Biz böyüdük!

## 1-ci gün

### Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** "Sabahınız xeyir, uşaqlar! İstirahət günlərinizi necə keçirdiniz?

***Təqvimlə iş***

Ay,ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

***Oyun: "Fəsillərin adları oyunu"***

Uşaqlar 4 qrupa bölünür. Hər qrupa bir fəsil adı verilir. Qruplar sinifin müxtəlif guşələrinaı yerləşdirilir. Öyrədən sinifdə iştirak edən valideynlərdən birini oyunda lider rolunda çıxış etmək üçün dəvət edir. Öyrədən hər qrupa sıra ilə öz fəsilləri haqqında məlumat verməyə icazə verir. Birinci qrup, 2-ci, 3-cu, sonra 4 cü qrup. Valideyn bu deyilənlər əsasında qrupların hansı fəslə aid olduğunu tapmalıdır. Əgər valideyn qrupların hansı fəslə aid olduğunu tapa bilmirsə bu zaman qruplar öz fəsillərinə dair daha bir cümlə deməlidir.

***Mövzuya giriş***

**Öyrədən:**

"Uşaqlar, bu gün il ərzində necə böyüdüyünüz haqqında danışacağıq."

Barmaq oyunu: "Böyüdük"

1,2,3,4,5, (barmaqlar baş barmaqdan başlayaraq açılır)

Gələndə kiçik idik,

5,4,3,2,1, (barmaqlar çeçələ barmaqdan başlayaraq yumulur)

İl ərzində böyüdük,

1,2,3,4,5, (barmaqlar baş barmaqdan başlayaraq açılır)

Öyrəndik, həm oynadıq,

5,4,3,2,1, (barmaqlar çeçələ barmaqdan başlayaraq yumulur)

Yeni dostlar qazandıq.

Ətraf aləmlə tanışlıq: «Budur biz böyüdük!»

**Məqsəd:** Uşaqlarda böyümə anlayışını möhkəmləndirmək.

***Hissə 1. Giriş***

**Öyrədən:** Uşaqlar, bütün insanlar müxtəlifdir. Hər biriniz təkrarolunmazsınız. Bizim böyük yer kürəsinin heç bir yerində eyni olan qız və ya oğlan yoxdur. Amma bizim oxşar cəhətlərimiz də var. Bunlar nələrdir? (dırnaqlar, barmaqlar, əllər, ayaqlar, baş, gözlər, qulaqlar və s.)

Siz dünyaya göz açanda bədəniniz bir çox hərəkətləri yerinə yetirə bilmirdi: siz oturmağı, durmağı, yeriməyi, hətta əlinizdə oyuncağı belə saxlamağı bacarmırdınız. Amma siz böyüdünüz və köməksiz kiçik uşaqlardan güclü və bacarıqlı uşaqlara çevrildiniz. Siz böyüyəndə bundan da çox bacaracarıqlı olacaqsınız.

İndi sizin bədəniniz hərəkətlidir, uyumludur. Siz öz bədəninizi qaçarkən, tullanarkən, rəsm çəkərkən idarə edə bilirsiniz. Sağlam həyat tərzinə, təliminizə və təhsilinizə məsuliyyətlə yanaşsanız böyük və ağıllı vətəndaşlara çevriləcəksiniz.

## İdman fasiləsi: Praktik çalışmalar – atlanmaq, çömbəlmək, əyilmək və s.

Uşaqlar, bəs deyin görüm bu il ərzində siz nə öyrəndiniz?"

***Hissə 2.*** Ölç və müqayisə et.

Uşaqlar yadınızda biz ilin əvvəlində əllərimizin ölçülərini kəsib divara yapışdırmışdıq. İndi isə gəlin bu tapşırığı

***Uğur göstəricisi:*** Böyümə anlayışını bilir.

## Hərəkətli oyun: "Böcəklər və quş"

**Məqsəd:** siqnala əsasən tapşırıqları yerinə yetirməyi və sürünməyi məşq etmək.

"Quş" uşaq yuvada (stulda) oturur. Bütün başqa uşaqlar böcəklərdir.

**Öyrədən:**

Baxın otun üzərində necə çevik böcəklər sürünür. (uşaqlar otaqda sürünürlər)

Beliniz üstə uzanın və ayaqlarınızla hərəkət edin. Qanadlarınızı yelləyin. (ayağa qalxıb əllərini yelləyirlər)

Tullanın. (yerlərində tullanırlar)

Quş!(böcək-uşaqlar yerlərinə qaçırlar ki, quş onları tutmasın)

"Quş" kimi tutsa öz "yuvasına" aparır. Oyun təkrarlanır. "Quş" roluna başqa uşaq seçilir.

***Uğur göstəricisi:*** siqnala əsasən tapşırıqları yerinə yetirməyi və sürünməyi bacarır.

## Yapma: Sərbəst iş

**Məqsəd:** uşaqlara müstəqil şəkildə seçim etməyi, başladıqları işi sona yetirməyi öyrətmək.

- Öyrədən uşaqlara plastilindən nə düzəltmək istədiklərini fikirləşmək üçün vaxt verir.
- Uşaqlar qərar verdikdən sonra tərbiyəçi bunun üçün hansı üsullardan (yaymaq, yuvarlamaq, basmaq, hamarlamaq və s.) istifadə edəcəkləri haqqında suallar verir.
- Uşaqlar işə balayır.
- Uşaqlar rəğbətləndirilir və əl işləri sərgilənir.

***Uğur göstəricisi:*** uşaqlara müstəqil şəkildə seçim edir, başladıqları işi sona yetirir.

## Sərbəst fəaliyyət: Uşaqların seçimi əsasında oyunlar.

## Yekun toplantı

**Öyrədən:** Bu gün yeni nə öyrəndiniz? Ən çox nə xoşunuza gəldi? Hər birinizə afərin!

# 2-ci gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** Uşaqlar, sabahınız xeyir! Mən sizə hər birinizə günümüz kimi günəşli, parlaq əhval ruhiyyə arzu edirəm.

### *Təqvimlə iş*

Ay, ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

### *Rəng Oyunu.*

Öyrədən uşaqlar ilə həyətyani sahədə zəmində təbaşir ilə böyük bir dairə çəkir və tələbələrə dairədən kənara çıxmalarını deyir. Öyrədən müxtəlif komandalar vasitəsi il uşaqları gah dairənin mərkəzinə, gah da dairənin kənarına dəvət edir.

**Öyrədən:** Mən mavini sevirəm deyəndə əlində mavi rəngli kartı olan şagird dairənin daxilinə daxil olmalıdır.

### *Mövzuya giriş*

**Öyrədən:** Uşaqlar, bilirsiz indi hansı dərsdir? Bəli, bu bizim son dərsimizdir. Biz indi sizin ilə maraqlı oyunlar oynayacayıq.

## Riyaziyyat: Təkrar. Riyazi oyunlar.

**Məqsəd:** il ərzində öyrənilmiş bəzi riyazi anlayışların təkrar edilərək möhkəmləndirilməsi.

Vəsaitlər: maraqlı çanta, müxtəlif rəngli kub və kiçik toplar, darvaza və ya darvaza əvəzi yastıqlar.

**Öyrədən:**

- “Uşaqlar, görün bu gün sizə nə gətirmişəm? (maraqlı çanta).
- Bəli, mənim maraqlı çantam var və onun içərisində müxtəlif əşyalar var. Bilmək istəyirsiniz orada nə var? (bəli)
- Çalışın toxunaraq tapın. Sizcə orada nə var? (uşaqların cavabları)
- Bu nədir? (top)
- O nə rəngdədir? (yaşıl).
- Düzdür, afərin! İndi isə Ləman bizə bir ədəd də top çıxaracaq.
- Onlar nə rəngdədir? (mavi).
- Kiçik toplarla nə etmək olar? (diyirlətmək)
- Kim diyirlətmək istəyir? (bir neçə uşaq diyirlətməyə çalışır)

## Oyun: «Darvaza»

Uşaqlar, gəlin yoxlayaq baxaq darvazaya daha tez hansı əşya diyirlənəcək: kub, yoxsa top? ”

Oyunun keçirilməsi üçün darvaza qoyulur və ya yastıqlardan darvaza hazırlanır. Öyrədən bir uşağa kiçik top verir, digər uşağa isə eyni ölçülü kub verir. Əşyalaraı darvazaya diyirlətmək lazımdır.

**Öyrədən:**

- “Darvazaya daha cəld nə çatdı? (uşaqların cavabları)
- Yəqin yoldaşınız onu güclü itələyib. Gəlin daha bir cütlük sınasın.

- Uşaqlar yenə də eyni nəticə alındı. Sizcə niyə belə olur? Topla kubun fərqi nədir? (uşaqların cavabları)

Doğrudur, uşaqlar, kubun bucaqları var , top isə hamardır, bucaqları yoxdur. Buna görə topa diyirlənməyə heç nə mane olmur. Bundan sonra bu top formasına biz kürə deyəcəyik. İndi kim mənə təkrar edər, kubla kürənin fərqi nədir?

## Didaktik oyun «Qrupumuzda hansı əşyalar var»

Uşaqlar ətrafa baxın. Qrupumuzun hər tərəfinə baxın və gördüyünüz kürəyə bənzər bütün əşyaların adlarını deyin.

## Didaktik oyun «Özünə dost tap»

İndi hər biriniz bizim maraqlı çantamızdan bir əşya çıxarın. Əsəd səndə nə var? O nə rəngdədir? (hər uşaqdan soruşulur)

İndi isə hamı bir yerə toplansın, mən "qaçın" deyəndə siz qaçırsınız və əlində sizin əlinizdəki ilə eyni formada əşya olan yoldaşlarınızla qrup yaradırsınız.

İlahə səndə top var, o kürə formasındadır. Deməli, sən əlində top olan uşağı axtarmalısan. Aydındır? "

Oyun 2-3 dəfə təkrarlanır. Hər dəfə təkrarlananda uşaqların hansı şərtlə qruplşmalı olduqları dəqiqləşdirilir (əşyanın rənginə formasına və ya ölçüsünə görə).

**Məqsəd:** il ərzində öyrənilmiş bəzi riyazi anlayışlar (dərs ərəfəsində nəzərə alınan) haqqında biliyi var.

## Fiziki hərəkətlər: "Bax belə güclü olduq!"

Qeyd: Uşaqlarının nə öyrəndiyinə şahid olmaq üçün valideynləri çağıra bilərsiniz

**Məqsəd:** il ərzində öyrənilmiş bütün növ hərəkətlərin möhkəmləndirilməsi.

**Öyrədən:** Uşaqlar, bir il ərzində biz çox şey öyrəndik, güclü olduq! Gəlin bacardıqlarımızı göstərək!

Dairə üzrə yerimək və qaçmaq:

- Tərbiyəçi qavala vurur- uşaqlar dairə üzrə gəzirlər
- Tərbiyəçi qavala asta vurur-uşaqlar barmaqlarının ucunda qaçırlar
- Tərbiyəçi möhkəm vurur-uşaqlar cəld qaçırlar
- Tərbiyəçi qavala daha möhkəm vuranda uşaqlar dayanır, çevrilir, və əks istiqamətdə qaçırlar.
- Sürünmək:
    - Tərbiyəçinin siqnalı ilə uşaqlar dairə üzrə sürünürlər.
- Top diyirlətmək:
    - Uşaqlar iki komandaya bölünür, aralarındakı məsafə 2 metr olmaq şərti ilə qarşı-qarşıya otururlar. Ayaqları aralı qoyulur. Hər komandaya bir top verilir və Öyrədənin siqnalı ilə uşaqlar topu bir-birinə diyirlədir.
- Topu atıb tutmaq:
    - Uşaqlar Öyrədənin siqnalı ilə topu qarşısındakı yoldaşına atır. Yoldaşı topu tutmağa çalışır və onu geriyə atır.
- İsveç divarında məşqlər:
    - Uşaqlar isveç divarının ən yuxarı pilləsinə çıxıb hər kəsə əl edib aşağı düşür.
    - Uşaqlar arxası nərdivana dayanıb başının üstündəki taxtadan tutur və əllərindən asılı vəzyyətdə qalır. Bundan sonra o ayaqlarını düz bucaq altında saxlayır.

- Tarazlığı saxlamaq bacarırığı:
    - Öyrədən (və ya uşaqlar) yastıqlardan cığır düzəldir. Uşaqlar qolları yanda bu “cığırdan” keçirlər. Sonra yastıq əlavə edərək körpü düzəldilir. Uşaqlar tarazlığı saxlayaraq körpüdən keçirlər. Sonda bükülmüş ayaqları üzərinə tullanırlar.

**Məqsəd:** il ərzində öyrənilmiş bütün növ hərəkətləri yerinə yetirə bilir.

## Hərəkətli oyun: "Flashcards Race" oyununu oynayın.

**Məqsəd:** Heyvanların qidalandığı qida növünü təyin etməyi öyrətmək.

Öyrədən 2 dəst heyvan və yayda bitən meyvə kartları hazırlayır. Öyrədən sinifi iki komandaya ayırır – hər komandanı sinfin hər müxtəlif tərəfində sıraya düzür. Öyrədən hazırladığı iki dəst kart götürün və hər dəsti qarışdırın. Öyrədən bir dəsti yerə, üzü aşağı, sinfin sağ tərəfinə səpir və sinfin sol tərəfindəki digər dəstlə də eyni şeyi edir.

Oyun başlanır.

Hər komandadan ilk "oyunçu" düzgün kartları tapmaq və təlimatlarınıza uyğun olaraq lövhəyə yapışdırmaq üçün yarışmalı olacaq. Məsələn, "dovşan kələm yeyir" deyə qışqırır. Hər komandanın oyunçuları yerdəki öz kartlarına qaçacaq və "dovşan" və "kələm" kartlarını tapana qədər onları çevirir, sonra lövhəyə qaçaraq bu kartları lövhəyə yapışdırır. Kartları ilk

Sonra digər uşaqlar öz komandalarını təmsil edərək oyuna davam edir. Hər dəfə lövhədə düzgün cümlənin yanına düzgün kartlar qoyan ilk tələbə öz komandasına bir xal qazandırır. Beləliklə hər iki komandada uşaq sayı bitdikdən sonra oyun sona yetir.

***Uğur göstəricisi:*** Heyvanların qidalandığı qida növünü təyin etməyi öyrətmək.

## Sərbəst fəliyyət: Sərbəst rəsm.

## Yekun toplantı

**Öyrədən:** Afərin uşaqlar! Gəlin necə güclü olduğumuzu göstərək (uşaqlar qollarını dirsəkdən bükürlər və barmaqlarını yumaraq yumruq göstərirlər). Güclülər!

İndi isə necə böyüdüyümüzü göstərək! (uşaqlar barmaqlarının ucunda dayanırlar və əllərini yuxarı qaldırırlar) Bu gün hansı həndəsi fiqurla tanış oldunuz?

# 3-cü gün

## Səhər toplantısı

### *Salamlaşma*

**Öyrədən:** Uşaqlar, gəlin “Biri-birimizə” oyununu oynayaq. Hamınız çox cəld hərkət etməlisiniz. Dairə üzrə düzülün, özünüzə bir tərəf müqabili seçin və onun əlini tutun. İndi isə mən sizə deyəcəm hansı bədən üzvləri ilə  bir-birinizlə çox cəld salamlaşmalısınız: Sağ əl ilə sağ ələ! Bel-belə! Alın alına! Yan-yana! Diz-dizə!Çeçələ barmaq-çeçələ barmağa! Qulaq-qulağa! Daban-dabana! Dirsək dirsəyə! Yumruq-yumruğa! Bir-birinizin əlini sıxın!Necə də böyümüsünüz! Afərin!

### *Təqvimlə iş*

Ay,ayın tarixi, həftənin günü, fəsil, hava şəraiti.

Təqvimə dair bütün biliklərin təkrar edilməsi.

### *Mövzuya giriş*

**Öyrədən:** Uşaqlar, biz artıq bir-birimizi yaxşı tanıyırıq. Bu səbəbdən mən indi  sizə elə sizin özünüz haqqında tapmacalar deyəcəyəm, siz də tapmağa çalışacaqsınız.

- Onun uzun hörükləri və gözəl gülüşü var.
- O, sürətli qaça bilir.

Uşaqlar oyunu davam etdirir və bir-biri haqqında tapmaca deyirlər.

## Nitq inkişafı: “Bu ili necə keçirdik?”

**Məqsəd:** yaddaşın, qısa hekayə qurmaq və suallara cavab vermək bacarığının inkişaf etdirilməsi.

**Öyrədən:** Əziz uşaqlar! Budur qrupumuzun dərsləri sona çatır! Biz birlikdə çox gözəl günlər keçirdik. Gəlin bu ili necə keçirdiyimizi xatırlayaq. Bunun üçün dostumuz Cırtdanın (oyuncaq) sizə bir neçə sualı olacaq.

Öyrədən Cırtdanı səsləndirərək uşaqlardan soruşur:

1. Sən qrupda kiminlə dostlaşdın?
2. Nələr öyrəndin?
3. Ən çox xoşuna nə gəldi?

Bütün uşaqlar sual-cavabda iştirak edir. Bu suallar ətrafında bir neçə uşaq qısa hekayə danışır.

Qrupda uşaqların fəaliyyəti  əks olunan şəkillərdən sərgi hazırlanır.

***Uğur göstəricisi:*** yaddaşın, qısa hekayə qurmaq və suallara cavab vermək bacarığına malikdir

## Hərəkətli oyun: “Böcəklər və quş”

**Məqsəd:** siqnala əsasən tapşırıqları yerinə yetirməyi və sürünməyi məşq etmək.

“Quş” uşaq yuvada (stulda) oturur. Bütün başqa uşaqlar böcəklərdir.

**Öyrədən:** “Baxın otun üzərində necə çevik böcəklər sürünür. (uşaqlar otaqda sürünürlər)

Beliniz üstə uzanın və ayaqlarınızla hərəkət edin. Qanadlarınızı yelləyin. (ayağa qalxıb əllərini yelləyirlər)

Tullanın. (yerlərində tullanırlar)

Quş!(böcək-uşaqlar yerlərinə qaçırlar ki, quş onları tutmasın) ”

“Quş” kimi tutsa öz “yuvasına” aparır. Oyun təkrarlanır. “Quş” roluna başqa uşaq seçilir.

***Uğur göstəricisi:*** siqnala əsasən tapşırıqları yerinə yetirməyi və sürünməyi bacarır.

## Rəsm: “Avtoportret”

**Məqsəd:** uşaqlarda özlərinin oxşar xüsusiyyətllərini təsvir etmək bacarığını inkişaf etdirmək.

Vəsaitlər: quaş, palitra (qırmızı və ağ boyaları qatıb, üz və boyun üçün çəhrayı boya hazırlayın), fırça, su ilə dolu qab, salfet, kağız, hər uşağa bir ədəd güzgü.

**Öyrədən:** Bu gün biz avtoportret çəkəcəyik. Portret-bir şəxsin rəsmidir, avtoportret isə insanın özü-özünü çəkməsidir.

Əlinizə güzgü alın. Diqqətlə baxın.

(Öyrədən uşaqlara güzgünü götürüb öz üzlərinə, gözlərinə, qaşlarına, burunlarına, saçlarına baxmalarını təklif edir.)

Siz indi özünüzü güzgüdə görürsünüz, siz öz üzünüzü şəkildə başqa heç kimin üzü ilə səhv sala bilmərsiniz, siz özünüzü dərhal gözlərinizin rəngindən, saçlarınızdan tanıyacaqsınız.Bunların hamısı yalnız sizə məxsusdur.

Öyrədən uşaqlara güzgüyə baxaraq öz rəsmlərini çəkməyi təklif edir.

İşin gedişatı zamanı Öyrədən uşaqlara kiçik detalları (qaşları, kiprikləri, və s.) unutmamağı xatırladır.

Dərsin sonunda əl işlərindən ibarət sərgi keçirilir.

***Uğur göstəricisi:*** uşaqlarda özlərinin oxşar xüsusiyyətllərini təsvir etmək bacarığına malikdir.

## Sərbəst fəaliyyət: Stolüstü oyunlar.

## Yekun toplantı

**Öyrədən:** Uşaqlar, bu gün siz çox çalışdınız! Afərin sizə!

Məşğələmizin ən çox bəyəndiyiniz hissəsi hansı oldu?

# 4-cü gün

## Səhər toplantısı

***Salamlaşma***

**Öyrədən:** Sabahınız xeyir, uşaqlar! Gününüzün xoş keçməsi üçün mən sizə təbəssüm bəxş edirəm. Siz də yoldaşlarınıza təbəssüm hədiyyə edin.

***Təqvimlə iş***

Ayın tarixi, ay, həftənin günü, fəsil, hava şəraiti.

***Mövzuya giriş***

**Öyrədən:** Uşaqlar, bu gün bizim son dərs günümüzdür. Qarşıdan yay gəlir. Yayı necə keçirəcəksiniz?

## Barmaq oyunu: "Böyüdük"

## Məntiq: İş dəftərində tapşırıqlar

**Məqsəd:** həftənin mövzularını möhkəmləndirmək, məntiqi düşüncəni və kiçik motorikanı inkişaf etdirmək.

## Fiziki hərəkətlər: "Bax belə güclü olduq!"

**Məqsəd:** il ərzində öyrənilmiş bütün növ hərəkətlərin möhkəmləndirilməsi.

**Öyrədən:** Uşaqlar, bir il ərzində biz çox şey öyrəndik, güclü olduq! Gəlin bacardıqlarımızı göstərək!

Dairə üzrə yerimək və qaçmaq:

- Tərbiyəçi qavala vurur- uşaqlar dairə üzrə gəzirlər
- Tərbiyəçi qavala asta vurur-uşaqlar barmaqlarının ucunda qaçırlar
- Tərbiyəçi möhkəm vurur-uşaqlar cəld qaçırlar
- Tərbiyəçi qavala daha möhkəm vuranda uşaqlar dayanır, çevrilir, və əks istiqamətdə qaçırlar.
- Sürünmək:
    - Tərbiyəçinin siqnalı ilə uşaqlar dairə üzrə sürünürlər.
- Top diyirlətmək:
    - Uşaqlar iki komandaya bölünür, aralarındakı məsafə 2 metr olmaq şərti ilə qarşı-qarşıya otururlar. Ayaqları aralı qoyulur. Hər komandaya bir top verilir və Öyrədənin siqnalı ilə uşaqlar topu bir-birinə diyirlədir.
- Topu atıb tutmaq:
    - Uşaqlar Öyrədənin siqnalı ilə topu qarşısındakı yoldaşına atır. Yoldaşı topu tutmağa çalışır və onu geriyə atır.
- İsveç divarında məşqlər:
    - Uşaqlar isveç divarının ən yuxarı pilləsinə çıxıb hər kəsə əl edib aşağı düşür.
    - Uşaqlar arxası nərdivana dayanıb başının üstündəki taxtadan tutur və əllərindən asılı vəzyyətdə qalır. Bundan sonra o ayaqlarını düz bucaq altında saxlayır.
- Tarazlığı saxlamaq bacarırığı:
    - Öyrədən (və ya uşaqlar) yastıqlardan cığır düzəldir. Uşaqlar qolları yanda bu "cığırdan" keçirlər. Sonra yastıq əlavə edərək körpü düzəldilir. Uşaqlar tarazlığı saxlayaraq körpüdən keçirlər. Sonda bükülmüş ayaqları üzərinə tullanırlar.

***Uğur göstəricisi:*** il ərzində öyrənilmiş bütün növ hərəkətləri yerinə yetirir.

## Hərəkətli oyun: "Flashcards Race" oyununu oynayın.

**Məqsəd:** Heyvanların qidalandığı qida növünü təyin etməyi öyrətmək.

Öyrədən 2 dəst heyvan və yayda bitən meyvə kartları hazırlayır. Öyrədən sinifi iki komandaya ayırır – hər komandanı sinfin hər müxtəlif tərəfində sıraya düzür. Öyrədən hazırladığı iki dəst kart götürün və hər dəsti qarışdırın. Öyrədən bir dəsti yerə, üzü aşağı, sinfin sağ tərəfinə səpir və sinfin sol tərəfindəki digər dəstlə də eyni şeyi edir.

Oyun başlanır.

Hər komandadan ilk "oyunçu" düzgün kartları tapmaq və təlimatlarınıza uyğun olaraq lövhəyə yapışdırmaq üçün yarışmalı olacaq. Məsələn, "dovşan kələm yeyir" deyə qışqırır. Hər komandanın oyunçuları yerdəki öz kartlarına qaçacaq və "dovşan" və "kələm" kartlarını tapana qədər onları çevirir, sonra lövhəyə qaçaraq bu kartları lövhəyə yapışdırır.

Sonra digər uşaqlar öz komandalarını təmsil edərək oyuna davam edir. Hər dəfə lövhədə düzgün cümlənin yanına düzgün kartlar qoyan ilk tələbə öz komandasına bir xal qazandırır. Beləliklə hər iki komandada uşaq sayı bitdikdən sonra oyun sona yetir.

***Uğur göstəricisi:*** Heyvanların qidalandığı qida növünü təyin etməyi öyrətmək.

## Sərbəst fəaliyyət: Evdən gətirilmiş şirniyatlarla çay içərək vidalaşmaq.

## Yekun toplantı

**Öyrədən:** Qarşıdan yay gəlir! İstirahət edin, əzizlərim! Güc toplayın! Növbəti il buraya yenidən gəlin! Gələn il böyük uşaqlar artıq hazırlıq qruplarına gedərək məktəbə hazırlaşacaqlar. Gəlin onlarla sağollaşaq! Bizimlə olduğunuz üçün sizə minnətdarıq!

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

İcma əsaslı
məktəbəqədər təhsil

ARTİ
Azərbaycan Respublikasının
Təhsil İnstitutu

Bu vəsait Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra olunan “İcma əsaslı məktəbəqədər təhsil” layihəsi çərçivəsində hazırlanmışdır.

Satış üçün **deyil**.

İcma əsaslı məktəbəqədər təhsil

www.icmalayihesi.edu.az

2023-2024